AZƏRBAYCAN RESPUBLİKASI
DİNİ QURUMLARLA
İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU

“AKADEMİK VASİM MƏMMƏDƏLİYEVİN İLAHİYYAT VƏ ŞƏRQŞÜNASLIQ ELMLƏRİNƏ VERDİYİ TÖHFƏLƏR” MÖVZUSUNDA

RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI

Bakı – 2021

Baş redaktor:
i.f.d. Aqil Şirinov

Redaktor:
Rəna Həsrətova

Tərtibçilər:
Şahin Ələsgərov
Emil İsbatov

Texniki redaktor:
Hilal Ağamoğlanov

“Akademik Vasim Məmmədəliyevin ilahiyyat və şərqşünaslıq elmlərinə verdiyi töhfələr” mövzusunda
RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI

Bakı, “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2021, 424 səh.

Konfrans materiallarında yer alan faktlar və fikirlərə görə yalnız məqalə müəllifləri məsuliyyət daşıyırlar.

ISBN: 978-9952-545-02-9

MÜNDƏRİCAT

Ön söz 6

fil.e.d., prof. İmamverdi Həmidov
Quran və şeir 8

prof. Nəsrulla Məmmədov
Qurani-Kərimdə özünəməxsus qəlib və konstruksiyalar 18

fil.e.d. Nəsib Göyüşov
İslam düşüncə paradiqması: əsas yönlər 42

f.e.d., dos. Zəkiyyə Əbilova
Xətib Təbrizinin "Şərhu-ixtiyaratil-mufaddal" əsərində muxadram şairlər 76

f.f.d. Fuad Nurullayev
Akademik Vasim Məmmədəliyevin irsi 89

i.f.d., dos. Məmmədəli Babaşlı
Ərəb dilində termin yaradıcılığının inkişaf mərhələləri və səciyyəvi xüsusiyyətləri 102

fil.f.d., dos. Əsmətxanım Məmmədova
Ərəb əlifbası fars dilində – üstünlükləri və çətinlikləri 129

fil.f.d. Tərlan Məlikov
Ərəb dilində sözdüzəldici şəkilçilərdən ibarət neologizmlər 145

f.f.d., dos. Rübabə Şirinova
Əlyazma mətninin bir və ya bir neçə nüsxə əsasında tədqiqi 161

i.f.d., dos. Şahlar Şərifov
Azərbaycanın Xəzərətrafı əraziləri Əbdürrəşid əl-Bakuvinin "Kitab təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar" əsərində 174

f.f.d. Şölət Zeynalov, i.f.d., dos. Əlisa Zeynallı
Xeyir və şər əməllər insan varlığının təkamül amillərindəndir (dini-fəlsəfi təhlil) 187

fil.f.d., dos. Könül Məmmədova
Ərəb ədəbiyyatının nəzəri əsaslarının formalaşmasında "əş-Şeir və əş-şüəra" əsərinin rolu 205

i.f.d., dos. Səbinə Mirzəyeva
Ərəb dilçiliyinin aktual məsələlərində Bağdad qrammatika məktəbinin rolu 217

t.f.d. Araş İftixari, Fəridə Tağıyeva
Azərbaycan və ərəb dillərinin qrammatikasında ismin hallanma mövzusunun tətbiqi və tərcümə problemləri 232

t.f.d. Əli Fərhadov
Corci Zeydanın həyatı, əsərləri və tərcümələri haqqında 247

f.f.d. Faiq Əhmədzadə
Qurani-Kərimin söz, yaxud məna baxımından üstünlüyü məsələsi (Qazi Əbdülcəbbar və Əbdülqahir Cürcani kontekstində) 261

f.f.d. Qafqaz Abdurahmanov
Tarixdən günümüzədək ərəb qrammatika sisteminin islahatı məsələsi haqqında icmal 284

Elman Salahov
Ənənəvi ərəb qrammatikasının formalaşması 306

Elnurə Babayeva
Əbdürrəhman Caminin "Risaleyi-əruz" əsəri əruz elminə dəyərli mənbə kimi 321

Elnur Mustafayev
Vasim Məmmədəliyevin elmi-dini tədqiqatlarında mehdilik məsələsi 336

Sevda Muradova
Ürəklərdə daim yaşayan alim.....351

Kübra Vəliyeva
Həzm sistemi tibbi terminlərinin Azərbaycan və ərəb dillərində leksik-semantik xüsusiyyətlərinin tədqiqi.....363

Naimə Həmidova
Akademik Vasim Məmmədəliyevin müəllimlik məziyyətləri..... 382

Şahanə Şahbazova
Misir şairi Əhməd Şövqinin şeir yaradıcılığı 392

Gülağa İsmayılov
"Məsabih-əs-sünnə" əsərinin əlyazması nüsxələrinin müasir Azərbaycan ərəbşünaslığında yeri.....404

Ön söz

Alimin böyüklüyü, gücü ondadır ki, o, elmini təbliğ edir, ondan sonra gələn nəsil isə zəhmətindən bəhrələnir. Azərbaycan xalqının ürəyində məhəbbət qazanmış ziyalımız akademik Vasim Məmmədəliyevin ölkəmizdə şərqşünaslıq və ilahiyyat elmlərinin inkişafında, bu sahələrdə elmi kadrların hazırlanmasında müstəsna xidmətləri olmuşdur.

Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin 26 il müddətində qurucu dekanı olmuş Vasim müəllimin üzərimizdə böyük haqqı var. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan İlahiyyat İnstitutunun pedaqoji heyətinin böyük bir hissəsi məhz onun tələbələrindən təşkil olunub. Akademikin "Bəsrə qrammatika məktəbi", "Kufə qrammatika məktəbi", "Ərəb dilçiliyi", "Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" kitabları Azərbaycan Şərqşünaslığında fundamental əsərlərdən hesab edilir. Akademik Ziya Bünyadovla birgə Qurani-Kərimin dilimizə tərcüməsini həyata keçirməsi Azərbaycanın və bütövlükdə İslam dünyasının elmi-mədəni həyatında mühüm hadisə olmaqla, ölkəmizdə İslama, bu dinin tarixinə, fəlsəfəsinə və mədəniyyətinə dair araşdırmalara güclü təkan vermişdir. Sözügedən tərcümə Müqəddəs Kitabın dilimizə ən yaxşı tərcüməsi hesab olunur. Böyük zəhmət bahasına ərsəyə gəlmiş bu tərcümə işi ilə tanış olan hər kəs ayələri dilimizdə oxuyan zaman mötərizələrdə qeyd olunan şərhləri götürdüyü halda belə, cümlələrin strukturunun dil baxımından dəyişmədiyini görür ki, bu da böyük alimin həm ərəb dilini gözəl bildiyinin, həm də Azərbaycan dilinə yaxşı bələd olduğunun əyani göstəricisidir. Bu yerdə Xalq şairi Bəxtiyar Vahabzadənin təbirincə desək, kamil bir şəxsiyyət olan, Qurani-Kərimi Ana dilimizə çevirən Vasim Məmmədəliyev haqqında ikinci bir rəy ola bilməz, başqa cür düşünmək olmaz.

Vasim Məmmədəliyev 1981-1991-ci illərdə Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin dekanı, 1991-1992-ci illərdə BDU-nun humanitar fakültələr üzrə prorektoru, həmçinin 1991-ci ildən Ərəb filologiyası kafedrasının müdiri, eyni zamanda, 1993-cü ildən İlahiyyat fakültəsinin dekanı vəzifələrində çalışıb. Azərbaycanın və Dağıstan Muxtar Respublikasının Əməkdar elm xadimi, Qafqaz Müsəlmanları İdarəsi nəzdində Elmi-Dini Şuranın sədri, AMEA-nın həqiqi üzvü, İraq Elmlər Akademiyasının, Suriya Quran Elmləri və Ərəb Filologiyası Akademiyasının və Misir Ərəb Dili Akademiyasının müxbir üzvü,

Azərbaycan – İraq Dostluq Cəmiyyətinin sədri, İslam Əməkdaşlığı Təşkilatı Müsəlman Hüququ Akademiyasının akademiki və Azərbaycanın sözügedən qurumda təmsilçisi, Türkiyə Elmi Araşdırmalar Vəqfinin və İran Beynəlxalq Əhli-Beyt Assosiasiyasının, habelə 27 dekabr 2018-ci ildən Azərbaycan İlahiyyat İnstitutu Himayəçilər Şurasının üzvü olmuşdur.

Çoxsaylı kitabların, yüzlərlə elmi məqalənin müəllifi, onlarca dissertasiya işinin rəhbəri olan alimin əsərləri 15-dən artıq xarici ölkədə nəşr edilmişdir. Elm və təhsil sahəsində səmərəli fəaliyyətinə görə "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görülmüşdür.

Azərbaycan Televiziyasında yayımlanan, onun aparıcısı olduğu "Haqqın dərgahı" proqramı ilə xalqımız uzun illər boyunca din haqqında məlumatlandırılmışdır.

Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı ilə Vasim müəllimin xatirəsinə həsr olunmuş "Akademik Vasim Məmmədəliyevin ilahiyyat və şərqşünaslıq elmlərinə verdiyi töhfələr" mövzusunda respublika elmi konfransının mərhum akademikin irsinin ilahiyyatçı və şərqşünaslar tərəfindən bundan sonra da layiqincə davam etdirilməsinə, həmçinin görkəmli alimin həyat və yaradıcılığına həsr olunacaq yerli və beynəlxalq konfransların təşkilinə mühüm töhfə verəcəyinə inanırıq.

i.f.d. Aqil Şirinov
Azərbaycan İlahiyyat İnstitutunun rektoru

QURAN VƏ ŞEİR

fil.e.d., prof. İmamverdi Həmidov,
AMEA Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutunun Ortaq başlanğıc və İntibah
dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri
imamverdi.hamidov@mail.ru

XÜLASƏ

Ərəbistan mühitində ilahi ayələrin Məhəmməd peyğəmbər (s) vasitəsilə insanlara çatdırılması elə bir şəraitdə baş vermişdir ki, ayrı-ayrı qəbilə üzvləri arasında şeir sənətinin sahibləri olan şairlər böyük nüfuza, sənətdə qeyri-adi ilham və yaradıcılıq gücünə malik idilər. Peyğəmbərin dəvətini qəbul etməyən müşriklər və Qüreyş varlıları bu çağırışın yüksək mahiyyətini aşağı salmaq üçün Məhəmmədin çatdırdığı ayələri şerə, özünü isə şairə bənzədirdilər. Həmin münasibəti təkzib məqsədilə söylənmiş Quranın 5 surəsində şeir və şair haqqında izahlı fikirlər bildirilir.

Ayələrdə hər şeydən əvvəl, şeirlə Quran arasında fərq nəzərə çarpdırılır və şairlərin bu sənət qarşısında məsuliyyətinə toxunulur.

Müşriklərin ittihamında şerin Quran ayələrinə bənzədilməsi bu sənətin geniş yayıldığını, nüfuzu və təsir gücünü göstərdiyi kimi, ayədəki aydınlaşdırmada onun məzmun və qayəsinin daha düzgün istiqamətə yönəldilməsi zəruriliyi ifadə edilir. Quran ayələrində şerə verilən aydınlaşdırmalarda onun mahiyyətinə işarə edilməklə, ilahi qüdrətin vəsfi və İslama dəvət yolunda dəyəri açıqlanır.

Şeir sənəti haqqında Məhəmmədin (s) hədislərində daha geniş aydınlaşdırmalar, şairlər haqqında dəyərləndirmələr İslam dövrlərində şerin daha da geniş yayılmasına səbəb olmuşdur. İnsanların əxlaqi tərbiyəsində, didaktikanın inkişafında və poeziyanın fəlsəfi məzmununun dərinləşməsində həmin amillərin rolu böyükdür.

Açar sözlər: *Quran, şeir, dəvət, ilahi qüdrət, İslam, xatırlama.*

Giriş

Hər bir xalqın bədii yaradıcılığında nəzm sənətinin ünsürləri təşəkkül taparaq, geniş mənada "poeziya" adlandırılan bədii irs formalaşmışdır. İlkin olaraq, Ərəbistan yarımadasının Hicaz bölgəsində, cənubunda və yarımadanın şimalında bədəvi ərəb qəbilələri arasında bu sənəti təmsil edənlər xüsusi imtiyaza malik olmuşlar. İnsanı, onu əhatə edən təbiəti duymaqda fərqlənən bu şəxslərə şair adı verilmişdir (saara – şair sözdüzəldilmə forması əsasında). İslamaqədərki dövrdə də ərəb dilində yaradılmış şeir yalnız ərəb aləmi üçün deyil, müsəlman regionu və dünya klassik irs fondunda yeri olan yaradıcılıq nümunəsidir.

Bəşərin son dini nəsibi olan İslam dininin meydana gəlməsi və yayılması nəticəsində, bu dinin dildaşıyıcısı ərəb dilində geniş bir ərazidə başqa xalqların da iştirak etdiyi İslam sivilizasiyası yarandı.

Yeni dinə dəvət, ilahi qüdrət, məxluq və onların əməllərinə münasibət, bu dinin əsasları Qurani-Kərimdə ifadə edilmişdir.

İslamaqədərki dövrdə yaradılmış poeziya adi yaradıcılıq nümunəsi olmaqla yanaşı, ərəb qəbilə mühiti və bütövlükdə, Cahiliyyə dövrü ərəb cəmiyyətində müxtəlif münasibətlər ərəb tarixinin "əyyamularab" ("ərəb günləri") adlanan mərhələsini göstərən və həmin dövr insanların lirik duyğularının təsviri verilən qiymətli abidələrdir. Təsadüfi deyildir ki, "klassik ərəb ədəbiyyatının tənqidçiləri seriyasının öndəri İbn Qüteybə Dinəvəri" (Kraçkovski) göstərir ki, "Ərəb şeiri ərəblərin elmlərinin xəzinəsi, adət-ənənələrinin qoruyucusu, əsilməzhəblərinin göstəricisi, onlar haqqında məlumatların yığıldığı köhnəlməyən divan və keçən zamanlar boyu itib-batmayan bir kitabdır" (7, 14).

İslamdanəvvəlki dövrdə şair hakim mövqeyində idi. Qəbilə şairinin yüksək mövqeyini qəbilə üzvü hörmətlə qəbul edirdi. Ümumiyyətlə, ərəb qəbilə üzvləri üç halda böyük sevinc və təbriklərini bildirirdilər: oğlan uşağı dünyaya gələndə, yüksəkistedadlı şair yetişdikdə və atın balası olduqda (8, 15).

Belə bir şəraitə yeni dinə dəvət başlandıqda şerə, şairə münasibət də öz ifadəsini tapmalı idi. Dinin mübəlliği Məhəmməd peyğəmbərə (s) çatdırılmış ayələrdə şeir və şair haqqında bir neçə surədə göstəriş və xatırlamalar vardır.

Qurani-Kərim şeir haqqında

Peyğəmbər tərəfindən İlahi kəlamların insanlara çatdırılması başlandıqda, onların qeyd-şərtsiz qəbul edilməsi mümkün deyildi. Ayələrdə haqqın, ədalətin təbliğinə dair çağırışlar mühüm yer tuturdu. İstər Məkkə aristokratları və varlıları, istərsə ərəb qəbilə cəmiyyətinin hakimləri üçün bu çağırışlar məqbul deyildi. Onlar kəsb etdikləri mal-dövləti insanların ehtiyaclarına sərf etməli, zülm altında olan qulları ilə bərabər hüquqda olmalı idilər və s. Buna görə də onlar Peyğəmbərin (s.a.s.) çağırışlarına qarşı çıxaraq, dəvətlərdəki fikirləri təkzib etməyə, anti-dəlillər tapmağa çalışırdılar. Belə bir şəraitdə uca səmavi ayələri "ummi" (oxuyub təhsil almamış) şəxsin dilindən eşitdikdə mətnin qafiyəli nəsr üslubunu əsas tutaraq, onları söz sənətinin məharətli nümayəndələrinin şeirlərinə bənzətməklə dəvətin yüksək mahiyyətini aşağı salmağa cəhd edirdilər.

Əlbəttə, cağırışlarda bu kimi hallara cavab olaraq, aydınlaşdırıcı ayələrin təqdimi baş vermişdir. Budur, "Yasin" surəsinin 69-cu ayəsində deyilir: "Biz ona [Məhəmməd peyğəmbərə (s.)] şeir öyrətmədik və bu, ona heç yaraşmaz da. O [şeir] keçmişi xatırlatmadır, Quran isə açıq-aşkar (göstərişdir)".

Burada daha bir cəhətə işarə vardır ki, həmin mövzudan bəhs edənlər buna toxunmamışlar. Hesab edirik ki, şerin "zikrun" – yadasalma, xatirələriduyğulandırma və keçmişixatırlama kimi izah islamdanəvvəlki ərəb şerinə verilən düzgün qiyməti ifadə edir. Bəllidir ki, bu dövr poeziyasının ən gözəl nümunələrindən olan İmrul-Qeysin məşhur müəlləqəsi keçmiş günləri xatırlama ilə başlayır:

Dayanın! Dostu, Dəxil və Havməl arasındakı buruq-buruq qumlarda obanı xatırlayıb ağlayaq... (13, 95).

Ayədə şeirə "zikrun" (xatırlama) tərifinin verilməsi onunla bağlıdır ki, bədii sənətin bir növü kimi burada insan yaşantısının həssas duyğularda yüksək bədii sözlərlə ifadəsi təqdim edilir.

Göstərilən Quran ayəsində Cahiliyyə dövrü ərəb şerinin mövzusunun şeir müəlliflərinin vəzifəsinin daha geniş dairəni əhatə etmələrinin vacibliyi bildirilir. İslama dəvət və sonrakı dövrlərdə ərəb qəsidəsində struktur, kompozisiya, mədh subyektləri baxımından baş vermiş dəyişikliklər bunu təsdiq edir: insan xəyalı və həyatının bütün sahələri şerə gətirilir, İlahi qüdrətin yüksəkliyi göstərilir, insanların əxlaqi tərbiyəsi-

ni yeni cəmiyyətin səviyyəsinə uyğunlaşdırmaq, İslam ədəbinin xeyirlərindən bəhrələnmək kimi ali məqsədlər vəsf edilir və s.

Ayədə şerin "zikrin" sözü ilə səciyyələndirilməsi ərəb şerinin dəyərinin ictimai və fikri baxımdan aşağı salınması kimi başa düşülməməlidir. Quranda şerə münasibəti aydınlaşdırmaqda Məhəmməd peyğəmbərin (s.) bu sənət haqqında deyimləri əhəmiyyətli rol oynayır. Belə ki, ərəb mühitində böyümüş Allahın rəsulu bu sənətin xüsusiyyətlərini və şairlərin mövqeyini yaxşı bilirdi.

İlkin ərəb qaynaqlarının məlumatına görə, Məhəmməd (s.a.s.) məşhur Okaz bazar-yarmarkasında şeir dinləmələrində iştirak etmiş, Əmr bin Kulsumun müəlləqəsi ilə orada tanış olmuşdur (11, 171). Ərəblərin şeir duyğuları haqqında onun fikirləri düzgün və orijinaldır: "Dəvə həsrət çəkməyi tərk etsə belə, ərəb şeri tərk etməz" (8, 30).

Şerin İslam əxlaqının təsiri ilə yeni tələblərə cavab verməsi haqqında Məhəmməd peyğəmbərin (s.) izahatında göstərilir ki, "Şeirdə hikmət vardır, əgər o sizə Qurandan bir şey çatdırarsa, demək, onu qəbul etmək lazımdır. Axı bu, ərəb şeridir" (Lisənul-arab, "şeir" bəndi). Peyğəmbərin (s.a.s.) başqa bir hədisində şerin qiymətli kəlam səviyyəsində olduğu israr edilir: "Şeir də kəlam kimidir, yaxşısı yaxşı kəlama, pisi pis kəlama bənzəyir" (2, 125).

Qurani-Kərimin göstərişlərindən çıxış edən İslam dininin mübəlliği şeir sənətini rədd etmir, bu sənətin daşıyıcılarının düzgün istiqamətdə fəaliyyət göstərmələrini istəyir. Hədislərin birində deyilir: "Şeir qoşulmuş kəlamdır (və ya sözlərdir), onlardan həqiqətə uyğun olanı yaxşıdır, həqiqətə uyğun olmayanın xeyri yoxdur" (8, 27). Burada, eyni zamanda, şeirdə reallığın inikası məsələsi də qoyulmuşdur.

İslam Peyğəmbəri "əmiruş-şüəra" – şairlərin başçısı sayılan İmrul-Qeysin poeziyasına tənqidçi qiymətini vermişdir: "O (İmrul-Qeys), dünyada xatırlanan, axirətdə unudulan, dünyada şərafətli, axirətdə isə məyusdur. Qiyamət günü şairlərin bayrağını əlində o tutub gələcək" (6. 93).

Məhəmməd peyğəmbər (s.a.s.) Quranda şerə verilən tərifdən çıxış edərək, ərəblərin mədəni-ictimai fikir tarixində onun yerini müəyyənləşdirdiyi kimi, İslam dövründə şerin mövzu və ideya baxımından dəyişilməsi labüdlüyünü də göstərmişdir.

Şeirə və şairə münasibət

Qurani-Kərimdə altı surədə şeirə və şairə münasibət bildirilib. Haqqında bəhs etdiyimiz "Yasin" surəsinin 69-cu ayəsində şeir sənəti-

nə ümumi şəkildə qiymət verilirsə, digər beş ayədə şairlərin mövqe və əməlləri əsas götürülməklə göstərişlər irəli sürülür, yaxud müşriklərin ifadələrini təkzib etməklə bağlı aydınlaşdırma və əmrlər əksini tapır.

"Əl-ənbiya" surəsində olduğu kimi: "Onlar (müşrükər belə dedilər: "Xeyr, [bu Quran] qarmaqarışıq yuxularıdır; ... O (peyğəmbər) da bir şairdir" (ayə 5). Ayədə şairə inkaredici münasibət bildirilsə də, şeirin yaradıcılıqda çəkiyə malik olduğu səbəbindən müşriklər tərəfindən Quran ayələrinə bərabər tutulur və Peyğəmbər şair səviyyəsində anlaşılır.

Peyğəmbərin şairə bənzədilməsi həm də onunla bağlıdır ki, Cahiliyyə dövrü ədəbi mətnlərində göstərildiyi kimi, "şair" sözü ənənəvi olaraq sehrli adam kimi təqdim edilmişdir. Təsadüfi deyil ki, belə bir ifadə də yayılmışdı: "Hər şairin bir şeytanı var. O, şairi ilhama gətirir və sənətini yaradır" (10, 123).

Ərəb mühitində ilhama gəlib şeir qoşmaqda coşqu yaradan, insanların diqqətini cəlb edən, hər kəsin bacara bilmədiyi vəziyyətlərdə fərqlənən şairlər "məcnun" (cinli, dəli, divanə) adlandırılmışlar. Leyli sevgisinə düşmüş "Məcnun" ləqəbli Qeys ibn Müləvvəh əl-Amiri və başqaları kimi. Müşriklər Məhəmməd peyğəmbəri (s.a.s.) "məcnun bir şair" adlandırmaqla, dəvətin mahiyyətini aşağı salmaq istəyir və qurama bütlərə sitayiş etməkdən əl çəkmirdilər. "Əs-Saffat" surəsinin 36-cı ayəsi bu münasibətlə nazil olmuşdur: "Onlar (müşriklər) deyirlər: "Biz heç divanə bir şairdən ötrü tanrılarımızı tərk edərikmi?" (Quran-Kərim, "əs-Saffat", ayə 36).

Daha bir surədə Məhəmməd peyğəmbərin (s) dəvətini qəbul etməyən müşriklərin sözləri verilməklə onların şerə və şairə münasibəti aydınlaşır. Eyni zamanda bəlli olur ki, ərəb cəmiyyətində söz və nəzm sənətinin seçilmiş nümayəndələri şairlər olmuşlar və məhz buna görə onlar İlahi kəlamları çatdıran Allah elçisi ilə müqayisə edilmişlər.

"Ət-Tur" surəsində deyilir: "Onlar (müşriklər) sənin (peyğəmbər) barəndə deyirlər: "O şairdir. Biz onun başına gələcək müsibəti gözləyirik" (ayə 30).

İlahi kəlamın ifadəsi olan "əl-Haqqə" surəsinin 41-ci ayəsində isə ayələr və şair sözləri müqayisə edilir. Şübhəsiz, məqsəd ayələrin aliliyini göstərməkdir: "O, (Quran ayələri) şair sözü deyildir. Nə az inanırsınız?" (Quran, "əl-Haqqə", 41). Daha sonra surədə Quranın İlahi kəlamlar olduğu, Məhəmməd peyğəmbərin (s) özü tərəfindən deyilmədiyi (ayə 44), "gerçək bir həqiqət olduğu" (ayə 5), "aləmlərin Rəbbi

tərəfindən nazil edildiyi" (ayə 43), "müttəqilərə bir öyüd-nəsihət olduğu" (ayə 48) vurğulanır.

Quranın göstərilən fərqləndirici əlamətləri (Rəbb tərəfindən nazil edilmə, gerçək bir həqiqət və öyüd-nəsihət olması) aydın şəkildə bildirilir. Bu əlamətlərdən müttəqilərə öyüd-nəsihət vermə İslam dövrü və islamdansonrakı dövrlərdə şeirdə özünün layiqli yerini tapmışdır. Ümumən, şerə dəyər verilməsi baxımından, "əl-Haqqə" surəsinin 41 ayəsi "Yasin" surəsinin 69-cu ayəsi kimi, bu sənətin həmin dövrdə yayılmış rolunu göstərir.

Quranda şeir sənətinin sahibləri olan şairlər haqqında ayrıca "əş-Şüəra" (Şairlər) surəsi vardır. Bu surə məzmunu, müşriklərə təsiredici gücünü və İlahi qüdrətin böyüklüyünü göstərmək baxımından əhəmiyyətlidir. Burada İlahi dəvəti insanlara çatdıran peyğəmbərlərin qissələri xatırlanmaqla, "Rəbbin yenilməz qüvvət və mərhəmət sahibi" olduğu dəfələrlə vurğulanır. Peyğəmbərlərin, o sıradan Məhəmməd peyğəmbərin "öyüd-nəsihət vermək üçün" (ayə 209) göndərildiyi göstərilir. Musa, İbrahim, Nuh, Ad, Saleh, Lut, Şüeyb haqqında qissələr xatırlandıqdan sonra, "açıq-aydın ərəb dilində" (ayə 195) nazil edilmiş "Quranın əsla şeytanlar tərəfindən endirilmədiyi" (ayə 210) bildirilir. Bizcə, bu xatırlatma onunla bağlıdır ki, Quran ayələri ilə şair sözlərinə fərq qoyulsun, çünki yuxarıda göstərildiyi kimi, müşriklər bu fikri irəli sürürdülər. 221-223-cü ayələrdə isə şeytanların günahkarlar və yalançılarla əlaqəli olduğu bildirilir. Burada sehrbazlar, falçılar və kahinlər nəzərdə tutulur, çünki şeytanlar mələklərdən (oğrun-oğrun) eşitdikləri (adda-budda) sözləri onları təlqin edərlər (ayə 223).

Başqa bir dəstə şair də burada xatırlanır. Çox ehtimal ki, şairlərin də şeytanlarla əlaqəsi olması haqqında Cahiliyyə dövrü deyimləri ("şəyatinuş-şüəra" məsələsi) bunu zəruri etmişdir:

"Şairlərə gəlincə, onlara yalnız yolunu azanlar uyar. Məgər görmürsənmi ki, onlar hər bir vadidə sərgərdan gəzib-dolaşırlar? Onlar etmədikləri şeyləri deyirlər" (ayələr 224-226). Növbəti ayənin hədəfindən aydın olur ki, burada söhbət peyğəmbəri həcv edən müşrik və kafir şairlərdən gedir. 227-ci ayədə hədəf olan şairlər isə peyğəmbərin dəvətini qəbul edən şairlərdir: "Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən və zülmə uğradıqdan sonra intiqamını alanlardan (onları həcv edən müşrik, kafir şairlərə mənzumələri ilə qələbə çalan mömin şairlərdən) başqa" (ayə 227).

Quran təfsirçilərinin fikrincə, yolunu azanların uyduqları, hər bir vadidə sərgərdan gəzib-dolaşan – Abdulla bin Zəbari, Hubeyrə əl-Məx-

zumi, Əbu Sufyan ibn Əl-Haris, Musafi bin Əbdimənaf Qüreyş şairləridir. Onların "hər bir vadidə sərgərdan gəzmələri" hər tərəfə meyil edərək, müxtəlif mövzularda istədiklərini yazıb birini yalandan mədh, digərini isə nahaq yerə həcv etmələri mənasında anlaşılmalıdır.

Beləliklə, Quranda yaxşı şairlər Peyğəmbər dəvətini və İslam əxlaqını qəbul edənlər olduğu göstərildiyi kimi, şəxsləri layiq olmadıqları keyfiyyətlərlə sözdə bəzəyən və ya həcv edən şairlərin yalanları da məqbul sayılmamışdır.

Nəticə

Quranda şeirlə bağlı ayələr islamaqədərki ərəb mühitində şeir sənətinin geniş yayıldığı və bu sənətin sahiblərinin müəyyən mövqeyə malik olduğunu göstərir. İstər müşriklərin Quran ayələrini şerə, peyğəmbəri şairə bənzətmələri, istərsə, İlahi kəlamın "bəyan", şerin isə "zikr" (yadasalma, xatirələri duyğulandırma və keçmişi xatırlama) adlandırılması və onların müqayisə edilməsi nəzmin insanlar arasında çox yayılmasından xəbər verir.

Quran ayələrində insanların dini-əxlaqi, mənəvi tərbiyəsi naminə şeir sənətinin sahiblərinə yönəlmiş çağırış vardır. Bu fikirlər Məhəmməd (s.) peyğəmbərin hədislərində də inikas olmuşdur.

İslam dövrlərində poeziyanın məzmun və sənətkarlıq baxımından zənginləşməsində Quranda verilən göstəriş və yönəltmələrin böyük təsiri olmuşdur.

ƏDƏBİYYAT

1. Əl-Ani, Sami Məkki. (1983). Əl-islam vaş-şir, Kuveyt.
2. Əl-Buxari, əl-imam. (1970). Əl-Ədəbul- mufrəd, Daşkənd.
3. Dəlal, Abbas. (2009). Əl-Quran vaş-şir, Beyrut.
4. Fərrux, Ömər. (1969). Tərixul-ədəbil-arabiyyi, Beyrut.
5. Фильштинский И. М. (1985). История арабской литературы, Москва.
6. Məmmədov Nəsrulla. (2008). Qurani-Kərimin üslub xüsusiyyətləri, Bakı.
7. İbn Abdir-rabbihi. (1956). Əl-iqdul-fərid, c. 3, Qahirə.
8. İbn Quteybə, əd-Dinəvari. (tarixsiz). Təvilu muşkilil - Quran, Qahirə.

9. İbn Raşiq Qayravani. (1955). Əl-umdə fi sinaatey əş-şirı va naqdihi, c.1, Qahirə.
10. İslam sivilizasiyası və elm: tarix və müasrlik mövzusunda konfransın materialları. (2019). Azərbaycan İlahiyyat İnstitutu, Bakı.
11. İsmayıl, İnad Azvan. (tarixsiz). Mavqiful - Quranil-kərimi fiş-şiril-arabiyyi, Bağdad.
12. Əl-İsfəhani, Əbul-Fərəc. (tarixsiz). Kitabul-əğani, c. 9, Qahirə
13. Qasımova Aida. (2020). Ərəb ədəbiyyatı. V-XIII əsrlər, Bakı.
14. Əl-Qurəşi, Əbu Zeyd. (1963). Cəmhərətu əsaril-arab, Beyrut.
15. Qurani-Kərim
16. Mahmudov Malik. (2001). Klassik ərəb ədəbiyyatı. Bakı.

д-р филол. наук., проф. Имамверди Гамидов

КОРАН И ПОЭЗИЯ

РЕЗЮМЕ

Донесение пророком Мухаммедом (да благословит его Аллах и приветствует) божественных аятов до народов Аравии происходило в условиях, когда члены отдельных племен, владевшие поэтическим искусством, обладали большим авторитетом, необычайной вдохновляющей и творческой силой. Не ответившие на даават (приглашение) пророка многобожники и влиятельные курайшиты, для принижения сути данного призыва, превратили аяты, переданные Мухаммедом, в поэзию, а себя выдавали за поэтов. В 5-ой суре Священного Корана, ниспосланной для изобличения подобного отношения, излагаются разъяснительные мысли о поэзии и поэте.

В аятах, прежде всего, доводится до внимания разница между поэзией и Кораном и подчеркивается ответственность поэтов перед этим искусством.

Уподобление поэзии аятам из Корана в изобличении многобожников показывает, что это искусство было широко распространенным, обладало авторитетом и влиянием. В толковании аята говорится о необходимости направить ее содержание и цели в правильное русло. В толкованиях, данных поэзии в аятах

Корана, раскрывается прославление божественной силы и ее ценности на пути призыва к исламу.

Более подробное толкование искусства поэзии в хадисах Мухаммеда (да благословит его Аллах и приветствует), рассуждения о поэтах привели к еще большему распространению поэзии в исламские времена. Велика роль данных наставлений в нравственном воспитании людей, развитии дидактики и углублении философского содержания поэзии.

Ключевые слова: *Коран, поэзия, приглашение, божественная сила, ислам, поминание.*

Prof. Imamverdi Hamidov

QUR'AN AND POEM

ABSTRACT

In the Arabian environment, the transmission of divine ayats through the Prophet Muhammad (peace and blessings be upon him) took place under such conditions that poets who mastered the art of poetry among members of different tribes had a great reputation, extraordinary inspiration and creativity in art. The polytheists and wealthy Quraysh, who did not accept the call of the Prophet, compared the ayats transmitted by Muhammad with verses, and himself with the poet, in order to downplay the high significance of this call. In order to refute this opinion, explanatory thoughts about the poem and the poet are expressed in the 5th Sura of the Qur’an.

In the ayats, first of all, the difference between poetry and the Qur’an is emphasized, the responsibility of poets to this art is touched upon.

Just as comparing a poem to the ayats of the Qur’an in accusing polytheists shows that this art is widespread, influential and influential, the explanation in the ayat expresses the need to direct its content and purpose in the right direction. In the ayats of the Qur’an, the explanations given to the poem indicate its essence and explain the significance of divine power and its significance for calling people to Islam.

Broader clarifications about the art of poetry in the hadiths of Muhammad (peace and blessings be upon him) and the assessments of poets led to a wider dissemination of poetry in Islamic times. The role of these instructions is great in the moral education of people, in the development of didactics, in deepening the philosophical content of poetry.

Keywords: *Quran, poetry, calling, divine power, Islam, remembrance*

QURANİ-KƏRİMDƏ ÖZÜNƏMƏXSUS QƏLİB VƏ KONSTRUKSİYALAR

prof. Nəsrulla Məmmədov,
Bakı Dövlət Universitetinin
Ərəb filologiyası kafedrası
nasrullahbdu@mail.ru

XÜLASƏ

Məqalədə Quranın Cahiliyyə ərəblərinin dilindən fərqli bir üslubda nazil edilməsindən bəhs olunur. Qeyd edilir ki, İlahi mətnin fərdi xarakterə malik olduğunu sübut edən və ecaz xüsusiyyətlərinə aid olan keyfiyyətlərdən biri də onun ehtiva etdiyi qəlib və konstruksiyaların özünəməxsusluğu ilə bağlıdır. Söz sənəti sahəsində özünəməxsus yeri olan bu Səmavi Kitabın ifadə quruluşlarının xüsusi qaydalara tabe olduğunu, onu oxuyan zaman diqqətli olmağı vacib edən amillər kimi müvafiq Quran ayələri ilə Həzrət Peyğəmbərin hədisləri və bəşəri yaradıcılıq nümunələrindən misallar çəkilir.

Müəllif qeyd edir ki, "qüdsi" və "nəbəvi" hədislərin "söz və məna" və ya "məna" baxımından səmavi mahiyyət daşımasını vurğulamaqla, onların ifadə tərzi və üslubu arasında fərqi asanlıqla sezən hədis alimləri Quranın dilinin bütün mövcud söz sənəti nümunələrindən də fərqləndiyini bildirirlər. Peyğəmbərin (s) hədislərdə, Raşidi xəlifələrinin və səhabənin öz xütbə və nitqlərində Quran ayələrindən geniş şəkildə istifadə etmələrinə baxmayaraq, oradakı səmavi ifadənin fərqi dərhal hiss olunur.

Müəllifin fikrinə görə, Quranın həm surə, həm də ayə quruluşu, onun tərtibi, ifadə tərzi və üslubu, oradakı məna çalarları, ehtiva etdiyi konstruksiyalar onu bəşəri düşüncənin yaratdığı bütün ədəbi nümunələrdən fərqləndirir, Allah kəlamının təkrarsız bir ədəbi nümunə olduğunu təsdiqləyir.

Açar sözlər: *Quran, üslub, konstruksiya, ritm, vəzn, ahəngdarlıq.*

Giriş

Ucsuz-bucaqsız, quru səhralarda məskunlaşaraq, bədəvi həyat tərzi keçirən ərəblər təbiətcə kasad olan yaşayış yerlərini vəsf etmək, səhranın gözəlliklərini təqdim etməkdən ötrü bədii zövqlərini inkişaf etdirmiş, bəlağət və fəsahət sahəsində xeyli irəliləyərək qonşu xalqları kölgədə qoymuşlar. Söz söyləmək, sözün qüdrəti ilə əsrarəngiz lövhələr yaratmağa nail olan ərəblər müxtəlif qəbilələrdə həyat tərzi keçirməklə eyni bir məfhumu müxtəlif sinonimlərlə ifadə etməklə çoxlu sayda sözlər yaratmış və beləliklə də ərəb dilinin lüğət fondunun zənginləşməsini təmin edə bilmişlər.

Orta əsrlərdə bütpərəst ərəblərin mərkəzi ibadətgahı olan Kəbənin Məkkə şəhərində yerləşməsi, Qüreyş qəbiləsinin həmin şəhərdə aparıcı mövqeyə malik olması və poeziya nümunələrinin ildə bir dəfə münsiflər heyətinə təqdim olunmaqdan ötrü Müqəddəs Evin divarlarından asılması müxtəlif ərəb qəbilələrinə mənsub şairlərin öz yaradıcılıq nümunələrində həmin qəbilənin dilinə üstünlük vermələrini gündəmə gətirmişdir. O dövrün yazılı ədəbi tənqid normalarının olmaması, bədii nümunələrin yalnız bu sahənin peşəkarlarının bədii zövqü əsasında qiymətləndirilməsi sayəsində müəyyən məqamlarda mübahisələr yaradırdı.

Məhz belə bir dövrdə, ərəb cəmiyyətinin Cahiliyyət adlanan və insanlıq tarixində əxlaqi dəyərlərə əməl etmə baxımından ən qaranlıq dövrlərdən biri hesab olunan zaman dönəmində zülmətlər içində bir nur kimi parlayan Həzrət Məhəmməd (s) Uca Yaradanın sonuncu risaləsini və mükəmməl vəhylər toplusunu bəşər övladına çatdırmaqla, təkcə bir xalqın cəhalətdən azad edilməsinə deyil, ümumilikdə cəmiyyətin nadanlıq buxovlarından azad edilməsində təkrarsız xidmət göstərmişdir.

Bəlağət və fəsahət sahəsində özünəməxsus yeri olan, söz sənətinin mahir biliciləri hesab edilən ərəblər ilahi vəhyin bütün digər ecaz xüsusiyyətləri ilə yanaşı, onun ifadə tərzi, üslubu, ayələrinin məna çalarları, vəzni və quruluşu qarşısında mat qalmış, o vaxta qədər yaratdıqları söz sənəti nümunələrinin Quranın bədii xüsusiyyətləri ilə münasibətdə zəif olduğunu qəbul etməyə məcbur olmuşlar.

Nazil olunduğu gündən bəri müxtəlif elm sahələrinə mənsub alimlərini diqqətini cəlb etmiş bu ilahi vəhylər toplusu filologların xüsusi marağına səbəb olmuş, ərəblərlə yanaşı, bir çox müsəlman xalqlarının nümayəndələri onun ifadə tərzini, dil xüsusiyyətlərini, bədii va-

sitələrdən istifadə imkanlarını və ümumilikdə, üslubunu öyrənməyə və tədqiq etməyə başlamışlar.

Ərəb dilində nazil edilmiş Qurani-Kərim ümummüsəlman mədəniyyətinin ən əzəmətli və təkrarsız söz sənəti nümunəsi olmaqla, dünya müsəlmanlarını vahid bir dil ətrafında birləşdirən ən mühüm vasitələrdən biridir. Onun mükəmməl bir dilə sahib olması, məna içində məna ehtiva etməsi, indiyə qədər mövcud olan bütün ədəbi nümunələrdən fərqli bir struktura və mahiyyətə malik olması daim filoloqların diqqətini cəlb edir, onları özünün ecaz xüsusiyyətləri ilə heyrətləndirir. Orta əsrlərdən bəri Quranın ifadə tərzini və üslub xüsusiyyətlərini tədqiq edən alimlər Allah kəlamının ecazını onun bu və ya digər xüsusiyyəti ilə əlaqələndirmişlər.

Quran üslubu daxilində xüsusi əhəmiyyəti olan mövzulardan biri də Allah kəlamının qəlib və konstruksiyalarının özünəməxsusluq baxımından bəşəri yaradıcılığın bütün növlərindən fərqli xarakterə malik olmasıdır.

Qurani-Kərimdə özünəməxsus qəlib və konstruksiyalar

Qurani-Kərimin üslubu, ifadə tərzi, oradakı söz və ibarələrin işlənmə xüsusiyyətləri, ilahi mətndə mövcud olan konstruksiya və qəliblərin quruluş və formalarının təhlilini apararkən Allah kəlamının qeyri-adiliyini və ecazını ortaya qoyan məqamlardan biri kimi orada işlənən konstruksiyaların unikallığı və bənzərsizliyi kimi ciddi faktlar diqqətimizi cəlb etdi. Fikirlərimizi əsaslandırmaqdan ötrü "əl-Bəqərə" surəsinin ilk tam səhifəsinə müraciət edə bilərik. Əksər nəşrlərdə surənin altıncıdan on altıya qədər ayələrini ehtiva edən həmin səhifədə özünün unikallığı ilə fərqlənən, bir-birindən fərqli formalarda təzahür edən, o vaxta qədər mövcud olan ərəb şifahi xalq yaradıcılığında, poeziyasında, nəsrində və Həzrət Peyğəmbərin hədislərində mövcud olmayan ən azından iyirmi üç konstruksiya və qəlibə rast gəlirik. Bu məsələdə diqqəti cəlb edən məqamlardan biri də sözügedən konstruksiyaların həmin səhifədə və ümumilikdə, Qurani-Kərimin digər surələrində təkrarlanmaması ilə bağlıdır. Maraqlı cəhət ondadır ki, mütəfəkkir, şair və ədiblərin uzun əsrlərdən bəri Quranın ifadə tərzi, üslubu, bədii ifadə vasitələrindən istifadə etmək bacarığı və s. dil və bədii xüsusiyyətlərindən bəhrələnmələrinə, ilahi mətnin təsirinə düşmələrinə baxmayaraq, həmin konstruksiya qəlib və ifadələrin əksəriyyətini yaradıcılıq nümunələrində istifadə edə bilməmiş, onlar bəşəriyyətin heç bir ədəbi dilin yaradıcılıq fonduna daxil edilməməklə, Allah

kəlamının ecazını təsdiqləyən dəlillər kimi məxsusi olaraq Quran üslubunun fərdi xüsusiyyətləri kimi qalmaqda davam etmişdir:

١. ... سَوَاءٌ عَلَيْهِمْ أَأَنذَرْتَهُمْ أَمْ لَمْ تُنذِرْهُمْ لاَ يُؤْمِنُونَ
٢. ... وَلَهُمْ عَذَابٌ عظِيمٌ
٣. وَمِنَ النَّاسِ مَن يَقُولُ آمَنَّا...
٤. ... وَمَا هُم بِمُؤْمِنِينَ
٥. ... وَمَا يَخْدَعُونَ إِلاَّ أَنفُسَهُم وَمَا يَشْعُرُونَ
٦. فِي قُلُوبِهِم مَّرَضٌ فَزَادَهُمُ اللّهُ مَرَضاً...
٧. ... وَلَهُم عَذَابٌ أَلِيمٌ... (bir söz fərqi ilə ikinci konstruksiyanın təkrarı)
٨. ... بِمَا كَانُوا يَكْذِبُونَ
٩. وَإِذَا قِيلَ لَهُمْ لاَ تُفْسِدُواْ فِي الأَرْضِ...
١٠. ... إِنَّمَا نَحْنُ مُصْلِحُونَ
١١. أَلا إِنَّهُمْ هُمُ الْمُفْسِدُونَ...
١٢. ... وَلَـكِن لاَّ يَشْعُرُونَ
١٣. وَإِذَا قِيلَ لَهُمْ آمِنُواْ كَمَا آمَنَ النَّاسُ...
١٤. ... قَالُواْ أَنُؤْمِنُ كَمَا آمَنَ السُّفَهَاء...
١٥. ... أَلا إِنَّهُمْ هُمُ السُّفَهَاء... (bir söz fərqi ilə on birinci konstruksiyanın təkrarı)
١٦. ... وَلَـكِن لاَّ يَعْلَمُونَ (bir söz fərqi ilə on ikinci konstruksiyanın təkrarı)
١٧. وَإِذَا لَقُواْ الَّذِينَ آمَنُواْ قَالُواْ آمَنَّا...
١٨. ... وَإِذَا خَلَوْاْ إِلَى شَيَاطِينِهِمْ...
١٩. ... إِنَّا مَعَكُمْ إِنَّمَا نَحْنُ مُسْتَهْزِئُونَ (bir söz fərqi ilə onuncu konstruksiyanın təkrarı)
٢٠. اللّهُ يَسْتَهْزِئُ بِهِمْ...
٢١. ... وَيَمُدُّهُمْ فِي طُغْيَانِهِمْ يَعْمَهُونَ
٢٢. أُوْلَـئِكَ الَّذِينَ اشْتَرُواْ الضَّلاَلَةَ بِالْهُدَى...
٢٣. ... وَمَا كَانُواْ مُهْتَدِينَ

Yuxarıdakı misallardan göründüyü kimi, konstruksiyalardan dördü bu və ya digər şəkildə təkrarlanmışsa da, ümumilikdə, həmin iyirmi üç ifadə forması Quran üslubuna malik olub, düşüncənin məhsulu kimi hər hansı bəşəri yaradıcılıq nümunəsinin və hətta Həzrət Peyğəmbərin (s) hədislərinin ifadə metodundan ciddi şəkildə fərqlənməkdədir.

Dil bazarında sərraf olan, Cahiliyyət poeziyası kimi bədii sənət əsəri yaratmış, kasad təbiət mənzərələrini gözəl bədii vasitələrlə bəzəməyə qadir olan və yüzlərlə bədii konstruksiya yaradıb onları tətbiq etmək bacarığına malik olan ərəblər göydən qəflətən şimşək kimi çax-

mış ilahi mətnin, onun ifadə tərzinin və o vaxta qədər eşitmədikləri konstruksiyaların yeniliyi və bolluğu qarşısında mat-məəttəl qalmışlar. Sözügedən söz quruluşlarının sehrinə düşmüş ərəblər sonrakı bədii yaradıcılıq fəaliyyətlərində onların tətbiqinə çalışsalar da, ilahi ifadənin məna yükünün ağırlığı və genişliyi səbəbindən onları ədəbiyyata gətirə bilməmiş və ya çox cüzi hissəsini poeziyaya daxil etməyə nail olmuşlar!

Quran, hədis və bəşəri
söz konstruksiyaları arasında müqayisələr

Ərəb dilinə yeni qəlib və konstruksiyalar gətirən Qurani-Kərim Cahiliyyət ərəblərinin qarşısında yeni ifadə tərzi və təbir üsulu barədə fikirləşmək üçün geniş qapılar açdı, bəlağət sahiblərini səmavi mətnin söz quruluşlarından istifadə etmək bacarığı və üslub gözəlliyi qarşısında özlərinin acizliklərini etiraf etməyə məcbur etdi.

Yeni konstruksiyalar məhz Qurana məxsus qəliblər olmaqla, söz sahiblərinin diqqətini cəlb edir və bilik səviyyəsindən asılı olmayaraq həmin dövrdə yaşayan hər bir ərəb sözügedən konstruksiyaların fərdi xarakterə sahib olduğunu və mövcud olan bütün yaradıcılıq nümunələrindən fərqliliyini sezə bilirdi.

Belə olduğu halda, Quran mütəxəssislərinin sözügedən bütün dil konstruksiyalarını "Quran ibarələri" və ya "Quran ifadələri" adlandırmaları daha doğru olardı. Məhz həmin konstruksiyaların unikallığı və orijinallığı onları bəşəri düşüncənin məhsulu olan yaradıcılıq nümunələrinin dilindən, ifadə sistemindən və üslubundan fərqləndirməyə əsas verir. Əgər diqqətlə nəzər salsaq, Quran ibarələrinin bütün şair və ədiblərin istifadə etdikləri, o cümlədən Həzrət Peyğəmbərin (s) hədislərində yer almış ifadə və konstruksiyalardan köklü şəkildə fərqləndiyinin şahidi ola bilərik.

"Qüdsi" və "nəbəvi" hədislərin "söz və məna" və ya "məna" baxımından səmavi mahiyyət daşımasını vurğulamaqla, onların ifadə tərzi və üslubu arasında fərqi asanlıqla sezən hədis alimləri Quranın dilinin bütün mövcud söz sənəti nümunələrindən də fərqləndiyini bildirirlər. Peyğəmbərin (s) hədislərdə, raşidi xəlifələrinin və səhabənin öz xütbə və nitqlərində Quran ayələrindən geniş şəkildə istifadə etmələrinə baxmayaraq, oradakı səmavi ifadənin fərqi dərhal hiss olunur. Nüzul tarixindən on dörd əsr keçməsinə baxmayaraq, Quranın ifadə tərzi, onun üslubu, intellekt səviyyəsi, elmi imkanları və bədii zövqünün dərəcəsindən asılı olmayaraq, heç bir mütəfəkkir, alim, şair və ədib tərə-

findən təkrarlana bilməmiş, ilahi vəhyin məhsulu olan Müqəddəs Kitabımız öz orijinallığını, təkrarsızlığını və ecazını qoruyub-saxlamış, bu işin bəşəri düşüncənin fövqündə olduğunu təsdiqləmişdir.

Quran konstruksiyaları ilə bəşəri ifadə qəliblərinin fərqli xüsusiyyətləri

Bədii tənqid nəzəriyyəsinə görə, "hər bir üslubun bir şəxsiyyət olduğunu" nəzərə alaraq, ilahi mətn ilə bəşəri yaradıcılıq nümunələrinin ifadə imkanları və orada istifadə olunan konstruksiya və ibarə formaları arasında böyük və aydın fərqi görməkdən ötrü müəyyən müqayisələrin aparılmasını faydalı hesab edirik. Bu məqsədlə Quranın "əl-Bəqərə" surəsində sözügedən iyirmi üç konstruksiyanın mövcud bəşəri yanaşma baxımından ifadə imkanlarına nəzər salmağa və fərqi müəyyənləşdirməyə çalışacağıq.

Aralarında mövcud olan fərqi müəyyənləşdirmək üçün ərəb ədəbi dilinin normalarına və nəhv qaydalarına uyğun ifadə üsulu seçməklə paralellərin aparılmasını və həmin surədən gətirdiyimiz dəlillərin ardıcıllığını qorumağı daha məqsədəuyğun hesab edirik:

١. إنّ إنذارك لهم أو عدمّه سيّان فإنّهم لن يؤمنوا على أيّة حال
٢. وسوف نعذّبُهم بشدّة
٣. يدّعي بعضُ الناسِ أنّهم آمَنوا
٤. والحقيقة أنهم لم يؤمنوا
٥. والحقيقة أنهم يخدعون أنفسَهم من غير أن يدركوا ذلك
٦. فزاد اللهُ مرضَهم
٧. وسوف نعذّبُهم بشدّة
٨. جزاءَ كذِبِهم
٩. وإذا طُلب منهم ألّا يخرّبوا عيش الناس
١٠. رَدّوا بأنّهم لا يُخرّبون بل يُصلحون
١١. ولكنّهم في الحقيقة مخرّبون
١٢. من غيرِ أن يدرِكوا ذلك
١٣. وإذا طُلِب منهم أن يصدّقوا الرسول كالآخَرين
١٤. رَدّوا بأنّ الحمقى وحدهم هم الذين صدّقوه
١٥. ولكنّهم في الحقيقة هم الحمقى
١٦. وهم لا يُدركون ذلك
١٧. إنهم يتظاهرون بالإيمان أمام المؤمنين
١٨. ولكنّهم إذا انفردوا بأصحابهم من الكفّار
١٩. أكّدوا لهم أنّهم ما زالوا معهم وأنّهم في الحقيقة يَسخَرون من المؤمنين
٢٠. والواقع أنّ الله هو الذي يستهزئ بهم
٢١. وهو سيتركهم يتمادّون في غيّهم فلا يُبصرون الحقيقة

٢٢. إنّهم فضّلوا الكفرّ على الإيمان
٢٣. ولن يُسْلِموا أبدًا مهما فعلتَ من أجلهم

Qeyd etmək istəyirik ki, yuxarıda gətirdiyimiz dəlillərdən məqsəd yalnız və yalnız Allah kəlamı ilə bəşəri ifadənin fərqini göstərmək və bu müqayisədə Quran konstruksiya və ifadələrinin orijinallığını, onun fərdiliyini, özünəməxsusluğunu və ecazını bir daha vurğulamaqdır.

Yuxarıda göstərilmiş və müqayisə məqsədilə verilmiş qəlib və konstruksiyaları ərəb dili və Quran sahəsində müəyyən bacarığı olan bir şəxs diqqətlə nəzərdən keçirdiyi zaman onda belə bir sual yarana bilər: məsələn, sıralamada iyirminci yerdə dayanan - اللهُ يَسْتَهْزِئُ بِهِمْ... - ifadəsində qeyri-adi, fövqəladə hansı xüsusiyyət vardır və onun ərəb ədəbi dilində mövcud olan – الاشرار يستهزئون بنا - ifadə tərzindən fərqi nədir?! Ayədə yer almış həmin ifadəni mətndən ayrı şəkildə, müstəqil vəziyyətdə işlətdiyimiz zaman bu məsələ ilə bağlı suallar daha da arta və davamlı şəkil ala bilər. Yarana biləcək bu kimi suallara cavab olaraq, ayədə yer almış - اللهُ يَسْتَهْزِئُ بِهِمْ... – fikri, sadəcə, "Allah onlara istehza edəcək" şəklində bəsit şəkildə başa düşülməməli, onun daha geniş məna tutumuna malik olduğunu bilmək lazımdır. Belə ki, o cümlə özündənəvvəlki ayələrin məntiqi davamı olub, onların sayəsində daha geniş məna kəsb etmiş və həmin mövzunu tamamlamışdır. Həmin fikri bəşəri düşüncə tərzi ilə ifadə etsəydik, onu ərəb ədəbi dilində aşağıdakı şəkildə verməli idik:

إنما نحن مستهزئون (بالمؤمنين ولكنهم لا يدركون أن) الله (في الحقيقة هو الذي) يستهزئ بهم.

Göründüyü kimi, bəşəri ifadə tərzi həmin fikri bildirmək üçün əlavə, mötərizədə yerləşən vasitələrdən istifadə etmək məcburiyyətində qalmış, lakin bununla belə, Quranda yer almış həmin fikri həm üslub, həm də məna baxımından layiqincə ifadə edə bilməmişdir! Quran mətninə gəldikdə, o, xüsusi üslub və ifadə tərzinə malik olmaqla, bir ayə daxilində geniş mənaları ehtiva etmək imkanına malik olmaqla yanaşı, eyni zamanda, orijinal qiraət tərzini və tilavət metodunu qoruyaraq, bəşəri yaradıcılıq nümunələrinin ifadə tərzinin fövqündə dayandığını təsdiq edir.

Quranın ifadə qəliblərinin və konstruksiyalarının xüsusiyyətləri

Quran konstruksiyalarının, qəliblərinin, ifadələrinin və kəlmələrinin fərdi xarakteri və orijinallığı, sözlərinin, tərkib və ibarələrinin

bir-biri ilə əlaqəsi Allah kəlamının üslubu ilə bəşər yaradıcılıq nümunələrinin ifadə tərzi arasında fərqi sezməyə, hətta ən adi oxucu və ya qareyə imkan verir və bu baxımdan, onların bir-biri ilə qarışdırılmasını imkansız edir.

Sözügedən nəzəri fikirlərin doğruluğunu təsdiq etmək üçün elmi təcrübəyə müraciət etsək, daha əsaslı nəticə əldə edə bilərik.

Qarşımızdakı ağ vərəqin üzərinə biri bilavasitə Quran ayəsi (cümləsi), digərləri isə məna baxımından Qurandan götürülməklə ilahi mətnin qəlib və vəznlərinə uyğun olan söz və tərkiblər seçməklə doqquz cümlə yazaq. Daha sonra həmin cümlələri qarışdıraraq onlardan hansının Quran ayəsi, hansılarının isə insan tərəfindən quraşdırıldığını müəyyənləşdirmək üçün adi bir Quran qaresinə və ya ərəb dilində ortabab savadı olan şəxsə təqdim etsək, həmin insan onların ifadə və üslub formasına əsaslanaraq düzgün qərar verə bilər.

Tarixin müxtəlif mərhələlərində Quran ayələrinin qəliblərini, mətnini təşkil edən konstruksiyaların forma və şəkillərini qorumaqla "yeni ayələr" yazmaq iddiasında olanların da bu baxımdan heç bir uğur qazanmadığını qeyd etməyi doğru hesab edirik!

İndi isə dediklərimizə uyğun olaraq həmin on cümləni təqdim edirik:

1 – وكشفت الحقيقة أخيرا
2 – وخلق ابن آدم جبانا
3 – وجعلت الأرض مسطحة
4 – وطبع المرء مجادلا
5 – ونصبت الجبال مرتفعة
6 – ورفعت السماء عاليا
7 – وجعل يوم السبت مقدسا
8 – ودكت المدائن دكا
9 – وخلق الإنسان ضعيفا
10 – وقتلت الموؤودة ظلما

İndi isə hər birimiz mənası və əksər sözləri Qurani-Kərimdən əxz olunmuş yuxarıdakı on cümlədən hansı rəqəmlə qeyd olunmuş cümlənin məhz həqiqi Quran cümləsi olduğunu göstərməyə çalışaq. Zənnimizcə, Quranı əzbərdən bilməsə belə, ilahi mətnin dili və ifadə imkanları sahəsində təcrübəsi və bacarığı olan hər bir şəxs onlardan bilavasitə Allah kəlamı olan cümləni dərhal tapa bilər.

Məsələnin bu qədər bəsit olduğunu düşünmək, seçim zamanı yalnız təcrübə və intuisiyaya əsaslanaraq on cümlə arasında Quran ayəsini tapmağı iddia etmək sadəlövhlük olardı. Doğrudur, təcrübə və

ənənəvi yanaşma müəyyən mənada özünü göstərir. Sözügedən metodun haradan əldə edilməsi və bütün bunların hansı elmi və nəzəri bazaya əsaslandığını və nəhayət, onun bəzi hallarda bizi aldada biləcəyini də unutmaq olmaz. Belə ki, qeyd olunmuş cümlələrdən doqquzunun Quran ayəsi olmadığını sübut etmək üçün əlimizdə sabit və ciddi elmi əsasların olması vacibdir. İndi isə sözügedən doqquz cümlənin hansı ayələr əsasında tərtib olunduğunu göstərmək üçün Qurani-Kərimdən həmin ayələri tərtibatla qeyd edək:

1 - ... الآنَ حَصْحَصَ الْحَقُّ... (يوسف: 51)
2 - إِنَّ الْإِنسَانَ خُلِقَ هَلُوعاً (المعارج: 19)
3 - وَإِلَى الْأَرْضِ كَيْفَ سُطِحَتْ (الغاشية: 20)
4 - ... وَكَانَ الْإِنسَانُ أَكْثَرَ شَيْءٍ جَدَلاً (الكهف: 54)
5 - وَإِلَى الْجِبَالِ كَيْفَ نُصِبَتْ (الغاشية: 19)
6 - وَإِلَى السَّمَاء كَيْفَ رُفِعَتْ (الغاشية: 18)
7 - إِنَّمَا جُعِلَ السَّبْتُ عَلَى الَّذِينَ اخْتَلَفُواْ فِيهِ... (النحل: 124)
8 - كَلَّا إِذَا دُكَّتِ الْأَرْضُ دَكّاً دَكّاً (21)
10 - وَإِذَا الْمَوْؤُودَةُ سُئِلَتْ بِأَيِّ ذَنبٍ قُتِلَتْ (8-9)

Əvvəlki misallarda qeyd etdiyimiz üçün burada doqquzuncu yerdə qərarlaşan ayəni bilərəkdən yazmamışıq. Bəşəri düşüncənin məhsulu olan ayələrlə qarışmış həmin ayəni təkrarən burada qeyd edirik:

9 - ... وَخُلِقَ الإِنسَانُ ضَعِيفاً (النساء: 28)

Qeyd etmək lazımdır ki, bizə Quran cümlələri ilə bəşəri təfəkkürün məhsulu olan cümlələri bir-birindən fərqləndirməyə imkan verən təkcə Qurana məxsus sözlər, onun tərkibləri, bəlağətli ahəngdarlığı, mütənasibliyi, insanı heyrətləndirən yeni bədii təsvirləri, özünün hikmət və əlçatmazlığı ilə insanın yaradıcılıq nümunələrinin fövqündə dayanan ilahi mənaları, insanı inandırmağa, əmr və qadağaları ən yüksək ifadə üsulu ilə onun ruhuna təsir etməyə yönəldilən müraciətləri deyil, bütün bunlarla yanaşı, eyni zamanda vahid, özünəməxsus dilə sahib olmaqla yuxarıda qeyd edilmiş məqamları bütövlükdə ehtiva edən, onları bir-biri ilə əlaqələndirən, dilini saysız-hesabsız bəşəri yaradıcılığın dilindən, üslubundan və ifadə tərzindən fərqləndirən qeyriadi konstruksiya və qəliblərdir. Allah kəlamının bu fərqli xüsusiyyətlərini təhlil etmək, onları müəyyənləşdirmək və oxucuların diqqətinə çatdırmaq üçün yuxarıda qeyd olunmuş cümlələr arasında, Quran ayəsi istisna olunmaqla, onlara ayrı-ayrılıqda nəzər salmağı, həmin cümlələrin ilahi mətnin ümumi üslub tələblərinə nə dərəcədə uyğun gəlmədiyini araşdırmağı faydalı hesab edirik:

1. Birinci cümləmizin Quran cümləsi ola bilməməsini şərtləndirən məqamlardan biri bizim onu ilahi mətnin quruluşuna uyğunlaşdırmağımıza göstərdiyimiz bütün cəhdlərimizə baxmayaraq, onun quruluşca Quran cümlələrinin quruluşuna uyğun gəlməməsidir. Məşhur filoloq Xəlil ibn Əhməddən əxz etdiyimiz əruz qəliblərini həmin cümləyə tətbiq etməklə onun quruluşunun əruza deyil, məhz ərəb ədəbi dilinin quruluşuna uyğun olub (وعُمِلَتِ العَميلةُ عَميلاً) qəlibində olduğunun şahidi oluruq. Bundan başqa, biz onun Quran cümlə quruluşuna uyğunluğunu qəbul etsək belə, həmin cümlənin ehtiva etdiyi sözlərin üçü də onun ilahi mətnin tərkib hissəsi olmadığını sübut edir. Belə ki, كشفت kəlməsi ilə eyni kökdən olan və ya həmin kökdən yaranan sözlər Qurani-Kərimdə iyirmi (20) dəfə təkrarlansa da, keçmiş zamanın məchul növündə qeyd olunmamış, onun seçdiyimiz cümlədə olduğu kimi bəşər kəlamına ən yaxın şəkli indiki-gələcək zamanın məchul növündə aşağıdakı ayədə qeydə alınmışdır:

يَوْمَ يُكْشَفُ عَن سَاقٍ وَيُدْعَوْنَ إِلَى السُّجُودِ فَلَا يَسْتَطِيعُونَ (القلم: 42)

Həmin söz Allah kəlamında yer almışsa da, keçmiş zamanın məlum növündə qeydə alınmışdır:

... فَلَمَّا رَأَتْهُ حَسِبَتْهُ لُجَّةً وَكَشَفَتْ عَن سَاقَيْهَا...

Quran mətninin bu baxımdan təhlili orada həmin felin keçmiş zamanın məchul növündə mövcud olmadığını deməyə əsas verir.

Həmin cümlədə ikinci yerdə qərarlaşmış حقيقة sözü ilə eyni kökdən olan kəlmələrdən Allah kəlamında geniş istifadə olunmasına, başqa sözlə, onlara Qurani-Kərimdə iki yüz səksən yeddi (287) dəfə rast gəlindiyinə baxmayaraq, həmin sözə ən yaxın formalar حقيق və حق kəlmələridir ki, onlar eyni ayədə yer almışdır:

حَقِيقٌ عَلَى أَن لاَّ أَقُولَ عَلَى اللّهِ إِلاَّ الْحَقَّ... (الأعراف: 105

Cümlənin üçüncü sözü olan أخيرا kəlməsinə gəlincə, ondan bəşəri yaradıcılıq nümunələrində geniş şəkildə istifadə olunmasına baxmayaraq, həmin sözlə eyni kökdən olan kəlmələrə Qurani-Kərimdə iki yüz qırx səkkiz dəfə rast gəlindiyi halda, o, Allah kəlamında bircə dəfə də qeydə alınmamışdır.

2. İkinci cümləni Quran qəlibinə salıb, onu عاملاً- أو ابن العاملِ - وعُمِل العاملُ formasında oxumaq mümkün olsa belə, oradakı ابن آدم ifadəsinin Quranda heç bir yerdə işlənmədiyini qeyd etməliyik. Həmin ifadə Qurani-Kərimdə yalnız cəmdə olaraq بني آدم şəklində işlənmiş, yalnız bircə dəfə təsniyə formasında aşağıdakı ayədə yer almışdır:

وَاتْلُ عَلَيْهِمْ نَبَأَ ابْنَيْ آدَمَ بِالْحَقِّ إِذْ قَرَّبَا قُرْبَاناً...

Hədislərə, xüsusilə də qüdsi hədislərə gəlincə, orada dəfələrlə يا ابن آدم ifadəsinin işlədilməsinə rast gəlmək mümkündür. Həmin cümlədə yer almış جباناً kəlməsinə və ya həmin kökdən yaranmış hər hansı bir sözün Quranın heç bir ayəsində yer almaması diqqəti cəlb edir.

3. Üçüncü cümlənin də Quran cümləsi olmamasını deməyə müəyyən dəlillər mövcuddur. Əvvəla, həmin feil kökündən yaranan sözlərin Qurani-Kərimdə üç yüz qırx altı (346) dəfə işlənməsinə baxmayaraq, sözügedən formada, məchulda cəmi bircə dəfə qeyd edilmiş və ikinci zahiri vasitəsiz tamamlıq qəbul etməmişdir. Deyilənləri təsdiqləmək üçün yuxarıdakı cədvəldə Quran ayələri sırasında yeddinci yerdə qərarlaşmış "əl-Nəhl" surəsinin yüz iyirmi dördüncü (124) ayəsinə nəzər salmaq kifayətdir. Bəşəri yaradıcılıqda həmin feil cümlənin sonunda gəlmiş ismi təsirlik halda idarə etməklə Quranın ifadə tərzindən fərqlənir. Quran mətnində yer almayan həmin ifadə metoduna Məhəmməd (s) peyğəmbərin hədislərində də geniş şəkildə (məs: جُعِلَتْ لِيَ الأَرْضُ مَسْجِداً وَطَهُوراً) rast gəlmək mümkündür.

Bundan əlavə, مسطحةً kəlməsi istifadə baxımından Quran sözləri kateqoriyasına daxil deyildir. Həmin sözün cəmi bircə dəfə keçmiş zamanın məchul növündə "əl-Ğaşiyə" surəsinin yuxarıda qeyd olunmuş iyirminci ayəsində işlənməsi istisna olunmaqla, ona və ya onunla eyni kökdən olan kəlməyə Allah kəlamında rast gəlmək mümkün deyil.

4. Dördüncü cümlənin də Quran cümləsi olması mümkün deyildir. Belə ki, həmin felin Allah kəlamında həm məchulda, həm də məlumda on bir (11) dəfə işlənməsinə baxmayaraq, o, bütün hallarda özündən sonra gələn sözü على ön qoşması vasitəsilə idarə edir:

...وَطَبَعَ اللهُ عَلَى قُلُوبِهِمْ فَهُمْ لاَ يَعْلَمُونَ (التوبة: 93)

...كَذَلِكَ نَطْبَعُ عَلَى قُلوبِ الْمُعْتَدِينَ (74)

ذَلِكَ بِأَنَّهُمْ آمَنُوا ثُمَّ كَفَرُوا فَطُبِعَ عَلَى قُلُوبِهِمْ فَهُمْ لَا يَفْقَهُونَ (المنافقون: 3)

Həmin cümlədə yer almış مجادلاً kəlməsinə gəldikdə, onunla eyni kökdən olan sözlərə Qurani-Kərimdə iyirmi doqquz (29) dəfə rast gəlinməsinə baxmayaraq, ona qeyd olunmuş şəkildə Allah kəlamında bircə dəfə də təsadüf olunmur. Bu da həmin cümlənin Quran cümlələrindən ola bilmə ehtimalını sıfıra endirir.

5. Bu cümlədə yer almış نُصِبت və الجِبال kəlmələrinin hər ikisi Quran sözlərindən olub ilahi mətndə işlənmişdir. Cümlənin sonunda işlənən مرتفعة sifətinə gəlincə, onun qeyd olunmuş formasına Qurani-Kərimdə rast gəlinməsə də, həmin kökdən olan sözün ismi-məful forması Allah kəlamında mövcuddur:

وَفُرُشٍ مَّرْفُوعَةٍ (الواقعة: 34)
فِي صُحُفٍ مُّكَرَّمَةٍ مَّرْفُوعَةٍ مُّطَهَّرَةٍ (عبس: 14)
فِيهَا سُرُرٌ مَّرْفُوعَةٌ (13)

6. Bu cümlənin quruluşu Qurandan götürülmüşdür. Onun konstruksiya baxımından Quran cümlələrinə bənzərliyi heç bir şübhə doğurmur və orada istifadə olunmuş kəlmələrin hər üçü Quranda işlənmiş sözlərdəndir. Cümlədə yer almış عالياً kəlməsi işləri korlamışdır. Belə ki, Allah kəlamında cəmi bircə dəfə rast gəlinən həmin söz bəşəri düşüncənin məhsulu olan yaradıcılıq nümunələrində bildirdiyi mənalardan tam fərqli, Quranın özünəməxsus çalarlarından biri olan متكبراً mənasını ifadə edərək bəşəri cümlələrdə işləndiyi məzmundan tam şəkildə seçilir:

مِن فِرْعَوْنَ إِنَّهُ كَانَ عَالِياً مِّنَ الْمُسْرِفِينَ (الدخان: 31)

7. Yeddinci cümlənin quruluşca təhlili və oradakı sözlərin müqayisəsi onun da Quran konstruksiyasına çox bənzər olduğunu deməyə əsas verir. Cümlədə yer almış sözlərin birincisi və üçüncüsü yuxarıda müqayisə üçün dəlil gətirdiyimiz və yeddinci yerdə qərarlaşmış "əl-Nəhl" surəsinin yüz iyirmi dördüncü (124) ayəsində, dördüncüsü isə "əl-Naziat" surəsinin aşağıdakı ayəsində qeyd olunmuşdur:

إِذْ نَادَاهُ رَبُّهُ بِالْوَادِ الْمُقَدَّسِ طُوًى (النازعات: 16)

Digər məqamlarda olduğu kimi, burada da جُعِل feli sonrakı kəlməni ön qoşmasız olaraq idarə edir ki, bu da Quranın ifadə tərzinə uyğun gəlmir. Belə ki, Allah kəlamında həmin feil bənzər məqamlarda məchulda işləndiyi halda, sonrakı kəlməni على ön qoşması vasitəsilə idarə edir ki, buna aid misallarla artıq tanış olmuşuq.

Cümlədə yer almış يوم السبت ifadəsinə gəlincə, oradakı hər iki sözün ayrı-ayrılıqda ilahi mətndə işlənməsinə baxmayaraq, onun Quran tərkiblərindən olmaması göz qabağındadır. Ərəb ədəbi dilində daha çox احتفلنا يومَ الجمعة، حدث يومَ الأربعاء və s. kimi cümlələr işləndiyi halda, Qurani-Kərimdə yuxarıda qeyd olunmuş "əl-Nəhl" surəsinin həmin ayəsində olduğu kimi, adətən يوم sözü həzf olunaraq (düşərək) yazılmır. Məsələn:

وَلَقَدْ عَلِمْتُمُ الَّذِينَ اعْتَدَواْ مِنكُمْ فِي السَّبْتِ ... (البقرة: 65)
...وَقُلْنَا لَهُمْ لاَ تَعْدُواْ فِي السَّبْتِ ... (النساء: 154)
... إِذْ يَعْدُونَ فِي السَّبْتِ ... (الأعراف: 163)

Allah kəlamında sözügedən tərkiblərdə يوم sözünün saxlanmasına gəldikdə, həmin sözdən əvvəl من ön qoşmasının işlədilməsi labüd olur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا نُودِيَ لِلصَّلَاةِ مِن يَوْمِ الْجُمُعَةِ فَاسْعَوْا إِلَى ذِكْرِ اللَّهِ ... (الجمعة: 9)

Bu növ tərkiblərdə من ön qoşması qeyd olunmadıqda isə يوم sözündən sonra gələn sözə müvafiq bitişən əvəzlik əlavə olunur:

... إِذْ تَأْتِيهِمْ حِيتَانُهُمْ يَوْمَ سَبْتِهِمْ شُرَّعاً ...(الأعراف: 163)

Qeyd etmək lazımdır ki, Qurani-Kərimin ifadə tərzi bu baxımdan Həzrət Peyğəmbərin (s) hədislərinin dilindən də fərqlənir. Hədisləri təhlil edərkən, orada bəşəri yaradıcılığın üslubuna uyğun tərkib və konstruksiyaları görə bilirik:

- الغُسْلُ يومَ الجُمُعَةِ واجبٌ على كلِّ مُحتلِم ..
- إذا كان يومُ الجُمُعةِ وقفتِ الملائكةُ على بابِ المسجدِ يكتبون الأوّلَ فالأوّل..
- خَلَقَ اللهُ عزّ وجلّ التُربةَ يومَ السبت، وخلق منها الجبالَ يومَ الأحد، وخلقَ الشجرَ يومَ الاثنين، وخلق المكروهَ يومَ الثلاثاء، وخلقَ النورَ يومَ الاربعاء، وبثّ فيها الدوابَّ يومَ الخميس، وخلقَ آدمَ (عليه السلام) بعد العصرِ مِن يومِ الجُمعة..

Yuxarıdakı yeddinci misalda yer almış مقدس kəlməsinə gəlincə, onun qeyri-müəyyənlikdə, yəni artiklsiz vəziyyətdə işlədilməsinə Qurani-Kərimdə rast gəlmək olmur. Bunu yuxarıda qeyd olunmuş “əl-Naziat” surəsinin on altıncı (16) ayəsinin misalında görmək mümkündür.

8. Bəşəri yaradıcılığın məhsulu olan cümlələr arasında səkkizinci (8) yerdə qərarlaşmış misal da وعُمِلَ العملُ عملاً qəlibində olmaqla, Qurani-Kərimin cümlə quruluşu və strukturuna yaxındır. Cümləni təşkil edən sözlərin hər üçü ilahi mətndə də yer almışdır. Bütün bunlar həmin cümlənin sözün tam mənası ilə Quran cümləsi olmasını deməyə kifayət deyildir.

Cümlədə yer almış دُكّتْ felinin Qurani-Kərimdə iki dəfə keçməsinə baxmayaraq, onlardan birincisi yuxarıda “əl-Fəcr” surəsinin iyirmi birinci (21) ayəsindən gətirdiyimiz misalda olduğu kimi ya zərfdən sora gəlir, ya da aşağıdakı ayədə olduğu kimi, əvvəlki felə həmcins olaraq işlənir:

وَحُمِلَتِ الْأَرْضُ وَالْجِبَالُ فَدُكَّتَا دَكَّةً وَاحِدَةً (الحاقة: 14)

Cümlənin ikinci yerdə qərarlaşmış مدائن kəlməsinə gəldikdə, onun Qurani-Kərimdə üç dəfə təkrarlanmasına baxmayaraq, hər üç ayədə özündən əvvəl في ön qoşması gəlmişdir:

قَالُواْ أَرْجِهْ وَأَخَاهُ وَأَرْسِلْ فِي الْمَدَآئِنِ حَاشِرِينَ (الأعراف: 111)

قَالُوا أَرْجِهِ وَأَخَاهُ وَابْعَثْ فِي الْمَدَائِنِ حَاشِرِينَ (الشعراء: 36).

فَأَرْسَلَ فِرْعَوْنُ فِي الْمَدَائِنِ حَاشِرِينَ (الشعراء: 53)

Hər üç ayədə mövcud olan حاشرين kəlməsi feli cümlənin xəbərinə aid hərəkətin tərzini bildirir ki, bu da bəşəri yaradıcılıq nümunələrinin üslubundan tamam fərqli bir metoddur.

9. Misal məqsədilə gətirdiyimiz onuncu cümlənin də sözləri bütünlüklə Quranda istifadə olunan ifadələr qrupuna daxildir. Qrammatik və quruluş cəhətdən həmin sözlər Quran cümlələrinin mövqe və quruluşundan fərqlənir. Belə ki, nümunədə olduğu kimi, cins baxımından müənnəs (qadın cinsi) və keçmiş zamanın məchul növündə olan قُتِلَتْ feli ilə Quran cümlələri başlanmır, lakin onunla bitə bilir. Biz belə bir ifadə tərzi ilə yuxarıda gətirdiyimiz misalların sırasında onuncu yerdə yerləşmiş "əl-Təkvir" surəsinin doqquzuncu (9) ayəsində rastlaşmışıq. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, həmin ayə sözügedən felin işləndiyi yeganə Quran ayəsidir.

Aparılan araşdırmalardan belə məlum olur ki, Quranın digər heç bir ayəsində təkrarlanmayan الموؤودة kəlməsi sözügedən ayədə mənasını özündənsonrakı سُئِلَت felinin izah etdiyi məhzuf bir felin "naibi-fail" kimi iştirak edir. Digər tərəfdən, إذا zərfindən sonra "naibi-fail" qismində hər hansı ismin gəlməsi bəşəri yaradıcılıq nümunələrində rast gəlinən dil hadisəsi olmayıb, məhz Quran üslubuna aid olmaqla Allah kəlamını digər bütün əsərlərdən fərqləndirir.

Gətirdiyimiz misaldakı ظلماً kəlməsinə gəldikdə, onunla Cahiliyyət ərəblərinin çaşqınlıqda olmalarının yüksək dərəcəsi göstərilir. Misalda həmin sözün bəşəri yaradıcılıq nümunəsinə aid olduğunu bildirən ən mühüm cəhət onun keçmiş zaman (mazi) feli ilə bağlı olmasıdır. Sözügedən kəlmə Quranda işləndiyi zaman məhz indiki-gələcək (müzare) feli ilə bağı olur ki, bu da Quran dilinin özünəməxsusluğu və qeyri-adi üslubu ilə bağlıdır:

إِنَّ الَّذِينَ يَأْكُلُونَ أَمْوَالَ الْيَتَامَى ظُلْماً إِنَّمَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ نَاراً وَسَيَصْلَوْنَ سَعِيراً (النساء: 10)

وَمَن يَفْعَلْ ذَلِكَ عُدْوَاناً وَظُلْماً فَسَوْفَ نُصْلِيهِ نَاراً وَكَانَ ذَلِكَ عَلَى اللهِ يَسِيراً (النساء: 30)

Qurani-Kərimdə cəmi bircə ayədə keçmiş zaman felindən sonra gələn ظلماً kəlməsi isə məchulla deyil, məlum feillə bağlıdır:

وَجَحَدُوا بِهَا وَاسْتَيْقَنَتْهَا أَنفُسُهُمْ ظُلْماً وَعُلُوّاً فَانظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُفْسِدِينَ

Yuxarıda göstərdiyimiz misallar və aparılan araşdırmalar bir daha Quran tərkib və ifadələrinin özünəməxsusluğunu sübut edir və ilahi mətnin təkrarsız ecaz xüsusiyyətlərinə və qeyri-adi üsluba malik olduğunu deməyə əsas verir.

Quran konstruksiyalarının ritmik və vəzn quruluşu

Bəşər övladı özünün milli, mənəvi, elmi və tarixi ənənələri əsasında minillər ərzində formalaşdırdığı və artıq sabitləşmiş dilin norma

və prinsiplərinə uyğun olaraq, bir çox sahələri ehtiva edən üslub qaydalarını müəyyənləşdirmiş və həmin qaydalar çərçivəsində fikir və düşüncələrini ifadə etməkdədir. Xalqların, artıq öyrəşdikləri dil və üslub normalarından istifadə edərək cahanşümul əsərlər yaratdıqları bir dövrdə səmadan endirilən Qurani-Kərimin mətni, ilk növbədə, ərəbləri və zaman keçdikcə bütün bəşəri yaradıcılıq nümunələrini özünün ilahi mətni, ifadə tərzi və üslubu ilə heyrətə salmış, dünyanın ən bəlağətli söz sahiblərini mat qoymuşdur. Burada çox maraqlı cəhətlərdən biri ondan ibarətdir ki, ən yüksək və bəşər övladının ifadə imkanlarından çox uca səviyyədə nazil edilmiş Qurani-Kərimin söz, ifadə, konstruksiya və üslubundan faydalanaraq, ərəbcə danışan hər hansı bir şəxs öz danışıq və bədii yaradıcılığına onları bilavasitə tətbiq edə bilərmi? Aparılan araşdırmalar sübut edir ki, bu və ya digər bir insanın belə addım atması qismən mümkün olsa da, heç bir şəxs nitqini və yaradıcılığını bütövlükdə Quran mətni, üslubu, ifadələri, konstruksiyaları və sözləri əsasında qura bilməz!

Quran mətninin, üslubunun özünəməxsusluğu və fərdi xarakteri onun, hətta hədislərin dilindən də ciddi şəkildə fərqləndiyini deməyə əsas verir. Bəs görəsən, ilahi mətnin belə bir özünəməxsusluğu və qeyri-adi üsluba malik olması onun özünün mətni daxilində, ayələrdəki sözlər arasında hər hansı dəyişiklik etməyə mane olurmu? Başqa sözlə ifadə etsək, Quranda hər hansı bir sözü onun Allah kəlamında işlənən sinonimi ilə dəyişməyə cəhd etmək olarmı?

Bəribaşdan belə bir işə Allah kəlamına, onun ifadə tərzinə hər hansı bir şübhə yaratmaq məqsədilə deyil, məhz ilahi mətnin ecaz xüsusiyyətlərindən birini qeyd etmək üçün girişdiyimizi bildirir, məsələnin mahiyyətini oxucuların diqqətinə çatdırmaq istədiyimizi vurğulayırıq!

Məsələyə aydınlıq gətirməkdən ötrü yuxarıda dəlil göstərdiyimiz on (10) Quran ayəsinə nəzər salaraq, ayələrdəki sözlərdən birini ilahi mətndə yer almış kəlmələrdən biri ilə dəyişməyə cəhd göstərməyi faydalı hesab edirik:

1 - ... الآنَ حَصْحَصَ الْحَقُّ... (يوسف: 51)

الآن (ظهر) الحقُّ

Qeyd etmək lazımdır ki, əslində, hər iki sözün mənaca bir-birinə yaxın olmasına baxmayaraq, dəyişikliyə cəhd edilmiş misalda həm məna, həm də səslənmə baxımından nöqsan özünü göstərməkdədir. Belə bir nöqsan özünü əruz qaydalarında da büruzə verməkdədir. Belə ki, əruz qaydalarına görə, ərəb şerində beş hərəkənin bir-birini daim izləməsi

qadağan olunduğu kimi, dörd hərəkənin də (نَ ظَهَرَاً) bir-birinin ardınca fasiləsiz gəlməsi çox nadir hallardan hesab olunur. Burada diqqəti cəlb edən odur ki, məsələn, Quranın "əl-İsra" surəsinin səksən birinci (81) ayəsində olduğu kimi, (وَقُلْ جَاء الْحَقُّ وَزَهَقَ الْبَاطِلُ إِنَّ الْبَاطِلَ كَانَ زَهُوقاً) beş hərəkə bir-birini izləsə də, (قُ وَزَهَقَ), ayənin ahəngdarlıq və harmoniyasına heç bir xələl gəlmir. Quranın "ət-Tövbə" surəsinin qırxsəkkizinci (48) ayəsində isə (حَتَّى جَاء الْحَقُّ وَظَهَرَ أَمْرُ اللّهِ وَهُمْ كَارِهُونَ ...), hətta altı hərəkənin bir-birinin ardınca gəlməsi belə, ayədəki ahəngdarlığa heç bir xələl gətirmir, ilahi mətnin ümumi harmoniyasının qorunmasına mənfi təsir göstərmir.

İndi isə deyilənlərlə bağlı dəlil məqsədilə gətirdiyimiz ikinci ayəyə nəzər salaq:

2- إِنَّ الْإِنسَانَ خُلِقَ هَلُوعاً (المعارج: 19)

Bu ayədə mövcud olan هلوعاً kəlməsini Qurani-Kərimin "əl-Müddəssir" surəsinin onaltıncı (16) ayəsində (كَلَّا إِنَّهُ كَانَ لِآيَاتِنَا عَنِيداً) istifadə olunmuş عنيداً sözü ilə əvəz etsək (إِنَّ الإِنسانَ خُلِقَ عنيداً), orada həm nəhv, həm də əruz baxımından nöqsanın meydana çıxmasının şahidi ola bilərik.

Yuxarıdakı dəlillər arasında üçüncü (3) yerdə qərarlaşmış ayəyə nəzər salaq:

3 - وَإِلَى الْأَرْضِ كَيْفَ سُطِحَتْ (الغاشية: 20)

Bu ayədə yer almış سُطِحَتْ felinin yerinə "əl-İnsan" surəsinin ondördüncü (14) ayəsində (وَدَانِيَةً عَلَيْهِمْ ظِلَالُهَا وَذُلِّلَتْ قُطُوفُهَا تَذْلِيلاً) mövcud olan ذُلِّلَتْ kəlməsini qoymağa cəhd göstərsək, yuxarıda qeyd edilmiş eyni nöqsanın ortaya çıxması ilə üzləşərik.

Mövzunu davam etdirərək yuxarıda qeyd olunmuş digər doqquz (9) ayəyə də eyni üsulla yanaşaraq, onların mətnində mövcud müəyyən bir sözün yerinə Qurani-Kərimin digər ayələrində yer almış hər hansı kəlməni qoymağa cəhd etməklə baş verə biləcək dəyişikliklərə nəzər salmağı faydalı hesab edirik:

4 - ... وَكَانَ الْإِنسَانُ أَكْثَرَ شَيْءٍ جَدَلاً (الكهف: 54)

Ayədə qeyd olunmuş شيء sözünün yerinə Quranda dəfələrlə, o cümlədən "əl-Muminun" surəsinin 17-ci ayəsində (وَلَقَدْ خَلَقْنَا فَوْقَكُمْ سَبْعَ طَرَائِقَ وَمَا كُنَّا عَنِ الْخَلْقِ غَافِلِينَ) işlənmiş الخلق kəlməsini qoymağa cəhd göstərsək, ayənin konstruksiyasında ahəngdarlıq və harmoniyanın dərhal dəyişdiyinin və belə bir fəaliyyətin ayənin səslənməsinə xələl gətirdiyinin şahidi olarıq.

5 - وَإِلَى الْجِبَالِ كَيْفَ نُصِبَتْ (الغاشية: 19)

Ayədə dəyişiklik etməyə çalışaraq, نُصِبَتْ felinin yerinə Quranın "əl-Əraf" surəsinin yüzqırxüçüncü ayəsində (وَلَـكِنِ انظُرْ إِلَى الْجَبَلِ فَإِنِ اسْتَقَرَّ مَكَانَهُ فَسَوْفَ تَرَانِي...) məhz dağların təsviri üçün verilmiş استقرّت sözünü qoymağa çalışsaq (وإلى الجبال كيف استقرّت), ayədəki harmoniyanın aradan getdiyini görə bilərik.

6 - وَإِلَى السَّمَاء كَيْفَ رُفِعَتْ (الغاشية: 18)

Eyni şəkildə, bu ayədə yer almış رُفِعَتْ kəlməsini Quranın "əl-Qəsəs" surəsinin dördüncü ayəsində (إِنَّ فِرْعَوْنَ عَلَا فِي الْأَرْضِ...) qeyd olunmuş علا feili ilə əvəz etməyə cəhd göstərsək, ayənin konstruksiyasının vəzn baxımından dəyişərək, ümumi harmoniyaya uyğun gəlmədiyinin və beləliklə də qeyri-müəyyən mənzərənin şahidi olarıq.

7 - إِنَّمَا جُعِلَ السَّبْتُ عَلَى الَّذِينَ اخْتَلَفُواْ فِيهِ... (النحل: 124)

Qurani-Kərimdə bənzər məqamlarda baş verdiyi kimi, burada da Allah kəlamının ecaz xüsusiyyətlərinin təsdiqi məqsədilə müəyyən dəyişiklik etməyə cəhd göstərməklə فيه birləşməsinin əvəzlinə عليه birləşməsini qoymağa çalışsaq, yəni həmin ayəni إِنَّمَا جُعِلَ السَّبْتُ عَلَى الَّذِينَ اخْتَلَفُواْ عليهِ... şəklində qiraət etməyə çalışsaq, ayənin tilavətində ümumi ahəngdarlığa xələl gəldiyinin şahidi olarıq.

8 - كَلَّا إِذَا دُكَّتِ الْأَرْضُ دَكّاً دَكّاً (21)

Ayədəki الأرضُ kəlməsini Qurani-Kərimdə bir neçə dəfə, o cümlədən "Ğafir" surəsinin dördüncü (4) ayəsində (...فَلَا يَغْرُرْكَ تَقَلُّبُهُمْ فِي الْبِلَادِ) yer almış البلاد sözü ilə əvəz etməyə və ayəni كلّا إذا دُكّت البلاد دكّا دُكّا şəklində qiraət etməyə çalışsaq, konstruksiyanın orijinallığına və harmoniyanın pozulmasına səbəb olarıq.

9 - ... وَخُلِقَ الإِنسَانُ ضَعِيفاً (النساء: 28)

Ayədəki الإنسان sözünü Quranda dəfələrlə işlənmiş, o cümlədən "əl-Əhzab" surəsinin dördüncü (4) ayəsində (مَّا جَعَلَ اللَّهُ لِرَجُلٍ مِّن قَلْبَيْنِ فِي جَوْفِهِ...) yer almış الرجل ismi ilə əvəz etməyə və həmin ayəni müvafiq dəyişikliyə uyğun qiraət etməyə cəhd göstərsək, ayə öz ritmikliyini itirmiş olur və vəzni korlanır.

İndi isə dəlil olaraq gətirdiyimiz misallardan sonuncusuna nəzər salaq:

10 - وَإِذَا الْمَوْؤُودَةُ سُئِلَتْ بِأَيِّ ذَنبٍ قُتِلَتْ (8-9)

Ayadəki الموؤودة kəlməsini Quranda bir neçə dəfə və həmçinin "əl-Kəhf" surəsinin 49-cu ayəsində (...مَالِ هَذَا الْكِتَابِ لَا يُغَادِرُ صَغِيرَةً وَلَا كَبِيرَةً إِلَّا أَحْصَاهَا...) yer almış الصغيرة sözü ilə əvəzləməyə və həmin ayəni وَإِذَا الْصغيرَةُ سُئِلَتْ بِأَيِّ ذَنبٍ قُتِلَت şəklində qiraət etməyə cəhd etsək, ayənin ümumi ahəngdarlığına xələl gəldiyinin şahidi olarıq.

Yuxarıda deyilənləri nəzərə alaraq, Qurani-Kərimin hər hansı bir səhifəsini açaraq, əlimizi müəyyən ayələrin üzərinə qoymaqla onların səslənməsinə diqqət yetirək və həmin ayələrin strukturunda müəyyən dəyişiklik etməyə cəhd göstərməklə oradakı ahəngdarlıq və vəznin pozulmasını və beləliklə də, Allah kəlamının təkrarsız bir kəlam olduğunu, onun ecazını müşahidə edək:

وَكُلَّ إِنسَانٍ أَلْزَمْنَاهُ طَآئِرَهُ فِي عُنُقِهِ وَنُخْرِجُ لَهُ يَوْمَ الْقِيَامَةِ كِتَاباً يَلْقَاهُ مَنشُوراً. اقْرَأْ كَتَابَكَ كَفَى بِنَفْسِكَ الْيَوْمَ عَلَيْكَ حَسِيباً. مَّنِ اهْتَدَى فَإِنَّمَا يَهْتَدِي لِنَفْسِهِ وَمَن ضَلَّ فَإِنَّمَا يَضِلُّ عَلَيْهَا وَلاَ تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَى وَمَا كُنَّا مُعَذِّبِينَ حَتَّى نَبْعَثَ رَسُولاً (الإسراء: 13-15)

Ayələrdə mövcud olan sözləri bəşəri kəlamlarla əvəz etmədən, ərəb ədəbi dilinin qayda-qanunlarına və normalarına xələl gətirmədən yalnız onların hər bir ayədəki yerini dəyişərək, cümlələrin strukturunda müəyyən dəyişiklik etməklə qiraət və tilavətdə baş verən fərqi və nöqsanı nəzərə çatdırmaq istəyirik. Bu işdə ərəb dili sahəsindəki bütün imkan və bacarıqlarımızdan istifadə edərək zahiri mənanın da müəyyən dərəcədə qorunmasına çalışacağıq:

"وألزمنْا في عنُق كلّ إنسانٍ طائره، ويَلقى يومَ القيامة كتاباً منشوراً نُخرجُه له. كفى اليومَ بنفسِك حسيباً عليك، فاقرأ كتابك. فإنما لنفسِه يهتدي منِ اهتدى، وإنما يَضِلّ عليها من ضلّ، ولا وازرةَ تَزِرُ وِزْرَ أُخرى، وحتّى نَبعث رسولاً ما كنّا مُعذِّبين."

Yuxarıda müəyyən dəyişikliyə uğramış cümlələr bəşəri tərkiblər vasitəsilə verilsə də, Quran sözləri və tərkiblərindən ibarət olduğu üçün insan düşüncəsinin məhsulu hesab oluna bilməz. Ayələrdə konstruksiya baxımından yerdəyişmə aparmağa edilmiş cəhdlər zamanı cümlələri nə qədər Quran üslubuna uyğunlaşdırmağa çalışsaq da, onların ilahi mətnin ifadə üsulu çərçivəsindən çıxdığının şahidi oluruq. İndi hər iki variant – ilahi ayələr və təhrif olunmuş mətn oxucuların qarşısındadır. Hər hansı kənar təsir və istiqamətləndirmə xaricində onların fərqli cəhətini müəyyənləşdirmək mümkündür.

Həmin iki variant arasında çox da dərinə getmədən, tələsik şəkildə fərqi müəyyənləşdirməyə çalışsaq, ağlımıza ilk növbədə poetik nümunə ilə ona yazılmış şərh gəlir. Belə ki, ikinci variantda vəzn sıradan çıxmış, mətnin qiraət və tilavəti əhəmiyyətini itirmiş, ifadənin bəlağət və fəsahəti yox olmuşdur!

Belə olduğu halda, sual oluna bilər: Quranın vəzni vardırmı? Uzun illərdən bəri Qurani-Kərimin mətninin üslub və ifadə tərzi baxımından təhlili və araşdırılması həmin suala müsbət cavab verməyə imkan yaradır. Qeyd etmək lazımdır ki, Quranın vəzni əl-Xəlilin kəşf etdiyi əruz vəzninin məlum on altı bəhrindən heç birinə tam şəkildə

uyğun gəlmir. Orta əsrlərin məşhur filoloqlarından olmuş əl-Suyuti Quranın yalnız on beş ayəsinin əruz vəzninə uyğunluğunu bildirmişsə də, ümumilikdə Qurani-Kərimin vəzn baxımından bəşəri düşüncənin məhsulu olan vəznlərdən köklü şəkildə fərqləndiyi, bu ilahi mətnin şeir olmadığı artıq sübut olunmuş faktlardan və şübhəsiz həqiqətlərdəndir!

Bütün bunlar belə deməyə əsas verir ki, Quranın vəznləri məxsusi olub, Onun ehtiva etdiyi konstruksiya və ayələrin kəmiyyət və miqdarı qədərindədir.

Həmin vəznlərin ən qəribə xüsusiyyətlərindən və ecaz tərəflərindən biri də odur ki, onların Quranda bəzi ayələrdə cəmi bircə dəfə mövcud olmasına və bir daha təkrarlanmamasına baxmayaraq, onlar həm ərəblər, həm də qeyri-ərəblər tərəfindən dərhal mənimsənilir, yadda saxlanılır və insan düşüncəsinin məhsulu olan nümunələrdən asanlıqla fərqləndirilir.

Qeyd etmək lazımdır ki, hər hansı bir vəznin müəyyənləşdirilməsi və onun tanınması bilavasitə onun təkrarı ilə bağlıdır. Başqa sözlə desək, yalnız təkrarən, mütəmadi şəkildə işlənməklə hər hansı bir vəzn öz mövcudluğunu təsdiqləyir. Məhz belə təkrar "daxili təkrar" və ya "ən kiçik təkrar" adlanır və vəzn əldə etmək üçün iki zəruri şərtdən biridir. Digər təkrara gəlincə, o, "xarici təkrar" və ya "ən böyük təkrar" adlanır.

Buradan belə çıxır ki, hər hansı yeni bir vəznin insanlar tərəfindən qəbul edilməsi üçün onun "ən kiçik təkrardan" "ən böyük təkrara" qədər mərhələlərlə tədrici bir yol keçməsi vacibdir.

Quran konstruksiyalarına, onların vəzn xüsusiyyətlərinə gəlincə, burada məsələ tamamilə fərqlidir. Belə ki, Allah kəlamında kiçik və böyük təkrara ehtiyac olmadan ilahi nəzm əsasında yeni-yeni, bənzəri olmayan vəzn və ölçülər meydana gəlir və tez bir zamanda insan beynində və yaddaşında qeyri-adi bir şəkildə möhkəmlənir.

Görəsən, Quran konstruksiyalarının təkrarlanmadan müəyyən vəznlərə çevrilməsinin sirri və səbəbi nədir?

Qeyd etmək lazımdır ki, poetik nümunələrdə beytlər daxilində təfilələr təkrarlandığı halda, Quran ayələrini ehtiva edən kəlmələr və tərkiblər ayə daxilində təkrarlanmır. Bundan başqa, artıq qeyd etdiyimiz kimi, Quran konstruksiyalarının əksəriyyəti də bir dəfədən artıq təkrarlanmır və məlum olduğu kimi, bu konstruksiyaların şeirin məlum əruz vəznləri ilə heç bir əlaqəsi yoxdur.

Belə olduğu halda, heç bir bəşəri ölçüyə sığmayan Quran mətninin bu kimi vəzn xüsusiyyətinə necə malik olmasını Allah kəlamının digər bir ecaz xüsusiyyətində başqa hal kimi qiymətləndirməmək mümkün deyil və bu işdə insan dərrakəsinin öz acizliyini qəbul etməkdən başqa bir yolu yoxdur!

Quran konstruksiyalarında hər hansı dəyişikliyə cəhd sayları ayələrdəki konstruksiyalar qədər olan vəznlərin sıradan çıxmasına səbəb olur. Quran konstruksiyalarındakı vəznlər şeir vəznlərinin məhvərini təşkil edən hərəkə və sükunlar, yaxud bəşəri düşüncənin məhsulu olan əsərlərdəki kimi hərflərin bir-birini izləməsi əsasında yaranmır.

Zənnimizcə, Quran vəzni və ahəngdarlığının meydana gəlməsində mövcud ədəbi tənqid vasitələrinin fövqündə dayanan amil və ünsürlər iştirak edir və məhz bu səbəbdən də insan ilahi mətnin həmin xüsusiyyətlərini tam şəkildə qavraya bilmir və onlar üçün müəyyən ölçülər yarada bilmir. Allah kəlamının mənalarını tam dolğunluğu ilə başa düşməsələr belə, Qurani-Kərimin filoloji tədqiqini qarşılarına məqsəd qoymuş bir çox Qərb alimləri bu ilahi mətnin üslubu, vəzn və ahəngdarlığı qarşısında mat qalmışlar. Amerikan yazıçısı Cefri Lanc bunları nəzərə alaraq yazır: "İnsanın Quranın xariqüladə qüvvə və təsirini hiss etməsi üçün müsəlman olması mütləq deyildir. Bu, bir çox qeyri-müsəlman və ya Quranın tədqiqi sayəsində İslamı qəbul etmiş Qərb alimlərinin gəldiyi nəticədir. Britaniyalı alim, ərəb dili mütəxəssisi Arser Ceh Arberi Quranın ona həyatının ən kritik və çətin dövründə necə kömək etdiyini belə təsvir edir: "Mən ərəb dilində Quranı qiraət edərkən, sanki qəlbimin döyüntüsünə və nəbzimin səsinə qulaq asırdım...".

Qeyri-müsəlman yazıçılardan biri Fredrix Deni Quran qiraətinin "çox gözəl həyəcanlandırıcı bir təcrübə" olduğunu xatırladaraq yazır: "İnsan Quran oxuduğu zaman onu sirli və gizli olan hisslər bürüyür. Sanki oxumaq məhz Qurana aid bir hərəkət və haldır" [13, 195].

Quranın vəzn və ahəngdarlıq məsələsi ilə bağlı çox fikirlər söylənmiş, bu məsələdən geniş bəhs edilmiş və ona saysız rəylər bildirilmişdir. Zənnimizcə, Orta əsrlərin görkəmli filoloqu əl-Səkkakinin söylədikləri müsəlman mədəni irsi tarixində ən doğru olub, məsələnin mahiyyətini anlamağa yardım edəndir: "Bilin ki, ecaz məsələsi və Quranın vəzn problemi çox qəribədir. Onlar gözəlliklərə bənzəyir, belə ki, gözəlliyi dərk etmək olur, amma tam şəkildə vəsf etmək olmur" [12,. 526].

Nəticə

Quranın qəlib və konstruksiyaları, onların ritmik və vəzn quruluşu, ahəngdarlığı məsələsinə həsr edilmiş tədqiqatlar onun tarixin bütün dövrlərinə aid bəşəri düşüncənin yaratdığı bədii və elmi sənət nümunələrindən fərqli bir mahiyyətə malik olduğunu deməyə əsas verir. Yaradanın bəşəriyyətə ünvanladığı sonuncu müraciəti olan bu ilahi vəhylər toplusu özünəqədərki səmavi kitablardan nüzulu və mahiyyəti etibarilə seçildiyi kimi, onlardan ifadə tərzi, üslubu, ehtiva etdiyi məna çalarları, qəlib və konstruksiyaları ilə də fərqlənir. Bütün yaradıcılıq nümunələrindən seçilən Quran mətni özünün ecaz xüsusiyyətləri ilə insan övladının təfəkkür tərzinin fövqündə dayanır.

Cahiliyyət poeziyası kimi bədii sənət nümunələri yaratmış, cansız təbiəti gözəl bədii vasitələrlə bəzəməyə qadir olan və yüzlərlə bədii konstruksiya yaradıb onları tətbiq etmək bacarığına malik olan ərəblər göydən qəflətən şimşək kimi çaxmış ilahi mətnin ifadə tərzinin və o vaxta qədər eşitmədikləri konstruksiyaların yeniliyi və bolluğu qarşısında özlərinin acizliklərini etiraf etmək məcburiyyətində qalmışlar.

Bəşər övladının ifadə imkanlarından çox yüksək səviyyədə nazil edilmiş Qurani-Kərimin söz, ifadə, konstruksiya və üslubundan faydalanaraq, ərəbcə danışan bu və ya digər bir insanın nitq və yaradıcılığını Quran ayələri ilə nə dərəcədə bəzəməsindən asılı olmayaraq, heç bir şəxs nitqini və yaradıcılığını bütövlükdə Quran mətni, üslubu, ifadələri, konstruksiyaları və sözləri əsasında qura bilməz!

Qeyd etmək lazımdır ki, Quranın vəznləri məxsusi olub, Onun ehtiva etdiyi konstruksiya və ayələrin kəmiyyət və miqdarı qədərindədir. Həmin vəznlərin ən qəribə xüsusiyyətlərindən və ecaz tərəflərindən biri də odur ki, onların Quranda bəzi ayələrdə cəmi bircə dəfə mövcud olmasına və bir daha təkrarlanmamasına baxmayaraq, onlar həm ərəblər, həm də qeyri-ərəblər tərəfindən dərhal mənimsənilir, yadda saxlanılır və insan düşüncəsinin məhsulu olan nümunələrdən asanlıqla fərqləndirilir.

Qeyd etmək lazımdır ki, hər hansı bir vəznin müəyyənləşdirilməsi və onun tanınması bilavasitə onun təkrarı ilə bağlıdır. Başqa sözlə desək, yalnız təkrarən, mütəmadi şəkildə işlənməklə hər hansı bir vəzn öz mövcudluğunu təsdiqləyir.

ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Dəmirçizadə Ə. (1962) Azərbaycan dilinin üslubiyyatı. Bakı.
2. Məmmədəliyev V.M. (1985). Ərəb dilçiliyi. Bakı.
3. Məmmədov N.N. (2008). Qurani-Kərimin üslub xüsusiyyətləri. Bakı.

Rus dilində:

4. Белкин В.М. (1975). Арабская лексикология. Москва.
5. Мамедов Н.Н. (2018). Лингво-стилистический анализ коранического языка. Москва.
6. Резван Е.А. (2001). Коран и его мир. Санкт-Петербург,

Ərəb dilində:

7. البخاري، محمد بن إسماعيل، صحيح البخاري، بيروت، ١٤٠٧ هـ، ج ٦
8. الحسناوي، محمد، الفاصلة في القرآن، عمان، ٢٠٠٠
9. حسين، طه، في الادب الجاهلي، القاهرة، ٢٠٠١
10. الزركشي، بدر الدين، محمد بن بهادر، البرهان في علوم القرآن، القاهرة، ١٩٥٨، ج ١
11. الشوكاني، محمد بن علي، فتح القدير، القاهرة، ٢٠٠٧، ج ١
12. السكاكي ابو يعقوب يوسف، مفتاح العلوم، بيروت، ٢٠٠٠
13. لنج جيفرى، حتى الملائكة تسأل، القاهرة، ٢٠٠٢

İngilis dilində:

14. Asad, Muhammad. (2001). The Message of the Quran. Bristol.
15. Murry, John Middleton. (1960). The Problem of Style. Oxford.

проф. Насрулла Мамедов

УНИКАЛЬНЫЕ ФОРМЫ И КОНСТРУКЦИИ В СВЯЩЕННОМ КОРАНЕ

РЕЗЮМЕ

Статья повествует о ниспослании Корана на языке, стилистически отличающемся от языка арабов периода Джахилия. От-

мечается, что одним из качеств Божественного текста, доказывающим его единичный характер и относящимся к его чудесным свойствам, является своеобразие его форм и конструкций. В этой небесной книге, занимающей особое место в искусстве слова, приводятся хадисы Пророка и примеры человеческого творчества с соответствующими аятами Корана в качестве факторов, доказывающих важность подчинения структуры слов особым правилам и внимательности при чтении.

Автор отмечает, что подчеркивая небесную сущность хадисов "Кудси" и "Набави" с точки зрения "формы и содержания" или "содержания", ученые-хадисоведы, с легкостью отмечающие разницу между их манерой выражения и стилем, утверждают, что язык Корана также отличается от всех существующих образцов словесного искусства. Несмотря на то, что Пророк (да благословит его Аллах и приветствует) широко использует аяты Корана в хадисах, а праведные халифы и сподвижники - в своих проповедях и речах, разница в небесном выражении ощущается сразу.

По мнению автора, структура как сур, так и аятов Корана, его состав, манера выражения и стиль, смысловые оттенки и содержащиеся в нем конструкции, отличают его от прочих литературных образцов, созданных человеческой мыслью, и доказывают, что слово Божье является неповторимым литературным образцом.

Ключевые слова: *Коран, стиль, конструкция, ритм, размер, благозвучие.*

prof. Nasrulla Mammadov

SPECIAL FORMS AND CONSTRUCTIONS IN THE QUR'AN

ABSTRACT

The article discusses the revelation of the Qur'an in a style different from that of the ignorant Arabs. It is noted that one of the qualities of the divine text, confirming its individual character and related to its miraculous properties, is associated with the originality of the forms and structures contained in it. Examples of hadiths of the

Prophet and examples of human creativity are given in the corresponding verses of the Qur'an, for example, the fact that the verbal structures of this Heavenly Book, which occupies a special place in the field of verbal art, are subject to special rules and must be taken into account when reading.

The author notes that by emphasizing the heavenly nature of "saints" and “prophetic” hadiths in terms of “word and meaning” or “meaning”, hadith scholars who easily distinguish their style of expression say that the language of the Qur'an a is different from all existing examples. word art. Although the Prophet (peace and blessings be upon him) made extensive use of the verses of the Qur'an in hadith, the Rashid Caliphs and Companions in their sermons and speeches, the difference in heavenly expression is immediately noticeable.

According to the author, the structure of both the surah and the verse of the Qur’an, its composition, style and expression, the shades of meaning and construction that it contains, distinguish it from all literary examples created by human thought, and confirm that the word of Allah is a unique literary example.

Keywords: *Qur’an, style, construction, rhythm, versification, harmony*

İSLAM DÜŞÜNCƏ PARADİQMASI: ƏSAS YÖNLƏR

fil.e.d. Nəsib Göyüşov,
AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu
Farsdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri
nesib2010@yandex.ru

XÜLASƏ

İslam düşüncəsi ilahi vəhy, monoteist vəhdət və hikmətlə sıx əlaqədə olan zəngin bir xəzinə olmaqla, bütün varlıq aləmi, kosmos və insan həyatının yönlərini əhatə edir. İslam düşüncəsinin miqyası universal əhəmiyyətə malikdir, eyni zamanda, zahiri və batini aləmin bütün təbəqələrini ehtiva edir; burada hissi qavrayış, əqli dərrakə, mənəvi işıqlanma və batini mərifət bir araya gəlir.

Qurana görə, universal və sonsuz ağıl (ilkin ağıl) Allaha aiddir, insana verilən cüzi ağıl isə onun öz dünyəvi işlərini səmərəli şəkildə tənzimləmək üçündür. Quran da yer alan rasionalizmədalət və əxlaqi-mənəvi dəyərlərlə söykənir və müasir praqmatizmdən fərqlənir, belə ki, sonuncu düşüncə tərzi bir tərəfin və ya zümrənin maraqlarını təmin etməyə yönəlir. İslamda əxlaq və mənəvi dəyərlərdən kənar ağıl və dərrakə yoxdur.

İslam düşüncəsinin öçüləri bir çox cəhətləri əhatə edir: ilahi hikmət, rasional bilik və epistemologiya, ontologiya və kosmologiya, fenomenologiya və hermenevtika, mötədillik, hənif ənənənə və ədalət. Bu düşüncənin estetik yönü də universal xarakter daşıyır.

Qurana görə düşüncənin mərkəzi nəfsdən paklanmış qəlbdir, beyin və ağıl isə bir alət və vasitədir, düşüncəni sağlam və doğru məcraya yönəldən qəlbdir. Bu mənada saf ağıl sahibləri diqqəti cəlb edir.

İslam mütəfəkkirləri elmlərin maraqlı təsnifatını vermiş, elmlərin dərəcə və mərtəbələrini, idrak pillələrini və mərhələlərini müəyyənləşdirmişlər. Eyni zamanda, fərqli düşüncə sahiblərinin idrak qabiliyyətini mərtəbələr üzrə təsnifləndirmişlər; peyğəmbər və övliyalar, ulul-əlbab (saf ağıl sahibləri), elmdə dərin (rasix) olanlar, bilənlər və adi adamlar.

Açar sözlər: *İslam düşüncəsi, universallıq, vəhy, ağıl, ruh.*

Giriş

İslam vəhyə və ilahi hikmətə əsaslanan sabit və zəngin sivilizasiya nümunəsidir, ona görə burada yer alan düşüncə paradiqması digər mədəniyyətlərə xas fikir cərəyanlarından fərqlənir.

Bəlli olduğu kimi, sivilizasiya mədəniyyətdən daha geniş məfhum olmaqla xalqlar və ölkələr çərçivəsindən çıxaraq universal cəhətləri birləşdirir. Bəşər tarixində bir çox mədəniyyətlər və sivilizasiyalar olub və onların mühüm komponentlərindən biri dindir və bu baxımdan, Buddizm, Xristianlıq və İslam daha geniş çevrədə yayılaraq, böyük sivilizasiya yaratmışdır, ancaq Yəhudilik və digər etnik-məhəlli dinlər məhdud çərçivədə qalmışlar.

Vil Duranta görə, sivilizasiyanın dörd ünsürü vardır: iqtisadi təminat, siyasi quruluş, əxlaqi-mənəvi ənənələr, bilik və sənətə meyil (7, s.4). A.Toynbi sivil cəmiyyət üçün iki şərt irəli sürür: yaradıcı azlıq və fəaliyyət üçün münasib şərait – bu bir dinamik prosesdir. Sivilizasiya üçün texniki tərəqqi o qədər də önəmli deyil, özünütəsdiq, özünüifadə və dəyərlərin yüksəlişi lazımdır. O, mənəvi amili sivilizasiyanın təməli sayır (31, s. 45). Əslində, sivilizasiyanın mahiyyəti, canı və ruhu bir-birini tamamlayan iki qütb ilə müəyyən edilir: yüksək mənəvi dəyərlər və zəngin düşüncə tutumu.

Sabit sivilizasiya məkanında təşəkkül tapan İslam düşüncəsi ağıl və mənəvi gücə önəm verən çoxqatlı, çoxyönlü, əhatəli, hərtərəfli və çevik bir düzənə malikdir. Adətən, ağıl və elmə əsaslanan təlimlər rasional adlanır, bu isə sadə dil ilə ifadə etsək, insanların əməl və rəftarlarının ağıl və məntiqi dəlillər əsasında tənzimlənməsidir. Rasional fikrin kökünü çox zaman yunanlarda və Aristoteldə görürlər, ancaq onu təkcə yunanlardan Avropaya keçərək, Qərbin inkişafına təkan verən hadisə kimi məhdudlaşdırmaq doğru deyildir. Rasional düşüncənin bariz və çeşidli nümunələrini ayrı-ayrı mədəniyyətlərdə, fərqli səviyyə və şəkillərdə müşahidə etmək olar və yunanlar özləri çox elmləri Şərqdən götürmüşlər. Bundan başqa, bəzi müasir sosioloqlar İslama qeyri-rasional model kimi yanaşırlar ki, bu, əslində, əsassız və yanlış bir iddiadır. Bu iddia haradan gəlir? Məsələ burasındadır ki, modern Qərb düşüncə paradiqması daha çox maddi fayda və praqmatik maraqlara əsaslanır, bu isə vəhydən qaynaqlanan və əxlaqi-mənəvi dəyərlərə üstünlük verən İslam düşüncə modelindən fərqlidir.

Əslində, İslam və onun təməl kitabı Qurani-Kərim hər bir məsələyə ağıl, elm və məntiqi dəlil çərçivəsində yanaşır. İslam mahiyyətcə bir-birini tamamlayan üç əsas hədəflə gəlmişdir:

a) *bəşəri küfr, xurafat və cəhalətdən (zülmətdən) çəkindirərək imana, elmə, düşüncəyə (nura) doğru yönəltmək;*

b) *onun əxlaqını pis sifətlərdən (rəzalət) təmizləyərək, Allahın bəyəndiyi yaxşı sifətlərlə (fəzilət) zinətləndirmək və Allaha yaxınlaşdırmaq;*

c) *insanların ictimai həyatda münasibətlərini islah edərək, İlahi düzənə xas ali meyarlara uyğun qanun və ədalətlə tənzimləmək.*

İslama görə düşüncə ağıl vasitəsilə yaranır, ancaq onu doğru yola yönləndirən qəlbdir, belə ki, düşüncə nəfsdən paklanmış qəlb ilə büllurlaşır.

İslam düşüncə modelini araşdırarkən onun bir-biri ilə bağlı olan mühüm yönlərini, müxtəlif tərəfləri arasında olan münasibəti ayırd etmək lazım gəlir. Bu düşüncənin ayrılmaz iki əsas qaynağı vardır: Quran və Peyğəmbər bərəkəti. Eyni zamanda, düşüncə, maddi ünsür deyil, ruh və mənəvi qütblə əlaqəlidir.

Mövzunun açıqlaması

İslam düşüncəsi haqqında nisbətən dolğun təsəvvür yaratmaq üçün onun mühüm yönlərinə aydınlıq gətirmək lazım gəlir.

Düşüncə, vəhy və tövhid

İslam düşüncə paradiqması vəhydən qaynaqlanan tövhidə əsaslanır ki, ondan kənar elm və məntiq düşünülməz, maddi ünsür və fiziki ölçü ilə məhdudlaşmaz, nəfsə uymaz, qüsursuz, saf və intəhasız olar. Bu düşüncə biçimi universal olmaqla gerçəkliyə çoxyönlü baxışı ilə seçilir və əslində, bir neçə baxış bucağı araya gəlir: ontoloji, fenomenoloji, antropoloji, epistemoloji, metafizik, sosial-mədəni, mənəvi-ruhi və estetik. Düşüncə Allah qatından, Lahutdan Nasuta, zərrəciklərə qədər bütün varlıq təbəqələrini əhatə etməklə sabit mahiyyətə malikdir, çünki İslam sivilizasiyasının öz mahiyyəti belədir: "Vəhydən qaynaqlanan sabit və möhtəşəm İslam sivilizasiyası ora-bura meyillənərək köklü dəyişkənliyə uğramamışdır. Onun bariz cəhəti sabitlikdir. Bunun sayəsində sənət və elm dəyişməz prinsiplərə əsaslanaraq sabitlik qazandı və büllurlaşdı. Məhz həmin sabitliyi Qərbdə tez-tez durğunluq və səmərəsizlik kimi qələmə verirlər" (21, s. 21). Qeyd edək ki, uzun əsrlər boyu saxlanılan sabitlik və davamlılıq iki əsas dəlil ilə izah edilə bilər:

1. İslamın universal dəyərləri və bəşəri təməllərə əsaslanması.

2. Kainat və insan fitrətində yer alan qanunların sabitliyi və təbiiliyi.

Bu iki səbəb və dəlil universal vəhdət prinsipindən gəlir. Ona görə İslamda "Sənət və elm vəhyin mahiyyətini təşkil edən vəhdətə əsaslanır. Demək olar ki, bütün İslam elmlərinin, daha geniş planda, bütün qədim və Orta əsrlər kosmoloji elmlərin məqsədi bütün mövcudatın vəhdət və qarşılıqlı əlaqəsini göstərməkdir" (21, s.21). Kosmos və insan həmin ilahi vəhdətə bağlıdır və təbiətin vəhdəti də buradan qaynaqlanır.

Seyid Hüseyn Nəsrin "İslam kosmoloji doktrinasına giriş" kitabına Gibbin yazdığı ön sözdə iki önəmli məqama toxunulur (18, XIV).

1. Quran kainata və onun bir parçası olan bəşərə İlahi ədalət bucağından yanaşır, bütövlük (kamillik), harmoniya və həqiqət Allahdan qaynaqlanır. Varlıq aləmində ümumi düzən və bütövlük bununla təmin edilir, bütün ünsürlərin həyati fəaliyyəti bir növ qarşılıqlı hüquq və vəzifələrin harmonik münasibəti üzərində tənzimlənir, hər bir şey Allah tərəfindən onun üçün təyin edilmiş məqsədə doğru hərəkət edir. Burada cəmiyyət üçün üç tələbin ödənilməsi nəzərdə tutulur: birincisi, universal mənəvi tələbat; ikincisi, hikmət, yəni hər şeyin yerli yerində və doğru-düzgün və sağlam ağıl əsasında icrası; üçüncüsü, cəmiyyətin bütövlüyü üçün onun harmonik idarəsi yolunda dövlətin vəzifəsi.

2. İslamda elmə münasibət digər sivilizasiyalardan fərqlidir, burada elm vəhy ilə əlaqəli olmaqla universal meyara malikdir, bunu nəzərə almasaq, müasir elmlər İslam üçün süni quyruq kimi görünər.

Seyid Hüseyn "Nəsr" kitabının girişində ənənəvi İslam sivilizasiyasında elmin vəhy ilə bağlı olduğunu diqqətə çatdırır. Belə ki, kainat və ictimai həyat bununla nəfəs alır (18, s.1). Müəllifə görə, digər sivilizasiyalarda təbiəti yalnız onun maddi faydası və cəmiyyətin gündəlik tələbatına xatir öyrənilər. İslamda təbiət eyni zamanda simvollar kitabıdır, insan isə kamala doğru mənəvi səfərində maddi ünsürlərdən xilas olmaq və mənəvi işıqlanma məqsədi daşıyır (həmin, s.2). Müəllif Əzizəddin Nəsəfdən misal gətirir, belə ki, o, kainat ilə Quran arasında analogiya qurur, kainat özü də bir kitabdır; təbiətdə olan hər cins surə ilə, hər bir növ ayə ilə, hər bir varlıq nümunəsi hərflə uyğundur; hər gün tale və zamanın gərdişi bu kitabı (kainatı) surə-surə, ayə-ayə və hərf-hərf qarşınıza qoyur ki, onların mənasını biləsiniz (həmin, s.2). Müəllif digər əsərində göstərir ki, "Başqa düşüncə tərzinə adət edən oxucular anlaşılması çətin olsa da, İslam elmini qavramaqdan ötrü

onun öz prinsiplərini bilməlidirlər. İslamın təməli "Allahdan başqa Allah yoxdur" və "Məhəmməd Allahın rəsuludur" deyimində yer alan mənadır" (21, s.22). Deməli, İslam düşüncəsi Quran və Peyğəmbər bərəkəti ilə əlaqəlidir.

Başqa bir yandan İslam düşüncəsi ruhla bağlıdır: "İslamda hər şey ruhla nəfəs alır, ruh Vahidi aşkar edir və Ona doğru aparır, çünki İslamın son hədəfi İlahi Vəhdəti aşkar etmək, kəsrət aləmini həmin Vəhdətin nuruna qovuşdurmaqdır. Tövhid prinsipi İslam çağırışının qəlbi olmaqla, İslam mənəviyyatının rəngarəng yönlərini və şəkillərini müəyyən edir. İslamın ruhi qütbü tövhiddir. İslam ruhunun əsas qaynağı Qurandır. Bu ruh insan dilində sözlə təzahür etmişdir. Bunun kimi Peyğəmbərin qəlbi və zatı isə İslam ruhunun digər qaynağıdır" (20, s.21). Başqa tərəfdən insan ağlı da ruhla bağlıdır: "Vəhy mələyi Cəbrayıl, eyni zamanda, müqəddəs ruh olmaqla ilkin ağıl ilə bağlıdır ki, o da öz növbəsində, insan ağlını işıqlandırır, ona intuisiya, batini görüm qabiliyyəti verir. Vəhy işığında ağıl təkcə dərrakə kimi hərəkət etmir, həm də batini görüm vasitəsi kimi fəaliyyət göstərir və imanla birləşərək insana dinin, xüsusilə Quranda yer alan Allah kəlamının batini anlamına nüfuz etməyə yardımçı olur" (22, s.96).

Vəhyin qaynağı Allahdır və fəal ağıl ilkin səbəbdən doğursa, bu səbəb fəal ağlın vasitəsilə insan üçün vəhy yolunu açır. Farabiyə görə, peyğəmbərin iki önəmli risalətinə uyğun vəhyin iki ölçüsü vardır: birincisi, nəzəri, ikincisi, əməli. Farabi elmin yüksək səviyyəsini "mərifət" adlandırır, bəzən ona hikmət deyir; hikmət ən gözəl şeylər haqqında ən gözəl bilgi sayılır və insan hikmət əsasında həqiqi səadətə yetişə bilir. Müəllifə görə, hər peyğəmbər hikmət sahibi və həqiqi filosofdur (1, s.71). Bunu məcazi mənada anlamaq olar, çünki Peyğəmbəri müasir anlamda folosof anlandırsaq, onun mərtəbəsini aşağı salmış oluruq. "İslam düşüncəsi ali dərəcəni aşağı, əqli olanı cismani, müqəddəs olanı isə dünyəvi səviyyəyə endirməyə icazə vermir" (19, s.4).

İslam ağıl ilə vəhy arasında bağlılıq görür: "Qərb mədəniyyətində ağıl ilə vəhy arasında kəskin sərhəd qoyulur. İslamda isə düşüncə tərzinin yerini müəyyənləşdirmək üçün ağıl ilə vəhyin ziddiyyət təşkil etdiyini deyil, onların harmonik şəkildə bir-biri ilə bağlı olduğunu, birbirini tamamladığını bilmək gərəkdir" (4, s.127). Bundan başqa, "Xristianlıq düşüncəsində Allahın İsada təcəssümü (inkarnasiya), üçlük ideyası neoplatonizmdə olan loqos anlamı ilə uyğundur. İslamda isə tövhid anlamı tarix, zaman və məkandan üstün tutulan ***universal hə-***

qiqəti əks etdirir. Bu isə insan fitrətinə xas ümumi bir dəyər kimi Adəmdən başlayaraq, 124 min peyğəmbərin təlimini əhatə edir" (həmin, s.128).

İslamda antropokosmik görüş bilən subyekt ilə bilinən obyekt arasında ikili sərhəd qoymur. İntellektual baxış iki tərəf arasında ontoloji əlaqə görür. Belə olmasa, tövhid unudular və insan eqosentrizmə yuvarlananar (həmin, 148). Molla Sədra vəhy ilə ağıl arasında olan əlaqəni belə izah edir. "Qurana xas vəhy görmək üçün nurdur. Bu, səxavətlə nur saçan günəş kimidir. Fəlsəfi ağıl isə sanki həmin nuru görən gözdür, bu nur olmadan kimsə heç nə görmür. Əgər insan gözünü bağlayırsa və fəlsəfi ağıldan yan keçirsə, bu nuru görə bilməz, çünki nuru görmək üçün göz lazımdır" (22, s.2). Bunula da peripatetik (rasional) və intuitiv anlaq arasında körpü qurulur.

Qəzali ayrıca bir risaləsində ağıl ilə vəhy arasında əlaqəni araşdırarkən orta mövqe tutur, yəni onları bir-birinə qarşı qoymur, əksinə, onlar arasında uzlaşma qurur. Bu yanaşmanı ayələrin yozumunda universal qanun kimi təqdim edir. "Hər bir məsələnin dərkində ağıl önəmli amildir, ancaq elə hallar vardır ki, vəhyin incəliklərini adi ağıl ilə müəyyən etmək olmur. Əşəri kəlamına görə, vəhyin tam dərki mümkün deyildir. Quranda bu barədə buyurulur ki, "Allah sizə çox az bilik vermişdir" ("İsra", 85). Ağlın şahidliyini inkar etmək olmaz, aydın dəlilə (bürhan) əsaslanan rasional düşüncə səhv edə bilməz. Ağıl vəhyin bəhs etdiyi incəlikləri sübut etməyə qadir olmasa da, vəhyin şahididir və onun həqiqiliyini göstərir" (14, s.110).

Qəzalinin açıq elm konsepsiyasına görə, bilik ilə vəhy məhsulu olan Quran mətni arasında əlaqə vardır. "Tolerant bir yanaşma ilə bilik və iman arasında irfani ahəngdarlıq yaranır. Qəzali üçün ağıl biliyin ali mötəbərlik meyarı deyildir, ruh ondan üstün olmaqla zövq, qəlb gözü (bəsirət) və batini müşahidə ilə dünyanı daha dərindən dərk edir. Zahiri aləm daha yüksəkdə olan qeybin rəmz və işarələridir, görünməyən aləmi isə adi ağıl və biliklə anlamaq mümkün deyildir" (33, s.88). Mülk və ya şəhadət aləmi mələkut və qeyb aləminə keçid üçün işarələr verir.

Demək, İslamda düşüncə vəhy ilə bağlıdır və ondan qaynaqlanır, eyni zamanda, ağıl ilə vəhy bir-birinə zidd deyil, əksinə, onlar bir-birini tamamlayan mühüm dəyərlər kimi tanınır.

Düşüncə və hikmət

İslam fikir dünyasında hikmət fəlsəfənin sinonimi kimi işlənmişdir ki, bunda yanlışlıq yoxdur, ancaq yadda saxlamaq lazım gəlir ki, hikmətin möhtəvası daha geniş tutumlu, məzmunu daha dərindir. Antik mədəniyyətdə "müdriklik" mənasi bildirən hikmət insanın xüsusiyyətidir, lakin Qurandan gələn hikmət Allaha məxsus olmaqla onun bir qismi insana bəxş edilir. Allahın və Quranın adlarından birinin "həkim" olması bununla bağlıdır. "Bəqərə" surəsinin 269-cu ayəsində buyurulur: "*Allah istədiyi şəxsə hikmət bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir. Bunu ancaq* ***saf ağıl sahibləri*** *dərk edərlər*!".

Ayədə bəhs edilən "hikmət" məfhumunun geniş təfsiri vardır və onun yığcam mənası belədir: "Harada pisliyi aradan qaldıraraq, yaxşılığı gerçəkləşdirmək varsa, orada hikmət mənası var. Hikmət hər bir şeyin və işin nəticəsini nəzərə alaraq, sağlam düşüncə və əməli birləşdirir. Yəni bir işi kor-koranə deyil, əvvəlini və sonunu düşünərək, ondan törənəcək təhlükələri dəf edərək həyata keçirməkdir. Hikmət faydalı olanı aşkar etməkdir, bu isə ***təkcə özünə görə deyil, başqalarına da yarayacaq faydalı işlər*** ortaya qoymaqdır. Deməli, hikmət əməli baxımdan ədalətdir. Hikmət varlıq düzənində hər şeyi yerli-yerinə qoymaq, gözəl və doğru işlərə yönəlmək, Allahın əxlaqı ilə əxlaqlanmaqdır. Aləmdə görünən hikmət mütləq hakim olan Allahın qüdrət və hikmətinə şahiddir və insanlardakı hikmətin təməli Ona iman etmək, Onu tanımaq, Onun qurduğu düzəndəki incəlikləri, həmin düzənin qanun və qaydalarını səbəb və nəticə baxımından gedişatını anlamağa çalışmaq, ona uyğun davranmaqdır. Cənab Allah insana haqq və batili, şeytani olanla rəhmani olanı anlayıb ayırd edə biləcək, pisliyi aradan qaldırıb yaxşılığı və doğru olanı gerçəkləşdirə biləcək hikmət bəxş edir" (9, c.2, s.204-212).

Hikmətə yetişməyin başlanğıcı düşüncədir ki, bu da təmiz ağıl və pak qəlb ilə olur. Allahın verdiyi ağıl şəhvətlərə və şeytani vəsvəsələrə yönəlirsə, nə öz iç aləmində olan dəyərləri, nə də xarici aləmdə baş verən ibrətli səhnələri düşünüb anlaya bilir. Düşüncə nəfsə uyarsa, insan nəyin gerçək və nəyin xeyirli olduğunu ayırd edə bilməz, belə olduqda, hikmət yolunda irəliləmək mümkün deyil. Bu cəhətdən böyük ilahi lütf olan hikmət, ancaq təmizürəkli, pakdüşüncəli ağıl sahiblərinə verilir.

Qəlb düşüncə mərkəzi kimi

Təbiidir ki, insanın ən böyük fəziləti ağıl və bilikdir; Allahın yaratdığı ilkin xilqət metafizik məna bildirən ilkin ağıl (külli ağıl), qələm, nur, və ya Məhəmmədin nuru adlanır. İnsan ağıl nuru ilə yaxşı və pisi, xeyir və şəri, haqq və batili bir-birindən ayırd edir. Qurana görə düşüncənin mərkəzi qəlbdir, beyin və ağıl isə onun üçün vasitədir. Qəlb nəfsi meyillərdən təmizlənməsə, mənəvi yöndən işıqlanmasa, beyin və ağıl gerçəkliyi düzgün və mükəmməl anlaya bilməz. Seyid Şərif Cürcani qəlbi ***rəbbani lətifə və insani həqiqət*** adlandırır (6, s. 156). Müəllifə görə, "Haqqın təcəllisinin qəlbə saçmasına əngəl olan nəfsi amillər hicabdır". Eynəlqüzzat Həmədani və İmam Qəzali məşhur hədisə əsaslanaraq mərifətə yetişmək üçün insan vücudunda cəmlənən 70-dən 70 minə qədər hicabdan qurtulmağı zəruri bilmişlər (10, s.102; 15, s.89-93). Nəfsi pərdələrin götürülməsi isə kəşf adlanır. Nəcməddin Razi "Qaf" surəsinin 22-ci ayəsinə əsaslanaraq, "kəşf" məfhumunu qəflət pərdəsinin götürülməsi və bəsirət gözünün açılması kimi izah edir: *"(Ona belə deyiləcəkdir:) "Sən (dünyada) bundan qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!"*.

Demək, qəlbin üzərindən pərdələr götürülməsə, insan həqiqəti anlaya bilməz. Quran ayələri təkidlə bu məsələyə işarə edir:

"*(Ey Məkkə əhli!) And olsun ki, Biz onlara verdiyimiz imkanı sizə verməmişdik. Biz onlara* ***qulaq, göz və qəlb*** *vermişdik, lakin nə qulaqları, nə gözləri, nə də qəlbləri onlara heç bir fayda vermədi. Çünki onlar Allahın ayələrini (bilə-bilə) inkar edirdilər. Onları istehza etdikləri (əzab) sardı*" ("Əhqaf", 26).

"*Bunlar o kəslərdir ki, Allah onların* ***qəlblərini, qulaqlarını və gözlərini möhürləmişdir****. Onlar qafildirlər!*" ("Nəhl", 108).

Quranda dəfələrlə işarə edilən qəlblərin möhürlənməsi ("Bəqərə", 7; "Əraf", 100-101; "Tövbə", 87; "Yunus", 74; "Mumin", 35**, "**Münafiqun", 3; "İsra", 45-46; "Nisa"; 155; "Casiyə", 25) və ya qıfıllanması ("Bəqərə", 88; "Məhəmməd", 23-24) məcazi anlamda sağlam düşüncə yolunda əngəldir. Digər ayədə qəlb açıq-aydın düşüncə qaynağı hesab edilir:

"Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, ***düşünən qəlbləri****,* ***eşidən qulaqları*** *olsun? Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki* ***ürəklər*** *(qəlb gözü) kor olar*" ("Həcc", 46).

Eynəlqüzzat Qurani ilahi xəzinə adlandırır və təəssüflənir ki, "insanlar həmin xəzinədən yalnız ərəb yazılarını və sözləri eşidib, lakin batini mənalara yiyələnməyiblər. Quran həqiqətini dərk etməyən, yal-

nız hərfləri oxuyanlar Əbu Ləhəb və Əbu Cəhl kimi kordur" (10, s.169-170). Bundan başqa, kosmoloji düzənə uyğun qəlbin **7 halı və dərəcəsi (tövr)** mərifətin dərəcələri ilə uzlaşır (25, s.196-197). Maraqlı haldır ki, düşüncənin qaynaqlarından olan eşitmək və görmək də qəlb ilə birgə fəaliyyət göstərir. Deməli, hətta hissi qavrayış qəlb ilə əlaqəyə girərək, düşüncəni sağlam məcraya yönəldir və mükəmməl biçimə salır. Eyni zamanda, imanın yeri beyin deyil, qəlbdir, o isə imanla və Allahın zikri ilə xatircəmlik tapır ("Rəd", 28). Elm də, iman da saleh əməl ilə bağlıdır. İmanla saleh əməl yanaşı gələrək bir-birini tamamlayır: "Bəqərə", 25, 62, 82, 110, 288; "Ali-İmran", 57; "Nisa", 57, 179; "Maidə", 9, 69, 93; "Ənam", 48; "Əraf", 35, 41-42; "Tövbə", 120 və s.

Düşüncə zamanı ağıl, dərrakə, nəfs və qəlb arasında qarşılıqlı əlaqə qurulur. Burada ağıl, qəlb, iman və əməl (əxlaq) bir-birindən ayrı deyil, üstünlük iman və əxlaqın vəhdətinə, saf qəlbdə hasil olan sağlam düşüncəyə verilir.

Rasional düşüncə və epistemologiya

Quran ayələri dəfələrlə insanı hər bir məsələdə elmə və düşüncəyə dəvət edir, ona görə müsəlmanlar yabançı elmlərə böyük maraq göstərməklə biliklərini zənginləşdirdilər və düşüncə üfüqlərini genişləndirdilər; xüsusilə Abbasilər dövründə hind, rəhləvi, qədim Suriya və yunan dillərindən tərcümələr vasitəsilə digər sivilzasiyalar ilə tanış oldular. "İsgəndəriyyə, Beyrut, Əntakiyə, Hərran, Nisibeyn, Gundi-Şapurda fəaliyyət göstərən xristian, sabei, İran elm və mədəniyyət mərkəzləri ilə əlaqə qurdular, elmi fəaliyyətə heç bir məhdudiyyət qoymadılar" (8, s.239). Bunun nəticəsi olaraq, İslam sivilizasiyası intellektual səviyyəsi ilə önə çıxdı.

Təbiidir ki, düşüncə ağıl ilə hasil olur və bu məfhum intellekt, dərrakə, duyum, sağlam anlaq kimi mənaları bildirir. İslam hər bir məsələyə sağlam ağıl və məntiq ölçüləri ilə yanaşır. Kəlam, fiqh, təfsir və digər islami elmlərdə hər bir mövzu ətrafında irəli sürülən mülahizə, mühakimə, hökm dəlil və məntiqə əsaslanır. Burada məntiqdənkənar heç bir məsələ yoxdur. Bununla bağlı iki əsas istilah daha çox diqqəti cəlb edir:

1. Bürhan ən sağlam və doğru dəlil ("Bəqərə", 111, "Nisa", 174, "Ənbiya", 24) sayılır (23, s.137).

2. Hüccət isə mübahisədə məqsədi açıqlayan kəskin və tutarlı dəlil ("Bəqərə", 150, "Ənam", 149) kimi qəbul edilir (23, s.264).

Quranın özünəməxsus məntiqi yanaşması və polemik inandırma üsulu Allahın tam yetkin dəlillərinə (hüccətül-bəliğə) əsaslanır ki, bu da həqiqətin dərkinə və səhvlərdən qorunmağa yardım edir. İlk növbədə, Allahın kainatda olan işarə və nişanələri (ayələri) tutarlı dəlil və ibrət kimi qəbul edilir. Mühakimə üçün üç əsas meyar vardır: Quran, peyğəmbər sünnəti və ictihad (müctəhidin araşdırmaları). Burada icma (konsesus) və qiyas (müqayisəli təhlil və analogiya) İslam hüquq məktəbinin dərinliyinə və genişliyinə dəlalət edir, yəni mühakimə və hökm bütün cəhətlərin və incəliklərin nəzərə alınmasını tələb edir, hisslərə qapılaraq səthi və qərəzli yanaşmaya yol verilmir. Hər bir mühakimənin bütün tərəfləri elmə söykənir, elm ilə tənzimlənir və onunla müəyyən edilir.

İslama görə, hətta din ağıl ilə bağlıdır və düşüncədən kənar din yoxdur. "Həqiqi (haqq) dinin şərti ağıldır, onun yeri ağıl sahibləridir, deməli, ağılsızlar bu mənada məsuliyyət daşımır. Dinin meyvələri yaxşı və xeyir işlərdir, bu isə kimsəyə görə deyil, Allah rizasına görə olan yaxşılıqdır (9, c.1, s.93-94). Demək, iman və etiqad məsələsinə də məntiqlə yanaşılır və əqli yanaşma mühüm yer tutur (27. s. 206). Quranda bütpərəstliyin əsassızlığı bir neçə məntiqi dəlil ilə və psixoloji yöndə izah edilir:

a. Onlar bir şeyə qadir deyilsə, necə tanrı ola bilərlər? ("Nəhl", 20-21; "İsra", 56-57);

b. Onlara ibadət etməyə heç bir dəlil yoxdur ("Əraf", 71);

c. Onlar heç nə yaratmağa qadir deyil ("Əraf", 191; "Nəhl", 21); "*(İbrahim onlara) dedi: "Siz özünüz yonub düzəltdiyiniz şeylərəmi ibadət edirsiniz?; Halbuki sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!*" ("Saffat", 95-96);

d. Onlar kimsəyə fayda və zərər verməz ("Əraf", 197; "Furqan", 3; "Şüəra", 73).

"Ənam" surəsinin 75-81-ci ayələrində İbrahim peyğəmbərin bütpərəstlikdən tövhidə yönəlməsi məntiqi dəlil və ardıcıllıqla verilir: Hz. İbrahim öncə ulduza ibadət edir, lakin onun batdığını görüb Aya üz tutur, o batanda Günəşə yönəlir, gün batanda isə nəticə çıxarır ki, aləmdə nə varsa hamısı dəyişkəndir və deməli, onlara ibadət doğru deyildir. 79-cu ayədə bütpərəstlikdən tövhidə dönüş başlayır.

Quranda düşüncə ilə əlaqəli əsas məfhumlar bunlardır: elm, ağıl, fikir, fiqh, fəhm, şüur. Elm daha geniş məna bildirir: bəlli etmək, bilmək, öyrənmək və öyrətmək (23, s.719). Allahın sifətlərindən biri və ən önəmlisi alimdir, O, hər şeyi bilir və heç nə Ondan gizli qalmaz

("Haqqə", 18) (həmin, s.721). Ağıl elmi qəbul edən gücdür (həmin, s.715).

Hz. Əliyə görə, ağıl iki qisimdir: təbii gələn ağıl və eşitməklə əldə edilən ağıl. Göz görməsə, Günəş nurunun faydası olmaz, bunun kimi də təbii və fitri olmayan ağıl fayda verməz (həmin, s.716). Ağıl dəvənin ayağına bağlanan ipə deyilir, bu onun üçündür ki, dəvə kənara getməsin. Ağıl da insanı müəyyən ölçü və çərçivədə davranmağa məcbur edir.

"Fikir" sözünün mənası ayırd etmək, bir şeyin məğzini qabıqdan ayırmaq və onun mahiyyətinə yetişməkdir. Fikir bir şeyi bilməyə sövq edən gücdür (23, s.805). Təfəkkür isə nəzəri ağlın həqiqətə yetişməsi üçün hərəkətidir, bu isə incələmək və araşdırmaq deməkdir (həmin. s.805). Təfəkkür ağıl vasitəsilə edilir və Quranda bu iki məfhum yanyana çox işlənir. Ümumiyyətlə, elm, ağıl və fikir yaxın mənada işlənir və bir-birini tamamlayır. "Rum" surəsinin 21-24-cü ayələrində "düşünən qövm", "bilən qövm", "eşidən qövm", ağıllı qövm" tərkibləri mənaca bir-birini tamamlayır. Oxşar məzmun "Zümər" surəsinin 42-43-cü ayələrində yer alır. Eyni zamanda düşüncə eşitmək və görməklə sıx əlaqəli olduğundan, bu iki feil həmin mənada geniş işlənir. Allahın görmək və eşitmək sifətləri alim sifətini tamamlayır.

İslamda ağıl və məntiqə əsaslanan epistemoloji baxışın təzahürlərindən biri fiqhdə, yəni hüquq elmində müşahidə edilir ki, bu barədə Qəzalinin mövqeyi maraq doğurur. Məşhur şərqşünas F. Rouzental öz fundamental araşdırmasında diqqəti bu məqama yönəldir; belə ki, İmam Qəzali fiqhə aid "Müstəfsə" adlı əsərini ağılın tərifi ilə başlayır, birinci yerdə ağıl və sonra elm (bilik) gəlir: "Allaha həmd olsun ki, ***ağlı*** ən istənilən xəzinə, ***elmi*** isə ən faydalı məhsul, fəziləti nemətlərin ən şərəflisi, bütün faydalı və tərifəlayiq keyfiyyətlərin ləyaqətlisi, hər əməlin şərəfli tacı etdi. Elm öz növbəsində mürəkkəb və qələmi şərəfləndirdi, elm öyrənmək minbər və kürsülərə şöhrət qazandırdı, yazı isə səhifələri və kitabları bəzədi, onun şərəfi ilə zəiflər güclüləri üstələdi, onun şöləsi gözdən gizli və örtülü olanları aydınlatdı, göz və ürək onun nuru ilə doldu, onun parlaq şöləsi ilə Günəş dövr edən fələk kimi öz dəyərini itirdi, onun batini nuru ilə göz və baxışların zahiri işığı sönükləşdi. Ağıl nuru, hətta gözün zəif gördüyü və yetişmədiyi "pərdəarxası" qaranlıq dibinə də nüfuz edə bildi" (27, s. 236-237).

Quranda elm işıqla müqayisə edilir, çünki hər şey işıqla görünür və aşkar olur. İmam Qəzali "Mişkatül-ənvar" risaləsində Quranın "Nur" surəsini təfsir edərkən qeyd edir ki, əsl nur Allahdır, Ondan baş-

qa gerçək nur yoxdur. İşığın başqa mənaları istiarə kimi işlənir. "Günəş və digər səmavi cisimlər insan gözünün zahiri görümü üçün nur saçır, buna bənzər olaraq Quran və digər səmavi kitablar da batini görüm üçün vasitə sayılır və nurun həqiqi mənasını ifadə edir" (həmin, s. 159). Quranda Allah nur kimi təsəvvür edilidiyi kimi ("Nur", 35), iman da nurla müqayisə edilir ("Bəqərə", 257, "Maidə", 15, "Hədid", 9, "Talaq", 11), İslam peyğəmbəri nur saçan çıraq "siracən-münirən" ("Əhzab", 46) kimi göndərilir, ona endirilən Quran isə yenə nur ("Nisa", 174, "Şura", 52, "Təğabun", 8) adlanır, Tövrat və İncil ("Maidə", 44, 46), digər peyğəmbərlərə endirilən kitablar da ("Ali-İmran", 184, "Fatir", 25) nur sayılır. Nur isə məcazi mənada elm və bilik deməkdir. İnsanları küfr qaranlığından iman nuruna ("İbrahim", 1, 5), cəhalətdən mərifətə çıxarmaq üçün elm nuruna ehtiyac vardır. Zahiri aləmdə olan şeylər nurla bəlli olduğu kimi, onların mahiyyəti də batini mərifət nuru ilə müəyyən edilir. Ona görə səmavi kitablarda yer alan düşüncə, ağıl və təfəkkür nur kimi təsəvvür edilir.

Elm ilə Quran arasında bağlılıq vardır və bilik Quranda yer alan hökmlərin dərin qatlarının dərkinə kömək edir. Daha çox bilməklə Quranda açıqlanan Allah kəlamının məqsədini anlaya bilirik. Qəzali Quranı elmi düşüncə üçün güc qaynağı, elmlərin ustadı hesab edir. "Quran əqli (rasional) elmləri əvəz etmir, ancaq onların zəruriyyətini təsdiqləyir. Əqli elmlər insanın mənəvi nicatı üçün bilik vermir, ancaq nicat axtaran insana nəticə çıxarmağa imkan yaradır, onun idraki və mənəvi mövqeyini gücləndirir. Quran elm və əməli bir-biri ilə birləşdirir, elmi biliyi insanın mənəvi təkamülündə mühüm amil hesab edir" (33, s.87).

IX-XII əsrlərdə İslam sivilizasiya məkanında əqli və elmi fəaliyyət elə bir zirvəyə yüksəlmişdir ki, müxtəlif elm sahələri arasında ahəngdar əlaqə qurulmuş, elmlərin təsnifatı verilmişdir. Bu təsnifat uzun əsrlərboyu təşəkkül taparaq, təhsil sisteminin məğzini təşkil edən dərəcələr üzrə verilir. İslamın təməli tövhid və ondan doğan universal vəhdət düşüncəsi hər şeyə şamil edilir. "Kosmoloji düzənə vəhdət gözü ilə baxan İslam elmlərə də bu cür yanaşır. Elmlər bir ağacın çox sayda budaqları kimi təsəvvür edilir; həmin budaqlar ağacın təbiətinə uyğun olaraq yarpaqlayır və meyvə verir. Burada təbii böyümə və inkişaf prosesi gedir; budaqlar sonsuz halda böyüyə bilmədiyi kimi, elm sahələri də nizamsız inkişaf edə bilməz.

Orta əsrlər İslam müəlliflərinə görə, bir ağacın budaqlarının bir qismi hədsiz böyüyərək, ağacın ümumi harmoniyasını pozduğu kimi,

müəyyən elm sahələrinin hüdudsuz irəliləyişi ümumi elmi harmoniyanı poza bilər. Deməli, müxtəlif elmlərin inkişafı ahəngdar getməlidir" (21, s.59).

İslam elm və düşüncəyə əsaslanan bir məktəbdir. Qərb şərqşünaslarından biri belə yazır: "Orta əsrlərdə avropalıların məfkurəsi katolik ehkamları ilə Aristotelin formal məntiqi arasındakı sintezdən yaranan sxolostikanın təsiri altında donuq bir vəziyyətə düşür. Onlar antik mədəniyyət, neoplatonizm və xaçpərəstlik arasında əlaqə qurmaqla donuq ehkamlardan qurtarmağa çalışırlar. Bu dövrdə çiçəklənməkdə olan İslam elm və mədəniyyətinin avropalılara təsiri daha güclü olur" (35, s. 82-85). Məşhur elm tarixçisi C. Bernal yazır: "Roma imperiyasının süqutu ardınca Avropanın böyük bir qismi xaosdan əziyyət çəkərkən İslam dünyası parlaq çiçəklənmə dövrünü yaşayırdı. Burada elm canlı və dinamik bir sistem şəklində inkişaf etmişdi" (2, s.167). Deməli, İslam elmi və rasional düşüncəyə önəm verən məktəbdir.

Onu da qeyd edək ki, ənənəvi İslam düşüncə aləmində ağıl, bilik, dərrakə, intuitiv anlaq, peyğəmbərə xas elm və s. məfhumlar sonralar Qərb fəlsəfəsi məktəblərində fərqli mənalar kəsb etmişdir (22, s.94). Levi-Strossa görə, qərblilər əvvəlki əsrlərdə digər mədəniyyətlər haqqında səthi məlumat əldə etmişlər. İkincisi, onlar insanı təbiət və canlı aləmdən ayıraraq ona hakim etdilər, bununla hər cür sui-istifadəyə yaşıl işıq yandırdılar. İnsanla təbiət və canlı aləm arasında çəkilən bu çəpər daha sonra qala divarı kimi insanlar və mədəniyyətlər arasında qoyuldu, onlar özlərini digər xalqlara imtiyazlı sivilizasiya sahibi kimi təqdim etməyə başladılar və bununla ***eqosentrizmə*** yuvarlandılar (32, s. 26). Bunun səbəbi odur ki, modern Qərb düşüncə paradiqması Antik mədəniyyətdən gələn müsbət rasional dəyərləri, Xristianlıqda yer alan əxlaq və mərhəməti, renesansdan doğan insaniyyət və humanizmi gözardına vuraraq dar hedonizm, nihilizm, utilitarizm və eqosentrizmə meyilləndi. Ona görə Quranda yer alan rasional yanaşma liberal düşüncə paradiqmasından köklü şəkildə fərqlənir. belə ki, birincidə bu məfhum yüksək əxlaqi-mənəvi və insani meyarlara əsaslanaraq bütün bəşərə və insani münasibətlərə şamil edilir, ancaq ikincidə müəyyən zümrələrə xas praqmatik maraqlar üstünlük təşkil edir.

Kosmoloji düzən

İslam düşüncə paradiqmasını anlamaq üçün burada yer alan ontoloji və kosmoloji düzən barədə təsəvvürə malik olmaq lazımdır. İslam kosmoqrafiyasında mühüm şərt tövhidlə uyğun universal vəhdət

anlamıdır, yəni kosmoloji düzənin bütün təbəqələri arasında vəhdət müşahidə edilir. Bu vəhdət isə Allah qatından gəlir və tövhidlə bağlıdır. "Başqa düşüncə tərzinə adət edən oxucular üçün anlaşılması çətin olsa da, İslam elmini qavramaqdan ötrü onun öz prinsiplərini bilmək lazımdır. İslamın təməli "Allahdan başqa Allah yoxdur" və "Məhəmməd Allahın rəsuludur" deyimində yer alan mənadır" (21, s.22). Bu ümumi tövhid prinsipindən çıxış edərək, İslam düşüncəsinin mahiyyətini incələmək mümkündür.

Həmin prinsipə görə, bütün kainat və varlıq təbəqələri ilahi harmoniya ilə nəfəs alır və tənzimlənir. "İslamda yer alan ədalət, harmoniya və nizamlı düzən konsepsiyası bütün kosmosa şamil edlir, onun bütün ünsürləri arasında hər birinin öz təbiətinə xas tarazlıq vardır və onlar arasında əlaqə yuxarıdan-aşağı, doqquzuncu göy təbəqəsindən ən aşağıda olan yeraltı minerallara qədər hər şeyi əhatə edir" (18, s.XVI). İlahi vəhdət prinsipi və bununla bağlı kosmos və təbiətin vəhdəti olduqca önəmlidir. "İslam sivilizasiyasında tövhid düşüncəsi hər bir səviyyədə əsas prinsip olaraq qəbul edilir, qalan nə varsa onları kölgədə qoyur, hər şey bundan asılıdır" (həmin, s.4). Eyni zamanda, vəhdət anlamı universal xarakter daşıyır, onun ontoloji, kosmoloji, fenomenoloji, metafizik, epistemoloji, mənəvi, sosial-psixoloji və əxlaqi yönləri bir-biri ilə əlaqəli və dinamik münasibətdədir.

Antik mədəniyyətdə varlığın əsasında kainat və kosmos dayanır və burada düşüncə modeli kosmosentrizmdir, Orta əsrlər xristian mədəniyyəti teosentrizmə söykənir, renesansdan sonra yaranan Avropa mədəniyyətində isə insan amili önə çıxır və antroposentrizm ortaya gəlir. Bəs İslam düşüncə modeli necədir? Quran tövhidə əsaslanaraq, Allah, kainat və insan arasında tarazlı vəhdət görür, bu düzəndə insan bədən cəhətdən dünya ilə, ruh baxımından Allahla bağlı olduğu üçün Allahın yer üzərində xəlifəsi sayılır. İnsanın şərəf və uca məqamı ona Allah tərəfindən verilən ruhla müəyyən edilir, ağıl da həmin ruhla bağlıdır.

Kosmoloji düzən əsasən ikiqütblüdür: mülk (fiziki aləm) və mələkut (ruhlar aləmi), zahir və batin, dünya və axirət. Bu iki tərəf bir-birinə qarşı qoyulmur və onlar arasında əlaqə vardır. S.H.Nəsrin qeyd etdiyi kimi, "İslam immanent (təşbih) və transendent (tənzih) arasında orta yol seçən dindir, bunları bir-birindən ayrı götürmək ciddi səhvlərə gətirib çıxarar. Onları bir-biri ilə əlaqəli təsəvvür etdikdə isə Allahla kainat arsında tarazlı münasibət qurmuş oluruq" (18, s.10). ***İmmanent*** bir şeyin öz təbiətindən doğan ayrılmaz xüsusiyyəti, özü

ilə ayrılmaz əlaqəsi deməkdir; ***transsendent*** isə kənarda baş verən hadisələri səciyyələndirir. Hiss üzvləri ilə qavranılan hər şey immanent hesab edilir. İlahiyyatda "immanent" məfhumu Allahın özü və ətraf aləmlə münasibətini ifadə edir. Tövhid baxımından Allahın zatı hissi duyğularla bəlli olan bütün dünyəvi cəhətlərdən uzaq və pakdır ki, bu "***tənzih"*** (transsendent) məfhumu, ancaq Allahın ad və sifətlər baxımından varlıq aləmi ilə əlaqəsi "***təşbih"*** (immanent) məfhumu ilə ifadə edilir. Deməli, burada zahir və batin ayrılmazdır və eyni zamanda, ibtidai dövrə xas varlıq aləmi və insanın kainatdan qoparılaraq tam ilahiləşməsi (sakralizasiya), yaxud əksinə, müasir Qərb düşüncəsinə uyğun onların Allahdan ayrılaraq, tam dünyəviləşməsi (sekulyarizasiya) məqbul deyildir. İslamda antropokosmik görüş bilən subyekt ilə bilinən obyekt arasında ikili sərhəd qoymur. "İntellektual baxış iki tərəf arasında ontoloji əlaqə görür. Belə olmasa, tövhid unudular və insan eqosentrizmə yuvarlanar" (4, s.148). Bunlar arasında tarazlı əlaqə qurulur.

Ənənəvi ikili düzən elmlərin təsnifatında da özünü göstərir: fizika (təbiət) və metafizika, nəzəri və əməli, əqli (dünyəvi) və nəqli (dini), ənənəvi və qeyri-ənənəvi və s.

İkili düzənlə yanaşı, İmam Qəzalinin irəli sürdüyü üçpilləli düzən vardır:

1. Mülk və şəhadət aləmi (hissi, zahiri, dəyişən maddi aləm).
2. Qeyb və mələkut (qeyri-hissi, dəyişməz ruhlar aləmi).
3. Bu iki aləm arasında vasitə və "bərzəx" sayılan Cəbərut aləmi.

"Mülk zahiri aləm olmaqla hisslərlə bəlli olur, mələkut isə batini aləm olaraq əqli yolla qəbul edilir və Cəbərut isə hər iki aləmi birləşdirir" (15, s.190). İbn Xəldun üçlük düzəni bu şəkildə verir (11, c.2, s.871):

1. Hissi aləm.
2. Batini aləm.
3. Ruhlar və ağıllar aləmi.

Ümumi şəkildə kosmoloji düzəni təşkil edən aləmlər: fiziki dünya (mülk), orta aləm (mələkut), yüksək aləm (cəbərut), ilahi ad və sifətlər aləmi (lahut) və ilahi mahiyyət (zat). Zat əbədi və dəyişməzdir, varlıq və kainatın yaranması Lahut aləmindən Allahın ad və sifətlərinin təcəllisi ilə başlar, eniş qövsünə uyğun nasutla (insan) bitər. Yenidən nasutdan-lahuta doğru yüksəliş qövsü üzrə hərəkət davam edər və varlıq dairəsi tamamlanar. "Məbdə (başlanğıc) ilə məad (son dönüş) arasında şaquli hərəkət davamlı bir prosesdir, vəhydən gələn dü-

şüncə yüksəliş xətti ilə hərəkət edir" (5. s.4-5). Bu isə vəhdətdən-kəsrətə, kəsrətdən-vəhdətə doğru hərəkətdir. Bu hərəkət dayanmır. Başqa bir yandan "İslamda hər şey ruhla nəfəs alır, ruh vahidi aşkar edir və ona doğru aparır, çünki İslamın son hədəfi ilahi vəhdəti aşkar etmək, kəsrət aləmini həmin vəhdətin nuruna qovuşdurmaqdır. Tövhid prinsipi İslam çağırışının qəlbi olmaqla, İslam mənəviyyatının rəngarəng yönlərini və şəkillərini müəyyən edir. İslamın ruhi qütbü tövhiddir. İslam ruhunun əsas qaynağı Qurandır. Bu ruh insan dilində sözlə təzahür etmişdir. Bunun kimi Peyğəmbərin qəlbi və zatı isə İslam ruhunun digər qaynağıdır" (20, s.21).

Öncə işarə edldiyi kimi, "Allah öz işarə və nişanələrini kosmosda (afaq) və insanın batini aləmində (ənfəs) göstərmiş ("Füssilət", 53), ruhundan insana üfürmüşdür ("Sad", 72). Tövhidin mahiyyətini axtaran insan mülkdən-mələkuta qədər şaquli mehvər üzrə Allahın həmin işarələrini seyr edir" (20, s.22).

Kainatdakı vəhdət və harmoniya Allahın birliyinə dəlalət edir və Allah hər şeyi yaradarkən ona ölçü (qədər) və mizan verib, göy təbəqələrini, Günəş və Ayı, Yeri və Yer üzərindəki dağları, çayları, bitkiləri nizamla yaradıb. Göy və yer, gecə-gündüzün növbələşməsi, külək və yağış, Ayın mənzillər üzrə yerləşməsi, illərin hesablanması qanun üzrə tənzimlənib. Onun xilqətində xələl və nizamsızlıq tapa bilməzsən ("Mulk", 3-4, "Nəml", 88). Allahın sünnət və qanununda dəyişiklik yoxdur ("Əhzab", 62, "İsra", 77, "Fatir", 43). Çoxallahlılıq olsaydı, dünya düzənində hərc-mərclik olardı, göyün və yerin nizamı pozulardı ("Ənbiya", 22).

İslam düşüncəsi ahəngdar dünya düzəni çərçivəsində hərəkət edir.

Fenomenologiya və hermenevtika

İslam düşüncəsində digər bir səciyyəvi cəhət gerçəkliyə fenomenoloji baxış və onun hermenevtik təfsiridir. Alman islamşünası A.Şimmel Ouranın "Füssilət" surəsinin 53-cü ayəsinə istinad edərək göstərir ki, bu Səmavi Kitabın kainata baxışında səciyyəvi bir cəhət mövcuddur: varlıq aləmində nə varsa, göylər, yer, təbiət ünsürləri, bitki və heyvanlar və ən sonda xəlq edilən insan Allahın ayələri, yəni dəlil və nişanələridir. Burada dialektik bir əlaqə ilə qarşılaşırıq: "Zat (Divine Essence) baxımından Allah hər şeydən pak və ayrı (münəzzəh "transsendent") olsa da, heç nə Ondan ayrı deyil. Eyni zamanda, Allahın ayələri bütün zahiri (afaq) və batini (ənfəs) aləmdə təcəlli edir ("Fussilət",

53). Varlıq aləmində olan hər şey bir ayə - yəni Allahdan gələn işarədir, bütün kainat da Allahın işarələrinin müşahidə edildiyi sonsuz bir kitabdır" (30, s.XII).

Bu cür baxış hermenevtik yanaşmaya yol açır ki, onun nümunələrini Eynəlqüzzat Həmədani və İmam Qəzalidə görürük.

Eynəlqüzzat Quran ayələrini hermenevtik üsulla izah etmək üçün batini işıqlanmaya ehtiyac duyur: "Salik batini işıqlanma sayəsində anlaya bilər ki, bütün Quranın möhtəvası "Bismillah"ın "beynindədir, ya da "Bismillah"ın "beyninin nöqtəsindədir; bütün mövcudat yenə "Bismillah"ın "beynindədir (10, s.172). Demək, bütün həqiqətlər Quranda ifadə olunub və onların qaynağı Allahın gizli zatındadır. Bütün mövcud aləmin, mülk və mələkutun qaynağı həmin pak zatdır. Nöqtə isə həmin gizli zatın mahiyyəti və cövhəri, məzhəri və rəmzidir. Onu bilən, hər şeyi bilər. Müəllif zahiri biliyi naqis hesab edir: "Əfsuslar olsun, biz Qurandan qara hərflərdən və ağ kağızdan başqa bir şey görmürük; Quranı *neçə min hicabla* xalqa göndəriblər; bütün hərflər Lövhi-Məfhuzda cəmlənib və Quranın hər hərfi burada Qaf dağından əzəmətlidir. Lövhi-Məfhuz ürəkdir, Qaf dağı isə Quran ayəsinin (Qaf:1) işarə etdiyi məqamdır" (həmin, s.173). Orta əsrlərdə Hz. Əliyə istinadən göylərin yeddi təqəbəsinə uyğun Quranın yeddiqat batininin məna dərəcəsi olduğu söylənilir (5, s.6). Yeddi rəqəmi isə sadəcə say deyil, həm də ayələrin şərhinin çoxqatlı olmasına dəlalət edir.

Varlıq aləmi haqqında təsəvvür hissi qavrayışla başlayır. Quran baxımından elm zahiri aləmin hisslər vasitəsilə dərki ilə bitmir, batinə və məna dərinliklərinə nüfuz edər. Qəzali "Cəvahirül-Quran" əsərində bu barədə yazır: "Siz nə vaxta qədər Quranın gizli mənalarında yer alan möcüzələrə göz yumaraq dəniz sahilində gəzib-dolaşacaqsınız?! Məgər həmin mənaların dərinliyinə üzərək onlarda gizlənən möcüzələri görməyin, onların yerləşdiyi adalara yetişməyin, oradakı inciləri toplamağın, hər şeydən öncə onların dərinliklərinə qərq olaraq və oradakı cəvahirləri əldə edərək zənginləşməyin vaxtı deyilmi? Siz hələ də sahildə dayanaraq qiymətli cəvahiratın zahiri parıltısına tamaşa etməklə özünüzü bu zənginlikdən məhrum etmirmi və özünüzə zərər yetirmirsinizmi?" (33, s.54).

Qəzali Quranın hermenevtikasına olduqca böyük əqli səy göstərmişdir. Allah kəlamı olaraq insanları səadətə və uğura qovuşdurmaq üçün Məhəmmədə vəhy olunan bu Kitab əsrlərboyu müsəlmanların həyatında həlledici rol oynamaqdadır.

Maddi dünyadakı (mülk) ünsürlər, bir növ, ruhlar aləminə (mələkut) aparan işarələrdir, "məğzə (lubb) yetişmək üçün qabıqdan (qişr) başlamaq lazımdır. Mənəvi aləmi dərk etmək üçün yenə maddi dünyadan hərəkət etmək gərəkdir (33, s.55)". Fiziki aləmlə metafizik aləm arasında əlaqə vardır və eyni zamanda, zahiri hisslərlə duyulan aləm obrazlar və simvollar aləmidir. "Qəzalinin semiotik təlimində görünən aləmdə mövcud olan hər şey görünməyən səmavi aləmdən bir nişanədir. Bunu batini duyumla anlamaq olar. Eynilə buna bənzər Quran mətni söz və ifadələrin işarə etdikləri bilikləri ehtiva edir" (həmin, s.85). Allahın elmi tükənməzdir: "Əgər yer üzündəki bütün ağaclar qələm, dərya da arxasından yeddi dərya qatılaraq (mürəkkəb) olsaydı, yenə də Allahın sözləri (yazmaqla) tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət, hikmət sahibidir!" ("Loğman", 27). İnsanın elmi isə məhduddur və zahiri hisslərlə ruhani və mənəvi həqiqətləri anlamaq olmur, ona görə "maddi dünyada olan təsvir və simvollar vasitəsilə mənəvi və ruhi aləmə yol tapmaq olur. Xəyal vasitəsilə misal aləminə və oradan həqiqətə keçid mümkündür. Mülk aləmi Mələkut üçün keçid sayılır. Quran mətninin dərkində də onun zahiri dərkindən batini həqiqətə yetişmək olur. Həmin həqiqət Quranın ürəyidir" (həmin, s.86).

Beləliklə, gerçəkliyə Allahın işarələri və nişanələri kimi fenomenoloji yöndən yanaşan Quran zahiri aləmə xas rəmz və işarələrlə semiotik və hermenevtik idrak üçün pəncərə açır.

Qələm, yazı və düşüncə

"Qələm" və ya "Nun" surəsində qələmə və yazıya and içilir. "Şübhə yox ki, istər həqiqət, istər məcaz, nə mənada olursa-olsun, qələmə and içilərkən burada tək bir qələm nəzərdə tutulsa belə, yenə qələm cinsinin və dolayısı ilə insan qələminin də şərəf və dəyəri anlaşılmış olur. Burada ilahi nemətə qovuşdurulmuş Hz. Məhəmmədə xitab olunur: "Sən həqiqətən böyük bir əxlaq üzrəsən" və "Sən Qurandan öncə nə bir kitab oxuyur, nə də əlinlə yazırdın" ("Ənkəbut", 48), yaxud "Sən öncələr kitab nədir, iman nədir, bilməzdin" ("Şura", 52) ayələrinin ifadə etdiyi mənalar da daxil olmaqla bəlli olur ki, bu nemətin və Hz. Məhəmmədin sahib olduğu əxlaqın ucalığı insan qələmindən deyil, yaradılış qələmindəndir. Burada peyğəmbərə and verilən qələm isə ilk qələm İlahi qələmdir" (9.c.8.s.263-64).

Düşüncə qələm və yazı ilə bağlıdır və bu məfhumlar Quranda müxtəlif mənalar bildirir. Kainat özü Allahın yazdığı kitab kimi təsəv-

vür edilir. "Deməli, kainat böyük aləm və ya böyük kitab, insan isə kiçik aləm və ya kiçik kitabdır. Böyük aləmdə nə varsa, azaltmadan və çoxaltmadan kiçik kitaba yazılmışdır. Hər kim kiçik kitabı oxuya bilərsə böyük kitabı da oxuya bilər. Allahın kiçik aləmə – insana göndərdiyi xəlifə isə ağıldir, mələklər ona səcdə etdilər, yalnız İblis imtina etdi" (17, s.142).

Əgər aləm və insan kitab kimi təsəvvür edilirsə, deməli, həmin kitabı yazan ***qələm*** məfhumu ortaya gəlir. T. Burkhardt kainatla kitab arasında belə bir analogiya qurur: "Kainat açıq kitab və ağac kimidirsə, onun budaq və yarpaqları eyni gövdədən qaynaqlanır. Açıq kitabın hərfləri ağacın yarpaqları kimidir, onlar budaqlar və nəhayət, gövdə ilə bağlıdır; bunun kimi hərflər də sözlərlə, cümlələrlə və sonda isə həqiqi kitabla bağlıdır. Beləliklə, hər şeyi Lövhi-Məhfuzda yazan ilkin qələmin Qurandakı simvolu İlahi ruhdur (3, s.57).

S.H.Nəsrin təbiri ilə desək, "Qələm Allahın xilqətinin fəal qütbüdür ki, bu, sanki Loqosdur; kainatda mümkün olan bütün varlıqlar və ilahi arxetiplər "Gözəgörünməz xəzinə"də (Treasury of the Invisible) gizli halda mövcud olmaqla, Allah yanında saxlanılan Lövhədə (Lövhi-Məhfuz = Guarded Tablet) hərf və sözlərlə həkk olunmuşdur ki, onlar yer aləminə xas bütün formaların paradiqmasıdır və qələm vasitəsilə təzahür edir. İnsanın yazdığı qələm Allah qələminin rəmzidir, kağız və dəri üzərinə həkk olunan yazı isə kosmik kitabda əks olunan bütün mövcud varlıqların təsviri hesab edilir. Deməli, mülk aləminə, yəni kainat və yer üzərinə xas şeylərin qələmlə təsvirində onların səmavi mənşəyi ifadə olunur" (19, s.21).

Qəzali Quran ayəsinə əsasən ("Qələm", 4-5) qələmi "İlahi güc kimi şərh edir, onun vasitəsilə bilik insanın ürəyinə ötürülür. Quran öz həqiqi və gizli mənalarını dərrakə qabiliyyəti ilə seçilən və mənəvi baxımdan hazırlıqlı oxucu üçün açır. Bu, sirli bir hadisədir, sanki insan yuxuda öz ruhu ilə Lövhi-Məhfuzu oxuyur. Yalnız mənəvi cəhətdən hazırlıqlı oxucular bu cür bilikləri daşıya bilərlər. Qurandan həqiqi bilik almaq oxucuya güclü təsir göstərir, onu cənnətin sirlərini anlayan mənəvi insana çevirir" (33, s.58-59).

Qələm nöqtədən xətt, vəhdətdən kəsrət, yığcamlıqdan geniş mənalar dünyası yaradır. Seyid Şərif Cürcani qələmi təfsil elmi – yəni geniş elm adlandırır. Qələmin cızdığı hərflər yığcam halda mürəkkəbdə toplaşır, qələm isə onu yazıya çevirərək müfəssəl bilgi yaradır (6, s.20).

Qələmin soldan-sağa, sağdan-sola, yuxarıdan-aşağı hərəkəti qəlbin hökmü ilə gerçəkləşir. Çin yazısı yuxarıdan aşağı – bəşərin Göy ilə Yer aləmi arasında seyri, Göydən təbiətə enişidir, ruhun maddi ifadəsidir. Şərq yazısında qələm dış aləmdən iç aləmə – qəlbə doğru hərəkət edir. Qərb yazısında bu istiqamət əksinədir. Xətt aləmin və fələklərin mehvəri sayılır. Xətt varlıq səhifəsinin əriş-arğacıdır. Şaquli yazı sabitliyin, üfüqi yazı isə kəsrət (multiplicity) aləminin nişanəsidir.

Başqa bir yandan, üzərinə and içilən qələm Lövhi-Məhfuzu yazan, yaxud Quranı yazan qələmdir. Hamdı Yazıra Zəməxşəriyə istinadən bildirir ki, Uca Allah qələmin şəninin yüksək olduğunu göstərmək üçün qələmə and içdi. Onun yaradılıb düzənlənməsində böyük bir hikmət və anladıla bilməyəcək qədər fayda vardır" (9.c.8.s.260). Buna görə düşüncəni yazı ilə səhifə üzərinə yazan adi qələm də dəyərli sayılır.

İslam mədəniyyətində qələm və yazının bir sıra mənaları vardır:

1. Ontologiya və kosmoqoniya.
2. İntellekt və epistemologiya.
3. İlahi və mənəvi yön.
4. Harmoniya və gözəllik.
5. Hermenevtika, semiotika və simvolizm.
6. Poetik və məcazi anlam.

Orta yol, hənif din və ədalət

İslam ifrat və təfritdən uzaq orta yoldur, istər iman, istər düşüncə, istərsə də əməl və rəftarda tarazlı münasibət saxlanılır. Orta yol isə mahiyyətcə doğru və haqq yoldur və bu məzmun Quranda hənif məfhumu ilə verilir. "Rum" surəsinin 29-30-cu ayələrinin təfsirində deyilir: "Hənif əyrilikdən-doğruya və düzgünlüyə, şirkdən, yəni bütpərəstlik və batil dinlərdən üz çevirib tövhidə yönəlmək, bir Allaha təslim olmaqdır. Hənif din fitrətə uyğun yoldur. Fitrət insan yaradılışının mahiyyəti olmaqla, hər fərdin cüzi meyilləri ilə deyil, bütün insanlar üçün ortaq olan ümumi fitrətlə müəyyən edilir. İnsanlıq fitrəti hamı üçün eynidir. İnsanın ruh və zəkasının fitrəti isə bir Allaha üz tutmaq və Haqqı tanımaqla müəyyən edilir" (9.c.6.s.254-255). Hənif eyni zamanda yol gedərkən ayağı orta halda yerə qoymaqdır və bunun mənası mötədillikdir (34. c.16.s.178). Hənif din, yəni haqq din deməkdir və insan fitrəti Haqqa doğru meyillidir və bu, insanlara xas ümumi haldır. Fitrətə uyğun haqq dində heç bir əyrilik və sapınma ola bilməz (24.c.25.s.121). Deməli, İslam həm də fitrətə uyğun yoldur. Fitrət sözü isə təqlid etmədən yaratmaq deməkdir. Qəzaliyə görə, dinin kökü

bəşər fitrətinə uyğun olaraq birdir. Məşhur hədisdə deyilir: "Hər kəs öz fitrəti ilə doğulur, ata-ana onu yəhudi, xaçpərəst, yaxud məcus (atəşpərəst) edir" (37, s.125).

Deməli, hənif bəşər fitrətinə xas ümumi xüsusiyyət olmaqla hər cür etnik, irqi, məzhəb və sosial fərqlərin fövqündə dayanan universal mənəvi dəyər kimi diqqəti cəlb edir. Tövhid və vəhdət Adəm və İbrahimdən başlanan yoldur və buna İbrahimi monoteizm deyilir, "İslam isə onu bir daha yeniləşdirir" (3, s.29). S.H.Nəsr bu məsələyə aydınlıq gətirərək bildirir ki, İslam sivilizasiyası Hz. Məhəmmədə gələn vəhyə əsaslanır, bu isə Adəm və İbrahimə gələn təmiz dindir, onun əzəli və təməl vəhdəti İslamla bərpa olunur; bu sözün mənası təslim olmaq, İlahi iradəyə qovuşmaqdır (21, s.22).

"*İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O ancaq* ***hənif*** *(Haqqa tapınan) doğru müsəlman (Haqqa təslim olan) idi və müşriklərdən deyildi*" ("Ali-İmran", 67).

Orta yol, eyni zamanda, "ədalət" məfhumu ilə bağlıdır: "Ədalət azğınlıq, haqsızlıq və zülmün əksi olaraq hər şeyi layiq olduğu yerə yerləşdirmək, haqqı yerinə qoymaq deməkdir. Tərəzinin gözləri kimi hər şeyi tənzimləyir, ifrat və təfrit arasında tarazlıq nöqtəsidir və ona görə buna mizan da deyilir (9.c.5.s.253).

Ədalət və haqq-hesabla bağlı bir neçə ayəyə diqqət yetirmək kifayətdir:

"Biz qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz kifayətik" ("Ənbiya", 47):

"And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə göndərdik. Biz onlara birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər" ("Hədid", 25).

Eyni zamanda, İslamda ***təqdir (qədər)*** və ***iradə azadlığı*** arasında da məntiqi əlaqə və tarazlıq vardır. Allah ehtiyacsızdır və hər şey Onun əmri altındadır. Bununla belə insana seçim ixtiyarı verilmişdir, hətta onun iman və etiqadı özü üçündür. Məhəmməd (s) peyğəmbər bəndələrin əməllərinə görə cavabdeh deyil, o, yalnız müjdə verən "mübəşşir" ("İsra", 105; "Furqan", 56; "Əhzab", 45; "Fəth", 8) və xəbərdarlıq edib pis əməldən çəkindirəndir ("Rəd", 7; "Şüəra", 194; "Sad", 65; "Qaf", 3). Allahın tədqiri qaçılmaz ("Ənam", 96; "Hicr", 60; "Furqan", 2; "Səba", 18; "YaSin", 38-39; "Qəmər", 12; "Vaqiə", 60), İnsana

verilən ağıl ona seçim imkanı yaradır ("Bəqərə", 141, 143, "Maidə", 105, "Ənam", 52, 69-70; "Əraf", 173; "Qəsəs", 68; "Şəms", 8).

Buna görə ***hər kəs öz əməlinə görə cavabdehdir*** ("Bəqərə", 134, 139, 141, 286). Hər kəsin qazandığı günah özünə aiddir ("Nisa", 111, "Ənam", 164, "Yunus",52, "Mudəssir", 38, "Tur", 52). Heç bir günahkar başqasının günahını daşımaz ("Fatir", 18). Allahın ədaləti hər hər şeyi əhatə edir ("Ənam", 160, "Əraf", 148, "Sad", 28).

Quran ayələrinin bir qismi qədərin qaçılmaz olduğunu önə çəkirsə, digər qismi insanın iradə azadlığı və seçim sahibi olduğunu diqqətə çatdırır. Bu isə onun öz əməl və davranışı qarşısında məsuliyyətini şərtləndirir (12, s.18). İnsan hürdür, yəni azad və sərbəstdir. Bu azadlıq Allahın qoyduğu ədalət tərəzisinə və başqalarının haqlarına qarşı ola bilməz. Belə olarsa hərc-mərclik baş alıb gedər (9.c.9.s.42).

İlahi ədalət etnik, irqi, sozial zümrə, din və məzhəb, sultan və qul, qohumluq əlaqəsi və s. məsələlərdə fərq qoymayan, nəfsi cilovlayan, hər işi İlahi meyarlara uyğun düzənə salan, hər bir səviyyədə haqqı yerinə yetirən, hər şeyin və hər kəsin haqqını tanıyan universal nizamdır.

İslam düşüncəsinin estetik yönü

İslam düşüncəsinin estetik yönü yenə vəhy və tövhiddən doğan əzəli və ilahi harmoniya ilə bağlıdır. "Allah gözəldir və gözəlliyi sevir". Bütün gözəllklərin qaynağı Allahdır. Yuxarıdan-aşağıya doğru bütün varlıq aləmini bürüyən, vəhdətdən-kəsrətə təcəlli edən bu harmoniya tükənməzdir. Zahiri aləmdə təcəlli edən gözəlliklərin mənşəyi Allah olduğundan, onların mahiyyətində qüdsiyyət və mənəvi yön vardır. Ona görə İslamda bütün sənət növləri zahiri gözəllikləri ifadə etməklə yanaşı, xəyal və düşüncəni mənəvi qütbə və Allaha doğru yönəldir.

"İslam sənətinin köklərini Quranın batini həqiqətlərində (həqayeq) axtarmaq lazımdır, bu həqiqətlər kosmosun və Peyğəmbər substansiyasının mənəvi gerçəkliyi sayılır. Məhəmmədiyyə bərəkəti də buradan qaynaqlanır. Quran vəhdət haqqında təlimdir, Peyğəmbər isə həmin vəhdətin kəsrət aləmində təcəllisini təmin edir" (19, s.6). Peyğəmbər vəhy ilə qəlbinə nazil olan Quran ayələrini Allahın işarələri kimi qəbul edir və İlahi vəhdətdən doğan harmoniyanı müsəlmanlara bəyan edir. "Dünyanın əzəmətinin onun vəhdətində təcəlli etdiyini aşkarlayan peyğəmbər, sanki öz dinləyicilərinə kainat harmoniyasının səsini çatdırır və həmin səs bu gün də dünyanın müxtəlif guşələrində ədibləri, sənətkarları və alimləri ilhama gətirir" (26, s.16).

İslam sənətinin əsalət və kimliyini müəyyənləşdirmək üçün onun yarandığı sivilizasiyanın kimliyini müəyyənləşdirmək gərəkdir. "Bunun üçün üç ünsürü bilmək lazımdır: sənət əsərinə baxan və ondan faydalanan müsəlmanın düşüncə tərzi, bədii yaradıcılığa verilən məzmun və sənətdə işlənən formalar" (13, s.5).

Burada yazı və xəttin dəyəri daha çoxdur. Yazı və xətt sənəti bu günə qədər bütün İslam mədəniyyətində xüsusi rol oynamış və oynamaqdadır. "Bütün müsəlman toplumlarının ortaq mirası olan ərəb hərfləri ilə Allah kəlamını saxlamaq mümkün olmuşdur. Müsəlmanlar gözəl anlayırdılar ki, yazı insanın özəl qabiliyyəti olmaqla onu başqa canlılardan ayırd edir" (29, s.1).

İslam sənəti sabitlik ilə dəyişkənlik arasında tarazlıq qurur. "Toxuculuqda olduğu kimi, üfüqi hərəkət dəyişkənlikləri, şaquli hərəkət isə sabit mahiyyəti ifadə edir. Başqa sözlə, şaquli xət vəhdət prinsipini, üfiqi xət isə kəsrətin təzahürünü ifadə edir" (19, s.28).

Yazı və xətt sadəcə abidələrin mətnini hifz etməklə məhdudlaşmadı. "İslam coğrafi yöndən genişləndikcə xətt də ədəbi mədəniyyət nümunəsi kimi olduqca böyük maraq doğurdu. Yazılı söz əsas düşüncə və ünsiyyət vasitəsinə çevrildi. Sözün müqəddəsliyi rəngarəng yazı növlərinin inkişafına gətirib çıxardı. Bununla da xəttatlıq sənəti İslamda ən nadir və zərif sənət növünə çevrildi" (13, s.136).

İslamda hər şey vəhy ilə bağlı olduğu kimi, sənət də onunla əlaqəlidir. "Bu sənət vəhyin batini mənəvi anlamından qaynaqlanır və vəhdətin kəsrət vasitəsilə təcəllisini nümayiş etdirir. Onun harmoniyası nəfsin qurtuluşu üçün duyğu oyadır, bu isə insanı kəsrətin köləliyindən azad edir, ona Vahidə (Allaha) yaxınlaşmağın sonsuz sevincini duymağa imkan verir. İslam sənətinin məqsəd və vəzifəsi Qurandan gələn vəhyin dərkinə yardım etməkdir. Zahiri aləmdə təcəlli edən forma, rəng və səslərin valehedici gözəlliyi vasitəsilə vahidi dərk etmək olur, onlar sonsuzluq fəzasında Haqqa yetişmək, Onun Cəlal və Camalının işarələridir" (19, s.202).

Demək, İslam düşüncəsinin estetik yönü digər yönlər ilə ortaqdır.

Düşüncə dərəcələri və idrak pillələri

Düşüncə çoxşaxəli və daim hərəkətdə olan hadisədir, hissi müşahidə ilə başlayır və sonra əqli müstəviyə keçir. Onun çevrəsi və istiqamətləri geniş olmaqla, eyni zamanda, müəyyən hədəflə gerçəkləşir. Quran ayələrində varlığın bütün mərtəbə və təzahürləri üzərində müşahidə aparmağa və ***düşünməyə*** dəvət olunur.

Düşüncə gələcəyə yönələn əqli fəaliyyətdir və onun məqsədi budur: bəşərin hər bir hadisədən nəticə çıxararaq ibrət alması və gələcək həyatını düzgün və sağlam yöndə tənzimləməsi.

1. Təbiətdə olan nizam üzərində düşünüb ibrət almaq: göy, Günəş və Ay, ulduzlar, gecə-gündüzün növbələşməsi, yerin döşənməsi, dağlar, çaylar, yağmur, külək, əkin, növbənöv meyvələr və cins-cins heyvanlar, hətta insanların dil və rəng müxtəlifliyi ("Bəqərə", 164; "Ali-İmran", 190-191; "Ənam", 99; "Rəd", 3-4; "Nəhl", 12; "Hicr", 15; "Ənkəbut", 44; "Nur", 44; "Casiyə", 5; "Rum", 22-23) düşüncə və ibrət üçündür.

"(Ya Peyğəmbər!) Məgər Allahın göydən yağış yağdırdığını, onu yer üzündəki bulaqlara axıtdığını, sonra onunla növbənöv əkin yetişdirdiyini ***görmürsənmi****?! Sonra o (əkin) quruyar, sən onu saralmış görərsən. Sonra da (Allah) onu çör-çöpə döndərər. Həqiqətən, bunda* ***ağıl sahibləri*** *üçün işarətlər və ibrətlər vardır!*" ("Zumər", 21).

2. Allahın verdiyi nemətlər üzərində düşünərək ibrət almaq ("Nəhl", 18, 66-69, 80-82; "Muminun", 21; "Əraf", 57; "Mumin", 13; "Casiyə", 13).

3. Keçmişdə baş verən hadisələr üzərində düşünərək ibrət almaq: Firon və qövmü **("**Hud", 101; "Zuxruf", 55-56; "Şüəra", 66-67), Nuh və onun qövmü ("Muminun", 24; "əl-Haqqə", 11-12; "Furqan", 37), İbrahim və onun qövmü ("Ənam", 80; "Ənkəbut", 24), Lut, Hud, Ad, Səmud, Səba və onların qövmü **("**Ənkəbut", 35; "Hicr", 74-77; "Şüəra", 139; "Qəmər", 18-21; "Nəml", 51-52; "Səba", 19), Musa və qövmü ("Bəqərə", 66; "Nisa", 153; "Əraf", 162) haqqında verilənlər ibrət üçündür.

"*Məgər (kafirlərə) bəlli olmadımı ki, Biz onlardan əvvəl (indi) məskənlərində gəzib dolandıqları* ***neçə-neçə nəsilləri məhv etdik****? Həqiqətən, bunda* ***ağıl sahibləri üçün ibrətlər*** *vardır!*" ("Taha", 128).

4. N Adəmin yaradılışı ("İnsan", 2; "Muminun", 12), onun vücudunun mərhələlər üzrə təkamülü ("Həcc", 5; "Şəms", 7) və Allahın xəlifəsi olaraq yüksək məqamı və ali missiyası ("Bəqərə", 30; "Ənam", 165; "Nəml", 62; "Fatir", 39; "Əraf", 11; "TaHa", 116; "İsra", 62,70; "Hicr", 29; "Səcdə", 9).

Qurani-Kərim də düşünüb ibrət almaq üçündür:

"*And olsun ki, Biz Qur'anı (ondan) ibrət almaq (öyüd-nəsihət qəbul etmək) üçün belə asanlaşdırdıq. Amma* ***heç bir ibrət alan (öyüd-nəsihət qəbul edən) varmı?****!*" ("Qəmər", 17, 22, 32, 40).

Bu ayə təkid məqsədilə dörd dəfə təkrarlanır.

Dünyəvi nemətlər sınaq və ibrət üçündür, onlara aldanmaq olmaz.

"*Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarınıza qoyan Odur. Həqiqətən, bunda* ***düşünən bir qövm*** *üçün ibrətlər vardır*" ("Casiyə", 12-13).

Dəfələrlə bəsitcəsinə deyil, məhz ***ağıllı düşünmək*** təkid olunur: "Bəqərə", 44; 73-76; 219, 242, 286; "Ali-İmran", 65, 118, 191; "Ənam", 32, 50, 151; "Əraf", 169, 184; "Maidə", 103; "Ənbiya", 10, 67 və s. İslamın bütün məsələlər üzrə istinad etdiyi meyar ***elm və ağıl***dır ki, bu da rasional düşüncənin bariz göstəricisidir. "***Bilən və bilməyən eyni ola bilərmi***?" ("Zümər", 9) ritorik sual buna dəlalət edir.

Ağıl ölçü və meyarı gözləmək üçündür. Ona görə Allah ifrata varanları, ölçü və meyarı keçənləri, ədalət tərəzisini pozanları sevməz ki, bu da İlahi hikmətə xas rasionalizmin göstəricisidir: "*Yeyin-için, ancaq* ***israfa yol verməyin****!*" ("Əraf", 31).

İnsan öz haqqı yolunda savaşarkən həddi aşmağa icazə verilmir:

"(Ey möminlər!) Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. ***Allah həddi aşanları sevməz***!" ("Bəqərə", 190).

Təbii haldır ki, insanlar düşüncə dərəcələrinə görə fərqlənirlər. "Mücadilə" surəsinin 11-ci ayəsinə görə, elmin dərəcələri vardır, insanlar həmin dərəcə ilə fərqlənirlər (23, s.720). Buradan da düşüncə və təfəkkürün ***dərəcələri*** və idrak pillələri ayırd edilir.

1. Ən uca düşüncə Allaha məxsusdur, O, hər şeyi biləndir, Onun elmi ən pak və şərəfli elmdir, hər şeyi və hər cəhəti əhatə etməklə hüdudsuz və universaldır; elmin digər formaları ondan qaynaqlanır.

2. İkinci sırada vəhy ilə Allah qatından gələn elm peyğəmbərin qəlbinə, sonra kəşf ilə Qeybdən verilən lədünni elm övliyalara yetişir.

3. Bundan sonra ən uca düşüncə mərtəbəsi "Ulul-əlbab" zümrəsinə xasdır. "Lubb" sözü saf düşüncə və ağıl mənasında işlənir. Həmin saf düşüncə Allahın zikri ilə nəfsdən paklanmış və imanla süslənmiş qəlbdə hasil olar. "Zumər" surəsinin 9-cu ayəsində buyurulur:

"Ancaq saf ağıl sahibləri təzəkkür edər (ibrət alar)!*".*

Rağib İsfəhaniyə görə, "lübb" bir şeyin içi və məğzi anlamına gəlir. Hər lübb ağıldır, ancaq hər ağıl lübb deyildir. Ona görə Uca Allah, ancaq saf və duru ağılların qavraya biləcəyi hökmlərin hikmətini anlayanları saf ağıl sahibi (Ulul-əlbab) kimi tanıyır (23, s.948). Müəllif buna misal olaraq "Bəqərə" surəsinin 269-cu ayəsini gətirir: "*Allah (haqq ilə batili ayırd edən, ona görə də doğruluğa yönəldən)* ***hikməti*** *istədiyi-*

nə verər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir. Bunu yalnız ***saf ağıl sahibləri*** *təzəkkür edərlər (ibrət alarlar)!*".

Quran bir çox ayələrdə ***pak ağıl sahiblərinə*** xitab edərək düşünməyə *dəvət edir* ("Bəqərə", 179, 197, 269; "Rəd", 19, 111; "İbrahim", 52; "Sad", 29, 43; "Zumər", 9, 18, 27; "Mumin", 54; "Maidə", 100, "Talaq", 10). Pak ağıl sahibləri isə nəfsə uymayan, İlahi ədaləti gözləyən, doğruluğa əsaslanan əxlaq və iman sahiblərdir. Quranda yüksək idrak qabiliyyətinə malik saf ağıl sahibləri "ulul-əlbab" öz bilik, hikmət və iman səviyyəsi ilə seçilirlər.

4. Elmdə rasix olanlar, "elmdə kök salanlar, həqiqətləri bilən, şübhəyə qapılmayan" dərin düşüncə sahibləridir (23, s.426) ("Ali-İmran", 7; "Nisa", 162), fövqəladə istedad sahibləri bu zümrəyə aid edilir.

5. Digər alimlər ümumi bilik və elm sahibləridir.

6. Adi insanların düşüncəsi isə həyati məsələlərin tənzimlənməsi ətrafında hərəkət edir.

Düşüncə üsulları

İslam mədəniyyətində düşüncə üsulları Quran üslubundan qaynaqlanır və bu yöndə keçmişdən bu günədək çoxsaylı araşdırmalar mövcuddur. Burada bəzi maraqlı məqamlara qısaca toxunmaqla kifayətlənmək olar:

İlk növbədə, Səmavi Kitabın bəlağət və ecazını nəzərə almaq lazımdır. "İsra" surəsinin 88-ci ayəsində buyurulur: *"(Ya Peyğəmbərim!) De: "Əgər insanlar və cinlər bir yerə yığışıb, bu Qurana bənzər bir şey gətirmək üçün bir-birlərinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər*".

Bu barədə Əbdülqahir Cürcani, Carullah Zəməxşəri kimi klassiklərin dərin təhlilləri vardır (36.s.511-512). Müasir islamşünaslardan Y.Rezvan isə Quranın ecazı barədə öz təəssüratını qısaca olaraq belə ifadə edir: "Sən sonsuz insanlar sırasında şüuru bu möhtəşəm kitabın əzəmət və sehri ilə əsir olanlardan birisən" (26, s.15).

Quran mətnində düşüncə və fikirlərin özünəməxsus anlatma üsulları vardır ki, onlardan mühüm bir qismini qeyd etməklə kifayətlənirik:

1. Münazirə (canlı müzakirə və mübahisə), sual-cavab və dialoq.

2. Sadə, ancaq tutarlı dəlil, məntiqli səbəb və nümunə gətirməklə inandırma.

3. Təbiət, insanlar və xalqların həyatından misal gətirməklə düşüncənin izahı.

4. Ağıl və düşüncəyə dəvətlə yanaşı, duyğulara, qəlbə və ruha güclü təsir.

5. Analogiya, ikili və təzadlı qarşılaşdırma.

6. Xitab, ritorik sual və sinesteziya.

7. Möhkəm və mütəşabih ayələrin müqayisəli təhlili.

Qurana xas düşüncə üsullarından biri ikili qarşılaşdırma və dixotomiya üsuludur. Şeyləri bir-birindən ayırd etmək üçün iki tərəfin müqayisəsi olduqca əhəmiyyətlidir: Haqq – batil, nur – zülmət, küfr – iman, cəhl – elm, zəlalət – hidayət, rəzalət – fəzilət və s. Qəzali və digər İslam mütəfəkkirləri bu üsuldan geniş yararlanmışlar.

Burada diqqəti cəlb edən üsullardan biri də mücərrəd mənaların hissi məfhumlarla ifadəsidir, çünki insanlar hissi məfhumları daha asan və tez qavrayırlar. Məs, küfr və cəhalət zülmətlə, iman və elm isə nurla ifadə olunur.

Bunlar arasında Hz. Məhəmmədin (s) öz müxalifləri və rəqibləri ilə polemika metodu diqqəti daha çox cəlb edir (26, s.38-39).

Adətən, təfəkkürün iki qütbü bir-birini tamamlayır: hissi və əqli. Dərin təfəkkür beş zahiri duyğu (lamisə, dad, qoxu, görmək, eşitmək) ilə yanaşı, beş batini duyumun (əql, qəlb, sirr, ruh, xəfi) birgə fəaliyyəti ilə hasil olur (10.s.143; 17.s. 21-22). Beş zahiri hiss xarici aləmi və beş batini duyum isə batini aləmi dərk etmək üçündür.

Bu iki qütblə yanaşı, bəsirət və batini görüm də vardır. "İslam intellektual ənənəsində ağıl ilə intuisiya qarşı-qarşıya qoyulmamış, biliklərin dərəcə və təbəqələşməsi, onların əldə edilməsi üsulları nizama salınmışdır. Buna uyğun olaraq ağıl və intuisiyanın dərəcələri harmonik şəkildə elə qaydada tənzimlənir ki, anlamaq üçün lazım olan bütün vasitələri əhatə edir. İnsan hissi bilik və əqli dərkdən batini görümə və qəlb ilə mərifətə qədər bütün mərhələri bilməlidir. Ağıl, dərrakə və intuitiv duyum arasında qarşılıqlı əlaqəni tam anlamaq üçün yenə intellektual perspektivlərə üz tutmaq lazımdır ki, vəhyin əqli, mənəvi və formal imkanlarının fəallaşmasına gətirib çıxarsın" (22, s.95).

Onu da qeyd edək ki, İslamda, xüsusilə irfanda ezoterik (batini) mərifət özəl yer tutur. "İrfan ənənəsində Məhəmməd ruhi yüksəliş silsiləsinin ilk halqasıdır. "İsra" surəsinin ilk ayələrinə görə, Merac zamanı göylərə, İlahi astanaya yüksəlmişdir. Bu isə arifin ruhi yüksəlişi üçün nümunə olmuşdur. Ezoterik hikmət Məhəmməddən Əli ibn Əbu Talibə yetişmişdir (28, s.27).

Bəllidir ki, batini mərifət vəhdəti-vüçud təliminin banisi İbn Ərəbi tərəfindən mükəmməl biçimə salınır. Onun təlimində ziddiyyətli

məqamlar mübahisələr doğurur. Bununla belə, vəhdəti-vücudu panteizm kimi qələmə vermək də yanlışdır. İmam Qəzali isə qəlbdə hasil olan ezoterik düşüncəyə önəm verərkən "bir yandan batinilər və İsmaili cərəyanlarından gələ bilən təhlükəni, digər yandan isə mühafizəkar fəqihlərin sərt mövqeyini nəzərə alır. Həqiqi imanın qəlbdə olduğunu önə çəkməklə kəlam alimlərini də bu səmtə meyilləndirir və eyni zamanda, ellinizmin təsiri ilə mübarizə edir. O, hər bir məsələdə orta mövqe nümayiş etdirir. Ona görə Qəzalidən sonra mötədil sufi düşüncəsi əksər müsəlmanların həyatına yol açır" (28, s.96). Onun ardınca işraq hikmətinin banisi Sührəvərdi Məqtul və ali (mütəaliyə) hikmətin qurucusu Molla Sədranın təfəkkür modellərində əqli düşüncə ilə ezoterik düşüncə bir-birini tamamlayan qütblər kimi təqdim edilir.

Deməli, mükəmməl təfəkkür üçün hissi qavrayış, əqli mühakimə və batini duyum – bunların üçü müştərək və ahəngdar halda işlənir.

Bütövlükdə isə idrak mərhələlərini bu cür təqdim etmək olar:

Hissi qavrayış → təəqqül → təzəkkür → təfəkkür → tədəbbür.

Hissi müşahidə, əsasən, beş zahiri duyğu ilə baş verir, burada görmək və eşitmək xüsusi yer tutur. Təəqqül beyin və ağıl vasitəsilə düşünməkdir. Təzəkkür mərhələsində Allahın adı zikr edilir, bununla insan nəfsi təmizlənir, onun vücudu və ruhu Allaha təslim olur, bununla qəlb hüzur tapır. Təfəkkür zamanı qəlb gözü açılır və insan varlıq aləmindəki bütün şeyləri Allahın ad və sifətlərinin nişanələri (ayətləri) kimi görür və onlar üzərində düşüncəyə dalır. Sonda insan mənəvi və ruhi işıqlanma taparaq, əhatəli və dərin düşüncə sahibi kimi yalnız xeyir əməllərə yönəlir və hikmət əhli olur. Bu isə tədəbbür mərhələsidir.

Tədəbbür düşüncə və təfəkkürün yüksək mərhələsi olmaqla, gələcəyə hesablanmış universal və cahanşümul idrakdır; bununla insan düzgün nəticə çıxarmaqla hər işin aqibətini düşünür və tədbir görür.

Əslində, İslam düşüncəsi insana səadət yolunu göstərən bir məktəbdir. "Liberal düşüncə modeli xoşbəxtliyi yaxşılıqda deyil, sırf faydalanmada görür. İnsanı yalnız faydalanma şəhvəti zəbt və idarə edirsə, bunun təsiri ilə sonsuz mücadiləyə sürüklənir, cansız və duyğusuz qanunlarla yaşayır. İnsanlar şəxsi mənfəət tamahı ilə sonsuz bir mücadiləyə atılırsa, istər-istəməz sevgi yerinə düşmənçilik çoxalır. Bununla da "İnsanların öz əlləri ilə qazandıqları günahlar üzündən quruda və dənizdə fəsadlar çıxdı. Bəlkə tövbə edib doğru yola dönələr deyə, Allah böyləcə onlara etdiklərinin bir qismini dadızdırdı" ("Rum", 41)

ayəsinin mənası gerçəkləşir. Bu isə aləmlərin Rəbbinin ucalıq əlaməti, tərbiyə və tədbiridir. İnsanlar mənfəətpərəstlik və acgözlüyə qalib gələrsə, indiki zamanda olan savaş bəlasından və gələcəkdəki din gününün cəzasından qurtara bilərlər (9.c.1.s.98-99).

İslam düşüncə paradiqması bu cəhətdən bəşəri və universal yönu ilə fərqlənir.

Nəticə

Öncə bilmək lazımdır ki, düşüncə Allah qatından gəlir və Onun elmi hər şeyi əhatə edir. İslam düşüncəsi vəhy və İlahi hikmətə bağlıdır, tövhid, vəhdət və İlahi ədalət çərçivəsində cərəyan edir. Hər bir məsələyə universal İlahi meyarlar və uca insani dəyərlər səviyyəsindən baxılır. İnsana bəxş edilən ağıl və düşüncə isə yaxşı və pisi, xeyir və şəri, haqq və batili bir-birindən ayırd etmək, öz həyatını sağlam şəkildə tənzimləmək üçündür.

İslam düşüncəsi ağıl və məntiqə dəyər verən rasional bir təlimdir, ancaq antik və müasir rasionalizmdən fərqli olaraq iman və əxlaqla bağlıdır, ona görə sağlam düşüncənin mərkəzi nəfsdən paklanmış qəlbdir. Quran məntiqinə görə, insanın bütün düşüncə, rəftar və əməlləri Allah rizası üçündür; burada dərin mənəvi və psixoloji məna vardır: insan bir işi özünün və ya başqalarının istəyinə görə edərsə, istər-istəməz nəfsin müdaxiləsi və İlahi ədalətin pozulması ehtimalı ilə üzləşər. Allah rizası üçün edilən əməllər isə nəfsdən və fərdi maraqlardan uzaq olmaqla ixlas və İlahi ədalətə uyğundur.

Düşüncə kosmoloji düzənlə uyğun gəlməklə onun bütün mərtəbə və təbəqələrini əhatə edir, fiziki (mülk) və metafizik (mələkut), dünyəvi və ruhani, maddi və mənəvi qütblər arasında tarazlı əlaqə qurulur.

İslam düşüncə paradiqmasının geniş yönləri vardır və təfəkkür zamanı onlar bir araya gəlir: ontologiya və kosmoqrafiya, fenomenologiya və hermenevtika, əqli-epistemoloji, sosial-mədəni və estetik yön.

İslam hər bir məsələyə tarazlı yanaşan, ifrat və təfritdən uzaq orta yola üstünlük verir. Bu məsələ düşüncə tərzində də özünü göstərir. Bu baxımdan, "hənif din" məfhumu xüsusi yer tutur və həmin düşüncənin bəşər fitrətinə xas ümumi və universal mahiyyətinə dəlalət edir.

Düşüncənin insanların istedadına uyğun dərəcələri vardır və Allahdan gələn bu fəzilət peyğəmbərlərə və övliyalara bəxş edilir. Bundan sonra *ulul-əlbab* (saf ağıl sahibləri) və *əl-rasixun fil-elm* (elmdə kök salanlar) gəlir. Qurana görə sağlam və mükəmməl düşüncə za-

hiri hisslərin, beyin fəaliyyətinin və qəlbin birgə çalışması nəticəsində hasil olur.

Vəhydən gələn ali düşüncənin qayəsi ilahi nizama xas dəyərləri və meyarları kosmosdan bəşərin fərdi və ictimai həyatına gətirmək, insanı nəfs və cahillik üzündən yuvarlandığı aşağı pillədən ən uca pilləyə, ilahi əmanəti öhdəsinə götürən Allahın xəlifəsi məqamına yüksəltməkdir.

ƏDƏBİYYAT

1. Osman Bakar. (1992). Classification of Knowledge in İslam. A Study in İslamic Philosophies of Science. Foreword by Seyyed Hossein Nasr. İslamic Text Society. Cambridge.
2. Бернал. Дж. (1956). Наука в истории общества. М.
3. Burckhardt. T. (2009). Art of İslam. Language and Meaning. Foreword by Seyyed Hossein Nasr. World Wisdom.
4. William C. Chittick. **(**2002**).** The Anthropocosmic Vision ın İslamic Thought. God, life, and the cosmos: Christian and lslamic perspectives /edited by Ted Peters, Muzaffar lqbal, Syed Nomanul Haq/. Andover-Harvard Theological Libray.
5. Henry Corbin. History of İslamic Philosophy. Translated by Liadain Sherrard with the assistance of Philip Sherrard. KEGAN PAUL INTERNATIONAL London and New York in association with İSLAMIC PUBLICATIONS for THE INSTITUTE OF ISMAILI STUDIES. London.
6. Əbülhəsən Əli ibn Məhəmməd Seyyid Şərif əl-Cürcani. ət-Tə'rifət. Misr.1357/1958
7. Will Durant. (1954). The story of civilizasion. I. Our oriental heritage. Simon and Schuster. New York. Twenty-Sixth printing.
8. Will Durant. (1950). The story of civilizasion. IV. The Age of Faith. Simon and Schuster. New York. Sixteenth printing.
9. Hak dini Kur'an dili. Elmalılı M. Hamdi Yazır. İstanbul. Umut matbaası.
10. Eynəlqüzzat Həmədani. (1373). Təmhidat. Ba müqəddəme və təshih: Əfif Usiran. Tehran.
11. İbn Xəldun Əbdürrəhman ibn Məhəmməd. (1385). əl-Müqəddimə. Tərcome: Məhəmməd Pərvin Günabadi. Tehran: Elmi və fərhəngi.

12. Е.А.Фролова. (1983). Проблема веры и знания в арабской философии. М.

13. Grabar O. (1973). The Formation of İslamic Art. New Haven and London.

14. Frank Griffel. (2015). Al-Ghazālī at His Most Rationalist. The Universal Rule for Allegorically Interpreting Revelation (al-Qānūn al-Kullī fī t-Taʾwīl). /İslam and Rationality. The Impact of al-Ghazālī Papers Collected on His 900th Anniversary/. Vol. 1. *Edited by* Georges Tamer. Brill Leiden.

15. Əbu Hamid Qəzali. (tarixsiz.). Kitabül-imla ələl-məşakilül-Ehya. Ələ hameşi-Kitabi-Ehyai-ülumid-Din. Qahirə.

16. Əbu Hamid Qəzali. Mişkatül-ənvar. Əfifinin çapı.

17. Əzizəddin Nəsəfi. (1371). Kitabül-insanül-kamil. Təshih: Maciran Müle. Tehran.

18. Seyyed Hossein Nasr. (1978). An Introduction to İslamic Cosmological Doctrines. Preface H.A.R. Gibb.Thames and Hudson Ltd.

19. Seyyed Hossein Nasr. (1987). İslamic Art and Spirituality. State University of New York Press Albany.

20. Seyyed Hossein Nasr. (1987). Introduction to "İslamic Spirituality Foundations". Edited by Seyyed Hossein Nasr. Routledge & Kegan Paul. London.

21. Seyyed Hossein Nasr. (2001). Science and Civilization in İslam. Chicago. ABC International Group, Inc.

22. Seyyed Hossein Nasr. (2006). İslamic Philosophy from its Origin to Present. State University of New York Press.

23. Rağib el-İsfahani. Mefredat. (2012). Kur'an Kavramları Sözluğu. Tercüme: Prof.Dr. Abdulbaki Güneş, Yrd.Doç. Dr. Mehmet Yolcu. Cıra Yayınları.3.Baskı.İstanbul.

24. İmam Fəxr Razi Məhəmməd. (1405). Təfsirül-Fəxr Razi, əl-Moştəhir bit-Təfsirül-Kəbir və Məfatihül-Qeyb. Beyrut: Darül-fekr.

25. Nəcməddin Razi. (1365). Mirsadül-übad. Məhəmməd Əmin Riyahinin çapı. Tehran.

26. Резван Е.А. (2001). Коран и его мир. Санкт-Петербург.

27. Franz Rosenthal. (2007). Knowledge Triumphant. The Concept of Knowledge in Medieval İslam. Brill. Leiden. Boston.

28. Schimmel A. (1975). Mystical Dimensions of İslam. The University of North Carolina Press.

29. Schimmel A. (1990). Calligraphy and İslamic Culture. I.B.Tauris & Co Ltd Publishers. London.

30. Schimmel A. (1994). Desiphering The Sings of God. The Phenomenological Approach to İslam. State University of New York Press Albany.

31. Сравнительное изучение цивилизаций. (Хрестоматия). (1998). Составитель: д.и.н. проф. Б.С.Ерасов. Москва: Аспент пресс.

32. Леви-Строс К. Первобытное мышление. (1994). Пер., выс.ст. и прим. А.Б.Островского. М.

33. Georges Tamer. (2015). Revelation, Sciences and Symbolism. Al-Ghazālī's Jawāhir al-Qurʾān. /İslam and Rationality. The Impact of al-Ghazālī. Papers Collected on His 900th Anniversary/. Vol.1. Edited by Georges Tamer. Brill.Leiden.

34. Məhəmməd Hüseyn Təbatəbai. (1363). əl-Mizan fi təfsirül-Qor'an. Beyrut: Mosssesətül-elmi Lil-mətbuat.

35. Уатт У.М. (1976). Влияние ислама на средневековую Европу. М.

36. Dr. Məhəməd Xəzaili. (1371). Elamül-Qur'an. Tehran: Əmir-Kəbir.

37. Dr. Əbdülhüseyn Zərrinkub. (1363). Ba karivane-əndişe (Məqaqlat və işarat dər zəmineye-əndişe və əxlaq). Tehran: Əmir Kəbir.

д-р филол. наук Насиб Геюшов

ПАРАДИГМА ИСЛАМСКОЙ МЫСЛИ: ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ

РЕЗЮМЕ

Исламская мысль охватывает весь мир бытия, космос и аспекты человеческой жизни, будучи сокровищницей, тесно связанной с божественным откровением, монотеистическим единством и мудростью. Масштабы исламской мысли имеют универсальное значение, но в то же время, включают в себя все слои внешнего и скрытого мира. Здесь сходятся чувственное восприятие, умственное сознание, духовное просветление и скрытое познание.

Согласно Корану, универсальный и безграничный разум (первичный разум) принадлежит Богу, а небольшой разум, дан-

ный человеку, нужен для решения мирских вопросов. Рационализм, также имеющий место в Коране, опирается на справедливость и морально-нравственные ценности и отличается от современного прагматизма тем, что прагматизм направлен на удовлетворение интересов одной стороны или группы. В исламе нет разума и сознания, кроме нравственности и моральных ценностей.

Критерии исламской мысли охватывают многие аспекты: божественная мудрость, рациональное знание и эпистемология, онтология и космология, феноменология и герменевтика, умеренность, традиция ханифа и справедливость. Эстетическая направленность этой мысли также носит универсальный характер.

Согласно Корану, центр мысли - это сердце, очищенное от желаний, а мозг и разум - это инструменты и средства. Именно сердце направляет мысль к чистому и правильному образу жизни. В этом смысле привлекают внимание обладатели чистого разума.

Исламские мыслители дали интересную классификацию наук, задали степени и уровни наук, ступени и стадии познания. В то же время познавательные способности разных мыслителей были классифицированы по уровням: пророк и авлия, улюль-аль-баб (обладатели чистого разума), углубившиеся в науку (расих), сведущие и обычные люди.

Ключевые слова: *исламская мысль, универсальность, откровение, разум, дух.*

Nasib Goyushov, Doctor of Philological Sciences

PARADIGM OF ISLAMIC THINKING: MAIN DIRECTIONS

ABSTRACT

Islamic thought is a rich treasure trove of divine revelation that is closely associated with monotheistic unity and wisdom, encompassing all aspects of the world of beings, the cosmos and human life. The scale of Islamic thought is of universal significance

and at the same time includes all layers of the external and internal world; it combines sensory perception, mental thinking, spiritual and inner enlightenment.

According to the Qur'an, the universal and limitless mind (primordial mind) belongs to Allah, and the small mind given to man is designed to effectively regulate his worldly affairs. Rationalism in the Qur'an is based on justice and moral values and differs from modern pragmatism in that the latter way of thinking is aimed at satisfying the interests of one party or group. In Islam, there is no reason or understanding other than moral and spiritual values.

The dimensions of Islamic thought span many dimensions: divine wisdom, rational knowledge and epistemology, ontology and cosmology, phenomenology and hermeneutics, moderation, hanif tradition and justice. The aesthetic aspect of this thinking is also universal.

According to the Qur'an, the center of thought is the heart, cleansed of nafs, while the brain and mind are tools and means, and the heart is what directs thoughts on a healthy and correct path. In this sense, the owners of pure minds draw attention to themselves.

Islamic thinkers gave an interesting classification of sciences, determined the degrees and levels of sciences, stages and stages of cognition. At the same time, they classified the cognitive abilities of different thinkers by floor; prophets and saints, uul-albab (pure minds), experts in science, knowledgeable and common people.

Keywords: *Islamic thought, universality, revelation, mind, spirit*

XƏTİB TƏBRİZİNİN "ŞƏRHU-İXTİYARATİL-MUFADDAL" ƏSƏRİNDƏ MUXADRAM ŞAİRLƏR

f.e.d., dos. Zəkiyyə Əbilova,
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun baş elmi işçisi
zekiyye.abilova@mail.ru

XÜLASƏ

Azərbaycan xalqının XI əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət Xətib Təbrizi yaradıcılığı bitib-tükənməyən bir xəzinədir. Bu yazıda böyük alimin avtoqraf nüsxəsi Tunisin Milli Kitabxanasının Əlyazmalar Fondunda mühafizə olunan "Şərhu-İxtiyaratil-Müfəddəl" ünvanlı əsərindən bəhs edilir. Əsər VIII əsrdə yaşayıb-yaratmış Kufə məktəbinə mənsub ərəb dilçisi əl-Mufaddal əd-Dabbinin "əl-İxtiyariyyat" (və ya "əl-Müfəddəliyyat") adlı antologiyasına yazmış olduğu şərhdir. Bu əlyazma XI əsr abidəsi olması ilə yanaşı, həm də Azərbaycan mətnşünaslığının başlanğıcı kimi tanınmaqdadır. Təəssüf ki, bu qədər dəyərli əsərə indiyədək Azərbaycan tərəfindən heç bir qayğı göstərilməmişdir. Əlyazma üzərində tədqiqat zamanı antologiyaya daxil edilmiş 67 şairin 127 qəsidəsi etiqadi baxımdan araşdırılmış, onlardan 14-nün muxadram olduğu müəyyənləşdirilmişdir. Məqalədə "muxadram" sözünün mənaları açıqlanır, həmçinin antologiyada bu qəbildən olan şairlərin həyat və yaradıcılıqları barədə qısa məlumat verilir.

Açar sözlər: *Xətib Təbrizi, muxadram, avtoqraf, əlyazma, şair.*

Giriş

Klassik ərəb şerinin üç ən qiymətli antologiyasından biri VIII əsrdə yaşayıb-yaratmış Kufə məktəbinə mənsub ərəb dilçisi əl-Müfəddəl (və ya Müfəzzəl) ibn Məhəmməd ibn Yəla (və ya Məla) ibn Əmir ibn Səlim ibn ər-Ramal əd-Dabbiyə məxsusdir. Rəvayətə görə, əl-Müfəddəl əd-Dabbinin "əl-İxtiyariyyat" (və ya "əl-Müfəddəliyyat") adlı antologiyası xəlifə əl-Mənsurun təşəbbüsü ilə oğlu əl-Mehdinin tərbiyə edilməsi üçün toplanılmışdır. Antologiyanın tərtib edilməsi 756-cı ilə aid edilir. Antologiyaya 67 şairin 127 qəsidəsi daxil edilmişdir.

Şairlərdən 6-sı İslam, 14-ü muxadram, 2-si yəhudi, 4-ü xristian (2-si nasara olmaqla), qalanları digər dinlərə etiqad göstərmişlər. "Əl-İxtiyariyyat" əsərinə bir neçə şərh yazılmışdır. O cümlədən الانبرى (əl-Ənbəri), المرزوقى (əl-Mərzuqi) və başqa tənqidçilərin əsərə yazdıqları şərhlər rəngarəngliyi, maraqlılığı ilə təqdirəlayiqdir. Adıçəkilən şərhlərin üzü dəfələrlə köçürülmüş və bu gün dünyanın bir sıra kitabxanalarında nadir ədəbiyyat nümunələri kimi qorunmaqdadır.

Azərbaycan mətnşünaslığının başlanğıcı

Əl-Müfəddəl əd-Dabbinin "əl-Müfəddəliyyat" əsərini şərh edənlər arasında Azərbaycan şairi Xətib Təbrizi görkəmli yer tutur. Onun bu sahədə xidməti digərlərinə nisbətən daha böyükdür.

Azərbaycanın görkəmli alim, şair və ustadı Xətib Təbrizinin "əl-Müfəddəliyyat"a yazdığı "Şərhu-İxtiyaratil-Müfüddəl" ünvanlı şərhinin avtoqraf nüsxəsi Tunisin Milli Kitabxanasının Əlyazmalar Fondunda mühafizə olunur. Bu əlyazma XI əsr abidəsi olması ilə yanaşı, həm də Azərbaycan mətnşünaslığının başlanğıcı kimi tanınmaqdadır. Təəssüf ki, bu qədər dəyərli əsərə indiyədək Azərbaycan tərəfindən heç bir qayğı göstərilməmişdir. İstər dövrünün, istərsə də neçə yüzilliklər əvvəl yaşamış fikir, söz xadimləri, ədəbi mühit, tarixi şəxsiyyətlər haqqındakı məlumatları gözəl bilən Xətib Təbrizi antologiyanı şərh edərkən hər bir şairin çoxdan bəri tanındığı adın, eləcə də qəsidələrdəki ifadələrin etimologiyasına varmış, onu bacarıqla araşdırmış, yanlışlıqlardan uzaqlaşdırmağa çalışmışdır. Əsərdəki bu dəqiqlik sözün həqiqi mənasını tapanadək onun araşdırılmasına olan maraq, istək, klassik ərəb şerinin qavranılması unudulmuş, bəzən leksikondan çıxmış söz və ifadələrin dildə bərpa olunmasında mühüm rol oynayır. Xətib Təbrizi qəsidələri beyt-beyt ayırmış və şərh etmişdir. O, şərh edərkən beytdəki sözlərin leksik mənalarını açmaqla kifayətlənməmiş, ayrı-ayrı sözlərin bir beyt ətrafında birləşərək, vahid məna çaları yaratmasında böyük rol oynayan qrammatik funksiyaların aydınlaşdırılmasına da geniş yer vermişdir. Elə buna görə də əsər və onun müəllifi ədəbiyyatsevərlər tərəfindən yüksək qiymətləndirilmişdir. Təsadüfi deyildir ki, görkəmli ədəbiyyatşünas alim Həmid Araslı Xətib Təbrizini "Azərbaycan xalqının XI əsrdə yetişdirdiyi ən dahi şəxsiyyət" adlandırmışdır (Гамидли, 2013, 12).

Yuxarıda qeyd etdiyimiz kimi, antologiyaya on dörd muxadram şairin qəsidəsi daxil edilmişdir. Əsər üzərində tədqiqat apararkən həmin şairlər araşdırılaraq üzə çıxarılmışdır. Şairlər haqqında məlumat

verməmişdən əvvəl Azərbaycan ədəbiyyatında, demək olar ki, yer almayan "muxadram" ifadəsinin şərhini vermək təqdirəlayiq olardı.

"Muxadram" dedikdə kimlər nəzərdə tutulur

"Muxadram" dedikdə, Cahiliyyə dövründə və İslamın ilk dövrlərində yaşamış, lakin Peyğəmbəri (s) İslamı qəbul etməmişdən əvvəl görmüş kimsələr nəzərdə tutulur. Buna görə də həmin şəxslər səhabə və ya tabein hesab edilmirlər. Bir görüşə görə, cahiliyyə ilk vəhyin enməsi ilə 610-cu ildə bitmiş və həmin vaxtdan islami dövr başlanmışdır. Digər fikrə görə, Cahiliyyə dövrü Məkkənin fəth edilməsi, Ərəbistan yarımadasının İslamı qəbul etməsindən sonra başa çatmışdır. Hədisçilər ikinci dövrü əsas götürmüş, Məkkənin fəthindən əvvəl öz qövmünü, yaxud digər qəbilələri İslamı qəbul etməmiş görənləri muxadram hesab etmişlər.

"Muxadram" kəlməsi dil və ədəbiyyat alimləri tərəfindən müxtəlif mənalarda anlaşılmışdır. Dilçilərə görə, Peyğəmbəri görüb-görməməsindən asılı olmayaraq, ömrünün yarısını Cahiliyyə dövründə, bir hissəsini isə İslam dövründə yaşayaraq əsərlər yaratmış şairlər "muxadram" adlanır. Ləbid bin Rəbiə, Kəb bin Züheyr və Hassan bin Sabiti bu qəbildən sayılmışlar. Tarixçilər isə həm Əməvilər, həm də Abbasilər dövrünü görənləri muxadram hesab etmiş və Rubf bin Accac ilə Həmmad Acrədi bu qisimdən hesab emişlər. Hədis ravisi kimi muxadramlar tabein nəslinin birinciləri nəzərdə tutulmuşlar. Əlqəmə bin Qeys, Məsruq bin Əcdə, Əbu Osman ən-Nəhdi və Qeys bin əbu Nazim bu qəbildəndirlər. İlkin hədis topluları üzərində aparılmış tədqiqatlardan 43 muxadram ravinin 4541 rəvayəti aşkarlanmışdır. Əbu Vail bin Sələmə, Əsvəd bin Yəzid Ən-Nəhai, Məsruq bin Əcda, Əlqəmə bin Qeys və Əbu Osman ən-Nəhdi daha çox hədis söyləmişlər. Hədis kitablarında muxadram şairlərə ayrıca bölmə ayrılmışdır (Efendioğlu 2005, 395).

İslamın gəlişi ilə ərəb poeziyasında, ümumiyyətlə, ərəb ədəbiyyatında yeni forma və üslub xüsusiyyətləri də təzahür olunmağa başlayırdı. Kainatın vahid qüvvə – Allah-Taala tərəfindən idarə olunması, Quran həqiqətlərinin ümmətə çatdırılması üçün şərhlər və təfsirlərin qələmə alınması, Peyğəmbər (s) və onun əhli-beytinin məsumluğunu əks etdirən nətlər, din, torpaq uğrunda şəhid olanların Allah dərgahında günahsız hazır olacaqlarını vəd edən mədh və mərsiyələrin yazılması, din düşmənlərinin kinayəli fikirlərinə yazılmış həcvlər üslubi baxımdan yeni nümunələr idi. İslam hüdudlarını genişləndirdikcə, nə-

ticədə, bu dini qəbul edən müxtəlif mədəniyyətli, dilli, adət-ənənəli xalqların "mədəni nailiyyətlərini əks etdirən sinkretik İslam mədəniyyəti yarandı (Qasımova 2019, 220).

Onu da qeyd etmək lazımdır ki, Cahiliyyə dövrü ilə muxadram şairlər bir-birlərindən icaz, ifadə qüvvəsi, nəşv üslubu, mövzuların seçilməsi, təsvir bacarığı baxımından bir o qədər də fərqlənmirdilər. Muxadram şairin yeni xüsusiyyətləri var idi. Burada dil inkişaf etmiş, sözlərin yazılışı, ifadə tərzinin aydınlığı ilə muxadram cahiliyyə şerindən fərqlənirdi. Həmin şeir İslamın zühurundan sonra onun xoş rayihəsinin ətrafa yayılması ilə seçilir. Nümunədə Cahiliyyə şerində olduğu kimi, həyatdan ümidsizlik, məyusluq, taleyin uğursuzluğundan şikayət görmürük. Şeirdə Quranın vəd etdiyi cənnətə, axirətə inam vardır. Ümumi olaraq, Qurandan gələn cənnət qoxusu, cəhənnəm odu, küfr, iman, zəkat, namaz, rüku, vüdu kimi yeni ifadələr mövcuddur. Bu şözlər Cahiliyyə dövründə də var idi. İslamdakı yeni mənalara dəlalət etmirdi. Şeir özü də yeni növ əldə etdi (4; 5)

"İxtiyaratil-Müfəddəl" antologiyasına daxil edilmiş muxadram şairlər

Antologiyaya on dörd muxadram şair daxil edilmişdir. Onlar aşağıdakılardır:

əl-Muxəbbəl əs-Sədi
المخبل السعدى

Rabia bin Malik bin Rabia bin Auf əs-Sədi əbu Yəzid Muxəbbəl əs-Sədi Təmim qəbiləsindən Bəni-Ünf ən-Naqədəndir. Adı Rabi bin Malik bin Rabiadır, əl-Müxəbbəl ləqəbidir. Cahiliyyə dövründə yaşamış, İslamın zühurundan sonra bu dini qəbul etmişdir. İbn Səlləm onu "Tabaqatu-fuhuli-şüarayil-cahiliyyə"də beşinci təbəqədə xatırlatmışdır. Onun oğlanları da şair olmuşlar. Antologiyaya qırxbeytlik "mimiyyəsi" ilə daxil edilmişdir. Xətib Təbrizi yalnız şairin adını yazdıqdan sonra qəsidənin şərhinə keçir. Müəllif haqqında əlavə məlumat vermir. Qəsidə Xətib Təbrizinin şərhi ilə birlikdə əlyazmanın 86b-91a vərəqlərini tutur. Muxadramun şairlərdəndir. Belə ki, Cahiliyyə dövrünün sonu, İslamın əvvəllərində yaşamışdır.

Əl-Mərzbani Əbu Əla Zəkəriyyə bin Hərun əl-Hicri öz "Nəvadirin"də xatırlatmışdır ki, onun səhabəliyi və hicrəti olmuşdur. İbn Həbib demişdir ki, əz-Zəbrqan, Müxəbbəl əs-Sədi, Abdə bin ət-Təbib, Əmir bin Əhtəm, Əlqəmə bin Abdə İslamı qəbul etməmişdən Peyğəm-

bərin (s) bəsətindən əvvəl toplaşmış, heyvan kəsib, yeyib-içdikdən sonra şairləri xatırlamış, onlardan hansının şerinin daha güclü olduğunu müzakirə etmişlər. Qərara almışlar ki, aralarında şeir deyişməsi başlasınlar, kim birinci qurtarsa (digərlərini bağlasa), o, birincidir. Rabia bin Hüzar əl-Əsədi birinci qurtarır. Buna baxmayaraq, Müxəbbələ deyir: "Sən nəsən, Müxəbbəl, sənin şerin çaxan şimşəkdir ki, onun nurunu Allah yalnız istədiyi qullarına verər (6). Buradan da onun dahi şair olduğu təsdiqlənir.

"Tabaqatu-fuhuli-şüarayil-cahiliyyə"də qeyd edilir ki, çoxlu yaxşı şeirləri var. Çox vaxt Bəni-Qarini mədh edir, öz qəbiləsi Bəni-Sədin ötən günlərini xatırlayır, divanının olduğu da qeyd edilir. Sonralar Bəsrəyə hicrət edən şair uzun ömür yaşamışdır. 12 (h)-632 (m) ilində Osman bin Affanın dövründə vəfat etmişdir. Ömər bin Xəttabın dövründə vəfat etdiyini bildirən mənbələr də mövcuddur.

"Şərhul-Müfəddəliyyat"da iyirminci yerdə verilmişdir. Bura qırx beytdən ibarət "mimiyyə"si ilə daxil edilmişdir. Qəsidənin qırxıncı beytində deyilir: (Qibavə 1971 (I), 533-558; Təbrizi 1093. 86 b-91 a.).

إنى وجدت الأمر أرشده تقوى الآ له وشره الإثم

Tərcüməsi: *Əmr almışam, Onun doğru yolu ilə gedirəm,*
Təqva yalnız Onadır, şər işləri günah buyurmuşdur.

Xətib Təbrizi beytin şərhində yazır: "الرشاد" (xeyrin) müqabili "الشر"(şərdir). "Şər"dən doğan mənalar hikmətdən kənar olan fəsad, şər, xəta, günah, pislik, zəlalət, cəhalət kimi adlanmışdır. Belə məna daşıyan məfhumlarla doğruluq, yaxşılıq, salehlik, savab, xeyir və hidayət kimi ifadələr bir araya sığmaz. Onun üçün başqa bir deyim vardır: "Kim ki, xeyrə layiqdir, xalq onun əmrinə şükür edir. Kim ki yolunu azarsa, öz əməlinə uyğun olaraq, azğınlıq içində qalar. Bu sahədə bu qədər xatırlatdım. "الأمر"in açması bu qədər". Xətib Təbrizinin şərhindən belə məlum olur ki, hər bir əməlin qiymətini verən Allah-Taaladır. Hər bir hərəkətin, hər bir ifadənin mahiyyəini bəyan edən Allah-Taala müsəlmanın həyat yolunu müəyyənləşdirir. Onu xeyir, saleh əməllərə hidayət edir. Siratün-müstəqim Odur. Onun əksi olan isə səhv yoldur. Ondan çəkinmək lazımdır. Təqva yalnız haqsızlıqları yerdə qoymayacaq Allah-Taalaya xasdır.

Xətib Təbrizi qırxbeytlik qəsidəni bu şəkildə beyt-beyt köçürmüş, hər beytin altında şərhini vermişdir. Antologiyaya daxil edilmiş yüz iyirmi yeddi qəsidənin hər biri bu tərzdə şərh edilmişdir. Bu yazıda isə söhbət muxadram şairlərdən getdiyindən onlar haqqında məlu-

mata müraciət edəcəyik. Həcmi nəzərə alaraq, yalnız şairlər haqqında verdiyimiz məlumatla kifayətlənirik.

Yəzid bin Ambu bin Vaillə bin Ənəs bin Abdullah bin Abdi Şəms
يزيد بن عمبو بن وئلة بن عنس بن عبد الله

O, Yəzid bin Ömər bin Vaələ bin Ənəs bin Abdullah bin Abdi Nəhmi bin Cəşəmə bin Abdu Şəms bin Səd bin Zeyd Mənat bin Təmimdir. Nisbəsi Abd bin ət-Tabibdir. Ona Aşməs bin Səd bin Zeyd Mənat bin Təmim də deyirmişlər. Künyəsi Əbu Zeyddir. İki tarixi dövrdə yaşamışdır. Muxadaram şairlərindəndir. İslamın zühuru dövründə yaşamış və onu qəbul etmişdir. Müsəlmanların farslarla Mədaindəki döyüşündə şəhid olmuşdur. Antologiyaya iki qəsidəsi daxil edilmişdir. Səksənbirbeytlik "ləmiyyə"si əlyazmanın 103 b -111 b, otuzbirbeytlik "ayniyyəsi" isə Xətib Təbrizinin şərhi ilə birlikdə 112 a – 114 b vərəqlərini tutur.

Rabia bin Maqrum əd-Dabbi
ربيعة بن مقروم الضبى

Bütöv adı Rabia bin Maqrum bin Qeys bin Cabir bin Xalid bin Ömər bin Ğeyz bin əs-Seyyid bin Malik bin Bəkr bin Səd ibn Dabbə bin Uddur. Ərəbistan yarımadasındandır. Raşidilər xilafətində yaşayıb. Həmasəyə daxil edilmiş şairlərdəndir. Cahiliyyənin sonu, İslamın əvvəllərində yaşamışdır. İslamın əvvəllərində dəhri olmuş, sonradan İslamı qəbul etmişdir. Muxadram şairlərdəndir. Bin əl-Haris söyləmişdir ki, Əbu Ömər Şeybani idi. Cahiliyyə və İslam dövründə yaşamışdır. İslamın bir sıra fəthlərinin şahidi olmuşdur. İslam ordusunun tərkibində əl-Qadisiyyə döyüşündə iştirak etmiş və şəhid olmuşdur.

Divanı var. "Müfəddəliyyat"a üç qəsidəsi daxil edilmişdir. Birinci qəsidə qırx beş beytdən ibarətdir, Xətib Təbrizinin şərhi ilə birlikdə əlyazmanın 131b-134b vərəqlərini tutur. Əlyazmanın 134 və 136-cı vərəqləri yoxdur. Bunu Fəxrəddin Qibavənin tənqidi mətni ilə müqayisədə müəyyənləşdirmək mümkün olmuşdur (Qibavə 1972, 846-850). Yenə həmin mənbə ilə müqayisədən məlum olur ki, növbəti otuzbirbeytlik qəsidə də Rabia bin Mərqumundur və şərhlə birlikdə əlyazmanın 134-137b vərəqlərini tutur. Şairin on dörd beytdən ibarət üçüncü qəsidəsi Xətib Təbrizinin şərhi ilə birlikdə əlyazmanın 150a-151b vərəqlərini tutur.

Təxminən, 100 il yaşayıb. 16 (h)/ 637 (m) ilindən sonra vəfat etmişdir (9).

Suvid bin Əbi Kahil əl-Yəşkuru
سويد بن ابى كاهل اليشكرى

O, Suvid bin Əbi Kahil bin Harisə bin Hasil bin Malik bin Abd Səd bin Cəsəm bin Zəbyan bin Kənanə bin Yəşkurdur. Künyəsi Əbu Səddir. Atası Şəbib və ya Ğatif də şair olmuşdur. İbn Sələm onu "Tabaqatu-fuhuli-şüarayil-cahiliyyə"də (Cahiliyyə şairlərinin dahilərin təbəqələri) altıncı təbəqəyə aid etmişdir. Onun çoxlu şeri olmuşdur ki, daha çox bununla məşhurlaşmışdır. Muxadaram şairlərdəndir. Cahiliyyə dövründə dəhri kimi yaşamışdır. İslamın zühurundan sonra bu dini qəbul etmişdir. 560-cı ildən sonra həyatda olduğu bildirilir. Yüzsəkkizbeytlik qəsidəsi Xətib Təbrizinin şərhi ilə birlikdə əlyazmanın 137b-145b vərəqlərini tutur (10).

Əbul-Qeys bin əl-Əslət əl-Ənsari
ابو القيس بن الاسلت الانصارى

Əbu Qeys onun künyəsidir. Müxtəlif adlarla adlanmışdır. Onu əl-Haris, Abdullah, Seyfi bin Amir bin Cəşim bin Vail bin Zeyd də adlandırmışlar; əl-Əslət atasının ləqəbidir. Əl-Əzd bin əl-Ğövs ibn bint bin Malik bin Zeyd bin Kəhlən bin Səb bin Bəşcəb bin Yərib bin Qəhtandandır. Adı Amir bin Cəşəm bin Vail bin Zeyd bin Qeys bin Amior bin Murra bin Malik bin Əvəs əl-Əvsidir. İbn Səlləm onu Mədinə şairlərinin beşinci təbəqəsinə aid etmişdir. Cahiliyyə dövründə hənif dininə etiqad göstərmişdir. Əl-Ovsanın məşhur şairlərindəndir. Abdullah bin Məhəmməd bin İmarə bin əl-Qəddah söyləyib ki, qövmünü İslama qarşı qızışdırırdı. Peyğəmbərin (s) toplantılarında iştirak edəndən, onun danışığına qulaq asandan sonra İslamı qəbul etmişdir. On dörd beytdən ibarət qəsidəsi Xətib Təbrizinin şərhi ilə birlikdə əlyazmanın 186b-188b vərəqlərini tutur (11).

Abdullah bin Anmə əd-Dabbi
عبد الله بن عنمة الضبى

O, Abdullah bin Anmə bin Hutan bin Sə1ləbə bin Zuləb əd-Dabbidir. Bəni-Ğeyz bin Seyid bin Malik bin Bəkr bin Səd bin Dabbədəndir. Bəni-Şeyban qəbiləsi ilə qonşu olmuşlar. Həmin qəbilədən bir qızla ailə qurmuş və orada məskunlaşmışdur. İki dövrdə yaşamış, "Muxdaramə" şairlərdəndir. İslam ordusunun tərkibində əl-Qadisiyyə

döyüşündə iştirak etmiş və şəhid olmuşdur. Antologiyaya Abdullah bin Anmənin iki qəsidəsi daxil edilmişdir. İyirmi üç beytdən ibarət olan birinci qəsidə Xətib Təbrizinin şərhi ilə birlikdə əlyazmanın 231b-232b, altıbeytlik ikinci qəsidə isə 233a -233b vərəqlərini tutur.

Əbu Zübeyd əl-Hizli
ابو ذؤيب الهزلى

O, Xuveyld bin Xalid Məhrəs bin Zübeyd bin Məxzum bin Sahilə bin Kahil bin əl-Haris bin Təmim bin Səd bin Hizli bin Mudrikə bin İlyas bin Mudar bin Nizardır. Rasul-Həram qəbiləsindəndir. Huzeylə aid edilir. Onun taun xəstəliyinə tutulmuş beş oğlu bir ildə vəfat etmişdir. Yəməndən Misrə hicrət etmişdir. "Xəzanətül-ədəb"də Kəhl bin Müaviyə, "Kitabul-Əğani"də Kəhil bin Haris kimi adlanır. Əbu Zueyb Hizli Peyğəmbərin (s) vəfatı gecəsi İslamı qəbul edib və muxadram şairlərdən idi. Onun dəfnində iştirak etmişdir. Züeyb qədimdən bəri məşhurdur. Həyatını İslama bağlamış, səhabə və xəlifələrlə bir çox döyüş, fütuhat və işğallarda iştirak etmişdir. Misri fəth etmişlər. Əbu Züeyb Hizli Raşidi xəlifəsi Osman bin Afvanın xilafəti zamanı döyüşdə həlak olmuş, onunla olan İbn Zübeyr onu dəfn etmişdir. Şairin Nəşilə adlı yaxını var idi. Ölümündən sonra ondan çoxlu sayda qəsidəsi qalmışdır. Əbu Züeyb əl-Hizlinin altmışdördbeytlik "ayniyyəsi" Xətib Təbrizinin şərhi ilə əlyazmanın 252b-262 a vərəqlərini tutur.

Auf bin Atıyyə bin Əmir əl-Həz bin Eymi bin Vadia ət-Teymi əl-Mudri
عوف بن عطية بن عمرو الحزع بن عيمى بن وديعة التيمى المضرى

Tam adı Auf bin Atiyyə bin Əmir bin Əbəs bin Vadiə bin Abdullah bin əl-Hərs bin Tim bin Abdul-Manat bin Əd bin Tabixa bin İlyas bin Muzardır. Cahiliyyə dövrü şairlərindən olub, Mudardan Tum ər-Ribəbdən çıxmış məşhur şəxsiyyətlərdəndir. İslamın gəlişinə qədər yaşamışdır. İbn Sələm onu islamçıların səkkizinci təbəqəsindən hesab etmişdir. Kiçik divanı vardır. Divanın "əl-Xəzanə" müəllifi Bağdadidə bir nüsxəsi vardır. "Mufaddaliyyatın" 94-cü qəsidəsi onundur. "Əl-Xar`" onun babasının ləqəbidir. "Lisan"ın IV cildində (səh. 44; 377; 723) qeyd edilir ki, "əl-Xar`"ın atasının ləqəbi olduğu qeyd edilir. Əbu Ubed əl-Bəkri "əs-Səmt"də xatırladır ki, o, cahiliyyə və İslam dövrləri şairidir. Hafiz ibn Hacər "əl-İsabə" əsərində əl-Muxdramə" şairlər arasında onun adını çəkir.

Peyğəmbərin (s) mövludundan əvvəlki il baş vermiş "Yövmül-Cəblə" vaqeəsində iştirak etmişdir. "Mufaddaliyyat"a daxil edilmiş qəsidəsində qəbiləsinin cavanlarına müraciət edir. O, qövmünün qadınlarının çaşqınlıq və iztirablarını, kişilərinin halını təsvir edir. Eyni zamanda, öz qəbiləsi ilə fəxr etdiyini bildirir. Qırxbirbeytlik "əlfiyyə"si Xətib Təbrizinin şərhi ilə birlikdə əlyazmanın 248b-251b vərəqlərini tutur.

Məqqas əl-Aaizi
مقاس العائذى

O, Bəni-əbi Rabia bin Zöhl bin Şeybandadır. Qüreyş ailəsindəndir. Adı Məshər bin əl-Niman bin Əmir bin Rəbiə bin əl-Hirs bin Malik bin Ubeyd bin Xəzimə bin Yəvi bin Ğalib bin Fəhrdir. Məqqas onun ləqəbidir. Künyəsi Əbu Cəldədir. Az, lakin sanballı şeri olan şairlərdəndir. Bəni-əbi Rabia bin Zöhl ibn Şeyban ilə qonşu olmuşdur. İslamın meydana gəldiyi dövrdə yaşamışdır. Muxadram şairdir (F.Q.s.1311). Antologiyaya iki qəsidəsi daxil edilmişdir. Dörd beytdən ibarət olan birinci qəsidə Xətib Təbrizinin şərhi ilə birlikdə əlyazmanın 198a-198b, səkkiz beytdən ibarət olan ikinci qəsidə isə 198b-199a vərəqlərini tutur. Qəsidələrdə Bəni-Zöhül bin Şeybandan olanlar bütünlüklə mədh edilir (8. III,1311).

Muzərrid bin Dırar bin Həzmilə bin Sənan
əl-Məzani əz-Zibyani əl-Ğətvani
مزارد بن ضرار بن حزملة بن سنعان المظانى الزبيانى الغتوانى

Adı Yəzid bin Dırar bin Harmələ bin Seyfi bin İyəs ibn Abdi Ğənm bin Cihaş bin Bəcalə bin Mazən bin Sələbə bin Səd bin Zəbyən ibn Bəğid bin Zeybdir. Özündən böyük qardaşının adı əş-Şəmmaxdır. Zəbyəni sələbilərdən muxadram cahili-islami məşhur şair olmuşdur. Adı Yəzid, ləqəbi Muzərriddir. Səhabəliyi olmuşdur. Məşhur süvari döyüşçü idi. Cahiliyyə dövrü şairidir. Ahıl yaşlarında Xəlifə Osmanın vaxtında İslamı qəbul etmişdir. Kəskinhəcvli dili var idi. Təxminən, 10 (h)/631 (m) ilində vəfat etmişdir. Antologiyaya qırxbeşbeytlik "dəliyyə"si daxil edilmişdir və Xətib Təbrizinin şərhi ilə birlikdə əlyazmanın 55a -61a vərəqlərini tutur (12; 13).

Abdə bin ət-Tabib
عبدة بن الطبيب

O, Yəzid bin Əmir bin Valə bin Ənəs bin Abdullah bin Abdi Nəhm Cuşəmə bin Abdu Şəms bin Səd bin Zeyd Mənat bin Təmimdir. Təmimi Sədi şairdir. Künyəsi Əbu Yəziddir. Əvvəllər oğrubaşı olmuşdur. İslamı qəbul edərək müsəlman olmuşdur. Müsəlmanların farslarla Mədaində müharibələrinin şahidi olmuşdur. Antologiyaya şairin iki qəsidəsi daxil edilmişdir. Səksənbirbeytlik birinci qəsidə Xətib Təbrizinin şərhi ilə birlikdə əlyazmanın 103a-111b, otuzbeytlik "ayniyyə"si isə Xətib Təbrizinin şərhi ilə birlikdə 112a-114a vərəqlərini tutur.

Abdu Yağus bin əl-Haris əl-Harisi Seyid
Bənu əl-Haris bin Kəb
عبد يغوث بن الحارث الحارثى سيد بنو الحارث بن كعب

Adı müxtəlif cür səsləndirilir. Bəziləri Abdu Yəğus bin Vəqqas bin Salat, bəziləri Abdu Yəğus Vəqqas bin Salat, bəziləri isə Abdu Yəğus bin Müaviyə bin Salat, digərləri isə İbn Haris bin Vəqqas bin Salat adlandırırlar. O, məşhur Qahtani Cahiliyyə şairidir, İslamı qəbul etmişdir. Cahiliyyə dövründə və İslamı qəbul etdikdən sonra da şeirləri ilə məşhur olmuşdur. İtisürətli çapar idi. Qövmünün şərafətli başçısı olmuşdur. Məşhur qəsidəsi var. Deyilənə görə, "Yövmü-Kulab əs-Sani" bəsətdən sonra olmuşdur. Əgər bu həqiqətdirsə, Abdu Yağus İslamı qəbul etmiş, onun Mufaddaliyyatının tərtib edilməsi Peyğəmbərin (s) məbəsindən sonrakı dövrə təsadüf edir. Bəni-Təmim üzərinə hücumda onlara başçılıq etmişdir. Belə ki, Yəmən əhli plan quraraq böyük ordu toplamışdı. "Yövmü-Kulab əs-Sani" də döyüş başlayır. Plan məğlubiyyətə uğrayır. Bəni-Təmimdən ən-Nimən bin Malik bin əl- Haris bin Cəsam öldürülür. Abdu Yağus əsir düşür. Həmin gün "Müfəddəliyyat"ı oxuyub, sonra öldürülməsinə əmr verilib. Antologiyaya şairin iyirmibeytlik "əlfiyyə"si daxil edilmişdir və Xətib Təbrizinin şərhi ilə birlikdə 122b-124a vərəqlərini tutur.

əl-Haris bin Valə əl-Cərmi
الحارث بن وعلة الجرمى

Adı əl-Haris bin Valədir. Nisbəsi əl-Haris bin Valə bin Abdullah bin əl-Haris bin Bəl bin Səbilə bin əl-Hun bin Əcəb bin Qudamə bin Harm bin Zəbandır. Cahiliyyə dövrü şairidir. Əl-Haris və atası Valə Bəni-Cərm bin Rəbban bin Halvan bin İmran bin əl-Haf bin Qadaədən Qahtani Qadai şairdirlər. İslamdan sonra Yövmül-Kulab əs-Sani günü

İslamı qəbul etmiş və muxadram olmuşlar. Antologiyaya daxil edilmiş onikibeytlik qəsidəsi əlyazmanın 124a -124b vərəqlərini tutur.

Məhrəz bin Mukabər əd-Dabbi
محرز بن مكعبر الضبى

Bəni-Bəkr bin Rabia bin Kəb Sələbə bin Səd bin Dabbə bin Ədd bin Tanc bin əl-Yəs bin Mudardır. Yövmül Kulab əs-Sani vaxtı uzaqda imiş. Qövmünün düşmən üzərindəki qələbəsi xəbəri ona çatır. Yövmül Kulabis-Sani İslamın zühurundan sonra baş vermişdir. Deməli, Muhriz bin əl-Mukabərin muxadram olması həqiqətdir. Cahili olarkən İslamı qəbul etmişdir.

Mərzbaninin "Mucəmuş-şüəra"sında haqqında məlumat vardır. "Həmasə"yə də şeri daxil edilmişdir. Antologiyaya daxil edilmiş yeddibeytlik qəsidəsi Xətib Təbrizinin şərhi ilə əlyazmanın 172b vərəqindədir.

Onu da qeyd edim ki, antologiyaya daxil edilmiş şairlərdən əl-Museyb bin Əlinin də muxadram şair olduğu ehtimal edilir. Lakin şairin həyatda olduğu zaman müddəti də (48-100 (h)-525-575 (m)) bu fikrin yanlış olduğunu sübut edir.

Nəticə

Beləliklə, Xətib Təbrizinin "Şərhu-İxtiyaratil-Müfəddəl" əsərində qəsidələri verilmiş on dörd muxadram şair haqqında qısa məlumat təqdim etdik. Bunlar ərəb şairləri olsalar da, klassik ədəbiyyata gətirdikləri yeni janr və üslubları ilə ümummüsəlman mədəniyyətinə xidmət ediblər. Bu şeirlərdən qədim Şərq xalqlarının adət-ənənələri, tarixi, peşə və sənətkarliği ilə bağlı çox şey əldə etmək mümkündür.

ƏDƏBİYYAT

1. Гамидли Г.Ш. (2013.). Некоторые сведения о Хатибе Тебризи и его лингивистических трудах. Восточные обшества: традиции и современность. Тезисы докладов II Съезда молодых востоковедов стран СНГ. Баку, 11-14 ноября 2013 года. Баку. (69с.).
2. Efendioğlu Mehmet. Muhadramun. (2005). İslam Ansiklopedisi.Türkiye Diyanet VakfiCilt 30. İstanbul. (s. 395.) (587 s.).
3. Qasımova Aida. (2019.). Ərəb ədəbiyyatı V-XIII əsrlər. Bakı: "Elm". (674 s.) (s. 220).
4. https://ar.wikipedia. org/wiki سويد_بن_ابى كاهل

5. www الشعراء المخضرمون ابناء العرب فى الجاهلية
6. sahaba.com/Sahaby/27777/ – مفصل/مخبل- السعدى
7. يحيى بن على الخطيب التبريزى خط المؤلف، تاريخ الكتاب ٤٨٦. شرح اختيارات المفظل بن محمد الضبّى
8. شرح إختيارات المفضل (تحقيق فخر الدين قباوه. دمشق. مجمع اللغة العربية. الجزء الأول – الجزء الثالث.
9. K-tb.com/book/Arabi 06820 ديوان_ربيعة_بن_مقروم_الضبى
10. https: //ar.wikipedia. orq/wiki/ سويد_بن_ابى_كاهل
11. ar.wikipedia.orq/wiki/ يحيى-بن-عبد-الله-بن-بكير
12. ابو عبد الله محمد بن عمران المرزبانى للمرزبانى معجم الشعراء
13. al-hakawati.net/ Content/uploads/ civilization /5098_143. Pdf/

д-р филос. наук, доц. Закия Абилова

ПОЭТЫ-МУХАДРАМЫ В ПРОИЗВЕДЕНИИ ХАТИБА ТАБРИЗА «ШАРХУ-ИХТИЯРАТИЛ-МУФАДДАЛ»

РЕЗЮМЕ

Творчество Хатиба Тебризи, который был величайшей личностью азербайджанского народа XI века, является неиссякаемым сокровищем. В данной статье рассматривается адресованное произведение «Шарху-Ихтияратил-Муфаддал», автографическая копия которой хранится в Фонде Рукописей Национальной Библиотеки Туниса. Произведение представляет собой комментарий к антологии «аль-Ихтиярийят» (или «аль-Муфаддалийят») аль-Муфаддала ад-Дабби, арабского лингвиста, принадлежащего к куфской школе, который жил и создавал в 8 веке. Наряду с тем, что эта рукопись является памятником XI века, она также известна как начало азербайджанского текстоведения. К сожалению, до сих пор Азербайджан не позаботился о столь ценной работе. В ходе изучения рукописи 127 касыды 67 поэтов, включенных в антологию, были изучены с религиозной точки зрения, и 14 из них были идентифицированы как мухадрамы. В статье разъясняется значения слова «мухадрам», а также дается краткое сведение о жизни и творчестве таких поэтов в антологии.

Ключевые слова: *Хатиб Тебризи, мухадрам, автограф, рукопись, поэт.*

Assoc. Prof. Zakiyya Abilova

POETS-MUKHADRAMS IN THE WORK OF KHATIB TABRIZI "SHARHU-IKHTIYARATIL-MUFADDAL"

ABSTRACT

The creativity of Khatib Tabrizi, who was the greatest personality of the Azerbaijani people of the 11th century, is an inexhaustible treasure. This article deals with the addressed work "Sharhu-Ikhtiyaratil-Mufaddal", an autograph copy of which is kept in the Manuscript Fund of the National Library of Tunisia. The work is a commentary on the anthology "al-Ikhtiyariyyat" (or "al-Mufaddaliyyat") by al-Mufaddal al-Dabbi, an Arab linguist belonging to the Kufa school who lived and created in the 8th century. Along with the fact that this manuscript is a monument of the 11th century, it is also known as the beginning of Azerbaijani textual studies. Unfortunately, until now Azerbaijan has not taken care of such a valuable work. In the course of studying the manuscript of 127 qasidas of 67 poets included in the anthology were studied from a religious point of view, and 14 of them were identified as muhadram. The article explains the meaning of the word "muhadram", and also provides a brief summary of the life and work of such poets in the anthology.

Keywords: *Khatib Tabrizi, muhadram, autograph, manuscript, poet*

AKADEMİK VASİM MƏMMƏDƏLİYEVİN İRSİ

f.f.d. Fuad Nurullayev,
Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini
fuad.nurullah@gmail.com

XÜLASƏ

Məqalədə görkəmli ilahiyyatçı və şərqşünas alim Vasim Məmmədəli oğlu Məmmədəliyevin Qurani-Kərimin doğma dilimizə tərcüməsinə göstərdiyi xidmətlərinin tədqiqi, Azərbaycanda şərqşünaslıq elminin, eləcə də İslam mədəniyyətinin inkişafında və yayılmasında müstəsna xidmətləri, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti əsaslandırılır.

Müqəddəs Kitabımız Qurani-Kərimin, hədisşünaslığın nadir nümunələrindən sayılan Həzrət Əli əleyhissalamın "Nəhcül-Bəlağə" əsərinin və diğər müsəlman mədəniyyətinə məxsus kitabların Azərbaycan dilinə tərcümə və təfsirlərinin hazırlanması işində Vasim müəllimin əvəzedilməz xidməti və zəhməti olmuşdur.

Ərəb və fars dillərini mükəmməl bilməsi Vasim müəllimə klassik Şərq poeziyasının, xüsusilə Azərbaycan klassiklərinin poetik irsinin gözəl bilicisi kimi şöhrət qazandırmışdır. Onun təsəvvüf və irfanla bağlı fikirləri Şərq xalqlarının ədəbiyyatındakı mühüm problemlərin öyrənilməsini xeyli asanlaşdırır. Alimin Yaxın və Orta Şərqin korifeylərinin əsərlərini təhlil edən fikir və mülahizələri bir çox mübahisəli məqamlara aydınlıq gətirib.

Açar sözlər: *akademik, Quran, Bəsrə məktəbi, Kufə məktəbi, tərcümə, təfsir, din.*

Giriş

Zəngin şəxsi keyfiyyətlərə və yüksək elmi xidmətlərə malik akademik Vasim Məmmədəliyev elm dünyasında parlaq zəka sahibi olan nüfuzlu alimlərdən biridir.

Azərbaycan ilahiyyat və şərqşünaslıq elmində çoxşaxəli fəaliyyəti ilə əhəmiyyətli əsərlər qələmə alan Vasim müəllim elmi fəaliyyəti çərçivəsində məhsuldar alimlərimizdəndir. Ərəb dilinin, ilahiyyat elminin bir çox sahələrinə aid qələmə aldığı onlarca elmi əsər və məqa-

ələri buna sübutdur. Görkəmli alimin 15 elmi əsəri, 21 monoqrafiyası, dərslik və tərcüməsi, 132 elmi məqaləsi nəşr olunmuşdur.

Akademikin zəngin elmi fəaliyyəti və yaradıcılığı barədə təkcə onu demək kifayətdir ki, son dərəcə məhsuldar və məsuliyyətli bir alim kimi, onun adı dünya şərqşünaslığının salnaməsinə qızıl hərflərlə yazılmışdır. Azərbaycan xalqı həqiqətən fəxr edə bilər ki, şərqşünaslıq elminin Kraçkovski, Bertels, Bartold, Adam Mets kimi korifeyləri sırasında Vasim Məmmədəliyevin də özünəməxsus yeri vardır. Bütün bu üstünlükləri nəzərə alan dövlətimiz Vasim müəllimin şəxsiyyətinə və elmi fəaliyyətinə hər zaman yüksək dəyər vermişdir.

Akademik Vasim Məmmədəliyevin elmi irsi

Akademik Vasim Məmmədəliyevin AMEA-nın Mərkəzi Elm Kitabxanası tərəfindən nəşr olunmuş biblioqrafik göstəricisində alimin 1967-2011-ci illərdə Azərbaycan, rus, ingilis, türk, ərəb, fars və türkmən dillərində çapdan çıxmış monoqrafiyaları, kitabları, dövri mətbuatda, respublika və beynəlxalq əhəmiyyətli konfrans və simpozium materiallarında dərc olunmuş məqalələri əks olunmuşdur.

Yuxarıda da qeyd etdiyimiz kimi, görkəmli şərqşünas alimin özündən sonra Azərbaycan xalqı üçün, eyni zamanda onu sevənlər üçün elmi irs olaraq qoyduğu ərəb dilinin qrammatikası, poeziyası, ilahiyyat və s. kimi elm sahələrini əhatə edən çoxsaylı əsərləri, monoqrafiya və məqalələri vardır. Biz də bu məqaləmizdə akademikin şərqşünaslıq və ilahiyyat elmi ilə bağlı olan ən məşhur əsərləri haqqında məlumat verməyə çalışacağıq.

Bəsrə qrammatika məktəbi

Bakıda 1983-cü ildə Azərbaycan Dövlət Universiteti nəşriyyatında çap olunan əsərdə müəllif, Bəsrə qrammatika məktəbinin yaranma tarixindən bəhs etmiş, bu məktəbə məxsus ən görkəmli alimlərdən, onların filoloji fəaliyyətləri haqqında geniş şəkildə tədqiqat aparmışdır [V.Məmmədəliyev (1) 1983, s.118].

Bəsrə qrammatika məktəbinin meydana gəlməsi ilə təşəkkül tapan ərəb dilçiliyinin ümumi inkişaf tarixinə nəzər salan V.Məmmədəliyev Orta əsr ərəb qrammatiklərinin mülahizə və müddəalarının özlərindən çox sonrakı dilçilərin fikirləri ilə üst-üstə düşdüyünü və bəzi məsələlərin izahında onları qabaqladıqlarını qeyd edir. Onun fikrinə görə, ərəb qrammatikləri fonetik məsələləri yunan dilçilərindən daha incə şəkildə həll etmiş, səs və hərfi ayırmış, səsin səslənmə anı ilə mə-

na anını fərqləndirmiş, səsləri fizioloji prinsipə görə müəyyənləşdirib, müxtəlif fonetik hadisələrin mahiyyətini və əmələ gəlməsini izah etmiş, analogiya barəsində cəsarətli fikirlər söyləmiş, işlənmə tezliyinin səs tərkibində dəyişdirici təsirini çox düzgün başa düşmüşlər.

Bəsrə qrammatika məktəbinin meydana gəlməsi səbəbləri, onun təşəkkülü və sonrakı inkişafı barədə danışan akademik həmin məktəbin yaradıcıları və ən görkəmli nümayəndələrinin dilçilik fəaliyyətini dərindən araşdırır, ciddi təhlillər aparır və onun gələcək dilçilik məktəblərinin yaranmasında rolunu müəyyən edir. O, bu məktənin nümayəndələrindən Əbül Əsvəd əd-Duəli, İbn Əbu İshaq əl-Hadrami, Əbu Əmr bin əl-Əla, İsa bin Ömər əs-Səqəfi, Yunus bin Həbib, Xəlil bin Əhməd, Əbul Xəttab əl-Əxfəş əl-Əkbər, Sibəveyhi və digərlərinin həyat və dilçilik fəaliyyətini geniş şəkildə tədqiqata cəlb edir, onların ərəb qrammatikasının ən ümdə məsələləri ilə bağlı fikrilərini təhlil edir və yeri gəldikcə, öz tənqidi münasibətini bildirir.

Bəsrə qrammatiklərinin dilçilik fəaliyyətini araşdıran Vasim müəllim bu məktəbin əsas xüsusiyyətlərini təhlil edir, onların əsas mənbələrini müəyyənləşdirir, nəzəri metodoloji əsaslarını bildirərək həmin alimlərin qiyas, təqdir, istishabul-hal, təlil, avamil, məlumat, mərfuat, mənsubat, məcrurat, erab və s. haqqında düşüncələrini işıqlandırır.

Əsər ərəb dilinin qrammatikasında xüsusi yeri və dəst-xətti olan Bəsrə qrammatika məktəbinin tarixi və ərəb dilçiliyindəki əhəmiyyətinin öyrənilməsi baxımından da çox önəmlidir [F.Nurullah (2) 2017, 52-53].

Ərəb dilçiliyi

1985-ci ildə Bakıda "Maarif" nəşriyyatında nəşr edilmiş "Ərəb dilçiliyi" monoqrafiyası, demək olar ki, akademik Vasim Məmmədəliyevin dünya şərqşünaslığına layiqli töhfəsidir. Ərəb qrammatika elminin təşəkkülü, onun məktəbləri haqqında on əsrdən çox müddətdə müxtəlif səpkili əsərlər yazılsa da, müasir dilçilik səviyyəsində heç bir tədqiqat işi bu möhtəşəm problemin həllini axıra çatdıra bilməmişdir.

Ərəb dilçiliyinin yaranması və ilk dilçilik məktəbləri barədə tədqiqat aparmış hörmətli Vasim müəllim həmin dilçilik elminin təşəkkülü və inkişafı barəsində başlıca olaraq üç fikrin mövcud olduğunu bildirərək yazır:

1. Ərəb dilçiliyi xaricdən təsir görməmiş, yerli zəmin üzərində yetişib inkişaf etmiş müstəqil bir elmdir.

2. Ərəb dilçiliyi qədim yunan elminin, xüsusilə də Aristotel məntiqinin təsiri altında yaranıb inkişaf etmişdir.

3. Ərəb dilçiliyi qədim hind qrammatika elminin təsiri nəticəsində təşəkkül tapıb formalaşmışdır. Orta əsr alimlərinin ərəb dilçiliyi ilə bağlı görüşlərini dərindən analiz edən Vasim müəllim bu məsələdə daha məntiqi mövqedən çıxış edərək, təşəkkül tapmasının İslamaqədərki dövrlə bağlı olduğunu qeyd etməklə, bu dilçiliyin yunan və hind dilçilik ənənələrindən müəyyən mənada bəhrələndiyini inkar etmiş və bu fikri tutarlı dəlillərlə sübut etmişdir. Akademik bildirir ki, mexaniki şəkildə təzahür etməyən bu təsir ərəb qrammatika sisteminin, ümumiyyətlə, müstəqilliyini, onun orijinal cəhətlərini, özünəməxsus spesifik xüsusiyyətlərini inkar etmir.

O, Bəsrə, Kufə, Bağdad dilçilik məktəblərinin yaranma səbəbləri, onların nümayəndələrinin ortaya çıxan ixtilaflı məsələlərə təkcə münasibətlərini və onların həlli yollarını axtarmalarını qeyd etməklə kifayətlənməmiş, yeri gəldikcə həmin məsələlərə özünün məntiqi münasibətini bildirmişdir [Fuad Nurullah (2) 2017, 52-53].

Bəsrə və Kufə qrammatikləri ərəb dili morfologiyasının bəzi məsələləri haqqında (Yaxın və Orta Şərq xalqları dillərinin morfologiyası)

1986-cı ildə Bakıda ADU nəşriyyatında nəşr edilmiş əsərdə müxtəlif səpkili məsələlərin dərindən öyrənilməsi müəllifin ümumi dilçilik sahəsində nəhəng şəxsiyyət olduğunu bir daha sübut edir. Əsərdə ayrı-ayrı məktəblərin əsas xüsusiyyətləri, mənbələri, nəzəri-metodoloji əsasları, terminologiyası, mübahisəli məsələləri və s. ətraflı şəkildə şərh edilir [Fuad Nurullah (1) 2017, 36-37; V.Məmmədəliyev (3) 1986, 65].

Kufə qrammatika məktəbi

Akademik Vasim Məmmədəliyevin ərəbşünaslığımıza verdiyi ən böyük töhfələrdən biri də onun 1988-ci ildə qələmə aldığı "Kufə qrammatika məktəbi" əsəridir [V.Məmmədəliyev (4) 1988, 116]. Çoxsaylı ərəb mənbələrinin təhlili nəticəsində ərsəyə gələn bu kitab ölkəmizdəki ərəbşünas kadırların hazırlanmasında, onların nəzəri fikirlərinin inkişaf etdirilməsində əvəzsiz rola malikdir. Kufə dilçilik məktəbinin ərəb dilçiliyi tarixində xüsusi yer tutduğunu vurğulayan müəllif həmin məktəbin nümayəndələrinin dilçiliklə bağlı orijinal fikirlər söylədiklərini, onların nəzəri müddəalarının və dil hadisələrinə yanaşma metod-

larının bugünün özündə belə mütəxəssislərin diqqətini cəlb etdiyini bildirir. Akademikin rəyinə görə, Kufə məktəbinin nümayəndələri dil hadisələrinə özlərinə məxsus yeni baxımdan yanaşdıqları üçün bir çox məsələlərin izahında bəsrəli həmkarlarının müddəaları ilə rastlaşmamış, onlar barəsində yeni fikirlər irəli sürmüşlər. Eyni dil hadisələrinə müxtəlif bucaqlardan baxış onları Bəsrə qrammatika məktəbinin nümayəndələri ilə elmi diskussiya aparmağa gətirib çıxarmış, bununla da ərəb dilçiliyi tarixində çox maraqlı və orijinal elmi polemikanın, qələm mücadiləsinin əsası qoyulmuşdur.

Kufə qrammatika məktəbi nümayəndələrinin elmi fəaliyyətini təhlil edən müəllif Kisai, Fərra, İbn Sikkit, Mübarək əl-Əhmər, Əbu Bəkr Ənbari, Sələb kimi görkəmli dilçilərin ərəb dilinin nəzəri məsələləri barəsində təkrarolunmaz yeni fikirlər söylədiklərini qeyd edir və bununla da təkcə ərəb dilçiliyini deyil, eyni zamanda, ümumi dilçiliyi orijinal mülahizə və müddəlarla zənginləşdirdiklərini bildirir. Vasim müəllimin adı çəkilmiş əsəri ərəbşünaslığımızın tarixində özünəməxsus yer tutur və ölkəmizin bu sahədə yeni kadrların yetişdirilməsində əvəzsiz mənbələrdən biridir [F.Nurullah (2) 2017, 56-57].

Akademik Vasim Məmmədəliyev bu kitabda da Kufə qrammatika məktəbinin yaranma səbəbləri, ən qüdrətli nümayəndələri, onların Bəsrə qrammatika məktəbinin görüşlərinin ziddiyyətli tərəflərini və s. məsələləri filoloji yöndən tədqiq və təhlil etmişdir [F.Nurullah (1) 2017, 37].

Əmmə-cüz

1985-ci ildə Bakıda "əl-Hüda" nəşriyyatında nəşr olunan bu əsəri müəllif akademik Ziya Bünyadovla birlikdə qələmə almışdır. Əsərdə Qurani-Kərimin 30-cu cüzündə olan surələr haqqında bəhs edilmiş və onların tərcüməsi verilmişdir.

Məlum olduğu kimi, Qurani-Kərimin 30-cu cüzü Məkkədə nazil olmuş surələrdən ibarətdir və surələrin mahiyyəti insanları daha çox axirət inancına səsləyir, bütpərəstlikdən uzaq olmağın vacibliyini vurğulayır [V.Məmmədəliyev (2) 1985, s. 385; F.Nurullah (1) 2017, 36].

Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyası

Vasim müəllim özündən sonra ərəbşünaslara irs olaraq qoyduğu "Ərəb dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" adlı kitabında ərəb dilçiliyinin ən aktual və ciddi məsələlərindən birinə baş vurmuş, orada həm ərəb dilçiliyi, həm də ümumi dilçilik baxımından çox əhə-

miyyətli məsələləri analiz etmişdir. Felin əsas təsrif formalarının tərz və ya zaman formaları olması məsələsinin təkcə ərəb dilində deyil, bütün Sami dillərində mübahisəli və problematik olduğunu nəzərə alan müəllif əsərin birinci fəslini bütövlükdə bu məsələyə həsr etmişdir. O, burada felin əsas təsrif formalarının ərəb qrammatikləri, xüsusilə də Bəsrə və Kufə filoloji məktəblərinin nümayəndələri, eləcə də Avropa, rus və sovet mütəxəssisləri tərəfindən öyrənilməsini tənqidi surətdə nəzərdən keçirmiş, həmin formaların inkişaf yollarını diaxronik aspektdə araşdırmışdır. Vasim müəllim funksional-semantik kateqoriyanın özəyini təşkil edən qrammatik (morfoloji) kateqoriya barəsindəki müxtəlif fikirlərin qısa tənqidi icmalını vermiş, tədqiqatın ümumi istiqamətini təşkil edən əsas nəzəri və metodoloji prinsipləri müəyyənləşdirmiş, felin paralel surətdə şəxs və şəkil formaları olan zaman formalarının quruluş və məna xüsusiyyətlərini tədqiq etmişdir.

Daha sonra felin şəxs və şəkil kateqoriyasının məna və funksiyalarını araşdıran akademik felin predikativ kateqoriyalarının qarşılıqlı əlaqəsini təhlil etmişdir.

"Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" əsəri ərəb dilçiliyi sahəsində, ümumiyyətlə, irəli atılmış bir addım idi. Ərəb dilində zaman, şəxs və şəkil kateqoriyaları predikativliyin qrammatik özəyi kimi, eyni bir söz formasında təzahür edir və feli cümlənin əsasını təşkil edir. Məhz bu baxımdan müəllif həmin üç kateqoriyanı əlaqəli surətdə öyrənməyi vacib bilmişdir [F.Nurullah (1) 2017, 37; F.Nurullah (2) 2017, 57-58].

Felin əsas təsrif formalarının tərz və zaman formaları olması məsələsi təkcə ərəb deyil, bütün sami dillərində mübahisə doğurmuşdur. Kitabda əvvəlcə bu problemə ərəb qrammatiklərinin, xüsusilə Bəsrə və Kufə filoloji məktəblərinin nümayəndələrinin, eləcə də Avropa, rus və sovet mütəxəssislərinin münasibəti tənqidi surətdə nəzərdən keçirilmişdir.

Bəsrə və Kufə qrammatikləri arasında felin zamana görə təsnifatındakı əsas fərq bundan ibarətdir ki, birincilər əmr şəklini felin zaman sisteminə daxil etdikləri halda, ikincilər onu haqlı olaraq, əmr, xahiş, istək, tələb və s. bildirən müstəqil bir fel forması hesab edirlər. Kufəlilər isə indiki və gələcək zamanlara aid olan feli sifət (ismi-faili) xüsusi zaman forması kimi qəbul edirlər.

Orta əsr ərəb qrammatiklərinin felin tərz kateqoriyası haqqında təsəvvürlərinin olmadığını nəzərə alan Vasim müəllim bu məsələyə aydınlıq gətirərək, elmi əsaslarla sübuta yetirir ki, ərəb dilinin həm

klassik, həm də müasir inkişaf mərhələsində felin əsas təsrif formaları tərz və zaman kateqoriyalarını ifadə edir. Müasir ərəb ədəbi dilində felin əsas təsrif formalarındakı tərz məfhumu xeyli zəifləmiş, zaman məfhumu isə nəzərəçarpacaq dərəcədə güclənmişdir. Ərəb dilinin klassik inkişaf mərhələsində tərz kateqoriyası felin əsas təsrif formalarında daha qabarıq surətdə əks olunduğu halda, müasir ərəb dilində zaman kateqoriyası həmin formalarda ön planda çıxış edir.

Qurani-Kərim, Azərbaycan dilinə tərcümə təfsiri, ön söz və qeydlər

Müstəqillik illərində ilk dəfə olaraq akademik Vasim Məmmədəliyev akademik Ziya Bünyadovla birlikdə Allahın Müqəddəs Kəlamı olan Qurani-Kərimi doğma dilimizə izahlı tərcümə etmişlər. Bu əsər ilk dəfə Bakıda 1991-ci ildə "Azərnəşr" nəşriyyatında çap olunmuşdur. Əsər 743 səhifədən ibarətdir. Nümunəyə geniş ön söz yazan akademik V.Məmmədəliyev burada Qurani-Kərimin tarixindən, onun ilahi mahiyyətindən, surə və ayələrinin sayından, bütövlükdə Qurani-Kərimin əhatə etdiyi mövzulardan geniş bəhs etmişdir. Müəllifin buradakı ön sözü Qurani-Kərimin tarixi mövzusunda fundamental bir əsər qədər qiymətlidir [Qurani-Kərim 1991, 714; F.Nurullah (1) 2017, 37].

Qurani-Kərim, orijinaldan Azərbaycan dilinə tərcümə təfsiri (yenidən işlənmiş nəşrə ön söz və qeydlər)

Bu nəşrə ətraflı ön söz yazan Vasim müəllim belə deyir: "Hər hansı bir mütərcim Qurani-Kərimi bu və ya başqa dilə tərcümə edərkən onu öz biliyi dairəsində, özü başa düşdüyü kimi tərcümə edir. Qurandakı sözlərin mənası isə o qədər dərin, o qədər kontekstualdır ki, onları çox zaman bir sözlə vermək mümkün olmur. İstər-istəməz əlavə sözlərə və mötərizədə verilən ifadələrə ehtiyac duyulur. Bəzən bu və ya digər sözün dəqiq mənası bilinmir, ərəb təfsirlərinin özündə müxtəlif kəlmələrlə ifadə olunur. Mütərcim var gücünü sərf edir ki, Quran ayələrini başqa dilə, məhz Allah-Taalanın istədiyi kimi dəqiq çatdırsın. Təəssüf ki, bu, çox zaman mümkün olmur və tərcüməçi istər-istəməz ayənin dəqiq tərcüməsindən daha çox onun anlamını, ümumi məzmununu oxucuya çatdırmalı olur. Məhz buna görə də bəzi görkəmli müsəlman alimləri haqlı olaraq, Qurani-Kərimi heç bir dilə, hətta ərəbcənin özünə belə çevirməyin mümkün olmadığını göstərmiş və onun tərcüməsini məsləhət görməmişlər. Odur ki, Quranın bu və ya digər dilə tərcüməsi dedikdə, onu mütləq mənada deyil, şərti mənada

başa düşmək lazımdır. Burada əsas məqsəd ərəb dilini bilməyənləri Quran ayələrinin ümumi məzmunu ilə tanış etmək, onlarda Allah kəlamının mətni haqqında anlayış, təsəvvür yaratmaqdır" [Qurani-Kərim 1997, 28; F.Nurullah (1) 2017, 38].

Qurani-Kərim, orijinaldan Azərbaycan dilinə tərcümə təfsiri (yenidən işlənmiş nəşrə ön söz və qeydlər)

Kitab 1993-cü ildə Bakıda üçüncü dəfə çap olunmuşdur. Bu yeni nəşrdən məqsəd Qurani-Kərimin Azərbaycan dilinə ədəbi tərcüməsidir. Mütərcimlər Quran ayələrinin Ana dilimizə imkan daxilində dəqiq tərcüməsinə səy göstərmişlər. Yuxarıda qeyd etdiyimiz kimi, Qurani-Kərimin dili çoxmənalılıq, təşbeh, məcaz, kinayə, eyham və rəmzlərlə o qədər zəngin, üslubu o qədər poetik və bədiidir ki, hər hansı bir dilə tərcümə zamanı onun həm məna dəqiqliyini, həm də üslub gözəlliyini saxlamaq əsla mümkün deyildir.

Adıçəkilən bu nəşrdə geniş şərhə imkan olmadığı üçün ayələrin tərcüməsi ilə yanaşı, lazım gələn yerlərdə onlara mötərizə daxilində qısa izahat verilmişdir. Bu, tərcümənin oxunuşunu zahirən müəyyən dərəcədə ağırlaşdırsa da, bir tərəfdən, mətləbin başa düşülməsini xeyli asanlaşdırır, digər tərəfdən, ayənin mənasının daha dəqiq, daha ətraflı əhatə olunmasına xidmət edir [Qurani-Kərim 1997, 31-32].

Qurani-Kərim, orijinaldan Azərbaycan dilinə tərcümə təfsiri (yenidən işlənmiş nəşrə ön söz və qeydlər)

Yuxarıda qeyd olunan Qurani-Kərim tərcüməsinin yenidən işlənmiş variantıdır. Bu nəşrin ön sözündə müəllif yazır: "Allah kəlamının başqa dillərə olan tərcümələrinə heç vaxt Quran deyilməz, onlara yalnız və yalnız Quranın tərcüməsi və ya anlamı adı verilər. Bu tərcümələrin hamısı Qurani-Kərimin əsli ilə müqayisədə qızılgül olmayan yerdə onun ətrini gülabdan almaq kimi bir şeydir" [Qurani-Kərim 1997, 28].

Qurani-Kərim, orijinaldan Azərbaycan dilinə tərcümə təfsiri (yenidən işlənmiş nəşrə ön söz və qeydlər)

Oxuculara təqdim olunan bu nəşr üzərində yenidən ciddi şəkildə işlənmiş, ona bir çox düzəlişlər və əlavələr edilmiş, keçən nəşrlərdə müəllifdən asılı olan və olmayan səbəblər üzündən getmiş bir sıra nöqsan imkan daxilində aradan qaldırılmış, əvvəlki üç nəşrdə gözdən qaçmış mətbəə xətaları islah edilmiş, içərisində şərhlər verilmiş mötə-

rizələr daha da dəqiqləşdirilmiş, mötərizələrdəki şərhlərin mətnlə əlaqəsinə, onunla üzvi vəhdət təşkil etməsinə xüsusi diqqət yetirilmişdir. Yeni nəşrin hazırlanmasında yeri gəldikcə Əllamə Təbatəbainin məşhur "Təfsir əl-Mizan" əsərindən də istifadə olunmuşdur" [Qurani-Kərim 1997, 14].

Qurani-Kərim, Azərbaycan dilinə tərcümə
ərəb mətni, tərcümə-təfsiri (ön söz və qeydlər)

Allah-Taalanın ərəb dilində nazil etdiyi sonuncu kitabı Quran dünyanın bütün mədəni xalqlarının dillərinə tərcümə olunmuş və olunmaqdadır. Quranın hər bir tərcüməsində Allah kəlamının əzəməti, vüsəti və dərinliyi qarşısında mütərcimin zəifliyi bəlli olur və tərcümə ilə məşğul olan kəs gücü, imkanı, biliyi daxilində öz səhvlərini düzəltməyə, Quranın mənalarını daha dəqiq verməyə səy göstərir. Bu baxımdan, Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi istisna deyildir. Bu nəşrdə də əvvəlki nəşrlərdə nəzərə çarpan bəzi nöqsan və çatışmazlıqlar imkan daxilində aradan qaldırılmağa çalışılmışdır [Qurani-Kərim 1997, 7].

Qurani-Kərim, Azərbaycan dilinə tərcümə təfsiri
(ön söz və qeydlər)

Bu nəşr yuxarıda qeyd olunan tərcümələrdən bir sıra məziyyətlərinə görə fərqlənir. Belə ki, burada tərcüməyə yazılmış izahlar qırmızı rəngdə verilmiş, tərcümə mətnində Quranın səhifələri göstərilmiş, cüzlər, hizblər və səcdə ayələri Allah kəlamının özündə olduğu kimi, xüsusi işarələrlə göstərilmiş, sonda Quranın xətm duası qeyd edilmişdir.

Məlum olduğu kimi, bundanəvvəlki nəşrlərdə yalnız tərcümə mətnin verilməsi oxucuların tələbatına uyğun olaraq həyata keçirilmişdir. Dini ədəbiyyatın tələblərinə uyğun olaraq bu nəşrdə də apastrof işarəsi saxlanılmışdır" [Qurani-Kərim 1997, 9].

Qurani-Kərim, Azərbaycan dilinə tərcümə təfsiri
(ön söz və qeydlər)

Bu əsər 1998-ci ildə İslamabadda (Pakistan) altıncı dəfə nəşr olunmuşdur. Akademik Vasim Məmmədəliyev Qurani-Kərimin tərcüməsinin ön sözündə yazır: "Qurani-Kərimin özgə dilə tərcüməsi ilə əlaqədar yuxarıda deyilən çətinliklərlə yanaşı, Məhəmmədin (ə) bütün bəşəriyyətə peyğəmbər göndərildiyinə, Quranın dünya mədəniy-

yətinin ən möhtəşəm abidələrindən biri olduğuna görə o, başqa dillərə tərcümə olunmalı və yayılmalıdır. Bu çox nəcib və lazımlı işdir" [F.Nurullah (2) 2017, s.61].

Qurani-Kərim, Azərbaycan dilinə tərcümə
ərəb mətni, tərcümə-təfsiri (ön söz və qeydlər)

Müəllif bu nəşrin ön sözündə yazır: "Əvvəlki tərcümələrə gəldikdə isə onların təkmilləşdirilməsinə, dəqiqləşdirilməsinə daim lüzum duyulur. Nə etməli? Allahın elmi sonsuz, bizim elmimiz isə məhduddur. Quran Allah kəlamı, tərcümə isə insan sözüdür. Bir sıra ayələrdə Allahın məramını, muradını anlamaq çətindir. Məhz buna görə də hər nəşrdə tərcüməni daha diqqətlə nəzərdən keçirmək, onun üzərində yenidən işləmək zərurəti meydana çıxır. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsinin yenidən işlənmiş daha mükəmməl X nəşrində həmişə olduğu kimi, bəzi dəqiqləşdirmələr aparılmışdır" [Qurani-Kərim 1997, 5].

Qurani-Kərim
(Z.M. Bünyadov, V.M. Məmmədəliyevin şərhləri ilə)

Oxuculara təqdim olunan son iki nəşrdə Quranın tərcüməsi üzərində köklü surətdə işlənilib bir çox düzəlişlər edilmiş onun mənalarının daha da dəqiqləşdirilməsinə xüsusi səy göstərilmişdir. Belə ki, Qurani-Kərimin səhifə bütövlüyünə diqqət edilmiş, yəni surə və ayələrin orijinaldakı səhifə düzümü eyni ilə saxlanılmışdır. Hizblər, cüzlər və səcdə ayələri işarələrlə göstərilmişdir [Qurani-Kərim 2015, 632, XXVII].

Nəticə

Nəticə olaraq qeyd edə bilərik ki, akademik Vasim müəllim ilk dəfə olaraq ərəb qrammatika məktəblərini sistemli şəkildə tədqiq edib, məşhur Bağdad, Əndəlus, Bəsrə, Kufə, Misir qrammatiklərinin əsaslandıqları nəzəri və metodoloji prinsipləri yüksək səviyyədə öyrənib. Bir çox qədim ərəb mənbələrindən faydalanan alim ərəb dilçilik elminin əsas inkişaf yollarını izləməklə, bu mühüm qrammatika məktəblərinin təlimlərini müqayisəli şəkildə şərh edib. V.Məmmədəliyev özünün "Ərəb dilçiliyi" adlı fundamental əsərində ilk dəfə olaraq "ərəb dilçiliyinin "Azərbaycan məktəbi" ifadəsini işlətmiş və Azərbaycanda dilçilik ənənəsinin çoxəsrlik tarixə malik olduğunu sübuta yetirmişdir. Ümumiyyətlə, akademikin "Ərəb dilçiliyi" monoqrafiyası nəinki

ərəb dilçiliyinin ən ümdə məsələlərinin mükəmməl tədqiqi, həmçinin ümumi dilçilik elminin inkişafına təkan verən mühüm bir hadisə kimi dəyərləndirilməlidir. Ərəb qrammatika elminin təşəkkülü və onun məktəblərinin öyrənilməsinə həsr olunmuş bu fundamental əsər Vasim müəllimin dünya şərqşünaslığına layiqli töhfəsidir. Təsadüfi deyil ki, akademikin bir sıra beynəlxalq elmi konfrans və yığıncaqlardakı məruzələri həmişə sanballı elmi nəticələri ilə ərəb dili mütəxəssislərinin böyük marağına səbəb olub. İraq Elmlər Akademiyasının, Suriya İslam Elmləri və Ərəb Filologiyası Akademiyasının və İslam Konfransı Təşkilatının İslam Hüququ Akademiyasının akademiki kimi şərəfli ad daşıyan Vasim müəllim ərəb dilçiliyi sahəsində danılmaz nüfuz sahiblərindən biri olmuşdur.

Azərbaycan elmi və mədəniyyəti tarixində ərəb filologiyası və ilahiyyat elmlərində görkəmli şəxslərdən biri olan Vasim müəllim milli şərqşünaslıq elmimizə böyük töhfələr verən, onu beynəlxalq aləmdə tanıdan və həmişə ən yüksək səviyyədə təmsil edən dəyərli alimdir.

Zəngin elmi fəaliyyətə və yaradıcılığa sahib olan akademik Vasim Məmmədəliyevin adı dünya şərqşünaslığının salnaməsinə qızıl hərflərlə yazılmışdır. Şərqşünaslıq elminin korifeyləri sırasında Vasim Məmmədəliyevin də özünəməxsus yeri vardır. Akademik V.Məmmədəliyev Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin dekanı, Şərqşünaslıq fakültəsi ərəb filologiyası kafedrasının müdiri, Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü, AMEA-nın həqiqi üzvü, İraq Elmlər Akademiyasının, Suriya Quran elmləri və ərəb filologiyası Akademiyasının, Misir Ərəb dili Akademiyasının, İslam Əməkdaşlıq Təşkilatı Müsəlman Hüququ Akademiyasının akademiki, İranın Beynəlxalq Əhli-Beyt Assosiasiyası və Türkiyənin Elmi Araşdırmalar Vəqfinin üzvü kimi yüksək vəzifələrdə çalışmışdır. Elm və təhsildə səmərəli fəaliyyətinə görə ölkə başçımız İlham Əliyevin sərəncamları ilə "Şərəf" və "Şöhrət" ordenləri, "Yusif Məmmədəliyev" medalı ilə təltif edilmişdir.

ƏDƏBİYYAT

1. Məmmədəliyev V. (1983). Bəsrə qrammatika məktəbi, Bakı, (s. 118).

2. Məmmədəliyev V. (1985). Əmmə-cüz, Qurani-Kərimin Əmmə-cüzünün tərcümə-təfsiri, Bakı: Əl-Hüda, Z.Bünyadovla birlikdə, (s. 385).

3. Məmmədəliyev V. (1986). Bəsrə və Kufə qrammatikləri ərəb dili morfologiyasının bəzi məsələləri haqqında, Yaxın və Orta Şərq xalqları dillərinin morfologiyası, Bakı: ADU nəşriyyatı.
4. Məmmədəliyev V. (1988). Kufə qrammatika məktəbi. Bakı: ADU nəşriyyatı. (s. 116).
5. Nurullah F.İ. (2017). "Akademik Vasim Məmmədəliyevin elmi-dini fəaliyyət" adlı dissertasiya işi. Bakı.
6. Nurullah F.İ. (2017). Akademik Vasim Məmmədəliyev irsi. Bakı.
7. Qurani-Kərim. (1991). Azərbaycan dilinə tərcümə edənlər: Z. Bünyadov və V. Məmmədəliyev. Bakı: Azərnəşr, (s. 714).
8. Qurani-Kərim. (1997). Azərbaycan dilinə tərcüməsinin yenidən işlənmiş IV nəşrinə Ön söz. Bakı. (s.606).
9. "Qurani-Kərim". (2015). Azərbaycan dilinə tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev. Bakı: Nurlar. (s. 632).

д-р филос. по филос. Фуад Нуруллаев

НАСЛЕДИЕ АКАДЕМИКА ВАСИМА МАМЕДАЛИЕВА

РЕЗЮМЕ

Статья обосновывает изучение вклада выдающегося теолога и ученого-востоковеда Васима Мамедали оглу Мамедалиева в перевод Священного Корана на азербайджанский язык, его исключительных заслуг в развитии и популяризации востоковедения и исламской культуры в Азербайджане, а также их научной новизны, теоретического и практического значения.

Профессор Мамедалиев оказал бесценную помощь в подготовке переводов на азербайджанский язык и тафсиров (толкований) Священного Корана, одного из редчайших образцов хадисоведения "Нахдж аль-Балага" (Путь красноречия), представляющего собой собрание проповедей, писем и высказываний, приписываемых пророку Хазрат Али, мир ему, и других книг, относящихся к мусульманской культуре.

Безупречное знание арабского и персидского языков принесло профессору Мамедалиеву славу знатока классической восточной поэзии, в частности поэтического наследия азербайджан-

ских классиков. Его взгляды на тасаввуф и ирфан значительно облегчают изучение важных проблем в литературе народов Востока. Мнения и рассуждения ученого в отношении трудов корифеев Ближнего и Среднего Востока, проливают свет на многие спорные моменты.

Ключевые слова: *академик, Коран, басрийская школа, куфийская школа, перевод, тафсир, религия.*

PhD Fuad Nurullayev

HERITAGE OF ACADEMICIAN VASIM MAMMADALIEV

ABSTRACT

The article substantiates the study of the merits of the outstanding theologian and orientalist Vasim Mammadali oglu Mammadaliyev in the translation of the Holy Qur'an into our native language, his exceptional merits in the development and dissemination of the science of oriental studies, as well as Islamic culture in Azerbaijan, scientific innovations, theoretical and practical significance.

Vasim Mammadaliyev made an invaluable contribution to the translation into Azerbaijani language and interpretation of our holy book of the Qur'an, the work of Imam Ali (r.a.) "Nahj al-Balagha", which is one of the rare examples of hadith studies and other books related to Muslim culture.

His excellent knowledge of Arabic and Persian languages glorified Vasim Mammadaliyev as a great connoisseur of classical oriental poetry, especially the poetic heritage of Azerbaijani classics. His opinions on tasawwuf and irfan greatly facilitate the study of important problems in the literature of the peoples of the East. The opinions and views of the scientist about the analysis of the creativity of the luminaries of the Near and Middle East clarified many controversial points.

Keywords: *academician, Qur'an, Basra school, Kufa school, translation, tafsir, religion*

ƏRƏB DİLİNDƏ TERMİN YARADICILIĞININ İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

i.f.d., dos. Məmmədəli Babaşlı,
AMEA akad. Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu Şərq-Qərb şöbəsinin müdiri,
Azərbaycan İlahiyyat İnstitutunun müəllimi,
mammadalibabasli@ ait.edu.az

XÜLASƏ

Şübhəsiz ki, terminologiya dilin leksik tərkibinin ən dinamik hissəsi hesab edilir. Məhz yeni terminlərin meydana gəlməsi səbəbindən, bu və ya digər dilin zənginləşməsi və inkişafı baş verir. Buna görə terminşünaslığın nəzəri və praktiki aspektlər baxımından tədqiqi dilçiliyin əsas vəzifələrindəndir. Termin yaradıcılığı sahəsində tədqiqatlar, adətən, tarixi mahiyyət daşıyır və milli terminologiyanın səciyyəvi cəhətlərini üzə çıxarır. Elmi-texniki tərəqqinin sürətli inkişafı qabaqcadan müasir ədəbi dilin terminoloji leksikasının məlumat tutumunun əhatə dairəsini müəyyən edir. Elmi-texniki tərəqqi, adətən, yeni obyektlərin və təzahürlərin qeyd edilməsi üçün xüsusi sözlərin meydana gəlməsi ilə müşayiət olunur.

Məqalədə ərəb terminologiyasının inkişaf tarixi, həmçinin ərəb dilində termin yaradıcılığının səciyyəvi xüsusiyyətləri nəzərdən keçirilir. Mövcud olduğu vaxtdan etibarən, ərəb ədəbi dilinin daim xarici leksemlər hesabına daha da inkişaf etdiyi qeyd olunur. Xüsusilə ərəb termin sisteminin təkmilləşməsinin özünəməxsus xüsusiyyətləri və üsulları təhlilə cəlb olunur. Ərəb terminologiyasının leksikasının daim inkişafda olması və yeni termin vahidləri ilə zənginləşməsi vurğulanır. Bu proses insan fəaliyyətinin əksər sahələrini əhatə edir, günümüzdə isə elm, informatika, yeni texnologiya və kommunikasiyalar sahəsində özünü daha qabarıq şəkildə göstərir. Məqalədə ərəb terminologiyasında sinonimiyanın səbəblərinə və mövcud sinonimlər cərgəsindən ən uyğun variantın seçilməsi zərurətinə də diqqət çəkilir.

Açar sözlər: *ərəb dili, lüğət tərkibi, alınma sözlər, termin, terminologiya, elmi-texniki terminlər.*

Giriş

Dilin lüğət tərkibinin ayrılmaz hissəsi olan termin elm, texnika, incəsənət və mədəniyyət sahəsində işlədilən müxtəlif məfhumları fərqləndirmək üçün istifadə olunan zəruri leksik vahiddir. Forma və məzmunu bir-birinə bağlı olan, dəqiq mənası müəyyən edilmiş termin, sadəcə, məfhumu ifadə etmir, həmçinin dəqiqləşdirmək və əlaqədar məfhumlarda ayırmaq yolu ilə ona təsir edir. Elmi ədəbiyyatda verilən onlarca tərifdən də göründüyü kimi, termin elmin müxtəlif sahələrinə aid hər hansı bir mücərrəd anlayış məfhumunu bildirən söz və söz birləşmələrindən ibarətdir (Səlimov 1982,74). Mənşəyinə görə latın dilinə məxsus olan "sərhəd, hədd, hüdud" mənalarını ifadə edən "terminus" sözündən götürülmüş termin lekseminin ərəb dilində qarşılığı olaraq, "ümumi razılıq" mənasını verən اصطلاح kəlməsinə ilk dəfə Firuzabadinin "əl-Qamus əl-Muhit" adlı ərəbcə lüğətinə Murtaza əz-Zəbidinin yazdığı "Təc əl-arus" adlı şərhdə rast gəlinir. Maraqlıdır ki, həm اصطلاح, həm də müasir lüğətlərdə termin mənasında işlədilən və مصطلح lekseminin hər ikisi "yararsız hala düşmək" mənasındakı فسد felinin antonimi olaraq "doğru, uyğun olmaq" mənalarını ehtiva edən صلح kökündən gəlir. Bu da bir daha terminin ərəbcə qarşılığının etimologiyasının məfhum olaraq dilin leksikologiyasında oynadığı mühüm rolu göstərir. Elm, texnika və incəsənətin ayrı-ayrı sahələrinin özünəməxsus və "bütövlükdə lüğət tərkibinin inkişaf etdiyi qanunlar üzrə təkmilləşən" (Qasımov 1987, 6) termin vahidləri vardır. Elmi terminologiya dilin inkişaf səviyyəsi üçün meyar olaraq qəbul edilir, bu və ya digər dil müxtəlif elm sahələrinə aid terminləri daxili imkanları hesabına formalaşdırdığı nisbətdə zəngin sayılır.

Dilin ümumi söz yaradıcılığı qaydalarına tabe olan və konkretliyi ilə seçilən termin elmi-texniki, mədəni inkişafa paralel olaraq formalaşır və məna baxımından dəqiqləşir. Termini ümumi sözlərdən ayıran ən mühüm fərq onun təkmənalı olmasıdır. (Надирова, Алибаева 2012, 141) Adi sözlər kimi kontekstlə deyil, anlayışlar sistemi ilə bağlı olan termin mənasının xüsusiləşməsi, dəqiqliyi, obrazlı və emosional hisslərdən uzaq olması ilə fərqlənir. Bu səbəbdən, dilin lüğət tərkibinin inkişaf etdiyi qanunlar üzrə daim təkmilləşən və dilin elmi dəyərinin meyarı sayılan terminlər aid olduqları sahədə daha çox təkmənalı olur və alimlər arasında da qarşılıqlı anlaşmanı təmin edir. Məhz buna görə, elmi fikirlərin bir-birindən ayrılması, fərqləndirilməsi nə qədər böyük əhəmiyyətə malikdirsə, onların təsbitindən ibarət olan terminlər də elmi dildə bir o qədər vacibdir (Qasımov 1987, 9).

Ümumən, dilin terminoloji leksikasını və onun inkişaf qanunauyğunluqlarını öyrənən elm sahəsi olan terminologiyanın ərəb dilindəki ekvivalenti olaraq, əsasən, علم الاصطلاح علم المصطلحات المصطلحية، علم المصطلح، علم المصطلحات، المصطلحاتية، terminlərindən istifadə edilir. Nəzəri və praktiki istiqamətə malik olan terminologiya da digər elmlər kimi, sinxron və diaxronik dilçilik aspektləri əsasında öyrənilir (Мустафаева 2011, 21). Dilin lüğət tərkibinin "ən fəal, ən dəyişkən, artan, təkmilləşən, yeniləşən hissəsi" (Xəlilova 2017, 47) olan terminologiya elm sahəsi kimi keçən əsrin əvvəllərindən etibarən formalaşmağa başlasa da, ərəb terminologiyasının tarixi islamaqədərki dövr də daxil olmaqla, erkən Orta əsrlərə gedib çıxır. Ərəb dilinin və tərcümə fəaliyyətlərinin inkişafı daha çox islamdansonrakı dövrlə bağlı olduğuna görə Qahirə Ərəb Dili Akademiyasının üzvü tanınmış alim M.F.Hicazi ərəb terminologiyasının inkişafını klassik [العصر القديم] və müasir [العصر الجديد] olmaqla iki mərhələyə bölünməsini məqbul hesab edir. Həmçinin ərəb leksikologiyası və leksikoqrafiyası sahəsində sanballı tədqiqatların müəllifi kimi tanınan rus şərqşünası V.M.Belkin də eyni müddəa ilə razılaşır. Bəzi tədqiqatçılar isə ərəb terminologiyasının inkişaf tarixinin klassik, Orta əsr və müasir olmaqla üç mərhələyə bölünməsinə tərəfdar çıxırlar. Onlara görə, klassik mərhələ islamın meydana gəldiyi dövrdən Misirin 1517-ci ildə fəthinə, Orta əsrlər XIX əsrin əvvəlinə, müasir mərhələ isə həmin dövrdən günümüzə qədər olan zaman kəsiyini əhatə edir. Başqa sözlə desək, Osmanlı dövrünün də müstəqil bir mərhələ kimi nəzərdən keçirilməsini təklif edirlər. Əgər nəzərə alsaq ki, İslamdan əvvəl də ərəb dilinə qonşu xalqların dilindən müəyyən sözlər qəbul etmişdir və ya Osmanlı Dövlətinin süqutu Fransanın Misiri işğalından sonra baş vermişdir, onda təklif olunan hər iki bölgünün nisbi səciyyə daşıdığını görə bilərik. Yenə klassik mərhələnin erkən orta əsrlərdən başlayaraq Osmanlı Dövlətinin süqutuna, müasir mərhələnin isə Misirin fransızlar tərəfindən işğalından günümüzə qədərki zaman kəsiyini əhatə etdiyinə dair fikir də nisbi səciyyə daşıyır. Əlbəttə, ərəb ölkələrinin Osmanlı Dövlətinin hakimiyyəti altında olduğu 1517-1924-cü illərdə türk dili ərəb termin yaradıcılığında danılmaz rol oynamışdır. Türk-ərəb əlaqələrinin qismən də olsa Əməvilər dövründə başlandığını, Abbasi xilafəti zamanı və sonrakı əsrlərdə yüksələn xətlə inkişaf etdiyini nəzərə aldıqda türk dilinin təsirini sadəcə Osmanlı dövrü ilə məhdudlaşdırmaq da doğru deyil. Bu səbəbdən də ərəb dili terminologiyasının inkişafında klassik mərhələnin qismən islamaqədərki və əsasən, İslam dininin meydana gəldiyi dövrdən XIX

əsrə qədər davam edən zaman kəsiyində nəzərdən keçirilməsi daha məntiqlidir. Zaman etibarilə həm klassik, həm də müasir mərhələni əhatə etdiyinə görə ərəb terminologiyasının inkişafında türk dilinin təsiri ayrıca başlıq altında təqdim edilmişdir. Bir də XIX əsrin əvvəlindən başlayan müasir mərhələdə Misir xədivi Məhəmməd Əli paşa (1805-1849), XX əsrin ortalarından etibarən müstəqillik və 1980-ci illərdən günümüzə qədər davam edən dövrlərində inkişafı təhlilə cəlb olunmuşdur.

Ərəb terminologiyasının inkişafında klassik mərhələ və onun səciyyəvi xüsusiyyətləri

Klassik mərhələdən bəhs edərkən ilk növbədə qeyd etmək lazımdır ki, "İslamaqədərki dövrdə mədəniyyət və kültür dili olmayan ərəb dili müxtəlif şəkillərdə əlaqəsi olduğu sami dilləri ailəsindən arami (assur), həbəş və ibrani, Hind-Avropa dil ailəsinə mənsub hind (sanskrit), fars (pəhləvi), həmçinin yunan və latın dillərindən söz almışdır" (Daşkıran 2014, 209). Həmin dövrdə ərəb dilinin xarici dillərdən leksik tərkibinə daxil olmuş kəlmələr Cahiliyyə dövrü ərəb şerində və Qurani-Kərimdə də əksini tapmışdır. Bir sözlə, ərəb dilinin erkən abidələri alınma sözlərin müxtəlif qatlarını özündə ehtiva etmiş, Cənubi Ərəbistanın qonşu Suriya və Mesopotamiyadakı mövcud dillərin leksik imkanlarından bəhrələnmişdir.

Şübhə yoxdur ki, ərəb terminologiyasının klassik mərhələsində termin yaradıcılığının inkişafında başqa dillərdən tərcümə fəaliyyətlərinin də böyük rolu olmuşdur. Düzdür, Raşidi xilafəti dövründə fütuhat genişləndikcə yeni mədəniyyətlərlə təmas zərurəti əsnasında İslam düşüncəsinin yetərli hesab edən müsəlmanlar əvvəlcə digər mədəniyyətlərə maraq göstərməmişlər (Uluktürk 2010, 256). Mənbələrə görə, ərəb dilinə ilk tərcümə təşəbbüsü bilavasitə əməvi əmiri Xalid bin Yəzidin (v.t. 704) adı ilə bağlı olmuşdur. İbn Nədimin "əl-Fihrist" əsərində verdiyi məlumatda göstərildiyi kimi, Mərvanoğulları arasında fəlsəfəyə marağı ilə seçilən Xalid bin Yəzidinin təşəbbüsü ilə Misirdən dəvət edilmiş ərəb dilini bilən bir qrup yunan filosofuna yunan və qipti dillərindən elmi əsərlərin ərəb dilinə tərcüməsi vəzifəsi həvalə olunmuşdur (TDV İslam Ansiklopedisi, 40/501). Sonrakı dövrdə müsəlmanlarda digər elmlərə qarşı maraq artdığına görə Əbdülməlik bin Mərvan (685–705) və Vəlid bin Əbdülməlik (705–715) də fars və yunan dillərindən bəzi şeir kitablarını ərəb dilinə tərcümə edərək tərcümə fəaliyyətini təşviq etmişdirlər. Bu qayda ilə alimlərin saraya də-

vət edilməsi, bir çox elm sahələrinə, xüsusilə astronomiya, tibb və kimya elmlərinə aid mətnlərin qədim assur, yunan və qibti dillərindən tərcüməsinə başlanılmışdır. Bunun ardınca xəlifələrlə yanaşı, siyasi və hərbi elita, tacirlər və müxtəlif mədrəsələr də dövlət siyasətinə çevrilmiş tərcümə fəaliyyətlərinə qoşulmuşdurlar. Beləliklə, qədim Şumer, Finikiya və Misir mədəniyyətlərinə aid mətnlərin miladdan əvvəl 600–400-cü illərdə yunan dilinə tərcüməsindən sonra bəşər mədəniyyəti tarixinə ikinci ən böyük tərcümə hərəkatı kimi daxil olan pəhləvi, assur və yunan dillərindən ərəb dilinə tərcümə ənənəsinin əsası qoyulmuşdur (TDV İslam Ansiklopedisi, 40/499). Həmin dövrdəki tərcümə fəaliyyətləri sistematik səciyyə daşımamış, əsasən praktik ehtiyaca əsaslanmış və xəlifələrin kimya, astronomiya, tibb və digər müsbət elmlərə qarşı marağı nəticəsində həyata keçirilmişdir. Bununla birlikdə, əksər Əməvi xəlifələrinin yeritdikləri ərəb milliyyətçiliyi siyasəti səbəbindən həqiqi mənada mədəniyyətlərarası mübadilə və yaxınlaşma baş tutmamışdır (Uluktürk 2010, 259).

Ərəb terminologiya elminin inkişafında Abbasilər xilafətinin (750–1258) əhəmiyyətli rol oynadığını xüsusilə qeyd etmək lazımdır. Müraciət etdiyimiz mənbələr qədim mədəniyyətlərin araşdırılmasının və elmi fəaliyyətlərin genişləndirilməsinin, xüsusilə xəlifə Mənsurun dövründə (754–775) diqqət mərkəzində olduğunu göstərir. Məhz onun səyləri nəticəsində yunan mədəniyyəti və fəlsəfəsi başda olmaqla yunan dilindən mətnlərin ərəb dilinə tərcümə etdirildiyi qeyd olunur. Bu səbəbdən, Abbasilər xilafətinin uzun müddət davam etməsini təmin edən siyasətlərinin təməlini atan Xəlifə Mənsur ərəb dilçiləri tərəfindən həm də tərcümə hərəkatını genişləndirən şəxs olaraq qəbul edilir (Dağbaşı 2013, 179). Xəlifə Mənsurun bu təşəbbüsünün başlıca səbəblərindən biri onun astrologiya elminə dair nəzəri biliklərə olan xüsusi marağı və bu sahədə yunan dilində mühüm mənbələrin mövcud olması ilə izah edilir. Başlanğıcda, əsasən, mövcud mədrəsələr və ya şəxsi təşəbbüslər nəticəsində həyata keçirilmiş sözügedən tərcümə fəaliyyəti getdikcə genişlənmiş və sanskrit, pəhləvi, Çin kimi başqa dilləri də əhatə etmişdir. Xüsusilə assur tərcüməçilərinin fəal iştirak etdikləri tərcümə fəaliyyətləri Hindistan, yunan, Çin, İran mədəniyyətlərinə məxsus olan metafizika, astrolologiya, riyaziyyat, həndəsə, astronomiya, musiqi nəzəriyyəsi, fizika, zoologiya, botanika, əczaçılıq, baytarlıq, tibb, hərb sənəti, etika sahələrinə aid və hikmətli sözlər qəbilindən çoxlu sayda əsərlərin tərcüməsi ilə nəticələnmişdir. Aristotelin məşhur "Fizika" əsəri, həmçinin qədim Şərq ədəbiyyatının

ölməz abidəsi olan "Kəlilə və Dimnə" əsəri də həmin dövrdə tərcümə edilmişdir. Sonuncu əsərin İbn əl-Müqəffa (721–757) tərəfindən ərəb dilinə tərcüməsi səbəbindən abidə pəhləvi dili çərçivəsindən çıxaraq, dünya xalqlarının dillərinə tərcümə edilməyə başlanmışdır. Məhz bu qəbildən məhsuldar fəaliyyətlər nəticəsində İslam dünyası hellenistik dövr fəlsəfəsi, hind və sasani elmi-fəlsəfi irsinin nadir nümunələri ilə tanış olmuşdur (TDV İslam Ansiklopedisi, 40/500). Həmçinin həmin dövrdə edilmiş tərcümələr vasitəsilə ərəb dili qədim yunan əsərlərinin Avropaya çatdırılması kimi böyük tarixi vəzifəni yerinə yetirmişdir. Xəlifə Harun ər-Rəşidin hakimiyyəti dövründə (786–809) Sasanilərin kitabxana modeli əsasında qurulmuş, ciddi elmi araşdırmaların və mədəniyyətlərarası tərcümə fəaliyyətlərinin mərkəzinə çevrilmiş "Beytul-hikmə"nin timsalında ən yüksək zirvəyə çatmışdır. Məlum olduğu kimi, ərəb-müsəlman mədəniyyəti bəşəriyyətə, sadəcə, maddi və mənəvi mədəniyyət abidələri deyil, həm də riyaziyyat, astronomiya, təbabət, naviqasiya sahəsində kəşflər və həmin sahələrə aid elmi terminlər vermişdir. "Beytul-hikmə"nin Bağdadda başlayan və sonra da xilafətin digər mərkəzlərinə yayılan tərcümə fəaliyyətləri Xəlifə Məmunun hakimiyyəti (813–833) zamanı ən parlaq dövrünü yaşamışdır. Nəticədə, o dövrün təhsil ocaqları ilə rəqabətə girəcək səviyyəyə çataraq söhbət məclisi, tərcümə mərkəzi, universitet, elmi laboratoriya, kitabxana kimi müxtəlif müəssisələrdən ibarət elm və mədəniyyət mərkəzinə çevrilmişdir. İran, Misir, Hindistan, Afrika, Çin və Yunanıstan başda olmaq üzrə dünyanın müxtəlif yerlərindən alimlər dəvət olunmuş və nadir əlyazma nüsxələri Bağdada gətirilmişdir. Bu qəbildən fəaliyyət nəticəsində İslam coğrafiyasında fərqli mədəniyyətlər arasındakı sərhədlər aradan qalxmış, ərəb dili ortaq elm və dövlətlərarası yazışma dili statusu qazanmışdır. Mənbələrin də bəhs etdiyi kimi, "Beytul-hikmə"də fəaliyyət göstərən alimlərə tərcümə etdikləri kitabların və tərtib etdikləri elmi əsərlərin ağırlığı miqdarında qızılla mükafat verilirmiş. Xəlifə Məmunun Bizans imperatoru II Mixailə (820–821) qarşı qazandığı zəfərdən sonra ərəb dilinə tərcümə edilməmiş qədim filosofların əsərlərini təzminat olaraq tələb etməsi Abbasilərin kitaba və tərcüməyə verdikləri əhəmiyyəti bariz şəkildə göstərir (Dağbaşı, 2013, 182). Təəssüflər olsun ki, 1258-ci ildə moğol ordusunun Bağdadı işğal etməsi ilə "Beytul-hikmə" mərkəzinin zəngin fondu da barbarcasına məhv edilmiş, Dəclə çayına tökülmüş nadir əlyazma nüsxələri bəşər mədəniyyəti üçün həmişəlik itirilmişdir.

Təbii ki, ərəb terminologiyasının klassik mərhələsindən bəhs edərkən X-XIII əsrlərdə müsəlman İspaniyasında Kordova xilafəti dövründə vüsət almış ərəb dilindən Avropa dillərinə tərcümə fəaliyyətlərini də qeyd etmək lazımdır. Belə ki, üç səmavi dinin – yəhudi, xristian və müsəlman mədəniyyətlərinin kəsişdiyi coğrafiyada yerləşən İspaniya həmin dövrdə ərəb xilafəti ilə Orta əsr Avropası arasında körpü rolunu oynamış, elmi kəşflərin bir bölgədən başqa bölgəyə ötürülməsi kimi mühüm tarixi vəzifə yerinə yetirmişdir.

Klassik dövr ərəb terminologiyasının səciyyəvi xüsusiyyətlərinə gəlincə, təbii ki, İslam dininin meydana gəlməsi nəticəsində ərəb dilinin leksik tərkibinə yeni məfhumlar, kəlmələr və dini istilahlar da daxil olmuşdur. Digər tərəfdən, başqa mədəniyyətlərlə qarşılaşması səbəbindən elmə marağın artması, tərcümə fəaliyyətlərinin genişlənməsi ilə tərcüməçilər tərəfindən dünyəvi elmlərə aid terminlərin də elmi dövriyyəyə daxil edilməsi ərəb dilinin terminologiyasının sürətlə inkişaf etməsinə zəmin hazırlamışdır. Ərəb terminologiyasının klassik dövr termin sistemi assur, yunan, hind, latın, fars və s. qədim və Orta əsr dillərinin elementləri hesabına zənginləşmişdir (Eyvazova 2015, 387). Eyni zamanda, Abbasi xilafətinin hakimiyyətə gəlməsi ilə ərəb mədəniyyətinin öz yerini ümummüsəlman mədəniyyətinə verməsi də ərəb terminologiyasının inkişaf prosesinə canlılıq qazandırmışdır.

Ərəb terminologiyasının inkişafına türk dilinin təsiri

Əlbəttə, ərəb dilinin termin yaradıcılığının inkişafında türk dilinin də təsiri inkarolunmazdır. Ərəb dili tarixən türk dilinin ən yaxın təmasda olduğu xarici dillərdən biri olmuşdur. Bu da ərəblərlə-türklərin tarixi əlaqələrinə və həmin əlaqələrin mahiyyətinə nəzər salmağı zəruri edir. Mənbələrə görə, ərəblər Cahiliyyə dövründə türkləri az da olsa tanımalarına rəğmən ilk təmasları Hz. Ömərin (r.a.) xəlifəliyi dövründə fütuhat yürüşü əsnasında olmuşdur (Aytaç 1994, 12). Daha sonra Əməvi xəlifəsi Əbdülməlik bin Mərvanın dövründə Fərqanə türklərindən ibarət mühafizə alayının təşkil edilməsi barədə məlumatlar var. Bununla belə, türklərin ərəblərlə təmaslarının artması daha çox Abbasilər dövrünə təsadüf edir. Burada IX əsrin əvvəllərində türk hərbçilərinin xəlifə Məmunun dövründən etibarən orduda başlayan, Xəlifə Mötəsimin hakimiyyəti dövründə (833–842), xüsusilə artan rolunu və 892-ci ilə qədər dövlət idarəçiliyində nüfuz sahibi olmaları faktını qeyd etmək vacibdir. Ərəb dilinin təmizliyinin qeydinə qalmaq düşüncəsi ilə ərəblər xarici leksik ünsürlərdən bəhs etməsələr də

həmin dövrdə türk dilindən müəyyən hərbi terminlər, məişətdə işlənən sözlər ərəb dilinə keçmişdir. Misirdə Tulunilər sülaləsinin (868–905), daha sonra İxşidilərin hakimiyyəti (935–999) dövründə əlaqələr intensiv səciyyə daşımış və ərəb-türk mədəni əlaqələrinin gələcəkdə yüksələn xətlə inkişafı üçün zəmin hazırlamışdır. Beləliklə, əlaqələr türk məmlüklərinin (1259–1382) və çərkəz məmlüklərinin hakimiyyətdə olduğu (1382–1517) dövrdə dövlətin türk mahiyyəti dəyişməmiş, türk dili idarəçilərin ünsiyyət vasitəsi kimi əhəmiyyət kəsb etmişdir (Aytaç 1994, 15). Qeyd etdiyimiz dövrlərdə "çavuş", "sancaqdar", "bəy", "tuğra", həmçinin səlcuqlular vasitəsilə ərəb dilinə keçən bir çox türkmənşəli terminlər olmuşdur.

1517-ci ildə məmlüklərin hökmranlığına son qoyulmasının ardınca ərəb dünyası, təxminən, 400 il Osmanlı xanədanı tərəfindən idarə olunmağa başlanmışdır. Bu səbəbdən, türk kəlmələrinin ərəb dilinə keçməsi prosesi ən çox ərəb ölkələrinin Osmanlı Dövlətinin tərkibinə daxil olduqları bu dövrə təsadüf edir. Düzdür, ərəb dilinə keçmiş türk sözləri türk dilinin aldığı ərəbizmlərə nisbətən sayca azlıq təşkil edir. Bunun da başlıca səbəbi ərəb dilinin İslam dini sayəsində elm və təhsil dili statusu qazanması, türklərin hökmranlıq etdikləri coğrafiyada türk dilini yaymaq kimi xüsusi bir siyasət yeritmədikləri ilə izah etmək mümkündür. Buna baxmayaraq, türklərin ərəb coğrafyasını uzun müddət idarə etmələri səbəbindən türk dilindən bir çox leksem və qrammatika ünsürü keçmişdir. Digər tərəfdən, ərəb dilindən alınma sözlər ədəbi dildə geniş şəkildə təmsil olunduğu halda, türk dilindən keçən kəlmələr qismən ədəbi dildə, əsasən də müxtəlif ləhcələrdə istifadə olunmuşdur.

Türklər fəth etdikləri digər ölkələrdə olduğu kimi, ərəb coğrafiyasında da dil və mədəniyyət baxımından geniş sərbəstlik vermişlər (Gedik, al-Berro 2016, 317). İnzibati idarəetmə dili olaraq türk elm dili kimi ərəb dilindən istifadə edilmişdir. Ərəb dili İslam dininin daşıyıcısı, Qurani-Kərimin açarı olması səbəbindən böyük rəğbət görmüş və ərəb dilində tədrisə də xüsusi əhəmiyyət verilmişdir (Aytaç, 1994, 17). Nəticədə haqqında sözügedən dövrdə türk-ərəb dili münasibətlərində elmi və ədəbi terminologiya sahəsində daha çox söz alan dil kimi çıxış edən türk dili gündəlik həyatda praktik dildə isə mənbə dil olmuşdur. Maraqlıdır ki, ərəb dilinin türk dilinə təsiri daha çox mücərrəd məfhumlarla səciyyələndiyi halda, türk dilindən ərəb dilinə keçən terminlərin hamısı konkret anlayışları əhatə etmişdir (Aytaç 1994, 142). Türk dilindən keçən sözlərin təhlili onların müəyyən sahələrə

aid olduğunu və bəzən müəyyən məna dəyişikliklərinə məruz qalaraq günümüzdə də Misir, İraq, Suriya başda olmaqla bir sıra ərəb ölkələrinin ləhcələrində işlənildiyini göstərir.

Ərəb dilinə keçmiş sözlər arasında بلوك [qışla], طا بور [tabor], أنباشي [onbaşı], شاويش [çavuş], نوبطشي [növbətçi] kimi hərbi terminlər mövcuddur. Bundan başqa, əksəriyyəti çı-çi-çu-çü şəkilçiləri ilə bitən سفرجي [ofisant], قهوجي [qəhvəçi], حلواجي [halvaçı], خزمتشي [xidmətçi], بشمهندس [baş mühəndis], حكيمباشي [baş həkim], ترزي [dərzi] qəbilindən peşə bildirən terminlər keçmişdir. Eyni zamanda بورك [börək], جورك [çörək], خشاف [xoşaf], بسطرمة [basdırma], يوغورت [yoqurt], طورشي [turşu] kimi yemək adları, أورمان [orman], كوبري [körpü], أوضة [oda] kimi məkan adları, بولاق [Bulaq], شلبي [çələbi], أفندي [əfəndi] qəbilindən xüsusi ad, soyad və titul, بردا ق [bardaq], جا رد [çadır], بلطة [balta], طاوه [tava] kimi məişət, فستان [fustan-ətək], أطلس [atlas], كمر [kəmər] kimi geyim əşyalarının, دمير [dəmir], التون [altun-qızıl] tipli metal, قوزى [quzu] kimi heyvan adları da türk dilindən alınmış sözlər sırasına daxildir.

Ümumiyyətlə, türk dilindən ərəb dilinə keçmiş sözlər mövzu baxımından müxtəlifliyi ilə fərqlənmiş və daha çox hərbi, inzibati terminlər, şəhərsalma və memarlıq, peşə adları, məişət əşyaları, qohum-əqrəba, yemək-içmək, geyim, heyvan adları ilə bağlı sözlərdən ibarət olmuşdur. Bu kəlmələr arasında quruluş etibarı ilə sadə sözlərlə bərabər, mürəkkəb sözlər də mövcuddur. Türk dilindən alınma sözlər arasında nitq hissələrindən isimlər çoxluq təşkil etməklə yanaşı, sifətlərə və az da olsa feillərə də təsadüf olunur. Son olaraq, türk dili vasitəsilə ərəb dilinə bəzi fars mənşəli kəlmələrin də keçdiyini qeyd etmək lazımdır.

Ərəb terminologiyasının inkişafının müasir mərhələsi və səciyyəvi xüsusiyyətləri

Klassik dövrün ardınca ərəb dilində termin yaradıcılığının digər bir məhsuldar mərhələsi I Misir xədivi Kavalalı Məhəmmədəli paşanın hakimiyyəti (1805–1848) illərinə təsadüf edir. Belə ki, Avropa ölkələri ilə əlaqələrin sürətlə inkişaf etdiyi həmin dövrdə müasir milli təhsil sisteminin qurulması əsas məqsədə çevrilmişdir. Bunun üçün müxtəlif bölgələrdə Avropanın təhsil modeli və proqramları əsasında fəaliyyət göstərən tibb, kənd təsərrüfatı, incəsənət, dil və s. ixtisaslar üzrə məktəblər açılmışdır (TDV İslam Ansiklopedisi, 25/62). Həmin məktəblərin pedaqoji kadr ehtiyacı, əsasən, fransız və müəyyən dərəcədə italyan müəllimlərin hesabına təmin edilmişdir. Avropalı mütəxəssislərin

ərəb, türk, tələbələrin də avropa dillərini bilməmələri tədris prosesində problemə səbəb olurdu. Bu da tərcüməçilərin yetişdirilməsini və fransız həkim A. Klotun rəhbərliyi altında tərcüməçi məktəbinin formalaşmasını zəruri etdi. Xarici mütəxəssislərin pedaqoji fəaliyyətə cəlb edilməsi ilə yanaşı, gənclər Avropa ölkələrinə göndərildi, ölkədə ilk mətbəə quruldu, "Vaqayi-Mısır" ("Misir hadisələri") adlı ərəb və türk dillərində qəzet fəaliyyətə başladı. Tərcümə sahəsində də məhsuldarlığı ilə fərqlənən sözügedən dövrdə fransız dilindən 445, ingilis dilindən 67, həmçinin türk, fars, italyan, alman, qibti və rus dillərindən bir çox elmi əsərlər ərəb dilinə tərcümə edildi (Мустафаева 2011, 27). Bu qəbildən fəaliyyətlər səbəbindən tərcümə edilmiş və ya ərəbləşdirilmiş yeni elmi terminlər müasir ərəb terminologiyasının inkişafına zəmin hazırladı. Tərcümə fəaliyyəti nəticəsində ilk dəfə 6000 sözdən ibarət fransızca-ərəbcə tibbi lüğət tərtib olundu. Sonrakı mərhələdə əczaçılıq, riyaziyyat, mexanika, astronomiya və digər elmlər üzrə yeni elmi terminləri ehtiva edən əsərlər yazıldı. Tərcümə fəaliyyətləri Avropa terminlərini ərəbləşdirmək yolu ilə ərəb dilində müasir elmi terminolgiyanın formalaşması prosesində mühüm rol oynadı. Həmin dövrdə ilk dəfə "qatar" ixtira edildiyi zaman bu məfhumu ifadə etmək üçün ərəb dilində "dəvə karvanı" mənasında işlədilən قطار [qıta:run] kəlməsinin "qatar" termini olaraq qəbul edilməsi termin yaradıcılığında ərəb dilinin daxili imkanlarının nəzərə alındığına dəlalət edirdi.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, XIX-XX əsrlərdə avropalıların müstəmləkəsinə çevrilmiş əksər ərəb ölkələrində ərəb dilinin ingilis, fransız və italyan dillərinin hökmranlığı ilə üzləşməsi səbəbindən elmi-texniki terminologiyanın inkişafında milli ənənə itirildi. Ərəb ölkələrinin müstəmləkəyə çevrilməsi ərəb dilinin böhranını dərinləşdirdi və həmin ölkələrdə milli termin yaradıcılığının qarşısının alınmasına, elm və təhsil dili olaraq bir qayda olaraq xarici dildən istifadə edilməsinə gətirib çıxardı (Эль сабрути 2016, 105). Milli dilin planlı şəkildə sıxışdırılması siyasətinin tərkib hissəsi kimi hər vəchlə ailələr övladlarının, ancaq müstəmləkə dilində təhsil almağa təşviq və vadar edildi. Müstəmləkə rejimlərinin hərbi və inzibati idarəetmə aparatı vasitəsilə zorakı şəkildə öz dillərini işlək dil olaraq qəbul etdirmək siyasəti ərəb ədəbi dilini bir növ ölü dil vəziyyətinə düşürdü. Avropa kilsələrində latın dilindən istifadə örnəyində olduğu kimi, ərəb dili də ancaq məscidlərdə ibadət dili səviyyəsində varlığını davam etdirə bildi. Avropa dillərinə məxsus terminlərin geniş şəkildə istifadəsi inziba-

ti idarəetmə və təhsil sahəsində milli terminlərin unutdurulması ilə nəticələndi.

Bunu "132 il ərzində Fransanın müstəmləkəsi olmuş, hətta 1938-ci ildə də ərəb dili xarici dil elan edilmiş Əlcəzairin" (Babaşlı 2019, 59) və onun kimi avropalıların işğal etdikləri digər ərəb ölkələrinin timsalında açıq-aydın görmək mümkün idi. Məhz həmin siyasətin nəticəsi idi ki, müstəqilliyini qazandıqdan sonra Əlcəzair hökuməti 1963-cü ildə ərəb dilini ölkənin yeganə rəsmi dövlət dili elan etdi və onillərlə ölkədə ardıcıl şəkildə beşillik ərəbləşdirmə planları tətbiq etməyə vadar oldu. Bir sözlə, müstəmləkə dövrünün başlanması ilə ərəb dilində alınma sözlərlə zənginləşmə prosesi zorakı yolla təbii məcrasından çıxarıldı, forma və məzmun baxımından ciddi dəyişikliyə məruz qaldı (Гилева 2015, 343). Nəticədə, hər bir ərəb ölkəsində müstəmləkə idarəçiliyi altında olduğu dövlətin rəsmi dilinə uyğun olaraq alınma sözlərin mənbələri və ərəb dilində müxtəlif sahələr üzrə fərqli inkişaf istiqamətləri formalaşdı. Siyasi, iqtisadi və mədəni asılılığın davam etməsi nəticəsində Mərakeş, Tunis, Əlcəzair, Suriya və Livan kimi ölkələrdə fransız, Liviyada italyan, Misir, İordaniya və İraqda ingilis dili öz hökmranlığını davam etdirdi. Ərəb dili arealına daxil olan ölkələrdə ərəb ədəbi dilindən istifadə səviyyəsinin müxtəlifliyi, bir-birindən olduqca fərqlənən yerli ləhcələrin mövcudluğu, nəhayət, ərəb-ingilis və ərəb-fransız bilinqvizmi örnəyində olduğu kimi, yerli dialektlərlə xarici dillərin birlikdə işlənilməsi praktikası da termin yaradıcılığının keyfiyyətinə mənfi təsir göstərdi. Beləliklə, mərkəzi qaydada hələ tənzimlənmə və standartlaşma mexanizminin olmadığı bir şəraitdə ərəb dili terminologiyasının ərəb ölkələrində təcrid olunmuş şəkildə formalaşması, terminlərin regional səciyyə daşıması ilə nəticələndi (Гилева 2015, 350).

Bununla belə, sözügedən dövrdə Avropa ölkələrində elm və texnikanın inkişafı nəticəsində yeni terminlərin formalaşması onların müstəmləkəsi altında olan ərəb ölkələrində də "xalq dilinin leksikası əsasında texniki terminlərin yaranması və inkişafı prosesi"nə (Eyvazova 2015, 387) də müəyyən təsir göstərdi. Nəhayət, 1919-cu ildə Dəməşqdə ilk Elmlər Akademiyası, 1934-cü ildə Qahirədə Ərəb Dili Akademiyası, nəhayət, 1947-ci ildə İraqda Elmlər Akademiyasının fəaliyyətə başlaması ərəb dilində termin yaradıcılığının tənzimlənməsi işində bir sıra zəruri işlərin görülməsi ilə nəticələnsə də bu sahədə ciddi dönüş müşahidə olunmadı. Bunun əsas səbəblərindən biri XX əsrin ilk yarısında Ərəb Şərqində ərəb dilinin təmizliyini qorumağa çalışan

ənənə tərəfdarları ingilis, fransız və digər xarici dillərin resurslarından istifadə edilməsinə tərəfdar çıxan liberallar arasında gedən gərgin mübarizə idi. Digər tərəfdən, aparılan ərəbləşdirmə siyasəti demokratik prinsiplərdən daha çox inzibati amirlik metodlarına əsaslandığı üçün gözlənilən nəticəni vermədi və hətta polietnik əhali tərkibinə malik ölkələrdə müəyyən müqavimətlə qarşılaşdı. Nəhayət, milli təəssübkeşlikdən uzaq vətəndaşlar arasında ana dilinə yad münasibət bəsləyərək شكراً sözünün əvəzinə, مرسى [mersi] və yaxud ثانك يو [thank you], أوافق yerinə, أوكى [okey], أسف və عفواً yerinə سورى [sorry] və ya بردون [pardon] qəbilindən kəlmələri ərəb dilində yerli-yersiz istifadə etməklə özlərini bir növ cəmiyyətin yüksək təbəqəsinə mənsub insan kimi göstərmək istəyənlər də az deyildi.

Ərəb dilində terminlərin inkişafının müasir mərhələsində, xüsusilə Ərəb Məğribi ölkələrinin müstəqilliyini qazandığı XX əsrin 50-60-cı illərindən sonrakı dövr mahiyyət etibarilə fərqlənir. Belə ki, keçən yüzillikdə milli-azadlıq hərəkatının vüsət alması nəticəsində Qərb ölkələrinin uzunsürən işğalından və ya manda asılılığından xilas olduqdan sonra ərəb ölkələrində milli dilin inkişafına xüsusi diqqət yetirilməyə başlanıldı. İstiqlaliyyət qazanmış ərəb ölkələrinin müstəmləkə keçmişi və inkişaf etmiş dünyadan geri qalmaları onları milli-mədəni köklərinə qayıtmağa, özlərinin tarixlərinə istinad etmələrinə, mənəvi varlıqlarını bərpa etmək üçün fundamental əsaslar axtarıb tapmağa vadar etdi (Эль сабрути 2016, 107). Ərəb coğrafiyasında siyasi vəziyyətin dəyişməsi müstəmləkə dilindən imtina edilməsi və milli dilin terminoloji bazasanın zənginləşdirilməsi prosesi ilə müşayiət olundu. İctimaiyyət və təhsil müəssisələri tərəfindən dəstəklənən bu siyasət ənənəvi dilçilik məktəbinin inkişaf konsepsiyasına üstünlük qazandırdı, ənənəvi yanaşmadan uzaqlaşmağa isə pis baxıldı. İlk növbədə, təhsil sistemini milliləşdirilmə siyasəti həyata keçirilməyə başlanıldı. Bu məqsədlə ümumtəhsil məktəblərində və universitetlərdə ərəb dilinin tədrisi üçün Misir, Suriya başda olmaqla digər ərəb ölkələrindən müəllimlər dəvət edildi. Sosialist inkişaf yolu seçmiş ərəb ölkələri milli kadr hazırlığında keçmiş Sovet İttifaqında və digər sosialist ölkələrində, qərbyönümlü ölkələr isə Amerika və Avropada təhsil almalarına üstünlük verdilər. Təbii ki, təhsili başa vuraraq ölkəyə dönən kadrlar rus, ingilis və ya fransız dillərində terminlərinin daşıyıcıları olurdular.

1960-cı illərdən etibarən Sovet İttifaqının ideoloji səbəblərdən ərəb ölkələrinin milli-azadlıq hərəkatını dəstəkləməsi nəticəsində

ərəb ölkələri ilə siyasi, iqtisadi, texniki və hərbi sahələrdə əməkdaşlıq genişləndi. Siyasi əlaqələrin inkişaf səviyyəsindən asılı olaraq bu ölkələrin bəzilərində müəyyən müddət, bəzilərində isə uzun illər ərzində milli kadr hazırlığı sahəsinə ikiillik ərəb dili kurslarını bitirmiş sovet mütəxəssisləri cəlb olundu. Texniki-peşə məktəblərində, universitetlərdə, hərbi məktəblərdə, akademiyalarda sovet mütəxəssisləri tədris prosesində yaxından iştirak etdilər. Təbii ki, bu da ərəb dilində elmi-texniki, hərbi terminlərin işlənilməsini və ərəb dili tərcüməçilərindən istifadə edilməsini zəruri etdi. Bu sətirlərin müəllifinin də 1980-ci illərdə canlı şahidi olduğu kimi, hərbi terminlər konkret səciyyə daşıdığına görə tərcümə prosesində problem olmurdu. Texniki və inşaat terminlərinin böyük əksəriyyətinin ərəb ədəbi dilindəki variantı deyil, əksər hallarda müstəmləkə dövründən qalmış xarici mənşəli terminlərdən istifadə edilirdi. Tərcüməçinin yazılı mətnlərin tərcüməsi zamanı ərəb ədəbi dilinin leksik bazasına istinad etməsi, ikidilli və ya terminoloji lüğətlərdən istifadə etmək cəhdi isə çox vaxt baş tutmurdu. Xüsusilə savadı olmayan tərəf-müqabillərlə ünsiyyət prosesi çətin olurdu və bu halda tərcüməçi hansısa texniki termini təsviri yolla başa salmaq, yaxud onların anladıqları xarici mənşəli terminlərdən və ya danışıq dilində işlətdikləri sözlərdən istifadə etmək məcburiyyətində qalırdı. Başqa sözlə, yazılı tərcümədə ədəbi dilin qəbul olunmuş terminlərindən istifadə edilməklə yanaşı, şifahi tərcümədə məfhumu ifadə etmək üçün ədəbi dilin normalarına uyğun gəlməyən danışıq dilində işlədilən terminlərə müraciət olunurdu. İş o dərəcəyə gəlib çatırdı ki, “silindirin qapağı” texniki termininin lüğətdəki غطاء اسطوانة ekvivalentinin danışıq dilində “qapaq” sözünün “əbu” kəlməsi ilə əvəz olunmuş variantı işlədilə bilirdi. Bir çox halda, eyni məfhumun müxtəlif ərəb ölkələrində fərqli variantlarda ifadə edilməsi, bir növ, “texniki dialekt”in mövcud olması problemi ilə qarşılaşılırdı (Tağıyev 1969, 58). Bir ölkə daxilində eyni terminin müxtəlif variantlarda işlədilməsi hallarına da təsadüf olunurdu. Ərəb dilinin zəngin lüğət fonduna müraciət etmək yerinə, müstəmləkə dillərinə müraciət edilirdi. Təbii ki, bu qəbildən hallar terminlərə qoyulan təkmənalılıq tələbi ilə uzlaşmırdı və ərəb dilində vahid terminologiyanın formalaşması prosesinə imkan vermirdi. Bu da bir daha dildə milli terminologiyanın formalaşmasının bilavasitə həmin dilin daşıyıcısı olan ölkənin ictimai və iqtisadi, elmi və texniki inkişafı ilə üzvi surətdə bağlı olduğunu göstərirdi. Ən başlıcası da ikidilliliyin hökm sürdüyü, elm, texnika, təhsil, biznes fəaliyyəti sahə-

sində xarici dilin hakim olduğu bir şəraitdə milli terminologiya bir qayda olaraq inkişaf etmirdi.

Təbii ki, uzun müddət müstəmləkə idarəçiliyi altında olmuş ölkələrdə elmi-texniki terminlərin formalaşmasının çətin və vaxt tələb edən bir proses olduğu başadüşülən idi. Həmin dövrdə əsarətdən xilas olmaq üçün müstəqillik yolu seçmiş ölkələrdə ərəb ədəbi dilində məfhumu düzgün ifadə edən vahid və sabit elmi-texniki terminlərin yaradılması da böyük əhəmiyyət kəsb edirdi. Bu səbəbdən, dilin təmizliyini qorumaq üçün qurulmuş ərəb dili akademiyaları ilə yanaşı, elmi-tədqiqat institutlarının, universitet və müəssisələrin, nəşriyyatların da üzərinə böyük iş düşürdü. Ədalət naminə qeyd etmək lazımdır ki, elmi terminologiyanın yaradılması istiqamətində Misir, Suriya və İraq kimi ölkələrdə ərəb dili akademiyaları nəzdində xüsusi komitələr yaradıldı, müxtəlif sahələr üzrə ingiliscə-ərəbcə bir çox terminoloji lüğətlər nəşr olundu (Tağıyev 1969, 58). Ərəb Dövlətləri Liqasının 1969-cu ildə Rabatdakı Daimi Əlaqələndirmə Bürosuna ərəb milli terminologiyasının yaradılması işini həvalə etməsi də termin yaradıcılığı prosesini canlandırdı. Sonrakı dövrdə İordaniya, Mərakeş, Sudan, Fələstin, Liviya kimi ölkələrdə qurulan ərəb dili akademiyalarının da bu prosesə qoşulması, konfransların, seminarların keçirilməsi, elmi jurnalların müntəzəm nəşr edilməsi bu sahədə səmərəli fəaliyyətin davam etdirilməsinə imkan verdi. Ərəb dilinin terminologiya məsələlərinin tədqiqi və tədrisi, tərcümə və terminologiya məsələləri ilə bağlı layihələrin həyata keçirilməsi, terminoloji lüğətlərin tərtibi və nəşri gerçəkləşdi. Osmanlı dövründən qalmış "sualtı qayıq", "xəstə baxıcılığı", "beynəlxalq" və "universitet" mənalarında işlədilən "təht əl-bəhr", "hifzus-sıhha","beyn əl-miləl", "dər əl-funun" qəbilindən arxaikləşmiş terminlərin müvafiq olaraq غواصة, دولي, تمريض və جامعة variantları ilə əvəz edilməsi nümunəsində olduğu kimi, mürəkkəb tərkibli terminlərin qısa variantları qəbul edildi (Daşkıran 2014, 195). Bunlara rəğmən ədəbi dilin sabit terminologiyasının formalaşması istiqamətində görüləcək işlər arasında orijinal və yaxud tərcümə edilmiş tədris vəsaitlərinə, elmi-populyar ədəbiyyata hələ də ehtiyac var idi. Xüsusilə, ərəb dili akademiyalarının nəşr etdirdikləri terminolji toplularda rast gəlinən və ya praktiki əhəmiyyətə malik olmayan süni surətdə yaradılmış terminlərin təkrar nəzərdən keçirilməsi vacib idi. Bütün ərəb dünyasında alınmasa belə, ən azından müstəmləkə dillərinin yaxınlığı nəzərə alınmaqla Ərəb Məşriqi və Ərəb Məğribi ölkələrində vahid terminologiyanın formalaşdırılması zəruri idi. Termin yaradıcılığında mövcud leksik

elementlərə, dilin daxili imkanlarına müraciət edilməli, uyğun variant tapılmadıqda milli termin yaradılmalı, yaxud başqa dillərdə yaranmış və artıq beynəlxalq status qazanmış terminlərdən istifadə olunmalı idi.

Nəhayət, müasir mərhələnin 1980-ci illərdən başlayaraq günümüzdə davam edən zaman kəsiyi ərəb terminologiyasının inkişafı üçün kifayət qədər məhsuldar oldu. Bu da ilk növbədə, qloballaşma prosesinin zaman keçdikcə vüsət alması nəticəsində elm, texnologiya əsri kimi təsnif edilən XXI yüzildə dünya ciddi inkişafın, yeni elmi istiqamətlərin, problemlərin meydana gəlməsi ilə əlaqədardır.

Məlum olduğu kimi, tarixən sosial varlıq olan insanlar və onların məskunlaşdıqları ölkələr arasında rabitə və nəqliyyat vasitələrinin imkan verdiyi nisbətdə əlaqələr genişlənmişdir. Keçən yüzilliyin sonlarından etibarən həyatın əksər sahələrini əhatə edən qloballaşma prosesində bu əlaqələr xüsusilə intensiv hal aldı. Kapitalın, məhsul və xidmətlərin, ideyaların, informasiya və onların daşıyıcılarının sərbəst surətdə hərəkəti vahid beynəlxalq iqtisadi, hüquqi, mədəni və informasiya məkanının formalaşmasını zəruri etdi. Milli sərhədlərin şəffaflaşması səbəbindən dünya ölkələrinin təcrid olunmuş şəkildə yaşaması artıq qeyri-mümkün oldu. Təbii olaraq kommunikasiya vasitələrindən istifadə imkanları, elm və texnolgiyada yeni sahələrin yaranması öz növbəsində yeni anlayışların da ortaya çıxmasına təkan verdi. Ümumi kompüterləşdirilmə və insan fəaliyyətinin müxtəlif sahələrində ən qabaqcıl texnologiyaların kəşf və tətbiq edilməsi yeni terminlərin meydana gəlməsini zərurətə çevirdi. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, xüsusilə kompüterdən istifadə ingilis dilində külli miqdarda terminlərin yaranmasına səbəb oldu. Həmçinin videokamera, yeni nəsil televizor qəbilindən müxtəlif məişət texnikasının və xarici avtomobillərin idxalı ilə bir çox yeni məfhumların və sözlərin dilə daxil olması qaçılmaz oldu (Эль сабрути 2016, 106). Müasir kommunikasiya vasitələrindən və kompüterdən, mobil telefondan istifadə yazışmanın rəsmi-işgüzar üslubunun, informasiyanın çatdırılma yollarının xarakterini dəyişdirdi. Son onilliklərdə dünyada iqtisadi qloballaşmanın əhatə dairəsinin genişlənməsi və iqtisadi elmlərin sürətli inkişafı iqtisadiyyat sahəsində də xüsusi imformasiyanın ciddi şəkildə artması ilə nəticələndi. İctimai-siyasi həyatın müxtəlif sahələrində qarşılıqlı asılılığın və təsir imkanlarının artması, beynəlxalq və milli idarəetmə sistemində baş verən dəyişikliklər, yeni çağırışlar öz növbəsində beynəlxalq münasibətlərin qloballaşmasını qaçıl-

maz etdi. Qeyd etdiyimiz amillər ortaya çıxan çoxlu sayda müasir leksik vahidlərin müxtəlif şəkillərdə ifadə edilməsi, tədricən təkmilləşərək başqa dillərə keçməsi və vətəndaşlıq hüququ qazanması ilə nəticələndi.

Digər tərəfdən, ingilis dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi rolunun artması və elm dili statusu qazanması milli dillərin də qloballaşma prosesinin təsirinə məruz qalma ehtimalını artırdı. Belə bir şəraitdə, bir daha ölkələrin elmi-texniki tərəqqisinin, intellektual potensialının bilavasitə güclü milli təhsil sistemindən və elmə verdikləri əhəmiyyətin dərəcəsindən birbaşa asılı olduğu anlaşıldı. Müasir dövrün çağırışlarına cavab verən təhsil quruculuğunun vacib olduğunu vaxtında başa düşən ölkələr dünyanın qabaqcıl təhsil modellərindən bəhrələnməyə çalışdılar. Sözügedən prosesdən kənarda qalmamaq üçün ərəb ölkələri də vətəndaşlarını xaricdə təhsil almağa təşviq etməyə, ölkə daxilində milli kadr hazırlığında xarici mütəxəssislərin cəlb olunması praktikasına üstünlük verdilər. Xüsusilə bir çox ərəb ölkəsində xarici məktəb və universitetlərin, ingilis dili kurslarının fəaliyyəti ingilis dilindən istifadə arealınının genişlənməsində rol oynadı. Beləliklə, bütün dövrlərdə olduğu kimi, elm və texnikanın müxtəlif sahələrində baş verən dəyişikliklər, yeniliklər dilin lüğət tərkibinin terminoloji qatında üzə çıxmaqla özünü göstərdi (Eyvazova 2015, 385). Nəticə etibarilə, müasir ərəb dilində ümumişlək sözlərin yaradılmasında, əsasən, Orta əsrlərdə formalaşmış klassik terminoloji fonduna istinad edildiyi halda, texniki sahələrdə və xüsusilə informatika sahəsində terminlərin istifadəsində ingilis dili birmənalı şəkildə üstünlük qazandı. Terminologiyanın inkişafının elmin, texnika və istehsalatın inkişafı ilə paralel surətdə getməsi, hər bir anlayışın mütləq bütün dillərdə öz əksini tapması zərurəti bunu qaçılmaz etdi.

Deyilənlərin məntiqi nəticəsi olaraq, ərəb dilinin ingilis dili başda olmaqla mövcud dillərlə qarşılıqlı əlaqəsi, birinci növbədə sözalma, yaxud sözvermə prosesi zərurətə çevrildi. Ərəb dilinin terminoloji bazası da daxil olmaqla mövcud termin sistemlərinin formalaşmasında başqa dillərin təsiri qaçılmaz oldu (Гилева 2015, 348). Şübhəsiz ki, bu prosesdə "söz ehtiyatı və milli termin yaradıcılığı baxımından dünyanın ən zəngin dillərindən" (Babaşlı 2019, 66) və geniş daxili imkanlara malik olan ərəb dili də istisna təşkil etmədi. Elmi-texniki inkişaf nəticəsində yeni texnoloji məhsulların istehsalı və dünyanın bir çox ölkələri, o cümlədən ərəb ölkələri tərəfindən idxalı ərəb dilinə yeni terminlərin keçməsi ilə müşayiət olundu. Təbii ki, "dilin lüğət tərkibi-

nin daha sürətlə inkişaf edən və dəyişən hissəsi" (Qasımov 1987, 6) olan terminologiya üçün bu proses normal sayılır. İngilis dilindən keçən terminlərdə ərəb mütəxəssislərin Amerikada və ya İngiltərədə təhsil almaları səbəbindən eyni məfhumun fərqli terminlərlə ifadəsinə üstünlük vermələri nəticəsində həm amerikan, həm də ingilis variantları işlədilir. Bu qəbildən hallar termin yaradıcılığında leksik paralellərə-dublet probleminin ortaya çıxmasına səbəb olur. Bu da çoxlu sayda mövcud olan alınma və ərəbləşdirilmiş terminlərin standartlaşdırılmasının zəruri edir (32, الجوارنة). Bütün ərəb ölkələrində ortaq istifadə edilə biləcək ümumi terminoloji lüğətlər tərtib etməklə leksik paralellərin işlənməsinin qarşısını almaq mümkün idi. Bunun üçün çətin də olsa, müxtəlif sahələr üzrə fəaliyyət göstərən mütəxəssislərdən bu və ya digər terminin işlənməsi məsələsində ortaq məxrəcə gəlmələri tələb olunurdu. Ən başlıcası da ali təhsil müəssisələrində tədris fəaliyyəti ilə məşğul olan professor-müəllim heyətinin yerli dialektə və xarici dildə mühazirə oxumaq praktikasına son qoymaları lazım idi.

Ümumiyyətlə, dilin neologizmlərlə zənginləşməsi, mövcud mənalarının dəyişilməsi ictimai həyatda və fikirdə baş verən yeniliklərlə üzvi surətdə bağlı olur. Ərəb terminologiyasının qloballaşma prosesi ilə təxminən eyni dövrə təsadüf edən sonuncu inkişaf mərhələsində yaranan yeni elmi-texniki terminlər arasında ingilis dilindən ədəbi dilə keçən terminlər üstünlük təşkil edir. Bu da təbii idi, çünki dildə mövcud olan sözlər adətən hansısa bir varlığın ifadəsi qismində çıxış edir. Daha əvvəl məlum olmayan yeni bir varlıq meydana çıxanda dil həmin varlığı ifadə edə biləcək sözü daxili imkanlar hesabına tapmaq və ya başqa dillərdən almaq məcburiyyətində qalır. Bu baxımdan, ərəb ölkələrində əksər sahələrdə müasir elmi terminlərin formalaşmasında adətən ənənəvi ərəb leksikasına əsaslanan klassik terminoloji fond əsas rol oynayır. İnformasiya-kommunikasiya texnologiyaları daxil olmaqla yeni elm sahələrinə məxsus terminlərin əsas hissəsi bir qayda olaraq yarandığı ölkənin dilindən alınır. Amerika başda olmaqla qərb ölkələrinin elmi-texniki tərəqqi baxımından öncüllük etməsi, həmçinin həmin ölkələrlə iqtisadi, siyasi, mədəni əlaqələrin artması bu sahələrlə bağlı yeni yaranan teminlərin ərəb dilinin lüğət tərkibinə də daxil olması prosesini sürətləndirir. Beləliklə, sözügedən mərhələ başqa dillərlə bərabər, ərəb dilində termin yaradıcılığının inkişaf etməsinə və yeni termin vahidləri ilə zənginləşməsinə səbəb olur. Bu proses insan fəaliyyətinin bir çox sahələrini əhatə etməsinə rəğmən dövriyyəyə yeni məfhumların, konseptlərin, ideyaların daxil olması ilə

müşayiət olunan elmi-texnoloji yeniliklər, informatika kimi sahələrdə özünü daha çox göstərir.

Qeyd etmək lazımdır ki, inkişaf səviyyəsinə uyğun olaraq dünyada baş verən elmi-texnoloji yenilikləri tez və ya gec mənimsəmələrindən, tətbiq etmələrindən asılı olmayaraq ərəb ölkələri istənilən halda انترنت [internit] “internet”,كُمْبْيُوتِر [kumbyutir] “kompüter”, موقع وِيب [mauqiun vi:b] “veb-sayt”, التواصل الاجتماعي [ət-təvə:sul əl-ictmə:iyyu] “sosial şəbəkə”, بريد إلكتروني [bəri:dun ilikturinniyun] “elektron poçt”, فيسبوك [fi:sbu:k] “feysbuk”, واتساب [vatsə:b] “votsap”, ماسينجر [mə:si:ncər] “messenger”, دَرْدَشَةٌ [dərdəşəh] “çat”, رسالة صوتية [risə:lətun sautiyyətun] “səsli mesaj”, تْوِيتِر [tvi:ter] “tvitter”, تغريد [təğri:d] “tvit”, إِنْسْتَغْرَام [instəğra:m] “instaqram”, الحكومة الإلكترونية [əl-huku:mətu əl-iluktruniyyətu] “elektron hökumət”, المكتبة الرقمية [əl-məktəbətu ər-raqmiyyətu] “rəqəmsal kitabxana”, الجهاز اللّوحي [əl-cihə:zul-ləuḥiyyu] “planşet”, لوحة المفاتيح [ləuḥətul-məfə:ti:ḥi] və ya لوحة المزرار [ləuḥətul-mizra:ri] “klaviatura”, الهاتف الذكي [əl-hə:tifuz-zəkiyyu] “smartfon”, الإبداع [əl-ibdə:u] “kreativlik” və sair müasir terminlərdən istifadə etməli olurlar. Bu da ilk növbədə, ərəb dili akademiyaları və elmi mərkəzlər qarşısında vaxt itirmədən yeni məfhumların ərəb dilində qarşılığını tapmaq, dəqiqləşdirmək, terminin hansı mənbədən alınmasından asılı olmayaraq onu dilin fonetik, qrammatik quruluşuna uyğunlaşdırararq lüğət tərkibinə daxil etmək vəzifəsini qoyur. Dilçilər arasında yekdil fikrin olmaması səbəbindən bir ölkədə “kompüter” termininin الحاسب / الالكتروني/ العقل الالكتروني/ الحاسبة الالكترونية / المحاسب / الحُسابة/ / الحسّابة / النظّامة / الكمبيوتر / الحيسوب / الحاسوب / المحسابة variantlarının işlədilməsinə təsadüf edilir. Bu mərhələdə ərəb dilində əmələ gəlmiş neologizmlərin təhlili göstərir ki, yeni sözlər daha çox müasir məhsulların, qurğuların, alətlərin, cihazların xüsusən elm və texnologiyanın inkişafı ilə əlaqədar olaraq yenicə yaranmış təsəvvürü, hadisə və keyfiyyətləri ifadə etmək üçün yaranmışdır (Məlikov 2013, 126).

Adətən, lüğət tərkibinin zənginləşməsi dildəki mövcud leksik vahidlərin semantik mənasının genişlənməsi, söz yaradıcılığı üsulları, başqa dillərdən tərcümə prosesi (kalkaetmə) və alınmalar vasitəsilə baş verir. Xarici terminin ərəb dilində qarşılığı olmadıqda “funksionallıq baxımından termin yaradıcılığında iştiqaq, məcaz, tərib və nəht üsullarından istifadə olunur” (Daşkıran 2014, 198). Aparılan leksik təhlillər göstərir ki, ərəb dilinin termin bazasının inkişafında morfoloji- daxili resursların hesabına terminin yaranması üsulu mühüm rol oynayır. Məhz buna görə də söz yaradıcılığı ərəb dilinin sirri və onu

başa düşmək üçün açar olaraq da səciyyələndirilir. Söz modelləri baxımından zəngin olması səbəbindən sözügedən üsullardan ən çox tətbiq olunan əvvəlinə, ortasına və sonuna hərf əlavə edilməklə və yaxud səs dəyişikliyi vasitəsilə kök sözdən sözün əsas mənasına yaxın kəlmələrin düzəldiyi الاشتقاق [iştiqaq] "sözdüzəltmə" üsuludur. Məsələn, "əl-iştiqa:q əs-sağı:r" vasitəsilə düzələn ضَرَبَ "vurdu" feilindən ضَرْبٌ "vurmaq" məsdəri, "əl-iştiqa:q əl-kəbi:r" və ya الابدال adlanan üsul tətbiq edilməklə kök hərfləri və məna baxımından əlaqəsi olan, ancaq hərflərin sıralanması ilə fərqlənən və ikisi də "atmaq" mənasını verən طَرَحَ (taraha) və طَحَرَ (tahara) sözləri, ya kök hərflərinin çoxunda uyğunlaşma, ya da uyğunlaşmayan hərflərin məxrəclərində bənzərlik olan "əl-iştiqa:q əl-əkbər" üsulu ilə düzələn نَعَقَ [nəʻaqa] "qarıldamaq (qarğa haqqında)" ve نَهَقَ [nəhəqa] "anqırmaq (eşşək haqqında)" sözlərinin düzəlməsi zamanı iştiqaq üsulundan istifadə olunmuşdur. Bundan başqa مِفْعَل, مِفْعَلَةٌ və ya مِفْعَالٌ modelləri vasitəsilə alət bildirən, isimlərin kiçildilməsi üçün istifadə olunan "ismi-təsğı:r" qəbilindən formalardan da yeni sözləri düzəldilməsi praktikasında da geniş istifadə olunur.

Eyni kökün əsasında yeni terminin düzəlməsi kimi başa düşülən morfoloji üsul ərəb dilinin yeni terminlərlə zənginləşməsində daha çox yayılmış və məhsuldar üsul hesab olunur. Sözün bu şəkildə axtarılması və yaradılması prosesi ərəb dilində التوليد və ya الوضع terminləri ilə adlandırılır. Bu da sözügedən terminlərin bir növ məcazi mənada yeni övladın doğulmasına bənzərliyindən irəli gəlir. Son olaraq, söz yaradıcılığında اشتقاق [iştiqaq] üsulu "doğub törəmə" kimi səciyyələndirilərsə, تعريب [təri:b] üsulunu تجنس [təcənnus] "vətəndaşlığa qəbul etmə" şəklində anlamaq mümkündür.

Ərəb dilində termin yaradıcılığında istifadə olunan digər bir üsul Avropa dillərində metafora adı ilə bilinən المجاز [əl-məcəz] üsuludur. Bu üsul vasitəsilə aralarındakı müəyyən bir əlaqə olması səbəbindən bir kəlmənin sözlər mövcud və ya ölü terminin əsl mənasından yeni mənasına çevirilməsi ilə düzəlir. Məsələn, ərəb dilində geniş istifadə olunan سيارة [səyyə:ratun] maşın, طيارة [tayyə: ratun] "təyyarə", دبابة [dəbbə: bətun] "tank", غواصة [ğavvə:satun] "sualtı qayıq" terminləri bu üsulla yaranmış sözlərdəndir.

Ərəb dilində qarşılığı olmayan hansısa termin və ya sözü ifadə etmək üçün xarici dillərdən alınan neologizmlərdən istifadə edilir. Ərəb leksikoqrafları, adətən, başqa dillərdən ərəb dilinin lüğət tərkibinə keçən sözləri iki qismə bölürlər: fonetik və qrammatik baxımdan

əsl ərəb sözlərinə uğunlaşdırılmış تعريب [təri:bun] “ərəbləşdirmə” və ya معرّب [muarrabun] “ərəbləşdirilmiş” neologizmlər; ərəb dilinin söz bazasına daxil olduğu halda, öz oirjinal formasını qoruyub saxlayan دخيل [dəxi:lun] qəbilindən olan neologizmlər. Daha əvvəl haqqında bəhs etdiyimiz ərəb terminologiyasının inkişaf mərhələlərindən də göründüyü kimi, bu üsuldan qədim dövrdən etibarən tərcümə vasitəsilə istifadə edilmişdir. Klassik dövrdə yazılmış elmi əsərlərdə ərəbləşdirimiş sözlərdən çox istifadə olunmuşdur. Məsələn: بنفسج [bə-nəfsəc] “bənovşə”, بستان [bustə:n] “bostan”, صراط [sıra:t] “yol”, أساطير [əsə:ti:r] “əfsanələr”, زنبيل [zənbi:l] “zənbil” və s. sözlər ərəbləşmiş kəlmələrdir. Bəzi dilçilərə görə, klassik ərəb dilində 2515 bu qəbildən söz işlənmişdir. Şübhəsiz ki, müasir dövrdə də elm və texnologiyanın sürətlə inkişafı və yeni sözlərin yaranması nəticəsində ərəb dilinin lüğət tərkibinin də yeni sözlərlə zənginləşməsi prosesi davam edir. Bundan dolayı, hal-hazırda ərəb dilində ərəbləşdırılmə yolu ilə alınan sözlərin sayının 8 mindən çox olduğu güman edilir. Həmçinin başqa dillərdən fərqli olaraq, yeni kəlmələr daha çox forma cəhətdən dəyişdirilərək dilin lüğət tərkibinə daxil edilir. Başqa dillərdən tərcümə edilərək kalka yolu ilə alınan مولد [muvallid] “generator”, محول [muhavvil] “transformator”, منظم [munazzım] “tənzimləyici”, جندرمة [cəndərmətun] “jandarmeriya”, فاتورة [fə:tu:ratun] “faktura” qəbildən terminlərdə olduğu kimi, mövcud prosesdə ərəb dilinin orijinallığının qorunub saxlanılmasına xüsusi diqqət yetirilir. Kalka üsulundan istifadə zamanı sözün forması və səslənməsi deyil, onun ifadə etdiyi məna əsas götürülür. Məsələn; مكنسة كهربائية [miknəsətun kəhrabə:iyyə-tun] “tozsoran”, غسّالة الصحون [ğassə:lətus suhu:n] “qabyuyan maşın”, مسجّل صوت [musəccilu sauvtin] “maqnitofon” və s.

دخيل [dəxi:lun] qəbilindən olan neologizmlərə gəincə, qeyd etmək lazımdır ki, adətən dilin söz ehtiyatının yetərli olmaması və ya mövcud terminlərin yeni məfhumu tam ifadə edə bilməməsi halında başqa dillərdən sözün alınması zərurəti hasil olur. Dilin mövcud lüğət tərkibi əsasında yeni termin düzəltmək çətin olduğu və xarici dillərdən alınan terminlərin isə kalka yolu ilə tərcümə olunaraq alınan terminlərə nisbətən daha yığcam və praktik olduğu, yalnız bir məfhumu ifadə etdiyi və mütəxəssislər tərəfindən asan anlaşıldığı üçün alınma terminlərə üstünlük verilir. Ədəbi dildə olmadığını əsas gətirən mühafizəkar dilçilər alınma sözlərdən istifadə etmək yerinə dilin daxili imkanlarından bəhrələnməyə tərəfdar çıxırlar. Bu səbəbdən, bir çox alınma sözlərin milli variantının elmi dövriyyəyə daxil edilməsinə çalışırlar. Məsələn,

avtobus terminin ekvivalenti olaraq الأتوبيس [əl-utu:bi:s] “avtobus”, الباسبور [əl-bə:sbu:r] “pasport”, التلغراف [ət-tiliğra:f] “teleqram”, الاتيكيت [əl-iti:kit] “etiket” yerinə müvafiq olaraq الحافلة [əl-ha:filətu], جواز السفر [cəva:z əs-səfəri], االبرقية [əl-bərqiyyə] “teleqram” آداب السلوك [ədə:bus-suluki] və s.

Nəhayət, ərəb dilçiliyində klassik və müasir dilin ehtiyac duyduğu zaman gerçəkləşən filoloji hadisələrdən biri də النحت “yeni söz düzəltmə“ adlanan üsuldur. Nəht üsulu iki və daha çox isim və yaxud feildən, kəlmədən, yaxud bütöv bir cümlədən hərflərin götürülməsi vasitəsilə meydana gəlir. Bu üsulla düzələn söz isim olduğu təqdirdə onun ərəb dilindəki modellərə uyğun gəlməsi vacibdir. Feil olduğu təqdirdə də فَعْلَلَ [fələlə] və ya تَفَعْلَلَ [təfələlə] modelində olması tələb olunur. Nəhtin klassik örnəklərində daha çox feil kimi işlənən dini mahiyyət kəsb edən ifadələrə rast gəlinir. Misal üçün, بسم الله، سبحان الله demək əvəzinə, bu iki ifadə qısaldılaraq وسبحل بسمل şəklində deyilir.

Ərəb dilinin termin yaradıcılığında geniş imkanlara malik olduğunu qeyd etməklə yanaşı, bir sıra problemlərin də mövcudluğunu etiraf etmək lazımdır. Bu problemlər, əsasən, sinonimiya, omonimiya və “texniki dialekt”lərin mövcud olması ilə bağlıdır. Burada bəzi ərəb liderlərinin ölkəsinin müasir dialektini klassik ərəb dili və ədəbi dil səviyyəsinə yüksəltmək arzularının rolu vardır. Ümumişlək sözlərdən fərqli olaraq terminin birmənalılığa meyl göstərməsinin əsas olduğunu nəzərə alsaq, qeyd etdiyimiz amillərin olması məqbul sayılmır. Həmçinin ədəbi dildə fərqli dubletlərin işlənməsi şifahi nitqin məzmununa, yazının üslubiyyətinə rəngarənglik əlavə edirsə, terminologiyda dubletlər yalnız eyni məfhumun müxtəlif adlarıdır. Terminologiya sahəsində dubletlərin olması standartlaşma prosesinin başa çatmadığını, termin sisteminin təkmilləşmədiyini göstərir. Dildə müəyyən anlayışı eynilə bildirən termin olduğu halda, xarici dildən həmin anlayışla mütləq eyniyyət təşkil edən başqa bir sözün alınması və paralel şəkildə işlənməsi mənfi hal hesab edilir. Təəssüf ki, ərəb termin sistemində də bənzər problemlər mövcuddur və bəzi hallarda شُرْطَةٌ - بُولِيسٌ “polis”, مَصْرَفٌ- بَنْكٌ “bank” , اَلَةٌ - مَاكِنَةٌ “maşın” və ya بِجَامَة - مَنَامَة “pijama” qəbilindən nümunələrdə olduğu kimi, əslində bir-birinin dubleti olan eyni termin uzun müddət paralel şəkildə istifadə olunur. Həmçinin Misir dialektində olduğu kimi “çörək” sözünün qarşılığı olaraq həm dialekt عيش [‘ayş], həm də ədəbi dildəki خبز [xubz] terminləri paralel işlədilir. Eyni zamanda bir sıra hallarda mənbə dillərdə eyni mənaya gələn müxtəlif terminlər ərəb ölkələrində də fərqli şəkildə işlədilir. Məsələn,

mənbə dillərdə eyni mənanı ifadə edən ingilis dilindən keçmiş “nitrogen” termini ərəb Məşriqində نيتروجين, fransız dilindən daxil olmuş “azot” Məğrib ölkələrində ازوت şəklində istifadə olunur, yaxud bank termini olan “əmanət” sözünün qarşılığı olaraq Tunisdə ادخار [idxa:r] işləndiyi halda, qonşu Mərakeşdə eyni termin توفير [taufi:r] variantında işlədilir. İnformatika sahəsinə aid müasir terminlərdən xaker sözü Misirdə مخترق [muxtariq], Səudiyyə Ərəbistanında متسلل [mutəsəllil], هاوي الكمبيوتر [hə:vil-kumbiyutur] şəklində istifadə olunur. Həmçinin ümumişlək “rəqqas” sözünün çap edilmiş kitablarda verilmiş ədəbi dildəki qarşılığının Misirdə بندول [bəndu:l], Suriyada نواس [nəvva:s], İordaniyada رقاص [raqqa:ṣ], Livanda خطار [xaṭṭa:r] variantları şəklində işlədilməsi də arzuolunmaz haldır (Məlikov 2016, 199). Düzdür, “professor”, “katib” sözlərinin ekvivalenti olaraq ərəblər üçün أَسْتَاذٌ , ərəb təşkilatı üçün أَمِينٌ əcnəbilər üçün müvafiq şəkildə بُرُوفِيسُورٌ , xarici və ya beynəlxalq təşkilatlar üçün سِكْرِتِيرٌ variantından istifadə etməklə paralel terminlər arasında müəyyən fərq qoylmasına təsadüf olunur. Bu qəbildən hallar istisna təşkil edir və ərəb dili üçün səciyyəvi olan “texniki dialekt”, sinonim məsələsi problem olaraq qalır. Bundan başqa, klassik ərəb irsinə məxsus terminin müasir məfhumlara şamil edilməsi, xarici mənşəli xüsusi isimlərin, toponimlərin, milli mənsubiyyət bildirən terminlərin ərəb dilində ifadə edilməsində də fərqliliklərə yol verilir. Məsələn, “Azərbaycan dili” ifadəsi اللغة الأذربيجانية [əl-Luğatul-Əzərbəycə:niyyətu] ilə paralel şəkildə اللغة الأذرية [əl-Luğatul-Əzəriyyətu] variantı da işlədilir.

Gətirdiyimiz misallar, ilk növbədə, ərəb coğrafiyasını təmsil edən terminoloqlar arasında əlaqənin zəif olduğuna, həmçinin termin yaradıcılığı prosesində qəbul olunmuş terminlərin ictimaiyyətə çatdırılmasında müəyyən problemlərin olduğuna dəlalət edir.

Nəticə

Dünyanın qədim və söz ehtiyatı baxımından ən zəngin dillərindən sayılan ərəb dili yüzillərboyu inkişaf etmiş, termin yaradıcılığı prosesində başqa dillər üçün mənbə rolunu oynamaqla bərabər, həm də elmi-texniki terminlər başda olmaqla alınma sözlər hesabına daim zənginləşmişdir. Bu səbəbdən, qədim mədəniyyətlərdən tərcümə vasitəsilə aldığı terminləri Avropa dillərinə ötürmüş ərəb dilinin termin yaradıcılığı kifayət qədər məhsuldar olmuşdur. Xüsusilə Abbasilər xilafəti və Əndəlus Əməvi Dövləti dövründə ərəb dili tərcümə prosesində tarixi rol oynamaqla Avropa intibahı üçün münbit şərait hazırla-

mışdır. Tarixin müxtəlif dövrlərində enişli-çıxışlı yollardan keçməsinə baxmayaraq, milli termin yaradıcılığında ilk növbədə dilin daxili imkanlarına müraciət etməklə müstəqilliyini və dözümlülüyünü qoruyub saxlaya bilmişdir.

Ərəb terminologiyasının qloballaşma prosesi ilə eyni dövrə təsadüf edən sonuncu inkişaf mərhələsində də termin yaradıcılığına ilk növbədə dilin öz daxili imkanlarına üstünlük verilir, zəruri hallarda isə əsasən beynəlxalq terminlər daxil olmaqla başqa dillərdən söz alaraq inkişaf edir. Ərəb dilinin müasir dövr termin yaradıcılığında alınma sözlər arasında bir qayda olaraq informatika, kommunikasiya texnologiyaları, nanotexnologiya kimi yeni sahələrə aid terminlər çoxluq təşkil edir. Təbii ki, bu da qəbul edilmiş terminlərin imkan daxilində ərəbləşdirilməsi, standartlaşdırılması və təkmilləşdirilməsi, "texniki dialekt"lərin, sinonimiyanın aradan qaldırılması məqsədilə gərgin iş aparılmasını tələb edir.Termin yaradıcılığı ilə məşğul olan müəssisə və mütəxəssislər xüsusi leksikanın tənzimlənməsi prosesində sadəcə milli termin sisteminin təkmilləşdirilməsi ilə deyil, həmçinin terminologiyanın semantik, quruluş və funksional təhlili istiqamətində zəruri araşdırmalar aparırlar.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Babaşlı Məmmədəli. (2019). Qloballaşan dünyada ərəb dilinin artan rolu və potensial imkanları. Azərbaycan İlahiyyat İnstitutunun 18 dekabr – Beynəlxalq Ərəb Dili Günü münasibətilə təşkil etdiyi "Azərbaycanda ərəb dilinin tədrisi sahəsində mövcud vəziyyətvə perspektivlər" mövzusunda konfransın materialları. Bakı: Mütərcim. (s.57 -71).

2. Ərəbcə-Azərbaycanca lüğət. İki cilddə (2007-2008), Tərtib edən Əliyev Rafiq, Bakı: Şərq-Qərb.

3. Qasımov Məmməd. (1973). Azərbaycan dili terminologiyasının əsasları. Bakı: "Elm" nəşriyyatı.

4. Qasımov Məmməd. (1987). "Termin" və "terminologiya" anlayışları barədə. Terminologiya məsələləri. Bakı: "Elm" nəşriyyatı. (s. 5-11).

5. Eyvazova Könül. (2015). Ərəb dili terminologiyası sahəsində tədqiqat aparan elmi müəssisələrin fəaliyyəti haqqında. Bakı Dövlət

Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi, № 23, İyun (Haziran), (s.385-392).

6. Məlikov Tərlan. (2013). Ədəbi dilin lüğət tərkibinin neologizmlər hesabına zənginləşməsi. Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi, №20, Dekabr (Aralık), (s.123-129).

7. Məlikov Tərlan. (2016). Ərəb dilində söz və söz birləşmələrindən ibarət neologizmlərin meydana gəlməsi. Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi, № 26, Dekabr (Aralık). (s.199-205).

8. Səlimov Cəfər. (1982). Müasir Azərbaycan dili. II hissə. Leksika., Bakı: "Maarif" nəşriyyatı.

9. Tağıyev Valeh. (1969). Ərəb dilində texniki terminlər və onların yaranmasının bəzi xüsusiyyətləri. Azərbaycan Dövlət Universiteti "Elmi əsərlər", Şərqşünaslıq seriyası, № 1, (s.57-61).

10. Xəlilova Təranə. (2017). Terminologiya və terminoloji leksika. Bakı Slavyan Universiteti Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Ali məktəblərarası elmi məqalələr məcmuəsi, 3/2017, (s.47-50).

11. Yeni sözlər və yeni mənalar lüğəti. (2016). AMEA Nəsimi adına Dilçilik İnstitutu, Bakı.

Türk dilində

1. Aytaç, Bedrettin. (1994). Arap Lehçelerindeki Türkçe Kelimeler, Türk Dünyası Araştırmaları Vakfı Yayın-ları, İstanbul.

2. Dağbaşı, Gürkan. (2013). Abbasi Dönemi Çeviri Faaliyetleri. DergiPark, Eskiyeni 27/Güz (s.178-187).

3. Daşkıran,Yaşar (2014). Dinbilimleri Akademik Araştırma Dergisi. Cilt 14, Sayı 1, (s. 191 -214).

4. TDV İslam Ansiklopedisi. (2011). Kavalalı Mehmed Ali Paşa.25. Cilt. Ankara. (s. 62-65).

5. TDV İslam Ansiklopedisi. (2011). Tercüme Hareketleri, 40. Cilt, Ankara. (s.498-504).

6. Gedik Sadi, Al BerroShaze. (2016).Türkçe-Arapça Dil İlişkileri Bağlamında Muhammed Hayruddin El-Esedi'nin Halep Ansiklopedisi Üzerine Bir Değerlendirme. International Journal of Languages' Education and Teaching, Year 4, Issue 2, August, (p. 314-328).

7. Ulukütük, Mehmet. (2010). İslam Düşüncesinde Tercüme Faaliyetleri: Hermeneutik ve Bibliyografik Bir Katkı. İ.Ü. İlahiyat Fakültesi Dergisi Güz 2010/ 1(2), (s. 249-288).

Rus dilində

1. Белкин В.М. (1975). Арабская лексикология. Издательство Московского университета. Москва.
2. Гилева Е.С. (4/2015). К вопросу заимствованийв современном арабском литературном языке экономи-ческой сферы. Журнал «Преподаватель XX век», (с.341-352).
3. Мустафаева А.А. (2011). Современная арабская терминология: формирование и проблемыперевода (на материале терминологии информатики). Диссертация на соискание ученой степени доктора фило-софии (Ph.D.) по специальности – Востоковедение. Алматы.
4. Надирова Г.Е., Алибаева Ж. (2012). Арабская научная терминология: проблема перевода. Вестник КазНУ им. аль-Фараби. Серия востоковедения. №2 (59), (с.141- 144).
5. Эль сабрути Р.Р. (2016). К вопросу о функционировании современной арабской терминологии. Язык и культура. № 3(35), (с.105-116).

Ərəb dilində

1. أبو بكر محمد بن الحسن بن دريد، الاشتقاق، بيروت، 1991
2. الأستاذ الدكتورعبدالقادرعابد. دورمجامع اللغة العربية في تعريب المصطلحات العلمية ص. 173-207.
3. محمد حسن حسن جبل، علم الاشتقاق نظريا وتطبيقيا، القاهرة، مكتبة الآداب للطباعة والنشر، 2006
4. المنظمة العربية للتربية والثقافة والعلوم مكتب تنسيق التعريب. دليل مكتب تنسيق التعريب - بنك المصطلحات العربية الموحدة. 2016
5. د. يوسف عبدالله الجوارنة. أزمة تَوحيد المصطلحات العلمية العربية. مجلة الجامعة الإسلامية للبحوث الإنسانية، المجلد الحادي والعشرون، العدد الثاني، ص 1– ص 27 يونيو2013

Elektron resusrslar

1. www.arabization.org.ma
2. http://e-arabization.com/ar

д-р филос. по теол., доц. Мамедали Бабашлы

ЭТАПЫ РАЗВИТИЯ И ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ТЕРМИНОТВОРЧЕСТВА В АРАБСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Безусловно, терминология считается наиболее динамичной частью лексического состава языка. Именно появление новых терминов способствует обогащению и развитию языка. Поэтому одной из основных задач лингвистики является изучение терминологии с точки зрения теоретических и практических аспектов. Исследования в области терминотворчества, как правило, носят исторический характер и выявляют характерные черты национальной терминологии. Научно-технический прогресс задает масштабы информативности терминологической лексики современного литературного языка. Он, как правило, сопровождается возникновением специальных слов для обозначения новых объектов и явлений.

Статья рассматривает историю развития арабской терминологии, а также характерные особенности терминотворчества в арабском языке. Отмечается, что с момента возникновения, арабский литературный язык непрерывно развивался за счет иностранных лексем. В частности, к анализу привлекаются специфические особенности и методы совершенствования арабской терминологической системы. Подчеркивается, что лексика арабской терминологии неизменно развивается и обогащается за счет новых терминологических единиц. Данный процесс охватывает большинство сфер человеческой деятельности, а в наши дни все более ярко проявляется в области науки, информатики, новых технологий и коммуникаций. Статья также уделяет внимание причинам синонимии в арабской терминологии и необходимости выбора наиболее подходящего варианта из имеющегося ряда синонимов.

Ключевые слова: *арабский язык, словарный состав, заимствованные слова, термин, терминология, научно-технические термины.*

Assoc. Prof. Mammadali Babashli

STAGES OF DEVELOPMENT AND CHARACTERISTIC FEATURES OF CREATION OF TERMS IN ARABIC LANGUAGE

ABSTRACT

Undoubtedly, terminology is considered the most dynamic part of the lexical composition of the language. It is because of the emergence of new terms a language is enriched and developed. Therefore, the study of terminology in terms of theoretical and practical aspects is one of the main tasks of linguistics. Research in the field of term creation usually has historical significance and reveals the specific features of national terminology. The rapid development of scientific and technological progress predetermines the amount of information content of the terminological vocabulary of the modern literary language. Scientific and technological progress is usually accompanied by the appearance of special words to designate new objects and manifestations.

The article discusses the history of the development of Arabic terminology, as well as the specific features of the creation of terms in the Arabic language. It is noted that since its existence, the Arabic literary language has been constantly developing due to foreign lexemes. In particular, the author analyzes the features and methods of improving the system of Arabic terminology. It is emphasized that the vocabulary of Arabic terminology is constantly evolving and supplemented with new terminological units. This process covers most areas of human activity, and today it is more pronounced in science, computer science, new technologies and communications. The article also drew attention to the reasons for synonymy in Arabic terminology and the need to select the most appropriate option from the list of existing synonyms.

Keywords: *Arabic language, vocabulary, loan words, term, terminology, scientific and technical terms*

ƏRƏB ƏLİFBASI FARS DİLİNDƏ – ÜSTÜNLÜKLƏRİ VƏ ÇƏTİNLİKLƏRİ

fil.f.d., dos. Əsmətxanım Məmmədova,
Bakı Dövlət Universiteti
kamillik@mail.ru

XÜLASƏ

Ərəb əlifbasında bir qayda olaraq, qısa saitlərin yazılmaması, bir hərfin bir neçə səs verməsi saysız-hesabsız omoqrafları; bir neçə hərfin eyni səs verməsi, sözlərin müxtəlif yazılıb, eyni şəkildə tələffüz edilməsi isə külli miqdar omofonları yaradır. Araşdırmalar göstərir ki, fonetik prinsiplərə əsaslanan əlifbaya malik dillərin lüğət tərkibində omofonlar ya yoxdur, yaxud da çox azdır. Fars dilinin istifadə etdiyi qeyri-fonetik əsaslı ərəb qrafikasının xüsusiyyətlərindən asılı olaraq bu dil omofonlarla zəngindir.

Tədqiqat işində qısa şəkildə fars dilindəki omoqraflar, onların yaranma səbəblərindən bəhs edilmiş və nümunələr verilmişdir. Eləcə də fars dilçiliyində yeni mövzu olan omofonlar da 8 qrupda birləşdirilib izah olunmuşdur.

Açar sözlər: *ərəb dili, fars dili, əlifba, qısa saitlər, omoqraflar, omofonlar.*

Giriş

İnsanlar arasında vacib ünsiyyət vasitəsi olan dilin öz funksiyasını, kommunikativ rolunu hər şeydən əvvəl, danışıq səsləri vasitəsilə icra etdiyi, artıq hamı tərəfindən qəbul edilmişdir. Yalnız bu faktın özü dilin varlığı və fəaliyyət göstərməsi üçün səslənmənin, fonemlərin, dillərin fonetik quruluşunun, səsli dilin nə qədər böyük əhəmiyyət daşıdığının bariz sübut və göstəricisidir. "Farsların tarix boyu istifadə etdikləri (mixi, pəhləvi, ərəb) əlifbalar uzun, mərhələli inkişaf yolu keçmişdir. Həmin yolu tarixi aspektdən dilçilik kontekstində araşdırmaq, onun ümumi cəhətlərini müəyyənləşdirmək və bu əlifbalar arasında oxşar və fərqli cəhətləri tapmaq iranşünaslığın aktual məsələlərindən biridir. Eyni zamanda, bu əlifbaların konsonant və vokalizm sistemini müəyyən etmək tədqiqat baxımından daha önəmlidir. Fars dilinin fonetik quruluşu ümumilikdə böyük tarixi təkamül prosesi və

mürəkkəb inkişaf yolu keçmiş, müxtəlif mərhələlərdə bir-birini əvəz edən bu prosesin məntiqi sonluğu olaraq bugünki fars dilinin fonetik sisteminin yaranması ilə nəticələnmişdir" (9, s.225).

Göstərilən tarixi inkişaf dövrlərində fars dili müxtəlif dəyişikliyə uğramış, diqqətlə araşdırılarsa hər mərhələnin özünə məxsus ciddi fərqlərə malik olduğu aşkarlanar. Həmin fərqlər dilin bütün səviyyələrində istər fonetik, istər qrammatik, istərsə də leksik quruluş baxımından özünü göstərir. Belə ki, Qədim və Orta əsrlər fars dilləri dəyişkən, mürəkkəbquruluşlu fonem sistemlərinin mövcudluğu ilə xarakterizə olunsalar da, müasir mərhələdə milli, müasir fars ədəbi dilinin yaranması və onun fonem tərkibinin sabitləşməsi və formalaşmasına müəyyən töfhələr bəxş etmişlər.

Fars dilinin tarixi inkişaf mərhələləri
öz dil xüsusiyyətlərinə görə üç dövrə bölünür:

1. Qədim İran dilləri dövrü (e. ə. II minilliyin başlanğıcı – e. ə. IV–III) Əhəmənilərin hakimiyyəti dövründə (e. ə. 550-330) bütün ərazilərdə yayılmış mixi yazı və əlifbanı qəbul edilərək, oraya az da olsa fonetik prinsiplər əlavə edildi. "Sonralar mixi əlifba və yazının çətinliyi və mürəkkəbliyinin bu yazını, dili süquta uğratdığının mənbələr üzərindən şahidi oluruq" (9, 227).

2. Orta əsrlər İran dilləri dövrü (e .ə. IV–III, eranın VIII–IX əsrləri). Sasanilərin hökmranlığı dövründə (226-651) İranda Pəhləvi əlifbasından istifadə olunurdu. VII əsrdə ərəblərin ətraf torpaqları, o cümlədən İranı istila etməsi ilə Orta fars dili, eləcə də Pəhləvi əlifbası həyat səhnəsini tərk etməyə məcbur oldu. "Ancaq qeyd edilməlidir ki, Pəhləvi əlifbası, Orta fars dili hələ iki əsr qarşılıqlı mübarizəni davam etdirdi" (8, 10).

3. Yeni İran dilləri dövrü (IX–X əsrlərdən başlamış, müasir dövrümüzə qədər). Beləliklə, qısa zamanda Pəhləvi əlifbası ərəb əlifbası ilə əvəzləndi. Sasani imperiyasının aradan getməsi ilə əlaqədar, dediyimiz kimi, iki yüz il ərzində İranda ərəb əlifbası əsasında yeni fars əlifbası yarandı.

Ərəb əlifbası finikiyalıların hərfləri əsasında formalaşan arami əlifbasından əmələ gəlmişdir. Beləliklə, dediyimiz kimi, İranda VII–IX əsrlər arasında ərəb əlifbasına bəzi əlavələrlə yeni fars əlifbası formalaşdı. 28 hərfdən ibarət olab ərəb dilindən alınmış əlifbaya farslar öz fönetik dil xüsusiyyətlərinə uyğun, ərəb dilində olmayan 4 hərfi پ /p/; چ /ç/; ژ /j/; /g/گ - ni əlavə etdilər. Bundan əlavə, Orta fars dilində

olan /xv/, /xve/,/xvə/ səsini ifadə etmək üçün ərəb dilində müvafiq bir hərf olmadığından bu səsi ifadə etmək üçün iki hərfin kombinasiyasından istifadə edərək, mövcud خ hərfinə oxunmayan وəlavə edərək خو bir diqraf şəklində واو معدوله (vav-e mə`dule) "yüklənmiş vav" şəklində ifadə etməyə məcbur oldular.

Farsların istifadə etdikləri ərəb əlifbasının üstünlükləri:

1. Orta fars dili və 5 variantda işlədilən Pəhləvi dili və yazısı həm çətin, həm də leksik tutum baxımından çox az söz fonduna malik idi. Bildiyimiz kimi, Ərəb dili isə əksinə, dünyanın ən zəngin lrksik fonduna malik dillərindən biri idi.

2. Ərəb dili ərəblərin geniş istilasından sonra qonşu ölkələrin (yunan, hind, İran) dillərindən edilmiş tərcümələr nəticəsində, eləcə də rəsmi dövlət dili olduğundan inkişaf etmiş dil idi.

3. Orta fars dili, artıq kahinlərin, az bir təbəqənin dili olduğu halda, ərəb dili get-gedə dini məktəblərin, mədrəsələrin fəaliyyəti nəticəsində "fars dilindən, (orta fars dili nəzərdə tutulur. -Ə.M.) daha çox işlənir və yayılırdı" (4, 97).

4. Ərəb xilafəti hökmranlığının bərqərar olduğu ölkələrin hamısında ərəb dili elmi, ədəbi dil statusu almışdı.

5. İslam dinini qəbul etmiş xalqlar ərəb əlifbasını, ərəb dilini, həm də İslamın Müqəddəs Kitabı Qurani-Kərimi və dini elmləri bilmək üçün də həvəslə öyrənirdilər.

6. Ərəb dilinin özündən daha çox yayılmış ərəb əlifbası əsrlər boyu başqa müsəlman ölkələrində olduğu kimi, İranda da əsas yazı sistemi olmuş, dünyaşöhrətli dühalar əz əsərlərini bu əlifba ilə yazmışlar.

7. Ərəb hərfləri "hüsni-xətt" altında verilən xətt nümunələri – nəstəliq, nəsx; şikəstə nəstəliq, reyhani, kufi xətt kimi sənət inciləri nümunələri ilə yazıla bilmək imkanı yaradır.

8. Latın və kiril əlifbası ilə yazılan, təxminən, ikisəhifəlik yazını ərəb əlifbası ilə bir səhifəyə, bəzən ondan da az səhifəyə yerləşdirmək mümkündür.

Farsların istifadə etdikləri ərəb əlifbasının çətinlikləri

Bu gün farsların istifadə etdikləri ərəb əlifbası hərflərinin heç də hamısı onların tələffüzünə uyğun deyil. Bir çox qrafik formaların ərəb dilindəki tələffüzü ilə bu dilin tələffüzü, səslənməsi arasında böyük fərq mövcuddur. Əslində, ərəb əlifbasından alınmış bir çox hərf oldu-

ğu kimi deyil, fars dil daşıyıcılarının öz artikulyasiya məxrəclərinə uyğun şəkildə tələffüz olunur ki, bu da təbii dil qanunlarından biridir. Farsların istifadə etdikləri hal-hazırkı əlifba ərəb qrafikasına əsaslanır. Bu əlifba isə qeyri-fonetik olduğundan, yazı ilə səslənmə, tələffüz arasında çox böyük fərqlər meydana gəlir. Fikirlərimizi təsdiqləmək üçün bu əlifbanın çatışmazlıqlarından bir neçəsini sərgiləyən nümunələrə nəzər salaq:

1. Bir qayda olaraq əlifbanın qısa sait səsləri /ə/, /e/, /o/ yazıda qeyd edilmir. Əlifbanın bu xüsusiyyəti külli miqdar omoqrafların formalaşmasına şərait yaradır.

2. Bir qrafik nümunə bir neçə səsi, fonemi ifadə edə bilir. Məsələn: و hərfi - /v/,/u/,/o/,/ou/ səslərini; ی hərfi - /i/, /y/, /a/ fonemlərini; ه qrafik nümunəsi: - /h/, /e/ səslərini; ء ٔ "həmze" və ع "əyn" qrafemləri - /ə/,/e/,/o/,/a/,/'/ fonemlərini ifadə edir. Göründüyü kimi bir qrafik nümunənin müxtəlif şəkildə tələffüz edilməsi yenə də çeşidli omoqrafların (eyni cür yazılıb, müxtəlif şəkildə oxunan leksemlər) meydana gəlməsinə rəvac verir.

3. Bir səs bir neçə qrafik nümunə ilə göstərilir. Məsələn: /z/ səsi ذ، ض، ز، ظ- hərflərini; /s/ - ث ، س ص،; / t/- ت ط ، ; / h/- ه، ح; /x/- خ ، خو; q//ğ fonem variantları isə غ//قhərflərini bildirir. Beləliklə, fars dilində saysız-hesabsız omofonların (qrafika, yazıya görə müxtəlif; səslənməyə, tələffüzə görə eyni olan leksemlər) əmələ gəlməsinə səbəb olur (3, 221;14, 33).

4. Söz daxilində qoşa samitləri göstərən ـّ "təşdid" yazıda adətən göstərilmir. Əlifbanın bu xüsusiyyəti də külli miqdar omoqrafların yaranması ilə nəticələnir.

5. Ərəb dilindən alınmış və fars dilin də işlədilən ərəb zərflərinin üzərindəki "tənvin" işarəsi adətən yazılmır.

6. Yazı sistemində böyük və kiçik hərflər bir-birindən fərqləndirilmir (istər xüsusi adlar, istərsə də cümlənin başlanğıcı olsun) kiçik hərflər yazılır.

7. Müəyyən bir qrafik nümunə üzərində qoyulmuş nöqtə hərf mənası daşıyır. Yerinin dəyişdiril məsi, yaxud lazımı yerdə hərfin üzərində qoyulmaması böyük nöqsanlara səbəb olur və təhrifə, yanlış anlaşılmaya yol açır.

8. Sözlər arasında çox vaxt lazımı məsafə və fasilə gözlənilmir. (Bu zaman iki sadə sözün mürəkkəb, və əksinə mürəkkəb sözlərin sadə söz, yaxud tərkib kimi oxunmasına, oxunulanın çətin dərk edilməsinə şərait yaradılır.

9. Fars dilində əlifbanın xüsusiyyətindən irəli gələn külli miqdarda omoqraf, omofon, kvaziomonimlərin mənası yalnız kontekst daxilində məlum olur.

Sadaladığımız faktlardan da göründüyü kimi, bu qrafikanın çeşid-çeşid çətinlikləri, çatışmazlıqları orfoqrafiya, orfoepiyanın dəqiqləşdirilməsi fars dili alimləri və mütəxəssisləri qarşısında həllini gözləyən vacib, prioritet problem kimi daim aktuallıq kəsb etməkdədir.

XVIII–XIX əsrlərdən başlayaraq fars dilinin ölkə xaricində tədrisinə, öyrənilməsinə maraq artdıqca, həm ölkə daxilində, həm də ölkə hüdudlarından kənarda olan mütəxəssislər arasında zaman-zaman bu məsələləri araşdırmaq, şərh etmək cəhdləri olsa da, təəssüflə deməliyik ki, bu məsələlərdə ardıcıllıq, sistemlilik və konseptuallıq prinsipi gözlənilməmiş, nəticə etibarilə məsələlər daha da qarışdırılmış, birbirinə zidd, əks olan fikirlər, baxışlar meydana gəlmişdir.

Böyük alim Mustafa Müğərrəbinin "Soxən" jurnalında fars dilinin düzgün yazı qaydaları haqqında çap etdirdiyi silsilə məqalələri bu məsələlərin nə qədər vacib olduğuna diqqət çəkmək baxımından böyük əhəmiyyət kəsb edir. Ərəb əlifbasının fars dili üçün yararsızlığı və bu dil üçün yaratdığı çətinliklərin qabardılması M. Müğərrəbinin elmi araşdırmalarının aktuallığını şərtləndirən başlıca amillərdir. [2]

Fars ədəbiyyatı, tarixi, məxəzşünaslıq, mənbəşünaslıq və dilçilik elminin əvəzedilməz bilicisi, ensiklopedik biliyə malik mərhum ustad Səid Nəfisinin təşəbbüsü və iştirakı ilə XX əsrin 50-60-cı illərində Tehran radiosunda dil və ədəbiyyata aid silsilə verilişlər təşkil olunurdu. Ustad Səid Nəfisi bu verilişlərdə fars dilinin xalqı maraqlandıran düzgün yazılış, tələffüz qaydaları, inşa, imla məsələləri, klassiklərin bəzi açılışı və şərhi çətin olan beytlərinin aydınlaşdırılması barəsində verilmiş sualları şərh və izah edirdi. Öz zəmanəsində alimin bu çıxışları xeyli dinləyicini özünə cəlb etmiş və kütlənin böyük marağına səbəb olmuşdu. Bu radıo verilişlərindən çox sonralar həmin silsilə verilişlərin dinləyicilərinin saysız-hesabsız xahişləri, məktubları əsasında müsahibələr, sual-cavablar "Dər məktəbe ostad" –"Ustadın məktəbində" adlı kitab şəklində toplanaraq çap olundu (12). Qeyd olunan bu problematik məsələyə münasibətdə ustad alimin də mövqeyi M. Müğərrəbinin mövqeyi ilə üst-üstə düşür.

Buraya qədər deyilənlərdən aydın olduğu kimi, fars dilinin düzgün yazı və tələffüz qaydalarından bəhs edən, problemin çözülməsinə xidmət edən kitab və məqalələr yazılsa da, bu məsələ hələ də ciddi araşdırılmamış, bu sahədə son, həlledici söz deyilməmişdir. Əbülhə-

sən Nəcəfinin 1992 (1370)-ci ildə çap etdirdiyi "Səhv yazmayaq" adlı kitabını, eyni zamanda, həm də "Fars dilinin, çətinlikləri lüğəti" adlanmasının özü də maraq doğurur (11). Buradan görünür ki, fars dil daşıyıcıları olan alim və tədqiqatçıların özləri də ərəb qrafikasının yaratmış olduğu çətinlikləri, qarma-qarışıqlığı başa düşür və bundan çıxış yolu axtarırlar.

Ərəb qrafikasının fars dilində yaratdığı omoqraflar

Yunanca "homos" (oxşar, bərabər) və "grafa" (yazıram) sözlərinin birləşməsindən əmələ gələrək, "oxşar yazıram" deməkdir. Omoqraflar yazı, qrafik cəhətcə eyni, lakin tələffüzə görə müxtəlif olan söz və söz formalarına deyilir. Fonetik dillərdə (yəni, bütün səsləri həm sait, həm də samit səsləri yazılan, qrafikada əks olunan və tələffüz edilən dillərdə) omoqraflar yalnız vurğuya əsasən yaranır. Fars dilində omoqrafları yaradan bir çox xüsusuyyətlər mövcuddur.

Vurğuya görə yaranan omoqraflar rus dilində olduğu kimi, fars, Azərbaycan, ingilis və s. dillərdə də vardır. Azərbaycan dilindəki omoqraflar haqqında prof. Ə. Dəmirçizadə "Müasir Azərbaycan dili" kitabında yazır: "Bir çox hallarda şəkilçi qəbul edərək bəzi söz köklərinə omoqraf olmuş sözləri bir-birindən fərqləndirmək üçün Azərbaycan dilindəki vurğudan istifadə edilir: al`ın-`alın, gə`lin-`gəlin, sə`rin-`sərin, bi`çin-`biçin, bal`dır-`baldır, al`ma-`alma, və s." (2, 156).

Vurğuya görə fərqli tələffüzə malik omoqraflar fars dilində də mövcuddur. Belə ki, bu dildə omoqrafların bir qrupu vurğu əsasında, yəni vurğunun bu və ya başqa hecada tələffüz edilməsi ilə yaranır.

Fars dili söz vurğusunun omoqraf yaratmaq və fərqləndirmək xüsusiyyətindən bu sətirlərin müəllifi Ə.Məmmədova "Fars dilində vurğu" adlı kitabda ətraflı danışılmışdır. "Məlum olduğu kimi, fars dilinin iki, üç, dörd və çoxhecalı nominativ sözlərində vurğu, əsasən, son hecaya düşür. Bu sözlərə külli miqdar vurğulu-vurğusuz şəkilçi, önşəkilçi, hissəciklər əlavə etməklə vurğusu sonda olmayan söz formalar, leksemlər alınır ki, bir çox hallarda nominativ sözlərlə bu söz formalar, yaxud iki söz forması öz aralarında yazıda hərflərin düzülüş sırasına görə bir-biri ilə eyniyyət təşkil edir, tələffüzdə isə bunların leksik, qrammatik mənası vurğunun hansı hecada olması və tələffüz edilməsndan asılı olur. Beləliklə, onsuz da ərəb qrafikasının xüsusiyyətləri ilə bağlı saysız-hesabsız omoqraflarla zəngin olan fars dilində bunların bir qrupu da tələffüzdə söz vurğusunun dəyişkən

xüsusiyyəti ilə əlaqədar olur və vurğu bu tipli söz, söz formalarını fərqləndirməkdə yeganə və başlıca vasitə olur” (6, 96-110).

Fars dilində vurğuya görə yaranan omoqraflar

مدار ədar/ - orbita, mərkəz; mədar-götürmə, qaldırma; نخیز / nə-xiz/-pusqu; /nıxiz /- durma, qalxma;مفروش /məf`ruş/ - döşənmiş; /məf-ruş/ -satma; روزی /ruzi/- ruzi; qazanc; /ruzi/ - bir gün, bir dəfə; بپر /bepər/ - qanada; /bepər/ - uç, qanad aç ; سازش /sa`zeş/ - əlaqə, saziş; onun sazı; هستی /həs`ti/ - varlıq; /`həsti/ - varsan və s.

Yuxarıda dediyimiz kimi, vurğuya görə yaranan omoqraflar bir çox dillərdə mövcuddur. Məsələ ondadır ki, bu əlifba əsasında fars yazısında vurğu mənadəyişdirici funksiyaya malik olsa da, onu yazıda göstərmək mümküm deyildir.

2.1. Hərəkələrin yazılmamasından alınan omoqraflar:

2.1.1. İki cür oxunuşlu omoqraflar:

شش /şeş/ - altı; شش/şoş/ - ağ ciyər

کشتن /keştən/ - əkmək; کشتن /koştən/ - öldürmək

ارز/ərz/ - 1.düyü, 2.valyuta ; ارز /orz/ - sidr ağacı.

2.1.2. Üç cür oxunuşlu omoqraflar:

ارک/ərək/ - yelləncək; ارک/ork/ - orqan; ارک /ərk/ - kiçik qala

بدو/bədv/ - başlanğıc; بدو /bedou/ - qaça qaça; بدو /bedu/ - ona

ترک/tərək/ - çartlama, qırılma; ترک /tərk/ - tərk (tərk etmə); ترک /tork/ - türk və s.

2.1.3. Dörd cür oxunuşlu omoqraflar:

ارس/ərs/ - göz yaşı; ارس/əres/ - ardıc ; ارس/ors/ - dağ başında bitən ağac;

ارس/ərəs/ - Araz çayı və s.

سر/serr/ - sirr; سر/sor/ - sürüşmə, sürüşdürmə; سر /ser/ - his-siz; سر/sər/ - baş və s.

3.1. Bir hərfin bir neçə səsə malik olmasından yaranan omoqraflar:

3.1.1. و /vav/ hərfi 4 cür tələffüzə və 4 müxtəlif səsə malikdir:

- و = u - sözortası və sözsonunda uzun “u” səsi verir; məs.: دور / dur/ - uzaq; روز /ruz/ - gün

- و = o qısa “o” saiti kimi oxunur: تو /to/ - sən; دو /do/ - iki

- و = /v /“v” samiti kimi tələffüz edilir: وفا /vəfa/ - vəfa; وارد /vared/ - daxil olma

- و = /ou / diftonqunu ifadə edir: شور/şour/ - məsləhət; دو/dou/ - qaçış və s.

Beləliklə, fars dilində qrafikaya görə yaranmış külli miqdar omoqrafların, demək olar ki, beşdəbir hissəsi “vav” hərfinin hesabına düşür. Məs.: جو /cu/ - arx; جو /cəvv/ - atmosfer, fəza: جو /cou/ - arpa; صور/sur/ - buynuzdan qayrılmış musiqi aləti; صور /sovər/ - surətlər, şəkillər; صور /sour/ -qara çöhrə ağacı; صور/sor/ - mənasız; شکوه /şokuh/ - cah-cəlal ; شکوه /şekuh/ - qorxu; شکوه /şekve/ -şikayət və s.

3.1. “ی” hərfi də 3 müxtəlif səsə malikdir:

3.1.1. ی = i; sözortası və sözsonunda uzun /i/ verir: دیر /dir/ - gec; بینی /bini/ - burun; və s.

3.1.2. ی =/y/ - “y” samiti kimi tələffüz edilir :سیر /seyr/ - seyr, gəzmə; پایان/payan/ - son; دین /deyn/ - borc və s.

3.1.3. ی= /a/ /bəzi ərəb dilindən alınmış sözlərdə “a” səsi kimi tələffüz edilir.

Klassik qrammatikada bunaالف بی صوره "ی" /ələf bi surəti – ya” deyilir.

Məs.: مصطفی، موسی، عیسی ، سکنی، حتی، کبری və s. sözlərdə olduğu kimi.

“ی” hərfinin yaratdığı omoqraflara aid bir neçə misal göstərək:

بین /beyn/ - orta, ara; بین /bin/ - gör; سیر /seyr/ - gəzmə, seyr etmə; سیر /sir/ - tox, sarımsaq, tünd rəng; دین /deyn/ - borc ; دین /din/ - din, məzhəb; سیمین /simin/ - gümüşü; سیمین/seyyomin/ - üçüncüsü və s.

3.1.4. ه “ha-ye qeyr-e məlfuzun” iki cür səslənməsindən yaranan omoqraflar

Qrafikaya görə yaranan omoqrafların bir qrupunu da sözlərin sonunda /he/-nin, yəni “hay-e qeyre məlfuzun, bəzən “h” samitini, bəzən də “e” saitini verməsi yaradır: به /beh/ - yaxşı; heyva;

به /be/ - ən qoşma /-a, -ə, -ya, -yə/; شکوه /şokuh/ - cah-cəlal: شکوه /şekve/ - şikayət.

4.1. Təşdidin qrafikada yazılmamasından yaranan omoqraflar

Ərəb əlifbasının nöqsanlarından biri də qoşa samitin yazıda bir-birinin yanında göstərilməməsidir. Başqa fonetik dillərdən fərqli olaraq, ərəb və fars dillərində qoşa samitdən biri yazılır və bəzi hallarda onun üzərində təşdid işarəsi qoyulur. Dedik ki, bəzi hallarda təşdid işarəsi qoyulur. Qalan hallarda və adətən, təşdid işarəsi də digər işarələr kimi yazıda göstərilmir. Odur ki, qoşasamitli sözlərlə başqa hərflər və səslər baxımından birinciyə bərabər təksamitli səslər omoqraflar əmələ gətirir: خراج /xərac/ - xərac, bac; خراج xərrac/ - bədxərc; خیات/xeyat/ - iynəخیات /xeyyat/ - dərzi; خناق /xonaq/ - hənəq /boğaz xəstəliyi/; خناق/xənnaq/ - cəllad; سن/sen/ - səhnə; سن /senn/ - yaş və s.

Müasir fars dilində minlərlə omoqraf vardır. Bunların tədqiqi hər zaman fars dilçilərini maraqlandırmış, omoqraflar fars dilində tədrisi çətinləşdirən və həmişə gündəmdə olan leksik vahidlərdir.

Ərəb qrafikasının fars dilində yaratdığı omofonlar

Fonetik prinsiplərə əsaslanan əlifbaya malik dillərin lüğət tərkibində omofonlar, demək olar ki, az miqdardadır. Fars dilinin istifadə etdiyi qeyri- fonetik əsaslı ərəb qrafikasının xüsusiyyətlərindən asılı olaraq bu dil omofonlarla zəngindir.

“Omofonlar – yazılış və məna cəhətdən müxtəlif, tələffüz cəhətdən eyni olan müxtəlif morfoloji tərkibli sözlərdir. İngiliscə homophones, homomorphes; fransızca – homophones adlanır. Yunanca “homos” – oxşar və “fonem”- səs sözlərinin birləşməsindən əmələ gələrək, “oxşar səslənmə” mənasına gəlir.

Aşağıda verdiyimiz omofon yaradan hərflər ərəb dilində müxtəlif artikulyasiya məxrəcində tələffüz edildiyi halda, fars dilində hər bir qrupdakı hərflər eyni bir məxrəcdə tələffüz edilir. Dediyimiz kimi, bu hərflərin ərəb dilində olduğu kimi deyil, adi məxrəclə tələffüz edilməsi bir neçə hərfin bir yeganə səsə malik olmasına səbəb olur. Fars dilindəki omofonların çoxu məhz bu bir neçə hərfin verdikləri səslər nəticəsində yaranır.

Yazının düzgünlüyünə, mənanın çətin dərk edilməsinə şərait yaradan maraqlı cəhətlərə malik omofonlar məhz qrafika əsasında (yəni eyni bir səsin bir neçə şəkli əlaməti olması əsasında) yarananlardır.

1. /s/ səsi əsasında yaranan omofonlarص ، س ، ث = :/s/

Yuxarıda göstərilən sxemdəki ث və ص hərflərinin iştirak etdiyi sözlər yalnız ərəb dilindən alınmış sözlər olduğu halda, س hərfi ilə yazılanlar hər iki dilə məxsus ola bilər. H.Fərrux və M.Baharın verdikləri məlumata görə ث hərfi Avesta və Pəhləvi dillərində də mövcud olmuş, lakin sonralar unudulmuşdur. Müəllif bu haqda yazır: "İranlılar Pəhləvi, Avesta yazısı və dilinin tələffüzündə ث hərfinə və səsinə malik olmuşlar. Yeni fars dilində bu səs unudulmuş, sonrakı dövrlərdə bu səsin (hərfin) ərəb dilindən alınmış olduğunu təsəvvür etmişlər (4, 31).

Y. E. Bertels ث və ص hərfləri haqqında yazmış və göstərmişlər ki, bu hərflər ərəb dilinə məxsusdur. Həmin dildə bunların xüsusi tələffüz məxrəci vardır. Məsələn, ث hərfinin verdiyi səs ingilisiz dilindəki *thank* sözündəki "th" hərfinin verdiyi səsə uyğun gəlir. ص Hərfi isə rus dilindəki "сыр" /pendir/ sözündəki "s" səsinə müvafiqdir. Fars dilində işlənən bu hərflərin hər üçü isə bu dildə eyni bir məxrəcdə, təxminən, Azərbaycan dilində olan "s" səsi kimi tələffüz edilir.

Bu sxemdəki ث və ص hərflərinin iştirak etdiyi sözlər yalnız ərəb dilindən alınmış sözlər olduğu halda, /s/ hərfi ilə yazılanlar həm fars dilinə, həm də ərəb dilinə məxsus söz ola bilər. Məsələn: صم /som/- kar, سم /som/ - dırnaq; نصیب /nəsib/ - pay, hissə, نسیب /nəsib/ - yaxın ; ثالوث /salus/ - üçlük, سالوس /salus/- ikiüzlü, yaltaq (7).

2. /z/ səsi əsasında yaranan omofonlar ظ، ض ، ز ، ذ = :/z/

Hal-hazırda fars dilində müxtəlif şəkli əlamətə malik olan dörd: ذ ،ظ،ض ، ز ، hərfi vardır. Bunların hər dördü fars dilində eyni bir "z" səsi kimi tələffüz edilir.ذ səsinin tələffüzü haqqında "bu səs ərəb dilində ingilis dilindəki */the/, /those/* və s. sözlərində eşidilən */the/* kimi bir səsdir. ض /zad/ və ظ /za/ isə rus dilində */зыбь/* sözündəki /z/ kimi emfatik bir səsdir.

Ə. Məmmədov /zad/ və /za/ hərflərinin tələffüzü haqqında yazır: "Deyilişi xüsusi gərginlik (emfaza) ilə əlaqədar olduğu üçün emfatik samit adlanan bu səsləri tələffüz edərkən dilin arxa hissəsi yumşaq damağa doğru qaldırılır və bu vəziyyətdə... ض , ظ samitləri tələffüz edilir (5, 64). Azərbaycan və fars dillərində bu samitlərin iştirak etdikləri sözlərdəki /z/ sadələşmiş və hər iki dilin adi /z/ fonemi kimi tələffüz edilir. Beləliklə, fars dilində 4 qrafik variantlı "z" hərfləri bu dildə yeganə /z/ kimi tələffüz edilir. Məsələn, رازی /razi/- sirli, راضی

/razi/- razı, قضا /ğəza/- hadisə, tale, غذا /ğəza/- yemək, غزا /ğəza/- dini müharibə və s.

3. /t/ səsinin yaratdığı omofonlar:// ط = ت/t/

Müasir fars dilində bu iki müxtəlif hərfin verdiyi eyni səs, təxminən, Azərbaycan dilindəki /t/ səsi kimi tələffüz edilir, mənşəcə ərəb dilindən keçmiş və ط hərfi ilə yazılan sözlər də adi ت ilə yazılan sözlər kimi deyilir və omofon təşkil edirlər. Məsələn: تل/təl/- təpə, طل /təl /- şeh, şəbnəm; تور /tur/ - tor,طور /tur/ - xırda ləpə; حیات/həyat/ - həyat, حیاط/həyat/ - həyət; تابع /tabe′/- itaətkar, asılı, تابع /tabe/ - möhür, damğa və s.

4. /ğ/ və /q/ səsinin yaratdığı omofonlar: ق//غ=ğ //q/

Fars dilində hər iki hərfin verdiyi səs eynidir və tələffüzdə bunları bir-birindən fərqləndirmək çox çətindir. Rus tədqiqatçıları, eləcə də İran və Avropa araşdırıcıları kiçik fərqlərlə bu hərflərin verdikləri səsin ikivariantlı tələffüzünü (bizim fikrimizcə, bir əsas fonem və bir də allafon – Ə.M.), yəni q//ğ olduğunu qəbul edirlər. Qeyd edilməlidir ki, ərəb dilində bu iki hərfin verdiyi səslər müxtəlif şəkildə tələffüz edilir. Ona görə də "qaleb", "qərib", "fareğ" və s. tələffüz edilərkən ərəblər bunların məhz hansı hərf ilə yazılacağını bildikləri halda, fars dilində bu sözlərin tələffüzündə heç bir fərq olmadığından farslar bu fərqi konteksdən kənarda başa düşmürlər. Misal olaraq aşağıdakı omofonları nəzərdən keçirək: غالب/qaleb/ - qalib gələn, قالب/qaleb/ - forma, qəlib;غاز /qaz/ - qaz (quş), قاز /qaz/ - qaz (yanan qaz); فارغ /fareq/ - azad olan, فارق /fareq/ - fərqlənən və s.

5. /h/ - nın yaratdığı omofonlar ه//ح : =/h/

ح - hərfi yalnız ərəb dilindən keçmiş sözlərdə işlənir. Ərəb dilində bu iki hərfin verdiyi səslər bir-birindən fərqli şəkildə tələffüz edilir. ح-yə nisbətən ه- nın verdiyi səs boğazın ən axırında əmələ gəlir. Fars dilində isə bunların tələffüzündə heç bir fərq olmadığından böyük bir qrup omofonlar yaradır.

Rus dilində bu səsin olmaması /h/-nın düzgün tələffüzünün öyrənilməsinə diqqəti artırmışdır, bu barədə N. Berezin, M. Cəfər, Y. E. Bertels, L Jirkov bir-birindən az fərqlənən mülahizələrini söyləmiş, yazmışlar. Onların dediyinə görə, ərəblərin tələffüz etdiyi boğaz səsi /h/ Avropa dillərinin heç birində mövcud deyildir. Belə ki, ərəb dilində bu samit səs tələffüz edilərkən qırtlaq əzələləri kipləşməyə yaxın

vəziyyət alır. Hava axını səs tellərində titrəyiş əmələ gətirmədən xaricə çıxır və bu səs boğazda tələffüz olunur. Ərəb dilində iki /h/ səsinin tələffüzündə fərq qoyulur, "hay-e hotti"yə nisbətən "haye həvvəz" daha dilarxası, dilçək-boğaz samitidir. Farsların tələffüzündə isə dediyimiz kimi, tələffüzdə heç bir fərq qoyulmur, küylü, kar, nəfəsli, sürtünən, novlu samit səs olan /h/ yazıda öz əksini iki şəkildə tapır və bir qrup omofon yaradır.

هور /hur/- günəş, xöşbətlik, حور /hur/- huri; هول /houl/ - qorxu, sıçrayış, حول/houl/- qüvvə, güc; حازم hazem/- ehtiyatlı, هازم/hazem/- məğlub olmuş və s.

6. "Həmzə " və "ayn" hərlərinin yaratdığı omofonlar. ع//ء= /a/,/ə/,/e/,/o/

Qeyd etdik ki, "həmzə" və "ayn" hərflərinin verdiyi səs fars dilində ərəb dilində olduğu kimi səslənmir. Ərəb qrammatiklərinin dediklərinə görə saitlə başlayan bütün sözlər yalnız "həmzə" ilə başlayır. Yəni burada eşidilən ilkin səs "həmzə"dir. Qrammatiklərin dediyi kimi, ərəblər bu səsi boğazarxası samit kimi tələffüz etdikləri halda, fars dilində sözbaşında bu səs ümumiyyətlə tələffüz edilmir. Odur ki, "həmzə" və "ayn"nın verdiyi bu səs, /a/, /ə/, /e/, /o/ səslərindən əvvəl gələrək, məhz onların məxrəcində tələffüz edilir. Bu baxımdan, "ayn" hərfinin verdiyi səs də təxminən "həmzə"nin verdiyi səsə bərabər olur. Yazıda başqa hərflərin yerləşməsinə və sırasına görə eyni olan yalnız bu iki hərfə görə fərqlənən sözlər də bir qrup omofonlar yaradır: ابر /`əbr/- bulud, عبر/`əbr/- keçid; آجل /`acel/- gələcək, axirət, عاجل /`acel/- tələsən, dünya; ارص /`ərs/- yapışmış, möhkəm , عرص/`ərs/- çadırın sütunu; آزم /`azem/- neştər, iti uclu diş, عازم /`azem/- gedən və s.

7. "vav-e mədule"li /x/ ilə adi /x/ əsaslı omofonlar خ//خو : = /x/

Məlum olduğu kimi, fars dilində "vav-e mədule", "vav-e məlum", "vav-e məchul", "vav-e məruf" kimi /u/ və /o/ səsinin növləri vardır və bunlar bir-biri ilə qarşılaşaraq omofonlar əmələ gətirir. "Vav-e mədule" qədim və orta fars dillərində olmuş xüsusi qrafik əlamətə malik bir "x" səsidir. Əlifbalar bir-birinə transformasiya olunan vaxt bu səsin qrafik nümunəsi itmişdir. Hal-hazırda farsların istifadə etdikləri ərəb əlifbasında bu iki /x/ səsini bir-birindən fərqləndirəcək qrafik nümunə olmadığından, bunlardan birinin sonuna həmin tələffüzün itməməsi üçün bir "و" səsi əlavə etmişlər. Bu səs vaxtilə tələffüz edilsə də, hal-

hazırda tələffüz edilmir, bir qrup sözdə yüklənmiş bir /v/ səsi, yəni "vav-e mədule" olaraq qalır. Bunlarla eyni tələffüzə malik olan başqa bir qrup sözlərlə omofonlar yaradır. Məsələn, خاب /xab/-"xalçanın xovu", خواب /xab/-"yuxu"; خار/xar/-"qranit daş", خوار /xar/-"zəlil"; خان /xan/-"xan"(titul), خوان /xan/-"süfrə".

8. "ələf-e məqsurə"nin yaratdığı omofonlar:آ//ى = /a/

Fars yazısındakı الف مقصوره "ələf-e məğsure"- ləri qrafik formalarına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Bir qrup sözün sonunda ى yazılır, lakin /a/ kimi tələffüz edilir. الىٰ /ela/, علىٰ/əla/ , حتىٰ /hətta/, اولىٰ /oula/, عيسىٰ /`isa/, تقوىٰ/təğva/,فتوىٰ /fətva/ və s. Ərəb dilində bu sözlərin sonundakı ى - ların üzərinə yuxarıda yazdığımız kimi qısaldılmış, kiçik bir ا "əlif" qoyulur. Fars dilində isə sadəcə əlifsiz ى yazıb, onu "a" kimi oxumalıdırlar. Nəticədə onsuz da çeşid-çeşid çətinlikləri olan ərəb əlifbasına əsaslanan fars yazısında daha bir çətinlik, uyğunsuzluq meydana çıxır.
2. Bu qrup ərəb dilindən alınmış sözlərin fars yazısında "a" səsini realizə edən heç bir qrafik əlaməti olmasa da, əlifsiz yazılan sözlər alındığı dildə olduğu kimi əliflə tələffüz olunur. Məs.: /rəhman ، رحمن /eshaq/ اسحق،/esmail/ ، اسمعيل/harun/هرون və s.
3. Üçüncü qrup sözlərin qrafikasında, yazılışında eyni ilə ərəb dilində olduğu kimi leksemləri و /vav/ və ة /tə mərbutə/ ilə yazaraq "a" ilə tələffüz edirlər. Məs.: صلوة/sələvat/ ،/zəkat/ ، زكوة/həyat/ حيوة /moşkat/ مشكوة və s.

Fars dilinin orfoqrafiyasında "ələf-e məqsurə"dən bəhs edilən hissədə aşağıdakı qaydaları qeyd etmişlər: "Tələffüzdə "a" səsi ilə realizə olunan زكوة, حيوة, شكوة, صلوة kimi bir sıra ərəb alınmalarındakı "vav" hərfi (bu sözlərin Quranın orfoqrafiyası baxımından doğru yazılmasının gərəkli olduğu hallar istisna olmaqla) fars dilində "əlif"hərfi ilə yazılmalıdır. Məs.:زكات , حيات, مشكات, صلات və s. (15, 30).

Araşdırma nəticəsində aydın olur ki, "ələf-e məğsure"lər arasında ən çox mübahisə yaradanı və çox işlək olanı sözsonunda yazılanlar, başqa sözlə birinci qrupa aid olan leksemlərdir. Sonda "ى" kimi yazılaraq, "آ" səsi kimi tələffüz olunan bu hərf, yəni "ələf-e məğsure" də bir sıra omofonlar qrupunu əmələ gətirir. Məsələn, اذى /əza/ - əziyyət, əzab عزا /əza/ - dərd, kədər; بغاء /bəğa/ pis iş tutan, fasid; بقى /bəğa/ - daimilik, sabitlik; əbədi qalma; ثناء /səna/-sitayiş etmə, mədh, dua etmə; ثنى /səna/ ara, arasında və s.

Nəticə

Ərəb əlifbasından istifadə edən fars dilini başqa dillərdən fərqləndirən əsas problemlərdən biri bu dildə qrafikaya görə mövcud olan omoqraf və omofonlardır. Qeyd etmək lazımdır ki, omofonlara nisbətən omoqraflar haqqına daha çox deyilmişdir. Omofonları araşdırmaq, tədqiq etmək üçün isə cild-cild lüğətləri bir-bir varaqlamaq, onları toplamaq, qruplaşdırmaq lazımdır. "Araşdırmalar göstərir ki, fonetik prinsiplərə əsaslanln əlifbaya malik dillərin lüğət tərkibində omofonlar ya yoxdur, yaxud da çox azdır. Fars dilinin istifadə etdiyi qeyri-fonetik əsaslı ərəb qrafikasının xüsusiyyətlərindən asılı olaraq bu dil omofonlarla zəngindir. Uzun illər fars dili omofon və omoqraflarını araşdırdığımız müddətdə bu mövzuda ara-sıra xəsisliklə verilmiş bir neçə sətirlik qeydlərə rast gəlmişik. Bizim tədqiqatımızda ilk dəfə olaraq fars dilinin mövcud omofonları səkkiz qrup:

1. ظ،ض ، ز ،ذ/z/;
2. ص،س ،ث/s/;
3. ط،ت /t/;
4. ه ، ح /h/;
5. ق ،غ /q//ğ/;
6. ء ، ع /'/;
7. خ//خو ، ./x/;
8. ی//آ = /a/ əsasında araşdırılmışdır.

ƏDƏBİYYAT

1. Dehxoda Ə.Ə. (1334). Logətname. (1 – 14 cildlər). celdha-ye əvvel o dovvom, nəsr-e moessese-ye entesarat o cap-e danesqah-e Tehran. (3068 səh.).
2. Dəmirçizadə Ə. (1973). Müasir Azərbaycan dili. Bakı, (230 səh.).
3. Kristal. D. (2003). A Dictionery of Linguistics and Phonetics. (Fifth Edition). United Kingdom: Blackwell Publishing. (508 page).
4. Məhəmməd Təqi Bəhar. (1382). Səbkşenasi, celd-e əvvəl, moəssese-ye əmir-e kəbir, Tehran. (467 səh.)
5. Məmmədov Ə.C. (2018). Ərəb dili, Zərdabi nəşriyyatı, BDU-nun I və II kurs tələbələri üçün dərslik, Bakı. (703 səh.).
6. Məmmədova Ə.B. (2007). Fars dilində vurğu (eksperimental tədqiqat işi). Bakı: Nafta press nəşriyyatı, (242 səh.).

7. Məmmədova Ə.B. (2013). Fars dilində /s/ əsasli omofonlar. AMEA Şərqşunaslıq İnstitutu. Şərq filologiyasi məsələləri toplusu, (7-ci buraxılış). (229-319). Bakı.

8. Məmmədova Ə.B. (2018). Qədim fars dili mixi yazılarında dilin fonem inventarının səciyyəsi. Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. № 2. (225-232). Bakı: BDU nəşriyyatı.

9. Məmmədova Ə.B. (2018). Orta fars dilinin fonem inventarı və yazı sistemi. Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyasi, № 4, , Bakı: BDU nəşriyyatı. (5-12).

10. Məmmədova Ə.B. (2020). Fars yazısındakı "əlef-e məğsure"(tətbiqi dilçilik müstəvisində) Beynəlxalq Metafizika jurnalı, cild 3, say 1, sıra 9, (səh. 25-42).

11. Nəcəfi Ə.H. (1381). Qələt nənevisim, mərkez- e nəşr-e daneshqahi,fərhəng-e doshvariha-ye farsi. Tehran. (466 səh.).

12. Nəfisi S. (1334). Dər məkəeb-e ostad, (məcmu`e-ye soxenraniha), çap-e dovvom. Tehran. (211 seh.)

13. Dəstur-e xətt-e farsi, mosəvveb-e fərhengestan-e zeban o ədəb-e farsi, nəşr-e asar, çap-e həftom. (1381). Tehran. (53 səh.).

14. Dilçilik Ensiklopediyası. (2008). (F.Veysəllinin redaktəsi ilə). (II cild). Bakı: Mutərcim nəşriyyatı. (526 səh.).

15. Fars dilinin orfoqrafiyası. (2011). (fars dilindən tercümə, ön söz, şərhlər və lüğət Ə. B. Məmmədova məxsusdur). Bakı: Elm və təhsil nəşriyyatı. (231səh.)

16. Fərhəng-e bozorg-e soxən. (1381). (be sərpərəsti-ye Həsən Ənvəri). Nəshriyye-ye soxən, həşt celdi, celd-e əvvəl. Tehran.

д-р филос. по филол., доц. Асматханым Мамедова

АРАБСКИЙ АЛФАВИТ В ПЕРСИДСКОМ ЯЗЫКЕ – ПРЕИМУЩЕСТВА И СЛОЖНОСТИ

РЕЗЮМЕ

Опускание кратких гласных на письме и передача одной буквой нескольких звуков в арабском алфавите создают бесчисленное количество омографов. Тем временем передача несколькими буквами одного и того же звука и одинаковое произнесение слов, имеющих разное написание, порождают большое

количество омофонов. Исследования показывают, что в словарном составе языков с алфавитом, основанным на фонетических принципах, омофонов либо нет, либо очень мало. Персидский язык (фарси) богат омофонами благодаря особенностям используемой им арабской графики, не имеющей фонетической основы.

Исследовательская работа в общих чертах рассказывает об омографах на фарси и причинах их возникновения, а также приводит некоторые примеры. Также были разъяснены омофоны, являющиеся новой темой в языкознании персидского языка, будучи объединенными в 8 групп.

Ключевые слова: *арабский язык, фарси, алфавит, краткие гласные, омографы, омофоны.*

Assoc. Prof. Asmatkhanim Mammadova

ARABIC ALPHABET IN PERSIAN - ADVANTAGES AND DIFFICULTIES

ABSTRACT

As a rule, due to the fact that short vowels are not written in the Arabic alphabet, one letter has several sounds creates countless homographs; and the fact that several letters sound the same, words are spelled differently and pronounced the same, creates a large number of homophones. Studies show that in the vocabulary of languages with an alphabet based on phonetic principles, homophones are either absent or very few. Depending on the characteristics of the non-phonetic Arabic script used in the Persian language, this language is rich in homophones.

The study briefly discusses homographs in Persian language, the reasons for their appearance, and provides examples. Homophones, which are a new topic in Persian linguistics, are also grouped into 8 groups and explained.

Keywords: *Arabic language, Persian language, alphabet, short vowels, homographs, homophones.*

ƏRƏB DİLİNDƏ SÖZDÜZƏLDİCİ ŞƏKİLÇİLƏRDƏN İBARƏT NEOLOGİZMLƏR

fil.f.d. Tərlan Məlikov,
Bakı Dövlət Universiteti
Şərqşünaslıq fakültəsinin dekan müavini
malikovtarlan.i@bsu.edu.az

XÜLASƏ

Ərəb dilində neologizmlərin morfoloji yolla əmələ gəlməsində məhsuldar şəkilçilər və müəyyən söz modelləri əsas əhəmiyyətə malikdir. İstər xalis ərəb sözlərinə, istərsə də alınma sözlərə müvafiq sözdüzəldici şəkilçilər və ya sonluqlar əlavə etməklə dildə neologizmlər əldə etmək mümkündür. Bu sözlər qrammatik xüsusiyyətinə görə yeni məfhum ifadə edən neologizmlər hesab olunur.

Morfoloji yolla əldə olunan neologizmlərdə müəyyən modellərin və suffikslərin sözdüzəldicilik qabiliyyəti konkret nümunələr əsasında izahı, həmin şəkilçilərin mənşəyi haqqında məlumatın verilməsi qarşıya qoyulan əsas məqsədlərdən biridir. Yeni sözlərin morfoloji yolla əmələ gəlməsində məhsuldar şəkilçilər və müəyyən söz modelləri əsas əhəmiyyətə malikdir. Bu şəkilçi və modellər qrammatik xüsusiyyətinə görə müəyyən məfhum ifadə edən neologizmlər yaratmaqla yanaşı, onların başqa sözlərlə əlaqəyə girməsi tələbini özündə əks etdirir. Şəkilçilər kökdən ayrı işlənmədiyi kimi, heç bir müstəqil mənaya malik olmur və söz kökünün tələbinə görə dəyişir. Onlar sözün ayrılıqda işlənməyən, müstəqil mənaya malik olmayan və söz köklərinə bitişdikdə onların ya şəklini, ya da şəkli ilə birlikdə məzmununu dəyişən hissəsidir. Şəkilçilər sifət və ya isim sonluqları əmələ gətirdiyi kimi, modellər də öz növbəsində, müəyyən feil bab formaları və onların məsdər, fail, məful formalarında ifadə olunur. Sözdüzəldici şəkilçilər vasitəsilə meydana gələn neologizmlərin əvvəllər sintaktik üsulun əsasında yarandığını, sonralar inkişaf edərək neologizmlərin meydana gətirilməsində ayrıca bir kateqoriyaya çevrildiyini söyləyə bilərik.

Açar sözlər: *morfoloji, suffiks, model, forma, neologizm.*

Morfoloji üsulla söz yaradıcılığı dedikdə, müasir dilin lüğət tərkibində mövcud sözün dəyişməsi ilə meydana gələn neologizmlər başa düşülür. Bu, adətən, iltisaqi dillər qrupuna daxil olan dillərdə baş verən hadisədir ki, suffiks, prefiks, infiks kimi sözdüzəldici şəkilçilər vasitəsilə dilin lüğət tərkibi zənginləşdirilir. Ərəb dili kimi flektiv dillər qrupuna daxil olan dillərdə daxili və xarici fleksiya yolu ilə sözün dəyişməsi yəni, onun səs cildinin və yaxud sözün sonundakı şəkilçinin dəyişməsi nəticəsində morfoloji üsulla yeni sözlər meydana gəlir.

Ərəb dilində mövcud olan ـِيٌّ [iyyun], ـَوِيٌّ [aviyyun], يَّةٌ [iyyətun], اتٌ [ə:tun], ـَة [ətun], ـُون [u:nə] və s. kimi sonluqlar həm ərəb dilinin xas sözlərinə, həm də alınma sözlərin sonuna əlavə edilməklə neologizmləri meydana gətirir. Bu zaman əldə edilən yeni sözlər qrammatik baxımdan sifət, isim, və s. ola bilər və həmin sözün daxilində fonetik dəyişiklikər baş verə bilər.

Morfoloji yolla əmələ gələn neologizmlərdən ibarət isimlər əksər hallarda xüsusi isimlər, mücərrəd isimlər və ya cəm isimlərdən ibarət olur. Neologizmlərin cəm forması haqqında qeyd etmək olar ki, cəmlik leksik-qrammatik kateqoriya kimi öz leksik ifadəsini sözlərin mənalarında, qrammatik ifadəsini isə cəm şəkilçiləri və cəm formalarında tapır. Cəmlənmənin hər iki növündə isim adlandırdığı əşyanı, ən azı, ikidən artıq olduğunu bildirir. Əşyanın miqdarının digər hüdudu, yəni ikidən nə qədər artıq olması isə əsasən nitq şəraitində az-çox müəyyənləşdirilə bilər. Cəmlik vasitəsilə ya eyni əşyanın ayrı-ayrı vahidlərinin məcmusu, ya müxtəlif əşyanın məcmusu, yaxud da ayrı-ayrı vahidlərə bölünə bilən bütövlük, topluluq ifadə edilir [Məmmədov 1998, s.490-491].

Ərəb dilinin orijinallığının və özünəməxsusluğunun qorunmasında dilin daxili materialı əsasında yaranan leksik vahidlər həlledici rol oynayır. Qrammatik üsulla söz yaradıcılığı dili məhz əcnəbi mənşəli sözlərin təsirindən kənarda tutur və ya dilə təzəcə daxil olmuş alınma sözü ərəb dilinin qrammatik qaydalarına uyğunlaşdırır.

Morfoloji yolla neologizmlərin ərəb dilinə gətirilməsi prosesində müəyyən السوابق prefiks, اللواحق suffiks və الأحشاء infikslərdən istifadə olunmuşdur. Bu şəkilçilərin köməyi ilə sözün daha dəqiq və aydın şəkildə mənası bildirilir. Ərəb dilində mövcud olan ـِيٌّ [iyyun], ـَوِيٌّ [aviyyun], يَّةٌ [iyyətun], اتٌ [ə:tun], ـَة [ətun], ـُون [u:nə], və s. [37, s.490] kimi sonluqlar həm ərəb dilinin xas sözlərinə, həm də alınma sözlərin

sonuna əlavə edilməklə morfoloji üsulla bir çox neologizmləri meydana gətirir. Məsələn; "برامانيون" parlamentarilər, "فباريق" fabriklər, "كاميرات" kameralar, "إلكترونيات" elektronika, "جمهوريّ" respublikaçı, "قنصوليّة" konsulluq, "جمركجيّ" gömrükçü və s.

Habelə, ərəb dilinin lüğət tərkibində olan məhəlli və alınma sözləri müəyyən modellərə salmaqla yeni anlayış bildirən morfoloji üsulla neologizmlər yaradılmışdır. Məsələn, "فبرك" istehsal etmək, "برمج" proqramlaşdırmaq, "دبلج" dublyaj etmək, "أرّب" avropalaşdırmaq, və s.

Morfoloji yolla əldə olunan neologizmlərdə müəyyən modellərin və suffikslərin sözdüzəldicilik qabiliyyəti konkret nümunələr əsasında izahı, həmin şəkilçilərin mənşəyi haqqında məlumatın verilməsi qarşıya qoyulan əsas məqsədlərdən biridir. Yeni sözlərin morfoloji yolla əmələ gəlməsində məhsuldar şəkilçilər və müəyyən söz modelləri əsas əhəmiyyətə malikdir. Bu şəkilçi və modellər qrammatik xüsusiyyətinə görə müəyyən məfhum ifadə edən neologizmlər yaratmaqla yanaşı, onların başqa sözlərlə əlaqəyə girməsi tələbini özündə əks etdirir. Şəkilçilər sifət və ya isim sonluqları əmələ gətirdiyi kimi, modellər də öz növbəsində müəyyən feil bab formaları və onların məsdər, fail, məful formalarında ifadə olunur.

Ərəb dilçilərinin bəziləri morfoloji üsulla neologizmlərin yaradılmasını sintaktik kateqoriyaya, bəziləri isə bu üsulun sintaktik üsuldan fərqləndiyini və morfoloji yolla söz yaradıcılığının müasir dövrdə daha mürəkkəb şəkil aldığını qeyd edirlər. Ərəb leksikologiyasına ümumi nəzər salmaqla, morfoloji üsulun əvvəllər sintaktik üsulun əsasında yarandığını və sonralar inkişaf edərək neologizmlərin meydana gətirilməsində ayrıca kateqoriyaya çevrildiyini söyləyə bilərik.

Cəm şəkilçiləri vasitəsilə meydana gələn neologizmlər

Məlumdur ki, isimlər cəm şəkilçilərinin əlavəsi və ya daxili fleksiya vasitəsilə cəmlənir. Müvafiq cəm şəkilçisi ilə cəmlənə bilən isimlərə "xarici cəm" və yaxud "düzgün cəm" (جمع سالم), daxili dəyişikliklər yolu ilə cəmlənən isimlərə "daxili cəm" və ya "sınıq cəm" (جمع مكسر) deyilir [Болотов 2009, s.9-12]. Sözdüzəldici və ya sözdəyişdirici şəkilçilər vasitəsilə yaranan neologizmlərdən danışarkən, düzgün cəm şəkilçiləri ilə əmələ gələn yeni kəlmələr başa düşülür. Bu şəkilçilər və ya sonluqlar sözdüzəldici funksiyasını icra etdikdə, yenimənalı bir isim, sözdəyişdirici funksiyasını icra etdikdə yeniformalı cəm isim əldə

edir. Sözün sonuna əlavə edilmiş düzgün cəm şəkilçiləri ات[ə:tun] və ـون [u:nə] sonluqları hesab edilir.

ـون [u:nə] şəkilçisi ات [ə:tun] şəkilçisindən fərqli olaraq, yalnız sözdəyişdirici suffiks hesab olunur. Onlar ərəb dilçiliyində müzəkkər isimlərin sonuna əlavə edilən düzgün cəm şəkilçisi جمع المذكّر السالم kimi qəbul edilir. Adətən, müxtəlif peşə və ya məşğuliyyət sahiblərini bildirən substantivləşmiş müzəkkər sifətlərin sonuna artırılır. Misal üçün, اشتراكيّ sözü cəmdə اشتراكيّون ['iştirakiyyu:nə] "sosialistlər", اكاديميّ sözü cəmdə اكاديميّون ['əkə:di:miyyu:nə] "akademiklər", برشوتيّ sözü cəmdə برشوتيّون [bərşu:tiyyu:nə] "paraşütçülər", برلمانيّ sözü cəmdə برلمانيّون [bərləmə:niyyu:nə] "parlamentarilər", بلشفيّ sözü cəmdə بلشفيّون [bəlşəfiyyu:nə] "bolşeviklər", تلغرافي sözü cəmdə تلغرافيّون [tilğrafiyyu:nə] "teleqrafçılar" və s. kimi işlədilir.

ات [ə:tun] sonluqlu neologizmlər ərəb dilinin qrammatikasında müənnəs isimlərin sonuna əlavə edilən düzgün cəm şəkilçisi kimi qəbul edilir. Ərəb dilində bu cür cəmlənən sözlər جمع المؤنث السالم adlanır. Bu şəkilçi vasitəsilə aşağıdakı qrup isimlər cəmlənir.

a) Təmərbutəli olan neologizmlərin böyük bir qismi ات [ə:tun] şəkilçisi ilə cəmlənir. Bu zaman sözün sonunda gələn təmərbutə atıldıqdan sonra sözün sonuna ات [ə:tun] əlavə olunur. Məsələn: اطروحة – اطروحات "dissertasiya", آلة – آلات "alət, cihaz", تأشيرة – تأشيرات "viza", سمّاعة – سمّاعات "qulaqlıq", شاشة – شاشات "ekran", برّادة – برّادات "soyuducu", جرّارة–جرّارات "traktor", طائرة –طائرات "təyyarə" və s.

Bəzi xarici sözlərin dildə işlədilməsi o qədər uğurlu olur ki, həmin sözlər cəmdə ات [ə:tun] şəkilçisi qəbul etməklə düzəlirlər. Məsələn; كمبيالة –كمبيالات "veksel", ماكينة–ماكينات "maşın" və s.

b) Müxtəlif peşə və ya məşğuliyyət sahiblərini bildirən substantiv müənnəs sifətlər ات şəkilçisi qəbul etməklə cəm ismə çevrilir. Məsələn: بيولوجيّة – بيولوجيات "bioloq qadın", دبلوماسيّة – دبلوماسيّات "diplomat qadın", بيسكولوجية – بيسكولوجيات "psixoloq qadın" və s.

c) Bəzi hallarda ات[ə:tun] şəkilçisi qəbul edən isimlərin bir çoxu təmərbutəsiz isimlər də ola bilir. Məsələn, عدّادٌ – عدّادات "sayğac", محوّل – محوّلات "transformator" və s. Habelə, bu hal alınma sözlərdən ibarət neologizmlər üçün də xarakterik ola bilər. Məsələn: دولار – دولارات "dollar", جراج – جراجات "qaraj", تلفون – تلفونات "telefon", غاز –غازات "qaz", برامتر – برامترات "parametr", فيتامين – فيتامينات "vitamin", بارون – بارونات "baron", باسبورت – باسبورتات "pasport", راديّاتور – راديّاتورات "radiator",

تلفزيون – تلفزيونات “televizor”, باص – باصات “avtobus” [Stetkevych 2006, s.72-121] və s.

Elə neologizmlər də vardır ki, onların cəm forması həm sözün sonuna şəkilçi əlavə etməklə, həm də sözün kök hərfləri müəyyən modelə uyğunlaşdırılmaqla düzəlir. Bir sözlə desək bəzi neologizmlərin həm daxili, həm də xarici cəm forması olur. Məsələn: təkdə işlənən فبريقة “fabrik” sözünün فباريق [fəba:ri:qu] kimi daxili cəm, فبريقات [fəbri:qa:tun] kimi xarici cəm forması, فاتورة “faktura” sözünün فواتر [fəva:ti:ru] daxili cəm, فاتورات [fə:tu:ra:tun] kimi xarici cəm forması, كابيل “kabel” sözünün كوابيل [kəva:bi:lu] daxili cəm, كابلات [kə:bilə:tun] kimi xarici cəm forması, كاميرا “kamera” sözünün كمرة [kəməratun] daxili cəm, كاميرات [kə:mi:ra:tun] kimi xarici cəm forması, قطار “qatar” sözünün قطر [quṭurun] daxili cəm, قطارات [qıṭa:ra:tun] kimi xarici cəm forması mövcuddur [Məmmədəliyev, Qaradağlı, Məlikov 2012, s.157].

Düzgün müənnəs cəm şəkilçisi olan ات ilə cəmlənən bəzi neologizmlərdə müəyyən fonetik dəyişikliklər də baş verə bilir. Belə ki, ات şəkilçi qəbul etməzdən əvvəl ərəb dilçiliyində naqis hərf kimi bilinən و və ي hərfləri ilə bitən neologizmlərin sonuna ه hərfi əlavə olunur. Məsələn: راديو – راديوهات “radio”, – ستوديو ستوديهات “studiya”, – كازينو كازينوهات “kazino”, دوسيه – دوسيهات“dosye”, سيناريو – سيناريوهات“ssenari”, شاسّى – شاسّيهات “şassi”, تابلو – تابلوهات “tablo”, فيديو – فيديوهات “video” və s.

Bəzi hallarda isə sözün sonu əlif məmdudə ilə bitdiyinə görə, onun cəm formasını əmələ gətirmək üçün ات sonluğu deyil təkcə ت əlavə olunur. Misal üçün, اوبيرا sözü cəmdə اوبيرات [’u:bi:ra:tun] “operalar”, ايبولا sözü cəmdə ايبولات [’i:bu:lə:] “ebola xəstəlikləri”, تكنولوجيا sözü cəmdə تكنولوجيات [tiknu:lu:ciyyə:tun] “texnologiyalar”, كاميرا sözü cəmdə كاميرات [ka:mi:ra:tun] “kameralar” və s. kimi olur. Təsadüfi deyildir ki, bəzi isimlərin müxtəlif cür cəm modelləri olduğu kimi, neologizmlərin də iki və ya üç cür cəm forması ola bilir. Bu nöqteyi-nəzərdən qeyd etmək lazımdır ki, كاميرا sözünün كمرة [kəməratun] kimi də cəm forması vardır.

Yeri gəlmişkən, ərəb dilində sözün sonuna “təmərbutə” əlavə etməklə cəm isimlər əldə etmək mümkündür. Belə isimlərin çoxu təkdə sonu “əlif, vav, yə” kimi naqis hərflərlə bitən neologizmlər olur. Məsələn: بيجاما sözü cəmdə بيجمة [biycəmətun] “pijamalar”, قطرجي sözü cəmdə قطرجية [qıtarciyyətun] “vaqonların qoşucusu”, جوكي sözü cəmdə جوكية [cu:kiyyətun] “jokeylər” və s.

Ərəb dilində ات [ə:tun] sonluqlu elə neologizmlər də movcuddur ki, onlar müəyyən tək halda olan ismin cəm formasını ifadə etmir. Əksinə, mənasına görə bu sözlər təkdə hesab olunurlar. Misal üçün: ərəb dilinin qrammatikasında mövcud qaydalara görə, formaca خامات cəmdə müənnəsdə, خام təkdə müzəkkərdə, خامة təkdə müənnəsdə olsa da, onlar eyni mənaları ifadə edirlər. Belə ki, خامات [xa:mə:tun] və ya خام [xa:mun] və ya خامة [xa:mətun] sözlərinin hər üçü dilimizdə "xammal, xam mədən" kimi başa düşülür. Ümumiyyətlə, "xammal" sözünün mənası sənayedə müxtəlif şeylər emal edilmək üçün yerdən çıxarılan və ya istehsal edilən material deməkdir.

محروقات [məḥru:qa:tun] sözü isə "yanacaq" deməkdir. Daha dəqiq desək, motor və mühərriklərin işləməsi üçün lazım olan maddələr kimi anlaşılır. Sonu ات şəkilçisi ilə bitən bu söz heç də محروق sözünün cəm forması deyildir. محروق sözü حرق feli əsasında yaranmış, mənası "1) yandırılmış; alovlanmış; yanıb kül olmuş; 2) yanıb-tökülən" deməkdir. ات sonluğu qəbul etməklə محروقات kimi morfoloji üsulla neologizm əmələ gətirmiş olur. Həmçinin bu söz uzlaşan və uzlaşmayan təyini söz birləşməsi tərkibində yeni ifadələr meydana gəlir. Məsələn: محروقات جامدة "bərk yanacaq", محروقات سائلة"maye yanacaq", صناعة المحروقات "yanacaq sənayesi" və s.

Bu cür sözlərin bəziləri formaca yeni olmasa da, məzmununa görə yeni anlayış və mənaları bildirir. Məsələn: صادرات [ṣa:dira:tun] "eksport, yəni satış üçün xaricə göndərilən mallar", واردات [va:ridə:tun] və yaxud مستوردات [mustavridə:tun] "import, idxalat, kənardan gətirilmiş mallar", مصتلحات [muṣtələḥa:tun] "termin",مصبّرات [muṣabbəra:tun] "konserv", حمضيّات [ḥamḍiyyə:tun] "sitrus meyvələri" və s. [Gündüzoz 2005, s. 285].

Habelə, ات [ə:tun] sonluqlu neologizmlər müxtəlif elm sahələrinin adlarını bildirir. Bu tip sözləri aşağıdakı izah və nümunələrlə nəzərdən keçirək:

صوتيّات [ṣavtiyyə:tun] "fonetika" – dilçiliyin, dilin səs tərkibini öyrənən bəhsinə deyilir. Bundan başqa علم الصوتيّات və ya صواتة kimi formaları da dilçilik termini kimi ərəb dilində işlədilir.

تشكيلات [təşki:lə:tun] "fonologiya" – fonetikanın, dildəki fonemlərin sistemini və onların dəyişməsini öyrənən bəhsi olub, dilin fonemlər sistemi fonologiya ilə müəyyənləşdirilir.

إلكترونيّات [’iliktru:niyyə:tun] “elektronika” – fizikanın, qazlarda, boşluqlarda, bərk cisimlərdə elektron proseslərini tədqiq edən şöbəsi və ya elm və texnikanın müxtəlif qurğularda və s.-də elektron və yarımkeçirici cihazlardan istifadə nəzəriyyə və üsullarında öyrənən sahəsinə deyilir.

سمعيّات [səm‘iyyə:tun] “akustika” – fizikanın səs haqqında bəhs edən bölməsinə deyilir. Bundan başqa bu sözün “bina içərisində musiqinin, nitqin və s. səsinin eşidilmə dərəcəsi” kimi mənası da vardır.

Bütün bu mülahizələr və sadaladığımız nümunələr bizə onu deməyə imkan verir ki, ات [ə:tun] suffiksinin mənadəyişdirici və mənadüzəldici rolu vardır. Yəni, bu şəkilçi cəmlik bildirməklə yanaşı, bir sıra isimlərdə mənaların dəyişməsinə və yeni-yeni mənaların yaranmasına səbəb olmuşdur.

Bəzi hallarda kök olaraq ərəb dilinə daxil olan alınma sözlər öz şəkilçiləri ilə birlikdə ərəbcədə işlədilmir. Bu zaman söz qrammatik cəhətdən “əd-dəxil” olsa da, qəbul etdiyi şəkilçi və ya sonluq ərəb dilində olur. Misal üçün: ərəblər ədəbi dilə daxil olmuş تلفون sözünü əcnəbi dilin cəm formasında olduğu kimi qəbul etmir. Yəni cəmdə تلفونس kimi işlədilməsi ərəblər tərəfindən yanlış hesab edilir. Əgər hər hansı bir dildən alınan söz işlənməsinə görə dildə fəallığını sübuta yetirsə, bu zaman ərəb qrammatikasına uyğun morfoloji əlamətlər işə düşər. Belə ki, cəmdə تلفونات kimi işlənən bu sözün تلفن “zəng etmək” feili kimi müxtəlif formaları da yaranmış olur [Asher, Simpsan 1994, s.427].

Ümumiyyətlə, neologizmlərdən ibarət cəm isimlərin müxtəlif modelləri vardır və onların yalnız bir qisminin seçilib işlədilməsi qrammatik qaydalarla az-çox müəyyənləşdirilmişdir. Əksər hallarda isə isimlərin məhz hansı forma üzrə cəmlənməsi dildə işlədilmə təcrübəsi əsasında, yəni ərəb ənənəvi qrammatikasının istilahı ilə desək, “səmai” (سماعيّ eşidildiyi kimi işlədilən) yolla müəyyənləşdirilir [Məmmədov 1998, s.157]. Məhz buna görə də isimlərin daxili cəmləri ya onların özləri ilə birlikdə leksik vahidlər kimi yadda saxlanılmalı, ya da cəm formalarını müəyyənləşdirmək üçün lüğətə müraciət edilməlidir. Lüğətlərdə daxili cəmlər isimlərin tək formaları ilə yanaşı göstərilir.

Morfoloji yolla əldə olunan neologizmlərdə müəyyən modellərin və suffikslərin sözdüzəldicilik qabiliyyəti konkret nümunələr əsasında izah olunmuş, həmin şəkilçilərin mənşəyi haqqında məlumat verilmişdir.

Nisbi sifət şəkilçiləri vasitəsilə meydana gələn neologizmlər

Ərəb dilində morfoloji yolla əmələ gələn neologizmlərin bir hissəsi qrammatik cəhətdən nisbi sifət, yəni إسم المنسوب və إسم النسبة yaxud adlanır. Bildiyimiz kimi, nisbi sifətlər isimlərin sonuna ـِيٌّ və ya ـَويٌّ şəkilçiləri artırılmaqla düzəlir, əşyanın kimə, nəyə və ya haraya mənsub olduğunu, ya da nədən düzəldiyini bildirir. Məsələn: إئتلافيّ [’i’tulə:fiyyun] “koalisyon”, صحفيّ [ṣuḥufiyyun] “jurnalist, mətbuat işçisi” və s.

ـِيٌّ və ya ـَويٌّ sonluqları ilə düzələn neologizmlərin aşağıdakı xüsusiyyətləri vardır:

a) Nisbi sifət şəkilçiləri alınma sözlərin sonuna da əlavə oluna bilir. Məsələn: إلكترونيّ “elektron”, استراتيجيّ “strateji”, اوتوماتيكي avtomatik və s.

b) Nisbi sifətlər nisbətən az işlənən ـَانِيٌّ şəkilçisi ilə də düzələ bilir. Məsələn: صيدلانيّ [ṣaydələ:niyyun] “aptekçi, əczaçı”, غراوانيّ [ğıravaniyyun] “kolloid”, قلوانيّ [qaləva:niyyun] “alkoloid”, كروانيّ [kurava:niyyun] “sferoid” və s.

c) Adətən, sonu “vav” və yaxud “əlif məqsura” ilə bitən sözlərdən sifət düzəldikdə nisbi sifət şəkilçisi olan ـَويٌّ sonluğundan istifadə edilir. Məsələn: بتروكيمياوي neft-kimya -ı/-i,لمفاويّ limfatik, شعبويّ populizm, اولويّ prioritet, və s.

d) Nisbi sifətdən əldə edən zaman əlif məmdudə ilə bitən neologizmlərin sonundakı “əlif” hərfi həzf olunur. Adətən, bu tip sözlər elm sahələrinin adlarını ifadə edir. Məsələn: إثنولوجيا [’isnu:lu:ciyə:] “etnologiya” sözündən إثنولوجيّ [’isnu:lu:ciyyun], تكنولوجيا [tiknu:lu:ciyə:] “texnologiya” sözündən تكنولوجي [tiknu:lu:ciyyun], أنتروبولوجيا [’əntru:bu:lu:ciyə:] “antroplogiya” sözündən أنتروبولوجيّ [’əntru:bu:lu:ciyyun] və s. düzəlir.

e) Nisbi sifətlər bəzən ismin cəm formasından düzəlir ki, bu da məna fərqi ilə əlaqədardır. Məsələn: مصوّر [muṣavvirun] sözü cəmdə مصوّرات [muṣavvira:tun] olur. “Rəssam, şəkilçəkən; fotoqraf, kinooperator” kimi mənalar bildirir. Cəm modelinə ـِيٌّ şəkilçisi əlavə olunduqdan sonra مصوّراتيّ [muṣavvira:tiyyun] “fotoqraf” kimi yeni bir neologizm meydana gəlir. Yaxud مبخّر [mubəxxirun] sözünün مبخّرات [mubəxxira:tun] cəm formasının sonuna ـِيٌّ nisbi sifət şəkilçisi artırılmaqla مبخّراتيّ [mubəxxira:tiyyun] “bitkilərə tüstüverən” kimi daha bir neologizm əmələ gəlir.

f) Daxili cəmlənmə ilə cəmlənən isimlərdən belə nisbi sifət əldə etmək mümkündür. Məsələn: ساحل [sə:ḥilun] “sahil” sözünün سواحل [sə-va:ḥilu] cəm formasının sonuna ـِيٌّ nisbi sifət şəkilçisi artırılmaqla سواحليّ [səva:ḥiliyyun] “sahilboyu” və s. kimi yeni sözlər yaranır.

g) İsim təmərbutəsi atıldıqdan sonra ـِيٌّ şəkilçisi qəbul edir. Misal üçün, صناعة “sənaye” sözünün son hərfi “təmərbutə” həzf olunduqdan sonra, ona ـِيٌّ sonluğu əlavə edərək صناعي“sənaye adamı, sənayeçi” mənalı neologizmlər əldə etmək mümkündür.

Yuxarıda qeyd olunan nümunələrdən də aydın görünür ki, ərəb dilində morfoloji üsulla, xüsusən sözdüzəldici şəkilçilər vasitəsilə neologizmlərin əldə edilməsi prosesində ـِيٌّ geniş istifadə edilən nisbi sifət şəkilçisidir. Habelə, ـِيٌّ sonluğu Azərbaycan dilində işlədilən bir çox sözdüzəldici şəkilçinin qarşılığı kimi işlədilir. Məhz bu şəkilçiləri aşağıdakı kimi qruplaşdıraraq onların ərəbcə verilmiş neologizm nümunələrində ـِيٌّ nisbi sifət şəkilçisinin işlədilmə yerinə diqqət yetirsək, onların daim sözün sonunda işlədilməsinin şahidi olarıq:

a) ـِيٌّ sonluğu çı[4] şəkilçili neologizmləri ifadə edir. Bu şəkilçi vasitəsilə əsasən peşə, sənət, ixtisas sahiblərini bildirən sözlər yaradıldığı üçün onlar isimlərə qoşularaq insan təsəvvürü yaradan neologizmlər əmələ gətirir. Məsələn: ارهابي “terrorçu”, برطلي “paraşütçü”, سياسي “siyasətçi”, جمهوريّ “respublikaçı”, كولخوزي “kolxozçu” və s.

Peşə və sənət adları ifadə edən ـِيٌّ sonluqlu neologizmlər də vardır ki, onlar Azərbaycan dilinə sırf çı[4] şəkilçili sözlər kimi tərcümə olunmur. Məsələn; جمنازي gimnast, سيسموغرافي seysmoqraf, بيسكولوجي psixoloq və s.

b) ـِيٌّ sonluğu lı[4] şəkilçili neologizmləri ifadə edir. Bu şəkilçinin isimlərə qoşulması ilə sifət məzmunlu neologizmlər əldə olunur. Məsələn: اسبرتي spirtli,غازي qazlı, فيطاميني vitaminli, كرملي karamelli, مكروبيّ mikroblu və s.

Ərəb dilində “المصدر الصناعي” termini işlədilir ki, onlar isimlərin sonuna ـيّ və ya ـيّة şəkilçilərinin artırılması ilə meydana gələn neologizmlərdir. Bu tip sonluqlar ismi faillərin, ismi məfulların (المسؤولية، المعكوسية), ismi tafdillərin (الأكثرية، الأغلبية), cəm isimlərin (جمهورية، قوميّة), xüsusi isimlərin (الماركسية، الناصرية), naht üsulu ilə bir-birinə qovuşmuş isimlərin (راسمالية), o cümlədən alınma sözlərin (الكلاسيكية، الديناميكية) əldə olunması zamanı geniş istifadə olunan sözdəyişdirici şəkilçilərdir. Misal üçün, klassik dövrdə ədalətlə bağlı bir şeyə على وجهة العدل pisliklə

bağlı bir ifadə على وجهة الشر, yaxşılıqla bağlı bir ifadə على وجهة الخير şəklində ifadə olunurdusa, hal-hazırda "المصدر الصناعي" forması ilə çoxlu sayda neologizm əldə edilmişdir. Məsələn: الكيفية، الماهيّة، الخصوصيّة، اللصوصية

Misir Dil Akademiyası bir kəlimədən məsdər əldə etməkdən ötrü sözün sonuna ئيّة sonluğunun əlavə edilməsi qərarını vermişdir [Daşkıran 2014, s.198]. Sifəti muşəbbəhə kimi qeyd etdiyimiz bir sıra sözləri مفعوليّة [məfʿu:liyyətun] modelinə uyğunlaşdırmaqla yeni isimlər yaratmaq mümkündür. Qeyd etdiyimiz sözlər ingilis dilindəki "ity" şəkilçili sözlərə tam uyğundur. Bunu aşağıdakı cədvəldə daha aydın şəkildə müqayisə edək:

Cədvəl 3.1 "Sifəti-muşəbbəhə" şəklində təzahür edən neologizmlər

Ərəbcə	Transkripsiya	İngiliscə	Azərbaycanca
مذوبيّة	[məẕu:biyyətun]	Solubility	Həll ola bilmə qabiliyyəti
منقوليّة	[mənqu:liyyətun]	Movability	Daşınma qabiliyyəti
مصهوريّة	[maṣhu:riyyətun]	Fusibility	Ərimə xüsusiyyəti
مطروقيّة	[maṭru:qiyyətun]	Malleability	Döyüləbilmə xüsusiyyəti

Yaxud bu tip yeni isimlərin digər yaratmaq üsulu kimi, kök hərflərin məchul növ feil formasının sonuna ـيّةٌ şəkilçisi əlavə etməklə mümkündür. Məsələn: يذابيّة [yuẕa:biyyətun], يصهريّة [yuṣhariyyətun], يطرقيّة [yuṭraqiyyətun], ينقليّة [yunqaliyyətun] və s. [مجلّة لسان العرب، العدد: 54, 2002, s.57-66]. Misallardan gördüyümüz kimi, belə neologizmlər həm prefiks, həm də sufiksi eyni zamanda qəbul edir.

Bu yolla meydana gələn digər neologizmlər qrupu (mücərrəd isimlər) adlanır. Bu tip isimlər nisbi sifətlərin sonuna "təmərbutə" əlavə etmək yolu ilə düzəlir. Misal üçün, ممثّليّة [muməssiliyyətun] "nümayəndəlik" sözü ممثّليّ [muməssiliyyun] "nümayəndə" sözündən, تجريديّة [təcri:diyyətun] "abstraksionizm" sözü تجريدي [təcri:diyyun] "abstraksionist" sözündən, إرهابيّة ['irhə:biyyətun] "terrorizm" sözü إرهابيّ ['irhə:biyyun] "terrorist" sözündən, إشعائية ['iṣʿa:'iyyətun] "radioaktivlik" sözü إشعائيّ ['iṣʿa:'iyyun] "radioaktiv" sözündən, عقلانيّة['aqlə:niyyətun] "rasionalizm" sözü عقلانيّ ['aqlə:niyyun] "rasionalist" sözündən, إنطباعيّة

[’inṭıbə:ʿıyyətun] “impressionizm” sözü إنطباعيّ [’inṭıbə:ʿıyyun] “impressionist” sözündən, إشتراعيّة [’iştira:ʿıyyətun] “qanunvericilik” إشتراعيّ [’iştira:ʿıyyun] “qanunverici” sözündən, غيريّة [ğayriyyətun] “alturizm” sözü غيريّ [ğayriyyun] “alturist” sözündən, واقعية [va:qiʿiyyətun] “realizm” sözü واقعي [va:qiʿiyyun] “realist” sözündən, طبيعية [ṭabi:ʿiyyətun] “naturalizm” sözü طبيعي [ṭabi:ʿiyyun] “naturalist” sözündən سريالية [siryə:liyyətun] “sürrealizm” sözü سريالي [siryə:liyyun] “sürrealist” sözündən əmələ gəlmişdir [عناني، 2004, s.34].

Son zamanlar Azərbaycan dilində “lıq[4], ist, izm” kimi şəkilçilər ilə mücərrəd anlayışları bildirən ictimai-siyasi sözlər yaranır. Qeyd olunan sözdəyişdirici şəkilçilər vasitəsilə əldə olunan neologizmlər ərəb dili üçün də xarakterikdir. Belə ki, ئيّة sözdəyişdirici sonluğunun sözə artırılması ilə morfoloji üsulla neologizm əldə edilir.

a) ئيّة sonluğu ilə əldə edilən neologizmlər Azərbaycan dilində “ist” sözdəyişdirici şəkilçili isimlərdir. Məsələn; انتحازيّة “opportunist” اشتراكية “sosialist”, رأسمالية “kapitalist”, صهيونية “sionist”, və s.

b) ئيّة sonluğu ilə əldə edilən neologizmlər Azərbaycan dilində “izm” sözdəyişdirici şəkilçili isimlərdir. Məsələn: سياحية “turizm”, ارهابية “terrorizm”, اشتراكية “sosializm”, رومانتيسية “romantizm”, və s.

c) ئيّة sonluğu ilə əldə edilən neologizmlər Azərbaycan dilində “lıq[4]” sözdəyişdirici şəkilçili isimlərdir. Məsələn: تشريعية “qanunvericilik”, الستيكية “elastiklik”, ديناميكية “dinamiklik”, قنصولية “konsulluq”, قمصارية “komissarlıq” və s.

Ərəb dilində işlənən bəzi “muarrab” neologizmlərin sonu “təmərbutə” ilə bitir. Yəni əcnəbi dildən ərəb dilinə daxil olan sözün sonuna artırılan ة hərfi qrammatik baxımdan sözdüzəldici suffiks rolunu icra edir. Bu cür morfoloji üsulla əldə edilmiş neologizmlərdəki sözün bütün hərfləri alınan dilin hərflərindən ibarət olur və bu hərflərin sonuna ة əlavə edilməklə, həmin söz ərəb dilinin daxili qayda-qanunlarına uyğunlaşdırılmış hesab edilir. Məsələn, ماكينة[mə:kiynətun] “maşın”, امبولة [’əmbu:lətun] “ampula”, بتزة [bitzətun] “pitsa”, بوليصة [bu:liysatun] “polis”, تلفزة [təlfəzətun] “televizor”, دبلجة [dəbləcətun] “dublyaj olmuş”, شاورمة [şə:virmətun] “şavurma, dönər” və s. [مجلّة لسان العرب، العدد: 50, 2000, s.73-96].

Dünya dilləri qarşılıqlı surətdə bir-birinin lüğət tərkibini zənginləşdirdiyi kimi, bu və ya başqa qrammatik formalar da bir dildən başqa bir dilə keçə bilir. Son zamanlar ərəb dili də digər dillərlə yaxınlaşma və uzaqlaşma prosesini keçdiyinə görə dilə xeyli sayda alınma sözlərlə yanaşı, əcnəbi dilə məxsus sözdüzəldici şəkilçilər də daxil olmuş-

dur. Daxil olan alınma şəkilçilər ərəb dilinə kalka edilmiş olsa da, bəzi hallarda bu şəkilçilər ərəb dilinə transliterasiya edilmişdir. Bu şəkilçilər dildə vətəndaşlıq qazanmış sözlərin sonuna artırılmaqla neologizmlər yaradır. Bir sözlə ərəb dilində morfoloji yolla neologizmlərin əldə edilməsi prosesində yeni sözlərin şəkilçiləri bəzən əcnəbi dilə də məxsus ola bilir.

Qeyd etmək olar ki, türk dillərinə aid olan bəzi məhsuldar şəkilçilər türk sözləri daxilində ərəb dilinə keçdikdən sonra bu dilin sözlərinə qoşulur. Belə şəkilçilərə misal olaraq جيّ şəkilçisini göstərmək olar ki, onun vasitəsilə əmələ gələn bir çox neologizmlərə rast gəlmək mümkündür. Yəni türk dilindən alınmış جيّ şəkilçisi ərəb dilində ج hərfinin və ـِيٌّ sonluğunun qovuşması nəticəsində əmələ gəlmişdir. Bu şəkilçi ərəb dilində işlədilən türk sözlərin sonuna artırıldığı kimi, ərəb dilinin özünəməxsus olan və başqa dillərdən alınmış sözlərin sonuna da əlavə edilir. Bu baxımdan جيّ sonluğu vasitəsilə əmələ gəlmiş neologizmləri aşağıdakı kimi qruplaşdıra bilərik.

1) جيّ şəkilçisinin ərəb sözləri ilə işlədilməsi, məsələn: تذكرجي = تذكرة + جيّ [təz̲kirəciyyun] “biletsatan”, أجزاجيّ = اجزاء + جيّ ['əczə:ciyyun] “əczaçı”, قطارجي = قطار + جيّ [qıṭa:rciyyun] “qatarda işləyən”, مطبعجيّ = مطبعة + جيّ [məṭbəʿciyyun] “mətbəəçi”, قهوجيّ = قهوة + جيّ [qahvaciyyun] “qəhvəçi”, تعليمجي = تعليم + جيّ [təʿli:mciyyun] “təlimatçı, təlimçi”, معجونجيّ = معجون + جيّ [maʿcunciyyun] “dərman qarışıqları hazırlayan” və s.

2) جيّ şəkilçisinin türk sözləri ilə işlədilməsi, məsələn:

جمركجيّ = جمرك + جيّ [cumrukciyyun] “gömrükçü”, فرملجي = فرملة + جيّ [fərməlciyyun] “tormozda işləyən” və s.

3) جيّ şəkilçisinin fransız mənşəli sözləri ilə işlədilməsi, məsələn:

بوستجي = بوستة + جيّ [bu:stəciyyun] “poçtalyon”, قمصيونجي = قمصيون + جيّ [qumusyunciyyun] “komisyonçu”, və s.

4) جيّ şəkilçisinin yunan mənşəli sözləri ilə işlədilməsi, məsələn:

تلغرافجي = تلغراف + جيّ [tiliğra:fciyyun] “teleqrafçı” və s. [Zahidi 1977, s.51-52].

Misallardan da göründüyü kimi, türk dilindən ərəb dilinə yalnız söz kökləri deyil, eyni zamanda sözlərlə birlikdə sözdüzəldici şəkilçilər də keçmişdir. Son zamanlar dünyanın bir çox dilindən, o cümlədən ingilis dilindən ərəb dilinə keçmiş şəkilçilər işləndiyi köklə birlikdə ərəb dilinə daxil olmuşdur. Məsələn:

a) “super” şəkilçili sözlər – سوبرماركت “supermarket”, سوبرفوسفات “superfosfat”, və s. [Дауд Ал-Мунир 2013, s.396]

b) “metr” şəkilçili sözlər – ترمومتر “termometr”, فاريومتر “variometr”, مانومتر “manometr” və s.

c) “scope” şəkilçili sözlər – ترمسكوب “termoskop”, تلسكوب “teleskop”, ميكروسكوب “mikroskop”, جيروسكوب “hiroskop” və s.

d) “ism” şəkilçili sözlər – براغماتزم “praqmatizm”, روماتزم “revmatizm” və s.

e) “phone” şəkilçili sözlər – ميكرفون “mikrofon”, غرامفون “qramafon”, انترفون “interfon”, تلفون “telefon” və s. [Елифанов 2013, s.161]

f) “graph” şəkilçili sözlər – فوتغراف “fotoqraf”, تلغراف “teleqraf” və s. [مجلّة لسان العرب، العدد: 45, 1998, s.196]

Nəticə

Nəticə etibarilə morfoloji üsulla neologizmlərin əldə edilməsi mövzusunda üzə çıxan məlumatlar ərəb dilinin zəngin sözyaratma üsullarına malik olduğunu göstərir. Hər zaman aktuallığını qoruyan bu mövzu tədqiqatçıları yeni axtarışlara istiqamətləndirmişdir. Məhz bu səbəbdən, dilin daxili imkanları hesabına yeni sözlərin əldə edilmə üsulları ərəb dilini tədqiq edən institutlar, xüsusən ərəb ölkələrində fəaliyyət göstərən dil qurumları tərəfindən inkişaf etdirilməkdədir.

Məqalənin sonunda aşağıdakı nəticələrə gəlmək mümkündür:

– dilə daxil olan yeni əcnəbi sözlərin böyük əksəriyyəti ərəb dilinin qrammatik qayda-qanunlarına uyğunlaşdırılaraq işlədilir. Bu sözlər ərəb dilinin prefiks, sufiks, infiks kimi sözdüzəldici şəkilçilərini qəbul edərək müxtəlif forma və məzmunda çıxış edir. Bəzən bu sözlər müxtəlif model və vəznlərdə yeni anlayış bildirən, yeni formalı neologizmlər kimi də olur. Bu da o deməkdir ki, yeni alınma sözlərin müasir ərəb dilində işlədilməsi dilin daxili imkanlar hesabına zənginləşməsinə heç bir maneə törətmir. Əksinə, dildə neologizmlərin meydana gəlməsi prosesini sürətləndirir və söz yaradıcılığının yeni üsullarını yaratmış olur;

– ərəb dilində sözdüzəldici və sözdəyişdirici şəkilçi və sonluqlar vasitəsilə neologizmlər əldə edilir. Belə ki, dildə mövcud olan ـِيٌّ [iyyun], ـَوِيٌّ [aviyyun], يَّةٌ [iyyətun], اتٌ [ə:tun], ـَة [ətun], ـُون [u:nə], və s. kimi sonluqlar həm ərəb dilinin xas sözlərinə, həm də alınma sözlərin sonuna əlavə edilməklə neologizmləri meydana gətirir. Habelə, alınma şəkilçilərin istər ərəb dilinin öz sözlərinə, istər əcnəbi mənşəli sözlərinə qoşulması ilə bir sıra neologizmlər də əldə edilir.

ƏDƏBİYYAT

1. Cəfərov S.Ə. (1960). Azərbaycan dilində söz yaradıcılığı. Bakı: Azərnəşr, (204s.).
2. Məmmədəliyev V.M. (2012). Qaradağlı V.A., Məlikov T.P. Azərbaycanca-ərəbcə lüğət (dərs vəsaiti). Bakı: Bakı Universiteti nəşriyyatı, (536 s.).
3. Məmmədov Ə.C. (1998). Ərəb dili (dərslik). Bakı: Maarif, (620s.).
4. Zahidi A.İ. (1977). Müasir ərəb ədəbi dilində türk mənşəli sözlər. Bakı: Elm, (147s.).
5. Daşkıran Y. (2014). Arap dilinde terim sorunu // Dilbilimleri akademik araştırma dergisi, cilt 14, sayı 1, (s.191-214).
6. Gündüzoz S. (2005). Arapçada kelime türetimi: Kavramlar, Kuramlar, Kurumlar; Samsun, (283s.).
7. Болотов В.Н. (2009). Арабский язык справочник по грамматике. Москва: Живой язык, (224с.).
8. Дауд Ал-Мунир. (2013). Русско-англо-арабский словарь по строительным материалам и изделиям. Москва: Библос консалтинг, (90с.).
9. Елифанов Р.А. (2013). Русско-арабский военный словарь. Москва: МГИМО-университет, (390 с.).
10. Asher R.E. (1994). Simpsan J.M. The Encyclopadia of Language and linguistics, Vol. I, 80-81, Oxford: Pergamon Press,
11. Stetkevych S. (2006). The modern arabic literary language, Georgetown University Press, (135p.).
12. عناني، محمد: المصطلحات الادبية الحديثة، مرجع سابق، ص 34
13. مجلّة لسان العرب، العدد: الخامس والاربعون (45)، الرباط – حزيران 1998، ص222.
14. مجلّة لسان العرب، العدد: الخمسون (50)، الرباط – كانون الأوّل 2000، ص232.
15. مجلّة لسان العرب، العدد: الرابع والخمسون (54)، الرباط – كانون الأوّل 2002، ص286.
16. http://www.almaany.com
17. http://www.ru.glosbe.com

д-р филос. по филол. Тарлан Маликов

НЕОЛОГИЗМЫ, СОСТОЯЩИЕ ИЗ СЛОВООБРАЗУЮЩИХ СУФФИКСОВ НА АРАБСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В морфологическом формировании неологизмов в арабском языке особое значение имеют продуктивные суффиксы и определенные модели слов. Неологизмы могут быть получены путем добавления соответствующих суффиксов или окончаний как к чисто арабским словам, так и к заимственным словам. Эти слова считаются неологизмами, которые выражают новое понятие из-за их грамматических особенностей.

Одной из основных целей неологизмов, созданных морфологическим путем, является объяснение на конкретных примерах словообразовательной способности определенных моделей и суффиксов, предоставление информации о происхождении этих суффиксов. Продуктивные суффиксы и определенные моделей слов имеют важную роль в морфологическом образовании новых слов. Эти суффиксы и модели, помимо создания неологизмов, которые выражают определенный смысл из-за их грамматических особенностей, отражают в себе необходимость их связи с другими словами. Поскольку суффиксы не используются отдельно от корня, они не имеют самостоятельного значения и меняются в зависимости от требований корня. Это части слова, которые не используются отдельно, не имеют самостоятельного значения, и когда они присоединяются к корням слова, они меняют либо его форму, либо его содержание вместе с формой. Так же, как суффиксы образуют окончания прилагательного или существительного, модели, в свою очередь, выражаются в определенных формах "баб" глаголов и формах "масдар", "фаил", "мафул". Можно сказать, что неологизмы, образованные словообразовательными суффиксами, раньше формировались на основе синтаксического метода, а затем развились и стали отдельной категорией в образовании неологизмов.

Ключевые слова: *морфологический, суффикс, модель, форма, неологизм.*

PhD Tarlan Malikov

NEOLOGISMS CONSISTING OF WORD-FORMING SUFFIXES IN ARABIC LANGUAGE

ABSTRACT

In the morphological formation of neologisms in Arabic, productive suffixes and certain word patterns are of particular importance. Neologisms can be obtained by adding appropriate suffixes or endings to both purely Arabic words and loanwords. These words are considered neologisms that express a new concept due to their grammatical characteristics.

One of the main goals of morphologically created neologisms is to explain, using specific examples, the derivational ability of certain models and suffixes, to provide information about the origin of these suffixes. Productive suffixes and certain word patterns play an important role in the morphological formation of new words. These suffixes and patterns, in addition to creating neologisms that express a certain meaning due to their grammatical features, reflect the need for their connection with other words. Since suffixes are not used separately from the root, they have no independent meaning and change depending on the requirements of the root. These are parts of a word that are not used separately, do not have an independent meaning, and when they are attached to the roots of a word, they change either its form or its content along with the form. Just as suffixes form the endings of an adjective or noun, the models, in turn, are expressed in certain forms of "bab" verbs and the forms "masdar", "file", "maful". We can say that neologisms formed by derivational suffixes were previously formed on the basis of the syntactic method, and then developed and became a separate category in the formation of neologisms.

Keywords: *morphological, suffix, model, form, neologism*

ƏLYAZMA MƏTNİNİN BİR VƏ YA BİR NEÇƏ NÜSXƏ ƏSASINDA TƏDQİQİ

f.f.d., dos. Rübabə Şirinova,
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi
rubaba.sirinova@mail.ru

XÜLASƏ

Məqalədə mətnşünaslıq nəyə deyilir, onun yaranma tarixi, bir və ya bir neçə əlyazma üzərində aparılan araşdırma haqqında məlumat verilir. Şərqdə və Avropada mətnşünaslığın yaranma tarixi, Xətib Təbrizinin Azərbaycan mətnşünaslığının banisi olması, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan, ən qədim yazılı abidələrdən biri hesab edilən görkəmli dilçi İsmail əl-Cövhərinin "əs-Sihah fi-l-luğə" adlı əsərindən, "əs-Sihah fi-l-luğə" abidəsinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan ən qədim nüsxəsi və onun dağıstanlı alim Məhəmməd Şəfiinin kolleksiyasından köçürülmə tarixindən söhbət açılır.

XI əsrin görkəmli ədəbiyyatşünası və dilçisi Xətib Təbrizinin ərəb ədəbiyyatının 300 illik bir dövrünü və yüzlərlə şairin şerini əhatə edən "əl-Həmasə"nin və "əl-Müfəzzəliyyat"ın, eləcə də Əbu Təmmamın (796-843), Əbul-Əla əl-Məərrinin (973-1057), əl-Mütənəbbinin (915-965), İbn Düreydin və b. əsərlərinin düzgün mətnlərini hazırlamaqla İslam mətnşünaslıq fikrini inkişaf etdirməsi və onu yeni mərhələyə yüksəltməsi, bununla da Azərbaycan mətnşünaslığının əsasının qoyulmasından danışılır. Xətib Təbrizi göstərilən antalogiyanı və məşhur müəlliflərin əsərlərini şərh etməklə bərabər, həm də onların ayrı-ayrı əlyazma nüsxələri üzərində müqayisəli araşdırmalar apararaq, bu əsərlərin düzgün mətnlərini tərtib etməsi, mətnşünaslıq fikrinin inkişafına böyük təkan verməsi, digər tərəfdən isə klassik ərəb poeziyasının ən dəyərli incilərindən sayılan bu əsərlərin düzgün mətnlərinin qorunub-saxlanması və onların gələcək nəsillərə çatdırılmasında ərəb ədəbiyyatı qarşısında əvəzsiz xidmətlər göstərmişdir.

Açar sözlər: *mətnşünaslıq, mətn, əlyazma, Orta əsrlər, kitab.*

Giriş

Ən qədim dövrlərdən başlayaraq, zəmanəmizə qədər dünya xalqlarının keçdiyi müxtəlif inkişaf proseslərində olduğu kimi, Azərbaycan xalqının tarixi keçmişində də kitabın ictimai-mədəni rolu kifayət qədər böyük və çoxyönlü olmuşdur. Uzun əsrlərdən bəri xalqın elm və mədəniyyət tarixinin ayrı-ayrı mərhələlərini və dövrlərini özündə əks etdirən böyük zəkaların və müdrik babaların yaratdıqları dəyərli sənət əsərlərini nəsildən-nəslə verərək, dövrümüzə qədər çatdırmış müasir çap kitablarının sələfləri əlyazma kitabları olmuşdur. Əlyazma kitabı, insan əqlinin ixtira etdiyi ən böyük kəşf sayılan yazının yaradılması ilə bağlı olaraq, yaddaşlarda həkk olunmuş şifahi xalq ədəbiyyatı nümunələrinin yazıya köçürülməsi, elmin, ictimai fikrin və ədəbi yaradıcılığın verdiyi məhsullar, eləcə də başqa dillərdən edilən tərcümələr sayəsində ortaya gəlmişdir. Əlyazma kitablarının başlıca "naşirləri" olan katib və xəttatların gərgin əməyi sayəsində onlar çoxaldılaraq bütün dünyaya yayılmışdır. Katiblər və xəttatlar tərəfindən üzü köçürülərək yayılan əlyazma kitabları müxtəlif xarakterli təhriflərə, ixtisarlara, əlavələrə və s. məruz qalmışdır. Bunun nəticəsində də bir müəllifin ayrı-ayrı dövrlərdə üzü köçürülmüş əsərinin bir-birindən fərqlənən müxtəlif nüsxələri meydana gəlmişdir. Bir sıra Azərbaycan və Şərq klassikləri hələ öz sağlıqlarında əsərlərinin üzünü köçürən katib və xəttatların əlindən şikayətlənmişlər. Bu təhrifləri görən və köçürülən əlyazma kitablarına gəlir mənbəyi kimi yox, xalqın mədəniyyət tarixinin başlıca daşıyıcıları kimi baxan orta yüzilliklərin bir sıra qabaqcıl alimləri və ziyalıları katib təhriflərinin qarşısını almağa başlamışlar. Onlar abidələri hər cür təhriflərdən qorumaq məqsədilə bir əsərin iki, üç və daha artıq nüsxələri əsasında onun müəllif iradəsinə uyğun mətnini hazırlamağa çalışmışlar. Beləliklə də çağdaş mətnşünaslıq elminin ilk rüşeymləri və qaynaqları yaranmağa başlamışdır.

Mətnşünaslıq klassik ədəbi abidələrin mətnləri üzərində aparılan kompleks araşdırmalar nəticəsində meydana gəlmişdir. Mətnşünaslıq filologiyanın ən mühüm və geniş vüsət tapmış müstəqil elm sahələrindən biridir. Bu elmin əsas tədqiqat obyekti avtoqrafları əlimizdə olmayan, ayrı-ayrı dövrlərdə üzü köçürülmüş katib nüsxələrində gəlib bizə çatmış Orta əsrlərin yazılı abidələrinin mətnləridir. Ədəbiyyatşünaslıq, dilçilik, tarix, paleoqrafiya və s. sahələrlə bağlı olan mətnşünaslıq müəyyən metod və prinsiplər əsasında həmin abidələrin mətnlərinin tarixini öyrənir .Görkəmli alim Əziz Mirəhmədov "Ədə-

biyyatşünaslıq terminləri lüğəti" kitabında yazır: "Mətnşünaslıq - ədəbi əsərlərin yaranma tarixini və onların mətninin düzgün olub-olmadığını tədqiq edib öyrənir, bu mətnləri elmi-tənqidi üsulla tərtib edib çapa hazırlayır, müxtəlif nəşrləri zəruri izahlar və qeydlərlə təmin edir. Bütün bu işlərin ədəbiyyatşünaslıq, dilçilik, poetika, kitab nəşri və s. sahələr üçün böyük elmi-əməli əhəmiyyəti vardır. Mətnşünas öz fəaliyyətində biblioqrafiya, məxəzşünaslıq, arxeoqrafiya, paleoqrafiya kimi elmlərdən istifadə edir, yaradıcılığın psixologiyasına arxalanır.

Ədəbiyyatşünaslığın köməkçi bir hissəsi olan mətnşünaslıq, eyni zamanda, onun ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsi qolları ilə sıx bağlı olub, onlar üçün məxəz rolu oynayır.

Müəllif öz əsəri üzərində xeyli işləyəndən sonra mətnin son variantını hazırlayıb, oxucuya bitkin bir şəkildə təqdim etməklə işini qurtarır. Mətnşünas isə bu son variantla birlikdə mətnin yaradıcılıq prosesində hansı mərhələlər keçdiyini, onun hansı qaralamaları, planları, əlavə və pozulmuş yerləri olduğunu da öyrənir.

Qədim abidələrin mətni öyrənilərkən təkcə onların müəllif tərəfindən necə, nə zaman, hansı şəraitdə yaradıldığı deyil, həmçinin sonralar hansı dəyişikliklərə məruz qaldığı da tədqiq edilib müəyyənləşdirilir.

Filologiyanın bir çox sahələrindən fərqli olaraq, mətnşünaslıq bir elm kimi həqiqi inkişaf yoluna son zamanlar düşmüşdür. Sovet mətnşünaslığının formalaşıb inkişaf etməsi məşhur alimlərdən B.Tomaşevski, D.Lixaçov, B.Eyxenbaum və başqalarının adı ilə sıx bağlıdır. Azərbaycanda bu elm, ancaq sovet hakimiyyəti illərində müstəqil inkişafa başlamışdır. Onun Salman Mümtaz, Həmid Araslı, Əbdülkərim Əlizadə və başqa görkəmli mütəxəssisləri vardır.

Sovet mətnşünasları klassik və müasir ədəbiyyatın nəşri və geniş kütlələrə layiqli şəkildə çatdırılması sahəsində böyük, faydalı iş görmüşlər və görürlər. Zəngin folklor irsinin tədqiqi və nəşri sahəsində işlər də çox səmərəli və fərəhləndiricidir.

Azərbaycan mətnşünaslıq elmi Nizami, Nəsimi, Füzuli, Vaqif, Zakir, M.F.Axundov, C.Məmmədquluzadə, Sabir, S.Vurğun və başqa sənətkarların ədəbi irsi üzərində tədqiqat işi apararaq, bu əsərlərin elmi-tənqidi, kütləvi və s. nəşrlərini hazırlamışdır" (1, 110-111).

Şərqdə mətnşünaslıq elmi Avropadan çox-çox qabaqlar yaranmış və ilk elmi-tənqidi mətn hazırlanması işi də məhz müsəlmanlar (ərəblər) tərəfindən həyata keçirilmişdir. Şərqdə ilk elmi-tənqidi mətnşünaslıq işi Qurani-Kərimin mətni üzərində aparılmışdır (2, 3).

Akademik V.M.Məmmədəliyev yazır: "Qurani-Kərimin vahid bir kitab şəklində tərtibinə ilk dəfə Yəməndə baş verən bir vuruşda Allah kəlamını əzbər bilən 70-ə qədər səhabə şəhid olduqdan sonra Ömərin təşəbbüsü ilə Əbu Bəkrin xəlifəliyi zamanında başlamış, sonra bu iş Osmanın xəlifəliyi dövründə davam etdirilmişdi. Məşhur sərkərdə Hüzeyfə bin əl-Yəman hicri 35-ci ildə suriyalı və iraqlı əsgərlərdən ibarət ordunun başında Azərbaycanda döyüşən zaman şamlılar Übeyd ibn Kəbin, kufəlilər Abdullah bin Məsudun, bəsrəlilər isə Əbu Musa əl-Əşərinin tərtib etdiyi Quranı oxuyur, hərə öz nüsxəsinin, öz qiraətinin düzgün olduğunu iddia edirdi. Hüzeyfə Mədinəyə qayıtdıqdan sonra Azərbaycanda baş vermiş hadisəni Osmana danışıb, bu sahədə təcili iş görməyin vacib olduğunu ona demişdi. Xəlifə Osman özü də həmin fərqləri hiss etmişdi. Bir müddət sonra Zeyd ibn Sabitin başçılıq etdiyi işçi heyət Allah kəlamının vahid mətnini tərtib etdi. Osman həmin mətni dörd, yaxud altı nüsxədə yazdırıb, birinci Mədinədə saxladı, digərini Şam, Kufə və Bəsrəyə göndərdi. Qalan bütün nüsxələr isə yığılıb yandırıldı" (3, IX-XII).

Qərbdə ilk mətnşünaslıq işi görülənə qədər İslam dünyasında, artıq bu elm sahəsində külli miqdarda tədqiqatlar aparılmış və elmi biliklər sistemi formalaşmışdır. Mətnşünaslıq elminin vətəni Şərqdir.

Şərq mətnşünaslığının tərkib hissəsi kimi, izləri XI əsrə gedib-çıxan Azərbaycan mətnşünaslığı da zəngin inkişaf yolu keçmişdir. XI əsrin görkəmli ədəbiyyatşünası və dilçisi Xətib Təbrizi ərəb ədəbiyyatının 300 illik bir dövrünü və yüzlərlə şairin şeirlərini əhatə edən "əl-Həmasə"nin və "əl-Müfəzzəliyyat"ın, eləcə də Əbu Təmmamın (796-843), Əbul-Əla Əl-Məərrinin (973-1057), əl-Mütənəbbinin (915-965), İbn Düreydin və b. əsərlərinin düzgün mətnlərini hazırlamaqla İslam mətnşünaslıq fikrini inkişaf etdirib yeni mərhələyə yüksəltmiş, bununla həm də Azərbaycan mətnşünaslığının əsasını qoymuşdur (2, 5-6). O, göstərilən antalogiyanı və məşhur müəlliflərin əsərlərini şərh etməklə bərabər, həm də onların ayrı-ayrı əlyazma nüsxələri üzərində müqayisəli araşdırmalar apararaq, bu əsərlərin düzgün mətnlərini tərtib etmişdir. Bununla da o, bir tərəfdən mətnşünaslıq fikrinin inkişafına böyük təkan vermiş, digər tərəfdən, klassik ərəb poeziyasının ən dəyərli incilərindən sayılan bu əsərlərin düzgün mətnlərinin qorunub saxlanmasında və onların gələcək nəsillərə çatdırılmasında ərəb ədəbiyyatı qarşısında əvəzsiz xidmətlər göstərmişdir (4, 40; 5, 223).

Mətnin tərtibində nüsxə fərqlərinin göstərilməsi mətnşünaslığın ən əsas metodiki üsullarından biridir. Nüsxə fərqlərini göstərmədən

bu və ya digər bir tədqiqatçının mətn üzərində apardığı araşdırmalar, qəbul etdiyi mühakimələr və söykəndiyi üsullar haqqında müəyyən fikir söyləmək mümkün deyildir. Nüsxə fərqlərini mətnin elmi-məlumat aparatında göstərməmək, hətta dərindən tədqiq olunmuş mətnin nəşri sonrakı tədqiqatçıları əsas mətnin düzgün seçilməsini yoxlamaq imkanından məhrum edir. Buna görə də Xətib Təbrizi tədqiq etdiyi əsərin mənbələri üzərində apardığı araşdırmaların nəticəsi kimi, meydana gəlmiş nüsxə fərqlərinin göstərilməsinə böyük əhəmiyyət vermişdir. Odur ki, sonrakı alimlər onun tərtib etdiyi mətnlərin düzgünlüyü və elmi səviyyəsi haqqında müəyyən fikir yürüdə bilmişlər.

"...Tənqidi mətn tərtib etmək sahəsində böyük təcrübəyə, geniş biliyə və sağlam estetik zövqə malik olan Xətib Təbrizi şerlərinə şərh yazdığı şairlərin divanlarının düzgün mətnini müəyyənləşdirməyə xüsusi diqqət yetirmiş, saysız-hesabsız nüsxə fərqlərini aydın göstərmiş, mətnlərin ilkin varianta maksimum yaxınlığını təmin etmək üçün gərgin axtarışlar aparmışdır".

Xətib Təbrizi mətnini tərtib etdiyi əsərdə müəyyən ixtisarlar, yaxud müəyyən əlavələr etməyə cəhd göstərməmişdir. Bəzi hallarda əsərin mənbələri üzərində apardığı tənqidi, müqayisəli araşdırmalar əsnasında aşkar etdiyi əlavə parçaları, ayrı-ayrı şeirləri və qəsidələri əsas mətnə daxil etmək məcburiyyəti qarşısında qalmış və belə hallarda, əsərə daxil etdiyi əlavələr haqqında tədqiqatçılara və oxuculara izahat vermişdir. O, İmriul-Qeysin müəlləqəsindəki "kə ənnə əs-surayya..." sözləri ilə başlayan beytinin şərhini belə tamamlayır: "Bəzi ravilər burada daha dörd beyt olduğunu rəvayət edir və həmin beytlərin bu qəsidədən olduğunu söyləyirlər".

Xətib Təbrizi klassik ərəb ədəbiyyatı nümunələrinin düzgün mətnlərini qoruyub-saxlamaq üçün böyük əmək və bilik sərf etmiş, onları ravilərin müxtəlif uydurmalarından və əlavələrindən qorumağa, hər cür dolaşıqlıqdan qurtarmağa çalışmışdır. Bu məqsədlə o, ayrı-ayrı məxəzlərə söykənərək, hər hansı bir beytdə olan sözlərin belə müxtəlif variantlarının hansı ravilərə məxsus olduğunu müəyyənləşdirməyə cəhd etmişdir. Məsələn o, Tarafanın qəsidəsində "və xəddun kə qirtasi..." sözləri ilə başlayan beytdəki "və xəddun" ifadəsi müəlləqələrin Əhməd bin Abidin xətti ilə yazılmış rəvayətində "və vachun" kimi olduğunu göstərir. Xətib Təbrizi, Məhəmməd bin Həsən ət-Tusi və əl-Təvazzi göstərilən sözün "və xəddun" variantını rəvayət etmişlər. Xətib Təbrizi dövrünün yetkin ədəbiyyatşünas alimi kimi, mətnini tərtib etdiyi əsərin əlyazma nüsxələrində yol verilmiş təhriflərin, ixti-

sarların, əlavələrin və s. dəyişmələrin səbəb və məqsədlərini diqqətlə araşdırmış, onların heç biri tədqiqatdan kənarda qalmamışdır.

Məlumatlara görə, Orta əsr klassikləri əvvəlcə yazdıqları əsərlərə sonradan tənqidi yanaşaraq, onların mətnləri üzərində redaktə işi aparmış və bununla da eyni bir əsərin yeni redaksiyasının meydana gəlməsinə səbəb olmuşlar. Mətnin tənqidində ən ciddi və çətin məsələlərdən biri olan müəllif redaktəsinin müəyyənləşdirilməsinə Xətib Təbrizi xüsusi diqqət yetirmişdir.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan ən qədim yazılı abidələrdən biri görkəmli dilçi İsmail əl-Cövhərinin "əs-Sihah fi-l-luğə" adlı əsərinin əlyazmasıdır (6). Dağıstanlı alim Məhəmməd Şəfiinin kolleksiyasından olan bu əlyazması onun əcdadları tərəfindən XVII əsrdə Şam (Dəməşq) şəhərindən gətirilmişdir. Əsərin bu nüsxəsi hicri 510-cu ilin ramazan ayında (yanvar 1117) katib Əli bin Əbdülcəlil bin Əli bin Məhəmməd tərəfindən köçürülmüşdür. Bu dəyərli, qədim yazılı abidə, Əbu Səhl əl-Hərəvinin avtoqrafdan köçürdüyü əlyazması ilə Xətib Təbrizi tərəfindən tutuşdurularaq, təshih edilmiş nüsxədən yazılmışdır (**7**, 20). Əsərin birinci hissəsinin sonundakı kalafonda katib belə yazır: "Bu hissənin hamısını ər-Rza Əbulqasim Əli bin Tərrad əz-Zəbininin nüsxəsindən köçürdüm. Bu nüsxə isə "əs-Sihah" kitabının müəllifi, Əbu Nasr İsmail bin Həmmad əl-Cövhərinin xətti ilə yazılmış avtoqrafdan Əbu Səhl əl-Hərəvinin xətti ilə köçürülmüş və Əməvilər ağsaqqalı Əli-Tahirə məxsus olan nüsxə ilə şeyx, imam Əbu Zəkəriyyə Yəhya Əli əl-Xətib ət-Təbrizi tərəfindən tutuşdurulmuş, təshih edilmiş və aşkarlanan fərqli cəhətlər yazılmışdır. Əsərin bu hissəsini heç bir əlavə, yaxud ixtisar etmədən, köçürülən nüsxədə olduğu kimi düzgün yazmağa və diakritik nöqtələrini qoymağa çalışdım. Onu hicri 510-cu ilin ramazan ayında Mədinətu-s-sələmdə (Bağdadda) Əli bin Əbdücəlil Əli bin Məhəmməd yazıb başa çatdırdı" (6, 120a).

Yuxarıda deyildiyi kimi, katib Xətib Təbrizinin əlyazmanın haşiyələrində qeyd etdiyi nüsxə fərqlərini, izahları olduğu kimi bu əlyazmasına köçürmüşdür. Burada bir sıra mətnşünaslıq işarələrinə də təsadüf edilir.

Verilən araşdırmalar sübut edir ki, Azərbaycanın mütəfəkkir alimi Xətib Təbrizi hələ XI yüzillikdə ədəbiyyatşünaslığın ən mühüm sahələrindən biri olan mətnşünaslıq elminin inkişaf etdirilməsində ciddi fəaliyyət göstərmişdir.

Mətnlər üzərində aparılan tekstoloji araşdırmalar zamanı mə-

lum olmuşdur ki, bir sıra hallarda bir abidə iki əsər kimi və ya əksinə, iki əsər bir abidə kimi verilmişdir. Bir sıra hallarda isə iki yerə bölünmüş bir əsərin əlyazmasının hər birinə ayrıca şifr verilərək, ayrı-ayrı əlyazmalar kimi təqdim edilmişdir. Orta əsrlərdə bir əsərin mətnini tez köçürmək məqsədilə onun köçürülməsində bir yox, bir neçə katib iştirak etmişdir. Bəzi hallarda həmin katiblərdən hər birinin köçürdüyü hissə ayrıca əlyazma kitabı kimi hazırlanmışdır. Bu da həmin əsərin əlyazmasını kitab dükanlarında və bazarlarda daha sərfəli qiymətlərə satmaq məqsədilə edilmişdir. Bir sıra hallarda isə əsərin tez nəşr edilməsi məqsədilə onu hissələrə bölmüşlər. Bütün göstərilən təhrif, dəyişmə və ixtisarlardan sonra əsərin mətnini bir nüsxə əsasında tədqiq etməyin nə dərəcədə ağır bir proses olduğunu təsəvvür etmək o qədər də çətin deyildir. Belə tədqiqat mətnşünasdan böyük bilik, geniş əhatəli araşdırmalar və mətnin hər bir sözünə və ifadəsinə, onun ümumi quruluşuna və mövzusuna olduqca böyük məsuliyyət hissi ilə yanaşmağı tələb edir (7, 21).

Mətnşünasın cüzi etinasızlığı müəllif iradəsinə, ideyasına və stilinə ciddi təsir edə bilər.

Buna görə də mətninin bir nüsxə əsasında araşdırılması və nəşrə hazırlanması mətnşünas üçün ən çətin və ən ciddi mərhələdir. Mətnşünas ilkin mərhələdə, ancaq əlində olan əlyazmanın mətnini müəyyənləşdirmiş olur. Tədqiqatçı əsərin mətnini əlində olan yeganə əlyazma nüsxəsi əsasında dərindən araşdırdıqdan sonra onu nəşr üçün tərtib edə bilər.

Tekstoloji araşdırmalar prosesində mətnin düzgün oxunması ciddi məsələlərdən biridir, çünki mətnin düzgün oxunması onun düzgün başa düşülməsi deməkdir. Əgər katib köçürmə prosesində hansısa bir sözün və ya ifadənin yazılışında müəyyən xətaya yol vermişsə, tədqiqatçı onun, yəni xətanın meydana gəlmə səbəblərini müəyyənləşdirərək, onun xəta olduğunu dərk etməlidir.

Bu xətaların, katibin iradəsindən asılı olmayaraq, yaxud məqsədyönlü şəkildə, yaxud da orijinalda və ya köçürülən əlyazmasında olan sözün və ya ifadənin katib tərəfindən başa düşülmədiyindən onu olduğu kimi yazmağa çalışarkən səhvə yol verdiyindən və s. meydana gəldiyini müəyyənləşdirib elmi əsaslarla şərh etmək lazımdır. Ərəb hərflərinin bir qismi bir-birindən nöqtələri ilə fərqləndiyindən, ümumiyyətlə, nöqtələr ərəb yazısında mühüm rol oynadığından, sözlərdən bir nöqtənin düşməsi, yaxud artıq və ya əskik qoyulması nəticəsində sözlərin mənaları tamamilə dəyişmiş olur.

Belə hallarda mətnşünas diqqətli olmalı, onların düzgün variantlarını göstərək, doğrudan da katib tərəfindən mexaniki xətalar olduğunu aydınlaşdırmalıdır.

Mətnşünas əlyazma abidələrində olan imla və qrafika müxtəlifliyinə baxmayaraq, əlində olan yeganə əlyazmasının imla qaydasını düzgün oxuyub, dərk etməli və tərtib edəcəyi mətndə olduğu kimi dəyişmədən saxlamalıdır. Ayrı-ayrı dövrlərdə yazılmış və köçürülmüş abidələrin orfoqrafik xüsusiyyətlərinin öyrənilməsi dil tarixi, xüsusilə də tarixi fonetikanın araşdırılması üçün ciddi əhəmiyyətə yiyələnir.

Bununla bərabər tədqiqatçı mətndə olan ixtisarları, şərti işarələri açmalı və şərh etməlidir. Bunu etmədən o, mətni tam şəkildə dərk edə bilməz. Bunların düzgün dərk edilməsi və açılması üçün mətnşünas ilk növbədə dil tarixinə və orta əsr mətnşünaslığına yiyələnmiş mütəxəssis olmalıdır.

Orta əsr yazılı abidələrinin üzlərini köçürərkən katib və xəttatların mətnlərində yol verdikləri müxtəlif xarakterli təhrifləri nəzərə alsaq, bu zaman hər hansı bir klassikin əsərini bir katib nüsxəsi əsasında tekstoloji baxımdan araşdırmağın nə dərəcədə ağır olduğunu təsəvvür etmək o qədər də çətin deyildir. Bu tipli abidə üzərində tekstoloji tədqiqat aparan mətnşünas atribusiya məsələlərini düzgün həll etmək, mətndə katib təhriflərini elmi müddəalar əsasında müəyyənləşdirmək və əsəri hər cür yabançı ünsürlərdən təmizləmək üçün müəllifin dövrünü, həyat və yaradıcılığını, dilini və üslubunu dərindən öyrənməlidir.

Bütün yuxarıda deyilənlərlə yanaşı, mətnşünas mətnini tədqiq etdiyi əsərin yeganə əlyazmasını da diqqətlə öyrənməlidir, çünki əlyazmanın özü də tədqiqatçıya mətnin tərtibində kifayət qədər maraqlı məlumatlar verə bilər. Bu məlumatlar mətnin tarixinin öyrənilməsində, əlyazmanın köçürülmə şəraiti və onun sonrakı taleyinin müəyyənləşdirilməsində çox faydalı materiallar kimi araşdırmalara cəlb edilir. Bir çox hallarda əlyazmaların haşiyələrində mətnə düzəlişlər edilərək, nüsxə fərqləri, mətndən düşmüş sözlər və ifadələr, bəzi hallarda isə tam bir və ya bir neçə beytin mətndən düşdüyü göstərilir.

Tədqiq edilən mətnin çoxsaylı əlyazma mənbələrinin araşdırılması mətnşünasın apardığı tekstoloji işin ən mühüm mərhələsidir. Mətnşünas bu mərhələdə əsərin əldə etdiyi nüsxələrini müqayisəli surətdə tutuşduraraq, onun mətninin tarixini öyrənir. Əsərin əlyazma nüsxələrinin müqayisəli surətdə araşdırılması zamanı həyata keçirilən başlıca tədqiqat işi əsas mətnin seçilməsi və əlyazmalar arasında aş-

kar edilən nüsxə fərqlərinin öyrənilməsi və təhlili ilə bağlıdır. Adətən, Şərq, eləcə də Azərbaycan klassikləri əsərlərinin elmi-tənqidi mətni tərtib edilərkən mövcud nüsxələr içərisində üstünlük əsasən ən qədim, müəllifin dövrünə daha yaxın bir vaxtda köçürülmüş əlyazmasına verilir, yəni əsas mətn kimi ən qədim əlyazması seçilir. Bu da onunla əsaslandırılır ki, müəllifin dövrünə daha yaxın vaxtda köçürülmüş əlyazması sonralar köçürülən nüsxələrdən daha az təhrif olunmuşdur.

Əsas mətnin seçilməsində istifadə edilən bu prinsip yalnız Azərbaycan mətnşünaslığında deyil, eyni zamanda, bütün Şərq ölkələrində ədəbiyyat abidələri üzərində tekstoloji araşdırmalar aparılarkən əsas götürülmüşdür.

Klassiklərin əsərlərinin əlyazma nüsxələri üzərində aparılan tekstoloji araşdırmalar göstərir ki, istənilən klassikin öz dövrünə yaxın vaxtlarda üzü köçürülmüş əsərlərinin əlyazmalarına nisbətən sonralar köçürülmüş nüsxələrində əsərlərin mətni daha çox təhrif edilmişdir. Buna görə də mətnşünaslar əsas mətnin seçilməsində qədim nüsxəyə üstünlük verirlər.

Azərbaycanın tanınmış mətnşünas alimi Ə.Əlizadə də özünün mətnşünaslıq fəaliyyətində elmi-tənqidi mətnini tərtib etdiyi əsərlərin qədim nüsxələrinə həmişə üstünlük vermiş və onları əsas mətn kimi seçmişdir. O, bununla əlaqədar belə yazır: "Bizim tənqidi mətn tərtibindəki prinsipimiz əsas etibarilə ondan ibarət olmuşdur ki, avtoqraf nüsxələr əldə olmadıqda müəllifin yaşadığı dövrə yaxın zamanda üzü köçürülən əlyazmaları əsas götürülmüşdür" (8, 23).

Abidənin bütün əlyazma nüsxələri üzərində müfəssəl müqayisəli tekstoloji araşdırmalar aparmadan kor-koranə əsərin ən qədim nüsxəsidir deyə onu əsas mətn kimi götürmək olmaz. Əsərin ən qədim nüsxəsindən fərqli olaraq, sonrakı dövrlərə aid olan əlyazmaları arasında elələri də ola bilər ki, müəllif nüsxəsindən, yaxud müəllif nüsxəsindən köçürülmüş nüsxədən, yaxud da müəllifin axırıncı redaksiyasından köçürülmüş olsun. Buna görə də əsas mətnin seçilməsi əsərin əlyazmaları üzərində aparılan dəqiq araşdırmalara söykənməlidir. D.S.Lixaçev haqlı olaraq yazır ki, "Ən qədim mətn, daha qədim nüsxədən köçürülmüş daha cavan nüsxədə təqdim edilə bilər" (9, 15).

Filologiya elmləri doktoru, professor Kamandar Şərifov "Mətnşünaslığın nəzəri əsasları" kitabında yazır: "Əsas mətn anlayışı müəyyən dərəcədə şərtidir, çünki katiblərin, xəttatların və filoloqların Orta əsrlərdə klassiklərin əsərlərində hansı təhriflərə yol verdikləri yuxarıda şərh sdilmişdir. Bu təhriflərin bir qismi aparılan tekstoloji araşdır-

malar nəticəsində aradan qaldırılsa da, başqa bir hissəsini müəllif iradəsinə uyğun şəklə salmaq mümkünsüz olur. Elə təhriflər var ki, onlar müəllifin əsərinin Orta əsr əlyazmalarına nüfuz edərək geniş yayılmış, elə dəyişmələr də vardır ki, onlardan hamısının müəllifə mənsub olduğunu müəyyənləşdirmək çox çətindir". Müəllif mətnində elə təhriflər də ola bilər ki, onlar tədqiqatçının diqqətindən kənarda qalmış olar. Buna görə də klassiklərin əsərlərinin elmi-tənqidi mətnini tərtib edən tədqiqatçılar heç zaman tərtib etdikləri mətnin tamamilə müəllif iradəsini ifadə etdiyi haqqında hökm verməmişlər. Onlar tədqiq etdikləri əsərin mətnini maksimum dərəcədə müəllif iradəsinə yaxın bir şəkildə hazırlamağa çalışmışlar.

Avtoqraf əldə olmadıqda istənilən klassikin əsərinin mətnini katib nüsxələri əsasında tam müəllif iradəsini ifadə edən bir şəkildə hazırlamağın mümkünsüz olduğunu istər keçmiş yüzilliklərin, istərsə də müasir dövrün alimləri dəfələrlə qeyd etmişlər.

Mətnşünas təhrifləri üzə çıxarmaq məqsədilə əsərin əlyazma nüsxələrini araşdırır, onları bir-biri ilə, eləcə də hər nüsxəni ayrılıqda əsas mətn ilə tutuşduraraq, nüsxələr arasında aşkar etdiyi nüsxə fərqlərini təhlil edir və onların yaranma səbəblərini müəyyənləşdirir.

Hər şeydən öncə qeyd edildiyi kimi, mətnin bütün əlyazma nüsxələri kompleks şəkildə araşdırılmalıdır. Bütün qərarlar bu araşdırmalar nəticəsində qəbul edilməlidir. Mətnşünas "nümunəvi mətni" müəyyənləşdirərkən onu mümkün qədər müxtəlif xarakterli təhriflərdən təmizləməyə və onu müəllif iradəsinə yaxın bir şəklə salmalıdır. Əsas mətndə təhriflərin bir qismi əsərin başqa nüsxələrinin əsas mətnlə aparılan müqayisələri araşdırmalarının nəticələrinə əsasən islah edilir. Bununla bərabər, bəzi təhriflərin islahı əsas mətn üzərində mənaya, kontekstə, qrammatik qaydalara və s. əsaslanaraq aparılan məntiqi təhlillər sayəsində həyata keçirilə bilər. Belə metod, təhriflərin başqa nüsxələr əsasında islahı mümkün olmadıqda, yəni onlar da nöqsanlı olduqda tətbiq edilə bilər. Beləliklə, istənilən klassik abidə üçün hazırlanan nümunəvi mətn hərtərəfli, geniş elmi-tekstoloji araşdırmalara söykənməlidir.

Nəticə

Beləliklə, məqalədə mətnşunaslığın yaranma tarixi Azərbaycanda və Avropada olan ilk mətnşünas alimlər və onların əsərləri haqqında məlumat vermişik. Bu alimlərin Əlyazmalar İnstitutunda qorunub-saxlanan əsərləri və onların mətnşünaslıq baxımından tədqiqindən

söhbət açmışıq. Filologiya elmləri doktoru, professor Kamandar Şərifovun "Mətnşünaslığın nəzəri əsasları" kitabından nümunələr vermişik.

ƏDƏBİYYAT

1. Mirəhmədov Ə. (1978). "Ədəbiyyatşünaslıq terminləri lüğəti". Bakı: "Maarif" nəşriyyatı.
2. Adilov M. (2003). "Türk mətninin transfonelitersiya problemləri". Bakı: "Nurlan".
3. Quran. (1992). Ərəb dilindən tərcümə edənlər: Ziya Bünyadov və Vasim Məmmədəliyev. Azərnəşr.
4. Mahmudov M. (1972). Xətib Təbrizinin həyat və yaradıcılığı. Bakı, "Elm" nəşriyyatı.
5. Şərifli K. ().2019. Əsərləri-III. Bakı: "Elm və Təhsil".
6. Əl-Cövhəri İsmail. "Əs-Sihah fi-l-luğa". M-389. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.
7. Şərifli K. (2011). Mətnşünaslığın nəzəri əsasları. Bakı: "Nurlan".
8. Əlizadə Ə.Ə. (1970). Azərbaycanda mətnşünaslığın inkişafı ta rixindən. - Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası). №2. Bakı: "Elm".
9. Лихачев Д.С. (1962). Текстология (на материале русской литературы X-XVII вв.). Москва-Ленинград. "Изд-во Академии Наук СССР" (Ленинградское отделение).

д-р филос. по филос., доц. Рубаба Ширинова

ИССЛЕДОВАНИЕ РУКОПИСНОГО ТЕКСТА НА ОСНОВЕ ОДНОГО ИЛИ НЕСКОЛЬКИХ ЭКЗЕМПЛЯРОВ

РЕЗЮМЕ

Статья посвящена текстоведению, истории его возникновения, исследованию одной или нескольких рукописей. Рассматривается история возникновения текстоведения на Востоке и в Ев-

ропе, становление Хатиба Тебризи основоположником азербайджанского текстоведения, работа выдающегося лингвиста Исмаила аль-Джаухари "ас-Сихах фи аль-луга", хранящаяся в Институте рукописей имени Мухаммеда Физули НАНА и считающаяся одним из древнейших письменных памятников, история древнейшей копии "ас-Сихах фи аль-луга", хранящейся в Институте рукописей имени Мухаммеда Физули НАНА, и ее передачи из коллекции дагестанского ученого Мухаммеда Шафи. Также была предоставлена информация о том, что этот ценный письменный памятник древности был сравнен Хатибом Тебризи с рукописью, переписанной с подлинной рукописи Абу Сахла аль-Харави, и записан с исправленного экземпляра.

Подготовив правильные тексты "Аль-хамаса" (Отвага) и "Аль-Муфаддалийят" (Стихи, собранные аль-Муфаддалем), охватывающих 300-летний период арабской литературы и стихотворения сотен поэтов, а также произведений Абу Таммама (796-843), Абу-ль-Аля аль-Маарри (973-1057), аль-Мутанабби (915-965), Ибн Дурейда и других авторов, выдающийся литературовед и лингвист XI века Хатиб Тебризи развил идею исламского текстоведения и поднял ее на новый уровень, заложив тем самым основы азербайджанского текстоведения. Наряду с комментированием указанных антологий и произведений известных авторов, Хатиб Тебризи внес бесценный вклад, с одной стороны, в арабскую литературу проведением сравнительных исследований их отдельных рукописных экземпляров, составлением правильных текстов этих произведений, стимулированием развития текстоведческой мысли, а с другой стороны, в сохранение правильных текстов этих произведений, считающихся ценнейшими жемчужинами классической арабской поэзии, и в их передаче будущим поколениям.

Ключевые слова: *текстоведение, текст, рукопись, Средневековье, книга.*

Assoc. Prof. Rubaba Shirinova

STUDYING THE TEXT OF THE MANUSCRIPT BASED ON ONE OR MANY COPIES

ABSTRACT

The article provides information on what textual criticism is, its history, research of one or several manuscripts. The history of textual studies in the East and Europe, the fact that Khatib Tabrizi was the founder of Azerbaijani textual criticism, is one of the oldest written monuments stored at the Institute of Manuscripts named after Mohammad Fizuli of ANAS. The oldest copy of the monument "as-Sihah fi-l-lugha", kept at the Institute of Manuscripts named after Mohammad Fizuli of ANAS, and the date of its transfer from the collection of the Dagestan scholar Mohammad Shafii. It was also reported that this valuable ancient written monument was compared to a manuscript copied by Abu Sahl al-Haravi and written from a copy revised by Khatib Tabrizi.

"Al-Hamasa" and "al-Mufazzaliyyat", which cover a 300-year period of Arabic literature and poetry by hundreds of poets, as well as the works of Abu Tammam (796-843) and Abul-Ala al-Maarri (973-1057), al-Mutanabbi (915-965), Ibn Dureydi and others. They say that, having developed the correct texts of his works, he developed the idea of Islamic textual criticism and raised it to a new level, thereby laying the foundation of Azerbaijani textual criticism. In addition to commenting on the anthology and works of famous authors, Khatib Tabrizi also conducted a comparative study of their individual manuscripts. He rendered an invaluable service to Arabic literature, preserving the correct texts of works and passing them on to future generations.

Keywords: *textology, text, manuscript, medieval, book*

AZƏRBAYCANIN XƏZƏRƏTRAFI ƏRAZİLƏRİ ƏBDÜRRƏŞİD ƏL-BAKUVİNİN "KİTAB TƏLXİS ƏL-ASAR VƏ ƏCAİB ƏL-MƏLİK ƏL-QƏHHAR" ƏSƏRİNDƏ

i.f.d., dos. Şahlar Şərifov,
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
Azərbaycanın Orta əsrlər tarixi şöbəsinin aparıcı elmi işçisi
shahlarsharifov@gmail.com

XÜLASƏ

Orta əsr Azərbaycan və onun Xəzərətrafı əraziləri haqqında məlumat verən alimlərdən biri də əslən Azərbaycandan olan Əbdürrəşid əl-Bakuvidir. O, Azərbaycana və bir sıra başqa ölkələrə səyahət etmiş, gördüyü yerlər haqqında gərəkli və ətraflı fikirlər söyləmişdir. Onun yazdığı coğrafi əsərlərin əksəriyyəti günümüzə gəlib çatmamışdır. Onlardan bizə, ancaq "Əcib-əl-Malik", "Əl-Kaxar", "Təlxis-əl-Asar" kitabı və s. gəlib çatmışdır. Əbdürrəşid əl-Bakuviyə böyük şöhrət gətirən "Kitab Təlxis əl-asar və əcaib əl məlikəl qəhhar" əsəri o zaman Şərqdə məlum olan ölkə və millətlər haqqında məlumat verir. Əsər yeddi iqlimdən ibarətdir. Əsərdə hər iqlimə daxil olan ölkələr, yerlər, şəhərlər haqqında coğrafi təsvirlər verilir, coğrafi şəraitin və iqlimin insan həyatına təsiri məsələlərinə toxunulur. Qeyd edilən əsərdə Əbdürrəşid əl-Bakuvi yaxşı tanıdığı Azərbaycan və xüsusilə də Bakı haqqında daha çox orijinal məlumatlar vermişdir. O, Azərbaycanı IV, V və VI iqlim qurşaqları zonasına aid edərək Azərbaycan və onun Xəzərətrafı əraziləri haqqında geniş məlumatlar verir.

L.S.Berq Xəzərə aid məruzələrinin birində Ə.Bakuvini Xəzərin əvəzedilməz tədqiqatçısı adlandırmışdır. O, nəinki Azərbaycan və Xəzər haqqında, həmçinin bir sıra digər ölkələr barədə də qiymətli məlumatlar vermişdir.

Bir çox alimlərdən fərqli olaraq əl-Bakuvi Azərbaycan və onun Xəzərətrafı əraziləri xüsusilə, Bakı şəhəri haqqında ətraflı və dəqiq məlumatlar verir. Bu da əsərin sanbalını bir az da artırır.

Açar sözlər: *Azərbaycan, Xəzərətrafı ərazilər, Əbdürrəşid əl-Bakuvi, coğrafiyaşünas, Arran vilayəti.*

Giriş

Qədim mədəniyyət ocaqlarından olan Azərbaycan bir çox coğrafiyaçıların, səyyahların, diplomatik elçilərin, tarixçilərin diqqətini özünə cəlb etmişdir. Azərbaycan haqqında ilk yazılı coğrafi məlumatlara qədim yunan və Roma səyyahları və alimlərinin əsərlərində rast gəlirik. Yunan alimlərindən Herodot, Klavdi Ptolemey, Strabon və digərlərinin əsərlərində Azərbaycan, Xəzər dənizi və onun özü haqqında çox maraqlı məlumatlar verilmişdir. Həmçinin "Kitabi-Dədə Qorqud" dastanı və yerli Alban alimlərindən Moisey Kalankaytuklu ("Albanların tarixi") ölkəmiz haqqında xeyli məlumat vermişlər (Həsənli F.A., Əliyev M.C 2009, 216).

Qədim mənbələrdən istifadə edən rus şərqşünası İ.V.Berezin də Xəzər və çevrəsi haqqında olduqca qiymətli məlumatlar vermişdir. Görkəmli şərqşünas Xəzər dənizi haqqında yazır: "Qədim coğrafiyaçılar Xəzər dənizini yerli xalqın adı ilə Hirkan dənizi, ərəb müəllifləri şimal-qərb sahillərində yaşayan Xəzərlərin adı ilə Xəzər dənizi, rus mənbələri isə Xvalınska və yaxud Xvalisski adlandırırdılar" (İ.Berezin Moskva-1849, 40).

Azərbaycan haqqında daha zəngin və ardıcıl coğrafi məlumatlar Orta əsrlərdə toplanmışdır. VII əsrdə xəlifə Ömər ibn əl-Xəttabın dövründə ərəb ordusu tərəfindən fəth edilən Azərbaycan daha çox öyrənilməyə başlanır. IX əsrdən başlayaraq Azərbaycana səyahət edən bir çox ərəb səyyahları Azərbaycan haqqında zəngin məlumatlar toplamışlar.

Ərəb müəlliflərinin əsərlərində VII əsrdən başlayaraq Azərbaycanda baş verən hadisələrə dair məlumatlar şərh olunur. Orta əsr ərəbdilli müəlliflərindən İbn Xordadbeh, İbn əl-Fəqih əl-Həmədani, ət-Təbəri, Qudama ibn Cəfər, əl-Məsudi, əl-İstəxri, İbn Havqəl, əl-Müqəddəsi, Yəqubi, Yaqut əl-Həməvi və başqaları Azərbaycanın sərhədləri, şəhərləri, kəndləri, qalaları və burada baş verən hadisələr haqqında geniş məlumatları öz əsərlərində qeyd edirlər (İbn Xordadbeh 1889, 122; İbn əl-Fəqih 1996, 582; Təbəri 1970, IV, 155-156; Qudama 1981, 111; əl-Məsudi 2005, 142; əl-İstəxri 1870, 192; İbn Havqəl 1992, s.285; Müqəddəsi 1991, 374; Yəqubi 1860, 47).

Ərəbdilli müəlliflərdən olan İbn Xordadbehin (820-912) "Kitab əl-məmalik vəl-məsalik" əsəri Azərbaycanın tarixi coğrafiyası üçün mühüm mənbələrdən biridir. Adıçəkilən əsərində Azərbaycanı əl-Cəbri ölkəsinə daxil edən İbn Xordadbeh Azərbaycanın Bacərəvan, əs-Səlaq, Sindəbaya, əl-Bəzz, Urm, Bəlvankərc, Sərat, Dəskiyavər, Məyən-

hərc kimi şəhər və rustaqlarının adlarını çəkir (Vəlixanlı 1974, 17). "Kitab əl-buldan" əsərində Azərbaycanın sərhədləri, ərəblər tərəfindən işğalı, şəhərləri, kəndləri və Azərbaycan xalqının ərəb xilafətinə ödədiyi xəracın miqdarı haqqında məlumat verən İbn əl-Fəqih əl-Həmədani, həmçinin qeyd edir ki, Azərbaycanın şimal hissəsində - Arranda 4000 kənd vardır (Şərifli 1978, 61).

İbn Xaukal – X əsr səyyahı – "Dövlətin yolları" kitabında verdiyi xəritələrdə Xəzər dənizi və onun Azərbaycan sahillərini dəqiq əks etdirmişdir. Kitabın xəritə və təsvirlərində Azərbaycan adları çox dəqiq, təhrifsiz qeyd olunmuşdur.

Onuncu əsr ərəb coğrafiyaşünas səyyahlarından əl-İstəxri "Kitab əl-Məsalik vəl-məmalik" əsərində Azərbaycan şəhərləri, onun dəniz sahilləri, Qəbələ, Bərdə, Şamaxı və Şəki şəhərlərinə gedən yollar və s. haqqında məlumat vermişdir (Vəlixanlı 1974, 90).

XIII-XV əsrlərdə Azərbaycanın öyrənilməsində Marko Polo və digər Venesiya tacirlərinin rolu böyük olmuşdur. Azərbaycanı başdanbaşa "şəhərlər və qalalar" ölkəsi adlandıran Marko Polo öz səyahətnaməsində qeyd edir ki, burada şəhərlər, qalalar olduqca çoxdur; çoxlu ipək var. Burada ipək və zərxana, parçalar toxunur; belə gözəl parçalara heç yerdə rast gəlməzsən. Hər şey burada boldur. Əhali ticarət və sənətkarlıqla məşğul olur (Həsənli F.A., Əliyev M.C 2009, 217).

Afanasi Nikitinin Azərbaycan haqqında məlumatları daha genişdir. 1466-cı ildə Şirvan şahının Moskvadan qayıdan səfiri Həsən bəylə Kalinin şəhərində görüşərək, Hindistana getmək üçün Azərbaycana gəlir. Dərbənd, daha sonra isə Bakı və Şamaxıda olmaqla İrandan keçərək Hindistana yola düşür. Altıillik səyahətinin nəticəsi olaraq, "1466-1472-ci illərdə "Üç dəniz arxasına səyahət" əsərini yazan səyyah Azərbaycan haqqında geniş məlumat verir (Həsənli F.A., Əliyev M.C. 2009, 217).

X-XI əsrin alimlərindən olan əl-Biruni Azərbaycanın Şirvan, Bərdə, Dərbənd, Təbriz, Beyləqan, Bakı, Urmiya, Naxçıvan və s. şəhərləri haqqında məlumat vermişdir. Azərbaycan şəhərlərinin dəqiq coğrafi koordinatlarını təyin edən alim ilk dəfə Xəzərin böyük göl olduğunu söyləmişdir.

Bu alimlərlə yanaşı, Orta əsr azərbaycanlı alim və səyyahları da Azərbaycan haqqında geniş məlumatlar vermişlər. Belə alimlərdən Hacı Zeynalabidin Şirvaninin (1780-1837) adını qeyd edə bilərik. O, "Riyazüs-səyahət", "Hədaiqüs-səyahət" və "Bustanus-səyahət" adlı irihəcmli coğrafi və fəlsəfiməzmunlu əsərlərində Yaxın və Orta Şərq öl-

kələri, Hindistan, Efiopiya, Orta Asiya və Azərbaycanın coğrafiyası, tarixi, etnoqrafiyası, incəsənəti, mədəniyyəti, abidələri, ədəbiyyatı və bəzi görkəmli şəxsiyyətləri haqqında qiymətli məlumatlar vermişdir.

Seyid Əbdürrəşid əl-Bakuvinin həyatı haqqında

Azərbaycan və onun Xəzərətrafı əraziləri haqqında geniş məlumat verən Orta əsr alimlərindən biri də Seyid Əbdürrəşid əl-Bakuvidir. Tanınmış səyyah, coğrafiyaşünas, astronom azərbaycanlı alimlərdən olan Seyid Əbdürrəşid ibn Saleh ibn Nuri əl-Bakuvi XIV əsrin ikinci yarısında – XV əsrin əvvəllərində yaşamışdır. Onun atası Bakıda doğulmuş və dövrünün yüksək təhsil görmüş şəxslərindən biri olmuşdur. Əbdürrəşid əl-Bakuvi doğma Bakımız haqqında belə yazmışdır: "Bakı - mənim atam, alim İmam Saleh ibn Nurinin vətənidir" (Əbdürrəşid əl-Bakuvi 1992, 118).

Əl-Bakuvi 1335-1360-cı illər arasında Bakıda doğulmuş və təqribən, 1425-1430-cu illərdə Qahirədə vəfat etmişdir (Kraçkovski 1957, 512).

Azərbaycana və bir sıra başqa ölkələrə səyahət etmiş, gördüyü yerlər haqqında gərəkli fikirlər söyləmişdir. Onun yazdığı coğrafi əsərlərin əksəriyyəti günümüzə yetməmişdir. Onlardan bizə, ancaq "Əcib-əl-Malik", "Əl-Kaxar", "Təlxis-əl-Asar" kitabı və s. gəlib çatmışdır. Sonuncu kitab dünya coğrafiyasına aid qiymətli əsərdir. Burada o dövrdə bütün Şərq ədəbiyyatında qəbul edilən xüsusi rayonlaşdırmadan və dünyanın xüsusi iqlimlərə bölünməsindən geniş bəhs olunur. Hər iqlimə daxil olan ölkələr, yerlər, şəhərlər haqqında coğrafi təsvirlər verilir, coğrafi şəraitin və iqlimin insan həyatına təsiri məsələlərinə də toxunulur. Həmin kitabda Azərbaycan IV, V və VI iqlim zonasına daxil edilmiş və onun təbiəti, şəhərləri (Bakı və ətrafı, Bərdə, Dərbənd, Şirvan, Ərdəbil və s.) təsvir olunmuşdur. L.S.Berq Xəzərə aid məruzələrinin birində Ə.Bakuvini Xəzərin əvəzedilməz tədqiqatçısı adlandırmışdır. O, nəinki Azərbaycan və Xəzər haqqında, həmçinin bir sıra digər ölkələr barədə də qiymətli məlumatlar vermişdir.

Əbdürrəşid əl-Bakuviyə böyük şöhrət gətirən "Kitab Təlxis əl-asar və əcaib əl məlikəl qəhhar" ("Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri") əsəri o zaman Şərqdə məlum olan ölkə və millətlər haqqında məlumat verir. Tədqiqatçıların əksəriyyəti belə hesab edir ki, kitab XV əsrin birinci yarısında yazılmış, əlyazma nüsxəsi isə 1624-cü ildə köçürülmüşdür. Bu kitabın və onun fars dilinə tərcüməsinin başqa nüsxələri də vardır ki, dünyanın müxtəlif kitabxanala-

rında saxlanılır. Kitab hələ 1789-cu ildə J.De Qin tərəfindən fransız dilinə tərcümə olunmuşdur (Kitab Talxis al-asar 1789, 391). Sonra əsər bir çox Avropa dillərinə tərcümə olunmuşdur. Bu kitab rus dilinə Z.Bünyadov tərəfindən tərcümə olunaraq Moskvada nəşr edilmişdir. Qeyd edilən kitabda Ə.Bakuvi yaxşı tanıdığı Azərbaycan və xüsusilə də Bakı haqqında daha çox orijinal məlumatlar vermişdir. O, Azərbaycanı dördüncü, beşinci və altıncı iqlim qurşaqları zonasına aid edərək, Azərbaycan və onun Xəzərətrafı əraziləri haqqında geniş məlumatlar verir. Biz də bu məqaləmizdə Əbdürrəşid əl-Bakuvinin Azərbaycanın Xəzərətrafı əraziləri haqqında verdiyi məlumatları ayrı-ayrılıqda qeyd etməyə çalışacağıq.

Azərbaycanın Xəzərətrafi əraziləri əl-Bakuvinin əsərində

Müəllifin "Kitab əl-Təlxis" adlı əsərində Azərbaycan, onun Arran vilayəti, Xəzər dənizi və Xəzər dənizi ətrafındakı bölgələr haqqında olduqca maraqlı məlumatlara rast gəlirik. Coğrafiyaşünas alim Arran vilayətini belə təsvir edir: *"Arran- Azərbaycan, Ərməniyə və Ləzgilər ölkəsinin arasında yerləşən nahiyədir. Burada çoxlu şəhər və kəndlər var. Əsas şəhərləri Gəncə və Beyləqandır. Orada Kür çayı axır. Onun başlanğıcı Curzan ölkəsindədir, sonra o, Abxaz ölkəsindən Allan vilayətinin və Tiflisin yanından keçib Gəncənin, Şəmkirin və Bərdənin qapısı yaxınlığından axır. Bundan sonra Kür, ondan kiçik olan Arazın suları ilə qarışır və Xəzər dənizinə tökülür. Burada balıq ovlamaq üçün bənd qurulub və müxtəlif balıqlar tutulur. Orada çoxlu su quşları və çəltik zəmiləri var"* (Əbdürrəşid əl-Bakuvi 1992, 112).

Əl-Bakuvi tarixi Azərbaycan şəhəri olan, Orta əsr müəlliflərinin əksər əsərlərində adıkeçən Dərbənd - Bab əl-Əbvab haqqında geniş məlumat vermişdir. Müəllif bu şəhər haqqında yazır: *"Uzunluq dairəsi - 85°05', en dairəsi - 43°05'-dir. Uzunsov qayaların üstündə, Xəzər dənizinin sahilində yerləşən əcaib şəhərdir. Dənizin ləpələri şəhərin divarlarını döyür. Uzunluğu üç fərsəxə yaxındır, eni isə oxun atıldığı məsafəyə qədərdir. Şəhərin dəmir qapıları və çoxlu bürcləri var. Hər bürcün yanında dini dərslərlə məşğul olan şagirdlər üçün məscid və divarların üstündə şəhəri düşmənlərdən qoruyan keşikçilər var. Şəhəri Xosrov Ənuşiravan onu əhatə edən müxtəlif xalqlardan ibarət olan düşmənlərin çoxluğunu nəzərə alaraq bina etdirib və o, ən güclü sərhəd qalalarının birinə çevrildi. Bu tərəfdən böyük təhlükənin və qorxulu vəziyyətin əmələ gəlməsini nəzərə alan Sasanilər bu yerə çox böyük diqqət edirdilər. Onlar buranın divarlarını qayalardan və qurğuşundan düzəltdilər. Onların*

eni iki yüz dirsəyə, hündürlüyü isə dağların zirvələrinə çatırdı. Divarlarının müəyyən yerə qədər uzunluğu yeddi fərsəxdır, bu yerdə - Aşab adlı əyri və çatılmaz bir dağdır. Ənuşiravan divarları yonulmuş daşlardan tikdirdi. Bu daşların ən kiçiyini əlli nəfər dartıb çəkirdi. Daşları bir-biriylə qurğuşun və qullablarla bərkitdirdi. Bu yeddi fərsəxlik məsafədə o, yeddi keçid düzəltdi və hər keçidin yanında şəhər saldırdı. Hər şəhərdə o, sehirli timsal (yəni heykəl) qoydurdu ki, türkləri dəf etdirsin, çünki türklər bu tərəfdən daim İrana basqın edirlər. Bunlar - iki şirin timsalıdır və hər ikisi Cihad darvazasının qabağında iki daşdan düzəlmiş sütunlar üstündədir" (Əbdürrəşid əl-Bakuvi 1992, 115).

Bakılı coğrafiyaşünas öz doğma şəhəri Bakı şəhəri, şəhərinin tarixi memarlıq abidələri, əhalinin məşğuliyyəti, Xəzər dənizi, dənizin təbii sərvətləri haqqında olduqca qiymətli məlumatlar vermişdir: "*Bakuyə - Uzunluq dairəsi -84°30', en dairəsi - 39°30'-dir. Xəzər dənizi sahilində, Dərbənd nahiyələrinin birində, Şirvan yaxınlığında binaları daşlardan tikilmiş şəhərdir. Onun divarlarını dəniz suları əhatə edir. Dəniz suları bürclərindən bir çoxunu basıb məscidə yaxınlaşıblar. Torpağı qayalıqlardır və evlərin çoxu qayalar üstündə tikilib, havası yaxşıdır, suyu şirindir və qayalıq yerlərdə qazılmış quyulardandır. Quyuların suyu yeraltı bulaqlardandır. Taxılın məhsulu burada azdır və onu buraya Şirvandan və Muğandan gətirirlər. Burada çoxlu əncir, nar və üzüm var. Bağlar şəhərdən uzaqdır və əhalinin əksəriyyəti oraya yay vaxtı gedir, orada müəyyən vaxt qalır, sonra da şəhərə qayıdır. Hər il də belə olur.*

...Şəhərin daşdan tikilmiş iki, həddindən artıq möhkəm qalası var. Onlardan birisi böyükdür və dəniz kənarında, ləpədöyəndədir. Bu həmin qaladır ki, tatarlar onu ala bilmədilər. İkinci qala birincisindən yuxarıdadır. Onun üst tərəfi mancanaqlarla dağılıb. Bu şəhərin xüsusiyyətlərindən biri də odur ki, burada gecə-gündüz külək əsir. Bəzən bərk külək əsəndə insan ona qarşı yeriyə bilmir, atları və qoyunları isə qış vaxtı küləklər qaldırıb dənizə atır.

...Burada qətran (qır) yataqları və neft bulaqları var və hər gün iki yüz dəvə yükündən çox neft hasil olunur. Bunların yaxınlığında arası kəsilmədən, gecə-gündüz, yasəmən yağı kimi ağ neft axıdan başqa bir bulaq var. Bunun icarə haqqı təxminən min dirhəmə yaxındı (Əbu Duləf 1960, 12, 36). Bulaqların yanında şam kimi yanan sarı rəngli bərkimiş torpaq var. Bundan parça-parça qoparıb şəhərə aparırlar və evlərlə hamamların qızdırılmasında istifadə edirlər.

...Şəhərdən bir fərsəx aralı bir yer vardı, oradan heç vaxt sönməyən alov çıxır. Deyirlər ki, bu - kükürd mədənidir. Bunun yaxınlığında bir

kənd var və buranın əhalisi xaçpərəstdir. Onlar əhəng yandırır və bunu arabalarla şəhərə daşıyırlar. Orada duz qazmaları var. Buradan hasil edilən əla duz başqa ölkələrə ixrac olunur.

...Şəhərin yaxınlığında məskun olunmuş ada var və buradan suitilərin ovuna gedirlər. Suitlərini dərisini soyur və çıraqlarda istifadə edilən yağlarını əridirlər. Dərilərindən tuluqlar düzəldib neftlə doldurur və başqa ölkələrə aparırlar. Orada çoxlu, bənzəri heç yerdə olmayan ceyran var. Orada bəzi illərdə dənizdən çıxıb yüksəkliyə qalxan və uzaqlardan, iki günlük və daha da çox məsafədən görünən böyük alov müşahidə edilirlər. Bu alov uzun müddət yanandan sonra sönür. Şəhərin yaxınlığında çoxlu kənd yerləşir və hər bir kəndin möhkəm divarı və qalası var. Bu kəndlərin bütün sakinləri xaçpərəstlərdir. Şəhər əhalisi isə İmam Şafeinin məzhəbinə etiqad edirlər" (Əbdürrəşid əl-Bakuvi 1992, 116-118).

Onuncu əsr ərəb coğrafiyaşünas səyyahı Əbu Düləf "Risalə"sində gəzdiyi ölkələrin, o cümlədən Azərbaycanın faydalı qazıntıları, şəhər və kəndləri, çayları, gölləri, dağları və s. haqqında çox qiymətli məlumat verir. Onun Azərbaycan haqqında verdiyi məlumat bizim müəllifin əsərində öz təsdiqini tapır. Buradan bu qənaətə gəlmək olar ki, müəllif öz əsərini yazarkən Əbu Duləfin əsərləri ilə tanış olmuşdur.

Əbu Duləf Azərbaycan haqqında məlumatı Şiz şəhərindən başlayır. Müəllif Balasakan düzündə beş min xaraba kənd olduğunu qeyd edərək yazır: *"Varsan və əl-Beyləqan şəhərləri Balasakan düzündə yerləşir. Bu düzdə beş min və ya daha çox xaraba kənd var. Halbuki onların evlərinin divarları və binalarının bəzilərinin özülü dağılmamışdır. Deyirlər ki, həmin kəndlər Allahın "Quranda" zikr etdiyi ər-Rəsin sahiblərinin olmuşdur"* (Vəlixanlı 1974, 80).

Əshabi-Rəss, onların həyatı və dini inancları haqqında məşhur İslam alimlərindən olan Şeyx Səduq ibn Babuveyh "Uyunu əxbarir-Rza (ə.s)" əsərində geniş məlumat vermişdir (Şeyx Səduq Babuveyh 2013, 216-220).

Orta əsr coğrafiyaşünası Yaqut əl-Həməvi də Bakı haqqında maraqlı məlumat vermişdir. O, "Bakuye" məqaləsində qeyd edir ki, Bakuyedə böyük neft quyusu mövcuddur ki, hər gün bir dirhəm gəliri olur. Digər tərəfində başqa bir quyudan isə civəyəbənzər neft gecə və gündüz ara vermədən axır. Bundan da əvvəlki qədər gəlir əldə olunur. Tacirlərdən inanılmış bir adam orada daim yanan yer barədə danışdı. Əlbəttə, kimsə burada od yandırmışdır; torpağı mədən yeri olduğundan yanmaqdadır (Yaqut əl-Həməvi 1977, I cild, 328). O zaman Bakının

İslam mədəni həyatında əhəmiyyəti heç olmamışdır, çünkü Yaqut buraya mənsub olan heç bir alimdən danışmır. Bakı nefti daha əvvəllər İslam dünyasında Şirvanşahların, bəzən isə Dərbənd hakimilərinin gəlir mənbəyi olmuşdur. Abbasi xəlifəsi Mənsurun zamanında Ərminiyyə valisi olan Yezid ibn Usayd əl-Sulaminin Şirvanın neft məskənlərinə və duz mədənlərinə vergiyığanlarını göndərib vəziyyəti öyrəndiyi və oraya ayrı başçı təyin etdiyi qeyd edilmişdir (Vəlidi 2009, 27).

Əbdürrəşid əl-Bakuvi Bərdə və Şirvan haqqında da məlumat vermişdir: *"Uzunluq dairəsi -83°05', en dairəsi - 30°40'-dir. Arranda şəhərdir. Onu Şah Qubad bina etdirib. Bura gözəl yerdir. Burada fındıq, şabalıd və quşarmudu boyda dərqal (zoğal) adlanan meyvə var. Bütün nahiyələrdə olan qətirlərin ən yaxşısı buradadır.*

...Şirvan – Bab əl-Əbvabın yaxınlığında nahiyədir. Onu Ənuşirəvan abadlaşdırıb və nahiyə onun adını daşıyır. Adın birinci hissəsini tələffüzün yüngül olması üçün atıblar. Bu, müstəqil bir nahiyədir və şahları Bəhram-Gurun nəslindəndir.

...Bəziləri sübut etməyə çalışırlar ki, Musa ilə Xızırın hekayəti bura aiddir. Yuşə bin Nun yanında balığı yaddan çıxardığı qaya da Şirvanda idi. Haqqında danışıq gedən dəniz Xəzər dənizidir, kənddə gördükləri və öldürdükləri xadim Xəyzan kəndidir və o kənd ki, onun əhalisindən yemək istəmişdilər, o Bacrəvandır.

...Bunların hamısı Ərmənistanın Dərbəndə yaxın olan nahiyələrindədir. Lakin bəzi adamlar deyir ki, bu hekayətdə adları çəkilən kəndlər İfriqiyyədədir. Orada mağarası olan bir dağ var və bu mağarada oturmuş halda bir kişinin çürüməyən cəsədi var. Bu yeri camaat ziyarət edir.

...Orada "tülkü yumurtacıqları" adlı (enliyarpaqlı səhləb ağacı) əcaib bitki var. Şeyx Ərrəis (İbn Sina) deyir ki, o həmin bitkini orada görüb və o, iki yumurtacığa oxşayır: birisi solmuş, birisi də təzədir. Solmuş cinsi qüvvəni azaldır, təzə isə artırır.

Ləyaqətli həkim, kamil insan, müdrik adam və şair Əfzələddin Xaqani buradandır. O, danışığın elə bir üslubunu icad etmişdir ki, ona yalnız özü sahib idi. Onun şairlikdə xüsusi məharəti var idi. O, özünü şairlərin yol verdiyi nöqsanlardan qoruyur, şücaət adətlərinə hörmət edirdi. O, 581-ci ildə (m. 1185-1186) Təbrizdə vəfat etmişdir. Allah ona rəhmət etsin!" (Əbdürrəşid əl-Bakuvi 1992, 118-125).

Coğrafiyaşünas öz əsərində Şaburan haqqında yazır: *"Bab əl-Əbvab nahiyəsində şəhərcikdir. Orada Bicanın dərin quyusu var. Türklərin padşahı Əfrasiyab İran şahı Bicanı məğlub edəndən sonra onu öldürməyib və müharibələrdə Bicadan çoxlu əziyyət gördüyü üçün onu işgən-*

cələrə saldırdı. Onu zəncirləyib həmin quyuya saldı və quyunun ağzını da böyük qaya ilə örtdü. Rüstəm gizlincə gəlib qayanı quyunun üstündən götürdü və Bicanı çıxarıb İran ölkəsinə apardı. Bican öz mülkünə qayıtdı, qaya isə orada qaldı. Buradan adı "Şahnamə"də çəkilən Dəclə əl-Xənazir çayı axır. Burada başqa ölkələrə aparılan vəhşi qızıl boya kökü (marena) bitir" (Əbdürrəşid əl-Bakuvi 1992, 125-126).

İran rəvayətlərindən istifadə edən ərəblər Şabranın da Ənuşirəvan tərəfindən inşa edildiyini, qalasının olmadığını, əhalisinin isə əksəriyyətinin xristian olduğunu qeyd edirlər. Əl-İstəxrinin Yaqut əl-Həməvi tərəfindən istifadə olunan nüsxəsinə görə, "Şabran kiçik şəhərdir, amma minbəri (came məscidi) vardır". Hüdud əl-aləmə görə, Şirvan vilayət adıdır. Onun hökumət mərkəzi Şavrandır. Mixək daşı dünyanın hər tərəfinə buradan yayılır". Bu məntəqədə mixək daşı olmasından Əbu Hamid əl-Əndəlüsi də xəbər verir (Vəlidi 2009, 17-18).

Müəllif Bab əl-Əbvabın nahiyəsində yerləşən Zirih-Geran haqqında yazır: *"Mənası "zireh düzəldən"dir. Bunlar Bab əl-Əbvabın üstündə və ətrafları kəndlər, zəmilər, bağlar və sıx meşələr olan Elbrus dağının yanında yerləşən iki kənddir. Əhalisi hündürboy, sarışın və itigöz adamlardır. Onların zireh və qalxan düzəltməkdən başqa ayrı sənətləri yoxdur. Varlı və əliaçıqdırlar, qəribləri, xüsusən elm sahiblərini və xəttatları xoşlayırlar. Yaşadıqları yer istehkamlı olduğu üçün onlar heç kəsə xərac vermirlər. Onların nə dini var, nə də imanı. Əgər bunlardan kimsə ölsə, onlar ölünün əzalarını və ətini ayırır, sümüklərini torbaya yığır, torbanın üstündə sümük sahibinin və atasının adını, təvəllüd və ölüm tarixini yazır və evin içindən asırlar. Sonra ətini götürüb, əgər ölən kişidirsə qarğalara, yox qadındırsa çalağanlara atırlar*" (Əbdürrəşid əl-Bakuvi 1992, 142).

Əsərdə olan maraqlı məlumatlardan biri də tarixi və dini ədəbiyyatlarda əks olunan Yəcuc və Məcuc tayfası haqqındadır. Bu haqda müəllif yazır: *"Deyirlər ki, bunlar Nuhun (ə) oğlu Yafəs ibn Nuhun övladlarıdır. Onlardan çoxlu nəsil törəyib və özləri də iki qəbiləyə bölünür və sayını Allahdan başqa heç kəs bilmir. Zülqərneyn Yəcuc və Məcucun yerlərinə gedəndə onun yanına çoxlu adam gəlib dedi: "Ey qalib padşah! Bu dağın arxasında sayını yalnız Uca Allah bilən bir xalq yaşayır. Onlar bizim ölkəni talan edir, meyvə və taxılımızı yeyirlər". O soruşdu: "Onların görkəmi necədir?". Onlar dedilər: "Onlar alçaqboylu, dazbaş və yastısifətdirlər". O soruşdu: "Onlar nə qədərdirlər?" Cavab verdilər: "Çoxsaylı xalqdır və Allahdan başqa onların sayını heç kəs bilmir"*.

...Sonra adamlar dedilər: "Gəlsənə biz sənə bac verək ki, bizimlə onların arasında bir sədd qurasan?". Bunun mənası da bu idi: "Bizdən pul yığıb, bu pulu bizimlə onların arasında tikdiyin səddə xərcləyəsən, bu şərtlə ki, səddin uzunluğu yüz fərsəxə qədər olsun, eni əlli fərsəx və hündürlüyü də iki yüz dirsək olsun" (Əbdürrəşid əl-Bakuvi 1992, 142).

Yeddinci iqlimdə yenidən Yəcuc və Məcuc haqqında məlumat verən Əbdürrəşid əl-Bakuvi onların iki böyük türk qəbiləsi olduğunu bildirir (Əbdürrəşid əl-Bakuvi 1992, 150).

Qeyd edək ki, Yəcuc və Məcuc haqqında əl-Bakuvinin və digər tarixi qaynaqların verdiyi məlumatlar məzmun baxımdan eyni olsa da, məkan baxımından fərqlidir. Bu səbəbdən, müəllifin bu tayfanın türklər olduğunu hesab etməsi tam dəqiq deyildir.

Əbdürrəşid əl-Bakuvinin Azərbaycanın Xəzərətrafı bölgələri haqqında məlumat verərkən Ərdəbil şəhərini də unutmur. Müəllif öz əsərində Ərdəbil şəhərini bu cür təsvir edir: *"Uzunluq dairəsi -82°30', en dairəsi - 38°05'-dir. Azərbaycanda münbit torpaqlı, içməli sulu, xoş havalı şəhərdir. Orada çoxlu çay axır, amma buna baxmayaraq ətrafda meyvə ağacları yoxdur. şəhəri Firuzşah tikdirib. Şəhərdən dəniz sahilinə iki günlük yol var"* (Əbdürrəşid əl-Bakuvi 1992, 73).

Nəticə

Nəticə olaraq deyə bilərik ki, XV əsrin əvvəllərində yazılmış "Təlxis əl-Asar və əcaib əl-məlik əl-qəhhar" (Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri) bakılı alim olan Əbdürrəşid əl-Bakuvinin yeganə məşhur əsəridir. Bu əsərdə Azərbaycanın şəhər və yerləri, xüsusilə Xəzərətrafı əraziləri, o cümlədən Bakı şəhəri haqqında dəqiq məlumatlar öz əksini tapmışdır. Qeyd edilən dəqiq məlumatlar Əbdürrəşid əl-Bakuvinin bu ölkə ilə yaxşı, bəlkə də şəxsi tanış olmasına işarədir. Bu xəbərdarlıq elə bir ehtimala yol verir ki, müəllifin özü Azərbaycanda yaşayıb, ya da hər halda atasının vətənində olub. Bundan başqa, Əbdürrəşid əl-Bakuvinin bu əsərində başqa əsərlərdə olmayan müxtəlif ölkələr, onların ticarət əlaqələri və incəlikləri haqqında da məlumatlar vardır.

ƏDƏBİYYAT

1. Berezin İ. (1849). Puteşestvıe po Daqıstanu i Zakavkazyu, Moskva.
2. Əbu Abdullah Məhəmməd ibn Əhməd əl-Müqəddəsi. (1991). Əhsən ət-təqasim. Qahirə.
3. Əbdürrəşid əl-Bakuvi. (1992). "Kitab Təlxis əl-asar və əcaib əl-məlik əl-Qəhhar", tər, akademik Z.M.Bünyadov, Bakı.
4. Əbu Duləf. (1960). İkinci Risalə, M.
5. Əbul-Fərəc Qudama ibn Cəfər. (1981). Kitab əl-xərac və sanət əl-kitaba. Bağdad.
6. Əbu İshaq İbrahim ibn Məhəmməd əl-İstəxri. (1870). Kitab əl-məsalik əl-məmalik. Leyden.
7. Əbu Cəfər Məhəmməd ibn Cərir Təbəri. (1970). Tarixi-Təbəri. Misir.
8. İbn əl-Fəqih. (1996). Kitab əl-buldan. Beyrut. h.1416-m.
9. İbn Havqəl. (1992). Surət əl-ard. Beyrut, Lübnan.
10. İbn Xordadbeh. (1889). Əbul Qasim Ubeydullah. Əl-Məsalik vəl-məmalik, Leyden.
11. Kitab Talxis al-asar va acaib al-malik al-Qaxxar. (1789). Eksposition. Par Abdurraşid fil de Saleh fil de Nuri; uvraj de qeoqrafi, kompoze dan la XV siql. Par. M. De Qin. Parij.
12. Həmidullah Qəzvini. (1919). Nuzhət əl-Qulub, London.
13. Həsənli F.A. Əliyev M.C. (2009). "Coğrafi kəşflərin tarixi və səyyahlar", Bakı.
14. Məsudi. (2005). Müruc əz-zəhəb, Beyrut.
15. Şərifli M.X. (1978). IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı.
16. Şeyx Səduq Babuveyh, Uyunu əxbar ər-Rza (ə), (2013). tər. Hilal Ağamoğlanov, Bakı: "Elm və təhsil".
17. Kraçkovski İ. (1957). İzbrannıye soçineniya, IV, M-L.
18. Vəlixanlı N.M. (1974). IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı: Elm.
19. Vəlidi Ə.Z. (2009). Azərbaycanın tarixi coğrafiyası, Bakı: "Təhsil".
20. Yaqut əl-Həməvi. (h.1397/m.1977). Mucəm əl-buldan. Beyrut.
21. Yəqubi. Əhməd ibn Yəqub. (1860). Kitabul-buldan. Leyden.

д-р филос. по теол., доц. Шахлар Шарифов

ПРИКАСПИЙСКИЕ ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА В ПРОИЗВЕДЕНИИ АБДУРРАШИДА АЛЬ-БАКУВИ «КИТАБ ТАЛХИС АЛЬ-АСАР ВА АДЖАИБ АЛЬ-МАЛИК АЛЬ-ГАХХАР»

РЕЗЮМЕ

Одним из ученых, предоставивших информацию о средневековом Азербайджане и его прикаспийских территориях, был Абдуррашид аль-Бакуви, который был родом из Азербайджана. Он побывал в Азербайджане и ряде других стран и дал необходимые и и написал подробные отзывы о местах, которые он видел. Большинство его географических работ не дошли до наших дней. Из них до нас дошли только книги «Аджиб-аль-Малик», «Аль-Кахар», «Талхис-аль-Асар» и другие. Произведение Абдуррашида аль-Бакуви «Китаб Талхис аль-асар ва аджаиб аль маликал гаххар», принесшее ему большую славу, содержит информацию о странах и народах, известных на Востоке в то время. Произведение состоит из семи климатов. В произведении даны географические описания стран, мест и городов, относящихся к каждому климату, и затронут вопрос о влиянии географических условий и климата на жизнь человека. В этом произведении Абдуррашид аль-Бакуви большое количество оригинальной информации об Азербайджане, который он хорошо знал, и особенно о Баку. Он предоставляет обширную информацию об Азербайджане и его прикаспийских территориях, относя Азербайджан к IV, V и VI климатическим зонам.

В одном из своих докладов о Каспии Л.С. Берг назвал А.Бакуви незаменимым исследователем Каспия. Он предоставил ценную информацию не только об Азербайджане и Каспии, но и о ряде других стран.

В отличие от многих ученых, аль-Бакуви предоставляет подробную и точную информацию об Азербайджане и его прикаспийских территориях, особенно о Баку. Это увеличивает репутацию его произведения.

Ключевые слова: *Азербайджан, прикаспийские территории, Абдуррашид аль-Бакуви, географ, провинция Арран.*

Assoc. Prof. Shahlar Sharifov

CASPIAN TERRITORIES OF AZERBAIJAN IN THE WORK OF ABDURRASHID AL-BAKUVI ƏKITAB TALKHIS AL-ASAR WA AJAIB AL-MALIK AL-GAHHAR"

ABSTRACT

One of the scholars who provided information about medieval Azerbaijan and its Caspian territories was Abdurrashid al-Bakuvi, who was originally from Azerbaijan. He visited Azerbaijan and a number of other countries and gave the necessary and and wrote detailed reviews about the places he saw. Most of his geographical works have not survived to this day. Of these, only the books “Ajib-al-Malik”, “Al-Qahhar”, “Talkhis-al-Asar” and others have come down to us. The work of Abdurrashid al-Bakuvi “Kitab Talkhis al-asar wa ajayib al malikal gahhar”, which brought him great fame, contains information about the countries and peoples known in the East at that time. The piece consists of seven climates. The work provides geographical descriptions of countries, places and cities related to each climate, and raises the question of the impact of geographical conditions and climate on human life. This work of Abdurrashid al-Bakuvi contains a large amount of original information about Azerbaijan, which he knew well, and especially about Baku. It provides extensive information about Azerbaijan and its Caspian territories, referring Azerbaijan to the IV, V and VI climatic zones.

In one of his reports on the Caspian, L.S. Berg called A. Bakuvi an irreplaceable explorer of the Caspian. He provided valuable information not only about Azerbaijan and the Caspian Sea, but also about a number of other countries.

Unlike many scholars, al-Bakuvi provides detailed and accurate information about Azerbaijan and its Caspian territories, especially about Baku. This increases the reputation of his work.

Keywords: *Azerbaijan, Caspian territories, Abdurrashid al-Bakuvi, geographer, Arran province*

UDK 101.1

XEYİR VƏ ŞƏR ƏMƏLLƏR İNSAN VARLIĞININ TƏKAMÜL AMİLLƏRİNDƏNDİR (Dini-fəlsəfi təhlil)

f.f.d. Şölət Zeynalov,
AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi
sholet@mail.ru
ORCID ID: https://orcid.org/0000-0003-2509-1159

i.f.d., dos. Əlisa Zeynallı,
Azərbaycan İqtisadçılar Birliyinin və
Jurnalistlər Birliyinin üzvü
zeynal1950@mail.ru

XÜLASƏ

Məqsəd

XXI əsr bəşəriyyətin inkişafının keyfiyyətcə yeni mərhələsinin başlanğıcı kimi səciyyələndirilir. Onun əsas xüsusiyyətlərinə daxildir: dünya təsərrüfatı sisteminin yaranması, bilik və informasiya cəmiyyətlərinin formalaşdırılması, intellektual kapitalın inkişaf etdirilməsi, xidmətlərin və elmi nailiyyətlərin aparıcı məhsuldar qüvvəyə çevrilməsi, sülh və təhlükəsizliyin təmin edilməsi.

Sosial şəbəkələr və kütləvi informasiya vasitələrində son dövrdə ildırım sürəti ilə yayılan həyəcanlı xəbərlər, qeyri-elmi və mövqeli yanaşmalar, habelə dünyanı lərzəyə salan COVID-19 pandemiyasının yaratdığı planetar "şok" müəllifləri belə aktual mövzuya müraciət etməyə vadar etmişdir – məqsədləndirmişdir.

Metodlar: dialektik, vəhdət, məntiqi təhlil, sistemli təhlil, müqayisəli təhlil, tarixi təkamül, nəzəri dərketmə.

Elmi yeniliyi və əhəmiyyəti

Müasir qlobal dünyanın təkamül tarixi üzrə sistemli təhlilinə, müsbət və mənfi meyillərin təsvirinə diqqət yönəldərək, formalaşmaqda olan yeni dünya birliyi xalqları və millətlərinin, onların qlobal

dünya təsərrüfatı sisteminin münasibətlərinin optimal yollarını müəyyənləşdirmək və təkliflər irəli sürməklə səciyyələndirilir.

***Açar sözlər**: xeyir və şər, təkamül, islahat, peyğəmbərlik məktəbi, mənəvi dəyərlər, qlobal təsərrüfat sistemi, İslam mədəniyyəti, İlahi nur, inkişaf nüvəsi, vəhy və ilham.*

Xeyir və şər əməllər bəşəriyyətin təkamülünün, yaxud məhvinin təkanverici qüvvələridir

Cəmiyyətin ictimai, sosial, iqtisadi, mənəvi və s. inkişaf qanunları təhlil edilərkən, müəyyən etmək olur ki, hər bir fərdin əməlləri bütövlükdə cəmiyyətin ictimai, sosial-iqtisadi məsələlərinin məqsədyönlü təşkili və təminatının müqəddəratını həll edir. Təbiət, cəmiyyət, sosial və iqtisadi qanunauyğunluqlara əməl olunmaması bütün uğursuzluqlar, bəla və böhranın əsas səbəbinə çevrilir.

Fəlsəfi anlamda yanaşdıqda aydın olur ki, dünya bir sinergetik sistemdir və baş verən xaos, böhranlar, inkişaf və tənəzzülün səbəbləri bir-biri ilə sıx əlaqədardır. Dini kontekstdə yanaşdıqda bu hadisələrin xüsusiyyətləri yuxarıdakı kimi xarakterizə edilməkdədir: müsəlman etikasına görə, Allahın rəhmini qazanmaq və ya qəzəbinə düçar olmaq insanların əməllərinin nəticəsi kimi qiymətləndirilir. Allah-Taala rəhmandır, rəhimlidir; nə yaratmışsa, gözəl yaratmışdır, heç bir fərq qoymamışdır. Bütün eybəcərliklər – cahillik, savadsızlıq, təkəbbürlülük, milli, dini, etnik, irqi ayrı-seçkilik, partiyalara bölmək, siyasi baxışlara, sərvətə görə fərqləndirmək, hər cür şər əməllərlə məşğul olmaq insanların düşüncəsinin məhsuludur. Ona görə də insanlar iki qrupa bölünürlər: əməlisalehlər və şər əməl sahibləri.

Dünyada mövcud olan dinlər, habelə elm sahələri, o cümlədən ədəbi, bədii, fəlsəfi təfəkkür, demək olar ki, tarixən həmişə bu kimi məsələləri tədqiq etmişdir. Müsəlman dünyagörüşünə görə, ikinci qrup insanların nəfsini özbaşına buraxmaq və şər əməllərə yönəlmə məhz şeytanın fitvasına uymaq, onunla dostluq etməklə bilavasitə əlaqəlidir. Ona görə də müsəlman hər bir əməlinin əvvəlində Allahın adını çəkir və şeytana lənət oxuyur. Beləliklə, planetar səviyyədə baş verən qlobal böhranlardan nəticə çıxarmaq üçün məntiqi anlamda yanaşdıqda, belə demək olar ki, zəmanəmizin fövqəladə bəlasının – koronavirusun da baş verməsinin əsas səbəbi, əslində, ikinci qrup insanların əməllərinin nəticəsidir. Bunu Allahın qəzəbinə düçar olmaq, Onun

rəhminin bu qrup insanlardan üz döndərməsi kimi də qəbul etmək mümkündür.

Tarixi faktlar və bizə çatmış bəşəri irsdən məlimdur ki, insan övladı sağlam ruh, pak düşüncə, mükəmməl bilik və bacarığa malik olduqda kamillik zirvəsinə ucalır, məhsuldar əmək qabiliyyəti ilə gözəlliklər yaradır, sağlam və firavan həyat tərzi keçirir, təbiəti sevir və ona xidmət göstərir. Öz növünə sevgi göstərmək, cəmiyyətə xidmət etməkdən, məhəbbət və əməkdaşlıqdan həzz alir. Cahillər və dünya malına həris olanlar isə dünya malına aludə olur, sərvət toplamaqdan doymur. Şeytan ilə dostluq edir, şər-xəta, pis niyyət, alçaq və şərəfsiz işlərlə məşğul olur, təbiəti talan edir, öləndən sonra sərvəti miras qalır, başqasının qisməti olur, nifrət və lənətlə xatirələrə köçür, cəhənnəm əzabı qisməti olur. Ona görə də demək olar ki, bütün dinlərin prinsiplərində bu kimi şər əməllər insanlara qadağan edilir.

Günümüzün real mənzərəsinə diqqət etdikdə isə məlim olur ki, insan, sanki onun qarşısına qoyulmuş bütün vəzifələri unutmuş və bununla da dünyada şər törətmək üçün böyük bir yarışa girişmişdir. Allahın bəxş etdiyi "Təbiət süfrəsi"ndən necə istifadə edilir? Diqqət edək: indi, hətta elmi-texniki tərəqqinin ən yüksək inkişaf etdiyi bir zamanda "ağıllı insan" maddi və mənəvi resursları, Yer üzünün bəşəriyyətə hədiyyə edilmiş sərvətlərini insanların tələbatının ödənilməsinə, təbiətin mühafizəsinə, Yer kürəsinin laləzara çevrilməsinə yönəltməli olduğu halda, ümumi daxili məhsulun, demək olar ki, yarısına qədərini, bəlkə də çoxunu (belə bir statistika aparılmır və dəqiq məlumatımız yoxdur, məntiqi fərziyyəyə əsaslanırıq) əhəmiyyətsiz məsələlərin həllinə yönəldilir [11 və 12]: hərbi-sənaye kompleksinin inkişafına, kosmosun müharibə və hərbi məqsədlərlə öyrənilməsinə, insanların mənəviyyatının, mədəniyyətinin, əxlaqının pozulmasına, bilavasitə təsir göstərən məhsulların istehsalına və xidmətlərə sərf edilir. Bütün bunlar dinlərin ali prinsiplərində, konkrekt olaraq desək, Qurani-Kərimdə bildirilən bir vəzifəyə – "israfçılığa yol verməyin" xəbərdarlığına ziddiyyət təşkil edir.

Müasir problemlərdən bəhs edərkən qeyd olunmalıdır ki, indi hərbi-sənaye kompleksinin inkişafı tərəqqi etmiş ölkələrin iqtisadiyyatında aparıcı sahəyə çevrilmişdir. Fakt odur ki, bu ölkələrdə ən yüksək səviyyədə silah satışına rəvac verilmiş, məhz bu əməllərin nəticəsi olaraq, Orta əsrlərdə olduğu kimi, yeni-yeni talançılıq və işğalçılıq müharibələrinin daha geniş vüsət alması, kütləvi qırğın silahlarının, bioloji silahların hazırlanması baş vermişdir. Müasir dünyada baş

verən qırğınlar, Çin uyğurlarının, Yaxın Şərqin, keçmiş SSRİ məkanı postsovet ölkələrinin (Azərbaycanda Qarabağ, Ukraynada Donbas və Luqansk, Moldovada Dnepryanı regional münaqişə və müharibələri, Rusiyada Çeçenistan hadisələri, habelə Krım münaqişəsi), Avropa və Latın Amerikası ölkələrində milyonlarla insan qırğınları, onların yurd-yuvasından qovulması, dünyada baş verən bütün terror hadisələri, ölkələrin sosial-iqtisadi gərginlikləri məhz hərbi-sənaye kompleksinin inkişafının nəticəsidir.

Reallıq müşahidə zamanı meydana (üzə) çıxır. Belə şər əməllər nəticəsində, bir qrup insanın varlanması, kapital sahibinə çevrilməsi, dünyaya ağalıq iddiasında olmasını daha da dərinləşdirir, bununla da bir növ, tarixən mövcud olmuş ikinci qrup insanların şər əməllərinin yer üzündə daha da genişlənməsinə səbəb olur. Əgər buraya hibrid müharibələrini, baş verən ikili standartları, ideoloji, siyasi və s. ziddiyyətləri də əlavə edəriksə, reallıqda bəşəriyyətin hansı qorxulu faktlarla üz-üzə dayanmış olduğunu təsəvvür etmiş olarıq.

Kosmosun fəthinə yönəldilən səmərəsiz xərclərə gəldikdə isə göstərmək vacibdir ki, İslam alimləri və mütəxəssislərinin elmi dünyagörüşünə görə, Allah insanı yaradarkən ona yer aləmində özünün müvəqqəti ömrünü sürmək üçün zəruri nemətlər qazanmaq bacarığı və biliyi, öz iradəsindən müəyyən qədər "hədiyyə" vermişdir. İslama görə, insan Allahın işlərinə müdaxilə etməməli, özünə aid olan məsələləri öyrənməli və vəzifələrini layiqincə yerinə yetirməli, tələbatını ödəməli, nəbatat və heyvanat aləmlərinə xidmət göstərməlidir.

Tarixçilərin yazdığı məlumatlardan bəlli olur ki, ilkin insan məskənlərində insanlar vəhşi həyat tərzi sürürmüşlər; savadsızlıq, cahillik dövrü olmuşdur, zülm və haqsızlıq baş alıb getmiş, əxlaqsız həyat tərzi keçirirmişlər. Elə bu və digər zəruri səbəblərdən, Allah-Taala təkallahlılığın faydalarını İbrahim peyğəmbərə (s) çatdırmış və təbliğini ona həvalə etmişdir. Qadir Allah özünün ədalət ipini İbrahim peyğəmbərə (s.ə.) çatdırmış, toxumlarını Musa peyğəmbər (s) vasitəsilə səpdirmis, onları İsa peyğəmbər (s.ə.) vasitəsilə cücərtmis və buğumlatmıs, çiçək, bəhrə və məhsullarını isə Məhəmməd peyğəmbər (c) vasitəsilə bütün bəndələrinə paylatmışdır.

Ədəbiyyatlardan məlum olur ki, Adəm peyğəmbərin övladları çoxaldıqca, nizam-intizamın olmaması, cahillik və savadsızlıq, ərzaq çatışmazlığı məcbur etmişdir ki, qəbilələr arasında münaqişə və müharibələr baş versin. Onlardan ikisinin taleyinə, inkişaf tarixinə nəzər salaq: Saul çar ilə Davud arasında barışmaz mübarizə mövcud olmuş-

dur. Onlar yaxın bir kökə mənsub olmuşlar. Doğmaları Davudu hökmdar kimi etiraf etsələr də, peyğəmbər kimi qəbul etməmişlər. Yaxın olan bir qrup tərəfi ilə qovulmuşlar [14].

Orta əsrlərdə (VIII əsrin birinci yarısında) Avropaya ayaq açan İslam mədəniyyəti burada humanistlik toxumları səpmiş, elmin inkişafının başlanğıcını qoymuş, insanların bilik və bacarığının artırılmasına təkan vermiş, xristian dininin inkişafı üçün nümunəyə çevrilmişdir [5]. Onun törətdiyi nəticələri fransız utopik sosialistləri, alman fəlsəfəsi və ingilis siyasi iqtisad məktəblərinin formalaşdırılması ilə səciyyələndirmək mümkündür. Təbiidir ki, bu məktəblərin İslam mədəniyyətindən mənbə kimi qidalanmasına baxmayaraq [5 və 9], Adəm peyğəmbərin zamanında formalaşaraq, zaman-zaman və nəsilbənəsil süzülüb-gələn təkəbbürlülük, peyğəmbərlərə imam gətirməmək ənənəsi, iudaizm və xristian dini baxışlar arasındakı barışmaz ziddiyyətlilik, onların hər birinin özünün ilkin formalarının insanlar tərəfindən vaxtaşırı dəyişdirilməsi baş vermişdir. Şübhəsiz, bu kimi qarşıdurmalar da tarixən monoteist dinlərin qarşılıqlı problemlərinə gətirib çıxarmışdır.

Müasir günümüzə döndükdə görürük ki, Yer üzündə indi sərvət, iqtisadi, siyasi, hərbi güc uğrunda savaşlar daha da genişlənərək, planetar bir problemə çevrilmişdir. Ən qorxulusu odur ki, bu da bəzi məqamlarda dinlərin üz-üzə qoyulması kimi hadisələrlə təşviq edilir. Halbuki bilirik ki, butün bunlar dinlərin problemləri deyil, dini dünyagörüşlərin, konkrekt olaraq ideoloji baxışların problemidir. Məsələn, 2001-ci il sentyabrın 11-də ABŞ-ın Nyu-York şəhərində yerləşən Ümumdünya Ticarət Mərkəzində törədilən terror aktını 4 cinayətkarın əli ilə törətdirərək, İslama və müsəlman aləminə böhtan atmaq, ləkələmək iri kapital sahiblərinin qarşısında duran əsas vəzifədən ibarət olmuşdur. Əslində isə burada iki məqsəd özünü təzahür etdirmişdir: əvvəla, Ticarət Mərkəzində toplanan qızıl ehtiyatını mənimsəmək; ikincisi, monoteizmin üç qardaş dinindən birinə məxsus mədəniyyət aləmini – İslam aləmini şərləmək, terorçuluqla məşğulluqda ittiham etmək və Yaxın Şərqdə qarışıqlıq salmaq, inqilablar törətmək və müharibə ocağına çevirməklə səciyyələndirmək olar. Hər halda sonradan baş verən müdaxilələr də bu fikrin tərəfdarlarına ciddi arqument (dəlil) vermiş oldu. Yaxın Şərqdəki İslam aləmi bu kapital sahibləri üçün bir növ, qapalı məkan hesab edilirdi. Bura həm də zəngin, ucuz təbii sərvətlərə malikdir. Ona görə də Yaxın Şərqdə "İraq Şam İslam Dövləti" adlandırılan terrorçular dəstəsi yaradılmış, Liviya, İraq və

Suriya böyük döyüş meydanına çevrilmişdir, maraqlı dairələr silah satışı təşkil edərək, kütləvi insan qırğını törətməklə, milyonlarla insanların Avropa ölkələrinə, Türkiyəyə miqrasiya etmələrinə səbəb oldular. Əlbəttə bütün bunlardan bəhs etmək çox ağrılıdır. Məsələ ondadır ki, bunlar reallıqdır və elə Ermənistanın Azərbaycan torpaqlarında münaqişə ocağı yaratmasının da mahiyyəti bu kimi şər əməllərdən qidalanır. Halbuki moneteizmin bu "üç qardaş dinin" [17] prinsiplərində bu kimi şər əməllər daim pislənmişdir.

Problemin mahiyyətinə bir az da dərindən nəzər saldıqda görürük ki, dinlərin ali prinsiplərinə və birgəyaşayış fəlsəfəsinin mahiyyətinə biganə qalanlar, nəyin bahasına olursa-olsun dünyada öz sərvətlərini daha da çoxaltmaq üçün ən müxtəlif vasitələrdən istifadə etməkdədirlər. Əfqanıstanda döyüşən tərəflərə silah satmaq, oranı beynəlxalq narkotik maddələr istehsalı və ticarəti mərkəzlərindən birinə çevirmək; OPEK+ ölkələri tərəfindən neftin satış qiymətlərinin süni manipulyasiyası; beynəlxalq aləmdə maliyyə müharibələri, iqtisadi böhranlar törədilməsinə rəvac vermək; inkişaf edən ölkələrə kapital ixracı, ucuz işçi qüvvəsi və təbii ehtiyatlar hesabına daha çox mənfəət əldə etmək; inkişaf edən ölkələrin rəhbərlərinin və kapital sahiblərinin sərvətinin öz banklarında yatırımlara sövq etmək, mülk və əmlak sahibliyinə cəlb etmək, həmin ölkələrdə qarışıqlıq yaratmaq, çevrilişlər etmək üsulu ilə xaricdəki bank yatırımlarını və mülkə sahibliyi mənimsəmək və özününküləşdirmək; dünyaya ağalıq etmək iddiasına düşmək və s. şər əməllər məhz qanunsuz, zəhmətsiz, dolayı yollarla kapital toplayan, biznes xəstəliyinə yoluxan az sayda insan təbəqəsinin əsas məqsəd dairəsini səciyyələndirir.

Din elmdən, dövlətdən ayrıdırmı və niyə?

Son bir neçə ildir, ictimai şüurda, xüsusən də Avropa məkanında din və elm, din və dövlət arasında barışmaz mübarizənin mövcudluğu iddia edilir. Hesab edirik, indiki zamanda Qlobal Dünya Birliyi, vahid qlobal dünya təsərrüfat sisteminin formalaşdığı vaxt məsələnin mükəmməl təhlili zərurəti yaranmışdır. Məsələnin həllinə ümumən, şüarçılıq formasında deyil, konkret sübutlarla yanaşmaq məqsədəuyğun sayılır.

Tədqiqatçılar dinlərin yaranmasının bir neçə zəminini nəzərdən keçirmişlər. Əvvəla, insan qədim zamanlarda əsrlərboyu yaşadığı dünyaın sərhədlərindən kənara çıxmağa səy göstərmişdir. O, yaşadığı aləmdən (mühitdən) kənarda özünün xilaskarını və təskinliyini tap-

maq istəmişdir. Qəlbən (ürəkdən) hansısa bir etiqada ehtiyacı olmuşdur ki, sakitliyini (əminliyini) təmin etmiş olsun. Başqa sözlə desək, insan inanmışdır ki, onun həyatı yalnız yaşadığı dünya ilə məhdudlaşmır.

İkincisi, insanın təbiətinə özünün dünyasını obyektiv qiymətləndirmək istəyi xarakterik xüsusiyyət sayılır. Yer aləmlərində baş verənləri, ancaq təbii qanunların izahı ilə tapa bilmədiyinə görə, düşünməyə məcbur olmuşdur ki, bütün bunların baş verməsində hansısa fövqəltəbii qüvvənin təsiri vardır (mövcuddur).

Üçüncüsü, insan belə fərz edir ki, dinixarakterli müxtəlif hadisə (vaqeə, qəzavü-qəziyyə) və əhvalatlar Allahın mövcudluğundan xəbər verir. Etiqadlı (inamlı) insanlar üçün dinlərin siyahısının mövcudluğu, artıq Allahın mövcudluğunu sübut edən real fakt kimi qiymətləndirilir. Onlar bunu çox sadə üsulla izah edirlər: əgər Allah mövcud olmasaydı, onda dinlər də olmazdı.

Qədim insanların etiqad etdikləri dinlərin növləri və formaları

Belə güman edilir ki, dinlərin meydana gəlməsi hələ 40 min il əvvəllərə məxsusdur [15]. Məhz o zaman ibtidai dini etiqad forması meydana gəlmişdir. Bu məlumatlar da dəfn mərasimləri, qaya üstə və mağaralardakı rəsm nümunələrinə əsasın arxeoloqlar tərəfindən irəli sürülmüş və iddia edilir. Həmin məlumatlara əsasən qədim dövrün insanlarının aşağıdakı etiqad növlərinin olması fərziyyəsi irəli sürülmüşdür:

–***Totemizm***. Totem bu və ya digər insan qrupu, nəsil və qəbilənin müqəddəs saydığı bitki, heyvan və ya əşyadan ibarət olmuşdur. O dövrün insanları müvafiq totemlərdə hansısa bir fövqəltəbii qüvvənin mövcud olmasına əminliklə inanmışlar.

–***Magiya***. Belə dini etiqad insanın sehrbazlıq, cadugərlik və ovsunçuluq bacarığından irəli gəlmişdir. Simvolik rəmzi hərəkətlər vasitəsilə maq (sehrbaz, cadugər və ovsunçu) digər insanların hərəkətlərinə, təbii hadisələrə və əşyalara təsir göstərə bilirmiş, onları müsbət və ya mənfi istiqamətə yönəldirmiş.

–***Fetişizm***. İstənilən predmetlərdən, cismlərdən (heyvan və ya insan kəllə, qafa sümüyü, daş və ya ağac parçası, nümunə üçün) eləsi seçilirmiş ki, fövqəltəbii xüsusiyyətə malik olduğunu fərz etmək mümkün olsun. O, uğur gətirən və təhlükələrdən müdafiə edən təəssüratlar yaradırmış.

–***Animizm***. Təbiət halları, predmetlər, heyvanlar və insanların hamısı ruha (cana) malikdirlər. O, ölməzdir və cisimdən kənarda da yaşayır, mövcud olur, hətta öldükdən sonra da mövcudluğunu davam etdirir. Müasir dinlərin hamısı ruh (can) və nəfəsin mövcudluğuna inam (etiqad) əsasında formalaşmışdır.

–***Şamanizm***. Belə etiqad tərəfdarları hesab edirmişlər ki, qəbilənin başçısı və din xadimi fövqəltəbii gücə (qüvvəyə) malikdir. O, ruhlarla danışır, onların məsləhətlərini eşidir və tələblərini yerinə yetirə bilir. Şamanın gücünə (qüvvəsinə) inam (etiqad) bu dinin əsasını təşkil edirmiş.

***Müasir dövrün dünyəvi dinlərini aşağıdakı kimi təsvir etmək olar*:**

Xristianlıq. Məlumat verilir ki, 1,5 milyard insan bu etiqada sitayiş edir. Onlar üç təriqətə bölünmüşlər: *pravoslavlar* (Rusiya, Yunanıstan, Gürcüstan, Bolqarıstan və Serbiya); *katoliklər* (Qərbi Avropa dövlətləri, Polşa, Çexiya, Litva və digər ölkələr); *protestantlar* (ABŞ, Böyük Britaniya, Kanada, CAR, Avstraliyada mövcuddurlar).

İslam. Bu dinə, təxminən, 1,3 milyard insan etiqad edir. İki cərəyana bölünmüşlər: *sünnilər* (Afrika, Mərkəzi və Cənubi Asiya ölkələri, Türkiyə); *şiələr* (İran, İraq və Azərbaycanda daha çox yaşayırlar).

Buddistlər. Bildirilir ki, 300 min insan bu dinə etiqad edir (inanır). Onlar da iki təriqətə (cərəyana, qola) bölünürlər: *hinayanlar* (Mayama, Laos və Tailandda yaşayırlar); mahayanlar (Tibet, Monqolustan, Koreya və Vyetnamda bu dinə etiqad bəsləyənlər daha çoxdur). Hər halda qeyd edilən say nisbətinin dəqiqliklə müəyyənləşdirilməsi, fikrimizcə, mümkün də deyildir.

Milli dinlər

Dünyəvi dinlərlə yanaşı, dünyanın hər bir küncündə (bucağında) milli və ənənəvi dini etiqad formaları mövcuddur ki, özünəməxsus istiqamətə malikdirlər. Onlar müəyyən ölkələrdə yaradılmış və xüsusi yayılma xüsusiyyətləri vardır. Ona görə də daha geniş yayılmış növləri aşağıdakılardan ibarətdir: İ*nduizm* (Hindistanda yayılmış brəhmənizm dininin müasir formasıdır); K*onfusiçilik* (Çin mütəfəkkiri Konfusinin dini nəzəriyyəsinə əsaslanan əxlaqi-fəlsəfi baxışlar və ənənələr sistemidir); D*aosizm* (Çində fəaliyyət göstərir); İ*udaizm* (İsraildə fəaliyyət göstərir); *siksizm* (Hindistanın Pəncab ştatında mövcuddur); S*intoizm* (Yaponiyada yayılmışdır); B*ütpərəstlik* (hindi tayfaları, Şimal və Okean xalqlarının dini etiqadlarıdır).

Müşahidələr və müxtəlif elmi-metodoloji təhlillər göstərir ki, müvafiq insan qrupu, qəbilə, xalq və millətlərin ictimai şüurunun, fərdlərin dünyagörüşünün, adət-ənənələrinin formalaşdırılması və istiqamətləndirilməsində insanların sitayiş etdikləri etiqadlar yaxından iştirak etmişdir. Başqa formada desək, Yer üzündə elə bir xalq, elə bir cəmiyyət və insan birliyi tapmaq mümkün deyildir ki, etiqad prinsipləri və yaxud dinləri olmasın.

Xristian alimlərinin verdiyi şərhə görə, Xristianlıq dini müasir eranın I əsrində Roma İmperiyasının Şərq ərazisi sayılan Fələstində meydana gəlmişdir. Onun yaradılması İsa peyğəmbərin (İsus Xrist) doğulmasına etiqadla əlaqədar baş vermişdir. M.e. 33-cü ilində xaç üzərində din yolunda əzabçəkmə (şəhid olma) ilə razılaşmışdır ki, insanların günahları bağışlanılsın, sonra da dirilərək göylər aləminə qalxmışdır. Beləliklə, Allahın oğlu fövqəltəbii və insan təbiətini (xasiyyətini, xüsusiyyətini) özündə təcəssüm (əks, ifadə) etdirməklə, Xristianlığın (xaçpərəstliyin) əsasını qoymuşdur (yaradıcısı olmuşdur). Rəsmi olaraq şəriət qaydaları – Bibliya (müqəddəs yazılar) yaradılmışdır və o da iki hissədən ibarət olmuşdur: Əhdi-Ətiq (köhnə-qədim adətlər, vəsiyyət, miras, məsləhət, yəni burada Musa peyğəmbərə nazil edilmiş birinci Müqəddəs Kitab Tövrat nəzərdə tutulur - Ə.Z.) və Əhdi-Cədid (İncilin və başqa xristian dini kitablarının adıdır). Birinci kitabın (Əhdi-Ətiqin) yazılması İudazimlə sıx əlaqədar olmuşdur. Xristianlığın da öz başlanğıcını ondan götürdüyü elan edilmişdir. Yeni vəsiyyət və məsləhətin (Əhdi-Cədidin) isə xristian dini yarandıqdan sonra yazıldığı bildirilir [15].

Yuxarıdakı abzasdan aydın olur ki, xristian alimlərinin düşüncəsinə görə, İsa Allahın oğludur, onda fövqəltəbii və insan xüsusiyyətləri birlikdə təcəssüm olunubmuş, onu dar ağacına çəkmişlər, sonra da dirilmiş və qeybə çəkilmişdir. Musa peyğəmbərə verilmiş Müqəddəs Kitab I əsrdə qələmə alınmışdır. İncil və digər dini kitabları kilsə xadimləri Roma İmperiyasının başlanğıcında yazmışlar, ikinci Müqəddəs Kitaba isə İncillə yanaşı, digər dini kitabları da aid etmişlər və s. Bütün bunların hamısı müsəlman alimlərinin Qurani-Kərimdən aldıqları ilahi vəhylərinə (xəbərlərə) əsasən, Tövrat və İncilin təhrif olunmuş formada dəyişdirilməsi, yenidən yazılması və ilahi mahiyyətini itirməsi kimi fərziyələri (iddiaları) təsdiq edir.

Qurani-Kərimdə xəbər verilir: "Musanın insanlara bir nur və haqq yol olaraq gətirdiyi kitabı (Tövratı) kim nazil etmişdir? Siz onu vərəqlərə yazıb göstərir, bir çoxunu da gizlədirsiniz. Əslində, siz

(Quran vasitəsilə) özünüzün və atalarınızın bilmədiklərini öyrənmiş olursunuz. Ya Rəsulum! Sən "Allah!" – deyib çağır, sonra da onları burax ki, düşdükləri bataqlıqda ilişib-qalsınlar (özlərinin dedi-qodularında, pis işlərində və yaramaz əqidələrində davam etsinlər)" ["əl-Ənam" surəsi, ayə 91]; "Bu Quran da mübarək (xeyir-bərəkəti daim, faydası çox), özünündən əvvəlkiləri təsdiq edən bir kitabdır ki, onu sənə Məkkə əhlini və ətrafındakı insanları (Allahın əzabı ilə) qorxutmaq üçün nazil etmişik" ["əl-Ənam", surəsi, ayə 92].

"Əl-Maidə" (süfrə) syrəsində bildirilir: "...Onlar sözlərin (Tövratda peyğəmbərin vəsfinə dair kəlmələrin və bəzi başqa ayələrin) yerlərini dəyişib təhrif edir və xəbərdar edildikləri şeylərin bir hissəsini (Məhəmməd peyğəmbərə iman gətirməyi) unudurlar" [ayə 13]; "Ey kitab əhli! Sizə kitabda (Tövrat və İncildə) gizlətdiyiniz şeylərin bir çoxunu bildirən, bir çoxunu da sizə bağışlayıb üstünü vurmayan (və ya sizdən bir çoxunu bağışlayan) peyğəmbərimiz gəlmişdir" [ayə 15].

Müsəlmanlar bu Müqəddəs Kitaba sadiq olaraq, tam əmin olmuşlar ki, Musa da, İsa da Allahın seçdiyi peyğəmbər və sevimli bəndələr olmuşlar, İsanı Allahın oğlu saymaq günahdır, onun fövqəltəbii xüsusiyyəti olmamışdır, Allah İsanın şəhidliyi ilə insanların günahını bağışlamaz, hər kəs əməlinə görə öz qiymətini alacaqdır, İsa öldürülməmiş və Allahın möcüzəsi ilə qeybə çəkilmişdir.

Yuxarıda ən qısa şəkildə də olsa dinlərin yaranması zərurəti, inkişaf tarixi və əhəmiyyəti barədə imkanımız çərçivəsində şərhlər vermişik. Burada nəzərdə tutulan məqsədə uyğun olaraq, hesab edirik ki, dini etiqadların heç biri, nə ibtidai dini etiqadlar, nə dünyəvi dinlər, nə də milli və ənənəvi dini inanclar elm və dövlətdən ayrı olmamışlar. Onların hər biri, ilk növbədə, müəyyən insan cəmiyyətinin mənəvi dəyərlərinin, əxlaqının, mədəniyyət, adət-ənənələrinin formalaşdırılmasının əsası rolunu yerinə yetirmişlər, həm də ictimai birgəyaşayış qaydalarının, hüquqların təminatını istiqamətləndirmişlər, dövlətin (hakimiyyət qurumlarının) vəzifələrinin yerinə yetirilməsinə, cəmiyyətdə nizam-intizam, sabitlik və firavan həyat tərzi yaranmasına yardım göstərmişlər.

Tarixdən bəllidir ki, dinin elm və dövlətdən ayrı olması ideyası Orta əsrlərdə, Avropa mühiti və ictimai şüurunda formalaşdırılmışdır. Bunun da müəyyən səbəbləri elə məhz tarixdən gəlir. Yəhudi icmasının müəyyən rolu xüsusilə diqqət çəkir. Yəhudi diasporası hələ qədimlərdən Babil icma cəmiyyətinin tərkibində formalaşmışdı, "Babilistan əsirliyi"ndən sonra, m.e.ə. VI əsrdə də mövcud olmuşdur. Yəhu-

dilərin əsas hissəsi Roma imperatorunun deportasiyası nəticəsində və İudeya müharibələrindən (66-73-cü illərdə), Bar-Kohbı üsyanları (132-135-ci illərdə) və imperator Adrianın təqiblərindən (117-138-ci illərdə) sonra Fələstindən köçmək (mühacirlik, emiqrasiya) məcburiyyətində olmuşlar. Beləliklə, yəhudi icmaları Roma İmperiyasının qərb və şərq əyalətlərindəki şəhərlərdə məskunlaşmışlar. Eyni zamanda, ondan kənar ərazilərdə (fars cəmiyyətlərində, daha sonralar Sasani İranı və İraqında) özlərinə məskən sala bilmiş və nicat tapmışlar.

XI əsrə kimi demoqrafik üstünlük Şərq regionlarına məxsus olmuşdur, əsas ziyalılar burada məskunlaşmışdılar, bura siyasi mərkəz sayılmışdır, diasporun bütün icmaları onların nüfuzuna arxalanmışlar. X-XI əsrlərdə bu institut (qurum, cəmiyyət) öz əhəmiyyətini xeyli itirmiş və yəhudi icmalarının mədəniyyət mərkəzi Avropaya keçmişdir. Bu zaman İspaniya, İtaliya və Almaniyadakı yəhudi icmaları demoqrafik, iqtisadi və mədəni inkişaf dövrünü yaşamışlar [16].

VII əsrin 30-40-cı illərində ərəblərin hakimiyyətə başlaması nəticəsində Vizantiya imperiyasının (Suriya, Fələstin və Misirdə) və Sasani inperiyası (İran və İraqda) tərkibində məskunlaşmış yəhudi icmaları İslam hakimiyyətnin tabeliyinə keçmişdir. Vizantiya imperiyasına tabeçilik zamanı Suriya-Fələstin yəhudilər cəmiyyəti dini azlıqlar hesab edilir, vaxtaşırı ayri-seçkiliyə və bəzən də təqiblərə (cəzalandırmalara) məruz qalırmış. Ərəb xilafətinin siyasəti nəticəsində bu yəhudilər çoxluq təşkil edən qeyri-müsəlman əhalinin tərkib hissəsinə çevrilmiş və onların həyat tərzi xeyli yaxşılaşmışdır. Ona görə də belə bir fikir formalaşdırılmışdır ki, İslamın rəhbərliyi altında yəhudi xalqı öz tarixinin "***qızıl əsri***"ni yaşamışdır. Bu əsr VII yüzillikdə başlamış, X əsrdə İspaniyada Kordova Omeyyadlarının hakimiyyəti dövründə təkrar olmuş və XVI əsrdə isə Osmanlı İmperiyasında davam etmişdir. Bu regionlarda yəhudilər xristianlarla yanaşı, "Müqəddəs Kitab"ların sahibləri sayılmış və məcburi islamlaşdırmaya məruz qalmamışlar, "zimmi" (himayə edilənlər, qorunanlar) statusu almışlar. Bu barədə İslam dininin tarixi qaynaqlarında çoxlu mənbə mövcuddur.

İslam tarixindən məlumdur ki, onlara "Kitab əhli kimi" gündəlik həyat tərzində özlərinin dini etiqadlarını azad və açıq təbliğ etməyə, dini-mülki muxtariyyət azadlığına şərait yaradılmışdır. "Zimmi" statusu hələ I Ömər ibn əl-Xəttab tərəfindən (637-644-cü illərdə hakimiyyətdə olmuşdur) verilmiş fərmana əsasən müəyyələşdirilmiş və "Ömər Müqaviləsi" adını almışsa da, əslində, VIII-IX əsrlərdə də qüv-

vədə qalmışdır [16]. Bu fakt bir daha İslamın həqiqətən İlahi töhfəsi, bütün insanlara göndərildiyi, tolerantlıq vasitəsi olduğu, sülh və ədaləti bərpa etmək, dostluq və əməkdaşlıq münasibətləri yaratmaq, insanların mənəvi kamilliyi, əxlaq paklığı, firavan həyat tərzini təmin etmək məqsədlərini özündə əks etdirmiş öyüd-nəsihətlərdən ibarət olduğu fikirlərini təsdiqləyir. Təkcə müsəlman, iudeya və xristianetiqadlılar üçün deyil, bütün millər və xalqlar üçün Allahın bəxş etdiyi mənəvi dəyərlər, normalar və qanunlar məcmuəsidir. Yəhudilərin həyat tərzinin "qızıl əsr" rəvayəti həm də Tövrat və İncilin sahiblərinin etiqadlarının inkişafına necə təkan verdiyini bir daha sübut edir. İbrahim, Musa, İsa və Məhəmməd peyğəmbərlərin (s.ə.) vasitəçiliyi ilə ilahi iradəsi zəncirinin insanlara endirilməsi, mənəviyyat, elm, mədəniyyət, əxlaq toxumlarının səpilməsi, cücərməsi, buğumlanması, gövdə və budaqların yaranması, çiçəkləməsi, bəhrələnməsi, meyvə verməsi və məhsullarının bütün insanlara paylanması fərziyyəsinin bariz sübutu, etibarlı bir faktı hesab edilir.

Bütün bunlar deməyə və sübut etməyə kifayət edir ki, İslam dini ümumbəşəri inkişaf konsepsiyasıdır, milli, irqi fərqlər qoymadan, dünyanın bütün xalqları və millətlərinin qardaşlıq, bir-birinə hörmət, sevgi və məhəbbət hissləri aşılamaq, əməkdaşlıq telləri ilə sıx bağlamaq, hər kəsin ruhunu saflaşdırmaq, gözəl əxlaqa malik olmaq, təbiətə, biosferaya xidmət göstərmək, onların ehtiyatlarından səmərəli istifadə etmək vərdişləri formalaşdırmağa, düşüncə tərzi, dünyagörüşü, dərrakəsi, yaddaşı, bilik və bacarığını məqsədyönlü istiqamətə yönəltmək, səmərəli istifadə etmək məqsədlərini reallaşdırmağa xidmət göstərir. Onun vasitəçiliyi ilə dini etiqad ruhu saflaşdırır, sağlam ruh elmin fəaliyyətinin səmərəliliyinin təmin olunmasına xidmət göstərir, din və elm vəhdət halında fəaliyyət göstərir, cəmiyyətdə sabitlik yaradılır, tolerantlıq hökm sürür, din və dövlət vəhdətdə fəaliyyət göstərir. Bütün bunlar deməyə əsas verir ki, göstərilən mənəvi dəyərlər qlobal dünyanın, bəşəriyyərin hər bir üzvünün sosial-iqtisadi və ictimai problemlərinin məqsədyönlü həllinin vacib vasitəsi sayılır.

Təəssüflər olsun ki, hələ də Orta əsrlərdə formalaşmış və Qərb məkanı üçün xarakterik sayılan tezisləri əsas götürülərək, din və elmin, din və dövlətin bir-birindən ayrı olması dünyagörüşü bəşəri (ictimai) şüurun məhsulu kimi iddia edilir. İnstitusional olaraq, əlbəttə qəbul edirik ki, din dövlətdən ayrı olmalıdır və bunun tarixi əsaslarının da olmasını inkar etmək mümkün deyildir. Etik-əxlaqi, mədəniyyət, mənəvi və s. ruhaniyyət anlamında dinin dövlətdən ayrı tutulma-

sı, fikrimizcə, istər dünən, istərsə də bu gün və ya gələcəkdə problematika mənbəyi kimi mövcud olacaqdır. Düzdür, yuxarıda qeyd olunduğu kimi, qəbul edirik ki, bunun bir çox hallarda tarixi əsasları olmuşdur. Məsələn, Qərbdə kilsələrin din xadimlərinin (rahiblərin) ailə həyatı qurmalarını qadağan etmək (rahiblik həyat tərzi keçirmək tələbi), təsərrüfat həyatına rəhbərlik etmək, kilsə qanunlarına ciddi əməl olunması və hər hansı bir mütərəqqi düşüncələrə yol verilməməsi tələbi, mühafizakarlıq mövqeyində dayanması, bu əsasda da dini əqidə (inkvizisiya) müfəttişlərinin yaradılması, Xaç yürüşünün həyata keçirilməsi və hədsiz sayda alimlərin işgəncələrə məruz qalması, həbs olunması, öldürülməsi, hətta böyük bir xalqın Avropa məkanında təqiblərə məruz qalması, qovulması və soyqırımına məruz qalma təhlükəsi və s. səbəblərdən Avropa cəmiyyətlərində belə bir ictimai şüur formalaşmışdır: din və elm, din və dövlət bir-birindən ayrıdır, barışmaz ziddiyyətlərə malikdirlər. Başqa sözlə desək, Qərbdə əksər məqamlarda dinə qarşı hücumların kökü onun – "din"in əsrlərlə cəmiyyətə qarşı keçirdiyi "yalançı dindarlığa əsaslanan etiqad"ın gücü təmsil edən inkivizisiya siyasəti ilə bağlı olmuşdur. Halbuki istər Tövratın, istər İncil və müqəddəs Qurani-Kərimin prinsipləri ilə yaxından tanış olarkan aydın olur ki, bu Müqəddəs Kitabların bəzilərinin əksər məqamları təhrif olunmuşdur və bəzi zümrələrin əlində alətə çevrilmişdir. Problemin mahiyyəıti buradan irəli gəlir. Qısa ifadə etsək, tarixdə baş vermiş sterotiplərin, ziddiyyətlərin, qanlı olayların dinlə heç bir əlaqəsi yoxdur; bu, dünyagörüşlərin, insan nəfsinin, dünyaya hərisliyin, hökmranlıq etmə səyinin nəticəsidir ki, bunu da yanlış olaraq bəzi mütəxəssis və nəzəriyyəçilər dinlərin ünvanına şamil edirlər. Müasir insanlığın da əsas problemlərindən biri məhz elə gedonist (həyatın zövq və səfa üçün yaranmış olduğunu iddia edən qədim yunan əxlaq nəzəriyyəsi) təfəkkürlü insanın yetişmə səbəblərindən biri idarəetmə və maliyyə piramidasında ruhi-mənəvi cəhətdən yeni insan tipinin yaranması – yaradılması dayanır ki, bu da elə XX əsr Qərb təfəkküründə nəzəri olaraq dini-fəlsəfi məktəblərdə vurğulanmışdır.

Odur ki, problemin son dərəcə genişmiqyaslı olmasını nəzərə alaraq, burada belə bir sualın cavabını axtarmağı hər kəsin öz öhdəsinə buraxmağı ədalətli hesab etmək olar: əgər din elm və dövlətdən ayrıdırsa, onda ***hansı din və nə üçün belə ayrılığa məhkum olunmuşdur?*** Belə bir məqamda, fikrimizcə, psevdodindarlıqdan bəhs etmək ədalətli olmazdımı?

Dinlərin qarşı-qarşıya qoyulması da bu qəbil problemlərdəndir. Müasirlikdən söhbət gedərkən sonda bir amili xüsusi qeyd etməliyik: İslam dininə Qərbdən bəzi hallarda əsən küləyin təsiri altında düzgün qiymət verilmir. Qərəzli siyasi, ideoloji maraqlar səbəbindən, bu dinin tarixən bəşəriyyətə bəxş etdiyi mənəvi dəyərlər saxtalaşdırılır, təhriflərə yol verilir. Məqalədə verilmiş qısa məlumatdan da aydın şəkildə məlum olur ki, İslam dini və mədəniyyətinin baniləri cəmiyyətin sabitliyinə, tolerant həyat tərzinə, vaxtaşırı islahatların aparılmasının vacibliyinə, elmin inkişafına, hər kəsin intellektual səviyyəsinin, dünyagörüşünün, bilik və bacarığının yüksəldilməsinə xüsusi diqqət yönəltmişlər. Başqa sözlə desək, İslam və onun yaratdığı müsəlman mədəniyyətinin özülündə sülh və həmrəylik, dialoq fəlsəfəsi və multikulturalizm kimi anlayışlar dayanır. Ona görə də bəşəriyyətin nicat yolunin, tolerant və firavan həyat tərzinin məhz islami dəyərlərin, din ilə elmin vəhdətinin, humanitar problemlərin dərkindən mümkün olacağını söyləmək mümkündür. Bu prinsiplərə əməl etməklə Yer üzündə əsl tolerantlığa, multikulturalizmə, insani həmrəyliyə nail olmaq olar.

Nəticə olaraq bəhs edilən problematikanı tezis şəklində aşağıdakı kimi ümumiləşdirmək olar:

1) Vahid qlobal dünya təsərrüfat sisteminin – optimal münasibətlər sisteminin yaradılması və məqsədyönlü fəaliyyətinin təmin olunma prinsiplərinə daxil edilir: dialoq mədəniyyətinin formalaşması, azadlıq, bərabərlik, qarşılıqlı hörmət, tolerantlıq və multikulturalizm, sevgi, məhəbbət, əməkdaşlıq, mərkəzi demokratik idarəetmə, ədalətli bölgü, səmərəlilik, israfçılığa yol verməmək, digər etiqadlara dözümlülük və sərbəst seçim, ətraf mühitin və atmosferin mühafizəsi.

2) Vahid qlobal dünya təsərrüfat sistemində hərbi-sənaye sahələrinin fəaliyyəti, ifrat gedonist münasibətlər, narkotik və s. məhsulların istehsalı və insanın mənəvi ekologiyasına və fiziki səhhətinə ziyan vura bilən hər hansı bir iqtisadi fəaliyyətə yer olmaması. Bu yolla müasir dövrdə nəinki 7,8 milyard, hətta dəfələrlə çox insanın normal yaşaması və firavan həyat tərzi keçirməsi mümkün sayılır.

3) Vahid qlobal dünya təsərrüfatı sistemi "ağa-qul" münasibətləri üzrə deyil, dərin ixtisaslaşma, mükəmməl inteqrasiya olunma və kooperasiya prinsipləri üzrə fəaliyyət göstərən ədalətli cəmiyyətlərin formalaşdırılması məqsədlərini özündə ifadə etməlidir, *"hamının hər kəs, hər kəsin hamı üçün"* düşündüyü, hamının mənafeyini təmin və hüquqlarını müdafiə edə bilən insan birliyinə çevrilməlidir. Hər kəsin

zəngin və firavan yaşaması, intellektual qabiliyyəti, təcrübəsi, bilik və bacarığının yüksəldilməsi əsas hədəf olmalıdır.

4) Yuxarıdakı keyfiyyət əlamətlərini formalaşdıra bilən hər bir etiqad forması İlahi iradəni ifadə etmiş olur, bu prinsiplərin həyata keçrilməsi həm elmin, həm də dinin ali prinsiplərinə daxildir. Bütün bunlar İbrahim, Musa, İsa və Məhəmməd peyğəmbərlərin (s.ə.) məlumatlandırıldıqları, malik olduqları bilik, arzu, istək və səyləri özündə əks etdirir.

5) Postpandemiya insanı bu prinsiplərin həyata keçirilməsi üçün səylərini birləşdirməlidir. Ölkəmizin həyata keçirdiyi bəşəri layihələrdə – Azərbaycan modeli və Bakı prosesi çərçivəsində humanitar prinsiplərin reallaşdırılması işində hər kəs bilik və bacarığını əsirgəməməlidir. Gələcəyin həyat tərzi və fəlsəfəsi humanizm, xeyirxahlıq, əxlaqi-mənəvi dəyərlərin və birgəmövcudluq fəlsəfəsinin mahiyyətinə inamdan asılıdır.

ƏDƏBİYYAT

1. Qurani-Kərim. (1992). Ərəb dilindən tərcümə, Ziya Bünyadov və Vasim Məmmədəliyevin tərcüməsi, Azərnəşr, (710 s.).
2. Əhmədağa Əhmədov. (2009). Allahın möcüzələri. Bakı, (302 s.).
3. Seyid Haşim Rəsuli Məhəllati. (2005). Peyğəmbərlərin həyatı. (608 s.).
4. Xacə Nəsirəddin Tusi. (2005). Əxlaqi Nasiri. Lider nəşriyyatı, (280 s.).
5. *Башир Ахмед М., Саид А. Ахсани, Дилнаваз А. Сиддикуи.* (2008). Вклад мусульман в мировую цивилизацию, Международный Институт Исламской Мысли P.O. Box 126,Richmond, Surrey TW9 2UD, UK. Главный офис P.O. Box 669, Herndon, VA 22070, USA. Общественное Объединение «Идрак», Баку, (180 стр.).
6. Murtaza Mutahhari Materializmə yönəlmənin əsas səbəbləri. (1992). Bakı, (204 s.).
7. Muznib Əlabbas. (1990). Peyğəmbərlərin və İslamın qısa tarixı. Bakı, (60s.).
8. Зейналлы А.Т, Зейналов Ш.А и Тапдыглы Г.М. (2019). Добрые и злые деяния – основа, движущая сила для развития либо разрушения человечества // LIV International correspondence

scientific and practical conference. International scientific review of the problems and prospects of modern science and education. Boston. USA. January 21-22, (с.35-42).

9. Зейналлы А.Т., Зейналов Ш.А и Тапдыглы Г.М. (2019). Переход от лжеучения к совершенному научному познанию закономерный процесс развития информационного общества // LIV International correspondence scientific and practical conference. International scientific review of the problems and prospects of modern science and education. Boston. USA. January 21-22, (с. 42-49).

10. Зейналлы А.Т. (2018). Основные принципы формирования потребительского рынка современного экономического отношения // XLV international correspondence scientific and practical conference «International scientific review of the problems and prospects of modern science and education» (Boston. USA. May 24-25,). (с. 46-53).

11. Зейналлы А.Т. (2017). Основные показатели, характеризующие системы экономического механизма и методология их подсчёта // European Journal of Economics and Management Sciences. Austria. Vienna,. № 3. (стр. 67-103).

12. Zeynalov Ş.Ə. (2017). Dialoq fəlsəfəsi. Bakı: “Avropa” nəşr., (304 s.).

13. https://ru.wikipedia.org/wiki/%D0%94%D0%B0%D0%B2%D0%B8%D0%B4.

14. https://ru.wikipedia.org/wiki/%D0%A1%D0%B0%D1%83%D0%BB.

15. https://businessman.ru/new-osnovnye-vidy-religij-mirovye-religii.html

16. Всемирная история: в 6 томах. Том 2: Средневековые цивилизации Запада и Востока. Коллектив авторов. Еврейская диаспора в средние века. https://history.wikireading.ru/76524.

17. Бернард Л. (2003). Ислам и Запад. Москва: Библ.-богосл. ин-т св. Апостола Андрея, (317 с.).

18. Fəlsəfə ensiklopedik lüğəti. (1997). Müəlliflər kollektivi. Bakı: “Azərbaycan Ensiklopediyası”. Nəşriyyat-Poliqrafiya Birliyi., (520 s.).

д-р филос. по филос. Шолат Зейналов
д-р филос. по теол., доц. Алиса Зейналлы

ДОБРО И ЗЛО ЯВЛЯЮТСЯ ФАКТОРАМИ ЭВОЛЮЦИИ СУЩНОСТИ ЧЕЛОВЕКА (Религиозно-философский анализ)

РЕЗЮМЕ

Цель: XXI век характеризуется как начало качественно нового этапа развития человечества. К его основным чертам относятся: создание мировой хозяйственной системы, формирование общества знаний и информации, развитие интеллектуального капитала, превращение услуг и научных достижений в ведущую производительную силу, обеспечение мира и безопасности.

Волнующие новости, распространяющиеся в социальных сетях и средствах массовой информации со скоростью света, ненаучные и позиционные подходы, а также планетарный «шок», вызванный потрясшим мир пандемией COVID-19, побудили авторов обратиться к столь актуальной теме.

Методы: диалектический, единство, логический анализ, систематический анализ, сравнительный анализ, историческая эволюция, теоретическое осмысление.

Научная новизна и важность: характеризуется определением оптимальных путей взаимоотношений между народами и нациями формирующегося нового мирового сообщества и их глобальной мировой хозяйственной системой и внесение предложений, сосредоточив внимание на систематическом анализе эволюционной истории современного глобального мира, описании положительных и отрицательных тенденций.

Ключевые слова: *добро и зло, эволюция, реформа, школа пророчества, моральные ценности, глобальная хозяйственная система, исламская культура, божественный свет, ядро развития, откровение и вдохновение.*

PhD Sholat Zeynalov
Assoc. Prof. Alisa Zeynalli

GOOD AND EVIL DEEDS ARE FACTORS IN THE EVOLUTION OF HUMAN ESSENCE
(Religious and Philosophical Analysis)

ABSTRACT

Purpose: The 21th century is characterized as the beginning of a qualitatively new stage in the development of mankind. Its main features include: the creation of a world economic system, the formation of a knowledge and information society, the development of intellectual capital, the transformation of services and scientific achievements into a leading productive force, ensuring peace and security.

Exciting news spreading at the speed of light on social networks and the media, unscientific and positional approaches, as well as the planetary "shock" caused by the COVID-19 pandemic that shook the world, prompted the authors to turn to such a pressing topic.

Methods: dialectical, unity, logical analysis, systematic analysis, comparative analysis, historical evolution, theoretical comprehension.

Scientific novelty and importance: characterized by determining the optimal ways of relations between peoples and nations of the emerging new world community and their global world economic system and making proposals, focusing on a systematic analysis of the evolutionary history of the modern global world, describing positive and negative trends.

Keywords: *good and evil, evolution, reform, school of prophecy, moral values, global economic system, Islamic culture, divine light, core of development, revelation and inspiration*

ƏRƏB ƏDƏBİYYATININ NƏZƏRİ ƏSASLARININ FORMALAŞMASINDA "ƏŞ-ŞEİR VƏ ƏŞ-ŞÜƏRA" ƏSƏRİNİN ROLU

fil.f.d., dos. Könül Məmmədova,
Bakı Dövlət Universiteti
Ərəb filologiyası kafedrası
naznar82@gmail.com

XÜLASƏ

Əməvilər siyasətinin aparıcı xətti hesab olunan ərəb təəssübkeşliyi dövrünün sona çatdığı və şüubilik hərəkatının geniş vüsətlə inkişaf etdiyi Abbasilərin II dövründə ərəb düşüncə tərzinin məhsulu olan bədii yaradıcılıq nümunələrinin Cahiz tərəfindən formalaşdırılmış nəzəri əsaslarının daha da sabitləşməsinə ehtiyac duyulmuşdur. Dövrün mütərəqqifikirli, genişerudisiyalı və bədii zövqə malik şəxsiyyətlərindən biri olan İbn Qüteybə bunu hiss edərək, Cahiz tərəfindən əsası qoyulmuş ərəb ədəbi tənqidinin nəzəri əsaslarının inkişaf etdirilməsinə səy göstərmiş, həm ərəb, həm də ümumilikdə, dünya ədəbiyyatşünaslığı tarixində xüsusi yeri olan "Ədəb əl-Katib", "Təvil müşkil əl-Quran", "Kitab əl-məani əl-kəbir fi əbyat əl-məani", "Əş-şeir va əş-şüəra" və s. əsərlərini qələmə almaqla ərəb ədəbi tənqidinin yeni dövrü olan – "inkişaf mərhələsi"nin əsasını qoymuşdur. Ədib ərəb ədəbiyyatında ilk dəfə olaraq elmi və bədii üslubların mühüm xüsusiyyətlərini təhlil etmiş, ədəbi tənqidin sabitləşmiş elmi terminlərini müəyyənləşdirmiş, Qurani-Kərimin ərəb ədəbi tənqidinin nəzəri əsaslarının öyrənilməsindəki rolunu göstərmiş və beləliklə, yeni bir yanaşma metodu ilə ərəb qəsidəsinin daxili və xarici strukturunu təhlil etmişdir. O, bədii nümunələrin təhlili zamanı tam obyektiv və qərəzsiz mövqedən çıxış edərək, həm Cahiliyyə və Sədri-İslam, həm də Əməvi və Abbasilər dövrü şairlərin yaradıcılıqlarını müqayisəli şəkildə araşdırmış, konkret dəlillər əsasında nəzəri fikirlərini təsdiqləməyə çalışmışdır. İbn Qüteybə "Əş-şeir və əş-şüəra" əsərində apardığı müqayisələr zamanı müxtəlif dövrlərdə yaşamış, lakin eyni janr və üslubda məşhurlaşmış şairlərin poetik nümunələrini təhlilə cəlb etməklə, onların qəsidələrinin bədii və tənqidi təhlilini verməyə çalışmışdır. Ədibin ərəb ədəbi tənqidi sahəsində ən böyük xidmətlərindən biri də ərəb qəsidəsinin

quruluşunun və onun tərtibinin sabit norma və prinsiplərini müəyyənləşdirməklə bağlıdır.

Açar sözlər: *Ədəbi tənqid, qəsidə quruluşu, şerin ölçüsü, tənqid meyarı, nəzəri əsaslar.*

Giriş

Dövrünün ensiklopedik biliyə malik mütəfəkkirlərindən olan İbn əl-Arabi, ət-Təcibi, əz-Ziyədi, Əbu Hatim əs-Sicistani, ər-Riyəşi kimi məşhur alimlərdən dərs almış, təfsir, hədis, fiqh, dilçilik və şeir sənəti elmlərini dərindən mənimsəmiş İbn Qüteybə haqlı olaraq yaşadığı əsrin ən bilikli şəxsiyyətlərindən biri hesab olunur [Abdul-Hafiz t/y, 14-18; Noval Sultan 2008, 83-89]. Bir çox humanitar elm sahələrində qiymətli əsərlər yazmış İbn Qüteybə daha çox ərəb ədəbi tənqidi sahəsində məşhur olmuş və bu mövzuda yazdığı elmi əsərlər sonrakı alimlərin istinad mənbəyinə çevrilmişdir [İbn Qüteybə 1953, 92]. Ədibin ayrı-ayrı elm sahələri və mövzularla bağlı qələmə aldığı əsərləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1) Ümumi elmlər:

المعارف [İbn Qüteybə 1969] (Maarif). On iki cilddən ibarət olan "əl-Məarif" ensiklopediyasında ərəb filologiyasının bütün məsələlərinə toxunulmuş, ərəb dilinin leksik-qrammatik incəliklərinə, pitorikaya və bəlağətə dair xüsusi bəhslər ayrılmışdır [Vasim Məmmədəliyev 1985, 182].

عيون الأخبار[İbn Qüteybə 1925] (Xəbərlər çeşməsi)

2) Quran elmləri

a) Fiqh

المسائل والأجوبة [İbn Qüteybə 1951] (Suallar və cavablar)

الأشربة وذكر اختلاف الناس بها [İbn Qüteybə 1995] (İçkilər və insanların onlar haqqında müxtəlif fikirlərinin xatırlanması)

b) Təfsir

تفسير غريب القرآن [İbn Qüteybə 1958] (Quranda mənası çətin başa düşülən sözlərin təfsiri)

c) Hədis

تأويل مختلف الحديث [İbn Qüteybə 1966] (Hədis müxtəlifliyinin geniş təfsiri)

إصلاح غلط أبي عبيد في غريب الحديث [İbn Qüteybə 1983] (Hədislərdə çətin başa düşülən sözlər barədə Əbu Ubeydənin etdiyi səhvlərin düzəlməsi)

d) Quran ecazı (dil və üslub xüsusiyyətləri)

تأويل مشكل القرآن [İbn Qüteybə 1954] (Quranda çətin anlaşılan məsələlərin geniş şərhi)

3) Dilçiliklə bağlı tədqiqatlar

أدب الكاتب [İbn Qüteybə 1978] (Yazıçıların ədəbi)

كتاب المعنى الكبير في أبيات المعانى [İbn Qüteybə,1953] (Mənalar haqqında böyük mənalar kitabı)

4) Ədəbi tənqidlə bağlı yazılan tədqiqatlar

الشعر والشعراء [İbn Qüteybə t/y.] (Şeir və şairlər)

İbn Qüteybənin çoxtərəfli elmi dünya görüşü və geniş təhlillər aparmaq qabiliyyəti ona ərəb dilçiliyi, ədəbiyyatşünaslığı və Quran elmləri sahəsində çoxsaylı əsərlər yazmağa imkan vermişdir. Ədibin ərəb bəlağətini, tənqidi hökmləri, tənqid ölçülərini və bədii ifadə vasitələrindən istifadə qaydalarını, söz sənətini, ərəb ifadə tərzi və üslub xüsusiyyətlərini mükəmməl bilməsi ona ərəb ədəbi tənqidi sahəsində dəyərli fikirlər söyləməyə və gələcək tədqiqatçıların yoluna işıq salacaq əsərlərin yazılmasına imkan vermişdir. İbn Qüteybənin ədəbi tənqid sahəsində bu dərəcədə inkişaf etməsinə səbəb kimi Abbasilər dövründə yaşanmış aşağıdakı üç mərhələni göstərmək olar:

1) Ədəbi tənqidin yaranması;

2) Ədəbi tənqidin incələnməsi və ona uyğun nümunələrin toplanması;

3) Ədəbi tənqidin dəqiq elm halına düşməsi.

İbn Qüteybənin qələmə aldığı الشعر والشعراء əsəri onun yaradıcılığında özünəməxsus yer tutmaqla, ərəb ədəbiyyatının nəzəri əsaslarının formalaşmasına böyük təsir göstərmişdir.

Kitabın adı

Dünya ədəbiyyatşünaslığında, xüsusilə də Şərq poetikasında nəzəri əsasların öyrənilməsində giriş kitablarından biri hesab olunan "الشعر والشعراء" əsəri bədii cəhətdən "müəyyən etmək", "vəsf", "cəlb etmək", "maraqlı" kimi sətiraltı mənalar ifadə edir [Səid ət-Taumi 2009, 61-62]. Adıçəkilmiş kitab, ümumiyyətlə xütbə, xüsusilə də ərəb qəsidəsinin öyrənilməsində özünəməxsus mühüm rol oynamaqla ərəb ədəbiyyatşünaslığı nəzəriyyəsinin "açarı" hesab olunur. Əsərin " الشعر

والشعراء" adlanması onu həm mövzu, həm də məzmun baxımından tamamlayaraq aşağıdakı iki cəhəti özündə ehtiva edir.

1) Nəzəri tərəf. Kitabın müqəddiməsində də geniş şəkildə qeyd olunduğu kimi, burada poetik nümunələr nəzəri baxımdan təhlil olunur.

2) Tətbiqi tərəf. Əsərin əsas məzmununun, ana mətninin ehtiva olunduğu bu hissədə şairlərin həyat və yaradıcılığı haqqında geniş məlumat verilir [Məhəmməd Fikri əl-Cəzar 2001, 280].

Məhz buna görə də əsərin الشعر والشعراء adlanması onun məzmun və mövzusunun bir növ aynasıdır. Yuxarıda qeyd olunmuş cəhətlərini nəzərə alsaq, əsəri ədəbi tənqid üslubunda yazılan ciddi bir kitab hesab etmək olar. Əsərin həm şəriət tarixini, həm də geniş bədii və elmi məlumatları özündə ehtiva etməsinə baxmayaraq, ona الشعر والشعراء kimi uğurlu bir adın seçilməsi tənqidçi və filoloqların, o cümlədən geniş oxucu kütləsinin diqqətini cəlb etmişdir.

Oxucu ilkin olaraq, əsərin الشعر والشعراء adına nəzər saldığı zaman fikir və düşüncəsi dərhal ədəbi tənqidlə bağlı məsələlərə yönəlir, onun ehtiva etdiyi mövzuların tənqidi tərəflərini araşdırmağa başlayır. Belə ki, o, ilk növbədə, kitabın mətnini, üslubunu, orada dəlil və sübutlarla verilmiş məlumatları diqqətlə nəzərdən keçirməyə çalışır [Səid ət-Taumi 2009, 85-86]. Əsərin ən dəyərli cəhətlərindən biri də onun adı ilə məzmunu arasında olan möhkəm bağlılıqdır [Səid ət-Taumi 2009, 90]. Bununla əsərin həm zahiri xüsusiyyəti, həm də daxili mahiyyəti eyni anda təsvir olunur.

Geniş nəzəri biliklə yanaşı, eyni zamanda, gözəl bədii zövqə malik olan İbn Qüteybə əsərin yazılmasına şeirlə başladı. Bu da onun fundamental və geniş məqsədlərlə yazılması nəzərdə tutulan mövzulara münasib və uyğun şəkildə keçə bilmək qabiliyyətindən xəbər verir. Ədib əsərin yazılmasında bədii təsvir vasitələrinə çox da yer verməyərək qarşısına qoyduğu məqsədə konkret dəlillərlə çatmağa səy göstərir və uzunçuluğa yol verməməkdən ötrü şairlərin həyat və yaradıcılığı ilə bağlı məlumatlarda, müqəddimə hissəsi istisna olunmaqla onların yaşadıqları tarixi hadisələrə toxunmurdu. Məhz buna görə də əsərdə bədii ifadə vasitələrindən istifadəyə və tarixi hadisələrlə bağlı məlumatlara az rast gəlinir [Səid ət-Taumi 2009, 91]. Sanki ədib əvvəlcədən planlaşdırdığı kimi, şüurlu şəkildə əsərin adı ilə onun ehtiva etdiyi mövzuları bir-birinə uyğunlaşdırmış və beləliklə də, dəqiq elmi bir üslubun əsasını qoymuşdur. Kitabın adının bu şəkildə uğurla seçilməsinə gəldikdə, müəllifin özünün dediyi kimi, o, əsəri yazıb qurtar-

dıqdan sonra mövzuları ümumiləşdirərək ona belə bir ad qoymaq qərarına gəlmişdir [İbn Qüteybə t/y, 7-9].

Kitabın müqəddiməsi

Əsərin müqəddiməsinin ən əhəmiyyətli cəhətlərindən biri onun ümumiləşdirilmiş elmi-bədii xüsusiyyət daşıması ilə bağlıdır. Məhz müqəddimədə ədibin əsəri yazmaqla bağlı məqsədi və təhlilə cəlb edəcəyi mövzular barədə ümumi təsəvvür yaradılır və o, özünün ərəblərin sırf tənqidi irsinə həsr olunması ilə seçilir. Bu müqəddimə vasitəsilə qədim ərəblər haqqında aydın və ətraflı məlumat əldə edə bildiyimiz kimi, orada cahiliyyə ərəblərinin poetik nümunələri seçərkən onların düşüncə tərzində müəyyən tənqidi cücərtilərin yaranmasının da şahidi oluruq. Məşhur bir ərəb məsəlində - evə astanaya çatmadan girməyin mümkün olmadığı kimi, müqəddiməni oxumadan da əsərin mətninə girişmək çətinlik törədir. Qeyd etmək lazımdır ki, الشعر والشعراء əsərinin müqəddiməsinin xüsusi bir üslubu vardır və məhz bu müqəddimə ədəbi tənqid sahəsində ən mühüm mərhələlərdən biri hesab olunur [Səid ət-Taumi 2009, 96-97]. Orta əsr mənbələri ilə tanışlıq əsərin əsas mətni haqqında ümumiləşdirilmiş şəkildə tərtibatı ilə məlumat verilməklə belə bir müqəddimə yazmağın yalnız İbn Qüteybəyə məxsus olduğunu deməyə əsas verir. Əsərdə qədim və müasir dövr şairləri bir araya gətirilmiş, onların yaradıcılığı müqayisəli şəkildə təhlil olunmuş və bu da bilavasitə ərəb ədəbi tənqidinin inkişafına güclü təsir göstərmişdir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, ədibin adı çəkilmiş əsərinə yazdığı geniş və hərtərəfli müqəddimə gələcək filoloqların onu bu sahədə təqlid etmələrinə səbəb olmuş və onlar qələmə aldıqları əsərlərində müqəddimə hissəsinə xüsusilə diqqət yetirmişlər. İbn Qüteybənin üslubunu, metodunu, ifadə tərzini və məsələlərə yanaşma üsulunu, onun ümumiləşdirmə bacarığı ilə yaxından tanış olmaq üçün müəllifin əsərə yazdığı müqəddiməni diqqətlə oxuyub şərh etmək tələb olunur.

Qədim tədqiqatçılardan Tabataba əl-Ələvi [Tabataba əl-Ələvi 1982], əs-Suyuti [əs-Suyuti 2014], müasir tədqiqatçılardan isə Zəğlul Səllam [Zəğlul Səllam t/y], Nahid Şiravi [Nahid Şiravi 2005] və başqalarının fikirlərinə görə, İbn Qüteybənin yazdığı müqəddimədə əsərin məqsədi, hədəfi və ədibin tənqidi fikirləri aydın və tam şəkildə göstərilmişdir. Əsərin müqəddiməsini diqqətlə oxuduqda, onun sırf tənqidi üslubda yazılması məlum olur. Müasir ərəb filoloqlarından İhsan Abbas da sözügedən məsələdən bəhs edərək təkidlə bildirir: “İbn Qütey-

bənin tənqidi fikirlərinin əsas mahiyyətinin cəm olunduğu əsərin müqəddimə hissəsindən onun özünəməxsus bir üslubda qələmə alınaraq geniş təhlillər əsasında ərəb ədəbi tənqidinin nəzəri fikirlərini ehtiva etdiyi aydın görünür. Ədib müqəddimədə ədəbi tənqidin qayda-qanunlarının əsas məğzini tərtibatı ilə verməyə çalışmışdır" [İhsan Abbas 1993, 94].

الشعر والشعراء əsərinin müqəddiməsini ərəb ədəbi tənqid tarixinin ən qiymətli mənbələrindən biri hesab etmək mümkündür. Belə ki, məhz həmin müqəddimə ilə ərəb mədəniyyətinin şifahi mərhələsinə son qoyulmuş və ədəbiyyatşünaslıq nəzəriyyəsində ciddi yazılı mədəniyyətin əsası qoyulmuşdur [Səid ət-Taumi 2009, 117]. Ədibin geniş ümumiləşdirmələr əsasında yazdığı həmin müqəddimə aşağıdakı üç əsas mərhələni əhatə edir:

1. Tarixi mərhələ. İbn Qüteybə burada özünəqədərki tarixi hadisələri və xəbərləri bir araya toplamışdır.

2. Elmi üslub mərhələsi. Ədib burada özünəməxsus elmi üslubu və təhlil metodları ilə mövcud məlumatları elmi əsaslarla müəyyən qruplara bölmüşdür.

3. Bədii ifadə mərhələsi. İbn Qüteybə bu mərhələdə ilk addım kimi, ədəbi xütbənin təhlilinə geniş yer vermiş, bunun üçün əvvəlcə konkret şair haqqında məlumatları təqdim etmiş, onun yaradıcılığındakı fərqli xüsusiyyətləri göstərməyə çalışmış və nəhayət, ona məxsus poetik nümunələri təhlil etmişdir. Bu mərhələ şeir mətninin şərhi mərhələsi də hesab oluna bilər.

Məhz bu üç mərhələ əsasında İbn Qüteybənin elmi-tənqidi üslubu aydın şəkildə görünməyə başlayır və beləliklə də ədib ənənəvi ərəb qəsidəsinin yaranma yollarının şərhini verməyə çalışır.

الشعر والشعراء əsərinin müqəddiməsi aşağıdakı prinsipləri ehtiva edir:

a) Müqəddimə oxucuya əsər barədə müəyyən konkret məlumat vermək, ona oxuyacağı mətni daha asan qavramaq məqsədilə qələmə alınmışdır. Müqəddimədə daha çox ədəbi tənqid, xüsusilə də qəsidə quruluşu haqqında ümumi məlumat verilir.

b) Burada İbn Qüteybənin tənqidi üslubunun əsasları izah edilir.

c) Müqəddimə özünəməxsus mahiyyətə malikdir, belə ki, orada şərhlər verilir; söz və məna arasında gizli, mübhəm və qaranlıq qalan məqamları aradan qaldırmaq üçün uyğun terminlər seçilir.

d) Müqəddimədə müəyyən tənqidi prinsiplər öz əksini tapır:

1. Şeri başa düşmək və onu dərk etmək yolları göstərilir.

2. Şeirdə yol verilmiş nöqsanlar, o cümlədən iqva, ikva və erab (fleksiya) xətaları müəyyənləşdirilir.

3. Söz-məna bağlılığı təhlil edilir.

4. Şerin özünəməxsus təbii xüsusiyyətləri göstərilir.

5. Ənənəvi qəsidə quruluşunun meyarları bildirilir.

الشعر والشعراء əsərinin əhəmiyyəti

Ərəb ədəbi tənqidinin nəzəri əsasları ilə bağlı qələmə alınmış bu əsər böyük məziyyətlərə malikdir və onun əhəmiyyətini aşağıdakı şəkildə göstərmək olar:

1. Bu, ərəb ədəbiyyatşünaslığı tarixində İbn Səllam əl-Cüməhinin "طبقات فحول الشعراء" əsərindən sonra qədim ərəb şeiri, onun ölçüləri və yaradıcıları haqqında geniş məlumat verən ən mühüm kitabdır [Səid ət-Taumi 2009, 72-133].

2. Məhz bu əsər vasitəsilə ədəbi tənqid sahəsində qaranlıq qalan məsələlərə aydınlıq gətirildi.

3. Bu əsər ədəbi tənqid tarixinin inkişafının orta mərhələsində yazılmaqla Abbasilər dövründə ərəb qəsidə quruluşunun əsaslarını əhatə edir və adı çəkilən əsər bu sahədə sonrakı tədqiqatçılar üçün əsas mənbə hesab olunur.

Kitab müqəddimə və əsas hissədə aşağıdakı mövzuları əhatə edir:

1. Müqəddimədə şeri başa düşmə və anlama yolları, şeirdə nöqsanlar, söz və məna, şerin özünəməxsus təbii xüsusiyyətləri, ənənəvi qəsidə quruluşunun qaydaları şərh olunur.

2. Əsas hissədə isə ən məşhur şairlərin tərcümeyi-halları, bəzi şairlərin şeirlərindən seçilmiş parçalar verilir, onlar təhlil edilir və tənqidə cəlb olunur.

Ədibin "الشعر والشعراء" əsərinin mövzusuna yaxın olan **"أدب الكاتب"** adlı digər bir tədqiqatı da daha çox Abbasilər dövrünün ümumi mənzərəsini əks etdirir, idarəçilik, siyasət, hakimiyyət və s. kimi mövzulardan bəhs edir və dövrün ümumi mədəni mənzərəsi ilə bağlı olan amillərin əhəmiyyətindən danışır. Bu əsərin yazılmasında əsas məqsəd hər bir şəxsə vəzifəsinə uyğun olan qaydalara, o cümlədən etiket və ədəb normalarına əməl etməsinin vacibliyini onun nəzərinə çatdırmaqdır [Həmmadi Səmmud 1981, 318]. Akad. V.M.Məmmədəliyev qeyd edir ki, İbn Qüteybə adıçəkilən əsərini xilafətin inzibati aparatında çalışan katiblər üçün üslubiyyat dərsliyi kimi yazmışdır [Vasim

Məmmədəliyev 1985, 182]. Əsərdə tənqidin xüsusiyyətləri, əsasən tətbiqi xarakter daşıyır:

1) Söz və mənanın seçilməsi;

2) İfadə tərzində təbii uyğunluq və üslub gözəlliklərinin seçilməsi;

3) Təşbehlərin elmi deyil, hissi və xəyali yolla seçilməsi.

İbn Qüteybə poetik nümunələri tədqiq edərkən müxtəlif üsullardan istifadə etmiş və bu məqsədlə ciddi tənqidi normalar və meyarlar yaratmağa nail olmuşdur. Qeyd etmək lazımdır ki, İbn Qüteybə hər hansı bir mövzunu təhlil etməyə başlayarkən ona xüsusi zəmin hazırladığı kimi, fundamental əsərlər yazmağa girişərkən də, sanki hazırlıq mərhələsi keçir, gələcəkdə təhlil edəcəyi nəzəri fikirləri oxucunun anlaması üçün müəyyən mənada keçid rolunu oynayacaq əsərlər yazmağa üstünlük verirdi. Bu baxımdan, onun "الشعر والشعراء" əsərinin mahiyyətini dərk etmək üçün müəllifin "كتاب المعانى الكبير في أبيات المعانى" kitabını qələmə almasını qeyd etmək lazımdır. Bu iki kitabda fikir və mövzu uyğunluğu, məsələlərin qoyuluşu, yanaşma üsulu sanki bizə birinin digərinin davamı olduğu qənaətinə gəlməyə əsas verir. İbn Qüteybənin ədəbi tənqid haqqında qələmə aldığı bu əsəri təhlil edərkən, bütövlükdə ədibin yaradıcılığının, xüsusilə də "تأويل مشكل القرآن" əsərində təhlilə cəlb etdiyi problemlərin ayrı-ayrı məqamlarının müəyyən mənada orada əks olunduğunun şahidi oluruq. Onun adıçəkilmiş əsəri ilə yaxından tanış olmadan, orada qoyulmuş məsələləri araşdırmadan ədibin ərəb ədəbiyyatşünaslığına bəxş etdiyi töhfələrdən danışmaq çətindir. Bütün bunları nəzərə alaraq, aşağıdakı məqamlara diqqət yetirməliyik:

1) Ədibin bütün kitablarını mütaliə etməklə onun yaradıcılığının geniş şəkildə araşdırılması.

2) İbn Qüteybənin təsirləndiyi alimlərin yaradıcılığına diqqət yetirmək.

Nəticə

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, İbn Qüteybə ədibi tənqiddə nəzəri fikirlərin inkişaf etdirilməsi üçün konkret bir metodologiyadan istifadə etməmiş, yeri gəldikcə tarixi, elmi və bədii yanaşmaya üstünlük vermişdir. Məhz belə bir üslubla ədib tənqidi fikirlərini müqayisəli və ardıcıl şəkildə bir-birinə uyğunlaşdıra bilmişdir. İbn Qüteybənin yüksək elmi imkanları və bədii zövqü həmin metodların bir-birinə qarışmadan hər hansı bir mətnin obyektiv təhli-

linə və ədəbi tənqid nəzəriyyəsinin yaradılmasına qiymətli töhfələr verməsinə mane ola bilməmişdir. Ədib hər hansı bir mövzu haqqında fikir söyləmək üçün əvvəlcə onu geniş şəkildə təfsir edir, onun tarixi, elmi və bədii təhlilini verir, daha sonra isə məsələnin qiymətləndirilməsini oxucuların öhdəsinə buraxır. Məhz buna görə də İbn Qüteybənin ədəbi tənqid fəaliyyətini araşdırarkən, onun hansı şairə və ya hansı şeirə üstünlük verməsini müəyyənləşdirmək çətin olur. Biz də onun fikirlərinə ehtiramla yanaşaraq, tədqiqatın texniki imkanlarını nəzərə alır, seçim zamanı ədalətsizliyə yol verməmək naminə bu və ya digər şairin yaradıcılığı barədə təxmini və ya şübhəli məlumatlar verməkdən çəkinirik.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Məmmədəliyev V.M. (1985). Ərəb dilçiliyi. Bakı, (146 s.).

Ərəb dilində

2. ابن قتيبة. المعارف. تحقيق: ثروت عكاشة، دار المعارف بالقاهرة، ط.1969
3. ابن قتيبة. عيون الأخبار. تحقيق:أحمد زكى العددى، دار الكتب المصرية، عام 1925
4. ابن قتيبة. المسائل والأجوبة. تحقيق: محمد كرد على. مطبوعات مجمع اللغة العربية بدمشق سوريا، عام، 1951
5. ابن قتيبة. الأشربة وذكر اختلاف الناس بها. تحقيق: ممدوح حسن محمد. مكتبة الثقافة الدينية بالقاهرة. ط.عام 1995
6. ابن قتيبة. تفسير غريب القرآن. تحقيق: السيد أحمد صقر. مطبعة البابى الحلبى بالقاهرة، ط.عام، 1958
7. ابن قتيبة. تأويل مختلف الحديث. صححه محمد زهرى النجار. مكتبة الكليات الأزهرية بالقاهرة، ط. 1966
8. ابن قتيبة. تأويل مختلف الحديث. راجعه وشرحه: سعيد محمد اللحام، ونشره في مكتبة الهلال، ببيروت لبنان عام، 1989
9. ابن قتيبة. تأويل مشكل القرآن. تحقيق: السيد أحمد صقر. مطبعة البابى الحلبى بالقاهرة، ط.عام، 1954
10. ابن قتيبة. أدب الكاتب. تحقيق: محمد الدالى. مؤسسة الرسالة ببيروت، ط. 1978
11. ابن قتيبة. المعانى الكبير في أبيات المعانى. تصحيح المستشرق سالم الكرنكوى، دار النهضة الحديثة ببيروت لبنان، عام، 1953
12. ابن قتيبة. إصلاح غلط أبي عبيد في غريب الحديث. تحقيق: عبد الله الجبورى، دار الفرب الاسلامي ببيروت لبنان، ط. عام،1983

13. ابن قتيبة. الشعر والشعراء. تحقيق:أحمد محمد شاكر. دار المعارف بالقاهرة، د/ت
14. إحسان عباس. تأريخ النقد الأدبي عند العرب. دار الشروق بعمان الأرون. ط. 1993
15. جلال الدين السيوطى. المزهر في علوم اللغة وأنواعها. تحقيق: محمد جاد المولى – محمد أبو الفضل إبراهيم – علي محمد البجاوي. المكتبة العصرية، 2014
16. حمادي صمود. التفكير البلاغي عند العرب أسسه وتطوره إلى القرن السادس ، منشورات الجامعة التونسية ، 1981
17. سعيد التومى. العتبات النصية في التراث النقدي العربي (الشعر والشعراء) لإبن قتيبة نمودجا، رسالة ماجستير غير منشورة، معهد اللغات بوزارة التعليم العالي بالجزائر، 2009
18. عبد السلام عبد الحفيظ عبد العال. نقد الشعر بين ابن قتيبة وابن طباطبا العلوى. دار الفكر العربي بالقاهرة د/ت
19. محمد زغلول سلام. نوابغ الفكر العربي.ابن قتيبة. دار المعارف بالقاهرة، د\ت
20. محمد فكرى الجزار. لسانيات الاختلاف (الخصائص الجمالية مستويات بناء النص في شعر الحداثة)، دار أيتراك بالقاهرة، ط.عام 2001
21. محمد أحمد بن طباطبا العلوى. عيار الشعر. تحقيق: عباس عبد الساتر. دار الكتب العلمية. بيروت، 1982
22. مقدمة كتاب المعانى الكبير في أبيات المعانى لإبن قتيبة. تصحيح المستشرق سالم الكرنكوى، دار النهضة الحديثة ببيروت لبنان، عام 1953
23. ناهد الشعراوى. من مصادر التراث العربي. دار المعرفة الجامعية بالقاهرة، عام 2005
24. نوال سلطان. العلاقة بين البلاغة والنقد الأدبي حتى نهاية القرن الرابع الهجري، دار البشائر بدمشق سوريا، ط.عام 2008

д-р филос. по филол., доц. Кёнуль Мамедова

РОЛЬ ПРОИЗВЕДЕНИЯ "КИТАБ АШ-ШИАР ВА АШ-ШУАРА" В ФОРМИРОВАНИИ ТЕОРЕТИЧЕСКИХ ОСНОВ АРАБСКОЙ ЛИТЕРАТУРЫ

РЕЗЮМЕ

Во II период Аббасидов, ознаменовавший завершение эпохи арабского фанатизма, считавшегося ведущей линией политики Омейядов, и распространение движения шуубия, возникла необходимость в дальнейшем упрочнении сформулированных аль-Джахизом теоретических основ образцов художественного творчества, являющихся продуктом арабского мышления. Понимая это, Ибн Кутайба, один из прогрессивно мыслящих, широко эру-

дированных и обладающих художественным вкусом людей того времени, приложил усилия к разработке теоретических основ арабской литературной критики, заложенных аль-Джахизом. Написав такие произведения, как "Китаб адаб ал-катиб" (Книга искусства писца), "Тавиль мушкиль аль-Куран" (Тавиль о "Мушкиль аль-Куран"), "Китаб аль-маани аль-кабира фи абйат аль-маани" (Книга поэтических мотивов), "Китаб аш-шиар ва аш-шуара" (Книга поэзии и поэтов), занимающие особое место в истории как арабского, так и мирового литературоведения в целом, он заложил основу нового периода арабской литературной критики – "этап развития". Автор впервые для арабской литературы проанализировал существенные особенности научного и художественного стилей, определил устойчивые научные термины литературной критики, указал на роль Корана в изучении теоретических основ арабской литературной критики и, таким образом, методом нового подхода проанализировал внутреннее и внешнее строение арабской касиды. Выступая с абсолютно объективной и беспристрастной позиции при анализе художественных образцов, он сравнительно исследовал творчество поэтов периода Джахилия и Садри-ислам, а также Омейядов и Аббасидов, и пытался на основе конкретных фактов подтвердить свои теоретические взгляды. В своих сравнениях в произведении "Китаб аш-шиар ва аш-шуара", привлекая к анализу поэтические образцы поэтов, живших в разное время, но прославившихся в одном и том же жанре и стиле, Ибн Кутайба пытался дать художественно-критический анализ их касид. Одной из наибольших заслуг писателя в области арабской литературной критики стало определение устойчивых норм и принципов строения арабской касиды и ее составления.

Ключевые слова: *литературная критика, структура касиды, стихотворный размер, критерий критики, теоретические основы.*

Assoc. Prof. Konul Mammadova

THE ROLE OF "ASH-SHEIR WA ASH-SHUARA" IN THE FORMATION OF THE THEORETICAL FOUNDATIONS OF ARABIC LITERATURE

ABSTRACT

In the second period of the Abbasids, when the period of Arab fanaticism, which was considered the leading line of the Umayyad policy, ended and the Shubi movement gained widespread development, it became necessary to further stabilize the theoretical foundations laid by Jahiz. Feeling this, Ibn Gutaiba, one of the most progressive, erudite figures of that time with artistic taste, and having written such works as "Adab al-Katib", "Tawil Mushkil al-Qur'an", "Kitab al-Maani al-kabir fi abyat al-maani", "Ash-sheir wa ash-shuara" and other works, sought to develop the theoretical foundations of Arab literary criticism, founded by Jahiz, and marked the beginning of a new period of Arab literary criticism – the "stage of development". For the first time in Arabic literature, the writer analyzed the important features of scientific and artistic styles, defined the established scientific terms of literary criticism, showed the role of the Holy Qur'an in the study of the theoretical foundations of Arabic literary criticism, and thus, using a new method, analyzed the internal and external structure of the Arab qasida. He took a completely objective and impartial position in the analysis of artistic samples, comparatively studied the works of the poets of Jahiliyya and Sadri Islam, as well as the periods of the Umayyads and Abbasids, and tried to confirm his theoretical views on the basis of concrete evidence. During his comparisons in "Ash-sheir wa ash-shuara", Ibn Gutaiba tried to give an artistic and critical analysis of the poems of poets who lived in different periods, but became famous in the same genre and style. One of the greatest merits of the writer in the field of Arab literary criticism is associated with the establishment of stable norms and principles for the construction of the Arab qasida and its composition.

Keywords: *Literary criticism, the structure of the qasida, the size of the poem, the criterion of criticism, the theoretical basis*

ƏRƏB DİLÇİLİYİNİN AKTUAL MƏSƏLƏLƏRİNDƏ BAĞDAD QRAMMATİKA MƏKTƏBİNİN ROLU

i.f.d., dos. Səbinə Mirzəyeva,
Bakı Dövlət Universiteti
Şərqşünaslıq fakültəsi
Ərəb filologiyası kafedrasının dosenti
mirzoyeva.76@mail.ru
orcid.org/0000-0002-3903-1010

XÜLASƏ

Qurani-Kərimin ərəb dilində nazil olması, İslamın intişar tapıb Ərəbistan yarımadasının hüdudlarından çıxaraq, daha geniş ərazilərdə yayılması və qeyri-ərəblərin İslam dinini qəbul etmələri ilə əlaqədar olaraq ərəb dilini öyrənməyə ehtiyac və həvəs xeyli artmışdı. Belə bir vaxtda heç bir qrammatik qayda-qanunları olmayan ərəb dili yenicə İslamı qəbul etmiş insanların danışıqlarındakı və Qurani-Kərimi oxuduqları zaman elədikləri səhvlərin qarşısını almaq qeyri-mümkün idi. Bütün bunları nəzərə alaraq, həmin dövrün böyük şəxsiyyətləri ərəb dilinidə qayda-qanunlar yaratmağa başladılar. Bu iş zaman keçdikcə ərəb qrammatika məktəblərinin yaranmasına gətirib çıxardı. Bağdad qrammatika məktəbi Bəsrə və Kufə qrammatika məktəblərinin bir-birinə qovuşması nəticəsində yaranmışdır. Bağdad qrammatikləri bəsrəli və kufəli sələflərinin müsbət cəhətlərini özlərində birləşdirmək, onların mülahizələrindən yaradıcı şəkildə istifadə etmək və ərəb dilinin bir sıra nəzəri məsələləri barəsində orijinal fikirlər söyləməklə, ərəb dilçiliyində yeni rasionalist cərəyan yaratmış və bunun sayəsində də özlərinin müstəqil qrammatika məktəblərini formalaşdıra bilmişlər. Bağdad qrammatika məktəbi Bəsrə və Kufə məktəblərinin sintezi nəticəsində yaranmış, öz inkişafı gedişində bir sıra orijinal xüsusiyyətlər kəsb etmişdir. Bağdad qrammatika məktəbinin görkəmli nümayəndələrinin ərəb ədəbi dilinin inkişaf etməsində bir sıra xidmətləri olmuşdur. Yeni yaranmış məktəbin spesifik xüsusiyyətlərindən biri də onun tədqiqatlarının İbn Malikin metodu üzərində təkmilləşməsi, Quranın nəhv vasitəsilə təfsiri və ərəb nəhfinin qayda-qanunlarının fiqh ehkamına tətbiq olunması ilə əlaqədardır.

Açar sözlər: *Bağdad, məktəb, qrammatika, sələf, şagird, nümayəndə.*

Giriş

Ümum-İslam mədəniyyətinin ən böyük abidəsi olan Qurani-Kərimin ərəb dilində nazil edilməsi ilə əlaqadar olaraq istər müsəlmanlar, istərsə də qeyri-müsəlmanlar arasında ərəb dilini öyrənmək və tədqiq etməyə çox böyük həvəs olmuş və olmaqdadır. Həzrət Peyğəmbərin (s) ərəb dilini çox gözəl bilməsinə və fəsahətli bir ərəb natiqi olmasına baxmayaraq, onun dövründə ərəb qrammatika elmi yayılmışdır. Bir tərəfdən, Peyğəmbərin (s) İslamı yaymaq kimi çox əzəmətli bir ilahi missiyanı yerinə yetirməklə Quranı Allahdan qəbul edib insanlara çatdırması ilə əlaqədar olmuşdursa, digər tərəfdən, o böyük şəxsiyyətin Quranın nüzulunun tamamlanmasından sonra həyatda çox qısa müddətdə yaşaması ilə bağlıdır. İslamın zühuruna qədər çox az sayda yazı nümunələri olan ərəblərin, təbii ki, dilçiliyə, qrammatikaya aid tərtib edilmiş heç bir qrammatik ədəbiyyatı olmamışdır. Qurani-Kərimin ərəb dilində nazil olması, İslamın intişar tapıb Ərəbistan yarımadasının hüdudlarından çıxaraq, daha geniş ərazilərdə yayılması və qeyri-ərəblərin İslam dinini qəbul etmələri ilə əlaqədar olaraq ərəb dilini öyrənməyə ehtiyac və həvəs xeyli artmışdı. Belə bir vaxtda heç bir qrammatik qayda- qanunları olmayan ərəb dili yenicə İslamı qəbul etmiş insanların danışıqlarındakı və Quran oxuduqları zaman elədikləri səhvlərin qarşısını ala bilmirdi. Bütün bunları nəzərə alaraq, həmin dövrün böyük şəxsiyyətləri ərəb dilində qayda-qanunlar yaratmağa başladılar. Bu iş zaman keçdikcə ərəb qrammatika məktəblərinin yaranmasına gətirib çıxardı. Həzrət Peyğəmbərdən sonra bu işə ilk başlayan Həzrət Əli olmuş və onun göstərişi ilə Əbul-Əsvəd əd-Duəli davam etdirmişdir. Sonralar Xəlil ibn Əhməd, Yəhya ibn Yamər və b. görkəmli şəxsiyyətlər ərəb dilçilik məsələlərini tədqiq edərək qayda-qanunlar yaratmağa başlamış, Bəsrə, Kufə, Bağdad, Əndəlüs və Misir qrammatika məktəbləri ətrafında toplaşmış dilçilər ərəb dilini incəliklərinə qədər tədqiq etmişlər. Burada bütün məktəblər haqqında məlumat vermək mümkün olmadığı üçün Bağdad qrammatika məktəbi haqqında məlumat vermək istərdik.

Bağdad qrammatika məktəbinin yaranması

Bağdad məktəbinin ilk nümayəndələri Sələb və Mübərrədin şagirdlərindən ibarət olmuşlar. Bu məktəb Bəsrə və Kufə qrammatika məktəblərinin bir-birinə qovuşması nəticəsində yaranmışdır. Sələbin şagirdləri özlərini kufəlilər, Mübərrədin şagirdləri isə özlərini bəsrəlilər adlandırdıqları üçün ilk dövrdə Bağdad qrammatiklərinin bir his-

səsi Bəsrə məktəbinə, digər hissəsi Kufə məktəbinə aid edilmişdir. Orta əsr bioqraflarından İbn Nədim bağdadlıları müstəqil bir məktəb (cərəyan) nümayəndələri kimi təqdim etmiş, əz-Zübeydi onların bəzilərini bəsrəli, bəzilərini isə kufəli adlandırmışdır (Məmmədəliyev 1985,175).

Müasir ərəb alimlərindən Əhməd Əmin, Əhməd Məkki əl-Ənsari və Məzin əl-Mübarək Bağdad qrammatiklərinin xüsusi məktəb təşkil etdiklərini təsdiq edirlər.

Şövqi Dayf haqlı olaraq göstərir ki, bəzi müasir alimlər Bağdad məktəbinin varlığını inkar edirliər. Həmin mütəxəssislərə bu müddəanı irəli sürməyə imkan verən odur ki, Bağdad məktəbinin iki ən görkəmli nümayəndəsi – Əbu Əli əl-Farisi və onun şagirdi İbn Cinni özlərini Bəsrə qrammatiklərinə aid edir, kufəliləri isə çox zaman bağdadlılar adlandırırlar. Farisi və İbn Cinni əksər hallarda bəsrəlilərin fikirlərini böyük ciddiyyətlə müdafiə edir, onlara "ashabuna" (dostlarımız, sirdaşlarımız) deyə müraciət edirlər. Şövqi Dayf Bağdad qrammatiklərinin bəzilərinin daha çox bəsrəlilərə, bəzilərinin isə daha çox kufəlilərə meyil etməsinə baxmayaraq, onların hər iki məktəbin fikirlərindən müştərək surətdə istifadə etmək və bir sıra məsələlər barəsində öz orijinal mülahizələrini söyləməklə yeni bir məktəb formalaşdıra bildiklərini qeyd edir (Məmmədəliyev 1985,145).

Şövqi Dayfın fikrincə, İbn Cinninin bağdadlılar deyərkən kufəliləri nəzərdə tutması ondan irəli gəlir ki, Bağdad nəhvinin ilk nümayəndələrində, o cümlədən, İbn Keysan (v. 921), İbn Şuqeyr (v. 937) və İbn əl-Xəyyata da (v. 942) kufəlilərin təsiri daha güclü olmuşdur. İbn Cinni onları bəzən bağdadlılar, bəzən isə kufəlilər adlandırır.

Qeyd etmək lazımdır ki, Mübərrəd üslubunu Sələbinkindən fərqləndirmək üçün özünü və şagirdlərini bəsrəlilər adlandırırdı. Mübərrədin şagirdləri ustadlarının bu ənənəsini davam etdirir, kufəlilərdən fərqlənmək üçün özlərini bəsrəlilər, Kisaini, Fərranı və onların şagirdlərini isə bağdadlılar adlandırır. Kufə qrammatiklərindən isə heç biri öz üslubunu Kufə üslubu, özünü isə kufəli adlandırmırdı. İki bioqraf da onlar haqqında danışarkən bu istilahı işlətmiş, Kufə nəhvlərini çox zaman bağdadlılar və ya iraqlılar adlandırmışdır. Mübərrədin özü belə onlara əksər hallarda "bağdadlılar" deyə müraciət edirdi.

Zaman keçdikcə, Mübərrədin şagirdləri bağdadlılaşdıqları üçün özlərini Sələbin şagirdlərindən fərqləndirmək məqsədilə sonuncuları kufəlilər adlandırmağa başladılar. Eyni zamanda, kufəlilərin bağdadlılar kimi adlandırılmaları da unudulmamışdır. Beləliklə, ilk dövrdə Sə-

ləbin şagirdlərinə həm bağdadlılar, həm də kufəlilər deyilirdi (Məmmədəliyev 1985, 179).

Bağdad qrammatikləri bəsrəli və kufəli sələflərinin müsbət cəhətlərini özlərində birləşdirmək, onların mülahizələrindən yaradıcı şəkildə istifadə etmək və ərəb dilinin bir sıra nəzəri məsələləri barəsində orjinal fikirlər söyləməklə ərəb dilçiliyində yeni rasionalist cərəyan yaratmış və bunun sayəsində də özlərinin müstəqil qrammatika məktəblərini formalaşdıra bilmişlər. Qısaca desək, Bağdad qrammatika məktəbi Bəsrə və Kufə məktəblərinin sintezi nəticəsində yaranmış, öz inkişafı gedişində bir sıra orijinal xüsusiyyətlər kəsb etmişdir.

Bağdad qrammatika məktəbinin nümayəndəsi – Əz-Zəccai

Görkəmli ərəb qrammatiklərindən biri olan Əbul-Qasim Əbur-Rəhman bin İshaq Xuzistanın Saymərə şəhərində doğulmuş, Həmədanın cənubunda yerləşən Nəhavənddə böyümüşdür. Sonralar Bağdada köçən Zəccai (yaxud Zucaci) burada bir çox alimlərin dərsində iştirak etmiş, uzun müddət bəsrəli əz-Zəccacın yanında qalaraq ona şagirdlik etmişdir. Şama köçən qrammatik bir müddət Hələbdə, daha sonra Dəməşqdə yaşamışdır. Əz-Zəccai Təbəriyyə şəhərində də yaşamış, hicrətin 337, yaxud 340-cı (m. 959-962) ilində isə burada vəfat etmişdir. Zəccai "Əl-İdah fi iləlin nəhv", "Əl-Cuməl Əl-vusta" və s. əsərlərin müəllifidir.

Onun əsərləri ərəb dilinin nəzəri məsələlərini öyrənmək üçün xüsusi əhəmiyyətə malikdir. Əz-Zəccai "Əl-İdah fi iləlin-nəhv" əsərində Bəsrə və Kufə dilçilərinin qrammatik amillər haqqındakı mülahizələrini tədqiq etmişdir. Müəllif bu əsərdə qeyd edir ki, o, kufəlilərin dillərinin çoxusu ilə bilavasitə deyil, Bəsrə qrammatiklərinin əsərləri vasitəsilə tanış olmuşdur.

"Əl-İdah..." əsərini Sibəveyhinin kəlam haqqında irəli sürdüyü mülahizələrin təqdimi ilə başlayan Zəccai bu məsələdə Sibəveyhi ilə razı olduğunu qeyd edir (10; 253). Daha sonra o, Sibəveyhi, Əxfəş, Mübərrəd və İbn Keysanın nitq hissələrinə verdikləri tərifləri diqqətlə nəzərdən keçirmiş, fəlsəfi, məntiqi dillərə əl ataraq onların hər birinin çatışmazlıqlarını izah etmişdir. O, nitq hissələrinin təriflərindən danışarkən göstərir ki, dilçilərin bu məqsədlə ixtilafı filosoflar arasında fəlsəfənin tərifi barəsindəki ixtilafı xatırladır. Bütün bunlar Zəccainin dilçiliklə yanaşı, fəlsəfə, məntiq, kəlam və fiqhi də gözəl bildiyinin əks etdirir. Zəccainin bu kitabı bütövlükdə Bəsrə nəhvinin tədricən Bağ-

dada qələbə çalmasının başlanğıcı mərhələsini təşkil edir (Məmmədəliyev 1985, 187).

Zəccainin əsərləri içərisində ən məhşuru "əl-Cuməl" traktatıdır. Bu əsər Sibəveyhinin kitabından sonra ərəb aləmində ən geniş yayılmış əsərlərdən biridir. Zəccainin "əl-Cuməl" əsərində 120-dən artıq şərhin yazılması bu kitabın nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyini bir daha sübut etdi. Bu şərhlər içərisində ibn əl-Ərif əl-Əndəlusinin, Əbul Əla əl-Məərinin, ibn Babtaz əl-Misrinin, İbn Üsfurun və Əbu l Hüseyn ibn Əbu ər-Rəbinin şərhi daha məhşurdur.

Zəccai "əl-Cuməl" də kufəlilərin bəzi müddəaları ilə razılaşmasına, Kufə nəhvinə qəbul edilmiş bəzi istilahları işlətməsinə baxmayaraq əsər, bütövlükdə Bəsrə qrammatika sisteminə uyğun şəkildə yazılmışdır. "Əl-Cuməl" də Sibəveyhiyə dəfələrlə istinad edilir. Xəlilin və başqa bəsrəlilərin fikirlərinə müraciət olunur. Kufəlilərdən ən çox Fərranın adı çəkilirdi (1; 187).

Əl-Cuməl üç böyük fəsildən - nəhv (sintaksis), sərf (morfologiya) və iştiqaq (sözdüzəltmə) bəhslərindən ibarətdir. Kitabın sonunda isə daha iki məsələ - ərəb dilinin orfoqrafiyası və fonetikası haqqında bir sıra məlumatlar öz əksini tapmışdır.

Zəccai "əl-Cuməl"i yeniyetmələr üçün tədris vəsaiti kimi yazmışdır. Buna görə də traktatdakı material asandan-çətinə doğru prinsipi üzrə verilmişdir. Əsərdə bəsrəlilərin, xüsusilə Sibəveyhinin qüvvətli təsiri müşahidə olunur. Zəccai Sibəveyhinin əsərində rast gəldiyimiz istilahların əksəriyyətini işlədir. Bu heç də o demək deyil ki, Zəccai bəsrəlilərin, xüsusilə Sibəveyhinin fikirlərini mexaniki şəkildə qəbul edir. Əksinə, Zəccai bəzi məsələlərdə bəsrəlilərlə razılaşmayıb, kufəlilərin müddəalarını bəyənir, bir sıra məsələlərdə isə onlardan heç birinin fikirləri ilə razılaşmayaraq, öz orijinal mülahizələrini irəli sürür (8; 154).

Zəccainin "əl-Cuməl" traktatı öz əhatə dairəsinin genişliyi, məna və məzmun dərinliyi baxımından ərəb dilçiliyinin öyrənilməsində mənbə rolunu oynayan ən qiymətli əsərlərdən biridir.

İbn Keysan – Bağdad məktəbinin ilk imamı olan Əbul-Həsən Məhəmməd ibn Əhməd bin Keysan hicrətin 299-cu (m.921) ilində vəfat etmişdir. O, Sələb və Mübərrədin şagirdi olmuşdur. Dövrünün ən güclü qarelərindən olan İbn Mücahid onun bir qrammatik kimi nəhvi, Sələb və Mübərrəddən daha güclü bildiyini qeyd edir. İbn Keysanın "Kitabu ixtilafil-basriyyinə val kufiyyinə", "Kitabul-kafi fin-nəhv", "Kita-

but-tasarif", "Kitabul-muxtari fil iləlin-nəhv" (3cilddədir) kitabları vardır.

İbn Keysan məntiq və fəlsəfəni dərindən öyrəndiyi üçün qrammatik qaydaları formalaşdırıb, tərif şəklinə salmaq sahəsində xüsusi bacarıq göstərmişdir. Yeri gəlmişkən, qeyd etməliyik ki, Zəccai öz əsərində İbn Keysanın isimə verdiyi tərifin, məntiq mütəxəssislərinin tərifinə bənzədiyini qeyd edir (15;50). O, Bəsrə və Kufə məktəblərinin rasional mülahizələrini məntiqi surətdə bir-birinə calaya bilmişdir. İbn Keysanın yaradıcılığı Bağdad məktəbinin Bəsrə və Kufə məktəblərinin sintezindən yaranması baxımından böyük əhəmiyyət kəsb edir.

İbn Keysan heç bir təəssübkeşliyə varmadan bu məktəblərin mülahizələrindən öz fikrinə, ağıl və düşüncəsinə uyğun gələnini seçmişdir. Ərəb nəhvi haqqında yazılan kitablarda onun bir çox fikir və mülahizələri öz əksini tapmışdır. İbn Keysanın mülahizələrini nəzərdən keçirərkən onun bəzən bəsrəlilərlə, bəzən də kufəlilərlə razılaşdığının şahidi oluruq. Bir sıra məqamlarda isə o, bu məktəblərə aid olan mülahizələrin heç birini qəbul etməyərək yeni fikir irəli sürürdü.

Bu dövrdən etibarən, ərəb nəhvinin öyrənilməsi Şərqin hüdudlarını aşaraq Qərbə keçir. Əməvilərdən olan Əbdürrəhman əd-Daxilin (760-794) İspaniyada Əndəlüs xilafətinin əsasını qoyması (760-1044) burada mədəniyyətin, elmin inkişafı üçün geniş imkanlar yaradır. Qısa müddət ərzində burada ərəb şerinin yeni formaları – müvəşşəh və zəcəl kimi yeni poeziya nümunələri təşəkkül tapır. Əndəlüsdə də xilafətin digər yerlərində olduğu kimi, Quranın əzbərlənməsinə və tədrisinə xüsusi diqqət yetirilirdi. Şərqdə Quranın qiraət növlərini, fiqhi, qrammatikanı və digər elmləri öyrənən Əndəlüs nümayəndələri geri qayıtdıqdan sonra əxz etdikləri biliklərinin tədrisi ilə məşğul olurdular.

Əndəlüsdə fiqh, Quranın qiraətinə dair ilk əsər yazan alim Əbu Musa əl-Həvari olmuşdur. O, Şərqə gələrkən burada qrammatiklərlə görüşmüş, İmam əl-Malikdən, əl-Əsməidən və Əbu Zeyd əl-Ənsaridən dərs almışdır. Vələd Əbbah qeyd edir ki, Kordova əhalisi onun bir müfti kimi irəli sürdüyü dini hökmləri Əli İsa ibn Dinar əl-Qafinin (v. 834) və Əli Əbu Osman Səid bin Hassan əs-Saiğinin (v. 820) hökmlərindən üstün tuturdu (Xalidov 1996, 223).

Şövqi Dayf göstərir ki, Əndəlüs məktəbinin banisi Cudi ibn Osman əl-Məvruri (v. 820) olmuşdur. O, Kisai və Fərranın yanında şagirdlik edib nəhvi öyrəndikdən sonra vətənə dönmüş və qrammatika elminin tədrisi ilə məşğul olmuşdur. Onun müasiri olan Əbu Abdulla

Məhəmməd ibn Abdulla da ərəb dilinin gözəl bilicilərindən idi (Xalidov 1996, 289).

Hicrətin III əsrindən etibarən Əndəlüsdə Quranın qiraəti, leksikologiya, qrammatika və hədis sahələrində məşhurlaşan şəxslərin sayı artmağa başlayır. Bunlardan Əbdül Məlik bin Həbib əl-Sulmanı, Müfric bin Malikin Əbubəkr bin Xatibin və başqalarının adını çəkmək olar.

Əndəlüs qrammatika məktəbinin banisi əl-Məvruri Kufədə təhsil aldığı üçün ilk dövrdə onun şagirdləri arasında Kufə məktəbinin daha qüvvətli təsiri müşahidə olunur. Bəsrə məktəbinin təsiri isə özünü yalnız hicrətin III əsrinin sonlarında əl-Ufuştiq Məhəmməd bin Musa ibn Haşimin (v. 919, 920), Sibəveyhinin məşhur "əl-Kitab" əsərini Misirdə Əbu Cəfər əd-Dinəvərdən öyrənib, onu Kordovada öz tələbələrinə tədris etməyə başlamasından sonra büruzə verir. Bəsrə məktəbi prinsiplərinin Əndəlüsdə daha geniş yayılması Kordovada müəllimlik edən Yəhya əl-Məhləbi ər-Rəbbani əl-Cəyaninin (v. 915-916) adı ilə bağlıdır. Bu alim qrammatika ilə yanaşı, fəlsəfə, məntiq və kəlam (doqmatik ilahiyyat, sxolastika) elmlərini də gözəl bilir, həmin sahələrdə tədqiqat aparırdı.

Eyni dövrdə Kordovada məşhur dilçi Əbu Əli əl-Qali əl-Bağdadi (v. 941/942) də yaşayıb fəaliyyət göstərirdi. O, Kordovaya III Əbdürrəhman Nasirin hakimiyyəti dövründə (912-961) gəlmişdi. Sibəveyhinin "əl-Kitab" əsərini İbn Dərustəveyhidən və Bəsrə məktəbinin ən görkəmli nümayəndələrindən biri olan əl-Mübərrəddən öyrənmişdi. Əbu Əli əl-Qali Bəsrə məktəbinə meyil edir, onun fikirlərini müdafiə edirdi.

Ər-Rəbbahinin şagirdləri içərisində Əbu Abdulla Məhəmməd ibn Asim əl-Asimin (v. 992-993), əl-Kisai və əl-Əxfəşin əsərlərinə şərhlər yazmış Əhməd bin Əbabın (v. 993), Əbu Əli əl-Qalinin şagirdləri içərisində isə Əbubəkr əl-Qutiyyənin (v. 977-978), həmçinin "əl-Vadih" və "Kitabu tabaqatin-nəhviyyin val-luğəviyyin" əsərlərinin müəllifi kimi məşhur olan Əbubəkr Məhəmməd əz-Zübeydinin (ölüb 990) adlarını çəkmək olar (Məmməməliyev 1985, 249).

Zaman keçdikcə Əndəlis qrammatikləri Bəsrə və Kufə məktəbləri ilə yanaşı, Bağdad məktəbinin prinsipləri ilə də maraqlanır, onlardan yaradıcı şəkildə bəhrələnməyə başlayırlar. Bağdad dilçiləri, rasionalist məktəbin nümayəndələri kimi, Bəsrə və Kufə məktəblərinin fikirlərini elmi-təhlil süzgəcindən keçirib, yaxşılarını qəbul etdikləri halda, Əndəlüs qrammatikləri hər üç məktəbin fikirlərini saf-çürük

edib onları sistemləşdirməyə çalışır, yeri gəldikcə Bəsrə və Kufə məktəblərinin fikirlərinə Bağdad dilçilərinin, xüsusilə Əbu Əli əl-Farisi və İbn Cinninin müddəalarını əlavə edir, bəzən bununla kifayətlənməyib müxtəlif qrammatik məsələlərin izahında öz orijinal fikirlərini söyləyirlər.

Bu sahədə ilk fəaliyyət göstərən dilçi hicrətin 476-cı ilində (1098) vəfat etmiş əl-Ələm əş-Şəntəməridir. İbn Madda əl-Qurtubi göstərir ki, əş-Şəntəməri dildəki sintaktik hadisələrin səbəbini izah etməkdə çox mahir idi. Əş-Şəntəməri müxtəlif sintaktik hadisələrin şərhində (məsələn, mübtədanın adlıq halında olması) ilkin, əvvəlinci səbəblərlə (الاولى العلل) kifayətlənmir, ikinci və üçüncüdərəcəli səbəbləri də açıb göstərir. O, Bəsrə, Kufə və Bağdad qrammatiklərinin fikirlərini araşdırıb öz müddəalarına uyğun onları qəbul edir. Əş-Şəntəməri Bağdad dilçilərindən əl-Zəccainin "əl-Cüməl" kitabını və Bəsrə qrammatiklərindən əl-Əsməinin əsərlərinə istinadən Cahiliyyə dövrünün 6 məşhur şairinin (İmruul Qeys, Züheyr, ən-Nəbiğə, Əl-Qəmə, Tərəf, Əntərə) divanlarını şərh etmişdir.

Əş-Şəntəmərinin şagirdlərindən Süleyman bin Mühəmməd bin ət-Təravə (v. 1134) Sibəveyhinin kitabına "əl-Müqəddimat" adlı şərh yazmışdır. O, müəyyənliyin əsl (əsas), qeyri-müəyyənliyin isə fər (törəmə) olması barədə kufəlilərin fikirlərinə şərik çıxmışdır.

Əbdülqasim Əbdülrəhman bin Abdulla əd-Dair əs-Süheyli (v. 1186) İbn ət-Təravənin və İbn Tahirin şagirdidir. O, öz nəzəri ümumiləşdirmələri və dəqiq elmi nəticələri ilə məşhur idi. Ərəb nəhvi kitablarında onun Bəsrə, Kufə, Bağdad qrammatiklərinin bu və ya digər fikirlərinə şərik çıxması barədə çoxlu fakt vardır. Onun orijinal fikirlərindən biri iqrari və ritorik sualın (الست بربكم) təsdiq bildirən cümlə olması haqqındadır.

İbn Üsfur **–** Əbul Həsən Əli bin Mumin əl-Hədrami əl-İşbili hicrətin 597-ci (m.1219) ilində Sevilyada doğulan ibn Üsfur buranın Əbul Həsən ibn Dəbbac və Şəlavbin kimi böyük alimlərdən dərs almışdır. Şəlavbindən on il dərs alan ibn Üsfur çox keçmir ki, öz müəllimlərinin elmi rəqibləri sırasına yüksələ bilir. Dövrünün əmiri əl-Hantami Məhəmməd bin Bəkrin himayəsi altında yaşayan İbn Üfsur Əndəlüsün bir çox şəhərlərini gəzərək buradakı elmi dərnəklərə başçılıq edir. Sonralar bir çox Məğrib ölkələrini gəzən İbn Üfsur hicrətin 669-cu (m. 1291) ilində vəfat edir. Tələbələrindən Əbu Həyyan əl-Əndəlisi, ibn Səid əl-Müdəccəli və əş-Şəlavbin əs-Sağir ləqəbli Əbu Abdulla Mühəmməd bin Əli əl-Maliqini göstərmək olar (Bulova 1979, 273).

Özündən sonra çox zəngin elmi irs qoyan ibn Üsfur nəhv (sintaksis), sərf (morfologiya), leksikologiya və ədəbiyyata dair bir çox əsərlər yazmaqla yanaşı, sərhədçilik sənəti ilə də məşğul olmuşdur. Belə ki, Əbu Əli əl-Farisinin "əl-İdah" əl-Zəccainin "əl-Cuməl", Sibəveyhinin "əl-Kitab" əsərinə şərh yazmışdır. Mənbələr qeyd edir ki, o, Sibəveyhinin "əl-Kitabı"na 3 şərh yazmışdır. Onun məşhur əsərlərindən biri nəhvə dair yazdığı "əl-Müqərrəb" traktatıdır. Bu əsər qrammatiklər tərəfindən alqışla qarşılanmışdır. Bunu əsərə yazılan çoxsaylı şərhlər bir daha sübut edir.

İbn Üsfurun mühüm əsərlərindən biri də onun "əl-Mumtiu fittəsrif"dir. İbn Üsfurun spesifik cəhətlərindən biri də onun Sibəveyhi, əl-Mazini və İbn Cinnidən sonra az qala unudulmaqda olan sərf elminə diqqəti yönəltməsi idi. Özünün "əl-Mumti" əsərində sərf elmini yeni tərtibtlə gündəmə gətirərək, bu elmin əhəmiyyəti haqqında geniş izahat vermişdir. İbn Üsfur bir çox alimlərin bu elmdən üz döndərməsini, bu elmə əsərlər həsr etməməsini onun çox çətin olması ilə əlaqələndirir.

Qeyd etmək lazımdır ki, İbn Üsfurun sərf elmi sahəsindəki xidmətləri bir çox digər alimlər tərəfindən də yüksək qiymətləndirilmişdir. Məsələn, Əbu Həyyan bu əsərin yüksək zövqlə yazıldığını, onun konkret, aydın və dərinməzmunlu əsər olduğunu qeyd edir (Elmi əsərlər 1976, 282). Bu təriflər Əbu Həyyanın İbn Üsfuru tənqid etməsinə mane olmamışdır. Belə ki, o, İbn Üsfuru Allahın kitabını bilməməkdə ittiham etmişdir (Elmi əsərlər 1976, 285).

İbn Üsfur heç bir təəssübkeşliyə varmadan Bəsrə, Kufə və Bağdad məktəblərinə mənsub olan fikirləri saf-çürük etmiş, rasional mövqedən çıxış etməklə bu fikirləri elm süzgəcindən keçirmişdir. İbn Üsfurun yaradıcılığını nəzərdən keçirərkən görürük ki, onun fikir və mülahizələri bəzən bəsrəlilərin, bəzən kufəlilərin, bəzən də Bağdad nümayəndəlilərinin fikirləri ilə üst-üstə düşür. Bir sıra məqamlarda isə o, bu məktəblərin heç biri ilə razılaşmayaraq yeni fikir irəli sürür.

Müasir ərəb dilçisi Məməmməd əl-Muxtar Vələd Əbbah qeyd edir ki, İbn Üsfurla Bəsrə məktəblərinin nümayəndələri, xüsusilə də Sibəveyhi arasında bəzi fikir ayrılıqlarının mövcudluğuna baxmayaraq, onun əsasən, Bəsrə məktəbinin mövqeyindən çıxış etdiyini deyə bilərik. O göstərir ki, aradakı cüzi fərqlər İbn Üsfurun özünə seçdiyi ümumi istiqaməti dəyişdirə bilməz. Bu istiqamət Kufə və Bağdad məktəblərinə qarşı hər hansı bir təəssübkeşliyə varmadan İbn Üsfurun Bəsrə məktəbinə olan əsaslı etimadından ibarətdir. O da qiyas edərkən (bəsrəlilər kimi) nadir faktlara deyil, ümumiləşmiş variantla-

ra üstünlük verir, zəif rəvayətləri qəbul etmir, həmçinin eşitdiyi hər hansı bir dil hadisəsinin fəsih (xalis, əsl) ərəb tərəfindən deyilib-deyilmədiyini yoxlayırdı (Qeliya 1981, 185).

Cəmaləddin Məhəmməd bin Abdulla bin Malik ət-Tai əl-Cəyyani hicri-qəməri tarixi ilə VII əsrin əvvəllərində (m. XIII əsr) Əndəlüsdə doğulmuşdur. Hicrətin 630-cu ilində (m. 1252), təqribən, 30 yaşına çatmış İbn Malik Şərqə gedərək İbn Hacidə rast gəlmiş, onun yanında oxumuş, sonra Hələbdə məskən salıb İbn Hişamin şagirdi olmuş, daha sonra Dəməşqə köçərək oradakı məşhur "Adiliyyə" mədrəsəsinə başçılıq etmiş, hicrətin 672-ci (m. 1294) ilində elə burada vəfat etmişdir. Qrammatika ilə yanaşı o, hədisləri, Quranın qiraətini, ərəblərin tarixini, məişətini, şerni, adət və ən-ənənələrini çox gözəl bilən alimlərdən idi. Hər hansı bir qrammatik hadisəni sübuta yetirmək üçün əvvəlcə Qurandan, burada istədiyi sübut və dəlil olmadıqda isə hədislərdən, daha sonra isə ərəb şerindən şahidlər (dəlillər, misallar) gətirməklə fikrini əsaslandıran İbn Malik ərəb dilçiliyi tarixinə hadisələrdən ən çox istifadə edən qrammatik kimi düşmüşdür.

İbn Malik nəhv-sərfə dair 30-a yaxın mənzum və qeyri-mənzum əsərin müəllifidir. Bunların arasında ən məşhurları indiyə qədər ərəb ölkələrində dərslik kimi istifadə olunan min beytdən ibarət "Əlfiyyə", üç min beytdən ibarət "əl-Kafiyətu-ş-şafiyə" və Zəməxşərinin "əl-Müfəssal" əsəri əsasında yazdığı "əl-Müssəl" poemalarıdır. Bundan başqa, müəllifin "ət-Təshil", "Şərhul-Kafiyə", "əl-Muqaddəmətul-əsədiyyə", "əl-Fəvaid" və digər əsərləri vardır (5; 310).

Müasir ərəb dilçisi Vələd Əbbah qeyd edir ki, İbn Malik "əl-Kafiyə" əsərini özü üçün, "əl-Xulasa" əsərini isə tələbələr üçün yazdıqdan sonra, özünün "ət-Təhsil" əsərini alimlərə həsr edir. Ət-Təhsilin İbn Malikin son fikir və və mülahizələrini əhatə etdiyini nəzərə aldıqda, bu kitabın nə dərəcə mühüm əhəmiyyət kəsb etdiyini başa düşmək olar. Heç də təsadüfi deyildir ki, "ət-Təhsil" əsəri alimlər tərəfindən Sibəveyhinin "əl-Kitab"ı səviyyəsində olan kitab kimi qiymətləndirilmişdir. Əbu Həyyan özünün "əl-Bəhru-l-mühit" əsərində bu kitab haqqında belə deyir: "Nəhvə dair yazılmış ən gözəl və ən dəyərli əsər Əbu Bəşir Əmr ibn Osman ibn Qənbər Sibəveyhinin yazdığı "əl-Kitab" əsəridir. Son dövr qrammatiklərinin yazdığı ən yaxşı konkret məzmunlu və əhatəli əsəri isə Dəməşqdə yaşayan Əbu Abdulla Məhəmməd ibn Malik əl-Cəyyani ət-Tainin "Təhsilu-l-fəvaid" əsəridir (6; 106).

Qeyd etmək lazımdır ki, Əbu Həyyanın sonrakı yaradıcılığına bu əsərin böyük təsiri olmuşdur. Belə ki, o, özünün "ət-Təkmil fi şərhi-t-

təhsil", "ət-Təxyil əl-müləxxas min şərhi-t-təhsil" və "ə-Təzyil vət-təkmil fi şərhi-t-təhsil" əsərini məhz bu kitab əsasında yazmışdır.

Əbu Həyyandan başqa, bu əsərə Muhəmməd ibn Əhməd ibn Qudamə əl-Hənbəli (v. h. 761), Bəhaəddin Əbdülrəhman ibn Əqil (v. h. 769), Məhəmməd əl-Mürabit əd-Dəlali kimi bir çox başqa alimlər də şərh yazmışlar (Bulova 1979, 315).

İbn Malikin nəhvə gətirdiyi yeniliklər içərisində ən əhəmiyyətlisi hədislərdən (hədislərin dilindən) istifadə etməklə səmanın (nitqin) dairəsinin genişləndirilməsidir. Bir zamanlar kufəlilər ərəb nəhvinin öyrənilməsində bəsrəlilərin nəzərə almadıqları, laqeydliklə yanaşdıqları ləhcələrdən istifadə etdikləri kimi, İbn Malik də öz dövrünə qədər nəhvin tədqiqində o qədər də istifadə olunmayan hədisləri bu istiqamətə yönəltməklə, yeni əsas yaradaraq, ərəb nəhvinin tədqiqi üsullarına əlavə edir. İbn Malik hədislərdə mövcud olan bütün formaların, qrammatiklərin hər hansı bir qrammatik hadisəni əsaslandırmaq üçün dəlil gətirdiklərinin, ərəb şeirlərində işləndiyini sübuta yetirməklə, nəhvin tədqiqində hədislərdən istifadə etməyi düzgün hesab etməyənlərə qəti etirazını bildirir (Bulova 1979, 316).

Bağdadın süqutundan, Əndəlüsə bədbəxtliklərin üz verməsindən sonra, Musir İbn Malik və Əbu Həyyan kimi bir çox böyük qrammatiklərin diqqətini cəlb edir. Onların ardıcıllığından xüsusi xidmətləri ilə seçilən İbn Haşim, əl-Muradi, İbn Əqil, Cəmaləddin əl-Əsnəvi, İbn Nazir əl-Ceyş və başqalarını göstərmək olar. Sonrakı təbəqə Şiyəni əd-Dəmamini, əs-Siuti, əl-Əşmini kimi qrammatiklər bu məktəbi daha gücləndirən, əsaslarını daha da möhkəmləndirən nəhvçilər hesab olunur.

Yeni yaranmış məktəbin spesifik xüsusiyyətlrindən biri də onun tədqiqatlarının İbn Malikin metodu üzərində təkmilləşməsi, Quranın nəhv vasitəsilə təfsiri və ərəb nəhvinin qayda-qanunlarının fiqh ehkamına tətbiq olunması ilə əlaqədardır. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, alimlərin ərəb nəhvini öyrənməkdə əsas məqsədi ilahi hökmlərin, Quranın və hədislərin düzgün başa düşülməsi, qavranılması və dərki ilə əlaqədar olmuşdur (Bulova 1979, 322).

Misirdə sözün həqiqi mənasında ilk qrammatik Vəllad bin Məhəmməd ət-Təmimi əl-Bəsri hesab edilir. Mənşə etibarilə Bəsrədən olan Vəllad Fustatda böyümüşdür. O, gəncliyində İraqa getmiş, Xəlil ibn Əhməd əl-Fərahidinin yanında məşğul olmuşdur. Sonralar Misirə qayıdıb Xəlilin ona oxuduğu mühazirələr əsasında dərs deməyə başlamışdır.

Həmin dövrdə Misirdə Vəlladla birlikdə Kufə qrammatika məktəbinin banisi əl-Kisainin şagirdi Əbul Həsən əl-Əzz fəaliyyət göstərirdi. Beləliklə, aydın olur ki, Misir qrammatika məktəbi ilk vaxtlarında Bəsrə və Kufə məktəbləri ilə bağlı şəkildə təşəkkül tapmağa başlamışdır.

İkinci dövrdəki qrammatiklərdən Əhməd bin Cəfər əd-Dinəvəri əl-Misirinin adını çəkmək lazımdır. İranın Dinəvər şəhərində doğulub təhsil almaq üçün Bəsrəyə gəlmiş Əhməd məşhur qrammatik Mazinin yanında oxumuş, eyni zamanda, kufəli Sələb və bəsrəli əl-Müdrəddinin yanında məşğul olmuş, sonra Misirə köçərək orada ərəb dilindən dərs deməyə başlamışdır. 901-ci ildə vəfat etmiş Əhməd tələbələri üçün Bəsrə və Kufə məktəbləri arasındakı ixtilaflara dair "əl-Mühəzzəb" əsərini yazmış, Quranda əvəzliklərin işlədilməsinə xüsusu traktat həsr etmişdir. O, bəsrəlilərin, xüsusilə əl-Əxfəz əl-Əfsətin fikirlərini qızğın müdafiə etmişdir.

Əl-Mübərrədin şagirdlərindən biri olan bəsrəli Əli ibn Süleyman əl-Əxfaş əs-Səğir 900-cü ildə Misirə gəlmiş, 913-cü ilə qədər orada qalıb ərəb dili dərsi demişdir.

Hicrətin IV əsrində İxişidilər dövləti zamanı Misirdə görkəmli nəhvlər yetişir ki, bunlardan, ilk növbədə, Kura ən-Nəmlinin (qarışqa ayağı deməkdir) və Əbul Abbas Əhməd bin Vəlladın (ilk Misir qrammatiki Vəlladın nəvəsi) adlarını çəkmək lazımdır.

Nəticə

Bağdad qrammatika məktəbi Bəsrə və Kufə qrammatika məktəblərinin bir-birinə qovuşması nəticəsində yaranmışdır. Bağdad qrammatikləri bəsrəli və kufəli sələflərinin müsbət cəhətlərini özlərində birləşdirmək, onların mülahizələrindən yaradıcı şəkildə istifadə etmək və ərəb dilinin bir sıra nəzəri məsələləri barəsində orijinal fikirlər söyləməklə ərəb dilçiliyində yeni rasionalist cərəyan yaratmış və bunun sayəsində də özlərinin müstəqil qrammatika məktəblərini formalaşdıra bilmişlər. Qısaca desək, Bağdad qrammatika məktəbi Bəsrə və Kufə məktəblərinin sintezi nəticəsində yaranmış, öz inkişafı gedişində bir sıra orijinal xüsusiyyətlər kəsb etmişdir. Bağdad qrammatika məktəbinin nümayəndələrindən Əbu Musa əl-Həvari Əndəlüsdə fiqh, Quranın qiraətinə dair ilk əsər yazan alim İbn Malikin nəhvə gətirdiyi yeniliklər içərisində ən əhəmiyyətlisi hədislərdən (hədislərin dilindən) istifadə etməklə səmanın (nitqin) dairəsinin genişləndirilmək, İbn Keysanın məntiq və fəlsəfəni dərindən öyrəndiyi üçün qrammatik qaydaları formalaşdırıb, tərif şəklinə salmaq sahəsində xüsusi

bacarığı olmuşdur. O, Bəsrə və Kufə məktəblərinin rasional mülahizələrini məntiqi surətdə bir-birinə calaya bilmişdir. İbn Keysanın yaradıcılığı Bağdad məktəbinin Bəsrə və Kufə məktəblərinin sintezindən yaranması baxımından böyük əhəmiyyət kəsb etmişdir. Yeni yaranmış məktəbin spesifik xüsusiyyətlərindən biri də onun tədqiqatlarının İbn Malikin metodu üzərində təkmilləşməsi, Quranın nəhv vasitəsilə təfsiri və ərəb nəhvinin qayda-qanunlarının fiqh ehkamına tətbiq olunması ilə əlaqədardır.

ƏDƏBİYYAT

1. Семитские языки. Материалы «Первая конференция по семитским языкам» октябрь г Москва.
2. Elmi əsərlər. (1976). “ Şərqşünaslıq”. Bakı.
3. Qurani-Kərim, Azərbaycan dilində açıqlama. (1993). Nəriman Qasımoğlunun qələmi ilə. Bakı.
4. Qurani-Kərim, Azərbaycan dilinə tərcüməsi ilə. (2000). Tərcüməçilər: Məmmədhəsən Qəni oğlu, Tariyel Bilal oğlu. Bakı: Göytürk
5. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. (1997). Tərcüməçilər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Ankara.
6. Məmmədəliyev Vasim. (1985), “Ərəb dilçiliyi”. Bakı.
7. Булаходовский Л.А. Курс русского языка. Москва, (стр.13).
8. Булова А.Г. (1979). Курс лекций по истории арабского языка. Москва.
9. Гелия В.Н. (1981). Типы языковых значений. Связанное значение слово в языке. Москва: Наука.
10. Гранде В.М. (1982). Курс арабской грамматики в сравнительно- историческом освещении. Москва: Наука.
11. Климович Л.В. (1982). Книга о Коране его происхождении и мифологии. Москва.
12. Коран. (1990). Перевод на русский язык Крачковского И.Ю. Баку.
13. Коран.(1992). Перевод с арабского Османова М.Н. Москва.
14. Халидов А.Б. (1996). Арабской язык. Очерки арабской культуры X-XV вв. Москва.
15. المدخل الى دراسة النحو. (١٩٨٠). " ج ١ القاهرة.
16. طنطاوى.(١٩٦٤). "نشأة النو و تاريخ اشهر النحاة" طبع مصر عام.
17. ولد اباه، محمد المختار(١٩٩٦). "تاريخ النحو العربى في المغرب و المشرق" ايسيسكو.

д-р филос. по теол., доц. Сабина Мирзоева

РОЛЬ БАГДАДСКОЙ ГРАММАТИЧЕСКОЙ ШКОЛЫ В АКТУАЛЬНЫХ ВОПРОСАХ АРАБСКОЙ ЛИНГВИСТИКИ

РЕЗЮМЕ

Ниспослание Священного Корана на арабском языке, распространение Ислама на более обширных территориях за пределами Аравийского полуострова и принятие Ислама неарабами, и в связи с этим потребность и желание изучать арабский язык значительно возросли. В то время арабский язык, не имел никаких грамматических правил, и было невозможно предотвратить ошибки в речи и чтении Корана людей, только что принявших Ислам. Ввиду всегоучитывая все это великие личности того времени начали устанавливать правила арабского языка. Со временем это привело к созданию арабских школ грамматики. Багдадская школа грамматики была основана в результате слияния грамматических школ Басры и Куфы. Багдадские грамматики создали новое рационалистическое направление в арабской лингвистике, объединив в себе положительные черты своих предшественников из Басры и Куфы, творчески используя их идеи и выражая оригинальные идеи по ряду теоретических вопросов арабского языка, благодаря этому смогли создать свои собственные независимые школы грамматики. Багдадская школа грамматики возникла в результате синтеза школ Басры и Куфы и в процессе своего развития приобрела ряд оригинальных черт. Выдающиеся представители Багдадской школы грамматики внесли большой вклад в развитие арабского литературного языка. Одна из специфических черт новой школы связана с совершенствованием его исследований на основе метода Ибн Малика, толкования Корана посредством нахва и применения правил арабского нахва к правилам фикха.

Ключевые слова: *Багдад, школа, грамматика, предшественник, ученик, представитель.*

Assoc. Prof. Sabina Mirzayeva

THE ROLE OF THE BAGHDAD GRAMMAR SCHOOL IN TOPICAL ISSUES OF ARABIC LINGUISTICS

ABSTRACT

The sending of the Holy Qur'an in Arabic, the spread of Islam to wider areas outside the Arabian Peninsula and the adoption of Islam by non-Arabs, and in this regard, the need and desire to learn the Arabic language has increased significantly. At that time, the Arabic language did not have any grammatical rules, and it was impossible to prevent mistakes in the speech and reading of the Qur'an by people who had just converted to Islam. Considering all this, the great personalities of that time began to establish the rules of the Arabic language. Over time, this led to the creation of Arabic grammar schools. The Baghdad School of Grammar was founded as a result of the merger of the Basra and Kufa grammar schools. The Baghdad grammars created a new rationalistic direction in Arabic linguistics, combining the positive features of their predecessors from Basra and Kufa, creatively using their ideas and expressing original ideas on a number of theoretical issues of the Arabic language, thanks to this they were able to create their own independent schools of grammar. The Baghdad school of grammar arose as a result of the synthesis of the Basra and Kufa schools and in the process of its development acquired a number of original features. Outstanding representatives of the Baghdad school of grammar made a great contribution to the development of the Arabic literary language. One of the specific features of the new school is related to the improvement of its research based on the method of Ibn Malik, the interpretation of the Qur'an through nahw and the application of the rules of the Arab nahw to the rules of fiqh.

Keywords: *Baghdad, school, grammar, predecessor, student, representative*

AZƏRBAYCAN VƏ ƏRƏB DİLLƏRİNİN QRAMMATİKASINDA İSMİN HALLANMA MÖVZUSUNUN TƏTBİQİ VƏ TƏRCÜMƏ PROBLEMLƏRİ

t.f.d. Araş İftixari,
AMEA A.A.Bakıxanov adına
Tarix İnstitutunun aparıcı elmi işçisi
arasheftekhari@yahoo.com

Fəridə Tağıyeva,
AMEA A.A.Bakıxanov adına
Tarix İnstitutunun tədqiqatçısı
tagiyevaferide@gmail.com

XÜLASƏ

Dünyanın bütün inkişaf etmiş dillərində olduğu kimi, Azərbaycan və ərəb dillərində də ismin hallanma mövzusu qrammatikanın əsas hissələrindən birini təşkil edir. Azərbaycan türkcəsində müxtəlif nitq hissələrinin əlaqəyə girdiyi sözlərin tələbi ilə dəyişməsi ərəb dili ilə müqayisədə çox anlaşıqlı və bəsitdir. Belə ki, istənilən hər bir sözün sonuna hal şəkilçiləri artırmaqla altı növ hal əmələ gəlir. Nəticədə, isim və ya isimləşmiş sözlərin başqa sözlərlə əlaqəsi tam anlaşılır və ifadə olunur. Azərbaycan türkcəsindən fərqli olaraq, ərəb dilinin "sərf" və "nəhv" bölümlərində ismin əhatə dairəsi çox genişdir və onun digər sözlərlə sintaksis əlaqəsi xeyli mürəkkəbdir. Bu dildə ismin və felin hallanma mövzuları, əsasən, "erab" bölümündə öyrənilir. Təxminən, 16 qrupdan ibarət olan hərflərdən "amilhərflər" adlanan 4 qrupunun vasitəsilə "erab" hadisəsi əmələ gəlir. "Amilhərflərin" hallandırıcı təsiri nəticəsində ismin "mərfu", "mənsub" və "məcrur" halları, felin isə indiki zamanının "mərfu", "mənsub" və "məczum" halları gerçəkləşir. Hesab edirik ki, Azərbaycan dilində ismin adlıq halı "mərfu", təsirlik halı "mənsub", yönlük, yerlik və çıxışlıq halları "məcrur" erabları ilə və yiyəlik halı isə "modafon eləyh (izafət)" söz birləşməsi ilə üst-üstə düşür.

Hər iki dil arasında mövcud olan oxşar qrammatik xüsusiyyətlərin əhatə dairəsi genişdir. Misal üçün, fonetik oxşarlıqlara nəzər saldıqda, bilavasitə oxşar səslər, fonlar, müştərək əlifba, müştərək xətt,

fonetik hadisələr, vurğu və ahəng qanunu kimi ortaq mövzular diqqəti çəkir.

Sərf elminin morfologiya bölümünə və nəhv elminin isə sintaksis mövzularına oxşarlığına dair qeyd etməliyik ki, hər iki dil arasında həddindən artıq oxşar cəhətlər mövcuddur. Sərf elminin Azərbaycan dilinə etdiyi geniş təsiri, sərfdə öyrənilən feil, isim və hərf bölmələri ilə nitq hissələrinin üst-üstə düşdüyü və əsasən ərəb dilinin qrammatika terminlərindən alınan müştərək sözlər, əslində, hər iki dildən olan müştərək mövzuları əks etdirir.

***Açar sözlər**: Azərbaycan türkcəsi, ərəb dili, qrammatika, hallanma, tərcümə problemləri.*

Giriş

Ümumiyyətlə, Azərbaycan türkcəsində olduğu kimi, ərəb dilinin də özünəməxsus xətti, ədəbiyyatı, qrammatikası, ləhcələri və inkişaf tarixi mövcuddur. Mütəxəssislərin fikrincə, ərəb dili və xətti, əsasən, Sami dillər və Finikiya xəttindən törəyən Arami və Nəbati dillərin davamı hesab edilir. Ərəb dili və xəttinin inkişaf tarixini mövcud olan Mədain (267-ci il), Ümmül Cəmal (270-ci il), Ənnəmarə (328), Zəbəd (512-ci il) kitabələrindən və İslamın zühurundan sonra kufi xəttində yazılmış məktublarla ilkin Quranlardan öyrənmək mümkündür (Azərnuş, 1384: 34-37).

Azərbaycan və ərəb dillərinin ayrı-ayrı dil qruplarına aid olduqlarına baxmayaraq, onlar arasında mövcud olan əlifba ortaqlığı, söz oxşarlığı, ədəbiyyat tarixi və əsasən, qrammatik oxşarlıqları ilə diqqəti çəkir. Bütün bunlara baxmayaraq, hər iki dil arasında mövcud olan fərqli cəhətlər və uyğunsuzluqlar da nəzərdən kənarda qalmamışdır. İki dildə mövcud olan oxşar cəhətlər, şübhəsiz ki, İslam dininin zühurundan sonra ərəblərin istilası və minillər boyu hökm sürmüş türklərin hakimiyyəti ilə əlaqədardır. Həmin oxşarlıqlar, şübhəsiz ki, əsrlərboyu türklərlə ərəblərin apardıqları hərtərəfli ictimai, iqtisadi, siyasi və ən başlıcası, mədəni əlaqələrin bariz nümunəsidir. Hər iki dildə mövcud olan fərqli cəhətlər isə təbii olaraq, onların fərqli xalqlara və dil qruplarına aid olduğundan irəli gəlir.

Qeyd olunan məsələlər tamamilə tərcümə zamanı rastlaşdığımız ən əhəmiyyətli problemlərdən biri hesab edilir. Belə ki, hər hansı bir əsərin tərcüməsində nəzərə alınmadan böyük problemlər yarana bi-

lər. Yuxarıda vurğuladığımız əhəmiyyətli mövzuların detallarını öyrənmək məqsədilə Azərbaycan türkcəsi və ərəb dilinin qrammatikasına qısa nəzər salmaq vacibdir. Xatırladaq ki, məqalənin yazılmasında bir sıra əsərlərdən, o cümlədən Rəşid əş Şərtutinin 4 cildlik "Məbadiy ol Ərəbiyyə" (Şərtuni, 1965), Məhəmməd Xansarinin "Sərf və nəhv" (Xansari, 1345) əsərlərindən, Ələsgər Məmmədovun "Ərəb dilli" (Məmmədov, 1998), Rafiq Əliyevin "Ərəbcə-azərbaycanca lüğət" (Alıyev, 2007) kitablarından, Yusif Seyidovun "Azərbaycan dili" (Seyidov, 2002), Selmai Bakırcı ilə Kenan Demirayakın yazdıqları "Arap Dili Grameri Tarihi" (Bakırcı S, Demirayak K, 2020) əsərlərindən istifadə etdilmişdir.

Ümumiyyətlə, ərəbcədən Azərbaycan dilinə tərcümə etmək üçün bir sıra əsas prinsipləri nəzərə almaq vacibdir.

1. Hər iki dildə mövcud olan sözlərin düzgün tələffüzü. Əksər hallarda tərcümə edilən sözlərin tələffüzünə diqqət yetirilməyən halda tərcümə mətni tamam yanlış olur.
2. Mətnin və sözlərin düzgün qiraəti. Əsasən, ərəb dilində işlənən sözlərin sonuncu hərfinin hərəkəsi dəyişməklə sözün mənası tamamilə dəyişir.
3. Müxtəlif mətnlərin fərqini başa düşmək, əsasən, ərəb dilində mövcud olan dini, elmi, ədəbi və s. mətnlərin üslubu tamamilə fərqlidir.
4. Sərf və nəhv (qrammatika) məsələləri.
5. Bəlağət (sözlərin və cümlələrin düzgün səslənti tonu). Tərcüməçi mütləq ərəb dilinin bəlağət metodları ilə tanış olmalıdır. Səbəb ondadır ki, ərəb mətnlərində mövcud olan ədəbi və məna üslubları həddindən artıqdır.
6. Sözün hərəkələri. Ərəb dilinin oxunuşu və məna çalarları tamamən hərəkələrdən asılıdır. Belə ki, mətndə mövcud olan hərəkələri düzgün ifadə etmədən dəqiq nəticə əldə etmək mümkün deyil.

Yuxarıda qeyd olunan ümumi mövzulardan əlavə, tərcümə zamanı qarşılaşdığımız məsələlərin əhatə dairəsi xeyli genişdir. Məsələn, ərəb dilinin zəngin söz bazası, bəzi sözlərin Azərbaycan dilində ekvivalentinin olmaması, sinonimlər, dilin qrammatik strukturu, təsniyyə və cins mövzuları, nitq hissələrinin bölgüsü, felin babları və onların xüsusiyyətləri, zəmir (əvəzlik) anlayışı, ləhcələr və ədəbi dil kimi mövzular tərcümədə mütləq nəzərə alınmalıdır.

Ərəb dili qrammatikasına qısa baxış

Ərəb dilinin qrammatikası iki əsas hissəyə bölünür. Birincisi, sərf (صَرف) adlanır; sıra, yaxud çeşidləmək deməkdir. Sərf bölümü Azərbaycan dilində öyrənilən fonetika, nitq hissələri, morfologiya və leksikologiya bölümləri ilə üst-üstə düşür. Ərəb dili qrammatikasının ikinci bölümü isə nəhv (نَحو) adlanır. Azərbaycan dilində sintaksis bölümü ilə üst-üstə düşür.

Sərf (صَرف) bölümü səslərlə başlanır. Ümumiyyətlə, səs borusundan çıxan bütün səslər **sövt (صُوت)** adlanır. İnsanın ağzından çıxan bütün səslərə **ləfz (لَفظ)** deyilir. Ləfz 2 növdür: a**nlamsız (مُهمَل)** və **anlamlı (مُستَعمل)** sözlər. Anlamlı sözlərə **kələmə (كَلَمه)** deyilir. Kələmə türk dilində söz deməkdir. Kələmələrin iştirakı ilə yaranan söz toplusu isə **kəlam (كَلام),** yaxud **cümlə** adlanır. Cümləyə aid məsələlər tamamilə **nəhv (نَحو)** bölümündə öyrənilir.

Ərəb əlifbasının **28** hərfindən **14-ü şəmsi**, digər **14-ü isə qəməri** səslər adlanır. Şəmsi səslərlə başlanan sözlərin əvvəlinə təyinedici **əl (اَل)** şəkilçisini artıranda şəkilçinin l (ل) səsi yazılaraq, səslənməz və onun əvəzinə şəmsi səs **şiddət (ـّـ)** və vurğu ilə səslənər. Qəməri səslərlə başlanan sözlər isə **əl (اَل)** şəkilçisini götürən zaman heç bir fonetik hadisə baş vermir. 28 ədəd səsdən və onların simvollarından başqa bir ədəd **həmzə (ء -همزه)** və **fəthə (- فَتْحَة)**, **damma (- ضَمَّة)** və **kəsrə (- كَسْرَة)** adlı üç növ **hərəkə** də mövcuddur. Hərəkələr vasitəsilə bütün səslər səsləndirilir. Ərəb dilində bir sıra isimləri (ərəb dilində ismin anlamı çox genişdir) son səsinin üzərinə düşən və özlərinə məxsus funksiyaları olan üç növ **tənvin** də mövcuddur ki, onlar **nəsb (- نَصب)**, **rəfı (- رَفع)** və **cərr (- جَرّ)** adlanır. **Sükun (ـْـ)** hərəkəsi isə əslində, hərəkətsizlik deməkdir və bu əlamət hansı səsin üzərinə düşərsə, o səs sakin adlanar. Beləliklə, ərəb dilində 28 əlifba, 3 hərəkə, 3 tənvin və 1 ədəd həmzə olmaqla, **35 ədəd səs və fonun olduğu** təsdiqlənir.

Qeyd olunan 28 əlifbanın 3 ədədi **(ا - و - ى) ellə (عِلّه),** yəni problemli səslər, qalanı isə **sehhə (صِحّه),** yəni sağlam səslər adlanır. Ellə səslər feillərin tərkibində olarkən qrammatik hadisələrin təsiri nəticəsində düşür, yaxud başqa səslə dəyişir. Əlifbaya aid digər məsələ **əlif (ا) və həmzə (ء)** səslərinə aiddir. Əlif simvolu hərəkə qəbul etmədiyinə görə, heç zaman sözün başlanğıcında gələ bilməz. Həmzə hərəkə götürdüyünə görə sözün əvvəlində, ortasında və sonunda gələ bilər. Xatırladaq ki, fəthədən sonra gələn həmzə əlifin (ا), dəmmədən sonra gələn vav (و) hərfinin və kəsrədən sonra gələn ya (ي) hərfinin üzərində yazılır. Örnək üçün: رَأس (baş), مُؤَثر (etkili) və بِئس (pisdir**)**.

Həmzənin tələffüzü iki variantda ifadə olunur. Onların biri **qətı (قَطع),** digəri isə **vəsl (وَصل)** həmzəsidir. "Qətı" sözü kəsmək deməkdir. Bu həmzə sözün hər yerində gələrsə, üzərindəki hərəkəsi ilə səslənər. Məsələn: يا رَجُلُ أَكرِمْ - أَكرِمْ يا رَجُلُ cümlələrində "Əkrəm" sözü olduğu kimi səslənir. Vəsl həmzəsi (ـٱ) isə bitişdirən həmzədir və təkcə sözün başlanğıcında gələrsə səslənər. İki sözün arasında gələn zamanda səslənməz və özündənəvvəlki və sonrakı səsləri bitişdirər. Məsələn: إِذْهَبْ يا رَجُلُ cümləsində həmzə səslənir və يا رَجُلُ ٱذْهَبْ cümləsində həmzə səslənmir. Fonetik mövzularından əlavə ərəb dilinin əsası sayılan **sərf** və **nəhv** bölgülərinə də qısaca nəzər salaq vacibdir.

Sərf (صَرف): Ərəb dilində mövcud olan sözlər sərf elmində araşdırılır. Bütün sözlər **fel (فِعل)**, **isim (إسم)** və **hərf (حَرف)** adlı 3 böyük qrupa bölünür. Zamanı, işi, və necəliyi bildirən sözlər **feil**, anlamı olan zamansız sözlər **isim** və təkbaşına zamanı və anlamı olmayan sözlər isə **hərf** adlanır. Sərf elmi nəhvdən fərqli olaraq, sözlərin başqa sözlərlə sintaksis əlaqələrini yox, əksinə, vahid bir sözün müxtəlif formalarını izah edir. Qeyd edək ki, sərf elmində araşdırılan 3 qrup sözü (feil, isim, hərf) müxtəlif kateqoriyalar əsasında öyrənmək və təhlil etmək mümkündür. Belə ki, feli **8 kateqoriya**, ismi **9 kateqoriya** və hərfləri (önşəkilçisi) isə **16 qrupa** ayırmaq mümkündür.

Sərf elminin feil bölümündə öyrənilən 8 kateqoriya aşağıdakılardan ibarətdir: felin kökündə (mazi-qaib-tək-kişi) olan səslərin sayı baxımından, **ellə səsli (ا - و - ى)** feillər, təsirli və təsirsiz feillər, məlum və məchul feillər, felin zamanları, sərf olunan (çeşidlənən) və çeşidlənməyən feillər, **mörəb (مُعرَب)** və **məbniy (مَبني)** feillər, **edğam (إدغام)** və **elal (إعلال)** olayları.

Xatırladaq ki, ərəb dilində isim adlanan sözlər, təxminən, Azərbaycan dilində öyrənilən nitq hissələri ilə üst-üstə düşür. Belə ki, sərfin bu bölümündə araşdırılan 9 kateqoriya aşağıdakılardan ibarətdir: sərf olunan (çeşidlənən) və çeşidlənməyən isimlər, ismin son sözünün izahatı, ismin cinsi, ismin kökündə olan səslərin sayı, **mənsubiyyət (مَنسوبيّت),** yəni bağlılıq mövzusu, **müssəğğər (مُصَغَّر),** yəni kiçilmiş isimlər, **camid (جامد)**, yəni kök sözlər və **müştəq (مشتق),** yəni kökdən yaranan isimlər, **mərifə (مَعرفه),** yəni tanınan və **nəkrə (نَكره),** yəni tanınmayan isimlər, **mörəb (مُعرَب)** və **məbniy (مَبني)** isimlər.

Ərəb dilinin sərf bölümündə hərf (ön şəkilçi) adlanan sözləri, əsasən, 16 qrupa ayırmaq mümkündür. Onlar sərf elmində tək-tək, nəhv elmində isə sintaksis cəhətdən təhlil olunur. Hərflərin 12 qrupu **qeyri-amil (حُروف غير عامل) (etkisiz ön şəkilçilər)** adlanır. Bu, o de-

məkdir ki, etkisiz hərflər özlərindən sonra gələn sözləri (fel və isim) və cümlələri hallandırmır. Yəni sözün **erabına (مَنصوب، مَجرور، مَجزوم مَرفوع)** təsir etmədən sonuncu səsinin hərəkəsini dəyisməz. Bu 12 qrup hərflər **istifham (إستفهام), tərif (تَعريف), tənbih (تَنبيه), təfsil (تَفصيل), nəfy (نَهى), ətf (عَطف), cəvab (جَواب), istiqbal (إستقبال), mofacat (مُفاجات), təhqiq (تَحقيق), inkar (إنكار) və təkid (تَأكيد)** hərflərindən ibarətdir (Xansari, 1345: 145-147). Etkisiz hərfləri Azərbaycan türkcəsinə tətbiq etmək mümkündür. Azərbaycan dilində mövcud olan bağlayıcılar, qoşmalar, modal sözlər, nida və ədat adlanan ikincidərəcəli nitq hissələri ilə, həmçinin felin şərt və sual formaları ilə çox hallarda üst-üstə düşür.

Ön şəkilçilərin ikinci cərgəsi, yəni digər 4 qrupu **amil hərflər (حُروف عامل),** yəni etkili ön şəkilçilər adlanır. Bu hərflərin funksiyası nəhv bölümündə öyrənilir. Etkili hərflər özlərindən sonra gələn sözlərə (feil və isim) və cümlələrə təsir edib, onları **erab (مَرفوع، مَنصوب، مَجرور، مَجزوم)** edərək hallandırır. Hərflərin funksiyasından asılı olaraq, onlar **carrə (جارّه), nasibə (نَاصِبه), cazimə (جازِمه) və müşəbbəhətü belfel (مُشبّهه بِالفعل)** adlanır (Şertuni, 1965: 89-92). Hər iki dildə mövcud olan hallanma mövzusunun tətbiqinə dair ikinci cərgədə yerləşən hərflərlə tanış olmaq vacibdir.

Ərəb dili qrammatikasının əsasını təşkil edən **sərf** bölümündən əlavə, **nəhv (نَحو)** bölümündə də öyrənilən mövzuların əhatə dairəsi xeyli genişdir. Təbiidir ki, nəhv mövzusu və onun Azərbaycan türkcəsi ilə tətbiqi məsələsini kiçik məqaləyə sığmaq mümkün deyildir. Azərbaycan qrammatikasının formalaşmasında və inkişafında böyük təsiri olan ərəbdilli mətnlərin və ərəb qrammatikasının incəliklərini nəzərə alaraq, müqayisəli şəkildə hər iki dilin sintaksis təhlili və tətbiqi mümkündür. Misal üçün, Azərbaycan dilində öyrənilən qrammatikaya aid terminlərin əksəriyyəti, o cümlədən nitq hissələri, cümlə üzvləri, cümlə növləri, mübtəda, xəbər, izafət və s. mövzular bir mənalı olaraq, ərəb dilinin sərf və nəhv bölmələrində öyrənilən mövzulara xeyli yaxındır.

Azərbaycan dilindən fərqli olaraq, ərəb dili qrammatikasında öyrənilən bir sıra mövzuları, o cümlədən ismin hallanma məsələsini konkret şəkildə izah etmək mümkün deyil. Həmçinin struktur baxımından nəzər salanda aydın olur ki, ərəb dilində söylənən cümlələrin əksəriyyəti feiliyyədir və cümlələr, əsasən, feil ilə başlanır. Bunlardan başqa, iki dilin sərf və nəhv məsələlərinə dair xeyli oxşarlıq və fərqlər mövcuddur ki, onların hər birinin izahı üçün onlarca elmi tədqiqat işinin

aparılması tələb olunur. Məqalədə təkcə iki dilin qrammatikasına dair ən əhəmiyyətli mövzulardan biri olan hallanma məsələsinin tətbiqini təqdim edirik.

İki dilin tətbiqində hallanma məsələlərinə dair

Azərbaycan və ərəb dillərinin tətbiqinə dair öncə hər iki dilin oxşayan və oxşamayan cəhətləri ilə dərindən tanış olmaq vacib və zəruridir. Hər iki dilin zəngin tarixə malik olduğu, qədimiliyi, əhatə etdikyi coğrafi ərazi, bir-birinə təsiri, struktur oxşarlığı, bu əlaqələrin kökündə duran İslam dininin rolu, ərəb dilinin inkişafında dilçi türk alimlərinin aktiv rolu, tarixi-ictimai olayların iki dilə təsiri və hər iki dildə yazılmış tarixi-ədəbi mənbələrin mövcudluğu kimi ümumi oxşarlıqlara şahidik.

Hər iki dil arasında mövcud olan oxşar qrammatik xüsusiyyətlərin əhatə dairəsi genişdir. Misal üçün, fonetik oxşarlıqlara nəzər saldıqda, bilavasitə oxşar səslər, fonlar, müştərək əlifba, müştərək xətt, fonetik hadisələr, vurğu və ahəng qanunu kimi ortaq mövzular diqqəti çəkir.

Nitq hissələri ilə sərf elminin oxşarlığı baxımından qeyd etməliyik ki, hər iki dil arasında böyük oxşarlıq mövcuddur. Sərf elminin Azərbaycan dilinə buraxdığı geniş təsiri, sərfdə öyrənilən feil, isim və hərf bölmələri ilə morfologiya və nitq hissələrinin üst-üstə düşdüyü, əsasən, ərəb dilindən alınan dini və fəlsəfi sözlər, hər iki dilin müştərək qrammatik mövzuları da dediklərimizə nümunədir.

Cümlə oxşarlıqlarına gəldikdə əminliklə iddia etmək olar ki, hər iki dildə mövcud olan söz birləşmələri və cümlələr arasında geniş qrammatik və məna oxşarlığı mövcuddur. Örnək olaraq, Azərbaycan dilində öyrənilən uzlaşma, yanaşma və idarə əlaqələri ərəb dilində öyrənilən sifət ilə movsuf və müdaf ilə mudafunəlyh arasında olan nəhvi (sintaksis) əlaqələri əks etdirir. Azərbaycan dilində öyrənilən mübtəda, xəbər, tamamlıq, təyin və zərflik adlı cümlə üzvləri tamamilə ərəb dilində öyrənilən ismiyyə və feiliyyə cümlələrin üzvləri ilə üst-üstə düşür. Habelə hər iki dildə olan sadə və mürəkkəb cümlə növlərinin adları, quruluşu, mənaları və ifadə tərzində də çoxlu oxşarlıq mövcuddur.

İki dil arasında olan digər oxşar cəhətlər, əsasən, ərəb dili və ədəbiyyatından Azərbaycan ədəbiyyatına gələn dəbi üslublardan ibarətdir. Azərbaycanın klassik və müasir yazıçılarının və şairlərinin əsərlərində geniş yer almiş icaz (ايجاز), ibham (إبهام), iyham (ايهام), kina-

yə (كنايه), təlmih (تلميح), cinas (جناس), təzmin (تضمين), təşbih (تشبيه), təmsil (تمثيل), təcnis (تجنيس), iğraq (إغراق) və başqa ədəbi üslublar və səbklər hər iki dilin ortaq nöqtələrindən hesab edilir. Həmçinin Azərbaycan dilində əruz vəzninin müxtəlif bəhrlərində yazılan qəzəllər, qəsidələr, rübailər, xomasilər və nəsr formasında yazılan hekayələr, atalar sözləri, məsəllər, başqa tarixi-ədəbi mətnlərin oxşarlığı hər iki dilin müştərək nöqtələrindən hesab edilir.

Azərbaycan türkcəsi və ərəbdilli arasında mövcud olan ümumi oxşarlıqlarla yanaşı, hər iki dilin özünəməxsus özəllikləri də diqqət çəkir. İki dilin fərqli və oxşamayan cəhətləri, əsasən, ümumi və özəl mövzuları əhatə edir. Ümumi cəhətdən hər iki dilin mənşəyi və ayrı-ayrı dil qruplarına aid olduqları, sami dillərin özəl xüsusiyyətləri və fərqləri qrammatik bölgülərin olduğu diqqət çəkir.

Səs bilgisi baxımından isə hər iki dildə mövcud olan əlifbanın sayı, səslərin sayı, saitlərin yazılması, hərəkələr, tənvin, səslərin fərqli tələffüzü və səslərin məxrəcinin (çıxış yerinin) fərqi cəhətləri kimi məsələlərin öyrənilməsi çox önəmlidir.

Morfologiya baxımından araşdırarkən, sərf elminin müxtəlif bölgüləri, ismin, felin və hərfin fərqli cəhətləri, sərfin Azərbaycan dilində ötüşməyən məqamları, sözlərin strukturu və düzəliş qaydaları, cins və təsniyə mövzusu, ərəb dilində sayların mürəkkəb vəziyyətdə olduğu, ön şəkilçilər, erabın növləri, hər iki dildə köklərin və şəkilçilərin quruluşu, felin və ismin sadə, düzəltmə, mürəkkəb və bablara salınmış növlərinin fərqli cəhətləri, ərəb dilində mövcud olan şəxslərin çoxluğu (14 şəxs) və feil zamanlarının azlığı məsələsi, hallanma və erab mövzularının incəlikləri kimi önəmli mövzular müşahidə olunur.

Bunlardan başqa, nəhv ilə sintaksis əlaqələrin fərqli cəhətləri, sözlərin şəxs və cins baxımından uzlaşması, hər iki dildə mövcud olan müxtəlif söz birləşmələri, cümlə növləri və cümlə üzvlərinin fərqli cəhətləri, ərəb cümlələrində olan sintaksis nöqsanlar və çaşdırıcı məqamlar, Azərbaycan türkcəsində cümlənin quruluşu və ifadə tərzi, ərəb dilinin lokal ləhcələri və terminlərinin çoxluğu, ərəbdilli əsərlərin çoxluğu, Quranın, hədis və təfsir kitablarının ərəb dilində yazıldığı, ərəb dilinin geniş söz ehtiyatı, ərəb dilində sərf, iştiqaq, nəhv, məani, bəyan, bədii, əruz və qafiyə elmlərinin xüsusiyyətləri kimi əhəmiyyətli mövzular mövcuddur.

Hər iki dil arasında mövcud olan qrammatik oxşarlıqlar, fərqlər və ədəbi üslubların mövcudluğu, şübhəsiz ki, tərcümə zamanı özünü göstərir. Bu səbəbdəndir ki, tərcümə sənətinin nəzəri və praktik prin-

sipləri ilə yanaşı, tərcümənin incəliklərini bilmək vacibdir. Təbiidir ki, tərcümə prosesinin əvvəlində tərcüməçi şəxs bütün incəlikləri mənimsəyə bilməz və onun üçün böyük təcrübə və geniş zaman lazımdır. Xatırladaq ki, ərəb və Azərbaycan dillərindən tərcümə məsələləri ilə əlaqəli aşağıda sıraladığımız mövzulara dərindən diqqət yetirmək gərəklidir.

Ümumiyyətlə, tərcümə zamanı tərcümənin metodlarını, tərcümə növlərini, bədii tərcümənin üsullarını, şerin tərcüməsini, şeir tərcüməsinin məhdudiyyətlərini, nəsri şerə çevirməyin qaydalarını, şifahi tərcümənin üsullarını, tərcümədəki mətnlərin növlərini, tərcümə zamanı söz seçimini, azərbaycanca sözlərin təsnifatını, ərəbcə sözlərin təsrifi və təfsirini, ekvivalenti olmayan lüğət uyğunluğunu, sözlərin yayılmasında coğrafi bölgələrin və hökumətlərin rolunu, yazı qaydalarını, sinonim isimlər və onların tərcümədəki yerini, isimlərdə şifahi paylaşımı, şifahi paylaşmanın əhəmiyyətini, Azərbaycan və ərəb dillərindəki ümumi isimləri, Azərbaycan dilində istifadə edilən ərəb sözlərinin bərabərliyini, ümumi isimlərin tərcüməsində yaranan problemləri, dublikata əlavə olunmuş isimlərin tərcüməsini, sifəti, zərfi və zərfin birləşməsini, sayları, rəqəmlərin ərəb dilinə tərcüməsini, əvəzliklərin tərcüməsini, hörmətli sözlərin və adların tərcüməsini, tərcümədə kişi və qadın cinslərinin əhəmiyyətini, Azərbaycan və ərəb dillərində uyğun cümlə növlərini və ərəbdilli mənbələrin Azərbaycan dilinə tərcüməsində yaranan problemlər kimi önəmli məsələləri nəzərə almaq çox vardır.

Azərbaycan və ərəb dillərinin tətbiqinə dair ən əhəmiyyətli və mürəkkəb mövzulardan biri hallanma (erab) məsələlərinə həsr edilmişdir. Ərəb dilinin sərf bölümündə xatırladığımız çox əhəmiyyət daşıyan etkili şəkilçilərin (amil hərflər) iştirakı nəticəsində, əsasən, ismin, müdari felin, söz birləşmələrinin və cümlələrin hallanma hadisəsi həyata keçirilir. Etkili hərflərin qrammatik funksiyası, əsasən, Azərbaycan dilində öyrənilən ismin hallanması, izafətlər, tabeli və tabesiz mürəkkəb cümlələrdə və söz birləşmələrində mövcud olan uzlaşma, idarə və yanaşma əlaqələri, həmçinin təyini söz birləşmələri kimi mövzuların qrammatik xüsusiyyətləri ilə tam əlaqədardır.

Qeyd edək ki, Azərbaycan türkcəsində öyrənilən hallanma mövzusunun ərəb dili ilə tətbiqi və müqayisəsinə dair konkret elmi əsər nəşr olunmamışdır. Bu əhəmiyyətli mövzu dilçi alimlərin diqqətindən kənarda qalmamışdır. Misal üçün, hörmətli dilçi alim Ə.Məmmədov qeyd edir ki, ərəb dilində ismin yalnız üç halı, yəni adlıq, yiyəlik və

təsirlik halları mövcuddur (Məmmədov, 1998: 24). Elşən Şəkərzadənin topladığı və tərcümə etdiyi "Ərəb dilinin qrammatikası" (Şəkərzadə, 2011) kitabında ərəb dilinin sərfi və nəhvinin şərhinə nail olunsa da, əsərdə müqayisəli və tətbiqi metodlardan istifadə edilməmişdir.

Hesab edirik ki, hallanma mövzusunun müxtəlif formaları əksər dillərdə olduğu kimi, ərəb dilində də mövcuddur. Azərbaycan dilindən fərqli olaraq, ərəb dilinin sərf və nəhv bölmələrində konkret bir mövzu kimi öyrənilmir. Bütün bunlara baxmayaraq, Azərbaycan dilində öyrənilən ismin altı növ hallanma növünün məna və qrammatik oxşarlığı ərəb dili qrammatikasının müxtəlif bölümlərində müşahidə olunur.

Həmin istiqamətdə qeyd etməliyik ki, Azərbaycan dilində ismin adlıq halı qətiyyətlə ərəb dilində öyrənilən isim (ismin anlamı genişdir) və isimləşmiş sözlərin **mərfu (مَرفوع)** forması ilə üst-üstə düşür. İsmin adlıq halı və mərfu forması, təxminən, eyni məna və qrammatik xüsusiyyətlərə malik olduğuna görə, tərcümə zamanı heç bir problem meydana çıxmır.

Məsələn: Alma = تفاحٌ, Kitab = كتابٌ, Fəridə = فريدةٌ.

Azərbaycan dilində öyrənilən ismin yiyəlik halı, əsasən, sahiblik bildirməklə yanaşı, bir sıra leksik və qrammatik vəzifələri də özündə əks etdirir. Yiyəlik halının I və II növ söz birləşmələrində daşıdığı sintaksis funksiyasını nəzərə alaraq, ərəb qrammatikasında öyrənilən "**müdaf və mudafun eləyh" (مضاف و مضافٌ إليه)** mövzusu ilə üst-üstə düşür. Ən azı, iki ismın sintaksis birləşməsindən yaranan bu tərkibin ikinci hissəsi, yəni "müdafun eləyh" parçası daim yiyəlik halını əks etdirir. Bu mövzu ismin mənsubiyyət forması ilə tam fərqlidir.

Məsələn: Evin qapısı = (باب البيتِ), Ağacların barı (ثمرة الشجار).

Azərbaycan dilində ismin təsirlik halı hərəkətin təsir obyektini bildirir. Təsirlik halının müəyyənlik və qeyri-müəyyənlik bildirən növləri də vardır və təkcə vasitəsiz tamamlığı (məful) bildirmək üçün istifadə olunmur. Təsirlik halını ərəb nəhvində mövcud olan **məful (مَفعول)** və ismin mənsub növləri ilə eyniləşdirmək olar. Ərəbdilli cümlələrdə ismin 12 formada işlənən **mənsub (مَنصوب)** formaları (Azərbaycan dilində öyrənilən ismin mənsubiyyəti ilə tam fərqlidir), təxminən, Azərbaycan dilində öyrənilən ismin təsirlik halını ifadə edir.

Məsələn: Kitabı aldım (إشتريتُ كتاباً), Allahınız nəyi göndəribdir (ماذا أَنزلَ رَبُّكُم).

Azərbaycan türkcəsi qrammatikasında mövcud olan yönlük, yerlik və çıxışlıq hallarını da ərəb dilində ifadə olunan söz birləşmələrin-

də və cümlələrdə müəyyən etmək mümkündür. Bu hallar ərəb dilində, əsasən, ön şəkilçilərin və çox zaman isə başqa qrammatik vasitələrlə ifadə olunur. Həmin məsələ, bilavasitə tərcümə zamanı bir sıra səhvlərin yaranmasına səbəb olur.

Azərbaycan dilində öyrənilən ismin yönlük halı, əsasən, kimə, nəyə və haraya suallarından birinə cavab verdiyinə görə, ərəb dilində də həmin suallara cavab verən halı müəyyən etmək mümkündür. Ərəb dilində, əsasən, sözdən öncə gələn **bi (بِ), ila (إلى) və əla (عَلى)** kimi ön şəkilçilərdən istifadə olunur. Bu şəkilçilər bilavasitə özündən sonra gələn ismin yönünü müəyyən edir.

Məsələn: məktəbə doğru (إلى المدرسةِ), Allaha təvəkkül edirəm (تَوَكَّلتُ عَلى اللهِ).

Azərbaycan dilində öyrəndiyimiz yerlik və çıxışlıq hallarının da ərəb dili ilə müqayisədə yaxın oxşarlıqları mövcuddur. Ərəb dilində işlənən yerlik halının konkret şəkilçisi **fi (فى)** hərfindən ibarətdir. **Fi (فى)** şəkilçisi bilavasitə özündən sonra gələn ismin yerlik halını ifadə edir.

Məsələn: Zeyd evdədir (زيد فى الدّارِ), Günortada (فى النَّهارِ).

Ərəb dilində istifadə edilən m**in (مِن), ən (عَن), moz (مُذْ) və monz (مُنْذ)** kimi ön şəkilçilər konkret olaraq, ismin çıxışlıq halını ifadə edir. Həmin şəkilçi özündən sonra gələn isimləri məcrur etməklə yerlik halına salır.

Məsələn: Evdən çıxdım (خرجتُ من البيتِ), Cəfərdən hekayət olubdur (حُكِىَ عَن جعفرٍ).

Nəticə

Yuxarıda qeyd etdiyimiz kimi, ərəb dilində mövcud olan **mərəb** (ərəbləşən) sözlərin "**erab"ı** (ərəbləşdirilməsi) bilavasitə **amil** hərfləri vasitəsilə həyata keçirilir. Bu dilin qrammatik xüsusiyyətlərinə görə hallanma mövzusu xeyli mürəkkəbdir və xüsusi şəkilçilərdən əlavə, digər müştərək şəkilçilərin və sözün səslərinin dəyişməsi vasitəsilə də ifadə olunur. Həmçinin digər qrammatik üsullarla ismi hallandırmaq mümkündür.

Məsələn, ismin yerlik və çıxışlıq hallarını bildirən fi (فى) və min (مِن) şəkilçilərindən əlavə, bir sıra hallarda digər şəkilçilər vasitəsilə həmin hallar ifadə olunur. Bu səbəbdəndir ki, **bi (بِ), min (مِن), ən (عَن), ila (إلى), əla (عَلى), fi (فى), rübbə (رُبَّ), hətta (حَتَّى), kə (كَ), li (لِ), və (وَ), tə (تَ), moz (مُذْ), monzo (مُنْذُ), xəla (خَلا), əda (عَدا) və haşa (حاشا)** kimi cərr edən hərflər (ön qoşmaları) vasitəsilə ismi hallandırmaq mümkündür (Xansari, 1345: 145).

ƏDƏBİYYAT

1. Əliyev R. (2007). Ərəb-azərbaycanca lüğət, iki cilddə, I cild, Bakı: “Şərq-Qərb”.
2. Bakırcı S., Demirayak K. (2020). Arap Dili Grameri Tarihi, Erzirum: Fenomen Yayıncılık, (230 s.).
3. Məmmədov Ə. (1998). Ərəb dili. Bakı: “Maarif” nəşriyyatı, (620 s.).
4. Seyidov Y. (2002). Azərbaycan dili, Bakı: Bakı Universiteti Nəşriyyatı, (378 s.).
5. Şəkərzadə E. (2011). Ərəb dilinin qrammatikası. Bakı: Elektron nəşr, (268 s.).

6. آذرنوش آذزتاش. تاریخ زبان وفرهنگ عربی، تهران، انتشارات سمت، چاپ پنجم، 1384، 158 ص.

7. للمعّلم رشید الشرتونی. مبادی العربیة فی الصرف والنحو، منشورات المطبعة الکاشولیکیّة، 4 جلد، بیروت، الطبعة الحادیة عشرة، سنة 1965.

8. خوانساری محمد. صرف ونحو واصول تجزیه وترکیب، تهران، 1345، 251 ص[1]. للمعّلم رشید الشرتونی. مبادی العربیة فی الصرف والنحو، منشورات المطبعة الکاشولیکیّة، جلد 2، بیروت، الطبعة الحادیة عشرة، سنة 1965. 229 ص.

д-р филос. по ист. Араш Ифтихари
Фарида Тагиева

ТЕМА СКЛОНЕНИЯ СУЩЕСТВИТЕЛЬНОГО В ГРАММАТИКЕ АЗЕРБАЙДЖАНСКОГО И АРАБСКОГО ЯЗЫКОВ И ПРОБЛЕМЫ ПЕРЕВОДА

РЕЗЮМЕ

Как и во всех развитых языках мира, в азербайджанском и арабском языках тема склонения существительного составляет одну из основных частей грамматики. По сравнению с арабским языком изменение различных частей речи под воздействием связанных слов в азербайджанском языке просто и понятно. Таким образом, путем прибавления падежных окончаний к концу каждого слова образуется шесть падежей. В результате связь существительных или субстантивов с другими словами понимается и выражается в полной мере. В отличие от азербайджанского,

в разделах арабского языка "ас-сарф" и "ан-нахв" сфера употребления существительного очень широка, а его синтаксическая связь с другими словами значительно сложнее. В этом языке темы склонения по падежам существительных и глаголов изучаются в основном в разделе "эраб". Явление "эраб" образуется из букв, состоящих примерно из 16 групп, посредством 4 групп, именуемых "амильхарфами". В результате склонения "амильхарфов" возникают падежи существительных "марфу", "мансуб" и "маджрур", а также наклонения настоящего времени глагола "марфу" (изъявительное наклонение), "мансуб" (сослагательное наклонение) и "маджзум" (условное наклонение). Мы считаем, что в азербайджанском языке именительный падеж существительного совпадает с эрабом "марфу", винительный падеж - с "мансуб", дательный, местный и исходный падежи - с "маджрур", а родительный падеж - со словосочетанием "модафон элейх (изафат)".

В обоих языках существует множество схожих грамматических особенностей. Например, при рассмотрении фонетических сходств выделяются общие темы, такие как непосредственно похожие звуки, фоны, общий алфавит, общая линия, фонетические явления, ударение и сингармонизм.

Что касается сходства науки "ас-сарф" с разделом морфологии и науки "ан-нахв" с темами из синтаксиса, следует отметить, что между обоими языками есть множество схожестей. Широкое влияние науки "ас-сарф" на азербайджанский язык обусловлено тем, что изучаемые в "ас-сарфе" части речи совпадают с разделами, посвященными глаголу, существительному и букве, а общие слова, заимствованные в основном из грамматических терминов арабского языка, по сути, отражают общие для обоих языков темы.

Ключевые слова*: азербайджанский язык, арабский язык, грамматика, склонение по падежам, проблемы перевода.*

PhD Arash Iftikhari
Farida Taghiyeva

PROBLEMS OF APPLICATION OF DECLINATION OF NAMES BY CASE IN THE GRAMMAR OF AZERBAIJAN AND ARABIC LANGUAGES AND TRANSLATION

ABSTRACT

As in all developed languages of the world, the topic of declension of nouns by case is one of the main sections of grammar in the Azerbaijani and Arabic languages. The change of different parts of speech in the Azerbaijani Turkish language at the request of the words associated with them is very clear and simple in comparison with Arabic. So, by adding case suffixes to the end of any word, six types of cases are formed. As a result, the connection between the noun or substantivized words with other words is fully understood and expressed. In contrast to the Azerbaijani Turkic language, the coverage of the noun in the sections “al-sarf” and “an-nahw” of the Arabic language is very wide, and its syntactic connection with other words is rather complicated. In this language, the declension of nouns and verbs is studied mainly in the “irab” section. Out of letters of about 16 groups, the irab appears with the help of 4 groups called “amil letters”. As a result of the decisive influence of the “amil letters”, the cases of the nouns “marfu”, "mansub" and "majrur" arise, as well as the present tense of the verbs “marfu”, “mansub” and “majrur”. We consider that in the Azerbaijani language, the nominative case of the noun coincides with the Arabic “marfu”, the accusative case coincides with the Arabic “mansub”, the cases of direction, place and exit coincides with the Arabic “majrur”, and the possessive case coincides with the phrase “modafon aleih (izafat)”.

The coverage of similar grammatical features between the two languages is wide. For example, when we consider phonetic similarity, common themes such as similar sounds, backgrounds, common alphabet, common lineage, phonetic events, stress, and vowel harmony are directly drawn attention.

Regarding the similarity of the science “sarf” with the section of morphology and science “an-nahw” with the topics of syntax, it should be noted that there is a huge similarity between the two languages.

The wide influence of the science of “sarf” on the Azerbaijani language, the verb studied in “sarf”, common words in which the parts of speech coincide with the parts of the verb, noun and letters, and are mainly derived from the grammatical terms of the Arabic language, actually reflect common themes of both languages.

Keywords: *Azerbaijani Turkic language, Arabic language, grammar, declination, translation problems*

CORCİ ZEYDANIN HƏYATI, ƏSƏRLƏRİ VƏ TƏRCÜMƏLƏRİ HAQQINDA

t.f.d. Əli Fərhadov,
AMEA Milli Azərbaycan Tarixi Muzeyinin
böyük elmi işçisi
ali_farhadov@yahoo.com

XÜLASƏ

Məqalədə görkəmli ərəb yazıçısı Corci Zeydanın (1861-1914) həyat və yaradıcılığı, onun əsərlərinin türk və Azərbaycan dillərinə olan tərcümələri haqqında məlumat verilmişdir. Corci Zeydanın XX əsrin əvvəlində türk və Azərbaycan dilinə tərcümə edilmiş bir sıra əsərləri var. Corci Zeydan xristian olsa da, öz əsərləri ilə İslam mədəniyyətinin və tarixinin tədqiqinə böyük töhfə vermişdir. Bu baxımdan, onun "İslam mədəniyyəti tarixi əsəri" və İslam tarixindən bəhs edən bir sıra romanları əhəmiyyətlidir. Bu əsərlərin tərcüməsi Osmanlı ziyalısı Zəki Müğamizə, Azərbaycan ziyalıları olan Bakı qazısı Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuviyə, Mirabbas Mirbağırov və Əliabbas Müznibə məxsusdur. Onlar Corci Zeydanın əsərlərinin tərcüməsi və təbliği ilə məşğul olublar. Bakı qazısı Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi Quranın Azərbaycan dilinə təfsiri olan "Kəşfül-həqayiq" əsərinin də müəllifidir. Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi və digər tərcüməçilər Corci Zeydanın əsərlərini tərcümə etməklə ərəbcə bilməyən türk və azərbaycanlıların İslam tarixini öz qaynağından öyrənməsinə kömək etmişlər. Bu tərcümələr XX əsrin əvvəllərində dini təhsil, tarixi elm və İslam mədəniyyəti baxımından böyük əhəmiyyətə malikdir. Məqalədə Corci Zeydanın əsərlərinə olan tənqidlərdən, bu əsərlərin Azərbaycanın İslam mədəniyyətinə, tarixşünaslığına və elminə verdiyi töhfələrdən, həmçinin bu nümunələri tərcümə edən ziyalılardan bəhs olunur. Məqalədə sovet işğalının acı nəticələri haqqında da məlumat verilmiş, Corci Zeydanın "İslam mədəniyyəti tarixi" və s. əsərlərinin tərcümə və tədqiq edilməsinin Azərbaycan xalqının öz dini qaynaqlarını öyrənməsinə və maariflənməsinə fayda verdiyi göstərilmişdir.

Açar sözlər: *Corci Zeydan, Azərbaycan, İslam mədəniyyəti, tərcümə.*

Giriş

Dahi ərəb yazıçısı Corci Zeydanın (1861-1914) İslam mədəniyyəti ilə sıx bağlı olan və türkcəyə, Azərbaycan dilinə tərcümə olunmuş bir sıra əsərləri mövcuddur (əl-Bakuvi 1904 (2); Zeydan 1908; Zeydan 1328; Zeydan 1329; Zeydan 1330). Məqalədə bu əsərlər, onların tərcümələri və müəllifləri haqqında məlumat verilir. Bu əsərlərin tərcüməsi XX əsrin əvvəllərində "Kəşfül-həqayiq" adlı Quran təfsiri əsərinin də müəllifi olmuş Bakı qazısı Mir Məhəmməd Kərim əl-Bakuviyə və xristian olan Osmanlı ziyalısı (Azimli 2005, 223; Azimli 14.12.2014) Zəki Müğamizə məxsus olub, dini maarifçilik və tarix elmi baxımından böyük əhəmiyyətə malikdir. Həmçinin Mirabbas Mirbağırov, Əliabbas Müznib kimi azərbaycanlı ziyalıların da Corci Zeydandan tərcümələri vardır. Məqalədə Corci Zeydanın həyat və yaradıcılığından, onlara edilən tənqidlərdən, əsərlərinin İslam tarixinə, Azərbaycan elminə verdiyi töhfədən, bu əsərlərin tərcüməçilərindən bəhs edilmiş, tədqiq və təbliğ edilməsinin əhəmiyyəti vurğulanmışdır.

Görkəmli ərəb mütəfəkkiri Corci Zeydan (1861-1914) ərəb tarixi roman janrının banilərindən biri olub Beyrutda, bəzi mənbələrə görə, Misirəsilli xristian bir ailədə dünyaya gəlmişdir.

Beyrutda Amerikan Protestant Kollecində və Qahirədə Qasrul-Ayni Tibb Mədrəsəsində natamam da olsa tibb təhsili alıb, əczaçılıq diplomu əldə etmişdir. O, əsasən, tarix, ədəbiyyat, dil mövzularına üstünlük vermişdir. Corci Zeydan bir müddət Sudanda ingilis hərbi birliklərində də xidmət etmişdir (Çelebi 1993, 69).

Latınca, ingiliscə, fransızca, almanca, süryanicə, ibranicə də bilən Corci Zeydan tarix, ədəbiyyat, tarixi roman və sosial mövzularda bir çox əsərlərin müəllifi olub, publisist kimi "əz-Zaman" və digər qəzetlərdə çalışmışdır. Onun əsərləri, həmçinin nəşr etdirdiyi "əl-Hilal" məcmuəsi öz dövründə geniş ictimaiyyət üzərində böyük maarifçi təsirə malik olmuş, müəllifə Misir Universitetinin İslam tarixi üzrə professor elmi adı verilmişdi (Nervana 2011).

Əsərlərində ərəb millətçiliyini tənqid edən Corci Zeydan İslam xilafətinin də məhz ərəb millətçiliyi prinspinə söykəndiyini iddia edirdi. Corci Zeydana əsərlərindəki məlumatların əskik olması, zəif rəvayətlərə əsaslanması kimi tənqidlər də yönəldilmişdir. Onun bir sıra tarixi romanlarını Azərbaycan türkcəsinə tərcümə edən Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi Corci Zeydanın etibarlı qaynaqlara əsaslandığını göstərərək belə deyir: "Həzrəti Hüseynin əhvalatı mötəbər kitablardan əxz olunub" (Zeydan 1911 (1), 3).

Corci Zeydanın əsərləri və əl-Bakuvi tərəfindən tərcümələri

XX əsrin əvvəlləri Şimali Azərbaycanda elm və maarifin inkişaf dövrü olub dini maarifçilik mövzusunda tərcümələr də geniş yayılmışdı. Dövrün Əbu Turab Axundzadə, Molla Ruhulla kimi din xadimləri ilə yanaşı, Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi kimi ruhaniləri də İslam tarixinin tədqiq və təbliği ilə Rusiya əsarətində olan Şimali Azərbaycan müsəlmanlarının öz dinlərini daha yaxşı öyrənmələrinə və maariflənmələrinə xidmət edirdilər. Onlar öz əsərləri ilə eyni zamanda, Azərbaycanda tarix elminin inkişafında böyük rol oynamışlar.

Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvinin azərbaycanca ilk təfsir kitabı olan 3 cildlik "Kəşfül-Həqayiq" və "Səlib müharibəsi" əsərlərindən başqa, ərəb yazıçısı Corci Zeydandan etdiyi "On yeddi ramazan", "Kərbəla yanğısı", "Əzrayi-Qüreyş (İslam tarixi)" kimi tərcümə əsərləri əlimizə keçmişdir. Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi tərcümə etdiyi bu əsərlərin müqəddiməsində əksəriyyəti ərəbcə bilməyən Azərbaycan xalqının öz dini tarixlərini qaynaqlar əsasında öyrənib-maariflənməsinə xüsusi əhəmiyyət verdiyini qeyd etmişdir.

Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi "Kəşfül-həqayiq" əsərinin müqəddiməsində dövrünün nadan və cahil din xadimlərini qınayaraq belə yazırdı: "Hər bir xəta insandan sadir olsa qaliba cəhalətdəndir. Bəlkə əvvəla elmi-dini təhsil etmək lazımdır. Ondan sonra hər bir elm ki məişəti-bəşəriyyəyə aiddir, gərək onlar təhsil olunsun. Məsələn, elmi-tarix, həndəsə, coğrafiya, hesab, heyət, Qurani-Şərifdə bu elmlərin hamısının təhsilinin lazım olmasına dair ayələr mövcuddur" (2). Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi əksər din xadimlərinin də tarix elmindən bixəbər olduqlarını təəssüflə qeyd edir və əsərin müqəddiməsində belə deyirdi: "Elmi-tarix bir şərif olan elmdir. Qurani-şərifin bir hissəsi elmi-tarixdən bəhs edər. Amma əhli-İslamın alim və tüllabları (tələbələr - Ə.F.) bir belə elmdən bixəbər qalıbdırlar"; "bizim İslam üləmalarının əksəri elmi-tarixdən bibəhrədirlər" (əl-Bakuvi 1904 (1); Əl-Bakuvi 1906, 7).

Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvinin dövrümüzə gəlib-çatmış digər əsəri "Səlib Müharibəsi" adlı tarixi romandır. Əsərdə XI-XIII əsrlərdəki xaç savaşları, Suriya və Fələstin uğrunda xristianlarla müsəlmanlar arasında gedən müharibələr təsvir edilib (əl-Bakuvi 1913, 4). Müəllif əsəri yazarkən mötəbər tarixi qaynaqlardan istifadə etdiyini əsərin müqəddiməsində qeyd etmişdir.

Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvinin Corci Zeydandan tərcümə etdiyi bədii əsərlər də İslam tarixi baxımından qiymətli və dəyərlidir. Corci Zeydanın Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi tərəfindən tərcümə edilən "Əzrayi-Qüreyş (İslam tarixi)" əsəri III xəlifə Osman ibn Əffanın qətl edilməsindən başlayaraq, Həzrət Əlinin hakimiyyəti dövrü, ona qarşı olan üsyanlar, iştirak etdiyi savaşlar kimi mövzuları əhatə edir. Bu əsər müəllifin müqəddimədə bildirdiyinə görə, özünün əsasını qoyduğu "əl-Hilal" məcmuəsində də silsilə şəklində nəşr edilmişdir.

Corci Zeydan özü bu əsər haqda belə yazır: "Bu rəvayət İslam tarixinə mənsub olan rəvayətlərin silsiləsinin üçüncü halqasıdır. Əvvəlinci halqa "Fətati-Ğəssan"dır, iki cilddə onu nəşr edüb zühuri-dəvəti-islamiyyədən Şam və İraq fəthinə kimi tarixi-İslam hadisəsini onda göstərmişik. İkinci halqa "Ərmənusətül-Misriyyədir". Misir fəthini onda şərh etmişik, amma üçüncü halqa həmin bu "Əzrayi-Qüreyş"dir. Həmin halqa Xəlifə Osmanın qətlini və İmam Əli xilafətini və Osman qətlindən zühur edən fitnəni, Cəməl və Siffin vaqeələrini ta iki hakim hökmünü və Misir imam Əli xilafətindən xaric olana kimi ehtiva edir" (Zeydan 1913, 5).

Qeyd etmək lazımdır ki, bu kimi əsərlərin XX əsrin əvvəlində tərcümə edilib əksəriyyəti ərəbcə bilməyən Azərbaycan xalqına çatdırılması böyük əhəmiyyətə malik idi. Məhz bu cür əsərlər sayəsində müsəlmanlar öz dini tarixlərini qaynaqlar əsasında öyrənir, İslamın şanlı qəhrəmanlarından nümunə alaraq islami maarifçilik sahəsində həm özlərini, həm də ətraflarını savadlandıra bilərdilər.

Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi tərcümə etdiyi bu kitabın müqəddiməsində özü bu məsələni belə izah edir: "Bu rəvayətlər ərəb lüğətində olduğuna görə sair lüğətləri ilə danışan İslam taifələri onların ləzzətindən məhrum qalublar, xüsusən bizim türki-Azərbaycan lüğəti ilə danışanlar. Məhz vətənə xidmət edüb bizim türki-Azərbaycan dilində danışan cəmaət elmdən uzaq və tarixdən bixəbər oldıqlarından bu zəhməti özimə rahət hesab edüb onların arasında elmi rəvac verməkdə sə`y və ğeyrət etməki özimə lazım və vacib bildim" (Zeydan 1908, 3-4).

Qeyd etmək lazımdır ki, bu əsər Allah və ədalət yolunda zülmə qarşı haqq səsini ucaldan və bu yolda özünün və ailəsinin, qohumlarının şəhid olmasından çəkinməyən Həzrət Hüseynin və tərəfdarlarının tarixini ibrətamiz bir dillə anlatdığı üçün ondan nümunə götürməli olan bütün dünya müsəlmanlarından ötrü böyük əhəmiyyətə malikdir.

Corci Zeydanın Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi tərəfindən tərcümə edilmiş digər əsəri "On yeddi ramazan" adlanır. Əsərin "On yeddi ramazan" adlanmasının səbəbi Həzrət Əlinin 17 ramazan h. 40 (m. 661)-ci ildə şəhid edilməsinə əsaslanır (Zeydan 1908, 83).

Əsər Müaviyənin (v. 680) və xaricilərin Həzrət Əlinin hakimiyyətinə qarşı üsyan etməsi, Həzrət Əlinin xaricilər tərəfindən necə öldürülməsi və hakimiyyətin Əməvilər tərəfindən necə qəsb edilməsi mövzularını ehtiva edir. Əsərin tərcüməsinə girişdə müəllif belə yazır: "Tarixə mənsub aşiqanə bir rəvayətdir. Bu rəvayət tarixi-İslam silsiləsinin dördüncü həlqəsidir. Bu rəvayət İmam Əlinin qətlini və xəvaricin əhvalatının keyfiyyətini və fitnənin tamamlanmasını və xilafət əhli-beytdən çıqub o xilafəti bəni-Ümeyyə özlərinə götürməgini ehtiva edir" (Zeydan 1911 (2), 1-2). Mütərcim əsərin müqəddiməsində tarix elminin şərəfli bir elm olub, xüsusilə Həzrət Əli kimi bir şəxsiyyətin həyatından bəhs edən bir əsərin türkcəyə tərcümə edilib müsəlmanların ixtiyarına verilməsinin vacib və lazımi əməllərdən olduğunu göstərir və belə deyir: "İslam tarixində ən şərafətlü tarix elmi dini-islamda ədalət və haqqaniyyət üzrə rəyasət edən rəislərin əhvalatını ehtiva edən elmi-tarixdir. Onların cümləsindən rəisül-müvəhhidin əmirəlmöminin Həzrət Əlinin əhvalati-tarixiyyəsidir. Tərcümə edüb türk dilində danışan əbnayi-vətənə (vətən oğulları – Ə.F.) hədiyyə etməgi özimə lazım etdim" (Zeydan 1911 (2), 2).

Əsərdə Həzrət Əlinin öldürülməsində əsas rol oynayan xaricilər haqqında da geniş məlumat verilir. Onların öz rəhbərləri olan Həzrət Əliyə xəyanət etmələri, daha sonra da hakimiyyət ehtirasına qapılıb İmam Əlini kafir elan etmələri, Həzrət Əli ilə onların arasında baş verən Nəhrəvan savaşı (658-ci il) əsərdə geniş təsvir edilir (Zeydan 1911 (2), 3). Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi "xəvaric" adını şərh edərək belə deyir: "Xəvaric adını onlara demək dini-İslamdan xaric olmalarına işarədir" (Zeydan 1908, 3).

Əl-Bakuvi Həzrət Əlini təkfir etdikləri üçün onların İslamdan çıxdığına burada işarət edir. Həqiqətən də hədislərdə müsəlmanları küfrlə ittiham edənlərin özlərinin küfr təhlükəsinə düşə biləcəyi qeyd edilir və bu hərəkət pislənilir (Yavuz 2011, 450, 456).

Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvinin Corci Zeydandan tərcümə etdiyi digər bir əsər "Ərmənusətül-Misriyyə" ("Misirli Ərmənusə" – Ə.F.) romanıdır. Əsərdə ərəb fəthlərindən öncə qibtilərin və bizanslıların adət-ənənələri, Bizans imperatoru Heraklın (v. 641)

öz Misir canişini Muqavqisin qızı Ərmənusə ilə evlənmək istəməsi, lakin Ərmənusənin Misir sərkərdəsi Arkadini sevdiyindən imperatora rədd cavabı verməsi və ərəb ordusuna qatılması, ərəb sərkərdəsi Əmr ibn əl-Asın Misiri fəth edəndən sonra isə onun yardımı ilə sevdiyi gənclə evlənməsi, müsəlmanların Misirdə Fustat şəhərini qurması kimi məsələlər izah edilir (Zeydan 1912, 467).

Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvinin Həzrət Hüseynin qətlini araşdıran "Ğadətu-Kərbəla" əsərini "Kərbəla yanğısı" adı ilə tərcümə etməsi əhalisinin əksəriyyəti şiə məzhəbindən olan Azərbaycan müsəlmanları üçün onların öz məzhəblərini daha yaxşı tanımaları baxımından daha böyük əhəmiyyətə malik idi. Corci Zeydanın bu əsəri Əməvi hökmdarlarından Yezid ibn Müaviyənin (v. 683) hakimiyyəti dövrünü və bu dövrdə onun əmri ilə Həzrət Hüseynin və əhli-beyt mənsublarının öldürülməsi faciəsini ehtiva edir. Əsərdə eyni zamanda Əbdürrəhman adlı bir gəncin öz qohumu Səlmanı sevməsi, lakin Əməvi xəlifəsi Yezidin də Səlma ilə evlənmək istəməsi, lakin Səlmanın buna etiraz edərək Kufədən qaçması, yolda Həzrət Hüseynin öldürülməsinə şahid olması, Yezid öldükdən sonra isə Əbdürrəhmana qovuşması əhvalatı nəql edilir. Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi tərcümə etdiyi əsərə yazdığı müqəddiməsində tarix elminin şərəfini, xüsusilə Həzrət Peyğəmbər və əhli-beytin tarixini öyrənmənin şərəfli bir iş olduğunu qeyd edir (Zeydan 1911 (1), 2).

Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi bu kitabı tərcümə etməsinin səbəbini qeyd edərkən göstərir ki, bu mövzuda bir çox kitab olsa da, əksəriyyəti uydurmalardan ibarətdir. Səhih olan kitablar isə ərəbcə olduğundan, türk xalqı bundan istifadə etməkdən məhrumdur (Zeydan 1911 (1), 2). Mütərcim özü bu mövzuda müstəqil bir kitab yazmaq istəsə də, Corci Zeydanın bu əsərini oxuyandan sonra fikrini dəyişmiş və qeydlərini də əlavə etməklə bu kitabın tərcüməsinə başlamışdı (Zeydan 1908, 3). Mütərcim Kərbəla vaqeəsinin əhəmiyyətinə işarə edərək, bu hadisənin bütün faciəvi xüsusiyyətlərinə baxmayaraq, əslində, İslama fayda verdiyini, İslamın nurunun daha da artaraq müsəlmanları haqq və ədalətə bağladığını qeyd edir. Onun öz ifadələri ilə desək, "... Ah... ah təəssüflər olsun. Dünyada o alicənab kimi keçmiş əsrlərdə bir nəfər məzlum olmayıbdır. O cənabın qətli ilə dini-İslamın nurini məhv eləmək istədilərsə də, "kafirlər istəməsə də, Allah öz nurunu tamamlayacaqdır", dəxi də dini-İslamın nuraniyyəti artdı. O cənabın din yolunda tökülən qanının təsiri qiyamətə kimi günbəgün artacaqdır. Çünki həqqaniyyətlə və həqq yolında tökülən qan əbədən

məhv olmayub və olmayacaqdır. Və axirül-əmr həqq zühur edəcəkdir" (Zeydan 1908, 3).

Qeyd edək ki, 1904–1918-ci illərdə Bakı quberniyasının qazısı olan Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi (1853-1938) Azərbaycan xalqının ən böyük maarifçi ziyalılarından biri olmuşdur. O, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov kimi ziyalılarla birlikdə islami vəhdət, məzhəblərin birləşdirilməsi, erməni-müsəlman qırğınlarının dayandırılması, qadın haqları yolunda mübarizə aparmış, həm xütbə və vəzlərində, həm yazdığı əsər və tərcümələrdə bu mütərəqqi missiyasını uğurla icra etmişdir. Qazı Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvinin "Kəşfül-həqayiq" əsəri də öz zəmanəsinin dini maarifçilik baxımından şah əsəri olub, dövrün ictimai-siyasi, dini problemlərinə mütərəqqi həll yolunu verir. Sovet işğalından sonra bolşevizmə qarşı təbliğat aparan bu böyük ziyalı 1938-ci ildə Stalin repressiyasının qurbanı olmuş, güllələnmişdir (Bünyadov 1993, 278).

Corci Zeydanın əsərlərinə olan digər tərcümələr

Corci Zeydanın 1902–1906-cı illərdə Qahirədə ərəb dilində nəşr olunmuş "Tarixul-təməddünil-İslami" ("İslam mədəniyyəti tarixi") əsəri də Osmanlı türkcəsinə tərcümə edilmişdir. Əsərdə ərəblərin islamöncəsi tarixi, Əməvi, Abbasi, Fatimi, Əndəlüs Əməviləri dövlətlərinin tarixi və İslam məzhəbləri, İslam mədəniyyəti tarixi kimi mövzulardan bəhs olunur. Əsərin bu tərcüməsi "Mədəniyyəti-islamiyyə tarixi" adı ilə XX əsrin əvvəllərində İstanbul "şehremaneti" (bələdiyyə) katibi olaraq çalışan (Çelebi 1993, 69, 71) Osmanlı xristianlarından Zəki Müğamizə məxsusdur. Corci Zeydan iki səbəbdən bu əsəri yazdığını göstərir: 1) Orta əsr İslam tarixçilərinin bitərəf olmaması, ancaq hərbi xarakterli məlumatları nəql edib mədəni-tarixi hadisələr arasında əlaqə, elmi hökm və nəticəni göstərməmələri; 2) Qərb şərqşünaslarının İslam və Qərb mədəniyyətləri arasındakı irtibat haqqında müəllifə çoxsaylı müraciətləri səbəbindən ehtiyac hiss etdiyini qeyd edir. Müəllifə görə, "Bir millətin tarixi-həqiqisi o millətin tarixi-mədəniyyətindən ibarətdir. Böylə bir tarix kitabına ehtiyac isə zəruridir" (Zeydan 1328, 3-4).

Bu əsərin Azərbaycan türkcəsinə tərcüməsi isə XX əsrin əvvəllərində Mirabbas Mirbağırov tərəfindən edilmişdir (Zeydan 1913). Mirabbas Mirbağırov əsərin tərcüməsinə yazdığı müqəddimədə Corci Zeydanı "fazili-möhtərəm", bu əsəri "aləmi-islamiyan üçün bir töhfə"

adlandırmış, “indiyə qədər islamiyyətə dair bu qədər geniş məlumatlar verən, bu mərtəbədə əhəmiyyətli bir əsər görmədik, eşitmədik”, – deyə bildirmişdir (Zeydan 1913, 7). Bu əsər Zəki Müğamizin osmanlıca tərcüməsindən müasir türkcəyə “İslam uygarlıkları tarihi” adı ilə çevrilmiş və 2004, 2009, 2012-ci illərdə İstanbulda nəşr edilmişdir (Zeydan 2012).

Corci Zeydanın bu əsərində Azərbaycan tarixinə dair qiymətli məlumatlar var. Məsələn, Abbasi xilafətini lərzəyə salan Xürrəmi üsyanı və onun rəhbəri Babək haqqında verilən məlumatda xürrəmilərin ruhun köç etməsinə inandıqları göstərilir. Həmçinin bu üsyanın Abbasilər üçün böyük təhdid olduğu, xilafətin türk sərkərdəsi Afşin ibn Kavusun yardımı sayəsində üsyançılara qalib gəldikləri qeyd olunur (Zeydan 2012, 493, 494).

Qeyd edək ki, Corci Zeydanın bu əsərinə bəzi tənqidlər də edilmişdir. Onlardan ən məşhuru XIX əsrin hindistanlı müsəlman tarixçi alimi Mövlana Şibli Numaniyə məxsusdur. Onun 1912-ci ildə yazdığı "əl-İntqad aləl-təməddüni-İslam" (İslam mədəniyyətinə tənqid) əsəri öncə Misirdə “əl-Mənar” məcmuəsində, sonra türk şairi Mehmed Akifin türkcəyə tərcüməsi ilə “Səbilür-rəşad” məcmuəsində 1913-cü ildə dərc edilmişdir. Mehmed Akif tərcüməyə yazdığı müqəddimədə Corci Zeydanın xristian olması səbəbindən əsərinə etimadsızlıq göstərmişdir (Azimli 2014 (1)).

Corci Zeydanın Əməviləri İslam dövləti yox, şovinist ərəb səltənəti sayaraq sərt tənqid etməsi, onların qeyri-ərəb müsəlmanlarla kölə kimi rəftarını çox qınaması, Ş.Numani tərəfindən obyektiv sayılmamışdır (Azimli 2014 (2)).

Ş.Numani Əməvilərin ilk xəlifəsi Müaviyənin "Mənə elə gəlir ki, bunlar (qeyri-ərəb müsəlmanlar) ərəblərin səltənətinə qarşı üsyan edəcəklər. Ona görə də yarısını öldürmək fikrindəyəm" (Azimli 2014 (3)) sözünü nəql etməklə, əslində, Corci Zeydanın haqlılığını ortaya qoyur. Quranın “əl-Hucurat” surəsinin 13-cü “Ey insanlar! ... bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız ən çox təqvalı olandır ” ayəsi və “Ərəbin əcəmə, əcəmin də ərəbə bir üstünlüyü yoxdur. Üstünlük ancaq təqvadadır” (Yavuz 2011, 450, 456) hədisi Corci Zeydana haqq qazandırır. Müaviyənin sərkərdəsi Amr b. əl-Asın cizyə vergisinin miqdarını soruşan birinə "Siz bizim xəzinəmizsiniz. Ehtiyacımız çoxalsa çox, azalsa az alarıq” (Azimli 2005, 242; Azimli 2014 (4)) sözü də Əməvilərin soyğunçuluğuna işarədir.

Tanınmış irəvanlı ziyalı Mirabbas Mirbağırov İrəvan gimnaziyasını bitirmiş, gənc yaşlarından kitab ticarəti ilə məşğul olmuşdur. "Həyat", "İrşad", "Təzə Həyat", "Tərəqqi", "Yeni İrşad", "İqbal", "Sədayi-həqq" qəzetləri ilə yaxından əməkdaşlıq edən ziyalı Azərbaycan Cümhuriyyəti dönəmində "Azərbaycan", sovet hakimiyyəti dövründə "Kommunist", "Yeni yol" qəzetlərində, "Xalq maarifi", "Füqəra füyuzatı", "Maarif və mədəniyyət", "Azərbaycan Ali İqtisad Şurasının əxbarı", "Xalq müəllimi", "Qızıl qələm", "Əkinçi", "Maarif işçisi", "İqtisadi xəbərlər" jurnallarında məqalələrinii dərc etdirmişdir. Mirabbas Mirbağırov "Osmanlı tarixinin mühüm səhifələri", "Osmanlı hökumətinin qüdrətli günləri", "Tarix səhifələri. I. İslam pulları. II. Misir ölkəsi və tarixi", "Cənab Yusif və macərayi-məşhuru", "Osmanlı marşları, Vətən və millət nəğmələri" və başqa kitabların da müəllifidir. Onun əsərləri indi də öz elmi dəyərini saxlayır. Bu əsərlər onun iqtisadçı, etnoqraf, coğrafiyaçı, sənətşünas, ədəbiyyatşünas, dilçi, pedaqoq, tarixçi kimi ensiklopedik biliyə malik olduğunu göstərir. 1930-cu ilin əvvəlində onun ailəsi ilə birlikdə Türkiyəyə köçdüyü güman edilir (Mustafa 2013).

Corci Zeydanın Azərbaycan türkcəsinə tərcümə olunan digər kitabı Əliabbas Müznib tərəfindən çevrilən "Osmanlı inqilabı" romanıdır (Zeydan 1914). Əsər Osmanlı imperiyasının son dövrlərində konstitusiyalı idarəetmə uğrunda xalqın mübarizəsini əks etdirir.

XX əsrin əvvəlləri Azərbaycan ədəbi-ictimai fikir tarixində şair, publisist, ədəbiyyatşünas alim, din tarixçisi və tərcüməçi kimi tanınan Əliabbas Müznib Əhmədov (1883-1938) Bakının sonuncu xanı Hüseynqulu xanın nəslindəndir. Yaradıcılığı XX əsrin əvvəlləri Azərbaycan Milli Azadlıq Hərəkatı ilə sıx bağlı olması səbəbindən o, həm Çar, həm də sovet hakimiyyəti illərində amansız təqiblərə məruz qalıb, faciəli həyat yaşayıb. "İttifaq" qəzetində, satirik "Zənbur" jurnalında baş redaktor kimi çalışan Əliabbas Müznib 1910-cu ildə "Hilal" adlı qəzet, daha sonralar "Şihabi-saqib", "Dirilik", "Babayi-Əmir" jurnallarını çap etdirmişdir. Öz əsərlərində türkçülük və islamçılığı təbliğ, çarizmin müstəmləkəçilik siyasətini tənqid edir. Bu səbəbdən, Çar senzurası qəzetin və jurnalların çapına qadağa qoymuş, özü isə dəfələrlə həbs olunb və Sibirə sürgün edilmişdi. Cəlil Məmmədquluzadə də "Molla Nəsrəddin"də osmanlıca yazdığı üçün onu tənqid edirdi. Sovet hakimiyyəti illərində "Qarabağ firqə və inqilab komitəsinin əxbarı", "Qarabağ füqərası" və "Qarabağ diriliyi", "Kommunist" qəzetlərində çalışan Əliabbas Müznib 1937-ci ildə millətçilik ittihamı ilə Sibirə sürgün edilmiş və orada vəfat etmişdir (Ay, 2013).

Nəticə

Qeyd etmək lazımdır ki, Orta əsrlərdə Azərbaycan İslam mədəniyyətinin əsas mərkəzlərindən biri olub, hətta Çar Rusiyası işğalı altında da islami tədqiqatlar davam etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə islami tədqiqatların vüsət almasına şərait yaransa da bu, qısa sürmüşdür. 1920-ci ilin aprel işğalı ilə birlikdə Azərbaycanda dinə böyük zərbə vuruldu. Uzun illər ateist dünyagörüşünün hakim olduğu sovet ideologiyasının və rus işğalının acı nəticəsi olaraq qazı Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi, Mirabbas Mirbağırov, Əliabbas Müznib kimi Azərbaycanın bir sıra görkəmli ziyalıları, din xadimləri repressiyalara məruz qalmış, sürgünlərdə çürüdülmüş, öldürülmüş, onların əsərləri isə ya unutdurulmuş, ya məhv edilmiş, xalqın yaddaşından silinmişdir. Bunun təbii nəticəsi olaraq, Azərbaycan xalqı özünün ən mütərəqqi ziyalılarının elmi fəaliyyətindən xəbərsiz qalmış, öz din xadimlərinin əsərlərindən məhrum qaldığına görə də islamdan uzaqlaşmış, öz ruhani və mənəvi mirasına yadlaşmışdır. Bu baxımdan, din xadimlərinin, ziyalıların, o cümlədən Corci Zeydanın İslam mədəniyyəti, maarifçilik və tarix elmi baxımından əhəmiyyətli olan əsərlərinin Azərbaycan dilinə edilən tərcümələri və onların tədqiqi, təbliği vacibdir. Bu məsələ Azərbaycan elminin, ilahiyyat və şərqşünaslıq sahəsinin əsas problemlərindən biridir və öz vacib həllini gözləyir.

ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Bünyadov Ziya. (1993). Qırmızı terror. Bakı: Azərnəşr, (331 s.).
2. əl-Bakuvi Mir Məhəmməd Kərim. (1904/1). Kəşfül-həqayiq. 3 cilddə. I cild. Tiflis, Kaspi qəzetinin mətbəəsi, (745 s.).
3. əl-Bakuvi Mir Məhəmməd Kərim. (1904/2). Kəşfül-həqayiq. 3 cilddə. II cild. Tiflis, Kaspi qəzetinin mətbəəsi, (791 s.).
4. əl-Bakuvi Mir Məhəmməd Kərim. (1906). Kəşfül-həqayiq. 3 cilddə. III cild, Tiflis, Kaspi qəzetinin mətbəəsi, (961 s.).
5. əl-Bakuvi Mir Məhəmməd Kərim. (1913). Səlib müharibəsi. 2 cilddə. I cild, Bakı: Orucov qardaşları nəşriyyatı, (462 s.).
6. Zeydan Corci. (1912). Ərmənusətül-Misriyyə. Mütərcim: Axund Mir Məhəmməd Kərim Mircəfərzadə. Bakı: Orucov qardaşları mətbəəsi, (471 səh.).

7. Zeydan Corci. (1908). Əzrayi-Qüreyş (İslam tarixi). Mütərcim: Axund Mir Məhəmməd Kərim Mircəfərzadə. Bakı: "Kaspi" qəzetinin mətbəəsi, (534 səh.).
8. Zeydan Corci. (1913). İslamın mədəniyyət tarixi. I cild. Qafqaz türkcəsinə təbdil edən. M. Mirbağırov; naşir. M. Ə. Ələkbərov. Bakı, (256 s.).
9. Zeydan Corci. (1911/1). Kərbəla yanğısı. Mütərcim: Axund Mir Məhəmməd Kərim Mircəfərzadə. Bakı: Orucov qardaşları mətbəəsi, (537 səh.).
10. Zeydan Corci. (h.1328). Medeniyet-i İslamiye tarihi, tərc. Z.Müğamiz, I cild, Dər-səadət İstanbul: İqdam mətbəəsi.
11. Zeydan Corci. (h.1329). Medeniyet-i İslamiye tarihi, tərc. Z.Müğamiz, II cild, Dər-səadət İstanbul: İqdam mətbəəsi.
12. Zeydan Corci. (h.1330). Medeniyet-i İslamiye tarihi, tərc. Z.Müğamiz, V cild, Dər-səadət İstanbul.
13. Zeydan Corc.i (1911/2). On yeddi ramazan. Mütərcim: Axund Mir Məhəmməd Kərim Mircəfərzadə. Bakı: Orucov qardaşları mətbəəsi, (374 səh.).
14. Zeydan Corci. (1914). Osmanlı inqilabı. Ərəbcədən farscaya Qəvimüssəltənət, farscadan tərcümə. Ə.Müznib. Bakı: Orucov qardaşları mətbəəsi, (293 s.).
15. Zeydan Corci. (2012). İslam uygarlıkları tarihi. I cild. Osmanlıcadan terc: N.Gök. İstanbul: İletişim nəşr, (760 s.).

Türk dilində:

1. Azimli Mehmet. (2005). Corci Zeydanın "İslam Medeniyeti Tarihi" adlı eserine karşı yazılmış bir tenkit yazısı", 223-243 // İstem, Yıl: 3, Sayı: 5.
2. Çelebi Muharrem. (1993). "Corci Zeydan", 69-71 // TDV İslâm Ansiklopedisi. VIII cild. İstanbul, TDV.
3. Yavuz Yusuf Şevki. (2011). "Tekfir", 450-456 // TDV İslâm Ansiklopedisi. 40-cı cild. İstanbul, TDV.

İnternet resursları:

1. Ay Zivər. (2013). "Mirzə Cəlilin təhqir etdiyi nasir, repressiya qurbanı", 30.X. // https://kulis.az/news/6577.
2. Azimli Mehmet. (2014/1). Şibli Numani'nin Corci Zeydan'in tarihine reddiyesi-1, 14.XII. // http://www.cevaplar.org/index.php?content_view=5919&ctgr_id=104

3. Azimli Mehmet. (2014/2). Şibli Numani'nin Corci Zeydan'in tarihine reddiyesi-2, 21.XII. // http://www.cevaplar.org/index.php?content_view=5930&ctgr_id=104
4. Azimli Mehmet. (2014/3). Şibli Numani'nin Corci Zeydan'in tarihine reddiyesi-3, 31.XII. // http://www.cevaplar.org/index.php?content_view=5939&ctgr_id=104
5. Azimli Mehmet. (2015). Şibli Numani'nin Corci Zeydan'in tarihine reddiyesi-7, 01.02. // http://www.cevaplar.org/index.php?content_view=5979&ctgr_id=104
6. Azimli Mehmet. (2014/4). Şibli Numani'nin Corci Zeydan'in tarihine reddiyesi-7 // http://www.cevaplar.org/index.php?content_view=5979&ctgr_id=104
7. Mustafa Nazim. (2013). "Tanınmış irəvanlı ziyalılar" // http://www.iravan.info/irevan_ziyalilari.html
8. Nervana. (2011). "Roots of Egyptian Sectarianism through a 100 year old novel" // https://nervana1.org/2011/11/10/roots-of-egyptian-sectarianism-through-a-100-year-old-novel/

д-р филос. по ист. Али Фархадов

О ЖИЗНИ, ТВОРЧЕСТВЕ И ПЕРЕВОДАХ ДЖИРДЖИ ЗЕЙДАНА

РЕЗЮМЕ

Статья посвящена жизни и творчеству выдающегося арабского писателя Джирджи Зейдана (1861-1914), а также переводам его произведений на турецкий и азербайджанский языки. Ряд его произведений был переведен на турецкий и азербайджанский языки еще в начале XX века. Несмотря на то, что Джирджи Зейдан был христианином, его работы внесли ощутимый вклад в изучение исламской культуры и истории. Среди них "Исторический труд по исламской культуре" и ряд романов, повествующих об истории ислама. Их переводы принадлежат перу интеллектуала времен Османской империи Зеки Мугамиза, а также таких представителей азербайджанской интеллигенции, как кадий Мир Мухаммед Керим Ага Мирджафарзаде аль-Бакуви, Мир Аббас Мирбагиров и Алиаббас Музниб. Они не только переводили, но и продвигали произведения Джирджи Зейдана в

массы. Кадий Бакинской губернии Мир Мухаммед Керим Ага Мирджафарзаде аль-Бакуви является также автором перевода Корана на азербайджанском языке, известного под названием "Кашфуль-хагаиг". Переводы произведений Джирджи Зейдана, выполненные аль-Бакуви и другими переводчиками, помогли туркам и азербайджанцам, не владеющим арабским языком, в изучении истории ислама из понятного им источника. Они сыграли большую роль для религиозного образования, исторической науки и исламской культуры в начале XX века. В статье повествуется о критике произведений Джирджи Зейдана, о вкладе его произведений в исламскую культуру, историографию и науку Азербайджана, а также о представителях интеллигенции, переводивших его работы. Также упоминаются горькие последствия советской оккупации и польза от перевода и исследования "Истории исламской культуры" Джирджи Зейдана и прочих его работ для азербайджанского народа в изучении собственных религиозных истоков и просвещении.

Ключевые слова: *Джирджи Зейдан, Азербайджан, исламская культура, перевод.*

PhD Ali Farhadov

ABOUT THE LIFE, WORKS AND TRANSLATIONS OF JURJI ZAYDAN

ABSTRACT

The article gives information on the life and work of the famous Arab writer Jurji Zaydan (1861-1914), translations of his works into Turkish and Azerbaijani languages. Jurji Zaydan has a number of works translated into Turkish and Azerbaijani at the beginning of the 20th century. Although Jurji Zaydan was a Christian, his writings contributed greatly to the study of Islamic culture and history. In this respect, his “Historical Works of Islamic Culture” and a number of novels on the history of Islam are important. The translations of these works belong to the Ottoman intellectual Zaki Mughamiz, the Azerbaijani intellectuals Mir Mohammad Karim Mirjafarzade al-Bakuvi, Mirabbas Mirbaghirov and Aliabbas Muzniba. They translated

and promoted the works of Jurji Zaydan. Baku judge Mir Mohammad Karim Mirjafarzade al-Bakuvi is also the author of “Kashful-Hagayig”, a translation of the Qur'an into Azerbaijani. Mir Mohammad Karim Mirjafarzade al-Bakuvi and other translators translated the works of Jurji Zaydan and helped Turks and Azerbaijanis who didn’t know the Arabic language to learn the history of Islam from their own sources. These translations are of great importance in terms of religious education, historical science and Islamic culture of the beginning of the 20th century. The article deals with criticism of the works of Jurji Zaydan, the contribution of these works to Islamic culture, historiography and science of Azerbaijan, as well as the intellectuals who translated these examples. The article also provides information on the bitter aftermath of the Soviet occupation and notes that the translation and research of Jurji Zaydan’s “History of Islamic Culture” and his other works helped the Azerbaijani people to study their religious sources and enlighten themselves.

Keywords: *Jurji Zaydan, Azerbaijan, Islamic Culture, translation*

QURANİ-KƏRİMİN SÖZ, YAXUD MƏNA BAXIMINDAN ÜSTÜNLÜYÜ MƏSƏLƏSİ (QAZİ ƏBDÜLCƏBBAR VƏ ƏBDÜLQAHİR CÜRCANİ KONTEKSTİNDƏ)

f.f.d. Faiq Əhmədzadə,
Azərbaycan İlahiyyat İnstitutunun müəllimi
faigahmedzade@ait.edu.az

XÜLASƏ

İslam dini geniş ərazilərə yayılmağa başlayınca, digər din mənsubları tərəfindən fərqli cəhətlərdən tədqiq edilmişdir. İnancları haqqında müsəlmanlara yönəldilən suallara cavab tapmaq məcburiyyəti hiss edərkən onlar bəzi yeni elmlərlə maraqlanmağa və yeni fikirlər irəli sürməyə başladılar. Quranın möcüzəliyi məsələsi də həmin fikirlərdən biri hesab edilir. İslam alimləri Quranı möcüzə kimi qəbul etsələr də, onun hansı yönünün ecazkar xüsusiyyətləri daşıdığı mövzusunda mübahisə etmişlər. Fərqli fikirlərin yekunu olaraq əsasən onun mətninin və ifadə tərzinin möcüzəliyi üzərində durmuşlar. Burada iki əsas cərəyan meydana çıxmışdır. Birincisi, peyğəmbərliyin isbatı kimi qəbul edilən Quranın möcüzəliyinin onun sözlərində olduğunu qəbul etmişlər ki, bu fikirdə olanların ən böyük nümayəndələrindən biri mötəzilə alimi Qazi Əbdülcəbbardır. Digər versiyaya əsasən, Quran mənasına görə öz üstünlüyünü qorumuş və meydan oxumuşdur. Mənaya üstünlük verib onu isbat etməyə çalışanlar arasında ən çox tanınan alimlərdən biri Əbdülqahir Cürcani hesab edilir. Məqalədə hər iki alimin Qurandakı söz-məna üstünlüyü barəsindəki düşüncələrinə yer verilmiş, həmin mübahisənin səbəbləri, etiqadi nəticələri tədqiq edilmiş, hər iki fikir ümumi təhlilə tabe tutulmuşdur. Eyni zamanda sözdəki, yaxud mənadakı üstünlüyü göstərən nümunələrə qısaca yer verilmiş, hər iki düşüncə sahibinin dayandığı əsaslara diqqət yetirilmişdir. Mübahisənin çıxdığı əsas nöqtə kimi, sözün nə ifadə etməsi xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, Quranın təsir gücünün məna ilə və ya söz ilə artması haqqında hər iki alimin düşüncə sisteminə əsasən geniş fikir mübadiləsi aparılmışdır.

Açar sözlər: *Qurani-Kərim, fəsahət, ecaz, nəzm, Qazi Əbdülcəbbar, Əbdülqahir Cürcani, söz, məna.*

Giriş

Tanrı inancını təqib edən əsas anlayışlardan biri də peyğəmbərlik sistemidir. İslam mədəniyyətində nübüvvət adlanan peyğəmbərlik sisteminin əsas məqsədi seçilmiş bir şəxs vasitəsilə insanları doğru yola yönəldən din anlayışını gətirməkdir. İnsanlar bəzən həqiqəti qavramaqda, ölümdənsonrakı həyat haqqında suallara cavab verməkdə çətinlik çəkir, inancın sistemləşdirilməsi mövzusunda müxtəlif yönlərə müraciət etməyə başlayır və beləcə, onların arasında şiddətə gətirib-çıxaracaq ixtilafların yayılması halı baş verir. İnsanlar arasındakı müxtəlifliyi ortadan qaldırıb onları birləşdirmək (nə qədər sosioloji, psixoloji və fəlsəfi cəhətdən bu müşahidə olunmasa da), doğru qəbul etdikləri zərərli düşüncə və vərdişləri bildirib bunlardan çəkindirmək, inancla və xüsusilə də ölümdənsonrakı həyat haqqında suallara cavab vermək məqsədilə dinin yaradıcı qüvvə tərəfindən göndərilməsinə ehtiyac duyulmuşdur. Bu səbəbdən, peyğəmbərlər və onlarla birlikdə din göndərilmişdir.

Təbii ki, Allah tərəfindən peyğəmbərlərin göndərildiyini isbat etmək üçün onların möcüzə göstərməsinə ehtiyac duyulmuşdur. Onların hər biri təbiətlə bağlı digər insanların təkrarlaya bilməyəcəyi qeyriadi hadisələrin baş verməsinə səbəb olmuş, yəni möcüzə göstərmişlər. Həzrət Məhəmmədin isə əsas möcüzəsi söz, yəni Qurani-Kərim hesab edilmişdir. Qurani-Kərimin möcüzə olmasını isbat etməyə çalışan bir çox klassik mənbə vardır ki, burada möcüzəliyin hansı cəhətdən meydana gəlməsini tədqiq etmişdir. Quranın ecazkarlığının özünü ifadə tərzində büruzə verməsi anlayışı dilçilik cəhətdən daha çox araşdırılmışdır. Həm də Quran möcüzə hesab edilib peyğəmbərlik sisteminin isbatı kimi qəbul olunduğu üçün əqaid məsələləri içərisində də yer almışdır.

İnanc sistemi içərisində Quranın möcüzəliyi barəsində geniş tədqiqata yer verənlərdən biri də mötəzilə məktəbinin alimi olan Qazi Əbdülcəbbardır. O, Həmədanda dünyaya gəlmiş və 1025-ci ildə (h. 415) Reydə vəfat etmişdir. Mötəzilənin son dövr alimlərindən hesab edilən Qazi Əbdülcəbbar öz məktəbinin əsaslarını sistemli şəkildə tədqiq etmiş və bu sahədə demək olar ki, hər mövzuya toxunmuşdur. Bu gün həmin məktəbin əsaslarını Qazi Əbdülcəbbarın "Muğni fi əbvabit-tövhid" əsərindən öyrənmək mümkündür. Qurana aid xeyli tədqiqatın sahibi olan Qazi Əbdülcəbbar inanc baxımından ecazkarlıq mövzusuna aydınlıq gətirmişdir. Adı çəkilən kitabın 16-cı cildi əsasən Quranın möcüzəliyi mövzusuna, onun üstünlüyünə həsr edilmişdir.

Qurana linqvistik cəhətdən yanaşaraq onun dildəki ecazkarlığı haqqında dərin təhlil edənlərdən biri Əbdülqahir Cürcani hesab edilir. Cürcanda doğulub, elə orada da 1030-cu ildə (h. 421) vəfat etmişdir. Məşhur dilçi hesab edilən Cürcani ərəb dilinin linqvistik fəsləfəsinin ilk mənbələrindən hesab edilir. Xüsusilə Qurani-Kərimi lüğəvi cəhətdən tədqiq etmiş, onun ecazkarlığı haqqında üç əsər yazmışdır. Bunlar "Risalətüş-şafiyə", "Əsrarül-bəlağa", "Dəlailül-ecaz" əsərləridir. Sonuncu əsərdə Quranın dildəki ecazkarlığı geniş şəkildə tədqiq edilmiş, bəzi tənqidlərə cavab verilmiş, xüsusilə söz və məna üstünlüyü mübahisəsinə aid bir çox məsələlərə aydınlıq gətirilmişdir. Qeyd etmək lazımdır ki, Cürcani əhli-sünnənin əşari məktəbinə xas fikirlərə sahib olduğundan düşüncələri daha çox bu yöndə büruzə vermişdir.

Məqalədə Quranın möcüzəliyi anlayışının iki fərqli düşüncə sistemində hansı formada yer alması araşdırılacaqdır. Eyni zamanda, bəzi suallara da cavab tapmaq məqalənin hədəfləri içərisindədir: Tarix boyunca Qurana möcüzəlik xüsusiyyətini aid etmənin əsas səbəbləri nələr olmuşdur? Quran həqiqətən də öz ecazkarlığı ilə təkraredilməzliyini qorumuşdurmu? Quranın möcüzəliyi hansı yöndən təzahür etmişdir? İslam ənənəsində Quranı möcüzə kimi qəbul edərkən hansı xüsusiyyətlər ön planda tutulmuşdur? Quranın ecazkarlığı, təkraredilməzliyi onun sözlərinin düzülüşündədirmi? Yoxsa Quranda söylənilən fikirlərin ümumi mənası daha çox möcüzəvi xarakterə malik hesab edilirmi? Söz və ya məna üstünlüyü mövzusundakı mübahisələr hansı əsaslara dayanır və səbəbləri nələrdir? Burada, əsasən, iki düşüncə sahibinin fikirləri və təməlini təşkil edən səbəbləri haqqında qarşılaşdırmalı təhlil yürütmək həm Quranın anlaşılmasında, həm də onun ecazkarlığını başa düşməkdə köməklik göstərə bilər.

Quranın ecazkarlıq yönlərinə qısa baxış

Quranın ecazkarlığı ilk endiyi dövrlərdə hiss edilmişdir. Belə ki, Quranın nüzulu zamanı İslama qarşı çıxanlar onun ayələrini eşidəndə təsirlənib heyrətlənmiş, necə etiraz edəcəklərini bilməyib, ayələrin anlaşılmaz və qarışıq xüsusiyyət daşıdığını hesab edərək onun sehr olduğunu düşünmüşlər ("Ənbiya", 21/5; "Səba", 34/43). Onlara meydan oxuyan ayələr nazil olmuş, onlardan əvvəlcə Qurana bənzər bir kitab, sonra on surə, daha sonra isə bir surə gətirmələri tələb edilmişdir ("Bəqərə", 2/23, "Yunus", 10/38, "Hud", 11/13, "İsra", 17/88, "Qəsəs", 28/49). Beləcə, bunabənzər bir kitab ortaya çıxmadığı üçün nüzul

dövründəki ərəblər də onun ecazkarlığı qarşısında susqun qalıb Quranı sehr kitabı kimi təqdim etməyə başlamışlar.

İslamın ilk dövrlərində bəzi fitnə çıxarmaq istəyənlər müxtəlif şəkildə şərh edilə bilən ayələri nəzər yetirərək Quran nəzmində uyğunsuzluqlar, ayələr arasındakı ziddiyyətlər haqqında bəhs etmişlər. Raşidi xəlifələr dövründə bunu açıq şəkildə dilə gətiməyə cürət edə bilməmişlər. Sonralar Abbasi xilafəti dövründə fəlsəfə və əqaid elmlərinin inkişafı məzhəb müxtəlifliklərinə yol açmış, həmin dövrün sərbəst mühiti Quran haqqında müxtəlif neqativ fikirlərin yayılmasına şərait yaratmışdır (Özdoğan. M.A. (2003). s. 118-119).

İslam dininin sürətlə yayılmasından sonra yad mədəniyyətlərə mənsub bəzi şəxslərin Quranı tənqid etməyə başlaması İslama yeni gələnlərə təsir etmişdir. Abdülkərim b. Əbül-Avca, İshaq b. Talut, Numan b. Münzir kimi şəxslər Quranın ziddiyyətləri ehtiva etməsi haqqındakı kitablarına cavab olaraq İslam alimləri ərəb dilçiliyi cəhətdən təfsirlər yazmağa başlamışlar ki, bu da ecazkarlığı ortaya çıxarmaq üçün bir vasitə olmuşdur. Daha sonra müəyyən edilmişdir ki, ilk dəfə mötəzilə məzhəbi Quranın möcüzəliyi barəsində nəzəriyyələr irəli sürmüş və onun üstünlüyü haqqında əsərlər yazmışlar. İlk dəfə Quranın möcüzəliyi haqqında Nəzzam (v. h/231, m/845) sərfə nəzəriyyəsini irəli sürmüşdür. Bu nəzəriyyəyə əsasən Qurana bənzər bir kitabın meydana gətirməyin imkansızlığı insan qüdrətinin sərhəddini aşır və onun qüdrətini Allah əlindən almışdır. Daha sonra onun tələbəsi olan Cahiz (v. h/255, m/869) bu nəzəriyyəyə qarşı çıxmış və Quranın ecazkarlığını onun nəzmində görmüşdür (Yavuz. Y.Ş. (2000).c. 21, s. 404). Nəzm deyərkən Cahiz sözün əhəmiyyətinə diqqət çəkmiş, mənanı ikinci planda görmüş və bunu Qurandakı bəzi sözlərdən nümunə gətirərək dəstəkləmişdir (الجاحظ، (١٩٦٨)، ج.١، ص. ١٨). Cahiz mənadan daha çox sözlərin tərtibinə və seçiminə daha çox diqqət ayırmış və Quranın bu yöndəki üstünlüyünü qeyd etmişdir. Sonralar nəzm barəsində danışarkən mənanın üstünlüyünə diqqət çəkənlər də olmuşdur ki, bunların ən böyük təmsilçisi Əbdülqahir Cürcanidir.

Quranın möcüzəliyi mövzusu içərisində ərəb dili qrammatikası və bəlağətinə geniş yer verilmişdir. Peyğəmbər zamanında söz sənətinin zirvədə olması, sözü ifadəetmənin ən yüksək şəkildə həyata keçməsi nəzərə alınarsa, o zaman Quranda sözün işlənməsinə diqqət çəkilmiş, buna görə də o, ən üstün bəlağət nümunəsi kimi qəbul olunmuşdur. Bəlağət müəyyən ölçülərin öyrənilməsi ilə başa düşülə və

təkrarlana bilər, lakin bəlağətin son həddi müəyyən edilməmişdir (نصر حامد أبو زيد، (٢٠٠٥)، ص. ١٥٠).

Qurani-Kərimdə çox insanın bilmədiyi keçmişdə baş verən hadisələrin nəqlini onun möcüzə olması kimi dəyərləndirənlər də olmuşdur. Bir çox alim Quranın bütününün bu hadisələri ehtiva etmədiyini qeyd edərək, həmin xüsusiyyətin ecaz ola bilməyəcəyini irəli sürmüşdür (الخطّابي، ص. ٢١).

Son dövrlərdə Quranın iki möcüzəvi yönü haqqında tədqiqatlar özünü göstərmişdir. Elmi məsələlərlə bağlı ayələri ehtiva edən elmi möcüzə, digəri isə müəyyən hesablamalara dayanan rəqəm möcüzəsidir ki, bunlardan heç birisi özünü tam doğrultmamışdır.

Quranın möcüzəliyi haqqında hicri III, miladi IX əsrdə əsərlər yazılmağa başlanmışdır. Bu da onu göstərir ki, Quran ecazkarlığı məsələsi ilk dəfə kəlamçılar, yəni inanc-əqaid fəlsəfəsi ilə məşğul olanlar tərəfindən irəli sürülmüş və geniş tədqiq edilməyə başlanmışdır. Sonralar Quranın möcüzəliyi haqqında həm dilçilər, həm də kəlamçılar tərəfindən yeni nəzəriyyələr tədqiq edilmiş, müdafiə olunmuş yaxud tənqidə məruz qalmışdır. Bu məsələ həm də dilçiliyin və xüsusilə də bəlağətin inkişafına yol açmış, inancla bağlı problemli mövzulara aydınlıq gətirməkdə köməklik göstərmişdir.

Quranın söz cəhətdən üstünlüyü - fəsahət

Ümumiyyətlə, bir fikrin dolğun ifadə edilməsi üçün sözün, yaxud mənanın əhəmiyyətinin ön plana çəkilməsi tarix boyunca mübahisə mövzusu olmuşdur. İslam ənənəsində bu məsələyə yanaşma Qurani-Kərim kontekstində öz əksini tapmışdır. Bu məqamda bəzi suallar özünü göstərir. Sözün, yaxud mənanın üstünlüyü hər sistemdə fərqli başa düşülürmü? Bunun səbəbi nə ola bilər? Hər üç yanaşma tərzinə əsasən "söz" deyərkən nəzərdə tutulan nədir? Kəlamçıların sistemində, fərqli məktəblərin anlayışına əsasən sözün konsept olaraq verdiyi məna necədir?

Bu məqalədə kəlam cəhətindən yanaşma, əsasən, Qazi Əbdülcəbbar kontekstindən araşdırılacaqdır.

Mötəzilə məktəbi əqli metodlara daha çox üstünlük vermiş, Quranın möcüzəliyini və dəyişməzliyini isbat edərək, onu Müqəddəs Kitab kimi qoruma məqsədi daşıyan ilk düşüncə sistemlərindən biridir. Eyni zamanda, mötəzilə Quranın üstünlüyünün sözdə və ya mənada olması mübahisəsini irəli sürmüşdür.

Qazi Əbdülcəbbar sözün sistemli hərf birləşməsindən və kəsik səslərdən ibarət olduğunu bildirir. Sözün faydalı olması onun bir məna ifadə etməsinə bağlıdır. Əks təqdirdə, hərf yığınından başqa bir şey deyildir. Söz səs olaraq qəlbdəki məna deyil, eşitmə xüsusiyyəti olan bir mənadır (القاضِي عبد الجبار/1، (١٩٦٢)، ج. ٧، ص. ٦–٧; ٥٢٨ ، ص. (١٩٩٦)، القاضِي عبد الجبار/2). Əgər söz iki və ya daha çox hərfin biləşməsindən ibarətdirsə, o zaman parçalardan əmələ gəlmişdir ki, bu da onun yaradıldığını, yəni sonradan ortaya çıxdığını göstərir. Nəticədə, Allahın sözü ilə insan sözü arasında fərq qoyulmamalıdır. Hər ikisi də eyni cinsdən olduğu təqdirdə, insan onu anlaya bilər. Əgər Allahın sözü fərqli keyfiyyətdə olarsa, insanın onu başa düşməsi imkansız olar. Söz insanın bildiyi və eşitdiyi bir şey olduğuna görə əzəli ola bilməz. Əks təqdirdə, Allah kəlamının mənasına xilaf olan, bilinməyən fərqli mənalar ortaya çıxar. Allahın sözünü başa düşmək üçün o, insan sözünə bənzəməlidir. Allah sözü insan sözünə bənzədiyi zaman Allahın bir parçası ola bilməz və əzəli olmağı da imkansızdır. Beləcə, insan sözü yaradıldığı kimi Allahın sözü də yaradılmışdır (القاضِي عبد الجبار/1، (١٩٦٢)، ج. ٧، ص. ١٢١).

Qazi Əbdülcəbbar Allah sözünü qaibi-şahidlə müqayisə edərək açıqlamağa çalışmışdır. Yəni Allahın sözünü başa düşmək üçün bilinən insan sözü üzərindən hərəkət etmişdir. Qaib sadəcə şahidlə başa düşüldüyü üçün Allah sözü haqqında şahid olunan dünyada bilinən kəlam mövzusunda məlumat əldə etmədən danışmaq doğru olmaz. Müsəmmadan əldə edilən məna onun adına görə deyil, mahiyyəti ilə bağlıdır. Əgər bir şey haqqında təsəvvür meydana gəlməyibsə, o şeyə ad verilməz (القاضِي عبد الجبار/3، ص. ٣٠٦). Allah kəlamı bəşəri söz kimi müəyyən nizama uyğun səs və hərflərdən meydana gəlirsə, Allah kəlamı da şahidin qaibə nisbətində eyni mahiyyəti daşımaqdadır ki, bu da mənanın nəfsdə var ola bilməyəcəyinə gətirib çıxarır (القاضِي عبد الجبار/1، (١٩٦٢)، ج. ٧، ص.٧١).

Qazi Əbdülcəbbar sözün mahiyyətini öz sistemi içərisində açıqladıqdan sonra, məna baxımından onun daxildə var olmasını qəbul etmədiyini müdafiə edən dəlillərə baş vurmuşdur. Onun anlayışına görə, məna sözə dəlalət etməz, sözün nəfsdə məna kimi qaim olması imkansızdır. Məna bir feil və ya davranış deyildir. Məna, sadəcə, söz vasitəsilə meydana gələr və söz də feil olaraq davranışla ortaya çıxa bilər. Bəşər kəlamı ilə Allah kəlamı eyni mahiyyətdədirsə, o zaman hər ikisi feildir (davranışdır). Qazi Əbdülcəbbara görə, hər hansı bir hərəkətin feil olması ilə sözün feil olması arasında fərq yoxdur. Davranış

failin (davranış sahibinin) feil və qüdrətinə dəlalət etdiyi kimi kəlam da onu danışanın feil və qüdrətini göstərməkdədir. Birinin söz sahibi olduğunu göstərməyin yolu onun danışması və sözləri ifadə etməsidir. Kəlam nəfsdə gizli qalarsa heç bir əhəmiyyəti olmaz. Beləcə, kəlam öz faili tərəfindən feil olaraq yaradılmışdır (القاضِي عبد الجبار/1،(١٩٦٢)، ج. ٧، (١٩٩٦)، ص. ٥٥٢ القاضِي عبد الجبار/2;ص.١٨١).

Qazi Əbdülcəbbarın söz haqqında qeyd etdikləri əsasən, Quranın yaradılmışlığı düşüncəsi üçün təməl təşkil etmişdir. O, sözün mahiyyətini bəşər sözü ölçüsündə götürmüşdür ki, onun feil, yəni sonradan yaradılması məsələsinə gətirib çıxarsın. Mötəzilə məzhəbinin əsas prinsiplərindən biri Allah kəlamının Allahla birlikdə qaim olmadığını, sonradan meydana gəldiyini, həmçinin Quranın da yaradıldığını isbat etməkdir. Quran Allahın möcüzəsi olduğuna görə Allahın bir feili olmalıdır. Hər möcüzə Allah tərəfindən sonradan yaradılır. Quran da eyni mahiyyətdədir. Əgər Quran söz olaraq yaradılmışsa və mənası Allahda əzəli olaraq mövcud olmayıb sonradan meydana gəlmişsə, o zaman onun üstünlüyü də sözündə olmalıdır. Quranın hər surəsi, ayəsi dəyişdirilməyən möcüzə kimi qəbul edilməlidir ki, bu da onun mənasının deyil, sözlərinin ecazkarlığına gətirib çıxarmaqdadır. Bu şəkildə Quranın qorunmuş, dəyişdirilməmiş olaraq qalması həm məntiq, həm də inanc kontekstində qeyd edilmişdir.

O zaman Quranın sözdəki hansı xüsusiyyəti onun möcüzəliyini meydana gətirəcəkdir? Qazi Əbdülcəbbar Quranın əsas möcüzəliyini onun sözündə görərək fəsahət terminini irəli sürmüşdür. “Fəsahət” sözü hərfi olaraq “açıq-aydın olmaq”, “havanın açıq olması”, “saf-xalis olmaq” mənalarını verir (ابن منظور، ج. ٣، ص. ٥٤٤) Dilçilikdə termin kimi ifadələrin qüsurlardan uzaqlaşdırılması mənasına gəlir (İbn Sinan Xəfaci, Sirrül-fəsahə, s. 59). Fəsahət həm cümlədə sözlərin seçilməsi, həm də sözdə hərflərin uyğunluğu cəhətindən qiymətləndirilir. İstər tək sözdə, istərsə də cümlədəki sözlərdə olsun, məna çətinləşdirilməməli, məqsəd asan şəkildə başa düşülməlidir. Cümlələrdə qrammatik səhvlərə də yol verilməməlidir (geniş məlumat üçün baxın: ابن سنان الخفاجي، (١٩٨٢)، ص. 64-110).

Qazi Əbdülcəbbara görə, fəsahət sözün dəqiq, mənanın gözəl olmasından meydana gəlir. Söz gözəl ikən mənanın əskikliyi fəsahət sayılmaz. Fəsahətin bir sözdə ola biləcəyini qəbul edənlər olsa da, Qazi buna etiraz edir və tək sözdə deyil, sözə əlavə edilən digər şeylərlə meydana gələcəyini müdafiə edir. Fəsahətli sayılacaq sözün əlavələri

kəlamın bütün vəsflərinə uyğun olmalıdır. Buna görə də Qazi Əbdülcəbbar sözün fəsahəti üçün üç əsas xüsusiyyəti nəzərə almışdır:

– doğru sözün düzgün şəkildə seçilməsi;
– sözün qrammatik qaydalara uyğun olaraq seçilməsi;
– inkar, təsdiq, sözün əvvələ və ya sonraya əlavə edilməsi və digər xüsusiyyətlərə əsasən onun yerinin düzgün formada seçilməsi (القاضِي عبد الجبار/1، (١٩٦٢)، ج. ١٦، ص. ١٩٧–١٩٩).

Bu məsələni bir nümunə ilə açıqlamaq mümkündür. "Bəqərə" surəsinin 2-ci ayəsində belə buyurulur: ذٰلِكَ الْكِتَابُ لَا رَيْبَ فِيهِ هُدًى لِلْمُتَّقِينَ

Ayədə keçən "*rayb*" (şübhə) sözü yerinə "*şəkk*" sözünün seçilməməsinin səbəbi sözün verdiyi mənanın uyğun düşməməsidir. Şübhəni ifadə edən "şəkk" sözü iki şey arasındakı tərəddüdə işarə edərkən, rayb sözü "zənn", "narahatçılıq", "qəti şübhə" mənalarını ifadə edir. Burada qrammatik olaraq "rayb" sözünün "fih" sözündən əvvəl gəlməsi diqqət çəkəndir. Əgər bunun tərsi olsaydı, cümlədə ifadə edilmək istənilən məna öz əksini tapmazdı. Yəni "Quranda heç bir şübhə yoxdur" ifadəsinə qarşı bir fikrin ola biləcəyi şübhəsi meydana çıxa bilər, məna dəqiqlik ifadə etməzdi (فضل حسن العباس، (٢٠٠٩)، ص. ٥٧–٥٨).

Qazi Əbdülcəbbar fəsahətin təkbaşına sözdə meydana çıxması düşüncəsini qəbul etməmiş, sifət kimi uyğun gələn əlavə sözün (damm) də olmasını şərt qoşmuşdur. O, təhaddinin, yəni Qurandakı meydan oxumanın üstün və fərqli olan sözlə həyata keçdiyini irəli sürmüşdür. Sözə nəzərən mənanın hər hansı bir məziyyəti yoxdur. Eyni mənanı ehtiva edən iki sözdən biri yerinə görə daha fəsahətlidir. Məna fəsahət cəhətdən üstünlük ifadə etmədiyinə görə, sözün üstün məziyyətə sahib olması daha uyğundur. Yuxarıda qeyd edildiyi kimi, fəsahətin müəyyən edilməsi və ondakı məziyyət sözlərin seçilməsi və erabı ilə əlaqəlidir. Ona görə də bir sözün mövqeyi dəyişərkən eyni mənadakı digər sözün daha fəsahətli olması görülə bilər (القاضِي عبد الجبار/1، (١٩٦٢)، ج. ١٦، ص. ١٩٩–٢٠٠).

Qazi Əbdülcəbbar fəsahətin meydana gəlməsi üçün sözün əhəmiyyətini vurğulayarkən mənanı Quranın meydan oxumasının səbəbi kimi göstərmişdir. Allah Quranın təkrarının gətirilməsini kafirlərdən tələb edərkən onun mənası təkraredilməzliyə, üstünlüyə səbəb ola bilməz. Quranın məna ilə meydan oxuması sözün əhəmiyyətinin olmadığını göstərə bilər. Təsir gücü cəhətindən mənanın gözəl olması şərti mümkündür. Quranın nüzul dövrü tədqiq edilərsə, görünəcəkdir ki, fəsahətli danışan şəxslər arasındakı yarışlar məna ilə deyil, fəsahətli sözlə olmuşdur. Onlar söz vasitəsilə istədiklərini dilə gətirərdilər. Fə-

sahətin dərəcəsi isə uyğun sözün uyğun mövqedə istifadə edilməsi ilə qəbul edilirdi (القاضِي عبد الجبار/1، (١٩٦٢)، ج. ١٦، ص.٢٠٠).

Maraqlıdır ki, Qazi Əbdülcəbbarın bu düşüncəsinə əsasən Quranın üstünlüyü məsələsində məna kənarlaşdırıldığı üçün xeyli tənqidə məruz qalmışdır. Bir şeyi nəzərə almaq lazımdır ki, o, fəsahətin və üstünlüyün sadəcə sözdə olduğunu düşünmür, eyni zamanda, müəyyən mənanı uyğun şəkildə ehtiva edən sözlərin tərtibində görür. Yəni sözlərin gözəlliyi, lətafətli səsləniši, qulağa xoş gəlməsi, amma hansısa mənanı ifadə etməməsi fəsahət qəbul edilə bilməz. Verdiyi bəzi nümunələrdə fəsahət səviyyəsini göstərmək üçün sözün mənaya nə qədər uyğun düşdüyünə də diqqət çəkir (القاضِي عبد الجبار/1، (١٩٦٢)، ج. ١٦، ص. ٢٢١، ٣١٤).

Quranın üstünlüyünün onun fəsahətli sözlərində olması düşüncəsi onun mətninin qorunması üçün irəli sürülmüş ola bilər. Göründüyü kimi, Qazi Əbdülcəbbar Quranın ifadə etdiyi mənanı tamamilə rədd etmir. Sadəcə, ecazkarlığı meydana gətirən faktorun fəsahətli söz olduğunu bildirir. Fəsahətli söz deyərkən, sadəcə, söz təkbaşına qəbuledilməzdir. Qazinin termin kimi işlətdiyi damm-sözlərin sifətləri və ya əlavələri onlara üstünlük qazandıran atributlardır. O zaman həmin əlavələr mənaya uyğun olmalıdır. Bu da mənanın əhəmiyyətini meydana çıxarır ki, sonralar bu məsələ geniş şəkildə mübahisələrə səbəb olmuşdur. Bəs Qazi Əbdülcəbbarı Quranın mətnini qorumaqdan başqa hansı məsələ narahat edir ki, o, Quranın ecazkarlığını onun sözlərinin üstünlüyü ilə əlaqələndirmişdir?

Quranın məna yönündən üstünlüyü - nəzm

Fikri dolğun ifadə etmək üçün linqvistik cəhətdən sözdən daha çox mənanın əhəmiyyətinin olmasının tərəfdarları da mövcuddur. Bu düşüncənin ən böyük nümayəndələrindən biri Əbdülqahir Cürcani olmuşdur. Qazi Əbdülcəbbarın düşüncələri mübahisəyə səbəb olarkən, Cürcani tərəfindən geniş təhlil edilmiş və yeni nəzəriyyə irəli sürülmüşdür. O da Quranın üstünlüyünü və ecazkarlığını fəsahətdə görmüşdür. Burada fəsahət anlayışı Qazinin nəzəriyyəsindən fərqlənərək məna ilə yaxından əlaqəlidir. Nəzərə almaq lazımdır ki, Cürcani məsələyə dilçi kimi yanaşmaqla yanaşı, əşari-kəlam məktəbinə mənsub olduğu üçün öz inancının prinsiplərini də müdafiə etməyə çalışmışdır.

Mötəzilə məktəbinin mənsublarının bir çoxuna əsasən sözün səs və hərflərdən ibarət olmasına qarşı əşarilərdə söz zat ilə qaim bir mə-

nadır, yəni sözü ifadə edənin daxilində olan mənadan ibarətdir. Söz məna olduğu üçün yenilənməz, yenilənən şeylərə aidiyyət bildirər (الجويني، (٢٠٠٩)، ص. ٩٧–٩٨). Mənanın əhəmiyyətini vurğulamaq üçün kəlam nəfsi terminini irəli sürən alimlər mötəzilənin söz nəzəriyyəsinə qarşı çıxmışlar. Əşarilərə görə həqiqi söz zehində olan, xaricə vurmayan sözdür ki, bu da mənadır. Xaricə vuran söz isə işarə, simvol və səslərlə zehindəki mənanın təcəssümüdür. Nəticədə, Quran da Allahın sözü kimi Onunla qaim olan bir mənadır, görünən sözlər isə həmin mənanı meydana gətirən ifadələrdir (Yılmaz S. (2011). s. 226).

İstər tək bir söz, istərsə də birdən çox sözdən istifadənin məqsədi ifadə edilmək istənilən mənanın çatdırılmasıdır. Buna bağlı olaraq söz və məna arasındakı əlaqə böyük əhəmiyyət daşıyır. Hər sözün ifadə etdiyi məna fərqli ola bildiyi kimi, sözün işarə etdiyi mənanın xüsusiyyəti də dəyişir (Adsoy Ş. (2017). s. 186). Burada Cürcaninin diqqət çəkdiyi məsələ - məna sözə görəmi dəyişir, yoxsa sözlər mənanın tərtibinə əsasənmi düzülür? Bu sualın cavabı Cürcani sistemində Quranın üstünlüyünün nə dərəcədə sözə yaxud mənaya aid olmasına aydınlıq gətirir.

Ərəblərin Qurana bərabər kitab gətirməkdən aciz qalmaları fakt idi. Onların aciz qaldıqları əsas məsələ nə idi? Quranın mənaları kimi incə, gözəl, ağlın doğru qəbul etdiyi şeyləri ehtiva edən mənalara uyğun kitab gətirməkdənmi aciz qaldılar? Yoxsa acizlikləri Quranın sözləri kimi sözlərə nəzirə yazmaq yönündə idimi? Əgər sözlərə uyğun şəkildə ifadələr tapmaqdan aciz qalmışdılarsa, o zaman bu sözlər hansılar idi? (الجرجاني، (٢٠٠٤)، ص. ٣٩).

Cürcaninin Qurani-Kərim ecazkarlığı haqqında irəli sürdüyü nəzəriyyə bu sualların cavabının möhtəvasını təşkil edir.

Bir sözün gözəllik və üstünlük ölçüsünü bilmək üçün onun hansı mənanı nə şəkildə ifadə etdiyini bilməyə ehtiyac vardır. Söz nə qədər lətafətli, qulağa xoş gələn olsa da, məna ən doğru şəkildə ifadə edilmədiyi, onu ifadə edən açıq-aydın olan, mənaya üstünlük qazandıran xüsusiyyətə malik sözlər seçilmədiyi müddətcə sözün hər hansı bir əhəmiyyəti qalmaz. Bir sözün hər hansı bir cümlədə ifadə etdiyi bir məna olmadıqca, onun üstünlüyü mövzusunda bəhs etmək doğru hesab edilməz. Məsələn, “leys” və “əsəd” sözlərinin hər ikisi də aslan mənasına gəlir və birinin yerinə başqasını işlətmənin hər hansı bir fərqi yoxdur (الجرجاني، (٢٠٠٤)، ص. ٤٣–٤٤). O zaman hərflərin bir-birinə uyumlu olduğu sözlər deyil, mənanı dolğun şəkildə ifadə edən sözün

əhəmiyyəti daha çoxdur. Buna Qurani-Kərimdən bir nümunə gətirmək mümkündür:

وَقِيلَ يَا اَرْضُ ابْلَعِي مَاءَكِ وَيَا سَمَاءُ اَقْلِعِي وَغِيضَ الْمَاءُ وَقُضِيَ الْاَمْرُ وَاسْتَوَتْ عَلَى الْجُودِيِّ وَقِيلَ بُعْدًا لِلْقَوْمِ الظَّالِمِينَ

(Allahdan bir əmr olaraq:) "Ey yer! Suyunu ud! Ey göy! (Yağışını) saxla (açıl)!" – deyildi. Su çəkildi. İş bitdi (Nuha iman gətirməyənlərin məhv edilməsi barədə Allahın əmri yerinə yetdi). Gəmi Cudi dağı üzərində oturdu və "Zalımlar məhv (Allahın mərhəmətindən uzaq) olsun!" – deyildi ("Hud", 11/44).

Bu ayədəki sözlər təkbaşına bir şey ifadə etməz, lakin birlikdə insana məna olaraq çox şeydən bəhs edər. Belə ki, yerə nida edilib əmr verilməsində bir təzim və ucalıq vardır. "Ya" sözündən sonra "eyyu" sözünün işlənməməsi, "suyu" deyil, "öz suyunu" deyilməsi bir qüdrət sahibinin gücünü göstərən ifadədir. Həm də "İş bitdi" deməklə əmrin həmin anda yerinə gəldiyini göstərən işarəni görmək mümkündür. Eyni zamanda, "deyildi" sözü ilə başlayıb, sonra da "deyildi" sözü ilə bitirərək, əmrə itaət mənasında ayənin sahibinin qüdrəti sərgilənmişdir (الجرجاني، (٢٠٠٤)، ص. ٤٥–٤٦). Bu nümunədən görünür ki, Cürcani sözlərin təklikdə heç bir üstünlüyünün olmadığını isbat etməyə çalışaraq mənaya güc verir. O, Qazi Əbdülcəbbar kimi Quranın ecazkarlığını onun fəsahətində görmüşdür, lakin aradakı fərq ondan ibarətdir ki, Cürcani fəsahəti mənanın üstünlüyündə axtarmışdır.

O düşünür ki, hər hansı bir ifadədə üstünlük sözdə ola bilməz. Bir cümlə ifadə edərkən sözlərin düzülüşü zehindəki mənanın düzülüşünü izləyir. Əgər məna uyğun olmasa, sözlər də uyğun şəkildə düzülməz. Bu bir binanın kərpiclərinin yerləşdirilməsindəki səbəb kimidir. Hər hissə öz yerində olmasa, bir bütün əmələ gəlməz (الجرجاني، (٢٠٠٤)، ص. ٥١). Cürcani mənaların tərtibinə diqqət çəkərkən yeni bir nəzm nəzəriyyəsi irəli sürmüşdür. Nəzm anlayışı ilk dəfə Cahiz tərəfindən sözlərin düzülüşü olaraq tədqiq edilmiş, Qazi Əbdülcəbbar onu şeirdəki kimi tərtibat, vəzn mənasında işlətmişdir. Cürcani isə nəzmi təmamilə fərqli bir kontkestdə ələ almış, onu mənaların tərtibatı kimi dəyərləndirərək fəsahəti bunda görmüş və ecazül-Quran nəzəriyyəsini fərqli sahədə tədqiq etmişdir (Şensoy S. (2003). c. 32, s. 465).

Məsələyə fərqli aspektdən baxmaq üçün Qurandan bir ayəni nümunə göstərərək, daha yaxşı başa düşmək olar:

إِنَّ فِي ذَٰلِكَ لَذِكْرَىٰ لِمَنْ كَانَ لَهُ قَلْبٌ أَوْ أَلْقَى السَّمْعَ وَهُوَ شَهِيدٌ

Şübhəsiz ki, bunda qəlb sahibi, yaxud hazır olub qulaq asan kimsə üçün öyüd-nəsihət vardır ("Qaf", 50/37).

Ayədə "qəlb sahibi" ifadəsi düşünmə və araşdırmanın vacib olduğu mövzularda qəlbini yaradılış hikmətinə uyğun olaraq yönləndirən insan mənasını daşıyır. Habelə eşitməyən, görməyən və düşünməyən adam qəlbindən istifadə etmədiyi üçün qəlbi olmayan şəxsin yerinə qoyulur. Bir çox təfsirdə "ağlı olan şəxs" kimi yozumlanıb ki, bu da zahiri mənanı göstərərək mənanın dəyişməsinə gətirib çıxara bilər. Bu ifadənin məqsədi insanları araşdırmağa, düşünməyə təşviq etmək, bunu tərk etməyi qınamaqdır. Necə ki, qəlbi ilə hiss etmədən düşünməyə çalışan insan cansız və qavrama qabiliyyəti olmayan ölü kimi qəbul edilir (الجرجاني، (٢٠٠٤)، ص. ٣٠٤).

Ayənin açıqlamasından başa düşüldüyünə görə, Cürcani üzdə görünən mənanı doğru qəbul etməmişdir. Quranın fəsahəti və üstünlüyü sözün verdiyi ilk mənada sayılmamalıdır. Əks təqdirdə, ondakı dərinlik və üstünlük tam şəkildə dərk edilməz. Linqvistikada istifadə edilən kinayə, məcaz, istiarə, təmsil kimi bəzi dil qaydaları sadəcə sözlə ifadə edilməz və bunlarla daha çox mənaya işarə edilər. Buna görə də yeni bir nəzəriyyəyə ehtiyac duyulmuş və yeni məfhumlar irəli sürülmüşdür.

Cürcani sözün ifadə etdiyi ilk məna ilə danışanın ifadə etmək istədiyi mənanı ayırmış və hər birini fərqli adlandırmışdır. Burada üç əsas məfhuma diqqət çəkilmişdir: söz, məna, qərəz-məqsəd, mənanın mənası (mə`nəl-mə`nə). Söz fikri ifadə etmək üçün qəlibdir. Məna sözün ilk baxışda göstərdiyi anlayışdır ki, hər hansı bir əlavə mənanı vurğulamadan sözün zahirindən başa düşülən ilk şeydir. Əgər söz hansısa mənanı göstərirsə (hərfi məna ola bilər) və həmin məna deyil, fərqli məna nəzərdə tutulursa, bu mənanın mənası termini ilə ifadə edilir. Məsələn, ərəb dilində "هو كثير الرماد" (o, külü çox olan biridir) ifadəsinin ilk başa düşüldüyü məna hərfi mənadır və doğru qəbul edilməz. Əslində, bu ifadə ilə birinin qonaqpərvərliyi və səxavətliliyi nəzərdə tutulur. Burada istiarə mövcud olduğu üçün mənanın mənası termini, yəni əsl nəzərdə tutulan məna özünü göstərmiş olur (الجرجاني، (٢٠٠٤)، ص. ٢٦٣).

Mənanın təsir gücünün sözdən daha çox olmasını göstərmək üçün Cürcani "qərəz" (məqsəd) terminini irəli sürmüşdür. O, iki cümləni nümunə göstərərək arasındakı fərqdən yola çıxıb mənanın əhəmiyyətini izah etməyə çalışmışdır. "Zeyd aslan kimidir" və "Zeyd sanki

bir aslandır", – deyərkən birinci cümlədə qərəz, yəni danışanın isbat və ya inkar etmək istədiyi şey ortaya çıxır. İkinci cümlədə "ziyadə", yəni əlavə edilən "sanki" sözü ifadə edilmək istənilən mənanı dəqiqliklə göstərir (الجرجاني، (٢٠٠٤)، ص. ٢٥٨). Qazi Əbdülcəbbar bunu "damm" termini ilə açıqlamışdır. Buradan başa düşülən odur ki, hər söz mütləq bir "qərəz", yəni məqsəd ehtiva edir. Hər söz düşüncə gücü və ədəbi qabiliyyətə ehtiyac duyulan, mənanın nəzmini olduğu kimi göstərə bilən sözün gücünü artıran ziyadə, yəni əlavə ilə birlikdə işlənə bilməz. Həmin əlavələrə məna dəyişdiyi və fərqli olduğu üçün ehtiyac duyulur. Cürcani bu iki ifadə arasındakı fərqi mənalardakı həmin ziyadə-əlavə ilə açıqlamışdır ki, bunu da fəsahətin əsl mənbəyi kimi görmüşdür (Boyalık T. (2016), s. 225). Məcaz işlədərək sözə sənət kimi yanaşmış, söz sahibini ipək toxuyan, yaxud qızıldan, gümüşdən istifadə edərək zərgərlik edənə bənzətmişdir. Bir parça, yaxud bəzək əşyaşı onun üçün istifadə edilən materiala görə sahibinə aid edilməz, onu işləyən, düzəldən sənətkarın sənətinə əsasən həmin adamın sahibliyi ortaya çıxar. Şeir də belədir, şair oradakı sözlərə görə deyil, beynindəki mənaya əsasən şeirdəki sözləri yerləşdirir ki, bu da mənadakı üstünlüyü ortaya çıxarır (الجرجاني، (٢٠٠٤)، ص. ٣٦٢).

Söz, yaxud mənanın üstünlüyünü daha yaxşı başa düşmək, problemi həll etmək üçün Cürcani yeni terminlər irəli sürmüşdür. Təbii ki, dilçi olduğuna görə məsələni məna göstəricisi olan sözün ifadə tərzi yönündən dəyərləndirmişdir. Həmçinin qrammatik qaydaların hansı mənaları ifadə etməsinə, həmin qaydaların müəyyən edilməsində mənanın əhəmiyyətinə, yəni nəhvin mənasına xüsusi diqqət çəkmişdir. Burada qrammatik qaydalar deyərkən müəyyən standartlar nəzərdə tutulmur, şəxsin öz qabiliyyəti və elmi nəticəsində qoyulan ümumi qaydalardan söhbət gedir. O, sözün səslənişindəki lətafəti, incəliyi, hərflərin uyumu və dəyərindən daha çox mənasının təsir gücünə əhəmiyyət vermişdir.

Fəsahət anlayışını Qazi Əbdülcəbbar kimi sözlərin təsir gücü deyil, mənaların nizamlanması nöqteyi nəzərindən dəyərləndirdiyi üçün onun nəzəriyyəsi mənaların nəzmi olaraq bilinmişdir. Bir sözün bənzərini gətirən şəxs, həmin sözdəki üstünlüyü təkrarlamaq üçün hansı cəhəti nəzərə alacaqdır? Eyni mənanı verib fəqli sinonim sözlərdən istifadə edərək fəsahət və ya bəlağəti ortaya çıxarmaq mümkündürmü? Bu halda bir insan ifadə etdiyi mənada sözləri dəyişərək cümlə qurursa, yenə özü özünə meydan oxumuş sayılmazmı? O zaman Qurani-Kə-

rimin təkrarını gətirmək üçün meydan oxunarkən nəzərdə tutulan xüsusiyyət onun fəsahətidirsə, həmin fəsahət sözlərin keyfiyyətində deyil, mənada, yəni sözlərin qarşılığı olaraq təyin olunan məzmuna aiddir. Bir ifadəni hissələrə ayırarkən onun sadəcə söz-ləfz və mənadan ibarət olduğu görünər. İfadənin fəsahətli olmağı üçün seçilən sözlər onun mənasının kökündə olan əlavə mənalardan, onların xüsusiyyətlərindən irəli gəlir (الجرجاني، (٢٠٠٤)، ص. ٢٥٩).

Qurani-Kərimin bir ayəsini nümunə göstərərək mənanın fəsahətinin necə meydana çıxdığını görmək mümkündür:

وَلَكُمْ فِي الْقِصَاصِ حَيَاةٌ يَا أُولِي الْأَلْبَابِ لَعَلَّكُمْ تَتَّقُونَ

"*Ey ağıl sahibləri, bu qisas (qisas hökmü) sizin üçün həyat deməkdir. Ola bilsin ki, (bununla) pis əməldən (qətldən) çəkinəsiniz*" ("Bəqərə", 2/179).

Ayədə "həyat" sözünün müəyyənlik formasında deyil, qeyri-müəyyənlikdə qeyd edilməsinin səbəbi yaşamağın nəzərdə tutulması deyil. Əgər bir nəfər başqa bir adamı günahsız yerə öldürərsə, özünün də öldürüləcəyini bildiyi üçün başqalarını öldürməkdən çəkinər və beləcə başqaları da öldürülməkdən xilas olar. Öldürülməsi planlanmış adamın həyatı qisas cəzasına görə xilas olar və davam edər, yəni həyatını qisas cəzasına borclu olar. Nəzərdə tutulan məna ömrün bəzi anlarına işarə edincə burada "həyat" sözü qeyri-müəyyənlikdə işlədilməlidir ki, həmin mənanı ehtiva etsin. Əgər müəyyənlikdə işlənərsə, həyatın başdan sona qisasa bağlı ola biləcəyi, qisasın bütün zamanlarda həyatın səbəbi ola biləcəyi mənasını vermiş olar (الجرجاني، (٢٠٠٤)، ص. ٢٨٩). Cürcani burada mənanın üsünlüyünü göstərərkən haqlı ola bilər. Həmin məna "kim birini qəsdən günahsız yerə öldürərsə, onun cəzası qisasdır və bu qisas həmin insanı qətldən çəkindirib bir insanın həyatını xilas edə bilər" cümləsindəki məna ilə eyni mahiyyəti daşıyır. Nəticədə, "Qisasda həyat var" cümləsinin üstünlüyü ilə sonrakı cümlənin quruluşunun eyni olması mümkün deyil. Bu da onu göstərir ki, mənanı ifadə edən sözün qüdrəti və seçilməsidir. Cürcani "mə`nəl-mə`na" (mənanın mənası) termini ilə sözün mənadakı nəzminə diqqət çəkərək mahiyyət etibarilə mənanın üstünlüyünü isbat etməyə çalışmışdır. O, sözü hərflərdən və səslərdən ibarət bir şey qəbul etmədiyi, əksinə, sözü söyləyənin nəzdində qaim olan bir anlayış kimi gördüyü üçün öz düşüncə sistemi içərisində təmamilə haqlı bir nəzəriyyə irəli sürmüş ola bilər. Sözü məna ilə bir tutunca istər istəməz sözün deyil, mənanın nəzminə üstünlük verilməli, söz mənaya tabe olmalı və beləcə sözü də

mənanın nəzminə uyğun şəkildə yerləşdirmək daha doğru qəbul edilməlidir.

Cürcaniyə görə, Qurani-Kərimin möcüzəliyinin ölçüsü, yəni təkraredilməzliyinin səbəbi nə onun hərflərində, nə erabında, nə tək-tək sözlərində, nə qafiyəli cümlələrindədir, sözlərin nizamında (nəzm nəzəriyyəsi) və düzülüşündə hesab edilə bilər. Sözlərin nizamı isə onlar arasında nəhv mənalarının, qrammatik qaydaların ehtiva etdiyi mənalar vasitəsilə ortaya çıxır. Ayrı-ayrı sözlərin bir-birinə bağlı şəkildə meydana çıxıb bir məna ifadə etməsi və nəhv mənalarının qaydalarına uyğunlaşması sadəcə zehnimizdəki mənalar vasitəsilə mümkün olur, bunun tərsini düşünmək imkansızdır (الجرجاني، (٢٠٠٤)، ٣٩١–٣٩٢).

Cürcani sözün və mənanın üstünlüyündə yeni terminlər olmasını labüd hesab edir ki, cümlənin əsas məqsədi başa düşülsün. Bunlar mənanın üstünlüyünü dəstəkləyən anlayışlardır. O, mənanın dəyişə biləcəyini, mənaya əlavələr edilə biləcəyini, nəzmin mənada baş verdiyini və beləcə Quranın mənaca üstünlüyünü müdafiə etmişdir. Bu həm də onun əşairiliyindən, yəni Quranın yaradıldığını qəti şəkildə inkar edib Allah sözünü əzəli qəbul etməsindən irəli gələ bilər. Əgər sözün, yəni Quranın üstünlüyü və ecazkarlığı mənada olarsa, Allahın nəzdində həmin məna əzəli olaraq var olmuş, sonradan meydana çıxmamışdır. Məna yarana bilməz, sonradan meydana çıxmaz və onu ifadə edən sözün sahibi ilə qaimdir ki, bu da Quranın Allahın sözü olaraq əzəli var olduğunun göstəricisidir.

Söz və məna konsepsiyasının müqayisəli təhlili

Qazi Əbdülcəbbar və Əbdülqahir Cürcani Quranın ecazkarlığı haqqında danışarkən iki əsas nəzəriyyə üzərində fikir mübadiləsi aparmışlar: fəsahət və nəzm. Bəzən onların eyni məfhuma diqqət çəkmələri səbəbilə hər ikisinin eyni nəzəriyyəni qəbul edib fərqli şəkildə irəli sürdüklərini düşünənlər də olmuşdur.

Qurani-Kərimin söz, yaxud məna cəhətdən üstünlüyü mövzusunda hər iki alimin düşüncələri bir-birindən kəskin şəkildə fərqlənir.

Qazi Əbdülcəbbar nəzm deyərkən, əsasən, şeir vəzni, forması, sözlərin yerləşdirilməsi ilə bağlı xüsusi qaydalar nəzərdə tutur. Ona görə də ecazın yaxud fəsahətin həyata keçməsində nəzmə ehtiyac duyulmadığını bildirib (القاضِي عبد الجبار/1،(١٩٦٢)، ج. ١٦، ص. ١٩٧–١٩٨). O, fəsahət deyərkən sözlərin mənanı ən gözəl şəkildə ifadəsi nəzərdə tutmuşdur. Təbii ki, burada mənanın rolu inkaredilməzdir. Bir sözün gözəlliyi və üstünlüyündə məziyyət mənada deyil, sözdədir. Burada

mənanın məziyyəti sözlərin üstünlüyünə təsir etməz, əksinə mənanın ən yaxşı ifadəsi sözlə ortaya çıxır.

Cürcaniyə görə isə fəsahət təkcə sözdə meydana gəlməz, əksinə, sözün məziyyəti nəhv mənalarında və hökmlərindədir ki, bu da damm, yaxud ziyadə (əlavə edilmə) deyilən xüsusi üsulla ortaya çıxar. Sözün təkbaşına mənası deyil, istifadə edildiyi yerdəki mənası fəsahəti göstərər. Burada Qazi Əbdülcəbbarla Cürcani yaxın fikirləri ifadə etmiş ola bilər. Hər iki düşüncəyə əsasən fəsahət, yəni sözün üstünlüyü nə təkcə mənada, nə də təkcə sözdə meydana çıxar. Mütləq özü ilə yanaşı başqa bir sözə, yaxud mənaya ehtiyac duyar. Fərqləndikləri nöqtə Qazinin sözün üstünlüyünə, Cürcaninin isə mənanın üstünlüyünə yer verməsidir. Cürcaniyə əsasən fəsahət sözün nəzmdəki, yəni mənaların zehindəki mövqeyinə görə qazandığı sifətidir. İnsan hansısa qabiliyyəti nəticəsində sözə özündən bir şey əlavə etmədiyinə görə o zaman fəsahətin mənada ortaya çıxması labüddür.

Burada bir sual hər iki düşüncəyə açıqlıq gətirmək üçün uyğun gələr: bir mənanı vermək üçün müxtəlif sözlərlə də cümlə qurular. Uyğun və gözəl sözləri seçmək daha üstün olmazmi? O zaman belə bir sualla cavab vermək mümkündür: Həmin söz üstün mənanı bildirməsə o sözün nə məziyyəti ola bilər? Söz-məna mübahisəsində əsas hədəf sözün, yaxud mənanın artıb azalması, yəni üstünlük qazanabilmə qabiliyyətidir. Qazi Əbdülcəbbara əsasən məna artmaz, azalmaz onu yumşaldan və ya şiddətləndirən sözlərdir. Cürcani ifadəni gözəlləşdirən şeyin məna olacağını, məna üstünlüyü varsa onun sözə sirayət edəcəyini, mənaya dəlalət edən, onun göstəricisi olan şeyin söz olduğunu bildirmişdir.

Mübahisəyə daha çox açıqlıq gətirmək üçün qeyd etmək yerinə düşərdi ki, Qazi Əbdülcəbbar sözü insan və Tanrı sözü olaraq ayırmamışdır. Tanrı sözünün mahiyyətini başa düşmək üçün şahidlə qeybi (görünənlə görünməyəni) qarşılaşdıraraq insan sözü üstündən düşüncəsini qurmuşdur. Cürcani Tanrı sözü (kəlam nəfsi) ilə insan sözü (kəlam lafzi) arasında fərq qoymuş, hər ikisini ayrı dəyərləndirmişdir (Boyalık T. (2012). s. 78). Əgər Tanrı sözü insan sözündən ayrı bir xüsusiyyətə malikdirsə, o zaman sözün gücünün mənada olması labüddür. Quran məna olaraq Allahda mövcud olmuşdur və sonradan insanların başa düşdüyü sözə çevrilmişdir. Qazi Əbdülcəbbara görə Tanrı özünə aid şəkildə bir məna ilə deyil, keyfiyyətini insanın bildiyi söz cinsi ilə onlara xitab edər. İnsana göndərilən Allahın kitabı Quranla insan sözü arasında keyfiyyət fərqi olmadığından və həmin sözün sonra-

dan meydana gəlib yaradıldığı qəbul edilərsə o zaman Allah mükəmməl şəkildə mənanı deyil, sözü yaratmışdır. Buna görə də bu düşüncəyə əsasən üstünlük sözdə olmalıdır.

Söz və məna məsələsi məntiq elminin mövzusu olaraq bilinir (Görgün T. (2003) c. 27, s. 46). Fəsahətin məna ilə açıqlanması zehni sözün varlığına işarə edəcəyinə görə mötəzilə fəsahəti əsasən sözə aid görmüşdür. Məntiqçilərin düşüncələrindən də dəstək almış olmaları imkan daxilindədir. Eyni zamanda, məzhəbin əsas nəzəriyyələrindən biri olan "xəlqül-Quran" – Quranın yaradılması məsələsi kontekstində dəyərləndirildiyindən, Quranın üstünlüyünün sözdə olması daha uyğun görünür. Ümumiyyətlə, üstünlüyün sözdə və ya mənada olmasının mübahisə mövzusuna çevrilməsinin etiqadi məsələlərə əsaslanması mümkündür. Burada məqsəd xəlqül-Quran nəzəriyyəsini dəstəkləmək və ya inkar etmək, Allahın sözünün qədimliyini isbat etmək və ya həmin düşüncəni rədd etmək ola bilər (Şensoy S (2003), c. 27, s. 43-44). Əgər Quranın üstünlüyü mənada olarsa, o zaman Allah nəzdində O var olduğu müddətdə, yəni əzəli olaraq mövcud olmuşdur. Mötəzilə düşüncəsində isə bu, qəbuledilməzdir. Ona görə də Quranın üstünlüyünün mənada olması mövzusunu rədd edərək, mənanı ehtiva edəcək sözlərin üstünlük daşıdığını, beləcə sözlərin sonradan yaradılışını müdafiə etmişlər.

Məsələyə ixtisas yönündən də yanaşmaq aydınlıq gətirə bilər. Etiqadi yanaşma tərzinin xarakterik xüsusiyyəti məzhəbin əsaslarına sadiqliyi və hər yorumlanan məsələnin bu anlayışla açıqlanması zəruri hesab edilir. Məsələn, mötəziləyə görə söz hərf və səsdən ibarət olub danışanın hərəkəti, əşarilərə görə isə söz danışanın ifadə etmək istədiyi mənanın dəlalət etdiyi və şəxslə qaim olan bir şeydir. Qeyd etmək lazımdır ki, sonrakı dövrlərdə kəlamçılar sözün üstünlüyünün üzərində daha çox durmuş, hətta əşari kəlam məktəbinin mənsubları hər iki düşüncəni sintez etməyə çalışmışlar, yəni Quranın ecazkarlığını həm onun ləfzində, həm də mənasında görmüşlər. Bunların ən bariz nümunələri Baqillani və Fəxrəddin Razinin düşüncələrində özünü büruzə vermişdir (Akif Özdoğan A., (2018) s. 195, 204). Bu da onu göstərir ki, Quranın üstünlüyünün sözdə olmasını qəbul edərkən eyni zamanda mənada olmasını da qəbul etmək məcburiyyətində qalmış ola bilərlər. Əks təqdirdə, mötəzilə ilə eyni nəticəyə gələrək sözün yaradılması məsələsinə doğru yönəlməyə yol açılmış olar.

Dilçilik cəhətdən yanaşma tərzi bir qədər daha müstəqil qəbul edilə bilər, lakin istər-istəməz dilçilərin mənsub olduğu məzhəb özü-

nü nəzəriyyədə büruzə vermişdir. Cürcani məsələyə bir dilçi kimi yanaşsa da əşariliyin əsaslarından da kənar qalmamışdır. Bəzən Quranın üstünlüyünün mənada olmasını daha çox qabartmış və mötəziləyə qarşı sərt tənqidlər irəli sürmüşdür. Dilçilikdəki söz məna mübahisəsi Quranın ifadə etmək istədiyi məna kontekstində ola bilər ki, bununla da üstünlüyə daha çox işarə edilər.

Quranın mənasının üstünlüyü qəbul edilərsə, o zaman orada deyilən fikirlərin ümumi mənasının möcüzəvi xarakterə malik olması, sözlərinin çox da əhəmiyyət daşımaması məsələsi də meydana çıxmış ola bilər. Əslində, söz-məna kontekstində bu məsələyə çox da yer verilməyib. Onsuz da hər kəs Quranın dəyişməzliyini, möcüzə olduğunu öz zamanında qəbul etmişdi. Qiraət fərqləri, sözlərin bəzən yerlərinin dəyişdirilərək oxunması, mənaya sadiq qalınması məsələləri bu fikrə gətirib çıxarır ki, Quranın əsasən mənası, ümumi fikri əhəmiyyət kəsb edir və sözlərinin fərqli olması çox da mühüm deyildir. Bəlkə də bu məsələlərin üzərində çox durulduğu üçün əsasən sözlərin möcüzəvi xarakter daşıyaraq üstün tutulması mötəzilə tərəfindən daha çox müdafiə edilmişdir. Eyni zamanda, sonrakı dövrlərdə əhli-sünnə alimləri də sözlərin üstünlüyü məsələsinə biganə qalmamış, onun da əhəmiyyətini vurğulamışlar. Nəticədə, bu araşdırmaların əsas məqsədi Quranın möcüzəliyini isbat etmək və buradan yola çıxaraq peyğəmbərlik sisteminin həqiqətini ortaya qomaq olmuşdur.

Nəticə

Söz, yaxud məna üstünlüyü məsələsində əsas məqsəd hansının daha çox artıb azala bilməsi düşüncəsi ön planda durmuşdur. Sözmü daha çox effektiv və təsir edici olur, yoxsa mənamı gedərək öz təsir gücünü artırır? Qazi Əbdülcəbbar mənanın sabit olduğunu, onu tam ifadə edə bilmək üçün sözlərin fərqli şəkildə seildiyini düşünərək ecazkarlığın sözdə lduğunu qəbul etmişdir. Burada kəlamı kimi düşünməsi labüddür. Əgər məna Allah nəzdində sabitdirsə, o zaman mənanın dəyişməsi, ya da üstünlük qazanması doğru olmaz. Allahın ifadə etdiyi məna tək bir anlayışdır. Onun artımı və ya əlavəsi ola bilməz. Sadəcə, mənanı güclü, təsirli və olduğu kimi ifadə etmək üçün sözlərə edilən əlavələr vasitəsilə sözlərin gücünün artırılması mümkündür ki, bu da insanın maşa düşəcəyi şəkildə Allah tərəfindən ən üst səviyyədə qeyd edilib göndərilmişdir. Allahin nəzdindəki mənada möcüzəlik olarsa, insan onu başa düşməz. Buna görə də mütləq olaraq o möcüzəlik özünü sözdə göstərməlidir. Qazi Əbdülcəbbar şahiddən yola çıxıb,

qaibi başa düşmək prinsipinə əsaslanaraq bu nəticəyə gəlmişdir. Eyni zamanda onun əqaid kontekstində öz sisteminə tərs gəldiyi üçün sözün yaradılmadığı məsələsini də göz önündə tutaraq nəzəriyyə irəli sürməsi mümkündür. Əgər üstünlük mənada olarsa, Allah sözü yaratmamış olar və söz məna etibarilə Allahın nəzdində əzəli olar. Quranın üstünlüyü də şəkil və səsdən ibarət sözdə olmalıdır ki, sonradan yaradılması nəzəriyyəsi dəstəklənsin. Əks təqdirdə, xəlqül-Quran nəzəriyyəsində boşluq yaranmış olar.

Cürcani isə sözlərin məqamına diqqət çəkmiş, bunun çox vaxt səhv başa düşüldüyünü vurğulamışdır. O, hesab edir ki, sözlərin meydana gəlməsi əvvəlcə zehində mənaların sıralanışı ilə başlayar, daha sonra sözlər mənaya uyğun şəkildə tərtib edilər. Mənaların düzülüşü isə məcazən "sözlərin tərtibi" olaraq dərk edilmiş və "tərtib" sözü aradan qaldırılınca bütün anlayış söz kontekstinə uyğunlaşdırılmışdır. Burada Cürcani sözü ifadə edən deyil, dinləyən yönündən dəyərləndirmişdir. Sözü dinləyən isə ilk dəfə sözlərlə qarşılaşdığı üçün əvvəlcə məna deyil, sözün əhəmiyyəti vurğulanmışdır.

Qazi Əbdülcəbbarla aradakı fərq burada ortaya çıxır. Cürcani zehindıki mənaya əhəmiyyət verərkən Qazi Əbdülcəbbar məsələnin görünən üzü olan sözün əhəmiyyətinə diqqət çəkmiş, yəni məsələyə realistik nöqteyi nəzərdən yanaşmışdır. Bu isə xəlqül-Quran nəzəriyyəsi ilə təməldən bağlıdır. Cürcani mənanın üstünlüyünü açıqlayarkən "qərəz", "mə'nəl-məna" kimi yeni terminlər irəli sürmüş, mənaya yeni anlayışlar qatmışdır. Sözün məziyyətinin görünüşdə olduğunu qəbul edib əsl üstünlüyü mənaya aid etmişdir. Qazi Əbdülcəbbar sistemində isə bu məfhumlara yer verilməmişdir. O, sözü zahirdəki səslərdən və hərflərin bir yerə toplanmasından ibarət hesab etmişdir. Buna görə də mənanın üstünlüyünün onun nəzəriyyəsində özünü doğrultması çətindir.

Hər iki nəzəriyyə öz düşüncə sistemi çərçivəsində haqlı görünə bilər. Qazi Əbdülcəbbar mötəzilə məktəbi yönündən düşünsə də, mənanın məziyyətini yox saymamışdır. Cürcani də əsasən dilçilik yönündən məsələyə uyğun açıqlamalar gətirmişdir. Nəticədə, sözlərin düzülüşü məna uyğunluğu olmadan bir şey ifadə etmədiyi kimi, mənanın ifadəsi də sözlərin uyğun məqamda işlədilməsindən asılıdır. Quranın üstünlüyünü başa düşmək üçün isə hər ikisini bir ortamda dəyərləndirmək labüddür.

ƏDƏBİYYAT

Türk dilində:

1. Adsoy Ş. (2017). Problemi ele almada lafız-anlam ilişkisinin önemi.
2. Beytulhikme an international journal of philosphy, 7 (2), (185-202).
3. Boyalık T. (2012). Kadı Abdülcebbarın "Sözün hakikati teorisi" ve Abdülkahir Cürcaninin "Sözdizimi Teorisi" bağlamında bir eleştiri. İslam Araştırmaları Dergisi 28. İstanbul, (s. 61-84).
4. Boyalık T. (2016). Dil, söz ve fesahat. Abdülkahir el-Cürcaninin sözdizimi nazariyesi, İstanbul: Klasik yayınları.
5. Görgün T. (2003). Lafız. TDV İslam Ansiklopedisi. c. 27, (s. 46-47).
6. Özdoğan A. (2018). Arap dili ve belağatında lafız ve anlam. İstanbul: Ensar yayınevi
7. Özdoğan M.A. (2003). İcazül-Kuran meselesinin belağat ilminin gelişmesine etkisi, Dinbilimleri Akademik Araştırma Dergisi III Sayı: 2, (s. 113-127).
8. Şensoy S. (2003). Lafız. TDV İslam Ansiklopedisi. c. 27, (s. 42-44).
9. Şensoy S. (2003). Nazmü'l-Kuran. TDV İslam Ansiklopedisi. c. 32, (s. 464-466).
10. Yavuz. Y.Ş. (2000). İ`cazül-Kuran. TDV Ansiklopedisi. c. 21, (s. 403-406).
11. Yılmaz S. (2011). Cüveyniye göre kelamullah ve kelam nefsi. Kelam Araştırmaları. 9:4. (s. 215-232).

Ərəb dilində:

1. ابن سنان الخفاجي،(١٩٨٢)، أبو محمد عبد الله بن محمد، سر الفصاحة، بيروت: دار الكتب العلمية
2. ابن منظور، أبو الفضل محمد بن مكرم بن علي، لسان العرب، بيروت: دار صادر
3. الجاحظ، عمرو بن بحر، (١٩٦٨) ، البيان والتبيين، بييروت: دار الفكر، ج ١
4. الجرجاني، عبد القاهر بن عبد الرحمان، (٢٠٠٤)، دلائل الاعجاز (تحقيق: محمود محمد شاكر)، القاهرة: مكتبة الخانجي
5. الجويني، عبد الملك بن عبد الله، (٢٠٠٩) الأرشاد إلى قواطع الأدلة فى أصول الاعتقاد الجويني (احمد عبد الرحمان سايح، توفيق علي وهبة) القاهرة: مكتبة الثقافية الدينية

6. الخطّابي، أبو سليمان حمد بن محمد، ، بيان إعجاز القرآن (عند ثلاث رسائل في اعجاز القران) القاهرة: دار المعارف
7. فضل حسن العباس، (٢٠٠٩)، اعجاز القران الكريم، عمان: دار النفائس
8. القاضِي عبد الجبار (1)،(١٩٦٢)، المغني في أبواب التوحيد والعدل (تحقيق: ابراهيم مدكور، طه حسين)، القاهرة: مؤسسة المصرية العامة
9. القاضِي عبد الجبار (2)،(١٩٩٦)، شرح الاصول الخمسة (تحقيق: عبد الكريم عثمان)، القاهرة: مكتبة وهبة
10. القاضِي عبد الجبار(3)، المحيط بالتكليف (تحقيق: عمر السيد عزمي)، القاهرة: الشركة المصرية
11. نصر حامد أبو زيد، (٢٠٠٥) ، مفهوم النص - دراسة في علوم القرآن، بيروت: مركز الثقافي العرب

д-р филос. по филос. Фаиг Ахмедзаде

ВОПРОС ПРЕВОСХОДСТВА СВЯЩЕННОГО КОРАНА С ТОЧКИ ЗРЕНИЯ ФОРМЫ ИЛИ СОДЕРЖАНИЯ (В КОНТЕКСТЕ КАДИ АБД АЛЬ-ДЖАББАРА И АБД АЛЬ-КАХИРА АЛЬ-ДЖУРДЖАНИ)

РЕЗЮМЕ

С началом распространения ислама, последователи других религий приступили к его разностороннему изучению. Мусульмане начали интересоваться определенными новыми науками и выдвигать новые идеи, ощутив необходимость найти ответы на вопросы, адресованные им относительно их веры. Одной из таких идей считается вопрос о чудесности Корана. Несмотря на то, что мусульманские ученые воспринимали Коран как чудо, они спорили о том, какая из его сторон несет в себе чудесные свойства. В заключение различных мнений они сосредоточились на чудесности его формы или содержания. Здесь возникли два основных течения. Последователи одного из них считали, что чудесность Корана, рассматриваемого в качестве доказательства пророчества, заключалась в его форме. Одним из них был Кади Абд аль-Джаббар, ученый школы мутазилитов. Последователи второго течения полагали, что превосходство Корана было связано с его содержанием. Одним из самых известных ученых среди тех, кто отдавал предпочтение содержанию и отстаивал данную позицию, считается Абд аль-Кахир аль-Джурджани. В

статье содержатся размышления обоих ученых о превосходстве формы Священного Корана над его содержанием, и наоборот, а также исследуются причины и этические последствия данной полемики. Оба мнения подвергнуты общему анализу. В то же время кратко были приведены примеры, показывающие превосходство формы или содержания, уделено внимание обоснованиям обоих мыслителей. Особое значение имеет то, что выражает форма, как главный аспект, из которого возникает спор. В то же время на основании мыслительных систем обоих ученых был проведен обмен мнениями об усилении влияния Корана благодаря его форме или содержанию.

Ключевые слова: *Коран, красноречие, чудесность, стихосложение, Кади Абд аль-Джаббар, Абд аль-Кахир аль-Джурджани, форма, содержание.*

PhD Faig Ahmadzada

THE ISSUE OF THE QURAN'S ADVANTAGE REGARDING WORD OR MEANING (IN THE CONTEXT OF GHAZI ABDULJABBAR AND ABDULGAHIR JURJANI)

ABSTRACT

When Islam began to spread over a wide area, representatives of other religions studied it in different ways. Feeling the need to find answers to questions about their beliefs directed to Muslims, they began to take an interest in some new sciences and put forward new thoughts. The issue of the miracle of the Qur'an is also considered one of these thoughts. Although Islamic scholars recognize the Qur'an as a miracle, they debated which aspect of it had miraculous properties. As a result of different opinions, they mainly focused on the miracle of its text and style of expression. On the basis of this, two main currents emerged. Representatives of the first current recognized that the miracle of the Qur'an, which was recognized as proof of prophecy, was in its words, and one of the greatest representatives of this point of view was the mu'tazilah scholar Ghazi Abdul Jabbar. According to another version, the Qur'an retained its superiority in sense and was in the lead. Abdulgahir Jurjani is considered one of the most famous

scholars who tried to give priority to meaning. The article sets aside the opinions of both scholars about the superiority of the meaning of words in the Qur'an, studies the causes and consequences of this dispute and analyzes both views as a whole. At the same time, examples of the superiority of words or meanings are briefly given and attention is drawn to the foundations on which both thinkers rely. As a subject of controversy, the meaning of this word is of particular importance. At the same time, on the basis of the system of thinking of both scholars, a wide exchange of views took place on whether it is possible to enhance the influence of the Quran in sense or in words.

Keywords: *Holy Qur'an, eloquence, miracle, poetry, Ghazi Abduljabbar, Abdulgahir Jurjani, word, meaning*

TARİXDƏN GÜNÜMÜZƏDƏK ƏRƏB QRAMMATİKA SİSTEMİNİN İSLAHATI MƏSƏLƏSİ HAQQINDA İCMAL

f.f.d. Qafqaz Abdurahmanov,
Azərbaycan İlahiyyat İnstitutunun müəllimi
qafqazabdurrahmanov@ait.edu.az

XÜLASƏ

Məlum olduğu kimi, VII əsrin əvvəllərindən etibarən sürətlə yayılan ərəb-İslam fəthləri nəticəsində Ərəb xilafətinin sərhədləri genişlənmiş, ərəblər İslamı yeni qəbul etmiş qeyri-ərəblərlə bərabər yaşamağa başlamışlar. Xilafət dövlətinin rəsmi dili olaraq qəbul edilmiş ərəb dili qeyri-ərəblər tərəfindən istifadə edilincə, dildə qrammatik xətalar (ləhn) artmış, həmin vaxta qədər saflığını qoruyub-saxlamış ərəb dili öz orijinallığını itirmək təhlükəsi ilə üzləşmişdir. Sözügedən qrammatik xətaların Qurani-Kərim qiraətlərində də müşahidə edilməsi müsəlman dilçiləri və qrammatikləri ərəb dilinin qayda-qanunlarını toplayıb sistemləşdirməyə sövq etmişdir. Nəticə olaraq, hicri I-III əsrlərdə ərəb qrammatikası sahəsində sanballı ədəbiyyat təşəkkül etmişdir.

Quranın və hədislərin dili olması ilə yanaşı, bəzi siyasi-ictimai səbəblərdən ötrü ərəb dilinin öyrənilməsi qeyri-ərəblər üçün zərurətə çevrilmişdir. Mövcud qrammatika kitablarının həcmli olması və son dərəcə qəliz bir üslubla yazılması ərəb dilinin tədrisatını çətinləşdirirdi. Bu səbəbdən, hələ erkən dövrlərdən etibarən ərəb dilinin tədrisatını asanlaşdırmaq məqsədilə bəzi təşəbbüslər göstərilmişdir. Bu sahədə ilk addımlar Xələf əl-Əhmər və əl-Cahiz tərəfindən atılmış, daha sonra İbn Həzm və İbn Mazanın ərəb qrammatikasına yönəltdiyi tənqidlərlə zirvəyə yüksəlmişdir.

Ərəb dilinin asanlaşdırılması məsələsi XIX əsrdə yenidən ərəb elmi dairələrinin nəzər-diqqətini cəlb etmiş, mövzu ilə əlaqədar "ihyaün-nəhv", "ıslahün-nəhv", "təcdidün-nəhv", "təysirün-nəhv" və s. adlar altında bir çox tədqiqat və layihələr hazırlanmışdır. Bu məqalədə Orta əsr dilçiləri ilə yanaşı, müasir ərəb dilçilərinin və filoloqlarının islahat təşəbbüsləri və həmin təşəbbüslərin xarakterik özəllikləri haqqında məlumat verilmişdir. Məqalədə Xələf əl-Əhmərin "*Müqəddimə fin-nəhv",* əl-Cahizin "*əl-Həyavan",* İbn Həzmin "*ət-Təqrib li həddil-mən-*

tiq vəl-mədxəl ileyh", İbn Mazanın *"ər-Rədd alən-nühat",* İbn Rüşdün "*əz-Zəruri fi sınaatin-nəhv"* kimi klassik mənbələrlə yanaşı, mövzu ilə əlaqədar qələmə alınmış müasir mənbələrə də müraciət edilmişdir. Bu səbəbdən hesab edirik ki, məqaləmiz mövzu ilə əlaqədar daha təfərrüatlı tədqiqat aparmaq istəyənlər üçün yol göstərəcəkdir.

Açar sözlər: *islahat, dilçi, filoloq, qrammatika, ərəb dili.*

Giriş

İslam cəmiyyətində ilk dövrlərdən başlayaraq, qrammatika elminin təşəkkül etməsi bəzi praktik səbəblərlə əlaqədar olmuşdur. Sözügedən praktik səbəblərdən birincisi, Qurani-Kərimin təhrif edilməsinə yol verməmək üçün edilən təşəbbüslərdən ibarət olmuşdur (Məmmədəliyev, 1985, 7).

Məlum olduğu kimi, islamaqədərki dövrdə, xüsusilə Mərkəzi Ərəbistan sakinlərinin digər millətlərlə çox sıx münasibətləri olmamış və buna görə də ərəb dili öz saflığını qoruyub-saxlaya bilmişdir. Fəthlərin artması ilə birlikdə ərəb dili nəhəng ərəb xilafətinin rəsmi dilinə çevrilmiş və İslamı yeni qəbul etmiş qeyri-ərəblər (əcəm) də dövlətin rəsmi dili olan ərəbcə danışmağa və yazmağa başlamışlar (Əhməd Əmin 1998, II/248, 251-253; Abdurahmanov 2019, 199-200). Onsuz da erab xüsusiyyətinə malik olduğu üçün dünyanın ən çətin dillərindən biri hesab edilən ərəb dili qeyri-ərəblər tərəfindən istifadə edilməyə başlanınca, qrammatik xətalar daha da artmış, ərəb dili yavaş-yavaş öz orijinallığını itirməyə başlamışdır. Ərəb dilçilik elmində "ləhn"[1] termini ilə ifadə edilən bu qrammatik xətaların, artıq Qurani-Kərim qiraətlərində də müşahidə edilməsi müsəlman qrammatikləri (Quranın düzgün qiraəti məqsədilə) ərəb dilinin qayda-qanunlarını toplayıb sistemləşdirməyə sövq etmişdir (Əhməd Əmin 1998, II/252). İkincisi, həmin dövrün sosial və siyasi amilləridir. Fəthlər nəticəsində İslamı qəbul etmiş qeyri-ərəblər Qurani-Kərimi düzgün oxuyub başa düşmək, dövlət qulluğuna qəbul ola bilmək, cəmiyyətdə sosial status qazanmaq və s. səbəblərə görə dövlətin rəsmi dili olan ərəb dilini düzgün şəkildə öyrənmək məcburiyyətində idilər. Ərəb dilini, xüsusilə

[1] Qeyd etmək lazımdır ki, nadir hallarda da olsa, ərəblərin qeyri-ərəblərlə qaynayıb-qarışmadığı cahiliyyət və islamın ilk dövrlərində məhz xalis ərəblər arasında bəzi qrammatik xətalar müşahidə edilmişdir (Məsələn bax: İbn Cinni, II/8; Əmin 1998, II/252). Daha sonra dilçilər bu qəbildən olan xətaları "ləhn" terminilə ifadə etmişlər.

qeyri-ərəblərə öyrətmək prosesi isə ancaq həmin dilin qrammatikası ilə mümkün ola bilərdi. Bir sözlə, bu və bəzi səbəblər ərəb dilinin qayda-qanunlarını bir yerə toplayıb sistemləşdirməyi tələb edirdi (Məbruk 1985, 21; Şimşək 2018, 18). Bu səbəbdən, İslamın ilk dövrlərindən başlayaraq, ərəb dilçi və qrammatikləri tərəfindən ərəb dilinin qayda-qanunları müəyyənləşdirilmiş və bu sahədə sanballı ədəbiyyat meydana gəlmişdir.

Orta əsr dilçilərinin islahat təşəbbüsləri

Tədqiqatçılara yaxşı məlumdur ki, ərəb dili və qrammatika sisteminin islahatı məsələsi haqqında ilk ciddi müzakirələr ərəb mədəniyyət tarixçilərinin "ərəb intibah dövrü" olaraq adlandırdıqları XIX əsrdən bəri geniş vüsət tapmağa başlamışdır. Sözügedən islahat təşəbbüslərinin tarixini hicri II əsrin əvvəllərinə qədər götürmək mümkündür.

Məlum olduğu kimi, hicri II əsrin sonları və III əsrin əvvəllərndə Bəsrə, Kufə və s. ərəb qrammatika məktəblərinin təşəkkül etməsi ilə birlikdə sözügedən qrammatika məktəbləri arasında elmi mübahisələr və fikir ixtilafları başlamışdır. Bu dövrdən etibarən qrammatika kitabları qiyas/analogiya (qaydasız və istisna təşkil edən dil hadisələrinin qaydalı dil hadisələri ilə müqayisə edilərək izah edilməsi), erab (qrammatik amil səbəbindən sözün sonundakı hərəkələrin dəyişməsi), iləlun-nəhv/təlil (qrammatik hadisələrin səbəblərini əsaslandırma) və s. kimi məsələlərlə dolub-daşmağa başlamış, qrammatik məlumatlar son dərəcə çətin və qəliz bir üslubla izah edilmişdir (Zeyf 1981, 109; Abdurahmanov 2019, 224). Bir sözlə, üsul, kəlam, məntiq və fəlsəfə elmi dairələrindəki müzakirə və mübahisələrin təsiri altında qalan qrammatiklərin təvil və izahları nəzəri səviyyəyə çatmış, beləliklə, nəhvin nəzəri və praktik mövzuları bir-birinə qarışmışdır (Şimşek 2018, 54). Nəticə etibarilə, öncə çox sadə və bəsit bir şəkildə yaranan ərəb qrammatikasının tədrisi çətinləşmişdir (Zeyf 1981, 109; Abdurahmanov 2019, 224). Ərəb dilinin tədrisində qarşılaşılan bu problemə qarşı ilk ciddi etirazlar məşhur dilçi və qrammatik olan Xələf əl-Əhmər (v. 180/796), daha sonra isə əl-Cahiz (v. 255/869) tərəfindən səsləndirilmişdir. Belə ki, məşhur dilçi və şair Xələf əl-Əhmər nəhv (qrammatika) elminə dair "*Müqəddimə fin-nəhv"* adlı əsərinin giriş fəslində ərəb qrammatiklərini qrammatik mövzuları izah edərkən qiyas, təlil və s. kimi mövzulara üstünlük verib, ərəb dilini yeni öyrənənlərin işini çətinləşdirdikləri üçün tənqid etmiş və bu problemi aradan

qaldırmaq məqsədilə əsərini qələmə aldığını qeyd etmişdir (Xələf əl-Əhmər 1961, 33-34). Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Xələf əl-Əhmərdən sonra da ərəb dilinin tədris edilməsini asanlaşdırmaq məqsədilə müxtəsər qrammatika kitablarının yazılması ənənəsi davam etdirilmişdir. Görkəmli ərəb dilçisi və ədəbiyyatçısı Abdullah bin Yəhya əl-Yəzidinin (v. 237/851) "*Müxtəsər fin-nəhv*" adlı əsərini bu məqsədlə yazdığı mənbələrdə qeyd edilir. Bununla yanaşı, Əli ibn Həmzə əl-Kisai (v. 189/805), Əbu Ömər Saleh ibn İshaq əl-Cərmi (v. 225/-840), əl-Müfəzzəl ibn Sələmə (v. 290/903), Əhməd ibn Yəhya Sələb (v. 291/904), İbn Keysan (v. 320/932) İbrahim bin Muhəmməd Niftəveyh (v. 323/935) və Əbu Cəfər ən-Nəhhas (v. 338/950) kimi görkəmli dilçiləri ərəb dilinin tədrisini asanlaşdırmaq üçün müxtəsər qrammatika əsərləri qələmə alanlara misal çəkmək olar (Zeyf 1986, 12-17; Doğan 2008, 188-189).

Ərəb qrammatikasının çətinliyindən və ərəb qrammatiklərindən şikayətlənən bir digər şəxs öz dövrünün görkəmli ərəb ədəbiyatçısı və tənqidçisi olaraq qəbul edilən əl-Cahiz olmuşdur. O, "*əl-Həyəvan*" adlı məşhur əsərində Kufə qrammatika məktəbinin görkəmli nümayəndələrindən olan Əbül-Həsən əl-Əxfəşin (v. 316/928) timsalında qrammatika kitablarının çətinliyindən gileylənmişdir (əl-Cahiz 1965, I, 91-92). Müəllimlik peşəsinə həsr etdiyi başqa bir traktatında (risalə) isə əl-Cahiz təfərrüatlı bir şəkildə yazılmış qrammatika kitablarını pedaqoji cəhətdən tənqid edərək ərəb dilini yeni öyrənənlər üçün yalnız onları dil xətalarından (ləhn) qoruya biləcək əsas qrammatik qaydaların öyrədilməsini tövsiyə etmişdir. Ona görə, qrammatika kitablarındakı təfərrüatlı məlumatlar isə bu sahədə ixtisaslaşmaq istəyənlər üçün əhəmiyyətlidir (əl-Cahiz 2002, 205).

Buraya qədər verilən açıqlamalardan bizə aydın olur ki, Xələf əl-Əhmər və yuxarıda adları qeyd olunan digərləri ərərb qrammatikasının praktik cəhətdən asanlaşdırılması üçün səy göstərmişlər. Bir sözlə, onların ərəb qrammatikasının sadələşdirilməsi istiqamətindəki addımları həcmli qrammatika kitablarının yerinə müxtəsər əsərlər yazmaqdan ibarət olub, əsasən ərəb dilinin tədrisinin asanlaşdırılması məqsədinə xidmət edirdi. Nəticə etibarilə ərəb qrammatikasının ümdə məsələlərinə təmas etməyən bu fəaliyyətləri sözün əsl mənsında islahat olaraq adlandırmaq məqsədəuyğun deyildir.

Ərəb qrammatika sisteminin islah edilməsi yönündə ilk ciddi və cürətkar təşəbbüslər Əndəlüsdə ortaya çıxmışdır. V/XI əsrdə əndəlüslü İbn Həzm (v. 456/1064) tərəfindən təməlləri qoyulan ərəb qram-

matika sisteminin islahı fikri daha sonra İbn Tumərt (v. 524/1130), İbn Rüşd (v. 595/1198) və İbn Mazanın (v. 592/1196) fəaliyyətləri ilə ən yüksək zirvəsinə yüksəlmişdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, xüsusilə İbn Mazanın mövzu ilə əlaqədar müddəa və mülahizələri XX əsrdə ərəb elmi dairələrində böyük maraq doğurmuş və ərəb qrammatika sisteminin islah edilməsi fikrini mənimsəyən dilçilərin ilham qaynağı olmuşdur (Doğan 2008, 192; Abdurahmanov 2019, 226).

Mübaliğəsiz demək olar ki, ərəb qrammatika sisteminə qarşı ilk əsaslı tənqidlər zahiriyyə[2] məzhəbinə mənsub İbn Həzm tərəfindən yönəldilmişdir. Əlbəttə, onun qrammatika elminə dair fikirlərinin formalaşmasında mənsubu olduğu zahiriyyə məzhəbinin çox böyük təsiri olmuşdur. Fiqhdəki qiyas və illət nəzəriyyələrini qəti bir şəkildə rədd edən İbn Həzmin ərəb qrammatikasındakı qiyas və illəti də qəbul etməyərək yalan və uydurma adlandırması bunun əyani sübutudur (İbn Həzm 1983, 302; əl-Cabiri 2001, 347). İbn Həzmin fikrincə, dilçilərin müxtəlif qrammatik hadisələrin izah edilməsində istifadə etdikləri qiyas və illət metodu tamamilə yalan və uydurmadır vi heç bir əsası yoxdur. Bir sözlə, İbn Həzmin fikrincə, ərəb dilinin qayda-qanunlarının müəyyənləşdirilməsində müraciət ediləcək yeganə mənbə ərəblərin nəsildən-nəslə nəql etdikləri və istifadə etdikləri saf dildir (İbn Həzm 1983, 302). Beləliklə, İbn Həzmin ərəb dilinin qayda-qanularının müəyyənləşdirilməsində yalnız səma (eşitmə) metodunu mənimsədiyi özünü açıq bir şəkildə büruzə verir.

Həmçinin qeyd etmək lazımdır ki, dilin qayda-qanunlarının müəyyənləşdirilməsində səma metodunu mənimsəyən İbn Həzm nitqdə sözlərin erab (fleksiya) əlamətlərinə (rəf, cərr, nasb, cəzm) görə dəyişməsini qrammatik amillərlə izah etməyə çalışan qrammatiklərlə razılaşmayıb bunun ərəblərə nəsildən-nəslə keçən sövqi-təbii ilə əlaqədar olduğunu irəli sürür (İbn Həzm 1983, 94-95). Beləliklə, İbn Həzmin fikirlərini qısaca nəzərdən keçirdikdə aydın olur ki, o, ərəb qrammatika elminin özəyini təşkil edən qrammatik amil nəzəriyyəsini qəbul etmir.

Təəssüflə qeyd etmək lazımdır ki, İbn Həzm qrammatika elminə dair müstəqil bir kitab qələmə almamış, mövzu ilə bağlı fikirlərini fərqli əsərlərində açıqlamışdır. Buna rəğmən onun qrammatika elmi

---

[2] Zahiriyyə məzhəbinin xarakteristik özəlliyi Quran və hədislərin zahiri mənası ilə hökm vermələri və təvili qəbul etməmələridir. Təfərrüatlı məlumat üçün bax: H. Yunus Apaydın, "Zahiriyye", *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi,* (İstanbul: TDV Yayınları, 2013), 44/93-100.

ilə əlaqədar fikirləri özündən sonra gələn İbn Tumərt, İbn Rüşd və İbn Maza üçün ilham mənbəyi olmuşdur (Durmuş 2006, 32, 305).

Ərəb qrammatika sisteminin islahı mövzusunda özünəməxsus fikirləri ilə seçilən ən görkəmli şəxs İbn Mazadır. İbn Mazanı, sözün əsl mənasında, qrammatikanın ilk islahatçısı adlandırsaq mübaliğə etməmiş olarıq. Öz sələflərindən daha cürətli davranan İbn Maza qrammatikanın islah edilməsini müdafiə etməklə kifayətlənməmiş, bu mövzuda *"əl-Müşrik fin-nəhv"* və *"ər-Rədd ələn-nühat"* adlı iki kitab da yazmışdır. Təəssüflə qeyd etmək lazımdır ki, bunlardan yalnız ikincisi günümüzə qədər gəlib çatmışdır (Toprak 1995, 208).

İbn Maza qrammatikanın islah olunmasına dair müddəa və mülahizələrini irəli sürdüyü *"ər-Rədd ələn-nühat"* adlı kitabında nəhvin asanlaşdırılmasının zəruriliyini əsaslandırmağa çalışır. Belə ki, onun fikrincə, ərəb qrammatikləri nəhv elminin təməlini ərəblərin dilini qrammatik xətalardan (ləhn) qorumaq və təhrif edilməsinə yol verməmək üçün qoymuşlar və bu məqsədlərinə də nail olmuşlar. Zaman keçdikcə öz əsl məqsədlərinin xaricinə çıxan qrammatiklər bəzi nəzəriyyələrlə nəhvi anlaşılmaz hala gətirmişlər. Beləliklə, əsl məqsədi dini elmləri düzgün bir surətdə anlamaq olan nəhvin özü içindən çıxılmaz bir elmə çevrilmişdir (İbn Maza 1947, 80-81).

Ərəb qrammatikasının asanlaşdırılmasına dair müddəa və mülahizələrini təqdim etdiyi *"ər-Rədd ələn-nühat"* adlı əsərində İbn Maza, əsasən, Sibəveyhi tərəfindən təmelləri atılan, daha sonra isə Bəsrə qrammatikləri tərəfindən mənimsənərək təkmilləşdirilən qrammatik amil nəzəriyyəsinin nəhv elmindən çıxarılmasının zəruriliyini vurğulamışdır.

Məlum olduğu kimi, qrammatik amil nəzəriyyəsi, nitqdə sözlərin erab (fleksiya) əlamətlərinə (rəf, cərr, nasb, cəzm) görə dəyişməsini ləfzi və ya mənəvi amil vasitəsilə izah edir. Belə ki, bu nəzəriyyəyə görə ضَرَبَ زَيْدٌ عَمْرًا (Zeyd Əmri vurdu) cümləsində mübtəda (fail) vəzifəsini icra edən زَيْدٌ sözünün adlıq halda (mərfu), tamamlıq (məfulun bih) olan عَمْرًا sözünün isə təsirlik halda (mansub) olmasına səbəb olan qrammatik amil (idarə edici) ضَرَبَ feilidir. İbn Maza ənənəvi ərəb dilçiliyində qəbul edilən bu amil nəzəriyyəsini "açıq-aydın fəsad" olaraq xarakterizə etmiş və bu mövzuda məşhur filoloq İbn Cinninin (v. 392/1002) fikirlərinə şərik çıxmışdır (İbn Maza 1947, 85-86). Bir sözlə, İbn Maza İbn Cinninin *"Sözlərin sonunun fleksiya əlamətlərinə (rəf, cərr, nasb, cəzm) görə dəyişməsinin səbəbi ləfzi və mənəvi amillər deyil, nitq söyləyənin (mütəkəllim) özüdür"* (İbn Cinni I, 109-110) fikri-

nə əsaslanaraq, sözlərin fleksiya əlamətinə görə dəyişməsi hadisəsini nitq söyləyəndə mövcud olan fitri qabiliyyətlə əlaqələndirmişdir (İbn Maza 1947, 87).

Bununla yanaşı, İbn Maza, xüsusilə Bəsrə qrammatikləri tərəfindən mənimsənilmiş məhzuf (düşürülmüş) qrammatik amillərin təqdir edilməsi (nəzərdə tutulması) fikrinə də müxalifət etmişdir. Onun fikrincə, qrammatiklər tərəfindən irəli sürülən gizli amil nəzəriyyəsi tamamilə ehtimallardan ibarət bir uydurmadır. Buna görə də o, mövzu ilə əlaqədar olaraq qrammatiklərin irəli sürdükləri "Cümlədə müəyyən səbəblərə görə düşürülmüş (məhzuf) sözlərin mənaları danışanın niyyətində gizlidir", yaxud "Həmin sözlər icaz (sözü/cümləni qısaltmaq) məqsədilə düşürülmüşdür" və s. kimi fikirlərin qəbuledilməz olduğunu söyləyir. Bu, danışanın söyləmədiyi bir şeyi ona istinad etməkdir ki, açıq bir dəlil olmadan belə, bir şeyin edilməsi qətiyyən yolverilməzdir İbn Maza 1947, 88-92). Buraya qədər verilən misallardan aydın olur ki, qrammatika və qrammatikləri tənqid edərkən İbn Maza da sələfi İbn Həzm kimi mənsubu olduğu və bəşəri rəy və təvilə etimad etməyən zahiriyyə məzhəbinin təsiri altında qalmışdır (Bulut 2006, 66).

Əndəlüsdə İbn Həzmin başlatdığı ərəb qrammatikasının islah edilməsi cərəyanının digər tərəfdarı isə Əbül-Vəlid İbn Rüşd (v. 595/-1198) olmuşdur. İbn Rüşd öz dövründə ərəb dilinin tədrisini çətinləşdirən ən böyük amilin nəhv elmi olduğunu irəli sürmüş və bu dilin öyrənilməsini asanlaşdırmaq məqsədilə özünün *"əz-Zəruri fi sinaatin-nəhv"* adlı əsərini qələmə almışdır (Doğan 2008, 199; Abdurahmanov 2019, 230). Yeri gəlmişkən qeyd etmək lazımdır ki, sələfləri İbn Həzm və İbn Mazadan fərqli olaraq İbn Rüşd ərəb qrammatikasının asanlaşdırılmasına dair müddəalarını qrammatik amil nəzəriyyəsinin tərk edilməsi fikri üzərində inşa etməmişdir. O, ərəb dilinin və qrammatikasının tədrisindəki çətinliyin səbəbini qrammatiklərin öz kitablarında istifadə etdikləri üslub və metodologiya ilə əlaqələndirirdi. İbn Rüşd hesab edirdi ki, nəhv kitablarında təqdim edilən qrammatik izahlar və onların səbəbləri həddindən artıq çoxdur və bu da onun öyrənilməsini asanlaşdırmaq əvəzinə, daha da çətinləşdirir. Bir sözlə, o, ərəb dilinin və qrammatikasının öyrənilməsini asanlaşdırmaq üçün əsas qrammatik qayda-qanunların təfərrüata varılmadan izah edilməsinin vacibliyini vurğulayırdı (İbn Rüşd 2010, 97-98).

Xülasə, Orta əsr ərəb dilçilərinin ərəb qrammatikasının asanlaşdırılmasına dair təşəbbüsləri ilə tanış olduqdan sonra demək olar ki, onlar məsələnin həll yolları üçün aşağıdakı metodları tətbiq etmişlər:

1. Ərəb qrammatikası lazımsız nəzəri məlumatlardan xilas edilərək praktik bir elm halına gətirilməlidir.
2. Ərəb qrammatıkasının tədrisini asanlaşdırmaq üçün həcmli əsərlər yerinə müxtəsər kitablar yazılmışdır (Xələf əl-Əhmərin *Müqəddimə fin-nəhv* və Yəhya əl-Yəzidinin *Müxtəsər fin-nəhv* kitablarını misal çəkmək olar).
3. Qrammatik məlumatların izah edilməsində sadə və axıcı bir üslub istifadə edilməlidir.
4. Qrammatika kitablarında ərəb dilini yeni öyrənənlər üçün yalnız onları dil xətalarından (ləhn) qoruya biləcək əsas qrammatik qaydaların öyrədilməsi kifayətdir (məsələn: əl-Cahiz).
5. Qiyas, illət, təqdir, qrammatik amil nəzəriyyəsi və s. kimi mövzular ərəb qrammatikasından çıxarılmalıdır (bu fikri Əndəlüsdəki islahat tərəfdarları, xüsusilə İbn Maza irəli sürmüşdür).
6. Öyrənilməsini asanlaşdırmaq məqsədilə ərəb qrammatikasının əsas qayda-qanunları ümumi qaydalar şəklində təqdim edilməlidir (bu fikir İbn Rüşd tərəfindən müdafiə edilmişdir).

Bütün bu deyilənlərdən sonra belə nəticəyə gəlirik ki, islahat tərəfdarı Orta əsr ərəb dilçiləri və filoloqları mövcud qrammatika kitablarının ərəb dilinin tədrisi üçün əlverişli olmadığının fərqində olmuşlar. İbn Həzm və İbn Mazanı istisna etsək, digər filoloqların əksəriyyəti ənənəvi ərəb qrammatika sistemini qəbul etmiş və qrammatika elminin nəzəri məsələlərinə qarşı diqqətəlayiq tənqidlər yönəltməmişlər (Şimşek 2018, 55). Bir sözlə, onların ərəb qrammatikasının sadələşdirilməsi istiqamətindəki addımları həcmli qrammatika kitablarının yerinə müxtəsər əsərlər yazmaqdan ibarət olub, əsasən, ərəb dilinin tədrisinin asanlaşdırılması məqsədini güdmüşdür.

Daha əvvəl qeyd edildiyi kimi, ərəb qrammatika sisteminiə qarşı ilk ciddi tənqid İbn Maza tərəfindən yönəldilmişdir. O da sələflərinin taleyini yaşamağa məhkum olmuşdur. Belə ki, onun qrammatika sisteminə qarşı yönəltdiyi sərt tənqid və etirazlar XIX əsrin sonlarına qədər ərəb elmi dairələrinin diqqətini cəlb etməmiş və ənənəvi ərəb qrammatikası bu zamanadək öz avtoritetliyini qoruyub saxlaya bilmişdir.

Müasir dövrdə islahat təşəbbüsləri

Ərəb mədəniyyəti tarixçilərinə yaxşı məlumdur ki, Misirin 1789-cu ildə Napoleon tərəfindən işğal edilməsi ərəb dünyasında müasirləşmənin və çağdaşlaşmanın başlanğıcı olaraq qəbul edilir. Həmin dövr ərzində Misirin sosial və siyasi sahələrində baş vermiş yeni dəyişikliklər dil və ədəbiyyat sahələrinə də təsirsiz ötüşməmişdir (Bakırcı & Demriayak 2019, 170). Qısa müddət sonra Misirdə öz hakimiyyətini elan edən Qavalalı Muhəmməd Paşanın (v. 1849) Qərb təhsil sisteminə uyğun məktəblər açdırması və Qərb ölkələrinə təhsil almaq üçün tələbələr göndərməsi ilə yanaşı, Qərb ilə İslam dünyası arasında bir yaxınlaşma başlamışdır. Qərblə olan bu yaxınlaşma bir çox sahələrdə olduğu kimi, ərəb dili sahəsində də islahat hərəkətlərinin təşəkkülünə real zəmin hazırlamışdır (Doğan 2008, 205).

XIX əsrdən bəri ərəb-İslam dünyasında həyata keçirilən digər islahat təşəbbüslərində olduğu kimi, ərəb dilinin və qrammatikasının islah edilməsi istiqamətində atılan addımlarda da Misir və misirli ziyalılar böyük rol oynamışlar. Misirdə qrammatika kitablarının islah edilməsi istiqamətində ilk praktik addım Əli Mübarək Paşa (v. 1893) tərəfindən atılmışdır. O, "əl-Əzhər" Universitetində tədris edilən İbn Malikin *"əl-Əlfiyyə",* İbn Acurrumun (v. 723/1323) *"əl-Acurumiyyə"* və İbn Hişamın *"Qatrün-nəda"* və *"Şüzurüz-zəhəb"* kimi klassik nəhv kitablarından lazımsız hesab etdiyi bəzi bölümləri çıxararaq, daha sadə və asan bir üsluba malik *"Tariqül-hica vət-təmrin"* adlı dərs vəsaiti hazırlamışdır. Əli Mübarək Paşanı Rifaa ət-Tahtavi (v. 1873) izləmişdir. Rifaa ət-Tahtavi məşhur fransız şərqşünas A. İsaak Silvestr de Sasinin (v. 1838) ərəb qrammatikasından bəhs edən *"Grammaire Arabe"* kitabının metodikasından istifadə edərək, *"ət-Tühfətül-məktəbiyyə fi təqribil-lüğətil-ərəbiyyə"* adlı yeni bir ərəb dili dərsliyi hazırlamışdır. Daha sonralar isə "əl-Əzhər" Universiteti ilə yanaşı, Misirin bir çox təhsil müəssisələrində klassik qrammatika kitablarının sadələşdirilməsi istiqamətində fəaliyyətlər davam etdirilmiş və bu sahədə çoxsaylı kitablar hazırlanmışdır. Misir Təhsil Nazirliyinin tələbi ilə 1887-1891-ci illərdə Hifni Nasifin (v. 1919) rəhbərliyi altında ərəb qrammatikasının islah edilməsi ilə əlaqədar bir komissiya fəaliyyətə başlamış və həmin komissiyanın səyləri nəticəsində ibtidai siniflər üçün üçcildlik *"əd-Dürusul-ərəbiyyə"* (Qahirə 1881), orta siniflər üçün isə dörd cilddən ibarət *"əd-Dürusün-nəhviyyə"* (Bulak nəşriyyatı, hicri 1305) və *"Dürusul-bəlağə"* kimi dərslik vəsaitləri tərtib edilmişdir (Durmuş 2006, 32, 305). Qeyd etmək lazımdır ki, bu dövrdə ərəb qrammatika-

sının islah edilməsi fəaliyyətlərinin əsas xarakterik özəlliyi müasir tədris metodlarından istifadə edilərək, ənənəvi qrammatika kitablarının sadələşdirilməsindən ibarət olmuşdur.

XX əsrə gəldikdə isə ərəb-İslam aləmində ərəb dilinin və qrammatikasının islah edilməsi, yenilənməsi, asanlaşdırılması və s. kimi mövzular ərəb elmi dairələrinin nəzər-diqqətini yenidən cəlb etməyə başlamışdır. Yeri gəlmişkən qeyd etməliyik ki, ərəb dilinin islah edilməsi, asanlaşdırılması və s. kimi mövzuların yenidən müzakirə obyektinə çevrilməsində buna zəmin hazırlayan daxili ünsürlərlə yanaşı, o dövrdə Misiri işğal etmiş ingilis təbliğatının da xüsusi rolu olmuşdur. Belə ki, 1902-ci ildə Misiri işğal edən ingilislər bu ölkənin bütün təhsil müəssisələrindən ərəb ədəbi dilini (füsha) qaldıraraq, ingilis dilini təhsil dilinə çevirdilər. Bununla kifayətlənməyərək dünya müsəlmanlarının, xüsusilə də ərəblərin yeganə ünsiyyət vasitəsi olan ədəbi ərəb dilinin təsirini zəiflətmək məqsədilə təbliğat fəaliyyətlərinə başladılar. Onların bu fəaliyyətləri, əvvəla, xristian ərəblər, daha sonra isə müsəlman ərəb dilçiləri və filoloqlar arasında tərəfdar tapmağa başladı (Çetiner 1995, 351). İngilislər məqsədlərini reallaşdırmaq üçün ərəb ölkələrində mövcud olan ədəbi dil (füsha)-danışıq dili (ammiyyə) fərqindən istifadə etməyə çalışdılar. İddia edirdilər ki, danışıq kütlələrinin öyrənilməsi çətin olan ədəbi dilə sarılması Misirin iqtisadi və texnoloji cəhətdən geri qalmasının əsas səbəblərindən biridir. Əgər onlar inkişaf etmək və Qərb mədəniyyətinin əldə etdiyi nailiyyətlərə çatmaq istəyirlərsə, ədəbi dili tərk edərək danışıq dilini elm və ədəbiyyat dilinə çevirməlidirlər. Ədəbi ərəb dilinə qarşı aparılan bu təbliğatın ən hərarətli təmsilcilərinə misal olaraq o dövrdə Misirin suvarma işləri təşkilatının rəhbəri vəzifəsinə təyin edilmiş Ser Villiam Vilkoksun (v. 1932) adını çəkmək olar. O, 1893-cü ildə Qahirədə verdiyi mühazirədə iddia etmişdir ki, misirlilər ədəbi ərəb dilini elm və ədəbiyyat dili olaraq istifadə etdikləri üçün geri qalmışlar. Bundan əlavə, Vilkoks 1926-cı ildə nəşr etdirdiyi bir məqalədə[3] daha da irəli gedərək Misir, Suriya və Şimali Afrika ərəbləri tərəfindən istifadə edilən dilin (ləhcələr qəsd olunur) ərəb dili ilə heç bir əlaqəsinin olmadığını iddia etmişdir. Onun fikrincə, bu xalqların ünsiyyət vasitəsi kimi istifadə etdikləri dil, əslində, qədim Finikiya dilinin dəyişikliyə məruz qalmış variantıdır. Sözügedən məqalədə ədəbi ərəb dilinin

[3] W. Wilcoksun sözügedən mövzuya həsr etdiyi "Syria, Egypt, North Africa and Malta Speak Punic Not Arabic" (Suriya, Mısır, Şimali Afrika və Malta Ərəbcə deyil Finikiya Dilində Danışır) adlı məqaləsi 1926-cı ildə Londonda nəşr edilmişdir.

öyrənilməsinin çətinliklərindən bəhs etdikdən sonra, Vilkoks həll yolu olaraq maraqlı bir təklif irəli sürmüşdür. Onun iddiasına görə, təhsil müəssisələrində ədəbi dilin (füsha) əvəzinə danışıq dili (ammiyyə) istifadə ediləcəyi təqdirdə, on il kimi qısa bir müddət ərzində misirlilər cəhalətdən tamamilə xilas olacaqlar (əd-Düsuki 1970, 2/40-41).

Digər tərəfdən, bəzi şərqşünaslar ədəbiyyat və elm sahələrində ədəbi dili danışıq dili ilə əvəz etmək üçün danışıq dilinin qayda-qanunlarının sistemləşdirilməsi istiqamətində fəaliyyətlərə başlamışlar. Vilhelm Spittanın "*Qavaidül-lüğatil-amiyyə"* (1880), Karl Vollersin "*əl-Ləhcətül-amiyyətül-hədisə fi Mısr"* (1890) və Sildon Vilmorun "*əl-Ərəbiyyətül-məhəlliyyə fi Mısr"* (1901) və "*Lüğatül-Qahirə"* (1902) adlı əsərlərini və bu qəbildən olan başqa kitab və tədqiqatları bunlara misal çəkmək olar. Bundan əlavə, danışıq dilində (ammiyyə) nəşr edilmiş ilk ədəbi əsər nümunələri də yenə şərqşünaslar tərəfindən hazırlanmışdır. V. Vilkoks tərəfindən danışıq dilinə tərcümə edilmiş Şekspirin "*IV Henri"* və *"Hamlet"* (1892) əsərlərini bu qəbildən olan ədəbi nümunələrə misal göstərə bilərik (Çetiner 1995, 352-353).

Bir sözlə, xarici və daxili amillərin də təsiri nəticəsində, artıq XX əsrin əvvəllərində ərəb dilinin və qrammatikasının müasir zamanın tədris sisteminə ayaq uydura bilmədiyi fikri bir çox ərəb dilçilər və filoloqlar arasında tərəfdar tapmış, ərəb qrammatika sisteminin dəyişdirilməsi, islah edilməsi və asanlaşdırılması kimi təkliflər bir-birini təqib etmişdir. Taha Hüseyin, Əhməd Əmin, Circis əl-Huri, Səlamə Musa, Qasım Əmin, Ənis Fəriha və s. kimi filoloq və mütəfəkkirlərin adlarının bu fikrə tərəfdar çıxanlar arasında sadalamaq olar (Bakırcı & Demriayak 2019, 171-172).

Mühüm olaraq qeyd etmək lazımdır ki, XIX əsrin sonları və XX əsrin əvvələrində, xüsusilə Misir və Suriya kimi ölkələrdə şərqşünaslar tərəfindən aparılan təbliğat fəaliyyələri nəticəsində ərəb dilinin islah edilməsi ətrafındakı münaqişələr məcrasını dəyişmiş və polemikalar daha çox Quran dili olan ədəbi ərəb dilinin danışıq dili ilə əvəz edilməsi çərçivəsində cərəyan etmişdir. İlk öncə şərqşünaslar tərəfindən irəli sürülmüş bu fikir, daha sonra Qərb müstəmləkələri olan Misir və Suriyadakı yerli ziyalılar arasında özünə tərəfdar tapmış və ərəb elmi dairələrində aktual məsələyə çevrilmişdir. Məsələn, Səlamə Musa (v. 1958)[4] və Muhəmməd Osman Cəlal kimi misirli ziyalılar şərqşü-

[4] Səlamə Musanın ərəb dilinin islah edilməsi haqqındakı fikirləri barəsində təfərrüatlı məlumat üçün bax: Ənvər əl-Cündi, *əl-Lüğətil-ərəbiyyə beynə hümatiha və hüsumiha,* Qahirə: Mətbəətür-risalə, (Nəşr tarixi qeyd olunmayıb), 77.

nasların fikrinə şərik çıxmış, ədəbi dilin tamamilə tərk edilərək, əvəzinə danışıq dilinin istifadə edilməsini müdafiə etmişlər (Bakırcı & Demriayak 2019, 172; Abdurahmanov 2019, 237-238). Əbdüləziz Fəhmi (v. 1951) ilk dəfə fransız şərqşünas Lui Massinon (v. 1962) tərəfindən irəli sürülən ərəb hərflərinin bütövlükdə tərk edilərək latın əlifbasına keçilməsinin zəruriliyini vurğulamışdır (Sübhi Saleh 2009, 359; Sarmış 1991, 122). Əhməd Lütfi əs-Seyyid isə, ədədi dil (füsha) və Misir danışıq dilini (ammiyyə) qarışdıraraq, Misirə xas müştərək bir dilin (Təmsirül-ərəbiyyə) formalaşdırılması fikrini müdafiə etmişdir (Abdurahmanov 2019, 237-238).

Yeri gəlmişkən qeyd etməliyik ki, şərqşünaslar və onların təsiri altında qalan ərəb ziyalıları ilə yanaşı, ərəb elmi dairələrində, hətta şərqşünasların öz arasında da ədəbi ərəb dilini müdafiə edən dilçilər və filoloqlar mövcud olmuşdur. Sübhi Saleh, Zəki Mübarək, Mustafa Sadiq ər-Rafii, əl-Əmir Şəkib Aslan və ingilis əsilli şərqşünas Maria Nallinonu bunlara misal çəkmək olar. Belə ki, Sübhi Saleh müstəşriqlər və onları təqib edən ərəb ziyalılarının ərəb dilinin islah edilməsi mövzusunda səmimi olmadıqlarını irəli sürmüş, Maria Nallino isə dil üzərində bu cür icraatların yolverilməz olduğunu söyləmişdir. Digər ərəb ziyalısı olan Zəki Mübarək isə ədəbi dilin (füsha) əhəmiyyətinə diqqət çəkərək demişdir: bir ingilis beş əsr əvvəl yazılmış ədəbi bir əsəri anlaya bilmədiyi halda, ərəblər ədəbi dil sayəsində klassik dövrə aid nəzm və nəsr nümunələrini asanlıqla oxuya bilirlər (Bakırcı & Demriayak 2019, 176). Xülasə, elm və ədəbiyyat dili olaraq ədəbi dilin vacibliyini müdafiə edən ərəb ziyalıları ərəb dilinin islah edilməsi ilə əlaqədar yuxarıda qeyd edilən tənqidləri quruluşçu (konstruktiv) deyil, dağıdıcı tənqid olaraq xarakterizə etmişlər. Yəni onların məqsədi ərəb dilini islah etmək deyil, əksinə, bütün ərəblərin müştərək dili olan ədəbi dilin nüfuzunu ortadan qaldırmaq, ərəb dili vasitəsilə başda ərəblər olmaqla, bütün müsəlmanları Quran və İslam mədəniyyətindən uzaqlaşdırmaqdır (Sübhi Saleh 2009, 360).

Qeyd etməliyik ki, xüsusilə XX əsrin əvvəllərindəki islahat təşəbbüsləri öncə ərəb ədəbi dilinin əvəzinə danışıq dilinin elm və ədəbiyyat dili olaraq istifadə edilməsi ətrafında cərəyan etmiş, daha sonra istiqamət dəyişilərək ərəb qrammatika sisteminin çətinliyi məsələsi üzərində cəmlənmişdir. Daha əvvəl bəzi təşəbbüslər olmaqla yanaşı, XX əsrdə ərəb qrammatika sisteminin islahatı ciddi bir problem olaraq ilk dəfə İbrahim Mustafanın *"İhyaün-nəhv"* adlı əsərində qoyulmuşdur. Onun ərəb qrammatikasının asanlaşdırılması ilə bağlı fikirlə-

ri ərəb elmi dairələrində böyük maraq doğurmuşdur (Məmmədəliyev 1985, 271). İbrahim Mustafa həmin əsərində qrammatik amil nəzəriyyəsi, təqriri (sözün virtual hallanması) -məhəlli (sözün mövqeyə görə hallanması) erab, müstətir zamir (gizli əvəzlik)[5] və s. kimi əhəmiyyətsiz hesab etdiyi mövzuların atılması ilə ərəb qrammatikasının asanlaşdırılması fikrini irəli sürmüşdür. Onun mülahizə və müddəaları 1938 və 1957-ci illərdə Misir Maarif Nazirliyi tərəfindən tərtib edilmiş nəhvin asanlaşdırılması komitəsində rəğbətlə qarşılanmışdır (Durmuş 2006, 32/305; Abdurahmanov 2019, 236).

1954-cü ildə Qahirədəki Elm Komitəsində isə bu kitabdakı bəzi mülahizələrin qəbul edilməsi barədə qərar qəbul edilmişdir. Yeri gəlmişkən qeyd etməliyik ki, 1957-ci ildə onun müddəaları Misir Maarif Nazirliyində görkəmli dilçilərin və filoloqların iştirakı ilə yenidən müzakirə olunmuş, bəzi düzəlişlər edilmiş[6] və nəticədə komissiya üzvləri tərəfindən "*Təhrirün-nəhv"* adlı dərslik hazırlanmışdır. Bununla yanaşı, İbrahim Mustafanın bəzi müddəaları Misir başda olmaqla, bir çox ərəb ölkələrində məktəblilər üçün hazırlanmış dərsliklərə daxil edilmişdir (Məmmədəliyev 1985, 271).

İbrahim Mustafadan sonra ərəb qrammatika sisteminin sadələşdirilməsi mövzusunu ciddi bir problem olaraq işləmiş ərəb filoloqlarına misal olaraq Şövqi Zeyfin adını çəkmək olar. İbn Mazanın "*ər-Rədd alən-nühat"* əsərini ilk dəfə nəşrə hazırlayan Şövqi Zeyf bu əsərin təsiri altında qalaraq, nəhv elminin asanlaşdırılması barəsindəki təkliflərini ehtiva edən "Təysirün-nəhv"[7] adlı uzun bir məqalə qələmə almış və onu kitabın giriş bölümünə əlavə etmişdir. Daha sonra o, mövzu ilə əlaqədar müddəa və mülahizələrini genişləndirərək, "*Təcdidün-nəhv"* adlı müstəqil bir kitab yazmışdır. Yeri gəlmişkən qeyd etməliyik ki, Şövqi Zeyfin irəli sürdüyü mülahizə və müddəalar 1979-cu ildə Qahirə Ərəb Dil Komitəsi tərəfindən qəbul edilmişdir (Durmuş 2006, 32/305). O, əsərinin müqəddiməsində "ususu təcdidin-nəhv" başlığı

---

5 İbrahim Mustafanın ərəb qramatikasının asanlaşdırılması ilə bağlı müddəaları haqqında təfərrüatlı məlumat əldə etmək üçün bax: İbrahim Mustafa, *İhyaün-nəhv*, Qahirə: Ləcnətüt-təlif vən-nəşr, 1937, 23-197.

6 Həmin düzəlişlər haqqında məlumat üçün bax: Vasim Məmmədəliyev, *Ərəb dilçiliyi,* Bakı: Maarif, 1985, 271-272.

7 Qeyd etmək lazımdır ki, Şövqi Zeyfin bu məqaləsi (*Məcəllətül-məcməil-lüğətil-ərəbiyyə fil-Qahirə*, cild 27, May 1981, 109-121) elmi məcmuəsində dərc edilmişdir. Eyni məqalə Türkiyəli tədqiqatçı Ali Bulut tərəfindən türk dilinə tərcümə edilərək nəşr edilmişdir. Bax: Ali Bulut, ""Nahvin Kolaylaştırılması", *Din Bilimleri Akademik Araştırma Dergisi*, 7/3, (Samsun, 2007), 203-221.

altında nəhv elminin asanlaşdırılmasında tabe olduğu metodologiyanı tək-tək qeyd etmişdir (Zeyf 1982, 9-44). Onun fikrincə, ərəb nəhv elminin islah edilməsi üçün dili qrammatik xətalardan qoruyacaq qaydalar xaricindəki digər mövzular qrammatika kitablarından çıxarılmalıdır.

Ərəb qrammatika sisteminin islah edilməsi uğrunda səy göstərmiş digər ərəb ziyalısı livanlı yazıçı və jurnalist Yusif əs-Səvdadır (v. 1969). O, islahat təşəbbüsünə, ilk növbədə, klassik ərəb dilçiliyindəki istilahları yeni terminlərlə əvəz etməklə başlamışdır. Məsələn, o, nəhv terminini qrammatika sözünün hərfi tərcüməsi olan "əl-Əhrufiyyə", fail və məful terminlərini isə "təmim" olaraq adlandırılmasını təklif etmişdir. Bununla yanaşı, Yusif əs-Səvda bir çox mübahisəli məsələlər qaldırmış, lakin bunlara tutarlı həll yolu göstərə bilməmişdir (Məmmədəliyev 1985, 272).

Görkəmli ərəb dilçisi və filoloqu Əmin əl-Xuli də ərəb dilinin və qrammatikasının islah edilməsi istiqamətində təşəbbüs göstərmişdir.[8] O, islahat tərəfdarlarının müvəffəqiyyət qazana bilməməsinin səbəbini onların erab hadisəsinə ətraflı şəkildə toxunmamalarında görür. Onun fikrincə, erab hadisəsini Orta əsr qrammatiklərinin kitablarında olduğu kimi saxlamaqla ərəb qrammatikasında islahat aparmaq mümkün deyildir (Məmmədəliyev 1985, 272). Əmin əl-Xuli qeyd edir ki, ərəb qrammatikası (nəhv) ilə fiqh elmi (İslam hüququ) arasında sıx münasibət mövcuddur. Klassik qrammatiklərin nəhv elmində istifadə edilən illət metodunu (qrammatik hadisələrin izah edilməsi) İslam hüquqşünaslarının kitablarından əxz etdiklərini qeyd etməsi (İbn Cinni, 1/163) nəhv və fiqh elmləri arasında sarsılmaz bir əlaqə olduğunun bariz nümunəsidir. Buna görə də ərəb qrammatikasında uğurlu bir islahat həyata keçirə bilmək üçün fiqh elminin asanlaşdırılması və çağımıza uyğunlaşdırılması məqsədilə təşkil edilmiş "Fiqh komissiyası"nın təqib etdiyi metodlardan istifadə etmək lazımdır (ətraflı bax: əl-Xuli 1961, 19-27).

Əmin əl-Xuliyə görə, ərəb dilinin öyrənilməsini çətinləşdirən birinci və ən ümdə problem erab sisteminin mürəkkəbliyidir. Bu səbəbdən də erab sistemi sadələşdirilmədən ərəb qrammatikasında uğurlu islahat aparmaq mümkün deyildir. O, əsərlərində erab sisteminin is-

---

[8] Əmin əl-Xulinin ərəb dili və qrammatikasının islah edilməsinə dair müddəa və mülahizələri haqqında təfərrüatlı məlumat üçün bax: Gafgaz Abdurahmanov, *Emin el-Huli, Hayatı, Arap Dili ve Edebiyatındakı Yeri,* (Konya: Necmettin Erbakan Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Doktora Tezi, 2019), 244-299.

lah edilməsi istiqamətində bəzi müddəa və mülahizələr təklif etmişdir (ətraflı bax: əl-Xuli 1961, 46-56). Alim hesab edır ki, ərəb dili və qrammatikasının qarşısındakı ikinci böyük maneə qaydalardakı nizamsızlıqdır. Bu problemi ortadan qaldırmaq üçün ərəb dilinin qayda-qanunları arasındakı nizamsızlıqlar minimuma endirilməli, erab cəhətdən ən sadə və ən yaddaqalan qaydalar seçilməlidir (əl-Xuli 1961, 59-60). Yeri gəlmişkən qeyd edilməlidir ki, Əmin əl-Xulinin fikrincə, istər erab sisteminin sadələşdirliməsində, istərsə də qaydalardakı nizamsızlıqların aradan qaldırılmasında – əsli ədəbi ərəb dilində (füsha) olmaq şərti ilə – danışıq dilinə ən yaxın olan variantlar seçilməlidir (əl-Xuli 1944, 52).

Qeyd etməyə dəyər ki, yuxarıda qeyd olunan islahat tərəfdarlarının, demək olar ki, hamısı islahat səbəbi olaraq nəhvin mürəkkəbliyini, qrammatik amil nəzəriyyəsini və erab sisteminin çətinliyini göstərmişdir. Onların fikrincə, ərəb qrammatikasının qayda-qanunları Orta əsr qrammatikləri tərəfindən müəyyənləşdirildiyi üçün müasir dövrün ehtiyaclarını qarşılamır. Bundan başqa, islahat tərəfdarları hesab edirlər ki, bir çox qrammatik hadisənin izah edilməsində məntiq, kəlam və fəlsəfə elmlərinin medodlarından istifadə edilməsi də ərəb dilinin və qrammatikasının öyrənilməsinin çətinləşməsinə gətirib çıxarmışdır (Sühad 2013, 277-278; Cədaynə 2014, 132). Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ərəb qrammatika sisteminin islah edilməsi üçün təşkil edilmiş komissiya üzvlərinin, xüsusilə sözügedən məsələlərə diqqət çəkməsi bunun əyani sübutu olaraq qəbul edilə bilər (Durmuş 2006, 32/305).

Buraya qədər deyilənlərdən belə qənaət hasil olur ki, xüsusilə Misir və Suriyada şərqşünasların ədəbi ərəb dilinə qarşı apardığı mübarizə çox keçmədən bəzi yerli ziyalılar arasında özünə tərəfdar tapmış, bunun nəticəsində ərəb dili və qrammatikasının islah edilməsi mövzusu ilə əlaqədar olaraq ərəb elmi dairələrində bir-birindən fərqli müxtəlif fikirlər ortaya çıxmışdır. Həmin fikirlərdən mühümlərini qeyd edək:

1. Ədəbi ərəb dilinin (füsha) ən ideal dil olduğunu qəbul edib, elm və ədəbiyyat dili olaraq bu dilin istifadə edilməsi fikrini müdafiə edən mühafizəkarlar (əl-Əzhər şeyxləri, Mustafa Sadiq ər-Rafii, əl-Əmir Şəkib Aslan və b.).
2. Elm və ədəbiyyat dili olaraq, ədəbi ərəb dilinin tamamilə danışıq dili (ammiyyə) ilə əvəz edilməsi fikrini müdafiə edənlər (Səlamə Musa, Muhəmməd Osman Cəlal və b.).

3. Ədəbi dil ilə danışıq dilinin qarışığından Misirə məxsus yeni bir dilin (təmsirül-ərəbiyyə) formalaşdırılması fikrini irəli sürənlər (Əhməd Lütfi Seyid kimi).

4. Danışıq dilini elm və ədəbiyyat dili olaraq qəbul etməməklə yanaşı, ədəbi dilin dövrün ehtiyaclarına uyğun olaraq sadələşdirilməsini müdafiə edənlər (Taha Hüseyin və s.). (əl-Cündi, 77; Ayyıldız 1986, 72).

Yekun olaraq demək mümkündür ki, XX əsrin əvvəllərindən etibarən ərəb dilinin və qrammatikasının tədris edilməsi ilə əlaqədar olaraq iki cərəyan mövcud olmuşdur. Birinci cərəyanın nümayəndələri hesab edirlər ki, ərəb dilinin bütün məsələləri Orta əsr qrammatikləri tərəfindən tamamilə öyrənilib həll edilmişdir. Buna görə də bu cərəyana mənsub olan dilçilər ənənəvi qrammatika normalarının təsirindən xilas ola bilməyərək, öz əsərlərində klassik qrammatiklərin fikirlərini bu və ya digər şəkildə təkrar və ya şərh edir, qədim qrammatiklərin kitablarında verilmiş faktik materialları dəyişməklə kifayətlənirlər. Rəşid əş-Şərtuninin *"Məbadiül-ərəbiyyə"* (Beyrut 1920), Əbdülqadir əl-Məğribinin *"əl-İştiqaq vət-tərib"* (Qahirə 1967), Əbdülhəmid Hüseynin *"əl-Qavaidün-nəhviyyə"* (Qahirə 1954), Mustafa əl-Ğəlayininin *"Camiüd-dürusil-ərəbiyyə"* (Beyrut 1968), Abbas Həsənin *"ən-Nəhvül-vafi"* (Qahirə 1975-78) və Əli Carim və Mustafa Əminin müştərək olaraq hazırladıqları *"ən-Nəhvül-vazih"* və s. əsərləri klassik ərəb dilçiliyi ruhunda yazılmış dərslik və tədqiqatlara misal göstərmək olar. İkinci cərəyana mənsub olanlar isə ərəb dilinin gələcək taleyi, onun tədris edilməsi, ənənəvi ərəb qrammatika sisteminin islah edilməsi və s. sahələrdə diqqətəlayiq tədqiqat işləri aparmışlar. Əhməd Lütfi Seyid, Səlamə Musa, Qaım Əmin, Zəki Mübarək, Circis əl-Huri, Ənis Fəriha, Muhəmməd Osman Cəlal, Sübhi Saleh, Əmin əl-Xuli, Taha Hüseyin, Yusif əs-Səvda, Şövqi Zeyf və digərlərinin adlarını bu cərəyana mənsub olanlara misal çəkmək olar (Məmmədəliyev 1985, 269).

Nəticə

Buraya qədər deyilənlərdən belə qənaət hasil olur ki, ərəb qrammatika sisteminin asanlaşdırılması istiqamətindəki təşəbbüslərin tarixi olduqca qədim olub, hicri II əsrə qədər gedib çıxır. Belə ki, ərəb dilinin tədrisinin asanlaşdırılması istiqamətində ilk addımlar Xələf əl-Əhmər və əl-Cahiz tərəfindən atılmış, daha sonra bu təşəbbüslər əndəlüslü İbn Hazm və İbn Maza kimi alimlərin ənənəvi ərəb qrammatika sisteminə qarşı yönəltdiyi tənqidlərlə zirvəyə çatmışdır. Fikrimizcə,

həcmli və qəliz anlaşılan qrammatika kitablarının əvəzinə daha asan anlaşılan və müxtəsər kitabların yazılmasını təklif etmələri Xələf əl-Əhmər və əl-Cahizin təşəbbüslərinin xarakterik xüsusiyyəti olaraq göstərilə bilər. Qeyd etməliyik ki, ərəb qrammatika elminin ümdə məsələlərini müzakirə obyektinə çevirmədiyi üçün bu fəaliyyətləri, sözün əsl mənasında, islahat olaraq adlandırmaq doğru deyildir.

Ərəb qrammatika sisteminin islah edilməsi yönünüdə ilk ciddi və cürətli təşəbbüslər V/XI əsrlərdə Əndəlüsdə ortaya çıxmışdır. İbn Həzm tərəfindən təmelləri atılan ərəb qrammatika sisteminin islahı fikri, xüsusilə İbn Mazanın fəaliyyətləri ilə ən yüksək zirvəsinə çatmışdır. Bütün bunlara baxmayaraq, onların ərəb qrammatikasının islah edilməsi ilə əlaqədar müddəa və mülahizələri XX əsrin əvvəllərinə qədər rəğbət görməmiş, ənənəvi qrammatika sistemi yenə nüfuzunu qoruyub saxlamışdır.

Ərəb qrammatikasının islahatı məsələsi XIX əsrin sonları və XX əsrin əvvəllərində təkrarən ərəb elmi dairələrinin nəzər-diqqətini cəlb etmiş, mövzu ilə əlaqədar "ihyaün-nəhv", "ıslahün-nəhv", "təcdidün-nəhv", "təysirün-nəhv", "təbsitün-nəhv" və s. adlar altında bir çox tədqiqatlar və layihələr hazırlanmış, bəzi ölkələrdə ərəb qrammatikasının asanlaşdırılması məqsədilə dil komissiyaları təsis edilmişdir.

Mühüm olaraq qeyd etməliyik ki, sözügedən islahat fəaliyyətlərində daxili amillərlə yanaış olaraq, bəzi xarici ünsürlər böyük rol oynamış və bunların nəticəsində ərəb elmi dairələrində müxtəlif fikirləri müdafiə edən ziyalılar qrupu ortaya çıxmışdır.

Ələlxüsus, XX əsrdəki islahat səylərinə gəlincə, bunlar arasında öncə şərqşünaslar tərəfindən ortaya atılan, daha sonra isə bəzi yerli ziyalıların tərəfdar çıxıdığı; "elm və ədəbiyyat dili olaraq ədəbi ərəb dilinin tamamilə danışıq dili ilə əvəz edilməsi" kimi qərəzli olanlar olduğu kimi, ərəb dilinin tədrisini asanlaşdırmaq məqsədilə atılmış təqdirəlayiq təşəbbüslər də mövcud olmuşdur. İbrahim Mustafa və Şövqi Zeyfin islahat cəhdlərini ikinciyə misal çəkmək olar.

Yekun olaraq qeyd etmək olar ki, ərəb dilinin və qrammatika sisteminin islah edilməsi tərəfdarları arasında ədəbi ərəb dilinin və nəhv elminin tamamilə qaldırılmasını təklif edənlər diqqətədəyər və tutarlı tədqiqatlar ortaya qoya bilməmişlər, əksinə, ənənəvi ərəb qrammatika sistemini qəbul etməklə yanaşı, onun islah edilməsi və asanlaşdırılması fikrini müdafiə edənlər daha səmərəli əsərlər və tədqiqatlar hazırlamışlar.

ƏDƏBİYYAT

1. Abdurahmanov Gafgaz. (2019). *Emin el-Huli, Hayatı, Arap Dili ve Edebiyatındaki Yeri.* Konya: Necmettin Erbakan Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Doktora Tezi.
2. Apaydın H.Yunus. (2013). "Zahiriyye". *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi.* 44/93-100. İstanbul: Türkiye Diyanet Vakfı Yayınları.
3. Ayyıldız Erol. (1986). "Mısır'da İngiliz İşgalinin Arap Dili Üzerindeki Tesirleri", *Uludağ Üniversitesi İlahiyat Fakültesi Dergisi.* 1/1 (69-74).
4. Bulut Ali. (2006). "İbn Maḍâ'nın Arap Dilindeki Âmil Nazariyesine Yönelik Eleştirileri". *Nüsha Şarkiyat Araştırmaları Dergisi.* 6/23 (s. 61-74).
5. Cədaynə Samirə. (2014). "Məfhumu təysirin-nəhv lədən-nühatil-mühdəsin". *Məcəllətül-lüğətil-ərəbiyyə.* 16/32 (127-152).
6. Çetiner Bedreddin. (1995). "Arap Aleminde Fasih Dil-Ammi Dil Mücadelesi". *Marmara Üniversitesi İlahiyat Fakültesi Dergisi.* 7-8-9-10. (İstanbul: 1995), (345-361).
7. Doğan Yusuf. (2008). "Arap Gramerinde İlk Yenilikçilik Hareketleri ve Etkileri". *Din Bilimleri Akademik Araştırma Dergisi.* 8/3 (s. 183-213).
8. Durmuş İsmail. (2006). "Nahiv", *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi.* 32/300-306. İstanbul: Türkiye Diyanet Vakfı Yayınları.
9. əd-Düsuki Ömər. (1970). *Fil-ədəbil-hədis.* 2 cilddə. Qahirə: Darül-fikril-ərəbi.
10. Əhməd Əmin. (1998). *Duhəl-İslam.* Qahirə: əl-Heyətül-Mısriyyətül-ammə lil-kitab.
11. əl-Cabiri Muhəmməd Abid. (2001). *Arap-İslam Aklının Oluşumu.* (Tərcümə edən: İbrahim Akbaba), İstanbul: Kitabevi.
12. əl-Cahiz Əbu Osman Amr bin Bəhr. (1965). *əl-Həyəvan.* 8 cilddə. (Nəşr edən: Abdüssəlam Muhəmməd Harun), Misir: Mətbəətu Mustafa əl-Babi əl-Hələbi.
13. əl-Cahiz Əbu Osman Amr bin Bəhr. (2002). *Rəsailul-Cahiz (ər-Rəsailul-ədəbiyyə).* 3 cilddə. (Nəşr edən: Əli Əbu Mülhim), Beyrut: Daru və məktəbətul hilal.
14. əl-Cündi Ənvər (Nəşr tarixi qeyd olunmayıb). *əl-Lüğətil-ərəbiyyə bəynə hümatiha və xüsumihə.* Qahirə: Mətbəətür-risalə.

15. əl-Əndəlüsi İbn Həzm. (1983). *Rəsailu İbn Həzm (ət-Taqrib li həddil-məntiq vəl-mədxəl ileyh).* (Nəşr edən: İhsan Abbas), Beyrut: Müəssəsətül-ərəbiyyə lid-dirasat vən-nəşr.

16. əl-Xuli Əmin. (1944). "Həzən-nəhv". *Məcəllətü kulliyətil-adab.* 7/7, (29-59).

17. əl-Xuli Əmin. (1961). *Mənahicu təcdid fin-nəhv vəl-bəlağə vət-təfsir vəl-ədəb.* Qahirə.

18. əl-Qurtubi Əbül-Abbas İbn Maza. (1947). *ər-Rədd alən-nühat.* (Nəşr edən: Şövqi Zeyf), Qahirə: Darul-kutubil-ərəbi.

19. Xələf əl-Əhmər, Əbu Mühriz. (1961). *Müqəddimə fin-nəhv.* (Nəşr edən: İzəddin ət-Tənuxi), Dəməşq, Vizarətüs-səqafə vəl-irşadül-qavmi.

20. İbn Cinni Əbül-Fəth Osman, (Nəşr tarixi qeyd edilməyib). *əl-Xəsais.* 3 cild. Qahirə: əl-Məktəbətül-ilmiyyə.

21. İbn Rüşd Əbül-Vəlid Muhəmməd bin Əhməd. (2010). *əz-Zəruri fi sınaatin-nəhv.* (Nəşr edən: Mənsur Əli Abdüssəmi), Misir: Darüs-sahvə.

22. Məmmədəliyev Vasim. (1985). *Ərəb Dilçiliyi.* Bakı: Maarif Nəşriyyatı.

23. Saleh Sübhi. (2009). *Dirasat fi fiqhil-lüğə.* Beyrut: Darül-elm lil-məlayin.

24. Sarmış İbrahim (1991). "Arapça"ya Yöneltilen Bazı Eleştiriler". Selçuk Üniversitesi İlahiyat Fakültesi Dergisi. 4 (121-150).

25. Sühad Həmdan Əhməd. (2013). Təysirün-nəhv indəl-mühdəsin". *Məcəlltü Sürra mən Raə.* 9/34 (277-298).

26. Şimşek Şahin. (2018). *Arap Gramerinin Kolaylaştırılması Bağlamında Yenilikçilik Hareketleri ve Arapça Öğretimine Etkileri.* Sivas: Cumhuriyet Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Doktora Tezi.

27. Toprak M.Faruk. (1995). "Reformist Bir Arap Gramercisi İbn Maza". *Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi.* 37/1-2 (s. 207-212).

28. Zeyf Şövqi (1981). "Təysirün-nəhv". *Məcəllətül-məcməil-lüğətil-ərəbiyyə.* 28 (s. 109-121).

29. Zeyf Şövqi. (1982). *Təcdidün-nəhv.* Qahirə: Darül-məarif.

30. Zeyf Şövqi. (1986). *Təysirün-nəhvit-təlimi qadimən və hədisən məa nəhci təcdidih.* Qahirə: Darül-məarif.

д-р филос. по филос. Гафгаз Абдурахманов

ОЧЕРК ВОПРОСА О РЕФОРМЕ СИСТЕМЫ АРАБСКОЙ ГРАММАТИКИ С ДРЕВНИХ ВРЕМЕН ДО НАШИХ ДНЕЙ

РЕЗЮМЕ

Как известно, с начала VII века в результате арабо-исламских завоеваний расширились границы Арабского халифата и арабы стали жить совместно с новообращенными в ислам неарабами. По мере того, как арабский язык, принятый в качестве официального языка халифата, начал использоваться неарабами, в языке появлялось все больше грамматических ошибок (ляхн), и арабский язык, до тех пор сохранявший "чистоту", рисковал потерять свою оригинальность. Наблюдение указанных грамматических ошибок и в чтении Священного Корана побудило мусульманских лингвистов и грамматиков собрать и систематизировать правила арабского языка. В результате, в I-III веках хиджры появилась обширная литература в области арабской грамматики.

Помимо того, что арабский был языком Корана и хадисов, изучение арабского языка стало необходимостью для неарабов и по некоторым политико-социальным причинам. Тот факт, что существующие книги по грамматике были объемными и написаны чрезвычайно высокопарным слогом, затруднял преподавание арабского языка. По этой причине еще на ранних стадиях были предприняты определенные инициативы с целью облегчения преподавания арабского языка. Первые шаги в этой сфере были сделаны Халяфом аль-Ахмаром и аль-Джахизом, а затем достигли кульминации с критикой Ибн Хазма и Ибн Маджа в отношении арабской грамматики.

В XIX веке вопрос об упрощении арабского языка вновь привлек внимание арабских научных кругов, в связи с чем было разработано множество исследований и проектов, таких как "ихьяун-нахв", "ислахун-нахв", "тадждидюн-нахв", "тайсирун-нахв" и др. Статья рассматривает инициативы по реформированию современных арабских лингвистов и филологов, наряду со средневековыми лингвистами, а также их характерные особенности. В статье помимо классических источников, таких как

"Мугаддима фин-няхв" Халяфа аль-Ахмара, "аль-Хяйаван" аль-Джахиза, "ат-Тагриб ли хаддил-мантиг вал-мадхал илейх" Ибн Хазма, "ар-Радд алан-нухат" Ибн Маджа, "аз-Зарури фи синаатин-нахв" Ибн Рушда, были также использованы написанные по теме современные источники. Мы полагаем, что статья укажет путь тем, кто хочет провести более подробное исследование по этой теме.

Ключевые слова: *реформа, лингвист, филолог, грамматика, арабский язык.*

PhD Gafgaz Abdurahmanov

OVERVIEW OF THE REFORM OF THE ARABIC GRAMMAR SYSTEM TO THE PRESENT

ABSTRACT

As we know, as a result of the rapid spread of the Arab-Islamic conquests from the beginning of the 7th century, the borders of the Arab Caliphate expanded, and the Arabs began to live alongside non-Arabs who had just converted to Islam. When Arabic, the official language of the Caliphate, began to be used by non-Arabs, grammatical errors increased and Arabic, which until then had remained pure, was in danger of losing its originality. Observing these grammatical errors while reading the Holy Qur'an prompted Muslim linguists and grammarians to collect and systematize the rules of the Arabic language. As a result, in the 1st-3rd centuries AH, a significant literature in the field of Arabic grammar was formed.

Apart from being the language of the Qur'an and hadith, Arabic has become a necessity for non-Arabs for some political and social reasons. The large size of existing grammar textbooks and their extremely complex style made it difficult to teach Arabic. For this reason, some initiatives have been taken since the earliest times to facilitate the teaching of the Arabic language. The first steps in this direction were taken by Khalaf al-Ahmar and al-Jahiz, and then ended with the criticism of Arabic grammar by Ibn Hazm and Ibn Maza.

The problem of simplifying the Arabic language again attracted the attention of the Arab scientific community back in the 19th century, many studies and projects have been developed under the names “ihyaun-nwhw”, “islahun-nahw”, “tajdidun-nahw”, “taysirun-nahw” etc. This article provides information on the reform initiatives of modern Arab linguists and philologists, as well as medieval linguists, and their characteristics. The article includes *Mukaddim fin-nahw* of Khalaf al-Ahmar, *al-Hayavan* of al-Jahiz, *at-Təgrib li haddil-mantig val-madkhal ileyh* of Ibn Hazm, *ar-Radd alan-nuhat* of Ibn Maza, *az-Zaruri fi sınaatin-nahw* of Ibn Rushd. In addition to classical sources, modern sources on this topic were also used. For this reason, we believe that our article will serve as a guide for anyone looking to do more research on this topic.

Keywords: *reform, linguist, philologist, grammar, Arabic language*

ƏNƏNƏVİ ƏRƏB QRAMMATİKASININ FORMALAŞMASI

Elman Salahov,
AMEA akad. Z. Bünyadov adına Şərqşünaslıq İnstitutu
Ərəb ölkələri iqtisadiyyatı və tarixi şöbəsinin elmi işçisi
salahovelman005@gmail.com

XÜLASƏ

Ənənəvi ərəb qrammatikasının formalaşması ənənələrinin başlanğıcı VII-VIII əsrlərə təsadüf edir. Yeni bir dinin – İslamın bayrağı altında aparılan geniş fəthlər nəticəsində Ərəbistanın özü ilə yanaşı, bir sıra Qərbi Asiya, Şimali Afrika və İberiya ərazilərini də əhatə edən, mərkəzi Bağdadda yerləşən Ərəb Xilafəti qurulur. Ərəb dili xilafətin rəsmi, işgüzar və elmi dili olaraq qəbul edilir.

Beləliklə, xilafət bir çox ümdə vəzifələri reallaşdırmalı idi; birincisi, çoxsaylı "yerli" xalqlara ərəb dilini öyrətmək, ikincisi, klassik dilin "saflığını" sonuncu dillərin təsirindən qorumaq; üçüncüsü, Quranı-Kərimin onsuz da qaranlıq qalan hissələrini izah etmək. Təbii ki, dil problemlərinin araşdırılmasına toxunanda ərəb alimləri hind və yunan ənənələrinin kifayət qədər tanış olduqları nailiyyətlərdən yararlanırdılar.

Ərəb dilinin müəyyən qrammatik hadisələrinin təsvirləri VII əsrə aiddir. VIII əsrin birinci yarısında Dəclə və Fərat çayları hövzəsində yerləşən iki şəhər – Bəsrə və Kufədə bir-biri ilə rəqabət edən gimnaziya məktəbləri meydana gəldi. Birincisinin qurucusu İsa ibn Ömər Saqafi, ikincisininki isə Əbu Cəfər Məhəmməd ər-Ruasi sayılır. Daha sonra, ən vacib təmsilçisi İbn Cinni olan Bağdad məktəbi və nümayəndələri arasında Məhəmməd ibn Malik və İbn Sidanın adı olduğu Əndəlüs məktəbi (11-13-cü əsrlər) meydana gəldi.

Bağdadın monqollar tərəfindən fəthindən və ərəblərin tədricən İspaniyadan çıxarılmasından sonra ərəb elminin mərkəzi Misir və Suriyaya köçdü, lakin burada şərhçi və populyarlaşdırıcı fəaliyyətlər, artıq ön plana çıxmağa başladı.

Açar sözlər*: qrammatika, dilçilik, ənənə, əsər, şərh.*

Giriş

İslam ən vacib missioner dinlərdən biri olaraq VII əsrdə tarixi səhnəyə çıxdı. Məhəmmədin (s.a.s.) xütbəsi ərəb dilində səsləndirilmiş və davamçıları tərəfindən qeyd edilmişdir. Bu qeydlər müvafiq sistemləşdirmədən sonra İslamın əsas qanunu olan Qurani-Kərimin mətnini təşkil etdi. Məhəmməd (s.a.s.) haqq dünyasına getdikdən sonra, İslamın missioner təbliğatı və dini fəthi qısa müddətdə bütün Orta Şərqi, Şimali Afrikanı, Orta Asiyanı, daha sonra İberiya (Priney) yarımadasını, daha sonra Hindistan və İndoneziya ərazisini, Ekvatorial Afrikanı və İslam ölkələrini əhatə edir. Mədəniyyətin ən fərqli mərhələlərində dayanan bir çox xalqları vahid dində birləşdirir. Beləliklə, yüksək səviyyədə inkişaf etmiş və bir sıra dövlət sivilizasiyalarının ənənələrini qoruyan İran və Bizans və onlarca birlikdə sivilizasiya ilə ilk tanış olan qəbilələrin əraziləri islamlaşır. Bu konqlomeratda dini birliyin qorunması Qurani-Kərimin yerli dillərə tərcümə edilməsi və ərəb dilinin yayılması ümdə vəzifələrdən idi.

Ərəb dili müqəddəs mətnlərin dili kimi yayılır. Xəlifə Osman (v. 644-656) Qurani-Kərimin müqəddəsləşdirilməsi aktını həyata keçirdi və onu daha geniş miqyasda yaymağa çalışdı. Eyni zamanda, Quran-Kərim mətninin düzgün oxunması üçün daha çox şərh, xüsusən də filoloji tələbin zəruri olması ortaya çıxdı. Ənənə deyir ki, on il sonra Məhəmmədin (s.a.s.) kürəkəni Xəlifə Əli alim Əbul-Əsvada mətnin düzgün oxunmasını əsaslandırmaq və bununla hermenevtik şərhinə başlatmaq üçün dilçilik sahəsində araşdırma aparmağı tapşırdı. Əli ərəb qrammatikası sistematikasının əsas prinsipini təklif etdi, sözlərin əsas siniflərini göstərdi: ad, feil, hissəcik.

Ənənəvi ərəb dilçiliyi vahid ərəb ədəbiyyatı elmində yaranır və filoloji tədqiqatların fərqləndirilməsi nəticəsində klassik ərəb dilinin qrammatikası və lüğətinin, ərəb ritorikasının müstəqil tədqiqi kimi önə çıxır. Ərəb dilinin ənənəvi nəzəriyyəsi Bəsrə, Kufə, Bağdad, Əndəlüs və Misir-Suriya filoloji məktəblərində inkişaf etdirilir.

VII əsrdə Bəsrii Əbul-Əsvad əl-Duali ərəb dilinin fərdi qrammatik hadisələrinin təsvirində iştirak edən və söz dəyişikliyini ifadə etməyə xidmət edən sait fonemləri göstərmək üçün ərəb əlifbasına əlavə qrafik işarələr daxil etmişdir.

İndiki İraqın ərəblər tərəfindən fəth edildikdən sonra meydana çıxan dil məktəblərinin ən əhəmiyyətlisi Bəsrə, Kufə və Bağdad məktəbləri idi.

Bəsrə və Kufə məktəbləri arasında daim ərəb dilinin qrammatikası mövzusunda kəskin mübahisələr aparılırdı.

İlk ərəb qrammatika kitabı Basrəli Sibəveyhinin "əl-Kitab" əsəridir. Bu əsər çoxsaylı və geniş şərhlərin obyekti oldu və Sibəveyhinin bu günə qədər nüfuzunun toxunulmazlığını təmin etdi.

Ərəb alimləri, ümumiyyətlə, qrammatikanı sintaksis, morfologiya və fonetikaya bölərək, söz əmələgətirmə məsələlərinə çox diqqət yetirmişlər. Sintaksis və morfologiya nə yunan, nə də Hindistan əsərlərində mənbələri olmayan və ərəb dilinin özəlliklərinə diqqətçəkən ərəb qrammatikasının ən orijinal hissələridir.

İndiki İraqın ərəblər tərəfindən fəth edildikdən sonra meydana çıxan dil məktəblərinin ən əhəmiyyətlisi Bəsrə, Kufə və Bağdad idi.

Bəsrə və Kufə məktəbləri arasında daim ərəb dilinin qrammatikası mövzusunda kəskin bir mübahisə aparılırdı. Bəsrəlilər analogist, purist meyillərin daşıyıcısı, Quran-Kərim dili və şerinin klassik normalarına ciddi əməl edənlər kimi çıxış edirdilər. Digər tərəfdən, kufəlilər danışıq nitqinə yönəlmiş və Hicaz ləhcəsini ərəb orfoepiyasının standartı hesab edən bir sıra sapmaların mümkünlüyünü qəbul edən analitiklər idilər. Bəsrəlilər söz birləşməsi və formadüzəltmə üçün başlanğıc vahid olaraq hərəkət vahidi - məsdəri, kufini isə keçmiş zamanın fel forması olaraq seçirdilər.

Ərəb dilinin öyrənilmə ənənələri

Ədəbi ərəb dilinin öyrənilməsi ənənəsi VII əsrdə Orta Şərqdə Ərəb xilafətinin yaranması dövrünə təsadüf edir. Ərəb qrammatikası sisteminin inkişaf etdirilməsinə ehtiyac müxtəlif amillərdən və hər şeydən əvvəl, vahid dövlətin yaradıldığı zamana qədər Ərəbistan yarımadasının bütün tayfaları üçün ortaq bir dilin ictimai fəaliyyətinə ehtiyacın yaranmasından qaynaqlanırdı. Bu dilin istifadəsi onun ədəbi normasını müəyyənləşdirmək və ərəb dilinin tədrisi üçün metodologiyanı inkişaf etdirmək vəzifəsini önə çəkdi, bu da onun dərin elmi tədqiqini nəzərdə tuturdu.

Ərəblər dini etiqadlarına görə, Qurani-Kərimin mətninin təsbitini, qorunmasını, təfsirini və öyrənilməsini, habelə müsəlman kitablarının mənasının təhrif olunmasının qarşısını almaq üçün düzgün tələffüz və təfsirini təmin etməkdən ötrü qəti tədbirlər görməli idilər. Bu vəzifə yalnız ədəbi ərəb dili üçün ciddi qaydalar sisteminin reallaşacağı zaman uğurla həyata keçirilə bilərdi.

Quran Kərimin yazılması və redaktə edilməsi dövrü ənənəvi ərəb qrammatikasının formalaşmasında mühüm bir mərhələ idi. Fəth edilmiş xalqlar arasında azlıq təşkil edən ərəblər dillərinin saflığına həsəd aparırdılar, onun zənginliyini yüksək qiymətləndirirdilər və dil faktlarını toplamaq, sistemləşdirmək və öyrənmək üçün böyük səylər sərf edirdilər.

Eyni zamanda, ərəblər fəth edilmiş xalqların topladığı çoxəsrlik təcrübəni, elm və mədəniyyət nailiyyətlərini öyrənməyə və istifadə etməyə çalışırdılar. İslamın ilk əsrlərində Misir, Suriya, Mesopotamiya və İrandan olan alimlər ərəb hökmdarlarının saraylarına axışırdılar. Yunan elminin ən görkəmli nümayəndələrinin - Aristotelin, Hippokratın, Ptolomeyin, Evklidin əsərləri, habelə Hindistan alimlərinin traktatlarının və bədii əsərlərinin tərcümələr yolu ilə ərəblərə tanıdılması istiqamətində böyük işlər həyata keçirilirdi.

Ənənəvi ərəb qrammatikasının formalaşması ərəb filoloqlarının dilin müəyyən məsələləri barədə əvvəllər söylədikləri səpələnmiş fikirlərin və başqa dillərin həsəd apara biləcəyi qrammatik qaydaların ardıcıl bir sisteminə çevrilməsindən əvvəl uzun yol keçmişdir. D.V.Frolov ənənəvi ərəb qrammatikasının inkişafını üç əsas mərhələyə bölürdü: elmin formalaşma mərhələsi və onun kanonunun inkişafı (VIII əsrin ortaları - X əsrin əvvəlləri), sonrakı dövrlərdə yaranan məktəblərin sintez mərhələsi (X - XII əsrlər), sistemləşdirmə və ensiklopedləşmə mərhələsi (XIII - XV əsrlər)" [9, s. 7].

Həzrət Məhəmmədin (s.a.s.) dünyasını dəyişməsindən sonra qurulan və Ərəbistan yarımadası xaricində ərəb həyatının və ictimai düşüncəsinin əsas mərkəzləri olan Bəsrə və Kufə böyük paytaxtın – Bağdadın meydana çıxmasına qədər, ərəb qrammatik elminin doğulduğu yer hesab olunurdu. Bəsrə və Kufə (VII-X əsrlər), Bağdad (X-XIII əsrlər), daha sonra Əndəlüs (İspaniya XI-XIII əsrlər) və Misir-Suriya (XIII-XIX əsrlər) məşhur filoloji məktəblərin meydana çıxdığı məkanlar idi.

Ənənəvi ərəb dilçiliyi, Qurani-Kərim tədqiqatları ('ulum-l-qur'ān), hədis araşdırmaları ('ulūm-l-hadīs) ilə yanaşı, metodoloji və ideoloji əsasların vəhdəti ilə xarakterizə olunan ümumi İslam elmləri kompleksi (əl-ulūm-l-'islamiyə) çərçivəsində İslam qanunları (əl-fiqh) və digər ənənəvi humanitar biliklər aralarında kəskin bir sərhəd qoymadan yuxarıda qeyd olunan məktəblərdə nəzərdən keçirilmişdir [7, s.211].

Ərəb dil ənənəsi hind və yunan-latın ilə birlikdə dünyadakı üç əsas dil ənənələrindən biridir. Eyni zamanda, V.S.Rybalkinin fikrincə, dilçilik tarixinə dair ən böyük əsərlərdə ona layiqincə az yer ayrılmışdır ki, bu da ümumdünya dilçiliyində bu ənənənin həqiqi əhəmiyyətinə uyğun gəlmir [8, s. 6].

Problemin böyük əhəmiyyəti və eyni zamanda, kifayət qədər öyrənilməməsi səbəbindən bu məqalənin məqsədi ərəb dilçilik ənənələrinin nəzəri irsini qədim ərəb filoloqlarının elmi fəaliyyətləri və 7-14 əsrlərin orijinal traktatları əsasında öyrənməkdir. Ərəb dilçilik ənənəsi Orta Şərqdə ərəb ədəbiyyatı elminin formalaşması dövründə meydana gəlmişdir. Onun yaradılmasında və inkişafında müxtəlif millətlərin nümayəndələri iştirak etmişlər. Klassik ərəb nitqinin (poetik və prozaik) empirik öyrənilməsindən irəli gələn ərəb dilçilik ənənəsi praktik bir oriyentasiya ilə xarakterizə olunur. Onun meydana gəlməsi Ərəb yarımadasının bütün qəbilələri üçün ortaq olan dilin sosial fəaliyyətinə ehtiyac yarandığı zaman, ərəb qəbilələrinin vahid bir dövlətə birləşməsi dövründən başlayır - gələcəkdə normaları müəyyənləşdirmək vəzifələri, Ərəb xilafətinin ictimai həyatının bütün sahələrində dil öyrənərkən Qurani-Kərim və onun saflığının qorunması xüsusi əhəmiyyət kəsb edir [5, s. 20].

Məşhur ərəb filoloqlarından biri bəsrəli əl-Xəlil ibn Əhməd əl-Fərahidi (təqribən, 718-791) ənənəvi ərəb dilçiliyinin problemləri və metodlarının formalaşmasına böyük töhfə vermişdir. O, hərfin ən kiçik analiz vahidi olduğu ərəb sözünün ritmik və morfoloji quruluşunun nəzərə alındığı metrik versifikasiya sistemi doktrinasının - aruda nəzəriyyəsinin banisidir. Bu, minimal prosodik nitq vahidi, ərəb qrammatikləri tərəfindən, ərəb alimlərinin fizioloji baxımdan heç bir sərhəd çəkmədikləri iki ünsürün - samit və saitin bölünməz ikili dəsti kimi başa düşülür. Xüsusilə, əl-Xəlil yazılarında samiti samitdən ayırmır. Üstəlik, bu ona qeyri-mümkün bir iş kimi görünür, çünki samiti ayrı-ayrı tələffüz etməyə çalışdığımızda qaçılmaz olaraq bir sait əlavə edirik - qısa və ya bir an. Ənənəvi ərəb qrammatikasında bir samit bir varlıq, bir sait bir qısa və ya muxtar bir varlığı olmayan və asılı mövqe tutan ünsür olaraq qəbul edilir. Bu nəticə əl-Xəlilin nöqteyi-nəzərini təsdiqləyir: "Hər hərfin səsi və dəyişməsi var. Səs hərfin mahiyyəti, məzmunudur. Dəyişiklik özünü hərfin sait komponentində göstərir" (əl-Xəlilin fikirlərinin bu şərhi G.M.Qabuçanın məqaləsində verilmişdir [3, s. 121]). Qədim yunan filosofları eyni mənanı bir samit və

sait komponentlərindən ibarət vahid kimi qəbul etdikləri "heca" anlayışına da aid edirdilər.

Əl-Xəlil sözlərin əlifba sırası ilə deyil, fonetik-fizioloji prinsipə uyğun olaraq düzəldildiyi məşhur "Ainu-Kitəbı" lüğətinin müəllifidir. Burada sözlər nitq aparatında samitlərin əmələgəlmə yerindəki tədricən dəyişikliyi əks etdirən qaydada (qırtlaqdan, dil və dental səslərdən dodaq səslərə) yerləşdirilir. Ərəb dilini müşahidə edərkən əl-Xəlil və sonra digər ərəb qrammatikləri qiymətli nəticələr və orijinal müşahidələr əldə etdilər; səslərin ətraflı təsvirini tərtib edib, onların uyğun təsnifatını verdilər. Xüsusilə səsli və səssiz, gərgin və gərgin olmayan, qapalı və açıq, "qaldırılan" və "qaldırılmayan" (dili qaldıraraq) səslər seçildi. Əl-Xəlil klassik ərəb dilində danışma aparatında (məxaric) səslərin əmələ gəlməsinin 8 əsas yerini seçdi, bu da ən məşhur qədim hind qrammatikasında - məşhur Panini (e.ə. V əsr) tərəfindən tərtib edilmiş "Səkkiz kitab"da bəhs edilən 8 "yerə" (stana) tam uyğundur.

Əl-Xəlil "ayn" qrafeması ilə başlayan "Kitāb al-'Ayn" ("ayn hərfi kitabı") lüğətinin müəllifidir. Bu kitabın əhatə etdiyi sözlər tərkibindəki kök samitlərinin artikulyasiya xüsusiyyətlərinə görə yerləşdiyindən, qırtlaq, dil, diş və dodaq, səslərin təsnif edilməsinin bu prinsipi hind dilçilik ənənəsinin təsir imkanlarını qəbul etməyə əsas verdi. Əl-Xəlil fonetik bir fenomenin təhlili və təsvirinin üç cəhətini fərqləndirdi: qrammatik strukturların formalaşması zamanı baş verən ilkin xüsusiyyətlər, mövqe variantları və səslərdəki dəyişikliklər. Alim Qurani-Kərim, şeir və təhsil mətnləri yazarkən bu günə qədər istifadəsini qoruyub-saxlayan sözdə saitləri ərəb qrafikasına daxil edərək, qısa sait fonemlərin adlanması üçün işarə sistemini təkmilləşdirmişdir [1 s. 53].

Hindistan və yunan qrammatik sistemlərinin ərəb dilçilərinin, xüsusən fonetika sahəsində baxışlarının formalaşmasına təsirinə baxmayaraq, bu təsir yalnız xarici dil nəzəriyyələrinin passiv qavrayışı və onların ərəb dilinin materialına uyğunlaşması kimi qəbul edilə bilməz. Ərəb alimləri təcrübi olaraq toplanan geniş bir materialı araşdırdılar. Dilin quruluşunun ümumi prinsiplərini bilmək üçün əsas olan təcrübi yanaşma ərəb qrammatiklərinin araşdırma metodunu fəlsəfədən asılı olan bir çox baxışlarında yunanlardan xeyirli şəkildə fərqləndirdi. Ərəb dilçilərinin dilə gətirdiyi, geniş bir dil faktlarına tətbiq olunan xüsusi iradlar tədricən qaydalar şəklinə düşdü və uyğun ərəb qrammatikası şəklində rəsmiləşdirildi. Bir çox tədqiqatçı xarici təsirlərə ən az həssas olan və hər hansı bir başqa dilin məntiqindən fərqli olaraq

öz məntiqinə sahib olan ilkin bir ərəb elmi olaraq qalmış qrammatikanın məhz ərəb dilinin qrammatikası olduğunu qeyd edir [10 s.84].

Ərəb qrammatika məktəbləri
və onların görkəmli nümayəndələri

Bütün ərəb qrammatika sistemini tam bir şəkildə izah edən ən görkəmli dilçi, yekdilliklə əl-Xəlilin davamçısı - VIII əsrin ikinci yarısının Bəsrə dilçisi, əsl adı Əbu Bişr Əmr ibn Osman ibn Kambar olan Sibəveyhi sayılır. Son dərəcə məşhur "əl-Kitab" ("Kitab") əsərində Bəsrə məktəbinin əvvəlki qrammatik inkişafını ümumiləşdirən o idi. Bu əsər həm müasirləri, həm də sonrakı ərəb alimlərinin nəsilləri tərəfindən o qədər əzəmətli və mükəmməl hesab olunurdu ki, bütün sələflərinin işinə kölgə salaraq böyük nüfuz qazanmışdı. Bəsrə və Kufə qrammatik məktəbləri arasında mövcud olan kəskin rəqabətə baxmayaraq, bəsrəli Sibəveyhinin əsəri kufilər arasında hörmətlə qarşılanmışdır.

Bütün sonrakı nəsil alim-filoloqları bu əsərin məzmununa ciddi dəyişiklik gətirmədən, əslində, "Kitab"ı şərh etmək, fərdi müddəalarını aydınlaşdırmaq və ya materialı yeni bir şəkildə düzəltməklə kifayətləndilər. VIII əsrin sonu - IX əsrin əvvəllərindəki məşhur bəsrəlı qrammatiklər arasında əl-Əhfaş, Əbu Usman əl-Mazini, əl-Mübarad qeyd edilməlidir.

Sibəveyhinin "Kitab"ını təsvir edərkən, həmişə məktəblərdə praktik istifadə və ya xarici müsəlmanlar tərəfindən klassik ərəb dilinin öyrənilməsi üçün daha çox nəzəri tədqiqatdan ötrü nəzərdə tutulan ciddi bir filoloji əsər olaraq qaldığını qeyd etmək lazımdır.

Kufə filoloji məktəbinin nümayəndələrinin ərəb dili ənənəsinin formalaşmasına verdiyi əhəmiyyətli töhfələrə baxmayaraq, bu alimlərin işləri Bəsrə rəqiblərinin işləri ilə müqayisdə daha az tanınır. Yəqin ki, səbəblərdən biri də Sibəveyhinin "Kitab" əsərinin ərəb qrammatiklərinin sonrakı nəsillərinin gözündə bütün digər əsərləri kölgədə qoymasıdır. Buna baxmayaraq, ərəb filoloqları və biblioqraflarının ifadəsinə görə ərəb dilinin ilk Kufə qrammatikasını yaratmış Kufə məktəbinin qurucusu Əbu Cəmfər Məhəmməd ər-Rüasnini əsərlərini qeyd etmək lazımdır. O, eyni zamanda, "Tək və çoxluğun kitabı" risaləsi ilə tanınır. Kufə məktəbinin tədqiqat prinsiplərini böyük ölçüdə müəyyənləşdirən filoloq əl-Kisainin fəaliyyəti VIII əsrin sonlarına aiddir. Əsərlərindən ilk dəfə elmi cəhətdən işlənmiş mövzular dairəsində "səhvlər" adlandırılan klassik ərəb dilindən müxtəlif dialektal sapmalara dair material cəlb etməsi ilə dəyərli olan "Adi insanların nitqində-

ki qrammatik səhvlər haqqında bir risalə" bizə qədər gəlib çatmışdı. Digər Kufə qrammatistlərindən də bəhs etməmək mümkün deyil: Yahya ibn Ziyad əl-Fərra X əsrin əvvəllərində ərəb ədəbi dilinin qrammatik nəzəriyyəsinin əsas müddəaları nəhayət sistemləşdirildi, qrammatik analizin konseptual aparatı və terminologiyası quruldu. Bu zamana qədər ərəb dilçilik ənənələrində qrammatik təhlilin əsas cəhətləri aydın şəkildə fərqlənirdi: 'ilm an-nahv - bir adın və bir felin dəyişmə təlimidir; 'Ilm al-harf - qrammatik strukturların formalaşması zamanı söz əmələ gətirmə və fonetik dəyişikliklər haqqında təlim; 'Ilm al-luğa – leksikologiya; İbn Fərisin əsərlərində əhəmiyyətli dərəcədə dil məsələləri nəzərdən keçirildi: "Leksik normalar haqqında bir kitab", "Ərəblərin danışıqları haqqında ənənələri", "Söz ehtiyatı haqqında qısa bir inşa". Yaranmış problemlər arasında ərəb dilinin lüğət həcmi, söz ehtiyatının istifadəyə görə təsnifatı, orijinal və alınmış söz ehtiyatı sözün birbaşa və məcazi istifadəsi, özünəməxsusluq və polisemiya, omonimiya və sinonimiya arasındakı əlaqə.

Bağdad məktəbinin filoloqlarının fəal işi, Ərəb xilafətinin bir sıra müstəqil dominionlara və şəhərlərə ayrıldığı (XI əsrin əvvəlləri) və elmi işlərin mərkəzi Müsəlman dünyasının Şərq ölkələrinə köçdüyü ərəb tarixinə təsadüf edir. Tacik və fars dillərinin bu dövrdə canlanmasına baxmayaraq, ərəb dili hələ də elm və dinin dili olaraq qaldı. Klassik ərəb, artıq canlı ünsiyyət vasitəsi deyildi, həm də bu dildə yazılmış, elmi müzakirələr üçün istifadə edilmiş və ən əsası da dilçilərin araşdırma obyekti olaraq qalmış klassik ərəb dili idi.

Ərəb dilinin qrammatik təlimlərinin ərəb dili ənənələrinin müstəqil bir hissəsi kimi formalaşması mərhələsi başa çatır. Bu, leksikoloji tədqiqatlarının xüsusi bir elmi intizama ayrılmasına kömək edir ('ilm al-luğa).

X əsrin birinci yarısında Bağdad məktəbində "Ərəb dilinin xüsusiyyətləri" kitabında yer alan İbn Cinninin əsərlərindəki qrammatik təlimlərin inkişafı ilə əlaqəli ərəb dili ənənələrinin üçüncü istiqaməti inkişaf edir. "Ərəb dilinin xüsusiyyətləri" kitabında sözlər və məna arasındakı əlaqə, sözün söz əmələ gətirmə quruluşları, sözün mənası və istifadəsi ilə bağlı qrammatik, əslində, leksikoloji məsələləri işıqlandırır. İbn Cinni nəzəri cəhətdən mümkün olan hərf birləşmələrinin bütün tərkibinin hansı kəmiyyət baxımında ərəb dilinin lüğətində reallaşdırıldığını təcrübə ilə müəyyənləşdirdi [2, s. 32].

XI-XII əsrlərin Müsəlman dünyasının ən böyük elm adamlarından biri əz-Zəməxşaridir (1075-1144). Tacikkökənli olaraq Şərqdə

klassik halına gələn qrammatika "əl-Mufassal" ("Ayrıntılı" və ya "Fəsillərə bölünmüş") dərsliyini yazaraq, ərəb dilini mükəmməl bir şəkildə öyrəndi.

Həmvətənlərini ərəb dilinin və ədəbiyyatının zənginliyi ilə tanış etmək və Müqəddəs Kitabın (Qurani-Kərim) ayrı-ayrı surələrinin mexaniki əzbərlənməsini deyil, başa düşülməsini təmin etmək məqsədilə ərəbcə-farsca "Muqaddimət al-ədəb" lüğətini tərtib etdi. Nəhayət, əl-Zaməxşəri qələminə Qurani-Kərimin böyük bir təfsiri aiddir. Müəllif ortodoksal olmasa da, demək olar ki, bir kanon mənasını qoruyub saxlayır. Bu şərhdə əl-Zaməxşəri uyğunsuzluqlar üzərində ətraflı dayanaraq və fərdi variantların düzgünlüyünü qədim poeziyadan zəngin sitatlarla əsaslandıraraq leksikoloji aspektinə xüsusi diqqət yetirmişdir. Əslində, Qurani-Kərimin təfsiri mətnin ilk elmi tənqidi ilk nümunəsi idi.

XI-XIII əsrlərə görə, ən parlaq nümayəndələrindən biri İspaniyada anadan olan Məhəmməd ibn Malik (1206-1274) Əndəlüs filoloji məktəbinin fəaliyyətini əhatə edir. Ən böyük şöhrət ona "Əlfiyya" ("Min") poetik qrammatik traktatını gətirdi. Min bənddən ibarət olan qrammatika üzrə bu didaktik şeir, təqdimat sadəliyi və ərəb qrammatikası materialının aydın bir düzülüşü ilə seçilirdi. Bu, İbn Malikin traktatının ərəb dilçilərinin əvvəlki əsərləri ilə müqayisədə böyük populyarlığına səbəb oldu. "Əlfiyya" bir müddət, hətta Sibəveyhinin "Kitab"ının şöhrətini kölgədə qoydu. İbn Malikin əsas xidməti, sintaktik prinsipi ərəb qrammatikasının təsvirinə daxil etmək cəhdi idi. Onun bütün risaləsi bu məqsədə tabedir, əsas hissəsində müxtəlif nitq hissələrinin sintaktik əlaqələrinin bütün mümkün variantları və sözlərin ayrı-ayrı kateqoriyalarının onları ifadə etmək qabiliyyəti ətraflı təsvir edilmişdir.

Əndəlüs məktəbinin digər görkəmli dilçisi İsmayıl ibn Sida (vəfat tarixi - 1066) idi. Doğuşdan kor olan bu alim özündən sonra iki böyük lüğət qoyub getdi. Bunlardan birincisi – "əl-Müxəssəs" (sözün əsl mənasında "xüsusi hazırlanmış") - sözlərin mövzu qruplarına, müəyyən siniflərə görə düzəldildiyi tematik lüğət xüsusi maraq doğurur. On yeddi cilddə nəşr olunan bu əsərin müqəddiməsində İbn Sida bəzi leksikoloji və semasioloji məsələləri ətraflı araşdırır.

Qədim Yunanıstan və Hindistanın dil təlimlərinin müəyyən bir rol oynadığı ənənəvi ərəb qrammatik nəzəriyyəsi, öz növbəsində, Orta əsr alimlərinin türkşünaslıq sahəsində elmi baxışlarının formalaşmasına təsir göstərmişdir. Bu baxımdan, əsərləri müasir türkoloqlar

üçün təməl olan orta əsrlərin ən böyük alimlərindən olan Mahmud Kaşğaridən bəhs etməmək olmaz. Mahmud Kaşğarinin 1073-1074-cü illərdə yazdığı çoxcildli "Divan luğat- t-türk" ("Türk dilləri Divanı") əsəri o dövrdə geniş bir türk ləhcəsi lüğəti, həqiqi "türk ensiklopediyası" idi.

Əndəlüs məktəbinin fəaliyyəti bu dövrə təsadüf edir, bunların arasında "Min nağıl" poetik qrammatik traktatının müəllifi Məhəmməd ibn Malik və tematik lüğətin "əl-Müxəsəs"in tərtibçisi İbn Sida da var, ön sözündə leksikoloji və semasioloji mövzuları ətraflı əhatə edir. Monqollar tərəfindən Bağdadın fəthindən və ərəblərin İspaniyadakı təsirinin zəifləməsindən sonra ərəb elminin mərkəzi Misir və Suriyaya köçdü.

XIII əsrin filoloqları İbn Yaiş və İbn əl-Hacıb tərəfindən əhəmiyyətli dilçilik əsərləri yaradılmışdır. XIV əsrin dilçiləri İbn Hişam, XV əsr filoloqu əl-Suyuti və XV əsr filoloqu, ənənəvi ərəb qrammatikası və leksikologiyasının müxtəlif problemləri barədə fikirlərinin toplandığı və təqdim olunduğu "Leksikologiya, leksikoqrafiya və onların növləri üzrə elmlər çırağı" risaləsinin müəllifi İbn əs-Suyuti əhəmiyyətli linqvistik əsərlərin müəlliflləridir [5, s. 93].

Müasir dövrdə ərəb ölkələrində ədəbi ərəb dilinin öyrənilməsi, əsasən, ərəb dil ənənəsinin prinsipləri üzərində qurulur. Ərəb dilçiliyini dil təlimləri tarixində tutduğu yer baxımından qiymətləndirmək üçün ərəb dilçiləri tərəfindən ortaya qoyulan və uğurla həll edilən ən vacib tədqiqat, fikir və problemləri sadalamaq kifayətdir. Bunlara aşağıdakılar daxildir: bir sözün söz əmələ gəlməsinin modelləşdirilməsi; bir sözün leksik mənasının təhlili; forma və məzmun kimi anlayışların linqvistik təhlilindəki fərq; semantik və uyğun linqvistik (funksional) mənanın aydın şəkildə müəyyənləşdirilməsi; nitq vəziyyəti, məna ifadəsi baxımından adekvat deyimlərin və vasitələrin öyrənilməsi; cümlənin formal və aktual cəhətlərin sintezində təhlili.

Azərbaycanın görkəmli şərqşünası Vasim Məmmədəliyev ilk dəfə olaraq ərəb qrammatika məktəblərini sistemli şəkildə tədqiq edib, məşhur Bağdad, Əndəlüs, Bəsrə, Kufə, Misir qrammatiklərinin əsaslandıqları nəzəri və metodoloji prinsipləri yüksək səviyyədə öyrənib. Bir çox qədim ərəb mənbələrindən faydalanan alim ərəb dilçilik elminin əsas inkişaf yollarını izləməklə, bu mühüm qrammatika məktəblərinin təlimlərini müqayisəli şəkildə şərh edib. V.Məmmədəliyev özünün "Ərəb dilçiliyi" adlı fundamental əsərində ilk dəfə olaraq "ərəb dilçiliyinin Azərbaycan məktəbi" ifadəsini işlətmiş və Azərbaycanda

dilçilik ənənəsinin çoxəsrlik tarixə malik olduğunu sübuta yetirib. Ümumiyyətlə, akademikin "Ərəb dilçiliyi" monoqrafiyası, nəinki ərəb dilçiliyinin ən ümdə məsələlərinin mükəmməl tədqiqi, həmçinin ümumi dilçilik elminin inkişafına təkan verən mühüm bir hadisə kimi dəyərləndirilməlidir. Ərəb qrammatika elminin təşəkkülü və onun məktəblərinin öyrənilməsinə həsr olunmuş bu fundamental əsər Vasim müəllimin dünya şərqşünaslığına layiqli töhfəsidir. Təsadüfi deyil ki, akademikin bir sıra beynəlxalq elmi konfrans və yığıncaqlardakı məruzələri həmişə sanballı elmi nəticələri ilə ərəb dili mütəxəssislərinin böyük marağına səbəb olub. O, İraq Elmlər Akademiyasının, Suriya İslam Elmləri və Ərəb Filologiyası Akademiyasının və İslam Konfransı Təşkilatının İslam hüququ Akademiyasının akademiki kimi şərəfli ad daşıyır və ərəb dilçiliyi sahəsində danılmaz nüfuz sahibidir [11].

Ölkəmizdə ərəb dilinin tədrisi mərhum müəllimimiz professor Ələsgər Məmmədovun adı ilə bağlandığı kimi, ərəbşünaslığın elmi şəkildə bir məktəb kimi formalaşması və inkişafı akademik Vasim Məmmədəliyevin fəaliyyətinin nəticəsidir. Buna nail olmaq üçün Vasim müəllim öz yolu ilə qəti bir israrla getmişdir. İstər "Müasir ərəb ədəbi dilində feilin zaman, şəxs və şəkil kateqoriyaları" mövzusunda doktorluq dissertasiyasında, istərsə klassik ərəb dilçilik məktəbləri haqqında "Ərəb dilçiliyi", "Bəsrə qrammatika məktəbi", "Kufə qrammatika məktəbi", "Quran və elm" kimi monoqrafik tədqiqatlarında bu tipli işlərin tələb etdiyi gərgin elmi araşdırmalar aparmışdır. Onun elmi nəticələri VII əsrdən bəri Bəsrə, Kufə, Bağdad, Misir və Əndəlüs filoloqları arasında böyük diskussiyalar, klassik ərəb dilinin fonetika, morfologiya, sintaksis və leksikologiyasında mübahisə doğurmuş 121 məsələnin müasir dilçilik elminin nəticələri əsasında aydınlaşdırılmasına kömək edir. Vasim müəllimin toxunduğu problemlər ərəb dilçiliyi ilə məşğul olmuş, demək olar ki, bütün tədqiqatçıların diqqət mərkəzində olmuşdur [12].

Nəticə

Ərəb dilinin qrammatikası, seçmə metodu ilə digər dillərin qrammatikasından spesifik cəhətləri ilə fərqlənməsi və müstəqil qrammatik təsvir ənənələrini formalaşdırması ilə dünya dilləri arasında orijinal mövqeyini qoruyub saxlayır.

Bizə gəlib- çatan ilk ərəb qrammatikası, bəsrəli Sibəveyhinin (v. 794) "əl-Kitab" əsəridir. O, bu əsərdə çoxsaylı sələflərinin və müasirlə-

rinin nailiyyətlərindən istifadə edərək bir çox sintaksis, morfologiya, söz formalaşması və fonetik hadisələrin ətraflı elmi və nəzəri təsvirini təqdim etmiş və beləliklə də bu əsərin çoxsaylı və geniş şərhlərin obyekti olmasına nail olmuşdu.

Ərəb alimləri, ümumiyyətlə, qrammatikanı sintaksis, morfologiya və fonetikaya bölürdülər və XI əsrdə bunun sayəsində söz əmələ gətirmə məsələlərinə və bununla əlaqəli etimologiyaya çox diqqət yetirdilər. Kök nəzəriyyəsi yüksək səviyyəyə çatmışdır. Sintaksis və morfologiya nə yunan, nə də Hindistan əsərlərində mənbələri olmayan və ərəb dilinin xüsusiyyətlərinə diqqət yetirən ərəb qrammatikasının ən orijinal hissələrindəndir.

Ərəb qrammatikası yeni bir ənənə təşkil edir. Həm əsas əsərləri, həm mühüm və orijinal mətnləri əhatə edir. Ərəb qrammatik sistemi genoloji və tipoloji baxımdan ərəb dilindən fərqli olan yeni dillərə, məsələn, türk dillərinə və fars dilinə köçürülür. Bu səbəbdən, ərəblərin qrammatik sənəti Orta əsr qrammatik sənətində yeni bir söz təşkil edir. Bu yenilik həm xüsusi terminologiyada, həm də ərəb qrammatikasının bütün ənənələrini orijinal edən sistemin xüsusi quruluşundadır.

ƏDƏBİYYAT

1. Амирова Т.А., Ольховиков Б.А., Рождественский Ю.В. (1975). Очерки по истории лингвистики. – М. (с. 53).
2. Амирова Т.А., Ольховиков Б.А., Рождественский Ю.В. (1975). Очерки по истории лингвистики. – М. (с. 32).
3. Габучан Г.М. Арабская языковедческая традиция // Лингвистический. (с. 40).
4. Гиргас В.Ф. (1873). Очерк грамматической системы арабов. – СПБ. (с. 86).
5. Звегинцев В.А. (1958). История арабского языкознания. – М. (1) (с. 20).
6. Звегинцев В.А. (1958). История арабского языкознания. – М. (2) (с. 93).
7. Лебедев В.В. (2013). Время, пространство, Сибавайхи, ислам // Полвека в арабистике. М.: Восточная книга,. С. 209-212. (с.2)

8. Рыбалкин В.С. (2000). Арабская лингвистическая традиция: Истоки, Творцы, Концепции. – К.: Феникс, (с. 6).

9. Фролов Д.В. (2006). Способы определения понятий в традиционной арабской грамматике //Арабская филология. М.:Языки славянской культуры,.(1) (с.7)

10. Фролов Д.В. (2006). Способы определения понятий в традиционной арабской грамматике //Арабская филология. М. Языки славянской культуры, (2). (с.84)

11. 525-ci qəzet 2017.- 7 dekabr.- S.6. Elmimizin fəxri Gövhər Baxşəliyeva.

12. https://www.muallim.edu.az/www.old/arxiv/2012/39/45.htm İmamverdi HƏMİDOV, "İstedadın Vasim Məmmədəliyev zirvəsi 5 Oktyabr 2012 - №395 Azərbaycan müəllimi qəzeti, 05/10/2012

Эльман Салахов

ФОРМИРОВАНИЕ ТРАДИЦИОННОЙ АРАБСКОЙ ГРАММАТИКИ

РЕЗЮМЕ

Начало формирования традиционной арабской грамматики приходится на VII-VIII века. В результате обширных завоеваний, проводимых под знаменем новой религии – ислама, формируется Арабский Халифат с центром в Багдаде, который, наряду с самой Аравией, включает в себя ряд территорий Западной Азии, Северной Африки и Иберии. Арабский язык считается официальным, деловым и научным языком халифата.

Таким образом, халифат должен был выполнить множество важных задач: во-первых, обучить арабскому языку многочисленные коренные народы, во-вторых, уберечь "чистоту" классического языка от влияния местных народов, в-третьих, разъяснить неясные отрывки из Корана. Естественно, обращаясь к исследованию проблем языка, арабские ученые использовали достижения индийской и греческой традиций, с которыми были хорошо знакомы.

Описания определенных грамматических явлений арабского языка относятся к VII веку. В первой половине VIII века в Басре и Куфе, двух городах в бассейне рек Тигр и Евфрат, возник-

ли конкурирующие между собой гимназии. Основателем басрийской школы считается Иса ибн Умар ас-Сакафи, а куфийской – Абу Джафар Мухаммед ар-Руаси. В дальнейшем появилась багдадская школа (XI-XII вв.), важнейшим представителем которой был Ибн Джинни, и андалузская школа (11-12 вв.), среди представителей которой были Мухаммед ибн Малик и Ибн Сида.

После завоевания Багдада монголами и постепенного вытеснения арабов из Испании центрами арабской науки стали Египет и Сирия. Но здесь на первый план стала выходить комментаторская и популяризаторская деятельность.

Ключевые слова: *грамматика, лингвистика, традиция, произведение, комментарий.*

Elman Salahov

FORMATION OF TRADITIONAL ARABIC GRAMMAR

ABSTRACT

The tradition of the formation of traditional Arabic grammar began in the 7th-8th centuries. As a result of extensive conquests under the banner of a new religion, Islam, along with Arabia, the Arab Caliphate was created, located in central Baghdad, covering a number of territories in Western Asia, North Africa and Iberia. The Arabic language was recognized as the official, business and scientific language of the Caliphate.

Thus, the Caliphate had to fulfill many important tasks; firstly, to teach the Arabic language to many “indigenous” peoples, secondly - to protect the “purity” of the classical language from the influence of the latter languages, and thirdly - to explain the already obscure parts of the Holy Qur’an. Naturally, when touching upon the study of linguistic problems, Arab scholars took advantage of the achievements of the Indian and Greek traditions, with which they were quite familiar.

Descriptions of certain grammatical events in the Arabic language date back to the 7th century. In the first half of the 8th century, competing gymnasiums appeared in two cities located in the

basin of the Tigris and Euphrates rivers - Basra and Kufa. The founder of the first of them is Isa ibn Umar Saqafi, and the second is Abu Jafar Muhammad al-Ruasi. Later, the Baghdad school, the most important representative of which was Ibn Jinni, and the Andalusian school (11-13th centuries), among whose representatives were the names of Muhammad ibn Malik and Ibn Sida, emerged.

After the conquest of Baghdad by the Mongols and the gradual expulsion of the Arabs from Spain, the center of Arab science moved to Egypt and Syria, but commentary and popularization activities began to come to the fore.

Keywords: *grammar, linguistics, tradition, work, commentary*

ƏBDÜRRƏHMAN CAMİNİN "RİSALEYİ-ƏRUZ" ƏSƏRİ ƏRUZ ELMİNƏ DƏYƏRLİ MƏNBƏ KİMİ

Elnurə Babayeva,
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun elmi işçisi
elnure1430@gmail.com

XÜLASƏ

Əbdürrəhman Caminin "Risaleyi-əruz" risaləsi Yaxın və Orta Şərqdə ən çox sevilən, oxunan əsərlərdən biri sayılır. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı əlyazması bu abidənin Azərbaycanda da geniş yayıldığını təsdiqləyir. Əsər klassik Şərq ədəbiyyatını dilindən asılı olmayaraq, özündə cəmləyə bilən və demək olar ki, bütün klassik Şərq xalqlarının poeziyasında işlənən əruz vəzni haqqındadır. Qeyd edək ki, Əbdürrəhman Caminin "Əruz risaləsi" əsəri fars əruzunun nəzəri xüsusiyyətlərinə həsr olunub, fars dilində qələmə alınsa da, XIX əsrin sonlarında Cəfər Təyyar adlı fars dili mütəxəssisi onu osmanlıcaya tərcümə etməyi qarşısına məqsəd kimi qoyaraq, həm türk oxucularını, türk şagirdlərini əruzun nəzəri əsasları ilə tanış etmək istəmiş, həm də türk övladlarına fars dilini öyrətməyi bir məqsəd kimi düşünmüşdür.

Bu mənada o, əsəri olduqca yüksək keyfiyyətlə tərcümə etmiş, bütün digər keyfiyyətlərlə yanaşı, eyni zamanda, XV əsrə məxsus klassik bir əsəri türk dilinə tərcümə etmişdir.

Şərq xalqları dillərindən türk dillərinə, o cümlədən, Osmanlı türkcəsinə edilən tərcümələrin tarixi də qədimliyi ilə seçilir. Sözsüz ki, belə tərcümələr, ilk növbədə, Qurani-Kərimin tərcüməsi ilə bağlı olub, daha sonralar Sədi kimi dahi şairlərin yaradıcılığı ilə çevrələnir. Təbii ki, bu əsərlər, ilk növbədə, dini və bədii əsərlərdir. Bu tərcümələr sırasında elmi əsərlərin tərcüməsinə isə bir o qədər də təsadüf olunmur. Maraqlıdır ki, XIX əsrin sonlarında Cəfər Təyyar kimi ziyalılar, klassik Şərq tərcümə ənənəsinə uyğun olaraq, Şərq klassiklərinin əsərlərini tərcümə etdikləri prinsiplərlə tərcümə etmişlər. Bu əsərlərin elmi mahiyyət daşıması və xüsusilə də Cəfər Təyyarın Əbdürrəhman Camidən etdiyi tərcümənin əruz elmi ilə bağlı olması, istər tərcümənin mahiy-

yətini və istərsə də tərcümənin mətnini mətnşünaslıq baxımından olduqca cəlbedici edir.

Açar sözlər: *türk xalqları ədəbiyyatı, əruz, vəzn, şeir.*

Giriş

Əruz vəzni mənşə etibarilə ərəb ədəbiyyatı ilə bağlı olsa da, sonralar ərəblərin Yaxın Şərqi istila etmələri nəticəsində bütün Şərq xalqlarının ədəbiyyatına nüfuz etməyi bacarmış və bu xalqların ədəbiyyatında ədəbi-estetik normaya çevrilmişdir. Təsadüfi deyil ki, türk tədqiqatçısı İsmayıl Həbib demişdir: "Ərəb islam millətlərinə iki şey verdi: "din və əruz" [Əkrəm Cəfər, 47].

Maraqlıdır ki, əruz vəzni ərəb poeziyasında meydana gəlib, elm kimi, ilk növbədə, böyük ərəb filologu Xəlil ibn Əhməd (718-791) tərəfindən yaradılsa da, sonralar digər Şərq xalqlarının poeziyasında işləndiyi üçün, digər xalqlara mənsub alimlər tərəfindən də inkişaf etdirilmişdir. Ərəb əruz elminin inkişafında azərbaycanlı alimlərdən Xətib Təbrizinin, Nəsirəddin Tusinin [Ə.Şirvani, 26], fars əruz elminin inkişafında yenə də Nəsirəddin Tusinin, Vəhid Təbrizinin [Ə.Şirvani, 83] və onlarca başqalarının adlarını çəkmək olar. Təbii ki, belə nümunələrə, yəni ərəb əruz elinin inkişafında qeyri-ərəblərin, fars əruz elminin inkişafında qeyri-əcəmlərin iştirakına da onlarca nümunə göstərmək olar. Bu mənada, Şərq alimləri mənsub olduqları millətdən, xalqdan asılı olmayaraq, bütün Şərq xalqları ədəbiyyatını, mədəniyyətini, mənəviyyatını özlərininki bilmiş, bu ədəbi - elmi - mənəvi dəyərlər arasında heç bir fərq, sərhəd qoymadan, onları çox yüksək tolerantlıqla, ülvi hisslərlə tədqiq etmişlər. Bu baxımdan, Cəfər Təyyarın Əbdürrəhman Camidən etdiyi "Risaleyi-əruz" əsərinin tərcüməsini bu qəbildən olan əsərlərdən hesab etmək olar [Quliyev T., 97].

Əbdürrəhman Caminin həyatı və elmi bədii irsi

Klassik fars ədəbiyyatının son ən böyük nümayəndəsi sayılan Əbdürrəhman Cami hicri tarixlə 23 şaban 817-ci ildə, miladi tarixlə isə 7 noyabr 1414-cü ildə, Xorasanın Cam şəhərinin Xərcird kəndində anadan olmuşdur [7]. O, özünün birinci divanının müqəddiməsində verdiyi məlumata görə, Cami təxəllüsünü Cam şəhərinə və Əhməd Nəməki Caminin xatirəsinə hörmət əlaməti olaraq qəbul etmişdir. Babası İsfahandan Xorasana köç etmiş, burada İmam Məhəmməd bin Həsən

əş-Şeybaninin nəslindən gələn bir qızla evlənmişdir. Bu izdivacdan Caminin atası Nizaməddin Əhməd dünyaya gəlmişdir. Cami ilk təhsilini atasının yanında almış, sonra atası Herata gedib Nizamiyyə mədrəsəsində müəllim işləyərkən, təhsilini orada davam etdirmişdir. Sonralar Cami dövrünün məşhur alimlərindən sayılan Mövlanə Cüneydi Üsulidən ərəb dili və ədəbiyyatını öyrənmiş, Seyid Şərif əl-Cürcaninin tələbələrindən olan Əli əs-Səmərqəndi və Təftəzaninin şagirdlərindən olan Şahabəddin Məhəmməd əl-Cərminin yanında təhsilini davam etdirmişdir. Daha sonra o, Uluğbəy zamanında böyük elmi mərkəzə çevrilən Səmərqəndə gedərək, 9 il orada yaşamışdır. Burada Bursalı Qazızadə Rumidən riyaziyyat dərsləri almış, Fətullah Təbrizinin elmlərindən faydalanmışdır.

Cami hələ ilk gəncliyindən elmlərə olan həvəsi, istedadı, zəkası ilə seçilmişdir. Məşhur alim Hüseyn Vaiz Kaşifi öz əsərlərində Caminin təhsili ilə bağlı olduqca maraqlı faktlar qeyd etməkdədir. Dövrünün görkəmli astonomu və riyaziyyatçısı sayılan Əli Quşçu da Heratda olduğu zaman Cami ilə görüşmüş, astronomiya ilə bağlı Camiyə bir neçə sual vermişdir. Caminin cavabları bu böyük alimi heyrətləndirmiş və o, Caminin astronomiya sahəsində olan biliklərini yüksək qiymətləndirmişdir. Gənc yaşlarından bütün dünyəvi elmləri gözəl bilən Cami bu elmlərlə kifayətlənməmiş, başqa sözlə desək, bu elmlər Caminin mənəvi aləmini tam təmin etməmişdir. Buna görə də o, Səmərqəndə dönən zaman nəqşbəndi şeyxlərindən Sədəddin Kaşğari və onun tələbəsi Xacə Ubeydullah Əhrarla yaxınlaşmış, mənəvi ruhi tellərlə onlarla bağlanmışdır.

Cami 1472-ci ildə Həcc ziyarətinə getmişdir. Həcc səfərindən dönən zaman Təbrizdə olarkən Ağqoyunlu hökmdarı Uzun Həsən onun Təbrizdə qalmasını xahiş etsə də, Cami 1474-cü ildə Herata qayıtmışdır. Burada ömrünün sonuna qədər Sultan Hüseyn Bayqaranın onun üçün tikdirdiyi mədrəsədə ərəb dili və ədəbiyyatı, hədis və təfsirdən dərs demişdir. Cami 9 noyabr 1492-ci ildə Heratda vəfat etmişdir. Hüseyn Bayqara və Əlişir Nəvai tərəfindən yüksək təmtəraqla, şeyxi Sədəddin Kaşğarinin yanında dəfn edilmişdir.

Əlişir Nəvai Caminin vəfatından sonra ona bir mərsiyyə ithaf etmiş, həyatına dair isə "Xəmsətül-mütəhəyyirin" adlı əsər qələmə almışdır. Caminin tələbələrindən Süheyli də onun vəfatına böyük bir mərsiyyə yazmış, öz əsərində bu böyük itkidən kədərləndiyini bildirmişdir.

Caminin yaşayıb-yaratdığı dövr bir neçə hökmdarın hakimiyyət illərinə təsadüf edir. Belə ki, o, gənclik illərində Şahruxun (1404-1446), sonralar Sultan Əbu Səidin (1451-1468) və ömrünün son illərində Sultan Hüseyn Bayqaranın (1470-1505) hakimiyyəti dövründə yaşamışdır. Dövrünün hakimlərinin Camiyə münasibəti müsbət olmuş, onlar Camini həmişə böyük alim kimi hörmətlə qəbul etmişlər. Belə ki, mənbələrin verdiyi məlumata görə, Fateh Sultan Məhəmməd Cami həcc ziyartindən qayıdarkən, onu İstanbula dəvət etmək üçün Xoca Ataullah Kirmanini beş min qızıl hədiyyə ilə Hələbə göndərmiş, lakin Kirmani orada Camini görə bilmədiyindən bu dəvət baş tutmamışdır. Sonralar, Sultan Məhəmməd Fateh bir dəfə də Camiyə müraciət edərək, ondan bir əsər yazmasını xahiş etmişdir. Ümumiyyətlə, Cami Sultan Məhəmməd Fatehin oğlu II Bəyazit, Qaraqoyunlu hökmdarı Cahan şah, Ağqoyunlu hökmdarı Uzun Həsən və Yaqubla da həmişə yaxşı münasibətlərdə olmuş, onlara müxtəlif əsərlər ithaf etmişdir. Bütün bunlara baxmayaraq, heç bir hökmdarı şişirdilmiş şəkildə məth etməmiş və saraylarda yaşamamışdır. Əksinə, bu dövrün hakimləri Camidən böyük bir hörmətlə bəhs etmişlər.

Cami dövrünün əmirlərindən Əlişir Nəvai ilə də yaxın dost olmuşdur. Nəvai və dövrünün görkəmli şairi olan Süheyli də onun müridlərindən sayılır. Cami həmişə öyrənməyi və dərs deməyi həyatın mənası saymış və ömrü boyu bu sənətlə məşğul olmuşdur. Eyni zamanda, Əbdürrəhman Cami dövrünün ən böyük sufi şairlərindən sayılmaqdadır. Belə ki, o, nəqşbəndiyyə təriqətinin ən böyük nümayəndələrindən biri hesab olunur.

Əbdürrəhman Cami dövrünün görkəmli ictimai-siyasi xadimi olmaqla bərabər, eyni zamanda, dövrünün böyük şairi və alimi sayılır. Tədqiqatçıların gəldiyi qənaətə görə, Əbdürrəhman Cami fars ədəbiyyatı klassik dövrünün son böyük şairi hesab edilir. Bu qənaətə görə, fars ədəbiyyatının klassik dövrü mahiyyət etibarilə Əbdürrəhman Cami yaradıcılığı ilə bitir. Tədqiqatçılar Əbdürrəhman Caminin ərəb və fars dilində yazılmış 45-dən artıq əsərinin olduğunu qeyd edirlər. Bunlardan bir qismi dövrümüzə qədər gəlib çatmasa da, böyük bir qismi çatmışdır. Belə ki, bu əsərlərin sırasında onun üç divanı, "Həft övrəng" adlı toplusunda cəmlənən yeddi poeması, nəsr əsərləri sırasında "Nəfahətül-üns" və s. əsərləri başda yer alır.

Əbdürrəhman Cami bədii yaradıcılıqla yanaşı, elmi yaradıcılıqla da məşğul olmuş, əruz, qafiyə, musiqi elmləri ilə də yaxından maraqlanmış və bu elmlər haqqında risalələr qələmə almışdır. Belə ki, onun

“Əruz risaləsi” adlı əsəri fars əruzşünaslıq tarixində özünəməxsus yer tutur. Tədqiqatçıların nöqteyi-nəzərinə görə, klassik dövr fars poeziyası Əbdürrəhman Caminin yaradıcılığı ilə tamamlandığı kimi, klassik əruz elmi də, demək olar ki, Əbdürrəhman Caminin “Risaleyi-əruz” əsəri ilə tamamlanır. Bu mənada, Əbdürrəhman Caminin “Risaleyi-əruz” əsəri özündə əruzun ümumi xüsusiyyətlərini toplamaqla yanaşı, həmçinin fars əruzunun gəldiyi nəticələri də ümumiləşdirir.

Əbdürrəhman Caminin “Əruz risaləsi”nin tərcüməsi barədə

Qeyd edək ki, Əbdürrəhman Caminin “Əruz risaləsi” əsəri fars əruzunun nəzəri xüsusiyyətlərinə həsr olunub, fars dilində qələmə alınsa da, XIX əsrin sonlarında Cəfər Təyyar adlı fars dili mütəxəssisi onu osmanlıcaya tərcümə etməyi qarşısına məqsəd kimi qoyaraq, həm türk oxucularını, türk şagirdlərini əruzun nəzəri əsasları ilə bir daha tanış etmək istəmiş, həm də türk tələbələrinə fars dilini öyrətməyi də bir məqsəd kimi düşünmüşdür.

Şərqdə tərcümənin tarixi olduqca qədim və rəngarəngdir. Bu baxımdan, digər Şərq xalqları dillərindən türk dillərinə, o cümlədən, Osmanlı türkcəsinə edilən tərcümələrin tarixi də qədimliyi ilə seçilir. Sözsüz ki, belə tərcümələr, ilk növbədə, Qurani-Kərimin tərcüməsi ilə bağlı olub, daha sonralar, Sədi kimi dahi şairlərin yaradıcılıqları ilə də çevrələnir. Təbii ki, bu əsərlər, ilk növbədə, dini və bədii əsərlərdir. Bu tərcümələr sırasında elmi əsərlərin tərcüməsinə isə bir o qədər də təsadüf olunmur. Maraqlıdır ki, XIX əsrin sonlarında Cəfər Təyyar kimi ziyalılar, tərcüməçilər elmi əsərlərin tərcüməsinə girişmiş və onları klassik Şərq tərcümə ənənəsinə uyğun olaraq, Şərq klassiklərinin əsərlərini tərcümə etdikləri prinsiplərlə tərcümə etmişlər. Bu əsərlərin elmi mahiyyət daşıması və xüsusilə də Cəfər Təyyarın Əbdürrəhman Camidən etdiyi tərcümənin əruz elmi ilə bağlı olması, istər tərcümənin mahiyyətini və istərsə də tərcümənin mətnini mətnşünaslıq baxımından olduqca cəlbedici etmişdir.

Cəfər Təyyarın Əbdürrəhman Camidən etdiyi “Risaleyi-əruz” əsərinin tərcüməsi müəyyən məqamlarda Mövlana Müfti Sədullah Muradabadinin şərhi, tərcüməsi ilə birləşir. Cəfər Təyyarın əsəri məzmun və tekstoloji xüsusiyyətlərinə görə Mövlana Müfti Sədulla Muradabadinin əsərindən daha geniş və əhatəlidir. Əgər Sədullah Muradabadi fars dilində yazılmış əsəri fars dilində ancaq şərh edirsə, Cəfər Təyyar fars dilində yazılmış əsəri yalnız osmanlıcaya tərcümə etdikdən

sonra şərh və izah edir. Bu isə mətnşünaslıqda daha çətin, daha mürəkkəb bir yoldur.

Cəfər Təyyar bin Əhməd Salim tərəfindən Əbdürrəhman Caminin "Risaleyi-əruz" əsərinin fars dilindən osmanlıcaya tərcümə olunmuş "Tərcümeyi-əruz Əbdürrəhman Cami Rəhmətullah" başlıqlı tərcüməsinin mətni bütövlükdə şərti olaraq üç səviyyədən ibarətdir. Birinci səviyyə farsca orijinal mətn, ikinci səviyyə orijinalda olan ayrı-ayrı kəlmələrin tərcüməsi və onların qrammatik quruluşu haqqında olan mətn, üçüncü səviyyə orijinal mətnin məzmununun mənası – məaldır. Bu mənada, gördüyümüz kimi, Cəfər Təyyarin mətni mətnşünaslıq baxımından olduqca qarışıq və mürəkkəbdir. Mətndə bu səviyyələr arasında heç bir fərqləndirilmə olmadığından və bu səviyyələr bəzən bir-biri ilə qarışdırıldığından, onların sərhədlərini müəyyənləşdirmək də çətinləşir. Bu isə təbii ki, əsəri elmi baxımdan dəyərləndirməyin yollarını mürəkkəbləşdirdiyi kimi, eyni zamanda, onu mətnşünaslıq baxımından araşdırmağı da ağırlaşdırır.

Əbdürrəhman Caminin əsəri Cəfər Təyyar tərəfindən klassik prinsiplərə uyğun olaraq tərcümə edilsə də, əsər mətnşünaslıq baxımından o qədər mürəkkəb və qəlizdir ki, bu əsərin elmi dəyərini yalnız onu mətnşünaslıq baxımından dərk etdikdən sonra qavramaq və dərk etmək olar.

Cəfər Təyyar bin Əhməd Salim tərəfindən fars dilindən osmanlıcaya tərcümə olunan Sədi Şirazinin "Gülüstan" əsərinin "Rəhbəri-Gülüstan" adı ilə hicri 1308-ci ildə İstanbulda "Amirə" mətbəəsində çap olunmuş kitabının 346-cı səhifədən 431-ci səhifəyə qədər haşiyələrində yer tutan, yenə də Cəfər Təyyar bin Əhməd Salim tərəfindən fars dilindən osmanlıcaya tərcümə olunmuş məşhur fars-tacik şairi Əbdürrəhman Caminin "Risaleyi-əruz" əsərinin tərcüməsinin mətni "Tərcümeyi-əruz Əbdürrəhmane-Cami Rəhmətullah" sözləri ilə başlayır və mətn bütövlükdə üç hissədən ibarətdir [Quliyev T., 348]. Birinci hissə farsca orijinal mətn, ikinci hissə orijinalda olan ayrı-ayrı kəlmələrin tərcüməsi və onların qrammatik quruluşu haqqında olan mətn, üçüncü hissə isə orijinal mətnin məzmununun mənası - məaldır. Qeyd edək ki, bu prinsip Cəfər Təyyar bin Əhməd Salim tərəfindən, demək olar ki, mətnin bütün tərcüməsi zamanı qorunmuşdur. Belə ki, tərcüməçi, ilk növbədə, orijinal mətndən kiçik hissələrdən ibarət nümunələr verərək, onların tərcüməsini göstərmiş, sonra isə həmin mətnin elmi şərhini vermişdir.

Məlum olduğu kimi, əruz elmi və əruz haqqında mətnlər olduqca qəliz və mürəkkəb olduğu üçün, başqa sözlə desək, əruzun bəzi anlayışları sxematik xüsusiyyətlər daşıdıqlarına və tərcümə olunmadıqlarına görə, bəzən tərcüməçi öz prinsipini axıra qədər qoruya bilməmiş, sadəcə, mətni ümumi şəkildə tərcümə etməklə kifayətlənmişdir.

Bütün əruz əsərlərində olduğu kimi, Əbdürrəhman Cami də əruz risaləsini başlayarkən Uca Yaradana öz şükranlığını bildirəndən sonra, əruzun rüknlərini şərh edir. Ümumiyyətlə, əruz haqqında yazılan əsərlərə nəzər salsaq, bu əsərlərin bütövlükdə dörd səviyyə üzərində qurulduğunu görərik.

1. Rüknlər və əsli təfilələr.
2. Zihaflar və törəmə təfilələr.
3. Dairələr.
4. Bəhrlər.

Bu mənada, Əbdürrəhman Cami də ilk növbədə, əsərində rüknləri izah edir. Onun nöqteyi-nəzərinə görə, rüknlər üçdür: səbəb, vətəd və fasilə. Səbəbin özü də iki növdür: yüngül səbəb və ağır səbəb. Əbdürrəhman Camiyə görə, yüngül səbəb گل "gül" və مل "mül" sözləri kimi bir hərəkəli və bir hərəkəsiz hərfin birləşməsindən ibarətdir. Ağır səbəb isə گله "gilə" və قله "qələ" sözləri kimi ikihərəkəli hərfdən ibarətdir ki, bunların ortasında yazılan "he" hərfi yazıda yazılsa da, hərəkə kimi oxunduğundan, yazıya daxil edilmir.

Əbdürrəhman Camiyə görə vətəd iki növdür: yanaşı vətəd və aralı vətəd. Yanaşı vətəd چمن "çəmən" və سمن "sümən" sözləri kimi iki hərəkəli və bir hərəkəsiz hərfin birləşməsindən ibarətdir. Aralı vətədə gəlincə isə o, لاله "lalə" və ژله "jalə" sözləri kimi ikihərəkəli hərfin ortasında gələn bir hərəkəsiz hərfin birləşməsindən təşkil olunur.

Əbdürrəhman Camiyə görə fasilə də iki növdür: kiçik fasilə və böyük fasilə. Belə ki, kiçik fasil سنم "sənəma" və بنم "binəma" sözləri kimi üç hərəkəli və bir hərəkəsiz hərfdən, böyük fasilə isə فکنمش "fikənəməş" və شکنمش "şikənəməş" sözləri kimi dörd hərəkəli və bir hərəkəsiz hərfin birləşməsindən ibarətdir. Beləliklə, qısa şəkildə əruzun rüknlərinə yekun vuran Əbdürrəhman Cami risalənin girişinin sonunda bu üç rüknün bir yerdə işləndiyi misranı nümunə göstərir:

Be qole roxət lalə ba çəmən nənigarəd.

Bundan sonra öz əsərinin birinci fəslinə başlayan Əbdürrəhman Cami bu rüknlərdən heç birinin tək şəkildə iştirakı ilə təfilələrin yaranmadığı fikrini söyləyir və yaransa da, onların xoşagəlməz olduğunu göstərir. O, daha sonra bu rüknlər vasitəsilə ərəb və əcəm şerində

üsulun əsasında duran rüknləri sadalayır ki, Əbdürrəhman Camiyə görə əruzçular tərəfindən "əfail və təfail" adlanan bu səkkiz təfilə aşağıdakılardır: yanaşı vətədin və yüngül səbəbin birləşməsindən əmələ gələn fə"Ulün, yenə də bir yüngül səbəbin və yanaşı vətədin birləşməsindən əmələ gələn fA"ilün, yanaşı vətəd, iki yüngül səbəbin birləşməsindən əmələ gələn məfA"İlün, bir yüngül səbəb, bir yanaşı vətəd və yenə də bir yüngül səbəbin birləşməsindən əmələ gələn fA"ilAtün, iki yüngül səbəb, bir yanaşı vətədin birləşməsindən əmələ gələn müstəf"ilün, bir yanaşı vətəd, bir kiçik fasilənin birləşməsindən əmələ gələn müfA"ələtün, bir kiçik fasilə və bir yanaşı vətədin birləşməsindən əmələ gələn mütəfA"ilün və nəhayət, iki yüngül səbəb və bir aralı vətədin birləşməsindən əmələ gələn məf"Ulatü. Beləliklə, Əbdürrəhman Cami eyni zamanda, əruzun əsasında duran bu səkkiz əsli təfilədən fars şeirində beşinin işləndiyini söyləyir. Onlar aşağıdakılardır: məfA"İlün, fA"ilAtün, müstəf"ilün, məf"UlAtü, fə"Ulün.

Daha sonra Əbdürrəhman Cami fars əruzunda bu beş əsli təfilədən zihaflar vasitəsilə neçə-neçə törəmə təfilələrin alındığını söyləyir ki, ikinci fəsildə də bu beş əsli təfilədə işlənən zihaflardan və bu zihaflar vasitəsilə alınan törəmə təfilələrdən bəhs edir. Əbdürrəhman Cami risaləsinin üçüncü fəslində əruzun dairələrini izah edir. Belə ki, onun nöqteyi-nəzərinə görə və ümumiyyətlə, əruzda qəbul olunmuş ümumi fikrə görə, bütövlükdə əruz vəznində işlənən bəhrlərin sayı 19-dur. Onlar aşağıdakılardır: təvil, mədid, bəsit, vafir, kamil, həzəc, rəcəz, rəməl, münsərih, müzare, müqtəzəb, müctəs, səri, cədid, qərib, xəfif, müşakil, mütəqarib və mütədarik. Əbdürrəhman Cami bu bəhrlərdən bəzilərinin ərəb əruzuna, bəzilərinin fars əruzuna aid olduğunu söyləməklə bərabər, eyni zamanda, bəzilərinin müştərək şəkildə, həm ərəb, həm də fars əruzunda işləndiklərini də söyləyir.

Ərəb əruzunun dairələrini izah etdikdən sonra Əbdürrəhman Cami bilavasitə fars əruzunun dairələrinin izahına keçir ki, burada da həzəc, rəcəz və rəməl bəhrlərini bir dairə ətrafında toplayır və bu dairəni mötəlifə adlandırır. Əbdürrəhman Camiyə görə həzəc, rəcəz və rəməl bəhrlərinin əsasında təvil, mədid və bəsit bəhrlərindən alınan yeddihərfli rüknlər durur. Belə ki, Əbdürrəhman Caminin fikirlərinə şərh verəsi olsaq, deyə bilərik ki, həzəcin əsasında təvil bəhrindən alınan məfA"İlün, rəcəzin əsasında bəsit bəhrindən alınan müstəf"ilün, rəməlin əsasında isə mədid bəhrindən alınan fA"ilAtün əsli təfilələri durur.

Fars əruzundan bəhs edən bütün mənbələrdə olduğu kimi, Əbdürrəhman Cami də həzəc bəhrindən danışarkən rübai vəzninə də öz münasibətini bildirir. Fars ədəbiyyatında dubeyti adlanan janra bəzən rübai və bəzən də tərana deyildiyini söyləyən Əbdürrəhman Cami, eyni zamanda, öz əsərində rübai vəzninin şəcərələrini - əxrəb və əxrəmi də nümayiş etdirir. Hər qəlibə fars ədəbiyyatından rübailər nümunə gətirərək, onların vəznlərini göstərir.

Beləliklə, Əbdürrəhman Cami öz risaləsində fars əruzu haqqında olan nəzəri fikirləri məharətlə ümumiləşdirmiş və əgər belə demək mümkünsə, fars əruzşünaslıq tarixində orijinal bir əsər ortaya qoymağı bacarmışdır. Əbdürrəhman Camidən sonra fars əruzu haqqında yazıb-yaradan əruzçular isə əslində Camiyə qədər olan və Caminin fikirlərini bu və ya digər mənada təkrar etmişlər.

Türkdilli poeziyada əruz vəzni barədə

Əruz vəzninin türkdilli poeziyada tətbiqi də böyük maneələrə rast gəlmişdir. Bunlardan ən ümdəsi dil problemi idi. Belə ki, ərəb dilinə tətbiq olunmuş əruz vəzninin türk dilinə tətbiqi nəticəsində sözlərin tələffüzündə türk dili qayda-qanunlarını kobudcasına pozurdu. Bütün bunları arxada qoyaraq, türkdilli xalqlar XI əsrdən əruzdan istifadə etməyə başlamışlar. Əruz vəzninin *mütəqarib* bəhri ilə yazılan ilk türk-uyğur abidəsi Yusif xas Hacibin "Kutadqu-bilik" poeması olmuşdur.

Əruz vəzni Azərbaycan ədəbiyyatında da geniş yayılmışdır. Nizami, Füzuli, Nəsimi, S.Ə.Şirvani, M.Ə.Sabir kimi böyük söz sənətkarları bu vəzndə çox ahəngdar əsərlər yazmışlar. Azərbaycan şeirində əruz bəhrinin hamısı işlədilməmişdir. Ədəbiyyatımızda ən çox işlənən həzəc, rəməl, xəfif, səri munsərih bəhrləridir. Əruzun bu bəhrlərinin adını ifadə edən sözlər onların xüsusiyyətinə uyğun seçilmişdir. Həmin sözlərin mənasını bilmək bəhrlərin xüsusiyyətini başa düşməyə kömək edir [Mikayılov.Ş, 60].

Həzəc bəhri

"Həzəc" sözü xoşagələn avaz, gözəl səs, cəh-cəh mənasını ifadə edir. Bu bəhrdə yazılan şeirlərdə axıcılıq, rəvanlıq nəzərə çarpır. Həzəc bəhrinin növləri *məfA'İlün* təfiləsinin müəyyən miqdarda təkrarlanması və dəyişməsindən yaranır. Əsas qəlibi, başqa sözlə desək, birinci növü *məfaA'İlün* təfiləsinin dörd dəfə təkrarından əmələ gəlir. Füzuli, Sabir və başqa şairlərimiz həzəc bəhrindən istifadə edərək gözəl şeirlər yazmışlar. Məsələn, M.Füzuli "Məni candan usandırdı..." qə-

zəlinə bu bəhrin *məfaA'İlün* təfiləsinin dörd dəfə təkrarından yaranan qəlibdə, "Leyli və Məcnun" əsərini isə *məf'Ulü məfA'ilün fə'Ulün* ölçüsündə yazmışdır. M.Ə.Sabir "Əkinçi", "Nə işim var", "Bakı fəhlələrinə" şeirləri həzəc bəhrinin başqa bir ölçüsündə yazılmışdır.

Müjəm sərçeşmələr mənzil qılan aşüftə məcnundur,
məfaA'İlün məfaA'İlün məfaA'İlün məfaA'İlün
Anınçun bəsteyi-zənciri-seyli-əşki-gülgundur.

(M.Füzuli)

Rəməl bəhri

"Rəməl" sözü ləngərlənmək, dalğalanmaq, ağır-ağır, yəni ləngərlənə-ləngərlənə yerimək mənasını bildirir. Bu bəhrdə yazılan şeirlərdə bir əzəmət, vüqar, dalğalıq özünü göstərir. Heç təsadüfü deyildir ki, klassik şairlərimiz öz dövrlərinə qarşı narazılıqlarını, daxili iztirablarını, qüssə və kədərlərini ifadə etmək üçün rəməl bəhrini seçmişlər. Məsələn, M.Füzulinin "Padişahi-mülk..." qitəsi, "Söz", "Heyrət ey büt..." qəzəlləri, M.P.Vaqifin "Görmədim" müxəmməsi, M.Ə.Sabirin "Nə yazım?", "Beynəlmiləl" şeirləri bu bəhrdə yazılmışdır. Rəməl bəhrinin növləri *fAİlAtün* təfiləsinin təkrarından və dəyişməsindən yaranır. Əsas forması *fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilAtü* -dür.

Mübtəlayi dərdi-eşqəm əl götür məndən, təbib
fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilAtün
Eylə bir tədbir kim, bu dərdə dərman olmasın

(M.Ə.Sabir)

Xəfif bəhri

"Xəfif" sözü yüngül, zərif, incə, mülayim mənalarını bildirir. "Xəfif" sözü Azərbaycan dilində indi də fəal işlənən sözdür. Əruzda da bu ölçü ahəngcə oynaq, yüngül bəhrlərdəndir. Bu ölçüdə yazılan şeirlər öz oynaqlığı, yüngüllüyü ilə seçilir. S.Ə.Şirvaninin "Qaz və durna", "Müəllimə hörmət", "Köpəyə ehsan", "Qafqaz müsəlmanlarına xiab", A. Səhhətin "İmtahan" şeirləri bu ölçüdə yazılmışdır. Xəfif bəhrinin əsas ölçüsü *fA'ilAtün məfA'ilün fA'ilün*-dür.

Yox, yox əsla sən ölmədin dirisən
fA'ilAtün məfA'ilün fA'ilün
Ən böyük qəhrəmanların birisən

(A.Səhhət)

Səri bəhri

"Səri" sözünün lüğəvi mənası sürətli, cəld, tez-tez və s. deməkdir. Həmin sözün mənasındakı əsas cəhətlər şerin ahəngində özünü göstərir. Bu vəzndə yazılan şeirlər o qədər yüngül oxunur ki, ilk baxışda onu heca vəznində yazılmış şeirlərdən fərqləndirmək çətin olur. Məsələn, M.Ə.Sabirin "Ağacların bəhsi", "Üsuli-cədid" şeirləri bu ölçüdə yazılmışdır. Səri bəhrinin ölçüsü *müftə'ilün müftə'ilün fA'ilün*-dür.

Molla, sənə eyləyirəm məsləhət
müftə'ilün müftə'ilün fA'ilün
Söylə, görüm evlənim, evlənməyim

(Əli Nəzmi)

Münsərih bəhri

"Münsərih" sözü axıcı mənasında işlənir. Bu bəhrdə yazılan şeirlər də axıcı və oynaq olur, asan oxunulur. Məsələn, M.Ə.Sabirin "Oxutmuram, əl çəkin!" şeri münsərih bəhrində yazılmışdır. Bu bəhrin ahəngi *müftə'ilün fA'ilün* təfilələrinin təkrarından yaranır. Münsərih bəhrinin əsas ölçüsü *müftə'ilün fA'ilün müftə'ilün fA'ilün*-dür.

Əqlin azıb ay yazıq boşlamısan qarını
müftə'ilün fA'ilün müftə'ilün fA'ilün
Cümlə dəyişdirmisən kürkünü paltarını

(M.Ə.Sabir)

Sadaladığımız bütün bu bəhrlərlə yanaşı, Azərbaycan poeziyasında söz ustadları rəcəz, müzare, müqtəzəb, müctəs, mütəqarib, mütədarik, kamil bəhrlərində də şeirlər yazmışlar. Yuxarıda izah etdiyimiz kimi, bu bəhrlərin də lüğəvi mənaları adlarına uyğundur. Onların qəlibləri, əsasən, geniş izah etdiyimiz bəhrlərin qəliblərinin təkrarından əmələ gəlmişdir. Poeziyamızda bu bəhrlərdə yazılmış şeirlər olduqca azdır və ya yox dərəcəsindədir. Məsələn, "rəcəz" sözünün terminoloji və lüğəvi mənası sürət deməkdir və bu bəhrin əsas qəlibi *müstəf'ilün* təfiləsinin altı dəfə təkrarından ibarətdir. Müzare bəhri həzəc bəhrinə bənzədiyi üçün, ona bənzəyən mənasında olan bu ad verilmişdir. Müzare bəhrinin əsas qəlibi aşağıdakı şəkildədir. *məfA'İlün fA'ilatün məfA'İlün məfA'İlün fA'ilatün məfA'İlün.* "Müqtəzəb" sözünün lüğəvi mənası kəsilmiş deməkdir. Xətib Təbrizi və Nəsirəddin Tusiyə görə, bu bəhr sanki münsərih bəhrindən kəsildiyi üçün, bu bəhrə

müqtəzəb adını vermişlər. Bu bəhrin qəlibi *məf'UlAtü müstəf'ilün müstəf'ilün məf'UlAtü müstəf'ilün müstəf'ilün*-dür. Nəsirəddin Tusi "müctəs" sözünün terminoloji və lüğəvi mənasını izah edərkən belə yazıb: "Müctəz kökündən qoparılmış deməkdir. Deyilənlərə görə, xəfif bəhrindən qoparıldığı üçün ona bu adı vermişlər". Yəni bu bəhrin əslindən kəsmişlər, yaxud kökündən qoparılmışlar. Bu bəhrin əsas qəlibi *müstəf'ilün fA'ilAtün fA'ilAtün müstəf'ilün fA'ilAtün fA'ilAtün*-dür və s.

Əruz vəzni vəzn olmaq etibarilə göründüyü kimi, mürəkkəb vəzndir. Bu vəzndə şeir oxuyan və şeir yazan insanlardan xüsusi istedad və elm tələb olunur. Çoxəsrli milli dəyərlərimizdən biri olan Azərbaycan əruzu hər bir orta və ali məktəbdə ədəbiyyatı tədris edən müəllimə, öyrənən şagirdə və tələbəyə, aktyora, xanəndəyə, şeir qiraətçisinə, tərcüməçiyə, şairə, o cümlədən adi oxucuya belə zəruri və vacibdir. "Bir şərqli kimi sahib olduğumuz mənəvi-estetik dəyərlərdən biri də əruz vəznidir" [Quliyev T., 3].

Əruzvəznli şairlərimizi - Nəsimini, Xətaini, Füzulini, Saib və Qövsi Təbriziləri, S.Ə.Şirvanini, M.Ə.Sabiri və onların əruz vəznində yazan müasirlərini səhv və qüsurlu oxumağa haqqımız yoxdur.

Nəticə

Əbdürrəhman Caminin "Risaleyi-əruz" əsəri yaranana qədər böyük bir inkişaf yolu keçmiş, Şəms Qeys Razi, Nəsirəddin Tusi, Vəhid Təbrizi və başqalarının simasında bu mövzuda gözəl əsərlər ərsəyə gəlmişdir. Bu məqamda qeyd etmək yerinə düşər ki, bütövlükdə əruzşünaslıq tarixini, ərəb əruz elmini, poetikasını və bu sahədə mövcud olan müasir elmi-nəzəri fikri bilmədən, fars əruz elminə, fars əruzşünaslıq tarixinə qiymət vermək doğru olmaz.

Diqqətəlayiq haldır ki, ümumiyyətlə, əruz elmi, xüsusilə fars əruzşünaslıq tarixi, o cümlədən, Əbdürrəhman Caminin "Risaleyi-əruz" əsəri xarici ölkə alimləri ilə bərabər, Azərbaycan alimləri tərəfindən də diqqətlə araşdırılmışdır. Digər ölkə alimləri ilə bərabər, Azərbaycanda Əbdürrəhman Caminin həyat və yaradıcılığının və onun "Risaleyi-əruz" əsərinin öyrənilməsində mühim rol oynayan alimlərdən, əruzşünaslardan professorlar Əkrəm Cəfərin, Cənnət Nağıyevanın və Tərlan Quliyevin adlarını çəkmək kifayətdir. Belə ki, bu alimlər öz əsərlərində fars əruzşünaslıq tarixindən, Əbdürrəhman Caminin həyat və yaradıcılığından danışarkən, onun "Risaleyi-əruz" əsərini yüksək qiymətləndirmiş, Əbdürrəhman Caminin klassik fars-tacik ədəbiyyatının sonuncu böyük nümayəndəsi olduğunu göstərməklə

bərabər, eyni zamanda, “Risaleyi-əruz” əsərinin də klassik Şərq poetikası tarixində sonuncu klassik əsər olduğunu söyləmişlər.

ƏDƏBİYYAT

1. Əkrəm Cəfər. (1977). Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı.
2. Ədili Şirvani. (2010). Əruz vəzninin sadələşmiş qəlibləri. Bakı.
3. Quliyev T. (2013). Əruz və qafiyəşünaslıq tarixi, Bakı.
4. Quiyev T. (2001). Əruz, Bakı.
5. Микајылов.Ш.А. (1986). Әдәбијјат нәзәријјәси. Бакы.
6. Фролов Д.В. (1991). Классический арабских стих. История и теория аруда, Москва.
7. Terceme. (2011). İslam Ansiklopedisi, Milli Eğitim Basımevi, cilt 40, (483- 484 s.).
8. Cami Abdurrahman. (1978). İslam Ansiklopedisi İstanbul, 7.cilt. Milli Eğitim Basımevi, , VII, (787 s.).
9. file:///C:/Users/User/Downloads/1186 Abdurrahman_Elcami_Ve_Elfevaiduz_Ziyaiyye_Adli_Eseri-Iclal_Arslan - 2005 152s.pdf

Эльнура Бабаева

ПРОИЗВЕДЕНИЕ АБДУРРАХМАНА ДЖАМИ "РИСАЛА-ЙИ АРУЗ" КАК ЦЕННЫЙ ИСТОЧНИК ДЛЯ АРУЗОВЕДЕНИЯ

РЕЗЮМЕ

Трактат Абдуррахмана Джами "Рисала-йи аруз" считается одним из самых любимых и читаемых произведений на Ближнем и Среднем Востоке. Рукопись, имеющаяся в Институте рукописей имени Мухаммеда Физули НАНА, подтверждает широкое распространение этого письменного памятника и в Азербайджане. Это произведение повествует о стихотворном метре "аруз", использованном во множестве образцов классической Восточной литературы, независимо от языка написания, и пронизывающем классическую поэзию практически всех восточных народов.

Следует отметить, что трактат "Рисала-йи аруз" был посвящен теоретическим особенностям персидского аруза. Несмотря на то, что он был написан на персидском языке, в конце XIX века специалист по персидскому языку Джафер Тайяр поставил перед собой цель перевести его на османский язык, чтобы ознакомить турецких читателей и учеников с теоретическими основами аруза, а также с целью обучения турецких детей персидскому языку.

Он перевел произведение весьма качественно, и помимо всего прочего, перевел на турецкий язык классическое произведение XV века.

История переводов с языков восточных народов на тюркские языки, в том числе и на османский турецкий, также выделяется своей древностью. Безусловно, такие переводы были связаны, прежде всего, с переводом Корана, а позже с творчеством таких гениальных поэтов, как Сади. Естественно, в первую очередь, это религиозные и художественные произведения. В их числе не так часто встречались переводы научных трудов. Интересно, что в конце XIX века такие интеллектуалы, как Джафер Тайяр, переводили произведения восточных классиков в соответствии с классической восточной переводческой традицией. Научная ценность этих работ и, в частности, связь перевода произведения Абдуррахмана Джами, выполненного Джафером Тайяром, с арузоведением, делают как ценность перевода, так и текст перевода чрезвычайно привлекательными с точки зрения текстологии.

Ключевые слова: *литература тюркских народов, аруз, метр, стихотворение.*

Elnura Babayeva

“RISALE-I ARUZ” BY ABDURRAHMAN JAMI AS A VALUABLE SOURCE OF ARUZ SCIENCE

ABSTRACT

Abdurrahman Jami's treatise “Risale-i Aruz” is considered one of the most beloved and widely read works in the Near and Middle East. The manuscript kept at the Institute of Manuscripts named after Mohammed Fizuli of ANAS confirms that this monument is widespread in Azerbaijan. The work is dedicated to the aruz versification system, which can combine classical oriental literature, regardless of its language, and is used in the poetry of almost all classical oriental peoples. It should be noted that the work “Risale-i Aruz” by Abdurrahman Jami is devoted to the theoretical features of the Persian aruz, and despite the fact that it was written in Persian, at the end of the 19th century, a specialist in the Persian language Jafar Tayyar set himself the goal of translating it into Ottoman language and wanted to acquaint Turkish readers and Turkish students with the theoretical foundations of aruz, and considered it his goal to teach Turkish children the Persian language.

In this respect, he translated the work very well, along with all other qualities, at the same time he translated into Turkish a classic work of the 15th century.

The history of translations from the languages of the oriental peoples into the Turkic languages, including Ottoman Turkish, is also distinguished by its antiquity. Of course, such translations were primarily related with the translation of the Holy Quran, and later associated with the work of genius poets such as Sadi. It is interesting that at the end of the 19th century, such intellectuals as Jafar Tayyar, in accordance with the traditions of classical oriental translation, translated these works according to the same principles by which they translated the works of oriental classics. The fact that these works have scientific significance and especially the fact that Jafar Tayyar’s translation of the work of Abdurrahman Jami is associated with the science of aruz makes both the essence of the translation and the text of the translation very attractive from the point of view of textual criticism.

Keywords: *literature of the Turkic peoples, aruz, versification, poem*

VASİM MƏMMƏDƏLİYEVİN ELMİ-DİNİ TƏDQİQATLARINDA MEHDİLİK MƏSƏLƏSİ

Elnur Mustafayev,
AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
Din və ictimai fikir tarixi şöbəsinin elmi işçisi
elnur.mustafayev88@mail.ru

XÜLASƏ

Məqalədə görkəmli şərqşünas, AMEA-nın həqiqi üzvü, akademik Vasim Məmmədəliyevin elmi-dini fəaliyyəti, həmçinin ərəb dilçiliyi, dinşünaslıq və digər sahələrdə yazdığı kitablar və elmi məqalələr haqqında məlumatlar verilmişdir. Məqalədə akademik Vasim Məmmədəliyevin müstəqillikdən sonra Azərbaycanda İslam dininin elmi əsaslarla öyrənilməsində rolu, müqəddəs Qurani-Kərimi tərcümə etməsi və görkəmli alimin elmi yaradıcılığı ilə bağlı digər məsələlərə toxunulmuşdur. Vasim Məmmədəliyev ölkəmizdə dinşünaslıq, ilahiyyat və dilçilik sahəsində peşəkar kadrların, gənc alim və tədqiqatçıların yetişməsində xüsusi yer tutur. Belə ki, uzun illər BDU İlahiyyat fakültəsinin dekanı olmuş və bu təhsil müəssisəsinin inkişafında böyük rol oynamışdır.

Məqalədə V.Məmmədəliyevin elmi-dini tədqiqatlarından bəhs edilmiş, xüsusilə elmi yaradıcılığında alimin Mehdilik inancı ilə bağlı elmi-nəzəri yanaşmaları qeyd edilmişdir. Belə ki, V.Məmmədəliyev Mehdilik məsələsinə bir neçə prizmadan yanaşmış, dinşünaslıq və ilahiyyat elmlərinin metodlarından istifadə etməklə bu problemi şərh etmişdir. Bununla yanaşı, akademik V. Məmmədəliyev xilaskarlıqla bağlı inancları həm ibrahimi dinlər kontekstindən, həm də İslam məzhəblərinin bu məsələ ilə bağlı rəyləri əsasında izah etmişdir. Qeyd etmək lazımdır ki, bəzi din və ideoloji cərəyanlarda Mehdilik inancına səthi yanaşılsa da, bəzi dinlərdə bu inanc çox güclüdür. Başqa bir ifadə ilə desək, Mehdilik inancı bəzi dinlərin əsas prinsiplərindən birinə çevrilmiş və həmin dinlərin enerji mənbəyi kimi büruzə vermişdir. Təbii ki, dinlərin xilaskarla bağlı yanaşmaları birmənalı deyildir, ortaq və fərqli cəhətlər vardır. Ortaq cəhət ümumi olaraq xilaskara inamda, fərqli cəhətlər isə daha çox təfərrüatlarda özünü göstərir. Belə ki, bir xilaskarın gələcəyi inancı əksər dinlərdə ortaq cəhət olaraq mövcuddur. Dün-

yanı xilas edəcək xilaskarın kimliyi, şəxsiyyəti və sahib olduğu xüsusiyyətlər kimi mövzular dinlərə görə dəyişən problemlərdir.

Açar sözlər: *din, xilaskarlıq, Mehdi, inanc, Qurani-Kərim.*

Giriş

Azərbaycan şərqşünaslıq məktəbinin ən parlaq siması olan Vasim Məmmədəliyev Vətənimizin hüdudlarından kənarda böyük şöhrət qazanmış və dünya şərqşünaslığına böyük töhvələr vermişdir. Vasim Məmmədəliyevin ərəb dilçiliyi və ərəb qrammatikası məktəblərinə dair yazdığı elmi əsərləri bu sahədə ən mötəbər mənbələrdən hesab edilir. Vasif müəllimin "Ərəb dilçiliyi" monoqrafiyası ərəb qrammatikası məktəblərinin istər ayrı-ayrılıqda, istərsə də bütövlükdə bir sistem kimi öyrənilməsinə, bu sistemin nəzəri və praktiki əsaslarının tam şəkildə müəyyən edilməsinə, digər qardaş dillər ilə müqayisə etməklə oxşar və fərqli cəhətlərinin izahına həsr edilmişdir. Bu mövzu o dövrə qədər nə Avropada, nə də sovet şərqşünaslıq məktəbində sistemli şəkildə tədqiq edilməmişdir. Vasim müəllimin bu sahədə tədqiqatı ilk addım hesab edilir. Belə ki, "Ərəb dilçiliyi" monoqrafiyasında beş ərəb qrammatika məktəbi (Bəsrə, Kufə, Bağdad, Misir, Əndəlüs) tarixi və dilçilik nöqteyi-nəzərdən tədqiq edilmiş, həmin qrammatika məktəblərin ərəb dilinin formalaşmasında rolu, habelə görkəmli nümayəndələrinin həyat və yaradıcılığı, dilçiliyə gətirdikləri yeniliklər və s. məsələlər qələmə alınmışdır.

İslam mədəniyyətinin formalaşmasında Azərbaycan xalqının və alimlərinin xüsusi rolu olmuşdur və bu ümumbəşəri mədəniyyətinin inkişafında Azərbaycan ən böyük pay sahiblərindən biridir. İslam dininin zühurundan sonra ilk və könüllü olaraq bu yeni dini qəbul edən azərbaycanlılar daha sonralar əsrlər boyu əldə etdikləri elmi, mədəni, siyasi təcrübələrini İslam fəlsəfi düşüncə məktəbinin inkişafında paylaşmış və öz töhfələrini vermişlər. Azərbaycanlı zəka və ziya sahiblərinin yaratdığı əsərlər, yeni ideya və nəzəriyyələr onların adlarını İslam mədəniyyəti tarixinə, eləcə də Azərbaycan xalqının yaddaşına əbədi həkk etmişdir. Məhz akademik Vasim Məmmədəliyev öz şərəfli həyat tərzi və elmi-ictimai yaradıcılığı ilə yuxarıda qeyd etdiyimiz alimlərin zümrəsinə daxil olmağı bacarmışdır. Ərəb və fars dillərinin, həmçinin Yaxın Şərq və Azərbaycan klassik poeziyasının dərin bilicisi kimi şöhrət qazanmışdır. Vasim Məmmədəliyev öz elmi yaradıcılığında təsəv-

vüf və irfan ədəbiyyatına toxunmuş, həmçinin Azərbaycan divan ədəbiyyatının bir çox nümayəndələrinin şeirlərində sirli məqamları açmış və təhlillər aparmışdır. V.Məmmədəliyevin tədqiqatlarına təkcə Azərbaycanda deyil, dünyanın əksər ölkələrində böyük ehtiyac yaranmışdır. Ona görə də akademikin bir sıra elmi əsərləri ərəb, fars, türk, rus, ingilis dillərinə tərcümə edilmişdir.

Akademik Vasim Məmmədəliyevin elmi-dini yaradıcılığına qısa baxış

VII əsrdə Ərəbistan yarmadasında işıq üzü görən İslam dini az müddətdə – 23 il ərzində möhkəmlənərək sürətlə Ərəbistan ərazilərinə yayıldı. İslamdan əvvəl mərkəzləşmiş bir dövlətin mövcud olmadığı Ərəbistan yarımadasında idarəçilik müxtəlif qəbilələrin və zəngin insanların əlində cəmləşmişdi. Məkkə şəhərində hakimiyyət Qüreyş tayfasının müxtəlif qəbilələri arasında bölünmüşdü ki, bir çox hallarda hakimiyyətin bölünməsi məsələsində narazılıqlar aralarında əlaqələrin pozulmasına və münaqişələrə səbəb olurdu. Hicaz bölgəsinin ikinci ən böyük şəhəri olan Yəsribdə isə Ovs və Xəzrəc qəbilələri arasındakı düşmənçilik və mənfi münasibətlər vahid idarəçiliyin qurulmasına imkan vermirdi. İslamın gəlişindən sonra Məhəmməd peyğəmbərin apardığı təbliğatlar nəticəsində qəbilələrarası düşmənçiliyə və müharibələrə son qoyularaq, tam vahid mərkəzləşdirilmiş dövlətin qurulması mümkün oldu. Bununla yeni dinin Ərəbistan yarmadası və sonralar bu yarımadanın hüdudlarından kənarda yayılmasına zəmin yarandı.

VIII əsrdə Azərbaycan ərazilərində hakim dinə çevrilən İslam dini bu regionda yaşayan xalqların dini, mədəni, iqtisadi və siyasi həyatına müsbət təsir göstərərək, xalqın formalaşmasına və dövlətçilik ənənələrinin möhkəmlənməsinə birbaşa təsir göstərmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan İntibah dövründə XI-XIII əsrlərdə və daha sonralar İslam mədəniyyətinin formalaşmasına və inkişaf etməsinə səbəb olan böyük töhfələr vermişdir. Belə ki, müxtəlif dini və rasional elmlərin sistemləşdirilməsində və inkişaf etdirilməsində azərbaycanlı alimlərin əvəzsiz rolu olmuşdur. Azərbaycan ərazilərində Quran təfsiri, kəlam, hədis, fiqh, əxlaq, dilçilik ilə bağlı sərf, nəhv, bəlağət, həmçinin fəlsəfə və məntiq kimi rasional-əqli elm sahələrində yüzlərlə alim yetişmiş və dəyərli əsərlər yazmışlar.

V.Məmmədəliyev Azərbaycanda İslam dininin elmi-nəzəri əsaslarla öyrənilməsinin ilk təşəbbüskarlarından biridir. Qeyd etmək la-

zımdır ki, 1992-ci ildə BDU-da açılmış İlahiyyat fakültəsinin ilk dekanı olmuş və uzun illər həmin təhsil müəssisəsinə başçılıq etmişdir.

İlahiyyat fakültəsi Azərbaycanda ilahiyyat və islamşünaslıq sahəsində peşəkar mütəxəssislərin hazırlanmasında mühüm rol oynamışdır. Bununla yanaşı, şərqşünas alim Qafqaz Müsəlmanlar İdarəsinin nəzdində yaradılmış Elmi-Dini şuraya başçılıq etmişdir. Bu baxımdan, Vasim müəllim ölkədə dini mövhumatla mübarizədə, həmçinin radikal dini düşüncələrin qarşısının alınmasında xüsusi yer tutur. Ölkələrarası münasibətlərin, iqtisadi, mədəni, elmi əlaqələrin qurulmasında və inkişaf etdirilməsində din faktoru və bu dini təmsil edənlərin peşəkarlığı böyük əhəmiyyət kəsb edir. Xüsusilə Azərbaycanın Yaxın Şərq regionunda yerləşməsi və İslam dünyasının ayrılmaz bir parçası olması din məsələsini siyasi və mədəni cəhətdən aktuallaşdırır. V. Məmmədəliyev bu istiqamətdə pedaqoji və elmi fəaliyyətində işin öhdəsindən uğurla gəlmişdir.

V.Məmmədəliyevin Azərbaycanın elmi-mədəni mühitində həyata keçirdiyi işlərdən biri də 1991-ci ildə akademik Ziya Bünyadovla birlikdə Müqəddəs Kitab Qurani-Kərimin Azərbaycan dilinə tərcümə etməsidir. Qurani-Kərimin Azərbaycan dilinə tərcümə edilməsi diqqəti İslam dininə və mənəvi dəyərlərə yönəltdi, bu dinin tarixinə, fəlsəfəsinə və mədəniyyətinə aid tədqiqatlara təkan verdi və xalqda Qurani-Kərimin daşıdığı məna yükü haqqında ümumi təsəvvür yaratdı (Baxşəliyeva 2012, 7-8). Bununla yanaşı, Qurani-Kərim tərcüməsinin nəşri ölkəmizdə mənəvi dəyərlərin təbliğini gücləndirdi və 70 il dinə qarşı sovet senzurasından sonra əhali arasında İslam dininə qarşı maraqları artırdı. Qurani-Kərimin tərcüməsinin digər əhəmiyyəti SSRİ dövründə din sahəsində yaradılmış süni savadsızlığın tez bir zamanda aradan qaldırılması, dini birbaşa müqəddəs mətnin özündən öyrənilməsinə rəvac verdi. Akademik Ziya Bünyadovla Vasim Məmmədəliyevin bu təşəbbüsü Azərbaycan şərqşünaslığında, həmçinin İslam dünyasında böyük hadisələrdən biri hesab olunur.

V.Məmmədəliyevin elmi-dini və ictimai maarifçilik yolunda göstərdiyi ən mühüm xidmətlərdən biri uzun illər ərzində "Haqqın dərgahı" televiziya verilişini aparması olmuşdur. Belə ki, 1991-ci ildən 2017-ci ilə qədər Azərbaycan televiziyasında yayımlanan bu veriliş Vasim müəllimin sayəsində ümumxalq məhəbbəti qazanmışdır (Nurullayev 2017, 38). V.Məmmədəliyev "Haqqın dərgahı" verilişinin aparıcısı kimi, dinlər tarixi, İslam tarixi, Qurani-Kərimin surə və ayələri, din və məzhəblər arasında mübahisəli problemlərin həll yolları və di-

gər mövzularda söhbətlər etmiş, mühazirələr oxumuşdur. Bu verilişin digər əhəmiyyəti Azərbaycanın ənənəvi məzhəbləri haqqında dolğun məlumatların verilməsindən, həmçinin Azərbaycan milli-mənəvi dəyərlər sisteminə zidd qeyri-ənənəvi cərəyanların ifşa olunmasından ibarət olmuşdur. Bununla yanaşı, V. Məməmmədəliyev bu verilişin imkanlarından istifadə etməklə, uzun illər ərzində sağlam dini düşüncə sisteminin formalaşmasını, eləcə də tolerantlıq və multikultural dəyərləri təbliğ etmişdir.

Dinlərdə Mehdilik inancı

Mehdilik inancının qaynağı və əsası kimi bir çox səbəblər vardır və bu səbəblər cəmiyyətə, dinlərə görə dəyişə bilər. Xaos, ictimai böhran və qeyri-sabitliyin hakim olduğu zamanlarda insanlar onları xilas edəcək bir liderə və ya mistik qüvvəyə ümid bəsləməyə başlayır. Adətən, cəmiyyətdə mövcud problemlər daxildən həllini tapmadığı təqdirdə, cəmiyyət xilaskarı kənarda axtarmağa çalışır və ya möcüzəvi bir qüvvənin köməyinə inanmaq məcburiyyətində qalır. Bununla cəmiyyət intizar (gözləmə) mərhələsinə daxil olmaqla, psixoloji sakitliyi və gələcəyə ümidlə yaşamaq kimi gücü əldə etmiş olur. Ümid psixoloji amil olaraq bir çox fərdi və ictimai problemləri həll etmiş olur. Əks təqdirdə, ümidsizlik cəmiyyətdə nizamsızlığa və cinayətlərin artmasına səbəb ola bilər. Xilaskara inam və onun zühurunu gözləmək bəzən insanlara öz hədəflərinə çatmaq üçün stimul verir və gələcəyə inam kimi müsbət istiqamətlərə yol açır. Kütlə psixologiyasının əsas tələblərindən biri cəmiyyətin təhlükəsizliyini təmin edə bilən və onları düzgün şəkildə idarə edəcək şəxslərə ehtiyac duymasıdır. Bu cəhətdən xilaskara inam və onu gözləmək hissləri bəzi cəmiyyətlər üçün etibarlı dayaq rolunu oynayır.

Xilaskara inamın dinlərin ortaq cəhətlərindən olmasına baxmayaraq, bu inancın təfərrüatlarında fərqlər mövcuddur. Gözlənilən xilaskarın şəxsiyyəti, onun hansı xüsusiyyətlərə sahib olması, nə vaxt gəlməsi və bu mövzu ilə əlaqədar bir çox məsələlər barəsində dinlərin fərqli baxış bucaqları vardır. Yuxarıda qeyd olunan problemlər dinlərin inanc sisteminə və xalqların mədəni və tarixi proseslərinə uyğun olaraq formalaşır. Bəzi dinlər xilaskarın gəlişini dünyanın sonu ilə əlaqələndirdiyi halda, bəzi dinlər bu hadisəyə siyasi kontekstdən yanaşmışdır. Başqa bir ifadə ilə desək, hər bir din və ya cəmiyyət gözlədiyi xilaskara sahib olduğu düşüncə və inanclara uyğun bir şəxsiyyət qazandırır.

“Mehdi” sözü ərəbmənşəli olub, ərəb dilində “hə” "ه" , “də” "د", “yə” "ي" (hədə), “هدى” feilindən törəmiş ismi-məfuldur (Ğalayyini 2011, 135). “hədə” - "هدى" ,(“hə”, “də”, “yə” – “ه”, “د”,”ي”) felinin bir neçə lüğəvi mənası vardır. Əsas mənası isə doğru istiqamətə yönəltmək, hidayət etmək və ya düzgün yola istiqamətləndirmək kimi məfhumları özündə daşıyan bir sözdür. Bu ifadənin lüğəvi mənası olduğu kimi, həmçinin istilahi mənası da mövcuddur. Terminoloji mənada isə Mehdi axır-zamanda (qiyamətdən öncə), dünyanın zülm və ədalətsizliyə büründüyü bir vaxtda zühur etməsi ilə cahanşümul sülhü, ədaləti və həqiqi səadəti bərpa edəcək Tanrı tərəfindən vəd olunmuş şəxsdir (ət-Tureyhi 2008, 2; 289).

Yuxarıda qeyd etdiyimiz kimi, “Mehdi” sözü (hədə) - (هدى) felindən törəmiş ismi-məfuldur və Azərbaycan dilinə tərcümədə düzgün yola yönəldilmiş, hidayət edilmiş və haqqa istiqamətləndirilmiş kimi mənaları ehtiva edir. Terminoloji mənada isə axırzamanda insanları düzgün yola yönəldəcək, zülm və ədalətsizlikdən xilas edəcək lider nəzərdə tutulur. Bu sözdən törəmiş “Məhdəviyyət” və ya “Mehdilik” ifadələri isə “Mehdi” sözündən yaranmış substantivləşmiş isimlərdir. Qeyd edilmiş ifadələrin və bu mövzu ilə bağlı dini konsepsiyanın mahiyyətində dünyanın xilası, ümumbəşəri sülhün bərpası kimi düşüncələr olduğu üçün Azərbaycan dilinə xilaskarlıq və ya qurtarıcılıq kimi tərcümə etmək mümkündür.

V.Məmmədəliyevin tədqiqatlarında Mehdilik məsələsi

Məlum olduğu kimi, V.Məmmədəliyev ərəb filologiyası problemləri ilə yanaşı, dinşünaslıq sahəsində də uzun illər tədqiqatlar aparmış, din və fəlsəfə, təsəvvüf və irfan sahəsində yüzlərlə elmi məqalə yazmışdır. Görkəmli şərqşünas dinşünaslıq sahəsində yazdığı elmi məqalələrdə müxtəlif İslam elmlərini təfsir, kəlam, fiqh, əxlaq, fəlsəfə, məntiq və s. əhatə edən fundamental və mübahisə doğuran problemlərə toxunmuş, öz elmi-nəzəri düşüncələrini qeyd etmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Mehdilik inancı, demək olar ki, bütün dinlərdə mövcuddur və dinlərin müştərək məsələsi hesab etmək olar. Təfərrüatlarda fərqlər olsa da, dünyanın xilası, axırzamanda xilaskarın zühuru kimi inanclar ümumiləşdirici bir faktordur. V.Məmmədəliyev bəzi elmi məqalələrində İslam və dünya dinləri kontekstində Mehdilik inancına toxunmuş və bu məsələ ilə bağlı izahlar vermişdir.

V.Məmmədəliyev akad. Vasim Məmmədəliyevin 70 illik yubileyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransına təqdim etdiyi "Təsəvvüfdə qeyb ərənləri" tezisində təsəvvüfdə qütb anlayışı ətraflı şəkildə izah edilmiş və bu kontekstdə İslamda Mehdilik məsələsinə də toxunulmuşdur. Vasim müəllim tezisin girişində "ricalül-qeyb" (qeyb ərənləri) məfhumundan söhbət açır və belə qeyd edir: "Sufilərə görə, Mütləq Varlığın pakdan-pak, müqəddəs olan zatı əvvəlcə əqli-külli (tam əqli) meydana gətirmiş, zahir etmişdir. Bu ilk təcəlli (zühur) "həqiqəti-Mühəmmədiyyə" (Məhəmməd həqiqəti, gerçəkliyi) adlanır. Mütləq Varlıqla aləm arasında bir bərzəx, bir keçid olan bu məqama hər zaman bir insan (bir kişi) layiqdir. Məhəmməd əleyhissalamdan əvvəl gəlib-getmiş peyğəmbərlərin hamısı bu məqamdan feyz almış, ondansonrakı ərənlər də həmin məqamdan feyz alacaqlar. Haqqında danışdığımız məqama hər zaman bir insan layiq ola bilir ki, ona "Qütbül-Əqtab" (Qütblər qütbü) deyilir. "Qütb" ərəb sözü olub, dəyirman daşının mili (oxu) mənasında işlədilir. Dəyirman daşı milin ətrafında nə cür fırlanırsa, bütün aləm də Qütbün ətrafında o cür fırlanır. Aləm əhli Qütbün iradəsinə, O da Allahın iradəsinə tabedir. Hər ölkənin, hər yerin, hər işin bir qütbü vardır. Əsl Qütb isə Qütblər-Qütbüdür. Yardım istəyən hər bir kəsə mənən kömək göstərdiyi üçün ona "Qövs" də deyilir. Bu şəxs Məhəmməd həqiqətinin əsl varisidir.

İmamiyyə məzhəbinə qail olanların fikrincə, hazırda Qütb Onikinci İmamdır. Ondan başqa Qütb yoxdur, Onikinci İmama yaxın olan ərənlərin vilayəti (hökmranlığı) naiblik (onun müavini olması) yolu ilədir" (Məmmədəliyev 2012, 351-352).

Akademik Vasim Məmmədəliyev "Təsəvvüfdə qeyb ərənləri" adlı tezisində öncə təsəvvüf və irfanda "Mütləq Varlıq", "əqli-külli", "həqiqəti-Mühəmmədiyyə", "qütb", "qütbül-əqtab" kimi anlayışlardan bəhs etmiş, daha sonra İmamiyyə məzhəbinin "qütb" məfhumu ilə bağlı nəzərini qeyd etmişdir.

İslam məzhəbləri içərisində Mehdi inancına daha çox yer ayıran və əqidə əsaslarından biri hesab edilən əsas məzhəblərdən biri şiə (imamiyyə) məzhəbidir. Mehdi ilə bağlı məlumatlara İslam dininin müqəddəs yazıları olan Quranda və Məhəmməd peyğəmbərin hədislərində rast gəlinməkdədir. İslam dininin əsas qaynağı olan Quranda Mehdi ilə bağlı ayələr İslam məzhəbləri arasında birmənalı qarşılanmır və məzhəblərin sahib olduqları düşüncələrə görə fərqli izahlar verilir. Bəzi məzhəblər, xüsusilə şiə (imamiyyə) məzhəbi həmin ayələrin

Onikinci İmam Mehdi ilə bağlı olduğunu qeyd etdiyi halda, bəzi məzhəblər həmin ayələrin ümumi mənada olduğunu və konkret hər hansı bir şəxsə aid olmadığını qeyd edirlər. Misal olaraq şiə (imamiyyə) məzhəbinə görə, Quranın "Ənbiya" surəsinin 105-ci ayəsində - "Biz kitabdan (Tövratdan, yaxud Lövhi-Məhfuzdan) sonra Zəburda da (cənnət torpağına, yer üzünə və ya müqəddəs) yer üzünə Mənim saleh bəndələrimin varis olacağını yazmışdıq". Saleh bəndələrdən məqsəd Mehdi və onun tərəfdarlarının olduğunu qəbul edirlər (Təbərsi 2010, 7. 167). İslam dininə görə xilaskar hesab edilən Mehdi Yer kürəsi zülmə və müharibələrə büründüyü vaxt İslam peyğəmbərinin nəslindən bir şəxs zühur edəcək, zülm və pislik xəstəliyinə yoluxmuş dünyanı sülh və ədalətlə dolduracaqdır. Mehdinin İslam peyğəmbərinin nəslindən olması İslam məzhəbləri arasında qəbul olunmuş ortaq görüşdür. Onun konkret şəxsiyyətinin təyinində isə fərqli fikirlər mövcuddur. Əhli-sünnə məzhəbinə görə, Mehdi İslam peyğəmbərinin nəvəsi Həsən ibn Əlinin nəslindən olacaq Məhəmməd ibn Abdullah adlı şəxsdir. Əhli-sünnə məzhəbi onun hələ dünyaya gəlmədiyi və böyük Qiyamətdən öncə doğulacağı görüşündədir. Şiə (imamiyyə) məzhəbinə görə, Məhəmməd peyğəmbərin vəfatından sonra müsəlmanların dini və siyasi rəhbərləri onun nəslindən olan əhli-beyt imamları hesab edilir. Şiələrə (imamiyyə) görə müsəlmanlara rəhbərlik edəcək imamların sayı on ikidir və bu şəxslər Məhəmməd peyğəmbərin dili ilə Allah tərəfindən təyin edilmişdir. Məhz bu səbəbə görə, bəzi mənbələrdə şiələri "İmamiyyə" və ya "İsnə aşariyyə" (onikiimamçı) kimi də adlandırırlar. Onlara görə, Mehdi əhli-sünnə məzhəbindən fərqli olaraq, Peyğəmbərin digər nəvəsi Hüseyn ibn Əlinin nəslindən olan onbirinci İmam Həsən ibn Əli əl-Əskərinin oğlu Məhəmməd ibn Həsən əl-Məhdidir (Müfid 2009, 2. 477). O, hicrətin 255-ci ilində dünyaya gəlmiş və beş yaşında - hicrətin 260-cı ilində Abbasi xəlifələrinin təzyiqi səbəbindən ilahi möcüzə sayəsində gözlərdən itərək qeybə çəkilmişdir. Digər İslam məzhəbləri olan ismailiyyə, zeydilik və sufi təriqətlərinin bu mövzu ilə bağlı fərqli fikirlərinə rast gəlmək mümkündür.

Dahi sufi şairi Cəmaləddin Rumi özünün "Məsnəvi"sində hər bir dövrün bir vəlisinin (rəhbəri) olduğunu açıq şəkildə qeyd etmiş və İslam inancına görə, dünyanı xilas edəcək Mehdiyə eyham vurmuşdur.

پس بهر دوری ولیی قایمست تا قیامت آزمایش دایمست
پس امام حی قایم آن ولی خواه از نسل عمر خواه از علی است
مهدی و هادی وی است ای راه جو هم نهان و هم نشسته پیش رو

"Pəs be hər dovri vəliyi qaem əst,
azmayeş ta qiyamət daem əst.
Pəs Emame həyye qaem an vəlist,
xah əz nəsl Ömər, xah əz Əlist.
Mehdiyo-hadi vey əst ey rah cu,
həm nəhan-o, həm neşəstə pişe ru".

"Hər dövrdə bir vəli mövcuddur,
İlahi imtahan qiyamətə qədər davam edəcəkdir.
Diri və Qaim İmam odur,
İstər Ömər soyundan olsun, istər Əli.
Ey həqiqət axtaran, Mehdi də, Hadi də odur,
Həm gizlindir, həm də sənin qarşında oturmuşdur".

Bu mövzu azərbaycanlı dahi hürufi şair İmadəddin Nəsiminin və digər klassik Azərbaycan şairləri Füzuli, Şah İsmayıl Xətai, Seyid Əzim Şirvani kimi şairlərin şeirlərində tərənnüm edilmiş, cahanşümul xilaskarın zühurundan bəhs edilmişdir. Klassik Azərbaycan şairlərinin yaradıcılığında əhli-beyt sevgisini tərənnüm edən düşüncələr və on iki imamın tərifi ilə bağlı kifayət qədər dini-fəlsəfi məzmunlu şeirlərə rast gəlmək mümkündür. Nəsimi, Füzuli, Xətai və digər Azərbaycan şairləri öz şeirlərində şiələrin (imamiyyə) qəbul etdiyi on iki imamın adlarını bir-bir çəkmiş, onları müxtəlif bədii ifadə formaları ilə vəsf etmiş, onlara qarşı inamını, rəğbət və ehtiramını şeir sənəti vasitəsilə çatdırmağa çalışmışlar. Ümumiyyətlə, əhli-beyt mövzusu İslam dininin ən həssas və ən əhəmiyyətli nöqtələrindən biridir. Bu məsələyə İslamın iki əsas qaynağında – həm Qurani-Kərimdə, həm də Məhəmməd peyğəmbərin hədislərində xüsusi diqqət ayrılmış, etiqadi və hüquqi cəhətləri müəyyən edilmişdir.

İmadəddin Nəsimi "Vücudum şəhrinə girdim tulu nuri xuda gördüm" mətləli qəzəlində isə bu cür qeyd edir:

"Həman xətmi imam oldur, həm oldur süruri mərdan,
Məhəmməd Mehdi şaha vəsiyyi innəma gördüm"

(Araslı 1973, 1. 7).

Nəsimi qeyd edilmiş qəzəlin ilk misrasında dünyanı xilas edəcək və bəşəriyyətin maddi və mənəvi sevincinə səbəb olacaq qurtarıcının, şiələrin Məhəmməd peyğəmbərdən sonra rəhbər kimi qəbul etdiyi on

iki imamın sonuncusu olduğunu qeyd edir. Şair ikinci misrada isə xilaskarın adının Məhəmməd Mehdi olduğunu və Qurani-Kərimdə Allah tərəfindən vəd verildiyini şeir dili ilə ifadə edir. Belə ki, Nəsimi ikinci misrada zikr edilən "Şaha vəsiyyi innəma gördüm" ifadəsi ilə "əl-Maidə" surəsinin 55-ci ayəsinə eyham vurur. Bu ayənin ərəb dilində olan mətni "innəma" ədatı ilə başlayır və həmin ayənin məzmununda müsəlmanlara hami və ya rəhbər olacaq şəxslər sadalanır:

إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُون

("Maidə", 55).

"Sizin haminiz (rəhbəriniz) ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər" ("Maidə", 55).

İslam mənbələrində qeyd edilən məlumatlara görə, bu ayənin enmə səbəbi birinci imam Əli ibn Əbu Talib olmuşdur. Belə ki, bir gün İmam Əli namaz qılarkən məscidə dilənçi daxil olur və müsəlmanlardan yardım istəyir. Həmin vaxt İmam Əli namazın tərkib hissələrindən olan rüku vəziyyətində olur və dilənçinin imdad diləyinə cavab olaraq barmağındakı üzüyü işarə edir. Həmin dilənçi isə üzüyü onun barmağından çıxararaq məscidi tərk edir. Bu hadisədən sonra Məhəmməd peyğəmbərə yuxarıda qeyd edilən "əl-Maidə" surəsinin 55-ci ayəsi nazil olur (Əmini 2009, 3. 91). İmadəddin Nəsimi beytin ikinci hissəsinin sonunda bu hadisəyə işarə vuraraq, "şaha" sözü ilə İmam Əlini, "vəsiyyi" sözü ilə onun nəslindən olan on ikinci imam - Məhəmməd əl-Mehdini nəzərdə tutur (Мустафаев 2018, 118).

V.Məmmədəliyev "Təsəvvüfdə qeyb ərənləri" tezisində təsəvvüf və irfan düşüncə məktəbində bu məsələ ilə bağlı yanaşmalarını qeyd etməklə, mövzu ilə əlaqəli İslam məzhəblərinin inanclarını şərh etmişdir.

Akademik Vasim Məmmədəliyevin uzun illər ərzində Azərbaycan televiziyasında aparıcısı olduğu "Haqqın dərgahı" verilişinin bəzi saylarında Mehdilik məsələsinə toxunmuş və öz mülahizələrini qeyd etmişdir. V.Məmmədəliyev "Haqqın dərgahı" verilişinin bir sayında məsələ ilə bağlı belə qeyd edir:

"Məsih-Mehdi inancı bütün dinlərdə mövcuddur, həm Yəhudilikdə, həm xaçpərəstlərdə, həm də İslamda Mehdi-məsih inancı var, yəni dünyanın axırında, axırzaman deyilən mərhələnin sonunda zühur edib, ədaləti bərqərar edən bir xilaskar gələcək, bu dinlərin etiqadına görə onlar insanları səadətə, Allahın onlara vəd buyurduğu xoşbəxtliyə qovuşduracaq. Fərq bundan ibarətdir ki, hər dində məsih ayrı şəxs-

dir, ayrı bir adamdır. Belə ki, yəhudi dinində gözlənilən xilaskar, məsih Davud oğlu məsihdir, xaçpərəstlərdə Məryəm oğlu məsihdir, İslam dinində isə bu, Peyğəmbər əleyhissalamın övladlarından biri olan Həzrət Mehdi, yəni Məhəmməd adlı onikinci imamdır. Yəni əslində, bunların üçünün də yerinə yetirdiyi vəzifə eynidir, lakin hər dinin özünün bir məsihi və gözlənilən xilaskarı vardır".

V.Məmmədəliyev yuxarıda qeyd edilmiş fikirlərində Mehdilik məsələsinə üç dinin prizmasından yanaşaraq, xilaskarlıq inancının mahiyyətini açmış, Yəhudilik, Xristianlıq və İslamda gözlənilən məsih və mehdilərin kimliyini açıqlamışdır. Daha sonra hər üç dində xilaskarlıq inancı ilə bağlı müştərək və fərqli cəhətləri qeyd etmişdir.

Hər hansı bir din və ya fəlsəfi-əxlaqi düşüncə sistemlərində Mehdilik inancı varsa, onun mahiyyətində müharibələrin sona çatması, bəşəriyyətin xilası və qızıl dövrün başlanması kimi ideyalar durur. Məqalənin həcmini nəzərə alaraq, bəzi ilkin qəbilə dinlərində, o cümlədən dünya dinlərində gözlənilən xilaskarların adlarını qeyd edəcəyik. Yerli Qvineya xalqlarına məxsus "Karqo" inanc sistemində onları xilas edəcək varlığın adı Manzren, qədim aspektlərdə Quetzalcoatl, mayalılarda Kukulkan, Hinduizmdə Kalki, buddistlərdə Maytreya, Zərdüştilərdə Saoşyant, yəhudilərdə ibrani dilində ham-maşiah, xristianlarda arami dilində meşiha və müsəlmanlarda isə Mehdi adlandırılır. Yuxarıda qeyd edilmiş ifadələr lüğəvi mənada bir-birlərindən fərqlənsə də, termin kimi eyni məna yükünü özündə daşıyır (Mustafayev 2020, 97).

Nəticə

Mehdilik (xilaskarlıq) inancı, demək olar ki, bütün dinlərdə fərqli formalarda təzahür etməklə xüsusi yer tutur. Bəzi din və məzhəblərdə xilaskar inancına səthi yanaşılsa da, bəzilərində bu məsələ kifayət qədər ciddiyə alınmış və iman əsaslarından birinə çevrilmişdir. Bu inancı müqayisəli şəkildə tədqiq etdikdə, ümumi və fərqli cəhətlərini müəyyən etmək mümkündür. Ümumi cəhətlərə misal olaraq, xeyir və yaxşılığın təbliği, xoşbəxt və firavan həyatın qurulması, zülm və ədalətsizliklə mübarizəni görmək mümkündür. Fərqli cəhətləri isə xilaskarın kimliyi və onun bioloji və ya mistik varlıq olmasındadır. İslam dinində də digər dinlər kimi mehdilik inancı xüsusi yer tutmaqdadır. Mehdi, xilaskar inancının təfərrüatlarında fərqlər olmasına baxmayaraq, ümumən İslam dinin əsas məzhəbləri tərəfindən qəbul olunmuş bir əqidə sistemidir.

Akademik Vasim Məmmədəliyev özünün "Təsəvvüfdə qeyb ərənləri" tezisində təsəvvüfdə "ricalül-qeyb", "əqli-külli", "həqiqəti-Mühəmmədiyyə", "qütb", "qütbul-əqtab" anlayışlarına izah gətirmiş, bu kontekstdə İmamiyyə məzhəbinin Mehdi ilə bağlı inanclarını qeyd etmişdir. Bununla yanaşı, V.Məmmədəliyev digər elmi-dini və ictimai maarifçilk fəaliyyətində dinlərdə xilaskarlıq mövzusuna toxunmuş, Yəhudiliyin, Xristianlığın və İslamın bu məsələ ilə bağlı görüşlərini qeyd etmişdir. Qeyd etmək lazımdır ki, görkəmli şərqşünas, akademik Vasim Məmmədəliyev öz elmi tədqiqatlarında Mehdi-məsih inancı ilə bağlı dinlərin ortaq və fərqli fikirlərinə aydınlıq gətirmiş, müxtəlif dinlərin gözlədiyi xilaskarın kimliyi ilə bağlı məlumatlar vermişdir.

ƏDƏBİYYAT

1. Araslı Həmid. (1973). *"İmadəddin Nəsiminin əsərlər"*. Bakı: Elm nəşriyyatı.
2. Baxşəliyeva Gövhər. (2012). *"Azərbaycan şərqşünaslığının ağsaqqalı"*. akad. Vasim Məmmədəliyevin 70 illik yubleyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları. Bakı: "Bakı Universiteti" nəşriyyatı. (səh 7-8).
3. ət-Tureyhi Fəxrəddin. (2008). *"Məcmə-ul-bəhreyn".* Beyrut.
4. Əmini Əbdül-hüsüyn ibn Əhməd Təbrizi. (2009). *"əl-Ğədir fil-kitab vəs-sünnə vəl-ədəb"*. Tehran.
5. Ğalayyini Mustafa. (2011). *"Camiud-durusil-arabiyyə"*. Beyrut.
6. Təbərsi Fəzl ibn Həsən. (2010). *"Məcməul-Bəyan"*. Tehran.
7. Müfid Məhəmməd ibn Məhəmməd ibn Nöman. (2009). *"əl-İrşad fi mərifəti hucəcilləhi aləl-ibad".* Tehran.
8. Məmmədəliyev Vasim. (2012). *"Təsəvvüfdə qeyb ərənləri"*, akad. Vasim Məmmədəliyevin 70 illik yubleyinə həsr olunmuş "Şərq-şünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları. Bakı: "Bakı Universiteti" nəşriyyatı; (səh 351-352)
9. Мустафаев Эльнур. (2018). "Проявление махдистских верований в творчестве Имададдина Насими", Проблемы Восточной Философии, Баку. №22 (ст. 102 – 122).

10. Mustafayev Elnur. (2020). *"Mehdilik inancının mənşəyi ilə bağlı elmi nəzəriyyələr";* Azərbaycan İlahiyyat İnstitutu "Din Araşdırmalar Jurnalı". Bakı: Nurlar. №1 (4), (səh. 93-105).

11. Nurullayev Fuad. (2017). *"Akademik Vasim Məmmədəliyev İrsi".* Bakı: Nurlar.

Эльнур Мустафаев

ВОПРОС МЕССИАНСТВА В НАУЧНО-РЕЛИГИОЗНЫХ ИССЛЕДОВАНИЯХ ВАСИМА МАМЕДАЛИЕВА

РЕЗЮМЕ

Статья посвящена научно-религиозной деятельности выдающегося востоковеда, действительного члена НАНА, академика Васима Мамедалиева, а также его книгам и научным статьям в области арабского языкознания, религиоведения и других областях. Также была затронута роль академика Васима Мамедалиева в изучении ислама на научной основе в Азербайджане после обретения им независимости, перевод Священного Корана и прочие вопросы, связанные с научной деятельностью видного ученого. Васим Мамедалиев занимает особое место в подготовке профессиональных кадров, молодых ученых и исследователей в области религиоведения, теологии и лингвистики. Так, долгие годы он был деканом теологического факультета БГУ и сыграл большую роль в развитии учебного заведения.

В статье упоминаются научно-религиозные исследования В.Мамедалиева, в частности, в его научном творчестве отмечаются научно-теоретические подходы ученого в отношении веры в мессианство (махдавият). Так, В.Мамедалиев взглянул на вопрос о мессианстве через несколько призм, и прокомментировал эту проблему, используя методы религиоведения и теологии. Наряду с этим академик В. Мамедалиев разъяснил свои убеждения относительно идеи спасения как в контексте авраамических религий, так и взяв за основу мнения исламских конфессий по этому вопросу. Следует отметить, что, хотя в некоторых религиях и идеологических течениях к вере в мессианство относятся поверхностно, в прочих - эта вера чрезвычайно сильна. Другими

словами, для некоторых религий вера в мессианство превратилась в один из основных принципов и стала источником энергии для них. Естественно, подходы религий к идее пришествия спасителя неоднозначны, они имеют общие и отличительные черты. Общий аспект проявляется в вере в спасителя в целом, различия же, по большей части, в деталях. Таким образом, вера в пришествие спасителя существует как общая черта в большинстве религий. Детали вроде личности спасителя и его особенностей меняются в зависимости от религий.

Ключевые слова: *религия, спасение, Махди, вера, Коран.*

Elnur Mustafayev

THE ISSUE OF MAHDI IN THE SCIENTIFIC AND RELIGIOUS RESEARCH OF VASIM MAMMADALIEV

ABSTRACT

The article gives information on the scientific and religious activities of the outstanding orientalist, full member of ANAS, academician Vasim Mammadaliyev, as well as books and scientific articles written by him in the field of Arabic linguistics, theology and other fields. The article touches upon the role of academician Vasim Mammadaliyev in the study of Islam on a scientific basis in Azerbaijan after gaining independence, his translation of the Holy Qur'an and other issues related to the scientific workflows of the outstanding scientist. Vasim Mammadaliev has a great merit in training specialists, young scientists and researchers in the field of religion, theology and linguistics in our country. So, for many years he was the dean of the faculty of theology of the Baku State University and played an important role in the development of this educational institution.

The article examines the scientific and religious studies of V. Mammadaliev, especially the scientific and theoretical approaches of the scientist to the faith of Mahdi in his scientific activities. Thus, V. Mammadaliev approached the Mahdi issue from several points of view and commented on this problem using religion and theology methods. Along with this, V. Mammadaliev explained his beliefs about

salvation both in the context of the Abrahamic religions and on the basis of the opinions of Islamic madhhabs on this matter. It should be noted that, although in some religions and ideological currents they treat the faith in the Mahdi superficially, in some religions this faith is very strong. In other words, belief in the coming of the Mahdi has become one of the basic principles of some religions and has shown itself as a source of energy of these religions. Naturally, the approaches of religions in connection with the savior are ambiguous, and they have many common and distinctive features. The common feature is faith in the Savior in general, and the differences are more apparent in the details. Thus, belief in the coming of a savior is a common feature of most religions. Issues such as identity, personality, and characteristics of the Savior who will save our world are issues that vary according to religion.

Keywords: *religion, salvation, Mahdi, belief, the Holy Qur'an*

ÜRƏKLƏRDƏ DAİM YAŞAYAN ALİM

Sevda Muradova,
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin elmi işçisi
sevda.muradova.78@list.ru

XÜLASƏ

Vasim müəllim yüksək intellektə, mənəvi-əxlaqi kamilliyə malik şəxsiyyət, həm də mənəviyyat simvolu idi. "...Şübhəsiz ki, lütf Allahın əlindədir, onu istədiyinə bəxş edər. Allah çox böyük kərəm sahibidir!" (Qurani-Kərim, "əl-Hədid", 29). Akademik Vasim Məmmədəliyev kimi zəka sahibinin həyat yoluna, elmi fəaliyyətinə, ictimai xidmətlərinə və insani keyfiyyətlərinə nəzər saldıqda, tam əminliklə demək olar ki, Allah-Taala onu seçilmişlərdən etmiş və şərəfləndirmişdir. Akademik Vasim Məmmədəliyevin İlahi lütfdən gələn istedadı, güclü hafizəsi, dərin elmi təfəkkürü, yorulmaz pedaqoji fəaliyyəti, Azərbaycan "milli ictimai şüurunun zənginləşdirilməsində" rolu, ziyalı və şəxsiyyət məfhumlarını qürurla birləşdirmək bacarığı onu fenomen səviyyəsinə qaldırmışdır.

Vasim Məmmədəliyev zəngin elmi və pedaqoji fəaliyyəti ilə uzun illər ərzində Azərbaycan elmi və təhsilinə dəyərli töhfələr vermişdir. Respublikada şərqşünaslıq elminin müasir tələblər səviyyəsinə yüksəldilməsində onun müstəsna xidmətləri vardır. Alimin ərəb dilçiliyinin aktual problemlərinin sistemli öyrənilməsinə həsr olunan və qədim mənbələrə istinadla ərəb dilçilik elminin əsas inkişaf yollarını dolğun işıqlandıran fundamental tədqiqatları dünya şərqşünaslığına töhfə kimi qəbul edilmişdir. Yeni mülahizələrlə zəngin həmin araşdırmalarında alim, eyni zamanda, Azərbaycanda dilçilik ənənəsinin çoxəsrlik tarixə malik olduğunu xüsusi vurğulamışdır.

Geniş erudisiyalı alim Vasim Məmmədəliyev, həmçinin Şərq filologiyası və poeziyasının, İslam tarixi və fəlsəfəsinin ayrı-ayrı sahələrinə dair əsərlərin müəllifi kimi tanınmışdır. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməçilərindən biri olaraq onun ölkəmizdə ilahiyyatın və islamşünaslığın yenidən dirçəlməsində rolu danılmazdır.

Böyük iftixar hissi ilə bildirmək istəyirəm ki, belə bir şəxsiyyət mənim müəllimim, elmi rəhbərim olub. Vasim müəllimə həsr etdiyim

bu kiçik yazımda böyük şəxsiyyətin üç mühüm xüsusiyyəti – müəllimliyi, şəxsiyyəti və alimliyi haqqında söhbət açmağa cəsarət etdim.

Vasim müəllimi tələbəlik illərindən tanıyıram. Biləndə ki, Vasim müəllim bizə dərs deyəcək, sanki bizə xəzinə verdilər. BDU-nun İlahiyyat fakültəsində təhsil alarkən Vasim müəllim bizə Ərəb dilçiliyi fənnindən dərs deməyə başladı.

Açar sözlər: *müəllim, alim, ərəbşünas, məktəb, şərqşünas.*

Sevilən müəllim

Tələbələr Vasim müəllimi çox mahir, pedaqoji ustalığa malik, öz dərs demək dəst-xətti, metodikası olan müəllim, sadə, səmimi, qayğıkeş insan kimi sevməyə başladılar.

Bir məqamı da xüsusi vurğalamaq lazımdır ki, Vasim müəllim dərs dediyi tələbələrə həmişə atalıq qayğısı göstərmiş, onların problemlərini həll etməyi ən mühüm vəzifə hesab etmişdir. Universitetdə, ancaq bir elm adamı, müəllim kimi deyil, həm də müdrik insan kimi sevilməsi məhz onun insani xüsusiyyətlərindən doğur. Böyük şövqlə çalışdığı və heç vaxt ayrılmadığı Bakı Dövlət Universitetinin istər ilahiyyat, istər şərqşünaslıq fakültəsini, istərsə də ərəb filologiyası kafedrasını Vasim müəllimsiz təsəvvür etmək çətindir. Azərbaycan təhsilinin bayraqdarı olan Bakı Dövlət Universiteti onun çox doğma məkanıdır. Onun nailiyyətləri, qazandığı hər bir uğur bu elm ocağı ilə bağlıdır. Vasim müəllim məhz buradan elmin zirvələrinə ucalmış, məhz burada şərqşünas kadrların hazırlanmasında xidmətlərinə görə, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Vasim müəllim dedi-qodu, intriqa, paxıllıq, yaltaqlıq və konyukturadan uzaq bir adam idi. Onda təkəbbür, özünü yüksəkdə tutmaq, başqalarına yuxarıdan-aşağı baxmaq kimi xüsusiyyətlər yox idi, bu da əsl ziyalıya məxsus cəhətdir. İşinə, peşəsinə sonsuz sədaqət və məhəbbət, insanlarla davranışı, tələbələrə münasibəti, sadəliyi onu tanıyanların dərin rəğbətinə səbəb olurdu. Vasim müəllimin unikal yaddaşı, daxildən gələn tükənməz enerjisi bizi valeh etməyə bilməzdi. Mən dəfələrlə əziz müəllimimizin tələbələri üçün necə fədakarlıq göstərdiyinin şahidi olmuşam. Tələbəlik illərində onun neçə-neçə imkansız tələbəyə əl tutduğunun, yol göstərdiyinin şahidiyəm.

Vasim müəllim öz tələbələrini və həmkarlarını çox sevirdi, onların xeyrinə-şərinə yarayırdı. Münasibətdə olduğu hər bir insanın qayğısına qalmağa can atardı. İnsanların qayğısına qalmaq, onlara kömək

əli uzatmaq onun böyüklüyü idi. Fakültə ictimaiyyəti Vasim müəllimlə fəxr edirdi. Onunla görüşməyi, söhbət etməyi, məsləhətləşməyi şərəf hesab edərdilər.

Saatlarla onu gözləyib ünsiyyətdə olmağa çalışan insanları, tələbələri, müəllimləri mən öz gözlərimlə görmüşəm. Onun ən böyük keyfiyyətlərindən biri sadəliyi, təvazökarlığı və səmimiliyi idi. Yüksək intellektə, dərin biliyə, pedaqoji takta malik olan bu böyük insan özünü elə aparırdı ki, bütün həmkarları onunla ünsiyyətdə olmağa can atırdılar.

Vasim müəllimin bir elm və təhsil təşkilatçısı kimi dekanlıq fəaliyyəti də təqdirəlayiq olmuşdur. BDU İlahiyyat fakültəsinin dekanı vəzifəsində çalışarkən yüksək təşkilatçılıq qabiliyyəti nümayiş etdirmiş, qısa müddət ərzində fakültənin maddi-texniki bazasının möhkəmləndirilməsi, aparılan elmi-tədqiqat işlərinin miqyasının genişləndirilməsi, onların nəzəri səviyyəsinin və əməli əhəmiyyətinin yüksəldilməsi, bu tədqiqat müəssisəsinin beynəlxalq əlaqələrinin genişləndirilməsi sahəsində ardıcıl səylər göstərmişdir.

Vasim müəllim dekan olduğu müddət ərzində bir sıra beynəlxalq simpozium və konfranslar təşkil olunmuş, respublika miqyaslı elmi tədbirlər keçirilmişdir. Sevindirici haldır ki, bu gözəl ənənə İlahiyyat İnstitutunda indi də uğurla davam etdirilir. Vasim müəllim çox az adama nəsib olan elmi istedadı, təşkilatçılıq qabiliyyəti və pedaqoji fəaliyyəti özündə birləşdirən bir alim idi. Onun maraqlı mühazirələrini dinləmiş tələbələri Vasim müəllimin həmişə mahir mühaziraçi olduğunu qeyd edirlər. Bu nurlu insanı görmək şərəfinə nail olmamış indiki tələbələr isə kitablarından, məqalələrindən, əlyazma şəklində olan mühazirələrindən istifadə edib bəhrələnəcəklər. Müasir tələbələr Vasim müəllimi görməsələr də, onun qələmə aldığı dəyərli elmi əsərlərdən bəhrələnməklə, Azərbaycan elm, təfəkkür tarixində yeri olan belə əvəzsiz alim haqqıda geniş məlumat əldə edə biləcəklər. Gələcək nəsil, xüsusilə də şərqşünaslıq elmi ilə məşğul olan hər bir tədqiqatçı Vasim Məmmədəliyevin zəngin elmi irsindən istifadə edəcək və onun əsl alim kimi keçdiyi şərəfli ömür yolunu yenidən öyrənəcək.

Vasim müəllimlə mənim təmaslarım qrup yoldaşlarıma nisbətən çox olub. Elmi rəhbərim olduğu üçün yanına tez-tez gedib-gəlir, ondan faydalı məsləhətlər alırdım. Etiraf etməliyəm ki, gələcəkdə bir tədqiqatçı kimi formalaşmağımda Vasim müəllimin ustad kimi böyük rolu olmuşdur.

Ərəbşünas alim

Ölkəmizdə ərəb dilinin tədrisi mərhum müəllimimiz professor Ələsgər Məmmədovun adı ilə bağlandığı kimi, ərəbşünaslığın elmi şəkildə məktəb kimi formalaşması və inkişafı akademik Vasim Məmmədəliyevin fəaliyyətinin nəticəsidir. Buna nail olmaq üçün Vasim müəllim öz yolu ilə qəti bir israrla getmişdir. İstər "Müasir ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" mövzusunda doktorluq dissertasiyasında, istərsə klassik ərəb dilçilik məktəbləri haqqında "Ərəb dilçiliyi", "Bəsrə qrammatika məktəbi", "Kufə qrammatika məktəbi", "Quran və elm" kimi monoqrafik tədqiqatlarında bu tipli işlərin tələb etdiyi gərgin elmi araşdırmalar aparmışdır. Onun elmi nəticələri VII əsrdən bəri Bəsrə, Kufə, Bağdad, Misir və Əndəlüs filologları arasında böyük diskussiyalar, klassik ərəb dilinin fonetika, morfologiya, sintaksis və leksikologiyasında mübahisə doğurmuş 121 məsələnin müasir dilçilik elminin nəticələri əsasında aydınlaşdırılmasına kömək edir. Vasim müəllimin toxunduğu problemlər ərəb dilçiliyi ilə məşğul olmuş, demək olar ki, bütün tədqiqatçıların diqqət mərkəzində olmuş və olmaqdadır (Həmidov, 2012).

V.Məmmədəliyev öz istedadı və əməksevərliyi sayəsində qısa zaman kəsiyində keçmiş Sovet İttifaqında tanınmış mütəxəssislərdən birinə çevrilmişdir. O, özündən sonra zəngin elmi irs qoyub-getmış, fundamental tədqiqatları ilə təkcə Azərbaycan və əski sovet şərqşünaslığını deyil, eyni zamanda, dünya şərqşünaslığını zənginləşdirmiş, inkişaf etdirmişdir. Azərbaycanda, eləcə də bir çox ölkələrdə yaxşı tanınan, rəyi ilə hesablaşılan əsərlərinə tez-tez istinad edilən Vasim müəllim ərəb dilçiliyinin, ilahiyyat elmlərinin ən nüfuzlu, ən fundamental tədqiqatçılarından biri kimi şərqşünaslıq tarixinə əbədi daxil olmuş azsaylı mütəxəssislərdəndir (Nurullayev 2018, 42). Akademikin ərəb dilçiliyi sahəsində aşdığı üfüqlər və digər ümdə məsələlər öz doğru-düzgün elmi həllini məhz Vasim müəllimin çoxsaylı fundamental təqdimatlarında tapmış, onun gəldiyi nəticələr beynəlxalq elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilərək, nüfuzlu elmi fikirlər kimi qəbul edilmişdir.

Vasim Məmmədəliyev tədqiqatlarında Orta əsr ərəb filologları, Avropa şərqşünasları, rus və müasir ərəbşünasların ərəb dilçiliyi və qrammatika məktəblərinə dair fikir və mülahizələrinə münasibət bildirmiş və bu sahənin öyrənilməsində yeni nəticələr əldə etmişdir. Onun qənaətləri samişünaslıq və ümumi dilçilik üçün çox dəyərlidir. Bu qiymətli əsərləri ilə akademik V.Məmmədəliyev Azərbaycan ərəb-

şünaslığının nüfuzunu dünyaya tanıtdırmışdır. Onun elmi əsərləri eyni zamanda dünya şərqşünaslığına layiqli töhfədir (Əlizadə 2012, 31).

Vasim müəllim Azərbaycan dilini, dilimizin zəngin koloritini, incəliklərini dərindən bilən, duyan söz sərraflarındandır. Bəzən onun başqa dili bu səviyyədə biləcəyi ağla gəlmir. O, ərəb dilində öz Ana dili səviyyəsində danışanda və ya yazanda, hətta ərəb ziyalılarının özü belə heyranlıqlarını gizlədə bilmirlər. Vasim müəllim bütün Müsəlman dünyasında tanınan, hörmət edilən, çıxışları maraqla dinlənilən görkəmli ilahiyyatçı aıimdir, bir sıra müsəlman ölkələrinin elmlər akademiyalarının həqiqi üzvüdür. O, İslamın əsl mahiyyətini ən yüksək kürsülərdən açıqlayan, müqəddəs dinimizin tarixini, zəngin mənəvi dəyərlərini öyrənən və təbliğ edən görkəmli İslam tədqiqatçısıdır (Nurullayev 2018, 62).

Şərqşünaslıq aləmində elmə çoxdan məlum olan, yazılmayan, amma sadə, aydın bir fakt var: əsl şərqşünas olmaq üçün Şərq dillərinin üçünü də – ərəb, fars və türk dillərini mükəmməl bilməli, bu dillərdə tədqiqat aparmaq qabiliyyətinə malik olmalısan. Xoşbəxtlikdən, akademik Vasim Məmmədəliyev məhz miqyaslı bir alimdir. Biz Azərbaycan şərqşünaslığında bu gün hər üç dili mükəmməl bilən başqa belə bir miqyaslı alim, demək olar ki, tanımırıq. O, ixtisas etibarilə ərəbşünas olsa da, fars dilini də gözəl bilir, fars dili və ədəbiyyatının da görkəmli tədqiqatçılarından sayılır. Türkoloji araşdırmalara gəldikdə isə, akademik Vasim Məmmədəliyev türkologiyanın kiçik məsələləri ilə məşğul olan sıravi alimlərdən deyildir (Quliyev 2012, 22).

Akademik Vasim Məmmədəliyevin uzunmüddətli səmərəli fəaliyyəti lazımınca qiymətləndirilmişdir. O, elmin və təhsilin inkişafında xidmətlərinə görə, müstəqil Azərbaycan Respublikasının ali dövlət təltiflərindən olan "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görülmüşdür.

Misir, İraq, Suriya, Səudiyyə Ərəbistanı, Mərakeş, Birləşmiş Ərəb Əmirlikləri, Liviya, Küveyt, habelə Türkiyə, İran, ABŞ, İtaliya, Polşa, İndoneziya, Çad Respublikasında keçirilmiş dini və elmi tədbirlərdə bir sıra hallarda iclaslara sədrlik etmişdir. İstedadlı alimin analitik düşüncələrdən doğan yeni elmi fikirlər irəli sürməsi, ərəb, fars, rus və ingilis dillərində sərbəst danışması, ərəb, fars və klassik türk dillərində ilkin qaynaqlara aid çoxlu miqdarda elmi, dini, poetik nümunələri hafizədən söyləmək bacarığına görə beynəlxalq konfranslarda çıxışları həmişə diqqət mərkəzində olmuşdur.

Vasim Məmmədəliyevin elmi axtarışlarının nəticələri 30-dan artıq kitabda və 600-ə yaxın elmi, publisistik məqalədə əksini tapmışdır.

Onun rəhbərliyi ilə 50-dən çox fəlsəfə və elmlər doktorları hazırlanmışdır. Alimin dünyanın müxtəlif ölkələrində beynəlxalq simpozium, konfrans və forumlardakı çıxışları elmi dairələr tərəfindən rəğbətlə qarşılanmışdır. Ərəb dilçiliyi və ilahiyyatla bağlı çoxsaylı sanballı tədqiqatları layiqincə dəyərləndirilən şərqşünas bir sıra ölkələrin mötəbər akademik elmi qurumlarına üzv seçilmişdir.

Akademik V.Məmmədəliyevin elmi nüfuzu sayəsində ərəb ölkələrindən bir çox tədqiqatçı ərəb filologiyası ixtisası üzrə doktorluq dissertasiyası müdafiə etmək üçün Azərbaycana gəlir. O, Misir, Küveyt və BƏƏ-dən gəlmiş bir neçə dissertantın elmi rəhbəri olmuşdur. Misirli Məhəmməd Abdulla Əbu Zeyd, suriyalı Əbdülfəttah ibn Rəmzi və Rizvan Dibsi V.Məmmədəliyevin rəhbərliyi ilə filologiya doktoru alimlik dərəcəsini almışlar.

V.Məmmədəliyev ilahiyyat elmləri sahəsində biliyi ilə seçilən şəxsiyyət kimi bir çox elmi və dini tədbirlərdə aparıcı rol oynamışdır. İstər İslam Konfransı Təşkilatının xətti ilə, istər elmi, ədəbi məzmunlu beynəlxalq və respublika miqyaslı konfrans və simpoziumlarda akademik V.Məmmədəliyevin iştirakı ölkəmizin alimləri və iştirakçıları üçün başucalığı gətirmişdir.

Onun hərtərəfli biliyi, güclü məntiqi müşahidə qabiliyyəti qibtəyə layiqdir. Onun dərinməzmunlu əsərləri təkcə respublikada deyil, geniş ərazidə də müəllifə şöhrət gətirmişdir. Neçə-neçə konqres və konfranslarda, elmi məclislərdə elmini, xalqını, torpağını ləyaqətlə təmsil etmiş, şərafətləndirmişdir.

Vasim müəllim Azərbaycan xalqının azad, firavan yaşaması üçün əlindən gələni əsirgəməyən böyük bir ziyalıdır. Onun bütün fəaliyyəti xalqımızın maariflənməsinə, mənəvi cəhətdən inkişafına, mədəni yüksəlişinə həsr edilmişdir. Xalqımız mənəvi cəhətdən kamilləşməsinə, yüksəlməsinə can atan və bütün fəaliyyətini bu istiqamətdə quran Vasim müəllim yüzlərlə insana rəhbər və yol göstərəndir. Akademik Vasim Məmmədəliyevin xalqımız qarşısındakı xidmətlərindən bəlkə də ən önəmlisi onun akademik Ziya Bünyadovla birlikdə Qurani-Kərimin Azərbaycan dilinə izahlı tərcüməsidir. Olduqca başadüşülən, səlis, oxunaqlı olan Qurani-Kərimin tərcüməsi, artıq bir neçə nəşri işıq üzü görmüşdür. Vasim müəllim təkcə ərəbcədən tərcümələrlə kifayətlənməmiş, həm də eyni zamanda doğma dilimizdən ərəb dilinə də bir sıra tərcümələr etmişdir. Məsələn, onun Mirzə Cəlilin "Saqqallı uşaq" hekayələr məcmuəsi, Fikrət Əmirov haqqında monoqrafiya, Həmid Aras-

lının "Xaqani Şirvani" kitabını və başqalarını göstərmək olar (Həmidov 2012).

Qeyd etdiyimiz kimi, təkcə Azərbaycanda deyil, dünyanın əksər ölkələrində məşhur olan Vasim müəllimin tədqiqatlarına həmişə böyük ehtiyac olubdur. Ona görə də akademikin bir sıra elmi tədqiqatları fars, türk, ingilis, rus, gürcü dillərinə çevrilmiş və böyük əks-səda doğurmuşdur.

Dinimizin təbliğində böyük rol oynamaqla yanaşı, onun nə qədər mütərəqqi din olduğunu bizlərə Vasim müəllim çatdırırdı. O, Quran-Kərimin müdrik kəlamlarının sadə dildə izahını verir, dərin qatlardakı mənalardan hər kəsi agah edirdi. Onun qiymətli əsərləri arasında daha məşhuru hamının əli çatan, hamının dərk edəcəyi səviyyədə yazılmış "Quran və elm" kitabıdır. Burada İslam dünyasının, ulu peyğəmbər Həzrət Məhəmmədin (s.ə.s.) Quranda əks olunmuş fikirləri hamıya eyni dərəcədə çatmır. Uzun müddət sovet tərbiyəsi altında yaşamış xalqımız dinin təbliği, tədrisi ilə məşğul olmayıb. Ona görə də orta nəslin nümayəndələri bu gün dini qavramaqda çətinlik çəkirlər. İndi dinimizin səmərəli və faydalı cəhətlərini insanlara çatdırmaq, gənclərə öyrətmək, mahiyyətini, əhəmiyyətini, bir sözlə, bütün bu işləri Vasim Məmmədəliyev bir alim, müəllim, gözəl şərqşünas və nəcib bir insan kimi xalqa çatdırırdı.

Vasim müəllim qoca Şərq dünyasında dərindən bildiyi bir çox sahələrdən öncə, Azərbaycan klassik ədəbiyyatının, mədəniyyətinin, tarixinin dərin bilicisidir və sözün həqiqi mənasında Azərbaycan ziyalısıdır. Bizim klassik və çağdaş poeziyamızdan, əruz, heca, sərbəst vəznli şerimizdən saatlarla, bəlkə də günlərlə özünəməxsus şirin ahənglə şer oxuya bilərdi. Füzuli, Nəsimi dühasının alt qatlarını dürüst açıqlayar, əvəzsiz musiqimizin, rənglərini, xallarını sözə çevirər. Onun yüksək elmi məclislərdə, sırf elmi-nəzəri əsərlərində fikirlərini professional alim dili ilə açıqlamaq məharəti, tələbə auditoriyasında cazibədar pedaqoq təhkiyəsi, sadə adamlarla xoş ünsiyyəti, dərin fikirləri sadə dillə ifadə etmək qabiliyyəti hamını heyran qoyurdu.

Vasim Məmmədəliyev eyni zamanda musiqi sahəsindəki unikal biliyi ilə musiqişünasları heyran qoyur. O, Avropa və Şərq musiqilərini dərindən bilməklə yanaşı, dünya musiqi xəzinəsinə böyük töhfələr vermiş dahi bəstəkarlar, ifaçılar haqqında hərtərəfli məlumata malik idi. Muğamlarımızı bütün xırdalıqlarına qədər bilirdi. Klassik ədəbiyyatımızın incəliklərinə dərindən bələd idi. Orta əsr şairlərinin ən çətin beytlərinin mənasını açmaqda, izahını verməkdə əsl mütəxəssis

təsiri bağışlayırdı. Alimlər, bəstəkarlar, xanəndələr bəzən çətinə düşəndə ona müraciət edirdilər. Ona görə də təsadüfi deyil ki, respublika miqyasında keçirilən elm-ürfan məclislərində həmişə başda əyləşdirilir və onun orijinal fikirləri böyük marağa səbəb olurdu (Əzizov 2012, 58).

V.Məmmədəliyevin fitri istedadı, ağıl vergisi möcüzə təsirini bağışlayır. Hafizəsinin güclülüyü haqqında oxuyub-eşitdiyim müasir humanitar bilikli şəxsiyyətlərdən söhbət gedəndə, ilk növbədə, Vasim müəllim yada düşür. Onun böyük üstünlüyü ərəb, fars, türk filologiyasını yaxşı bilməsi, bu dillərlə yanaşı, rus və ingilis dillərinə yiyələnməsidir. Çoxsaylı qaynaqlardan müqayisə yolu ilə nümunə və mühakimələri olduğu kimi yada salmaq hər tədqiqatçının hünəri deyil. Bu hünər Vasim Məmmədəliyevə xasdır. O, Şərqin böyük alim və şairlərinin poetik irsindən çoxlu şeirləri birnəfəsə söyləyə bilir. Onun güclü yaddaşı analitik təfəkkürü ilə ahəng təşkil edir (Babayev 2002, 131).

Bu kimi dəyərli keyfiyyətləri davamlı şəkildə inkişaf etdirən akademik V.Məmmədəliyev həmişə mütaliə ilə məşğul olur, dünya elmindəki yenilikləri izləyirdi. Şərqşünaslıqda ensiklopedik biliyə malik olan bir şəxs kimi tanınır. Onun Ərəb Şərqi və İslam dünyası haqqında biliklər xəzinəsində ərəb dilçiliyi, ədəbiyyatı və tarixi, Şərq filologiyası və mürəkkəb poetika sistemi, İslam tarixi, Azərbaycan ədəbiyyatı, əruz və musiqi, muğam sənəti və ifaçılıq tərzi haqqında mühazirə, söhbət və mühakimələri hamı tərəfindən maraqla dinlənilir. Musiqi sənəti ilə məşğul olanlar Vasim müəllimin əruz və ahənglə bağlı söhbətlərini dinləməyi özünə borc bilirlər (Nurullayev 2018, 76).

Vasim müəllim ölkəmizdə uzun illərdən bəri insanların mənəvi ehtiyac duyduğu bir işin – Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsinin (1971) öhdəsindən uğurla gəlmişdir. Akademik Ziya Bünyadovla birgə yerinə yetirilmiş bu iş Azərbaycan ilahiyyatçı alimləri Mir Məhəmməd Kərim ağa (1906) və Məhəmməd Həsən Movlazadə Şəkəvinin (1908) savab qazandıran zəhmətlərinin davamıdır. Vasim müəllimin tərcüməyə yazdığı Ön söz İlahi Kitabın ölkəmizdə müasir şəraitdə dəyərləndirilməsi üçün lazım olan istiqamətləri müəyyənləşdirmişdir. Qurani-Kərimin bu uğurlu tərcüməsi, artıq Ukrayna, Türkiyə, İran və Pakistanda da təkrar nəşr edilmişdir. Qeyd etmək lazımdır ki, Vasim müəllim hər nəşrdə tərcümə üzərində yenidən işləmişdir.

Ömrünü ləyaqətlə yaşamış bu zəhmətkeş və gözəl insan öz biliyini, təcrübəsini, səmimiyyətini, bir sözlə, insanlığını yetirmələrinə təmənnasız olaraq ərməğan etmiş, elmə, biliyə ehtiyacı olanlara atalıq

qayğısı göstərmiş, zəkaya, işığa ehtiyacı olanlardan işığını, nurunu, ziyasını heç vaxt əsirgəməmişdir. Vasim müəllimin adını ucaldan, şəxsiyyətini əbədiləşdirən ən ümdə keyfiyyətlərdən biri də şübhəsiz ki, elə onun dönməz xarakterinin məhz bu dəyərli cəhəti olmuşdur.

Nəticə

Bu dünyadan elmə və maarifçiliyə ülvi və təmənnasız münasibət bəsləyən, istedadını məişət səviyyəsinə endirməyən, maddi rifah səviyyəsini qətiyyən düşünməyən bir şəxsiyyət köçdü. Vasim müəllimin şəxsiyyətinə bəslənən dərin hörmət, xatirəsinin qəlblərdə yaşaması həyatının mənalı keçdiyinə dəlalət edir. Vasim müəllim ərəbsünaslıq sahəsində böyük mütəxəssis olmaqla yanaşı, xeyirxah insan, hamıya örnək olan vətəndaş, ziyalı və ziyalılığı yüksək qiymətləndirən müdrik şəxsiyyət idi. Düşünürəm ki, bu böyük şəxsiyyətin adı BDU-nun tarixində, onun sevimli tələbələrinin yaddaşında daim yaşayacaq.

Azərbaycanın dühasının elmi-mədəni həyatına inteqrasiya etdiyi bir vaxtda V.Məmmədəliyevin elmi irsinin daha geniş müstəvidə, hərtərəfli öyrənilməsi olduqca zəruridir. Bu gün Vasim müəllim cismən bizimlə deyil, onun ruhu aramızdadır. O cismin bu dünyadan ayrıldığının başlanğıc tarixi 2019-cu ilin 13 oktyabrıdır...

Vasim müəllimin həyatı yaddaşlara, tarixə həkk olunan bir ömürdür. Onun ömrünü həsr etdiyi kitabları vərəqlədikcə, Vasim müəllim daim yaşayır və bu dünya durduqca, son səmavi Kitabımız olan Qurani-Kərimin tərcüməsini oxuduqca, Vasim müəllim daim yaşayacaq.

ƏDƏBİYYAT

1. Nurullayev F. (2018). Akademik Vasim Məmmədəliyevin elmi fəaliyyəti. Bakı: “Nurlan”.
2. Həmidov İ. (2012). İstedadın Vasim Məmmədəliyev zirvəsi. “Azərbaycan Müəllimi” qəzeti, N 39.
3. Əlizadə A. (2012). Parlaq zəka sahibi böyük vətəndaş, Akademik V.Məmmədəliyevin 70 illik yubileyinə həsr edilmiş konfrans materialları. Bakı, “Bakı Universiteti” nəşriyyatı. (s.30-32).
4. Quliyev T., Quliyeva Y. (2012). Akademik Vasim Məmmədəliyev türkoloq kimi. Akademik V.Məmmədəliyevin 70 illik yubileyinə həsr edilmiş konfrans materialları. Bakı: “Bakı Universiteti” nəşriyyatı.

5. Əzizov E. (2012). Mənalı ömrün anları. Bakı: “Təhsil” nəşriyyatı.
6. Babayev A. (2002). Canlı ensiklopediya. Vasim Məmmədəliyev zirvəsi. Sumqayıt: “Sumqayıt” nəşriyyatı. (131-133).

Севда Мурадова

УЧЕНЫЙ, КОТОРЫЙ ВСЕГДА ЖИВЕТ В СЕРДЦАХ ЛЮДЕЙ

РЕЗЮМЕ

Васим Мамедалиев был человеком, обладающим высоким интеллектом, морально-нравственным совершенством, а также символом духовности. «... Несомненно милость находится в Руке Аллаха, Который дарует ее тому, кому пожелает. Аллах обладает великой милостью.». (Священный Коран, Аль-Хадид, 29). Да, если посмотреть на жизненный путь, научную деятельность, общественные заслуги и человеческие качества такого интеллектуала, как академик Васим Мамедалиев, можно с уверенностью сказать, что Всевышний сделал его одним из избранных и почтил его. Талант академика Васима Мамедалиева, исходящая от божественной благодати, крепкая память, глубокое научное мышление, неутомимая педагогическая деятельность, его роль «обогащении национального общественного сознания» в Азербайджане, умение гордо сочетать понятия интеллигенции и личности подняли его на уровень феномена.

Своей богатой научной и педагогической деятельностью на протяжении многих лет Васим Мамедалиев внес ценный вклад в науку и образование Азербайджана. Он имеет исключительные заслуги в поднятии востоковедения в стране до уровня современных требований. Фундаментальные исследования ученого, посвященные систематическому изучению актуальных проблем арабского языкознания и полностью освещающие основные пути развития арабского языкознания ссылаясь на древние источники, были приняты как вклад в мировое востоковедение. В этих богатых новыми соображениями исследованиях ученый также особо подчеркнул, что лингвистические традиции в Азербайджане имеют многовековую историю.

Глубоко эрудированный ученый Васим Мамедалиев известен также как автор произведений по различным областям восточной филологии и поэзии, истории и философии Ислама. Как один из переводчиков Священного Корана на азербайджанский язык, его роль в возрождении теологии и исламоведения в нашей стране неоспорима.

С чувством гордости хочу сказать, что такой человек был моим учителем, моим научным руководителем. В этой небольшой статье, посвященной Васиму Мамедалиеву, я осмелился рассказать о трех важных чертах великой личности - как учителя, личности и ученого.

Я знаю Васима Мамедалиева со студенческих лет. Когда я узнал, что Васим Мамедалиев будет преподавать нам, нам показалось будто нам подарили сокровище. Во время учебы на факультете теологии БГУ Васим Мамедалиев начал преподавать нам арабское языкознание.

Ключевые слова: *педагог, ученый, арабовед, школа, востоковед.*

Sevda Muradova

THE SCIENTIST WHO ALWAYS LIVES IN THE HEARTS

ABSTRACT

Vasim Mammadaliev was a person of high intellect, moral and ethical perfection, and also a symbol of spirituality. "... bounty is in the hand of Allah; He gives it to whom He wills. And Allah is the possessor of great bounty." (Holy Quran, Al-Hadid, 29). Yes, if you look at the life path, scientific activity, social merits and human qualities of such an intellectual as academician Vasim Mammadaliev, we can say with confidence that the Almighty made him one of the elect and honored him. The talent of academician Vasim Mammadaliyev, emanating from divine grace, strong memory, deep scientific thinking, tireless pedagogical activity, his role of "enriching the national public consciousness" in Azerbaijan, the ability to proudly combine the

concepts of the intelligentsia and personality raised him to the level of a phenomenon.

Vasim Mammadaliyev made a valuable contribution to the science and education of Azerbaijan with his rich scientific and pedagogical activities for many years. He has exceptional merits in raising the country's oriental studies to the level of modern requirements. The fundamental research of the scientist, devoted to the systematic study of topical problems of Arabic linguistics and fully illuminating the main ways of development of Arabic linguistics, referring to ancient sources, were accepted as a contribution to world oriental studies. In these studies, rich in new considerations, the scientist also emphasized that linguistic traditions in Azerbaijan have a long history.

The deeply erudite scientist Vasim Mammadaliev is also known as the author of works on various fields of oriental philology and poetry, history and philosophy of Islam. As one of the translators of the Holy Qur'an into Azerbaijani, his role in the revival of theology and Islamic studies in our country is undeniable.

With great pride I want to say that such a person was my teacher, my scientific advisor. In this short article dedicated to Vasim Mammadaliev, I dared to talk about three important traits of a great personality - as a teacher, personality and scientist.

I have known Vasim Mammadaliev since my student days. When we found out that Vasim Mammadaliev would teach us, it seemed to us that they gave us a treasure. While studying at the Faculty of Theology of the Baku State University, Vasim Mammadaliev began teaching us Arabic linguistics.

Keywords: *teacher, scientist, arabologist, school, orientalist*

UOT 81:002

HƏZM SİSTEMİ TİBBİ TERMİNLƏRİNİN AZƏRBAYCAN VƏ ƏRƏB DİLLƏRİNDƏ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

Kübra Vəliyeva,
AMEA Naxçıvan Bölməsi
Əlyazmalar Fondunun elmi işçisi
kubra.valiyeva@yahoo.com

XÜLASƏ

Tibb elminin bir bölməsini həzm sistemi təşkil edir. Həzm ağza alınan qidanın müxtəlif proseslərdən sonra yararlı formaya salınmasıdır. Həzm sistemi ağız yolu ilə alınan qidaların hüceyrələr tərəfindən mənimsənilməsi üçün mexaniki və kimyəvi yolla kiçik hissələrə parçalanaraq, qana və limfaya (nazik bağırsaqlarda) sovurulmasını təmin edir. Qida bütün canlı varlıqların həyatını davam etdirmələri üçün xaricdən aldıqları maddələrdir.

Həzm sistemi borulu orqanlardan və həzm borusundan kənarda yerləşən böyükhəcmli vəzilərdən ibarətdir. Borulu orqanlara ağız boşluğu, udlaq, qida borusu, mədə, nazik və yoğun bağırsaqlar aiddir. Həzm sisteminin vəzilərinə isə ağız suyu vəziləri, qaraciyər və mədəaltı vəzi aiddir.

Linqvistikada tibbi terminləri öyrənən sahə tibbi terminologiyadır. Həzm sistemi terminləri tibbi terminologiyanın sahələrindən birini təşkil edir. Azərbaycan və ərəb dillərinə məxsus bu terminlərin yaranması, formalaşması və inkişafı uzunmüddətli tarixi dövrü ehtiva edir. Hər iki dil dünya dilləri içərisində zəngin lüğət tərkibinə və qədimliyinə görə özünəməxsus yerə malikdir. Milli terminlər dili zənginləşdirib inkişaf etdirməklə bərabər, həm də müəyyən fikirlərin çatdırılmasında əsaslı söz vahidləridir.

Məqalədə həzm sistemi haqqında məlumat verilmiş, bu sahəyə daxil bir neçə terminin Azərbaycan və ərəb dillərində leksik, məna və morfoloji xüsusiyyətləri araşdırılmışdır.

Azərbaycan və ərəb xalqları qədim sivilizasiyaları və elmləri ilə dünya mədəniyyətində iz qoymuşlar. Hər iki xalqın dilində bədən üzvlərinə verilən adlar ilk insan birlikləri yaranandan başlanmışdır. Hər

iki dildə bədən üzvlərinin adının çoxluğunu milli terminlər təşkil etməkdədir.

Açar sözlər: *termin, tibbi terminologiya, həzm sistemi, diş, mədə, qaraciyər, Azərbaycan dili, ərəb dili.*

Giriş

Canlı orqanizmlər həyatını sürdürməsi üçün enerjiyə möhtacdır. Enerjinin mənbəyi isə qida maddələridir. Qidalanma qida maddələrinin orqanizm tərəfindən qəbulu, həzm olunması, parçalanaraq sovurulması, qan damarları vasitəsilə daşınması və hüceyrələr tərəfindən mənimsənilməsi proseslərdir.

Qida maddələrinin vücuda alınması, müəyyən orqanlara çatdırılması, fermentlərin təsiri ilə parçalanması, bütün hüceyrələrin qidalanması üçün qana qarışması, artıq və ziyanlı qalıqların isə xaric olunması prosesi həzm adlanır. Qida maddələri (karbohidrat, yağ, protein, su, mineral maddələr və vitaminlər) mənşəyinə görə bitki, heyvani, su və mineral duzlardan ibarətdir. Vücudda maddələr mübadiləsinin davam etməsi həzm və absorbsiya proseslərinə dayanıqlıdır.

Həzm sisteminin funksiyaları yemə, həzm, fermentlərin ifrazı, sorma (kiçik qida parçalarının nazik bağırsaqlardan qan və limfa dövranı keçməsi) və xaricetmə (defekasiya) mərhələlərindən ibarətdir.

Həzm prosesini həyata keçirən orqanlara həzm sistemi deyilir. Həzm sistemi iki hissədən ibarətdir: həzm kanalı və həzmə kömək edən orqan və vəzilər. Həzm kanalına ağız boşluğu, udlaq, qida borusu, mədə, nazik, yoğun bağırsaqlar və anus daxildir. Həzm kanalı ağız boşluğundan anusa qədər uzanan və 8-10 m uzunluqda bir kanaldır. Həzmə kömək edən orqan və vəzilərə tüpürcək vəziləri, qaraciyər, mədəaltı vəzi (pankreas) daxildir. Bu orqanların ifraz etdikləri şirələr xüsusi kanallar aracılığı ilə həzm kanalına boşlaldılır və həzm sisteminə kömək edir. Bu orqanlar həzm sisteminin əlavə orqanları kimi də adlandırılır.

Həzm sisteminin başlanğıcı alınan qidanın ağız boşluğunda çeynənilərək kiçik hissələrə parçalanması ilə başlayır. Ağızda qida maddələri tüpürcək vasitəsilə isladılır, dil və dişlər vasitəsilə isə mexaniki yolla parçalanır.

Həzm prosesi iki hissədən ibarətdir: mexaniki və kimyəvi həzm prosesi. Mexaniki həzm prosesi dil, diş, mədə, bağırsaq hərəkətləri nə-

ticəsində qidanın kiçik hissələrə salınmasıdır. Kimyəvi həzm prosesi isə ağızda çeynənmiş və isladılmış qidaların tüpürcək, mədə, bağırsaq, qaraciyər və pankreasın ifraz etdiyi müxtəlif fermentlər vasitəsilə kimyəvi dəyişikliyə uğrayaraq parçalanmasıdır.

Qidanın axtarışı, qəbulu və həzmolunma prosesləri orqanizmin davranışının əsas tərkib hissəsi olmaqla, bu funksiyalara nəzarəti endokrin və mərkəzi sinir sistemi tənzim edir. Baş beynin müxtəlif şöbələrində həzm mərkəzləri mövcuddur. Həmçinin həzm sisteminin özü tərəfindən hazırlanan hormonlar (qastrin, sekretin, somatostatin və s.) həzm sisteminə kömək edir.

Qida maddələrinin həzm olunması bitdikdən sonra, onun ürək damar-sisteminə sovurulması prosesi başlanır. Bu proses iki yolla həyata keçir: kapilyar və limfa damarları vasitəsilə. Vitaminlər, qlükoz, su və minerallar villuslar tərəfindən əmilərək kapilyarlara keçir və buradan da qaraciyərə ötürülür. Qaraciyərdə isə zərərli maddələr fərqli birləşmələrə çevirilir, qandakı şəkərin səviyyəsi tənzimlənir. Qida maddələri ilə zəngin olan qan ürəyin sağ qulaqcığına keçir. Limfa yolu ilə isə yağ turşuları, qliserol və s. vitaminlər villuslarda yerləşən limfa damarları ilə sovurulur. Limfa sisteminə keçən qida maddələri ürəyin sağ qulaqcığına ötürülür.

Həzm sistemi orqanları orqanizmin qidalanmasında çox mühüm rol oynayır. Həzm sistemi orqanlarının birində baş verən pozğunluqlar digər orqanların fəaliyyətinə mənfi təsir göstərərək, həmin orqanların işinin pozulması ilə nəticələnir.

Həzm sisteminə məxsus terminlər tibbi terminologiyanın bir hissəsini təşkil edir. Bu sistemə məxsus terminlərə misal olaraq aşağıdakı nümunələri göstərmək mümkündür:

Azərbaycan dilində:

– həzm sistemi, dodaq, ağız boşluğu, diş, dil, damaq, çeynəmə, diş əti, diş daşı, yanaqlar, ağız suyu – tüpürcək, bəlğəm, udma çətinliyi, qusma, həzm, həzm kanalı, udlaq (yemək borusu), qarın, qarın zəri (peritonit), mədə, qastrit, mədə bulantısı, sancı, qara ciyər, sirroz, sarılıq, hepatit A, öd kisəsi, mədəaltı vəzi – pankreas, pankreatit (mədəaltı vəzinin iltihabı), öd daşı, xolesistit (öd kisəsi iltihabı), kəsib çıxarmaq, öd kisəsinin çxarılması əməliyyatı, bağırsaq, onikibarmaq bağırsaq, acıbağırsaq, qalçabağırsaq, qalxançəmbər (yoğun, kolon) bağırsaq, apendiks, korbağırsaq, düzbağırsaq, bağırsaq tıxanması (fəlci), bağırsaq uzantısı iltihabı, appendisit, yoğun bağırsağın iltihabı (ulserativ kolit), bağırsaq düyünlənməsi, anus, zəhərlənmə, qida zəhərlənməsi,

ishal, sidik, nəcis, defekasiya, babasil, qəbizlik, polip, qarında su toplanması, yırtıq, iç orqanların diafraqmadan sinə boşluğuna girməsi, qastroenteroloq, orqanların daxili görüntüsü (endeskopiya), vitamin, maddələr mübadiləsi (metabolizm), qida, xolestrol, zülal, yağ, karbohidrat, su və mineral maddələr və s.

Ərəb dilində:

–جهاز الهضمي، شَفَةٌ (شَفَوَاتٌ) ، جَوْفُ الفَم ، سِنٌّ (أَسْنَان)، لِسَان، حَنَكٌ، مَضْغٌ، لِثَّةٌ، قَلَح سِنِّي، خَدٌّ (خُدُود)، لُعَابٌ، بَلْغَمٌ، عُسْرُ البَلَعِ، قَيْئٌ، هَضْمٌ، قَنَاةُ الهَضْمِي، بُلْعُومٌ، بَطْنٌ، صِفَاقٌ، مِعْدَةٌ، التهاب المِعْدةِ، غَثَيَانُ المِعْدَةِ، مَغْصٌ، كَبْدٌ، تَشْمَعُ الكبد، يَرَاقَن، التهاب الكبد الوبائي أ، الصَّفْرَاءُ، مُعَثْكَلَةٌ/البَنْكِرْيَاسُ، إلتهاب البنكرياس، حَصْوَةُ المَرَارَةِ، إلتهاب المَرَارَةِ، اِستِئصال، اِسْتِئْصَالُ المَرَارَةِ، مَعْيٌ (أمْعَاءُ)، المَعْيُ الإثنا عشر، المَعْيُ الصَّائِمُ، المَعْيُ اللَّفَائِفِي، المَعْيُ الغَلِيظُ، المَعْيُ الزَّائِدُ، المَعْيُ الأَعْوَرُ، المَعْيُ المُسْتَقِيمُ، الشَّلَلُ اللَّفَائِفِي، إلتهاب الرَتْجِ، إلتِهاب الزَّائِدةِ، إلتهاب القُولُون التَقَرَّحِي، اِنْفَتَال، شَرْجٌ، تَسَمُّمٌ، تَسَمُّم غِذَائِي، إِسْهَالٌ، بَوْلٌ، بِرَازٌ/بَرَازٌ/بُرَازٌ، تَبَرُّزٌ، بَاسُورٌ، إِمْسَاكٌ، زَائِدَةٌ لَحْمِيَّةٌ، حَبَنٌ/اِسْتِسْقَاءٌ بَطْنِيٌّ، تَمَزُّقٌ، فَتْقٌ حِجَابِي، إخْتِصَاصِيّ المِعْدَةِ وَ الأمْعَاءِ، تَنْظِيْرٌ دَاخِلِيٌّ، فِيْتَامِين، أَيْضٌ/إِسْتِقْلاَبٌ، غِذَاءٌ، كُولِسترُول، بُرُوتِين، دُهْن، كَرْبُوهيدرات، مَاءٌ وَ مَوَادٌ مَعَادِن وَ إِلَخْ.

Həzm sistemi tibbi terminlərinin Azərbaycan və ərəb dillərində leksik-semantik xüsusiyyətlərinin təhlili

Azərbaycan və ərəb dillərinin lüğət tərkibi milli tibbi terminlərlə zəngindir. Tibbi terminlər elmi söz olmaqla onların ifadə etdiyi mənalar da çeşidlidir. Terminlərin özündə ehtiva etdiyi mənaları tədqiq edib araşdırmaq tibbi terminologiyanın zəruri məsələlərindəndir.

Müqayisəli formada həzm sistemi tibbi terminlərinin bir neçəsinə nəzər yetirək:

Diş *(lat. dens).* Ağız boşluğuna daxil olan qida maddələri dişlər vasitəsilə xırdalanır və mexaniki olaraq çeynənilir, ağız suyu, tüpürcək vasitəsilə isladılır və dilin köməkliyi ilə qarışdırılır. Bununla da həzm prosesi başlanılır. Çeynəmə prosesi istəkdən asılı olaraq həyata keçsə də, diş ətləri və dil üzərindəki təzyiq refleks olaraq çeynəmə prosesinin başlanmasına səbəb olur.

Dişlər alt çənə (mandibula) və üst çənə (maksilla) üzərində olmaqla diş çuxurlarında – diş alveollarında yerləşir. Dişlər sərt və yumşaq sümük toxumalarından əmələ gəlmişdir. Sərt toxumalara dentin, mina və sement, yumşaq toxumalara isə diş pulpası, alveol çıxıntıların sümüküstlüyü, peridont bağlar və diş əti daxildir.

Dişlər kök, boyun və tac hissələrdən ibarət olaraq üç hissəyə bölünür. Tac dişlərin ağızda görünən bəyaz hissəsidir, buranı mina toxuması örtür. Boyun tac və kök arasında dişlərin diş əti ilə birləşdiyi yerdir. Bu hissənin əsas maddəsini sərt dentin toxuması təşkil edir. Kök isə dişlərin çənə sümüyündə diş çuxurlarında yerləşdiyi hissədir. Tərkibini sement adlı sümük toxuması təşkil edir.

Dişlər keçiciliyinə və qalıcılığına görə iki – süd və daimi dişlərə bölünür. Süd dişləri say etibarilə 20 ədəddən ibarətdir. Daimi dişlər kəsici (4-ü altda, 4-ü üstdə olmaqla 8 ədəddir), köpək (2-si altda, 2-si üstdə olmaqla 4 ədəd), balaca azı (4-ü altda, 4-ü üstdə olmaqla 8 ədəd) və böyük azı (6-sı altda, 6-sı üstdə olmaqla 12 ədəd) olmaqla 32 ədəddən ibarətdir.

Türkoloq İ.Z.Əyyuboğlu qeyd edir ki, "*tış, tiş, diş*: dışta (zahirdə), dışarda (zahirdə) olan. İçdə, içəridə olmayan, *taşra'da* (dışarda) olan mənasındadır. *Diş* (tiş) ilə *dış* (dışarda), *tış* (dışarda) sözlərinin mənşəyi eynidir. *Tışaru* (dışarı), *taş* (tış, dışarda olan), *taşra* (dışarı)" (Əyyuboğlu, 1988, 85).

Sadəquruluşlu ismin izahlı lüğətdə aşağıdakı mənaları verilir: (Azərbaycan dilinin izahlı lüğəti. I cild, 2006, 647):

1. Yeyilən şeyi tutmaq, dişləmək, xırdalamaq və çeynəmək üçün ağızda olan sümük törəmə. *Uşağın dişi çıxır. Dişi ilə qoparmaq. Dişi qamaşmaq.* Ağıldişi – iyirmi yaşdan sonra çıxan axırıncı böyük diş. Dişi doldurmaq – dişi plomblamaq, dişə plomb qoymaq. Kəsən dişlər – ağzın qabaq tərəfində olub, yeyilən şeyi kəsib-doğramaq vəzifəsini görən dişlər. Köpəkdişlər – ağzın yan tərəfində olan dişlər.
2. Müxtəlif alətlərin, maşın hissələrinin, çarxların kənarlarında, üstündə, yaxud uc tərəfində olan ucuiti çıxıntı və ya dilik-dilik hissələrdən hər biri. *Mişarın dişləri. Saat çarxının dişləri. Darağın dişləri.*
3. Bəzi meyvələrin dilim şəklində olan hissələrindən hər biri. *Bir diş sarımsaq.*
4. Meyvənin hər dəfəsində dişlə qoparılan hissəsi. *Bir diş alma. Bir diş xiyar.*

Dişlə əlaqəli frazeoloji birləşmələrə misal olaraq, c*anını dişinə tutmaq* – könülsüz, həvəssiz, istəmədən, özünü məcbur edərək; *Diş dişəmək* – diş təzələmək, yenidən diş çıxarmaq; *Diş göstərmək* – boyun əyməmək, boyun qaçırmaq; *Diş itiləmək* – qisas, intiqam almaq, əvəz çıxmaq üçün səbəb aramaq; bir şeyə göz dikmək, ələ keçirməyə hazırlanmaq; *Diş keçirmək* – haqqı olmayan bir işə qarışmaq; *Diş qurdala-*

mağa bir çöpü yoxdur – çox kasıbdır, heç nəyi yoxdur; *Diş(i)-dırnağı ilə; dişi ilə, dırnağı ilə* – əzabla, əziyyətlə, çox məşəqqətlə; *Dişi bağırsağını kəsmək* – daxilən əsəbi hal keçirmək, əsəbiləşmək, hirsini büruzə verə bilməmək; *Dişi batmaq* – öhdəsindən gəlmək, gücü çatmaq; *Dişi qarnında olmaq* – hiyləgər, gizli iş görən adam haqqında; *Dişində şirə qalmaq* – dadanmaq, alışmaq, öyrəşmək; *Dişinə vurmaq* – sınamaq, dadmaq; *Dişini ağartmaq* – acıq vermək, gülmək, istehza etmək; *Dişini dişinə qıcamaq* – bərk hirslənmək; *Dişini qıcamaq* – intiqam almaq üçün bəhanə aramaq, üzərinə atılmağa hazırlaşmaq; *Dişinin dibindən çıxanı demək* – ağzına gələni demək, bərk söymək; *Dişləri bir-birinə dəymək, dişləri taqqıldatmaq* – soyuqdan, qorxudan, vahimədən qeyri-iradi olaraq dişləri bir-birinə dəymək; bərk üşümək; *Dişlərini ağartmaq* – səbəbsiz gülmək, irişmək kimi ifadələr işlənməkdədir.

"Diş" sözünün ərəb dilində ekvivalentiالسِّنُّ tibbi terminidir. Sadə-quruluşlu isim ərəb mənbələrində (Məsud 1992, 452; Ömər 2008, 1121; Əl-Muncid 1908, 1353; İbn Mənzur, 3713; Əl-Firuzabadi 2008, 814) aşağıdakı kimi şərh olunur:

السِّنُّ [مفرد]: ج أَسْنَان و أَسُنّ، جج أَسِنَّة. فعل سَنّ. ١- (شر) قطعة من العظم تنبت في الفكّ الإنسان و بعض الحيوانات. (مُؤنثة). تتكوّن من لبّ ليَن محاط بطبقة صلبة من العاجين (عاج الأسنان) المغطاة بالمينا عند القمّة، تُستخدم لتقطيع ومضغ الطَّعام. طقم/ طبيب/ فُرشة أسنان- معجون أسنان: مستحضر لتنظيفها.

Sözün təki السِّنُّ və cəmi isə أَسْنَان, أَسُنّ və أَسِنَّة olaraq üç formadan, kökü isə سَنّ – çıxarma (ənənə, qanun) feilindəndir.

1. (Anat.) İnsanların və bəzi heyvanların çənəsində çıxan sümük parçası. Müənnəsdir (qadın cinsi). Üst hissəsi mina ilə örtülü, sərt bir dentin təbəqəsi ilə əhatə olunan yumşaq özəkdən ibarətdir. Yeməkləri kəsmək və çeynəmək üçün istifadə edilir. طَقْمُ الأسنان – taxma diş (protez diş), طَبِيبُ الأسنان – diş həkimi, فُرشة أسنان/ معجون أسنان – diş fırçası /diş məcunu: diş təmizliyi üçün hazırlanan vasitələr.

"وَالسِنّ بالسِنّ و الجُرُوحَ قِصَاصٌ"(سورة المائدة/45).

"Dişin qisası diş və yaralarınkı yaralardır" ("Maidə" surəsi, ayə 45).

السِّنُّ بالسِّنّ: مبادلة أسنان دائمة – daimi dişlər,اللبنيّة الأسنان – süd dişləri, الفِيل: عَاجَ – azı dişi, الضِرْسُ – diş tacı, تاج السِنّ – dişə diş (məsəl), الإساءة بمثلها – fil dişi, سِنُ سَوَّكَ – dişləri misvaklamaq, أسنانه الأسنانصرير – diş qıcırtısı, ضَاحك السِّنّ – daim gülər diş, على أسنانهكزّ – dişlərini büzmək (çox qəzəblənərkən), وجع الأسنان – diş ağrısı, الأسنان مِينا – diş minası və s.

٢- عُمْرٌ "رجل كبير السِّنّ – تزوَّج في سِنّ مبكِّر/ مبكرَّة".

2. Yaş, ömür mənasında. “Yaşlı kişi – erkən yaşda evləndi”. أكبرهُم – onların yaş etibarilə daha böyüyü, باعتباره سِنًّا سِنُّ البُلُوغ/ سِنُّ الرُّشد/ سِنُّ النّضوج – yetkinlik yaşı, سِنُّ المراهقة – gənclik yaşı – təqaüd yaşı, سِنُّ التَّقَاعد – uşaqlıq yaşı, kiçik yaş, سِنُّ الحَدَاثَة / سِنُّ القصور – məktəb yaşı, المَدرَسة سِنُّ – təqaüd yaşı, سِنُّ المَعاش – qanuni yaş, قانونِيَّة سِنُّ – طَعَن في / تقدّمت به السِّنّ السِّن – yaşı irəliləmək, qocalmaq, سِنّ اليأْس – klimaks (menopauza), تِرْبٌ "خَالِد سِنُّ – yaşıd, yaşdaş. "عَلِيّ

٣- كلّ جزء على هيئة السّنّ محدّد، مُتساوون. يكون في المنشار أو المشط أو المفتاح أو المِنْجَل وغيرها.

3. Bütün hissələrin müəyyən diş formasında (bərabər) olması. Oraq, açar, daraq, dırmıq, mişar və s. -də olduğu kimi.

٤- الحبّة الواحدة من رأس الثّوم و غيرهم. ٥- حرف الفقار الظهر. ٦– العشب.

4. Bir baş sarımsaq və s.-dən qoparılan bir dənə.
5. Onurğanın kənarı.
6. Ot və s. mənaları vardır.

Mədə *(yun. gaster).* Mədə qarın boşluğunun sol tərəfində, diafraqmanın altında yerləşən, həzm sisteminin ən genişlənmiş hissəsidir. Orqanın ön və arxa olmaqla iki üzü vardır. Mədə üç qişadan ibarətdir: xarici serroz təbəqə (periton), orta əzələ qatı və daxili selikli qişa (mukoza) təbəqəsi. Mukoza təbəqəsində mukoza hüceyrələri forma dəyişikliyinə uğrayaraq mədə vəzilərini əmələ gətirir. Mədə vəziləri mədənin özünəməxsus mədə şirəsini – xlorid turşusunu (HCl), pepsin və s. fermentləri ifraz edir. Mədənin tutumu 2-2,5 litrə bərabər olaraq gün ərzində 1,5l şirə ifraz edir. Mədə 4 hissədən ibarətdir: kardial hissə, günbəzəbənzər hissə, gövdə hissə və pilorik hissə (sağ daralmış ucu).

Bu həzm orqanında mexaniki və kimyasal yolla qidaların həzmi həyata keçirilir. Sonra isə bağırsaqlarda davam edir. Mədənin forması müxtəlif faktorlara görə dəyişir. Bunlara misal olaraq insanın yaşı, bədənin mövqeyi, mədənin tərkibi və s. amilləri göstərmək olar. Üst tərəfdən mədə ağzı və alt tərəfdən isə mədə qapısı ilə onikibarmaq bağırsağa birləşən mədənin funksiyası ağızdan alınan qidaların depolanması, mədə şirəsi ilə reaksiyaya girərək kimyasal fermentlərlə qarışdırılaraq parçalanması və sintezidir.

“Mədə” ərəbmənşəli termindir. “İnsanda və heyvanlarda qarın boşluğunun yuxarı hissəsində yerləşən həzm orqanı. *Mədə ağrısı. Mədə yarası. Mədəaltı* – mədənin altında olan, mədənin altında yerləşən. *Mədəaltı vəzi.”* (Azərbaycan dilinin izahlı lüğəti. III cild, 2006, 316).

“Qursaq” termini isə millidir. Sözün mənşəyi *cumru, cumrusaq* – “yumru” sözlərindəndir. Yəni qursaq – “özü yumru və içi boş olan şey”, “bağırsağın yumru hissəsi” mənasını vurğulayır.

Sadə ismin izahlı lüğətdə iki mənası fərqləndirilir (Azərbaycan dilinin izahlı lüğəti. III cild, 2006, 218):

1. Gövşəyən heyvanların və quşların birinci mədəsi. // Ümumiyyətlə, mədə. *Qursağı boş* – ac.

2. İçinə sucuq və s. doldurmaq üçün nazik, quru bağırsaq. // Dəf, baraban və s. üzünə çəkilən nazik dəri. *Qursağı daralmaq* – 1) yeməməkdən arıqlamaq, üzülmək. *Aclıqdan uşağın qursağı daralar, fikri ilə anası ona yanaşaraq: – Oğlum, qalx, qalx, yeməyini ye, - deyərdi* (A.Şaiq). 2) *məc.* ürəyi sıxılmaq, canı sıxılmaq.

Terminin ərəb dilində ekvivalenti مَعِدَةُ/ مِعْدَة tibbi terminidir. Sadəquruluşlu isim ərəb mənbələrində (Məsud 1992, 751; Ömər 2008, 2109; Əl-Mucəmul-Vasit 2004, 903; Əl-Muncid 1908, 767; İbn Mənzur, 4229; Əl-Firuzabadi 2008, 1542) aşağıdakı kimi təhlil edilir:

مَعِدَةُ/ مِعْدَة [مفرد]: ج مَعِد و مِعَد. مَعَدَ يَمْعَدُ –مَعْدًا الشيءَ: اختلسه، اختطفه و ذهب به. ١- (شر) جزء من الجهاز الهضميّ على شكل جيب يستقرّ فيه الطَّعامُ و الشَّرابُ بعد أن ينحدر من المَرَيء و قبل أن يذهب إلى الأمعاء.

Terminin təki المَعِدَةُ və المِعْدَة, cəmi المَعِدُ və المِعَدُ, مَعَدًا مَعَدَ يَمْعَدُ- feli bir şeyləri qapıb-qaçmaq, aparmaq mənasındadır.

1. (Anat.) Yemək və içəcəyin qida borusuna daxil olduqdan sonra və bağırsaqlara getməzdən əvvəl yerləşdiyi cib şəklində həzm sisteminin bir hissəsi. التهاب المَعِدَة – mədə iltihabı (qastrit), عصارة معديّة – mədə fermenti (şirəsi), قرحة معديّة – mədə xorası ذَرِبَتْ مَعِدَتُهُ، فلم تَسْتَمْرِئ الطَّعَامَ . – Onun mədəsi kəskinləşdi və yemək davam etmədi.

٢- (المَعَدُّ): البطنُ. والجنبُ من الإنسان وغيره. وهما المَعَدَّان.

2. Mədə: Qarın. İnsanın və başqalarının yanı, bunlar mədə adlanır.

المُعَاد (طب): الداء الذي يصيب المعدة. – (tibb) Mədədə təkrar edən ağrı, dərt.

و قال اللَّيثُ :الَّتِى تَسْتَوْعِبُ الطَّعامَ مِنَ الإنسانِ. وَ يُقَال: المَعِدَةُ لِلإِنْسَانِ بِمَنْزِلَةِ الكَرِشِ لِكُلِّ مُجْتَرٍّ. بِمَنْزِلَةِ الكَرِشِ لِذَواتِ الأظلافِ وَ الأخْلافِ.

Leys deyir: mədə yeməyi insandan alır. Deyilir ki, mədə insanın və bütün gövşəyənlərin, təkdırnaqlı və cütdırnaqlı heyvanların qurşağının yeridir.

Qaraciyər *(lat.: hepar).* Qaraciyər böyük vəz olmaqla yanaşı, həmçinin vücudun ən iri orqanıdır. Çəkisi 1,5-2 kq ağırlığındadır və

xaricdən lifli birləşdirici toxuma olan Qlisson kapsulası ilə örtülmüşdür. Qarın boşluğunun yuxarı hissəsində, diafraqmanın altında olub, sağ qabırğaaltı nahiyədə, mədə və bağırsaqların üstündə yerləşir. Böyük bir qismi qabırğaların altındadır. Diafraqma və onikibarmaq bağırsağa bağlar vasitəsilə bağlanmışdır. Qaraciyər böyük sağ pay və kiçik sol pay olmaqla iki hissəyə bölünür.

Qaraciyər həzm prosesi və maddələr mübadiləsində aktiv iştirak edərək, yaşamın davam etdirilməsi üçün çox mühüm funksiyalar həyata keçirir. Belə ki, qaraciyər öd sintezi və ifrazı, maddələr mübadiləsi (karbohidratların, lipitlərin, proteinlərin, yağların və s.), bədənin istiliyinin tənzimlənməsi, qanın filtirasiyası, qan hüceyrələrinin yaranması, qan laxtalanmasının qarşısını alan heparin hormonunun ifrazı, həmçinin vitaminlərin (A, K, D, B12), dəmirin (ferritin), aminoasitlərin, yağ, qlikogen, proteinlərin depolanması, qanda şəkər, yağ və xolesterinin səviyyəsinin tənzimlənməsi, vücuddakı artıq zəhərli maddələrin öd ilə atılması, zəhərlərin, dərmanların və kimyəvi maddələrin yan təsirlərinin azaldılması, kupfer hüceyrələrinin faqositoz yolu ilə parazit və bakteriyaları məhv etməsi və digər mühüm funksiyaları icra etməkdədir. Orqanizm üçün mühüm əhəmiyyət kəsb edən bir sıra maddələrin istehsalı və ifrazı məhz qaraciyər vasitəsilə baş verir. Qaraciyər hər gün 1 litrə yaxın öd ifraz edir ki, bu da yağların həzm edilməsinə kömək edir. Qaraciyər qapısından daxilinə arteriya, qapı venası, sinirlər keçir və vena, limfa damarları və ümumi qaraciyər axacağı xaric olur. Bu axar vasitəsilə öd qaraciyərdən öd kisəsinə gəlir.

"Ciyər" farsmənşəli tibbi termindir və dilimizdəki qarşılığı "bağır" sözüdür. *"Bağır"* sözünün mənbəyi Yenisey yazılarında vardır. Bu yazılarda "*bağır"* sözünün "iç orqanı" mənasında işlədilməsi mövcuddur. Bu gün də leksikada işlənməkdə olan "bağır" sözü, həmçinin ürək, qəlb anlamında da işlənir. "Qarabağır" – "qaraciyər" sözündən qaynaqlanır.

"Dialektlərdə *"qaraciyər"* bağır mənasında istifadə olunur. Eləcə də qədimdən türk dillərində bağır "qaraciyər" mənasında istifadə olunmuşdur" (Ərən 1999, 72). "*Bağır, sıxıntı, acı, üzüntü mənalarında işlədilir. Bağır* – böyür, sinə boşluğu sözlərindən qaynaqlanır*" (*Əyyuboğlu 1988, 55).

"İnsan və heyvan bədəninin öd hasil edən və maddələr mübadiləsi ilə bağlı bir sıra mühüm prosesləri törədən daxili orqanı. *Ciyər dolusu* – dərindən; ciyər eləmək – ürək eləmək, ürəklənmək, cəsarət et-

mək. *Səd parə könül, xövf eləmə tiri-bəladan, Mərdanə bu meydanə qədəm qoy, ciyər eylə* (S.Ə. Şirvani)". (Azərbaycan dilinin izahlı lüğəti. I cild, 2006, 425).

Həmçinin *ciyəri dağlanmaq, ciyəri (od tutub) yanmaq* – susuzluqdan yanmaq, bərk mütəəssir olmaq, acımaq; *ciyəri qana dönmək* – bərk mütəəssir olmaq, ürəyi qan olmaq; *ciyərini çıxararam* – hədə, qorxu ifadəsi; *ciyərinin başı sökülmək* – ürəkdən acımaq, halına yanmaq, bərk mütəəssir olmaq (*xəstə uşağı gördüm, ciyərimin başı söküldü)* kimi ciyərlə əlaqəli söz birləşmələri maraq doğurur.

Sözün ərəb dilində ekvivalenti كَبْدٌ tibbi terminidir. Sadəquruluşlu isim ərəb mənbələrində (Ömər 2008, 1894; Əl-Mucəmul-Vasit 2004, 772; Əl-Muncid 1908, 668; İbn Mənzur, 3806; Əl-Firuzabadi 2008, 1389) aşağıdakı mənaları əks elətdirir:

كَبِدٌ، كَبْدٌ، كِبْدٌ [مفرد]: ج أكباد و كُبُود. مصدر كَبِدَ و كَبَدَ، كَبْدٌ: شدّة و مشقَّة و عناء.

Sözün təkinin üç – كَبِدٌ، كَبْدٌ، كِبْدٌ və cəminin isə iki – أكباد و كُبُود forması mövcuddur. Məsdər forma –كَبِدَ و كَبَدَ، كَبْدٌ: çətinlik, şiddət, zəhmət, sıxıntı mənalarını ifadə edir. "لقي من هذا الأمر كَبَدًا" - bu işdə çətinliklə qarşılaşdı.

"لَقَدْ خَلَقْنَا الإِنْسَانَ فِي كَبَدٍ" (سورة البلد/4).

"Biz insanı sıxıntı və çətinlik içində yaratdıq" ("əl-Bələd" surəsi, ayə 4).

كَبِدَ الشَّخصُ: تَعِبَ و أَلِمَ من وجَع كَبِده. – qaraciyəri ağrımaq (feil). كَبِدَ يَكْبَدُ كَبْدًا – Bir şəxsin qaraciyəri ağrıyır: qaraciyərinin ağrısından yorğun və ağrılıdır. تَكَبَّدَ الأمرَ: تحمَّل المشاقّه – çətinliyə düşmək. تَكَبَّدَ يَتَكَبَّدُ تَكَبُّدًا. – dözmək (feil). كَابَدَ يكابِد مُكَابدةًا – bir şeylərə dözüm, təhəmmül göstərmək (feil),– كابد الخطرَ: تكبَّده – təhlükəyə dözmək, ona təhəmmül göstərmək.

١-(شر) أحد أعضاء الجهاز الهضميّ يقع في الجانب الأيمن من البطن تحت الحجاب الحاجز، و من أبرز وظائفه إفراز الصفراء الهاضمة للدهون.

1. Qarnın sağ tərəfində, diafraqmanın altında yerləşən həzm sisteminin orqanlarından biridir. Ən vacib funksiyalarından biri yağların həzm olunmasında ödün ifrazıdır.

"يشكو من التهاب الكبد" (يذكّر و يؤنّث). – (Kişi və qadın) "hepatitdən şikayətlənir".

أولادنا أكبادُنا: أعزّ ما لدينا. – Övladlarımız bizim ciyərlərimizdir: ən əzizimizdir;

تضرب إليه أكباد الإبل: يُرْحَلُ إليه في طلب العلم و غيره، دلالة على أهميّته و علو شأنه في العلم و الفضل.

–Dəvənin ciyərləri ona vurdu: elm və başqa şeylərin tələbi üçün yola düşür, bu fəzilət və elmdə onun işinin aliliyi və əhəmiyyətinə dəlalət edir; – سوّد الأكباد: حاقدون، لا يعرفون التسامح ciyərlərin qaralması: kinlilik, xoşniyyətliliyi bilməmək; غليظ الكبد: جافٍ، شرس، قاسٍ – kobudciyərli: qaba, tərs, rəhimsiz; فِلْذَةُ الكَبِد: الولد، الابن و الابنة – ciyərparə, övlad, oğul və qız; يفتِّت الأكباد: مُحزِن جدًّا ciyərlərin parçalanması: çox kədərlidir.

الْتِهاب الكبد الوبائيّ: (طب) مرض ينتج عن الإصابة بفيروس يؤدِّي إلى التهاب الكبد و تورُّمه، و أعراضه الحمَّى و الضَّعف و فقدان الشهيَّة و القيء واصفرار الجلد و الصَّفراء، تنتقل عدواه عن طريق الغذاء الملوَّث أو نقل الدم الملوَّث أو الحقن الملوَّثة.

Qaraciyər hepatiti: (tib.) Bir virusa yoluxma nəticəsində ortaya çıxan qaraciyərin iltihablanmasına və şişməsinə səbəb olan xəstəlik. Simptomlarına hərarət, halsızlıq, iştahsızlıq, qusma, dərinin saralması və sarılıq daxildir. İnfeksiya təmiz olmayan qida, çirklənmiş qan köçürülməsi və daha əvvəl istifadə olunmuş iynə yolu ilə ötürülür.

٢-وسط الشّيء، معظم الشيء. عَظُمَ بطْنُهُ من أعلاه. ٣- عظم وسطُهُ غلُظ. تكبَّدَت الشَّمْسُ السَّماءَ: تَوَسَّطَتْهَا "تكبَّدت القافلة الصّحراء".

2. Bir şeyin ortası, böyüklüyü. Dərinliyin yuxarısında böyük, əzəmətli olmaq.

3. Ortasında sıx olmaq. Günəş səmanın tam təpəsində olur: onun mərkəzində olur; “karvan səhranın mərkəzinə doğru getdi”.

كبد الأرض: ما في باطنها من الذهب والفضّة ونحوهما.

Yeraltı zənginliklər (yerin ciyəri): daxilində qızıl, gümüş və o ikisinə bənzər elementlər.

Öd, öd kisəsi *(lat. fel, vesica fellea).* Öd kisəsi nazikdivarlı, armudabənzər formalı orqan olub, qaraciyərin sağ payının alt hissəsində yerləşən əzələli bir orqandır. Uzunluğu 8-10 sm, eni 3-4 sm.-dir. Öd kisəsində 450-500 ml öd toplanır. Öd qaraciyər hüceyrələrinin fəaliyyətinin məhsuludur və gün ərzində 1 litr öd istehsal olunmaqdadır. Qaraciyərdə davamlı olaraq yaradılan öd, öd kisəsində yığılaraq toplanır və kisənin arxa ucu olan kisə axarı ümumi qaraciyər axacağı ilə birləşərək, öd axarını formalaşdırır və onikibarmaq bağırsağa qida qəbul edilən zaman açılır. Öd kisəsinin büzülməsi ilə öd kisədən boşalır. Ödün kisədən ifrazı və yığılması azan və simpatik sinirlər vasitəsilə tənzimlənir. Ödün yaranma mənşəyinə gəlincə isə o, qaraciyərə daxil olan qanın tərkibindəki bəzi maddələrdən əmələ gəlir.

Öd həzm sistemində bir sıra funksiyaları icra edir. Bunlar – yağların mexaniki olaraq həzm edilməsi, bağırsaqlarda zərərli bakteriyaların fəaliyyətinin tənzimlənməsi, bağırsaqların hərəkət funksiyasının

artırılması və s. Ödün tərkibində öd turşularından (qlikoxol, tauroxol) əlavə olaraq öd piqmentləri (bilirubin, biliverdin), xolesterin, lipidlər, selik, sulfat və fosfat turşusunun duzları mövcuddur. Bitkimənşəli qidalar ödə yaşıl, heyvanmənşəli qidalar isə sarı rəng verməkdədir.

"Öd" milli termindir. Türkologiyada "öfkə" və "öd" sözlərinin kökü eynidir. "Öd" "öfkə" sözü ilə bağlantılıdır. "Ürəkli-ökbəli adam", "ödünü-ökbəsini yemək" kimi ifadələr ürək, öd sözlərinin ökbə/öfkə – ağ ciyər orqanı ilə bağlılığını bir daha sübut etmiş olur.

"Öd", həmçinin həyəcan hissini vurğulayır (ödünü uddu, ödü parçalandı və s.). Dildə işlədilən "sarısını udmaq" ifadəsi də işlənir. "Sarı" qaraciyərin ifraz etdiyi və öd kisəsində toplanan maddənin sarı rəngdə olması ilə bağlıdır. Buna görə də bir çox dillərdə öd "sarı" sözü ilə ifadə edilməkdədir.

Sadə ismin izahlı lüğətdə iki mənası fərqləndirilir (Azərbaycan dilinin izahlı lüğəti. III cild, 2006:544):

1. Qaraciyərin ifraz etdiyi sarı-yaşıl rəngli acı maye. *Öd kisəsi* – qara ciyərdə olan və öd ifraz edən kisəyəoxşar orqan; ödlük. *Öd şirəsi* – öd kisəsinin ifraz etdiyi maye; öd. *Yem qursaqdan nazikbağırsağa daxil olan kimi onun üzərinə hissə-hissə mədəaltı şirəsi və öd şirəsi süzülür.* (Qaramal).

2. Məc. Çox acı şey haqqında. *Öd kimi. Ödü ağzına gəlmək* – iyrənməkdən, başı gicəllənməkdən qusmaq dərəcəsinə gəlmək, ürəyi bərk bulanmaq, bərk iyrənmək. *Üfunətdən adamın ödü ağzına gəlir.*

Sözün ərəb dilində ekvivalenti مَرَارَةٌtibbi terminidir. Sadəquruluşlu isim ərəb mənbələrində (Məsud 1992, 727, 496; Ömər 2008, 2086,1301; Əl-Mucəmul-Vasit 2004, 888; Əl-Muncid 1908, 753, 428; İbn Mənzur, 4175-4176, 2458; Əl-Firuzabadi 2008, 1523) aşağıdakı kimi təhlil edilir:

مَرَارَةٌ [مفرد]: ج مرارات و مَرَائِرُ: مَرَّ يَمُرُّ و يمَرُّ، مصدر مَرَّ. ١- كَدَرَ "مرارة الأسى والحزن". ٢- (شر) كيس لا صق بالكبد تُختزن فيه الصّفراءُ التي تساعد على هضم الموادّ الدهنيّة. –انشقّت مرارتُه غيظا: غَضِبَ غضبًا شديدًا.

Sözün təki مَرَارَةٌ və cəminin isə مرارات و مَرَائِرُ olaraq iki forması mövcuddur. Məsdər forma مَرَّ – acı olmaq mənasındadır. Keçmiş və indiki-gələcək zaman feilinin təsrifi üzrə isə مَرَّ يَمُرُّ و يمَرُّ şəklindədir.

1. Kədərə düşmək "üzüntü və qəhr acısı".

2. (Anat.) Ödün toplandığı, qaraciyərə yağışmayan, yağlı maddələrin həzminə kömək edən kisə.

والمَرَارَةُ: ضِدُّ الحَلاَوةِ، نَقِيضُ الحُلْوِ، مَرَّ الشَّىءُ يَمُرُّ. وَهِيَ الَّتِى تُمْرِئُ الطَّعامَ تَكُونُ لِكُلِّ ذِى رُوحٍ إلاَّ النَّعامَ وَ الإبْلَ.

Öd; öd kisəsi: şirinliyin əksi, şirin azlığı, bir şeyin acı olması. Dəvəquşu və dəvədən başqa bütün ruhu olan hər kəsi yeməklə qidalandırır.

Ərəb dilində terminin sinonimi kimi "صَفْرَاء" – "sarı" sözü də işlənir.

(الصَّفْرَاءُ):١- الأصفار. ٢- مِزَاجٌ من أمْزِجَةِ البَدَنِ. ٣- سائلٌ شديدُ المرارةِ تفرزه الكبدُ يُختزن في كيس المرارة، لونه أصفر يضرب إلى الخُضرة، يساعد على هضم الموادّ الدُّهنية. ٥- نبتٌ ورقُه كورق الخسّ. ٦-خلط من أخلاط البدن.

الصَّفْرَاءُ

1. Sarı rəng; öd; öd kisəsi.
2. Bədənin mizaclarından biri.
3. Qaraciyər tərəfindən ifraz olunan və öd kisəsində saxlanılan çox acı bir mayedir. Rəngi sarıdan yaşıla vurur. Yağlı maddələrin həzminə kömək edir.
4. Kahı bitkisinin yarpağına bənzər bitki.
5. Bədənin xıltlarından biri.

Qarın boşluğu *(lat.: Cavum abdominis).* Qarın boşluğu vücudda ən böyük boşluq olaraq yuxarıda diafraqma, arxada onurğa və bel əzələləri ilə, yan və ön hissələrdə isə qarın əzələləri ilə örtülmüşdür. Qarın boşluğu qarın və çanaq boşluğu hissələrinə ayrılır. Boşluğun içində periton adlı ən böyük seroz qişa qarın və çanaq boşluğu divarlarını daxildən və bu boşluqlarda yerləşən orqanların səthini isə xaricdən örtür. Pariental və visseral hissələrdən ibarət olan periton qişası böyrəklərdən başqa daxili orqanların hamısını müəyyən formalarda örtür. Periton boşluğunun içərisində mövcud olan periton mayesi isə burada yerləşən orqanların hərəkətlərini asanlaşdırır. Peritonda sinir və damar şəbəkəsi çox zəngin və hədsizdir. Həmçinin, qişada əmələ gələn piyliklər mədə və bağırsaqların ön səthini örtməkdədir. Peritonun müəyyən hissələrdə qatlanıb qalınlaşmasından büküşlü bir törəmə - müsariqə (çöz) əmələ gəlir və daxili orqanlar bu törəmə vasitəsilə qarın divarına yapışır.

"Söz qədim türkcədən başlayaraq istifadə olunur. Kökü bilinmir. Türkoloq Şçerbarq *qarın* sözünün *qarı* kökündən gəldiyini bildirmişdir" (Ərən 1999, 214). Türkoloq İ.Z.Əyyuboğlu isə sözün mənşəyində *ka* "qab" kökünün dayandığını ehtimal edir.

Sadə isim aşağıdakı mənaları özündə əks etdirir (Azərbaycan dilinin izahlı lüğəti. III cild, 2006: 60 s.):

1. İnsan və heyvan bədəninin qaraciyər, mədə, bağırsaqlar, dalaq və s. orqanlar yerləşən hissəsi. *Qarnı ağrımaq. Qarın boşluğu. Qarnı şişmək.* // Mədə mənasında**.** *Qarnı pozmaq. – Qarın başa bəladır* (atalar sözü).

2. Ana bətni, uşaqlıq. *Uşaq əksəriyyətlə ana qarnında doqquz ay qalır.*

3. Məc. İç, batin. *Onun qarnındakını heç kim bilmir.*

4. Məc. Bir şeyin qarın kimi qabağa çıxmış hissəsi. *Samovarın qarnı.*

"Qarın" sözü ilə bağlı Azərbaycan dilinin lüğət tərkibində *bir qarın çörəyə möhtac olmaq* – çox böyük ehtiyac içində olmaq, səfalət, yoxsulluq içində yaşamaq; *Bir qarnı ac, bir qarnı tox* – yarıtox, yarıac, birtəhər; *Qarnı doymamaq* – ac qalmaq, aclıq çəkmək, doyunca yeməmək; *Qarnını bərkitmək* – doyunca yemək, yeyib-doymaq; *Qarnını doyuzdurmaq* – aclığını rəf etmək; *Qarın (qarnını) otarmaq* – onun-bunun qapısında yeyib qarnını doyurmaq, özgəsinin süfrəsini güdmək; *Qarın salmaq* – 1) kökəlmək, 2) əyilmək, ortası aşağıya tərəf meyil etmək; *Qarnı ağrımaq* – umacağı olmaq, bir şey təmənnasında olmaq, ürəyindən bir şey keçmək. *Qarnı burnunda* – boylu, ikicanlı, hamilə; *Qarnı qurdlu* – qeyri-səmimi, qəlbiqara, ürəyindəkini gizləyən; Qarnını tüstü ilə doldurmaq – güllə ilə vurmaq (vurub öldürmək) və s. məcazi söz birləşmələri də işlənməkdədir.

Sözün ərəb dilində ekvivalenti بَطْنٌ tibbi terminidir. Sadəquruluşlu isim ərəb mənbələrində (Məsud 1992, 175-176; Ömər 2008, 221-222; Əl-Mucəmul-Vasit 2004, 88; Əl-Muncid 1908, 42; İbn Mənzur, 303-304; Əl-Firuzabadi 2008, 140) aşağıdakı kimi verilir:

بَطْنٌ [مفرد]: أَبْطُن و بُطْنَان و بُطون. مصدر: بَطَنَ يَبْطُنُ، بُطُونًا و بَطْنًا. الشيءُ: خَفِيَ واستتر. -خِلافُ الظَّهْرِ. ١-(شر) جزء من الجسم واقع بين الصَّدر و الحوض، وفيه الأحشاء والأمعاء. (البَطَنُ): مرض البَطْن. داء البطن: سُعار، جوع مرضيّ.

Sözün təki بَطْنٌ və cəm forması أَبْطُن و بُطْنَان و بُطون olaraq üç növdür. Məsdər formasıبَطَنَ يَبْطُنُ، بُطُونًا و بَطْنًا – gizlənmək, örtünmək mənasındadır. Kürəyin tərsi. 1.(Anat.) Sinə və çanaq arasında yerləşən və daxili orqanları və bağırsaqları ehtiva edən bədənin bir hissəsi. :(البَطَنُ) مرض البَطْن – qarın xəstəliyi. داء البطن: سُعار، جوع مرضيّ – qarın xəstəliyi: aclıq.

"مَا مَلأَ ابْنُ آدَمَ وِعَاءً شَرًّا مِنْ بَطْنِهِ" [حديث].

“Adəm oğlu mədəsindən daha təhlükəli bir qab doldurmamışdır” (hədis).

وَاللَّهُ خَلَقَ كُلَّ دَابَّةٍ مِّن مَّاءٍ ۖ فَمِنْهُم مَّن يَمْشِي عَلَىٰ بَطْنِهِ وَمِنْهُم مَّن يَمْشِي عَلَىٰ رِجْلَيْنِ" (سورة النور/45) "

“Allah, hər canlını sudan yaratdı. Belə ki, onlardan kimi qarnı üzərində yeriyir, və kimi də iki ayağı üzərində yeriyir” (“Nur” surəsi, ayə 45).

"وَقَالُوا مَا فِي بُطُونِ هَٰذِهِ الْأَنْعَامِ خَالِصَةٌ لِّذُكُورِنَا وَمُحَرَّمٌ عَلَىٰ أَزْوَاجِنَا" (سورة الأَنْعَام/139)

“Dedilər ki, bu heyvanların qarınlarında olanlar sadəcə olaraq kişilərimizə aiddir, qadınlarımıza isə haramdır” (“əl-Ənam” surəsi, ayə 139).

“Qarın” termini ilə əlaqəli ərəb dilinin leksikasında məcazi söz birləşmələri və ifadələrə misal olaraq:

زقزقت عصافير بطنه: جاع – qarnında quşlar civildəyir: acmaq; عبدُ البطن/ ابن بطنه: الشَّرِه - qarınqulu: acgöz; فلانٌ لا يفكِّر إلاّ في بطنه: لا ينشغل إلاّ بما يأكل و يشرب - filankəs qarnından (mədəsindən) başqa heç nə düşünmür: ancaq yeyib-içdikləri ilə məşğuldur; البَطْن من كلِّ شيء: جَوْفه – hər şeyin qarnı: içi, oyuğu; بَطْن الأرض: ما انخفض منها، جوفها – yerin qarnı: ondan daha aşağı olan, içi; بُطون الجبال – dağların içi - “Məkkənin içində”; "بِبَطْنِ مَكَّةَ" – "ألقت الدجاجة ذا بطنها": باضت – toyuq qarnını tulladı: yumurtladı; ألقى الرَّجلُ ذا بطنه: كناية عن الرجيع – Kişi qarnını atdı: defekasiya barədə kinayə; باطن الرُّكبة - بَطْن اليد: راحتها – diz boşluğu; بطن السَّاق: مَأْبِضها – budun içi: diz boşluğu; بطنا القلب: تجويفا القلب – ürəyin içi: ürək boşluğu; بطون الدِّماغ: تجاويف الدِّماغ – beyinin içləri: beyin boşluqları; بياض البطن: شحم الكُلَى وغيره - qarın ağı: böyrək yağı və s.; في بُطون الكتب: داخلها – kitabların bətnlərində: daxilində və s. birləşmələr də diqqəti cəlb etməkdədir.

٣- مَرَّةُ واحدة من النِّتاج "وَلدتْ بَطْنًا واحدًا".

3. Bir dəfə balalamaq, “bir qarın doğdu”.

ذو البطن: الجنين، ما تحمله الأنثى في بطنها من الأجنّة عند حملها – qarınlı: döl, hamiləlik zamanı dişinin qarında daşıdığı döl.

٤- جماعة دون القبيلة "بُطون قريش". فلان بطن فلان: أي خَصّه و آثره بمودّته على غيره.

4. Qəbiləsiz bir qrup, “Qüreyşin qarınları, mədələri”. Filankəs filan şəxsin qarınıdır: yəni onu ayrı tutur və başqalarına nisbətən sevgisi ilə ona üstünlük verir.

Nəticə

Azərbaycan və ərəb dili tibbi terminlərlə zəngindir. Dövrümüzə qədər gəlib-çatmış bu terminlər xalq mədəniyyətinin elmi inkişaf xüsusiyyətlərini və terminologiyasının tarixini göstərən qiymətli söz vahidləridir. Terminlərin yaranmasını şərtləndirən amillər sırasında tarixi şərait mühüm rol oynayır. Tarixi şərait ilk əvvəl anlayışı doğurur, sonra onlar sözə və terminə çevrilir.

Həzm sistemi tibbi terminlərin yaranıb formalaşmasını ilk insan cəmiyyətinin yaranmasından götürmək olar. Zamanla hər millətin özünəməxsus milli tibbi terminləri yaranmış olur. Bu terminoloji vahidlər dilin lüğət tərkibində mühüm yer tutur. Alınma və işlənmə xüsusiyyətləri ilə səciyyələnən həzm sistemi tibbi terminləri hər iki xarici dilin ümummədəni inkişafını əks etdirir.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. (2006). Dörd cilddə, I cild. Bakı: "Şərq-Qərb", (744 s.).
2. Azərbaycan dilinin izahlı lüğəti. (2006). Dörd cilddə, III cild. Bakı: "Şərq-Qərb", (672 s.).
3. Cubran Məsud. (1992). Raid – mucəmun luğaviyyun asriyyun. Beyrut: "Dərul-ilm lilmeleyyin", (912 s.).
4. Ərən Həsən. (1999). Türk dilinin etimoloji lüğəti. Ankara: "Bizim büro basım evi", (512 s.).
5. Əyyuboğlu İsmət Zəki. (1988). Türk dilinin etimoloji lüğəti. İstanbul: "Sosyal yayınlar", (406 s.).
6. Əhməd Muxdar Ömər. (2008). Mucəmul-lugatil-arabiyyətil-Məasirati.T.1, Qahirə: "Aləmul-kutub", (3368 s.).
7. Əl-Mucəm-ul –Vasit. (2004). Qahirə: "Məktəbətul-şuruqil-duvaliyyəti", (1093 s.).
8. Əl-Muncid fil-luğati va ədəb va ulum. (1908). T.17, Beyrut: "Mətbəatul-Kəsulikiyyətu", (1016 s.).
9. İbn Mənzur. Lisanul-Arab. Beyrut: "Dər sadir", (4980 s.).
10. Məcidəddin Məhəmməd bin Yəqub Əl-Firuzabadi. (2008). Əl-Qamusul Muhit. Qahirə: "Dərul hədis", (1800 s.).

Кюбра Велиева

ИЗУЧЕНИЕ ЛЕКСИКО-СЕМАНТИЧЕСКИХ ОСОБЕННОСТЕЙ МЕДИЦИНСКИХ ТЕРМИНОВ, СВЯЗАННЫХ С ПИЩЕВАРИТЕЛЬНОЙ СИСТЕМОЙ, НА АЗЕРБАЙДЖАНСКОМ И АРАБСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

Один из разделов медицинской науки посвящен пищеварительной системе. Пищеварение представляет собой процесс преобразования полученной пищи в пригодную форму после различных процессов. Пищеварительная система обеспечивает попадание пищи, поступающей через ротовую полость, в кровь и лимфу (в тонком кишечнике), механически и химически расщепляя ее на более мелкие части для усвоения клетками. Пища - это вещества, получаемые всеми живыми существами извне для поддержания жизни.

Пищеварительная система состоит из трубчатых органов и крупных желез, расположенных вне пищеварительного тракта. К трубчатым органам относятся ротовая полость, глотка, пищевод, желудок, тонкая и толстая кишки. К железам пищеварительной системы относятся слюнные железы, печень и поджелудочная железа.

Областью изучения медицинских терминов в лингвистике является медицинская терминология. Термины, связанные с пищеварительной системой, составляют одно из направлений медицинской терминологии. Возникновение, формирование и развитие этих терминов, относящихся к азербайджанскому и арабскому языкам, охватывает длительный исторический период. Оба языка занимают уникальное место среди языков мира благодаря богатому словарному составу и своей древности. Национальные термины не только обогащают и развивают язык, но и являются основополагающими единицами речи в передаче тех или иных идей.

В статье представлена информация о пищеварительной системе, рассмотрены лексические, смысловые и морфологические особенности нескольких терминов на азербайджанском и арабском языках.

Азербайджанский и арабский народы своей древней цивилизацией и наукой оставили след в мировой культуре. На языке обоих народов наименования, данные частям тела, возникли с появлением первых человеческих объединений. Большинство наименований частей тела на обоих языках являются национальными терминами.

Ключевые слова: *термин, медицинская терминология, пищеварительная система, зуб, желудок, печень, азербайджанский язык, арабский язык.*

Kubra Valiyeva

STUDY OF LEXICO-SEMANTIC CHARACTERISTICS OF MEDICAL TERMS OF THE DIGESTIVE SYSTEM IN AZERBAIJAN AND ARABIC LANGUAGES

ABSTRACT

The digestive system is one of the branches of medical science. Digestion is the transformation of food placed in the mouth into a usable form after various processes. The digestive system ensures the absorption of orally ingested food into the blood and lymph (in the small intestine) after its mechanical and chemical breakdown into small pieces for absorption by the cells. Food is a substance that all living things receive from outside in order to continue their existence.

The digestive system consists of tubular organs and large glands located outside the digestive tract. Tubular organs include the oral cavity, larynx, esophagus, stomach, small and large intestines. The glands of the digestive system include the salivary glands, liver, and pancreas.

The field of study of medical terms in linguistics is medical terminology. Digestive system terms are one of the areas of medical terminology. The origin, formation and development of these terms related to the Azerbaijani and Arabic languages cover a long historical period. Both languages hold a special place among the world's languages due to their rich vocabulary and antiquity. National terms

are vocabulary units that not only enrich and develop the language, but also convey certain thoughts.

The article provides information on the digestive system, examines the lexical, semantic and morphological features of several terms related to this area in the Azerbaijani and Arabic languages.

The Azerbaijani and Arab peoples have left their mark on world culture with their ancient civilization and science. The names of body parts in the languages of both peoples go back to the first human associations. In both languages, most of the names of body parts are national terms.

Keywords: *term, medical terminology, digestive system, teeth, stomach, liver, Azerbaijani language, Arabic language*

AKADEMİK VASİM MƏMMƏDƏLİYEVİN MÜƏLLİMLİK MƏZİYYƏTLƏRİ

Naimə Həmidova,
Bakı Pedaqoji Kollecinin müəllimi
naima.qamidova75@mail.ru

XÜLASƏ

Azərbaycan ərəbşünaslıq məktəbinin görkəmli nümayəndəsi akademik Vasim Məmmədəliyev böyük istedad sahibi, tanınmış alim, islamşünas və pedaqoq kimi şöhrət tapmışdır. Onun müəllimlik fəaliyyəti elmi-təşkilati fəaliyyəti ilə bağlı olmuşdur.

V.Məmmədəliyev tədris etdiyi ərəb dilinin qrammatik xüsusiyyətlərini və İslam dini sahəsindəki biliklərini öyrətməkdə münasib metodlardan istifadə etməklə sadə üsullarla aydınlaşdırma və izahatlara daha çox yer vermişdir.

Vasim müəllimin apardığı tədqiqatlar ərəb dilinin əsas sahəsi olan feil və onun kateqoriyaları ilə bağlıdır. Bu, ondan irəli gəlmişdir ki, dilin öyrədilməsində feil bəhsi mühüm bir mərhələni təşkil edir.

Tədrisdə ədəbi mətnlərdən istifadəyə daha çox yer vermək V. Məmmədəliyevin müəllimlik metodundan irəli gəlirdi.

Akademik V.Məmmədəliyev musiqi, muğam, çox yayılmış maraqlı lətifə və xalq yaradıcılığı nümunələrinin təqdimində də əsl «müəllim möhürü"nü vurmuşdur. Özünün etiraf etdiyinə görə, "əsas müəllimi" Qurani-Kərimi Azərbaycan dilinə tərcümə etməklə yanaşı, onun öyrədilməsində bir istiqamət müəyyənləşdirmişdir. Ustad müəllim respublika televiziyasının əsas kanalında müntəzəm yayımlanmış "Haqqın dərgahı" verilişlərində İslam dininin mənəvi, əxlaqi dəyərlərinin mahiyyətini izah etməkdə hamının hörmətini qazanmışdır.

Nüfuzlu müəllim və şöhrətli alim V.Məmmədəliyev Qafqaz Müsəlmanları İdarəsində fəaliyyət göstərən Elmi-Dini Şuranın yaradılması təşəbbüskarlarından biri və onun sədri olmuşdur.

Ölkəmizdə İslam maarifçisi kimi tanınan Vasim müəllimin Bakı Dövlət Universitetinin Şərqşünaslıq və İlahiyyat fakültələrində pedaqoji və elmi-təşkilati fəaliyyəti nəticəsində bu sahələrdə çoxsaylı şərqşünas kadrlar hazırlanmışdır. O, Azərbaycan şərqşünaslığında və islamşünaslıqda bir məktəb yaratmışdır.

İstedad, sadəlik, möminlik, ensiklopedik kimi cəhətləri ilə seçilən Vasim Məmmədəliyevin müəllimliyi Şeyxulislam Allahşükür Paşazadə, akad. Fuad Qasımzadə, Bəxtiyar Vahabzadə, akad. Nizami Cəfərov, Nəbi Xəzri və başqa tanınmış ziyalılar tərəfindən yüksək təqdir edilmişdir.

***Açar sözlər**: müəllimlik, ərəb dili, islami dəyərlər, izahat və təbliğ, sadəlik.*

Giriş

Təhsil aldığım Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb şöbəsini bitirdikdə filoloq, tərcüməçi, ərəb dili və rus dili müəllimi ixtisasına yiyələnmişəm. Bir müddət Azərbaycan Milli Elmlər Akademiyası sistemində işlədikdən sonra pedaqoji fəaliyyətə başlamış və hazırda bu sahədə çalışıram. Müəllimlik peşəsinin sirləri və müəllimlik işinin xüsusiyyətləri məni həmişə maraqlandırmış və çoxsaylı müəllimlərimin hər birinin fərqli xüsusiyyətləri diqqətimi cəlb etmişdir. Bu baxımdan akademik Vasim Məmmədəliyevin müəllimliyi özünəməxsusluğu ilə seçilmişdir. Onun ərəb dilinin tədrisi, ərəb dilçiliyinin tədqiqi, islami dəyərlərin izahı və təbliği sahəsindəki fəaliyyətləri mücərrəd işlər kimi qalmamış, onların nəticələrini tələbələrinə və insanlara öyrətməklə daha da əhəmiyyətli olmuşdur. Ümumiyyətlə, müəllim əməyinin qiymətləndirilməsində onun tələbələrinin, ondan öyrənənlərin baxışı daha obyektiv sayılmalıdır. Tələbə bütün var-diqqəti ilə müəlliminə dikilir, onu dinləyir, dediklərini öz laboratoriyasında özünəməxsus şəkildə təhlil edir. Məşhur Azərbaycan şərhçisi Xətib Təbrizi XI əsrin böyük müəllimi Əbuləla Məərrinin dərinməzmunlu dərslərində iştirak edərkən ədəbiyyat elmini və İslam fəlsəfəsini öyrənməklə yanaşı, müəlliminin fikirlərini izah edib sonrakı nəslə çatdırmaqda böyük rol oynamışdır. İslam həqiqətlərini dərk etməkdə insan ağlının roluna verilən qiymətdə Məərrinin fikirlərinin məhz Xətib Təbrizi təqdimi prizmasında əsas götürülmüşdür.

"Müəllim" sözünün "öyrədən" mənasından çıxış edən Vasim müəllim peşəsinə məxsus sadəliyi ilə tələbələrinin rəğbətini qazanmağa müvəffəq olmuşdur. O, bu peşə ilə bağlı tələbləri həvəslə yerinə yetirməyə çalışırdı. İnsan sadəliyi və peşəsinə bağlılıq: bu iki keyfiyyəti Vasim müəllimdə bütün tələbələri duymuşdur. Həmin keyfiyyətlər ona hörmət qazandırmışdır. Mən başqa ərəb dili müəllimlərimizin

zəhmətini və bilik səviyyəsini aşağı salmadan deyə bilərəm ki, tələbələr, adətən, Vasim müəllimin qrupuna düşməyə çalışırdılar. Ən başlıcası, akademik V.Məmmədəliyev Allah dərgahına getmək üçün özünü Haqq yolunun yolçusu hesab edirdi. Onun bütün yazdıqlarının və söylədiklərinin məhvərini bu istiqamət təşkil etmişdir. Bu istedadlı şəxsiyyət haqqında fikir söyləyən insanlar, ilk növbədə, onun müəllimlik məziyyətlərini yüksək qiymətləndirirdilər.

Hər kəsə məlumdur ki, Vasim müəllim haqqında nüfuzlu söz deyənlər onun fenomen şəxsiyyət oldugunu qabardırlar. Əlbəttə, bu fenomenlik hər şeydən əvvəl onun daxili inam və əqidəsində köklənmişdi. Sanki ilahi varlığın sirləri Vasim müəllimin qanına hopmuşdu. Onun tələbələri bunu yaxşı dərk edirdilər.

Akademikin fəaliyyətində pedaqoji
və elmi sahələrin vəhdəti

Müəllim və alim kimi şöhrətlənmiş V.Məmmədəliyevin ilk ustadı atası Məmmədəli müəllim olmuşdur. Müasir bəşər nəslinin sivilizasiyasının başlanğıc qaynaqlarından olan latın dili mütəxəssisi kimi tanınan bu şəxs övladını sivilizasiyasının digər qolu olan ərəb-İslam mədəniyyəti sahəsinə yönəltmək istəmişdir. Əlbəttə, atanın bu istəyi ilahi qüdrətdən gəlmişdir. Qurani-Kərimdə deyildiyi kimi: "...Lütf, mərhəmət Allahın əlindədir, onu istədiyinə bəxş edər. Allah çox böyük mərhəmət, kərəm sahibidir" (5, 57). Ərəb və fars dilinin öyrənilməsinin başlanğıc mərhələsini keçmiş bu istedadlı gənc Bakı Dövlət Universitetində praktik ərəb dili məktəbinin əsasını qoymuş professor Ələsgər Məmmədovun sevimli tələbəsinə çevrilmişdir. Özünün qeyd etdiyi kimi o, Ələsgər müəllimin ustadlığını və sadəliyini örnək götürmüşdür. Bağdadda İraq alimlərini bəlağətli ərəb dili ilə heyrətləndirən Vasim Məmmədəliyevdən müəllimi haqqında soruşduqda cavabı belə olmuşdur: "Mənim müəllimim Azərbaycan Universitetində böyük ərəb dili mütəxəssisi idi. Əsas müəllimim isə Qurani-Kərimdir" (10, 23). V.Məmmədəliyev universiteti bitirdikdən sonra ərəb dilinin tədrisində Ələsgər müəllimin yaxın köməkçisi olmuşdur. Bununla belə o, ərəb dilini öyrənmək, tədris etməklə kifayətlənməmiş, onun tədqiqi ilə məşğul olmağı lazım bilmişdir.

Flektiv ərəb dilinin keçdiyi tarixi yolu, qrammatik qaydalarını və canlı dil xüsusiyyətlərini yaxşı bilən Vasim müəllim elmi-tədqiqat mövzusunu feillə bağlı seçmişdir: namizədlik (indiki fəlsəfə doktoru) dissertasiyası üçün "Müasir ərəb dilində və İraq dialektində felin za-

man formalarının müqayisəli-tipoloji təhlili", doktorluq dissertasiyası üçün "Müasir ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" mövzularını müdafiə etmişdir.

Bildiyiniz kimi, ərəb dilində söz yaradıcılığının əsasında feil durur. Məlum formalar üzrə sözlərin düzəlməsi prinsipini mənimsəyən tələbə bu dilin sirlərini öyrənməyə daha tez nail olur. Bu baxımdan feil bəhsinin öyrədilməsi tədris prosesində xüsusi bir mərhələ təşkil edir.

Təsadüfi deyildir ki, ərəb dili lüğətlərinin tərtibi prinsipində bir qayda olaraq öncə feil, sonra isə ondan törəmə sözlər verilir.

Vasim müəllimin mühazirələrini və çıxışlarını dinləyənlər, söhbətlərinə qulaq asanlar bilirlər ki, o, bütün fikirlərini ədəbi nümunələrlə möhkəmləndirməyi xoşlayırdı. Dil qaydalarına aid gətirdiyi misallar da adi cümlələrlə yanaşı poetik nümunələr olurdu.

Tarixi həqiqətlərdən çıxış edən akademik uzun bir dövr ərzində dini, mədəni və siyasi əlaqələr nəticəsində ərəb dili ilə təmasda olmuş, fars və türk dillərinə müraciət etməyin tərəfdarı kimi tanınmışdır. Ərəb dilində müvafiq bir leksik vahiddən bəhs etdikdə farsdilli və türk mütəfəkkirlərinin gözəlməzmunlu beytlərinə də istinad edər və burada işlənən həmin sözlərin poetik tutumunu izah edərdi. Bu prosesdə ərəb dilinin təsir dairəsinin genişliyini vurğulayan Vasim müəllim xarakterik misallarla dil əlaqələrini çox aydın şəkildə izah edərdi. Klassik Azərbaycan poeziyasında və müasir dilimizdə özünə yer etmiş izafət birləşməsinin çox maraqlı nümunələrini xırdalayıb izah etdikdə, sanki çox sadə ifadələr kimi tələbənin beynində həkk olurdu. "Valideyn", "ab-həva", "qilu-qal" ifadələrinin söz kökünü və qrammatik birləşmə əsaslarının izahından sonra tələbə üçün elə aydınlıq yaranırdı ki, dərk etdiyi yeni bilikdən ötrü sevinirdi. Beləliklə, dilin tədrisində onun öyrətmə metodu daha maraqlı təsir bağışlayardı.

Akademik F.Qasımzadənin yazdığı kimi, "Vasim müəllim Azərbaycan, ərəb, fars, türkdilli klassiklərin minlərlə şerini əzbər bilir" (7, 31).

V.Məmmədəliyev dilçilik, Şərq ədəbiyyatı, İslam elmləri, əruz və s. sahələrdə, o cümlədən muğam və musiqi haqqında dəyərli fikirlər söyləmişdir. Onun bilik dairəsində universallıq ensiklopedikliklə birləşmişdi. Belə ki, o, bir neçə elm sahəsindən məlumatlı olmaqla söhbətgedən mövzularda ümumi biliyi var idi. Yeri gəldikdə Şərq dillərini ingilis dili ilə canlı müqayisə edir, bir neçə dünya xalqının ensiklopediyasından məlumat verirdi. Bütün bunlar geniş maraq dairəsinə malik

gənclər-tələbələr üçün cəlbedici olurdu. Muğam sənətinin ifaçıları və bilicilərindən olan Əməkdar artist Tələt Qasımov qeyd edir ki, Vasim Məmmədəliyev bu sahədə nüfuzlu müəllim olmuş, muğamların bir çox qaranlıq məqamlarını izah edib öyrətməkdə "müəllim möhürünü" vurmuşdur (8, 222).

Bütün istedad sahibləri bildiklərini öyrətməyə çalışmış və bu məqsədlə hər bir fürsətdən istifadə etmişlər. Vasim müəllimi tanıyanlar bilirlər ki, o, xalq deyimləri və lətifələrin çox məharətli söyləyəni olmuşdur. Bu sahədə də müəllimliyini göstərər, danışdığı lətifənin mətnaltı mənasını və nəticəsini öz baxışı ilə müəllim kimi izah edib yekunlaşdırmağı xoşlayırdı.

Dini-mənəvi dəyərlərin təbliğində
Vasim müəllimin fəaliyyəti

Dini-inamı qəbul etməyən keçmiş Sovetlər İttifaqında böyümüş Vasim Məmmədəliyev bir çox ailələrdə olduğu kimi, Məmmədəliyevlər ailəsində də İslam dininin yüksək mənəvi dəyərlərinə hörmətlə yanaşıldığını görmüşdür. Ailə mühiti onun gələcək baxışlarının formalaşmasında mühüm rol oynamışdır. Nəticədə özünün göstərdiyi kimi, yalnız ərəb dilini öyrənmək sahəsində deyil, onun həyatında da "əsas müəllimi Qurani-Kərim olmuşdur". Bu sahədə Vasim müəllimin fəaliyyəti onunla nəticələnmişdir ki, Azərbaycanda uzun müddətdən sonra Qurani-Kərimin dilimizə tərcüməsi meydana gəldi. Onun bu tərcüməyə yazdığı Ön sözdə İlahi kəlamların peyğəmbərə çatdırılması, ayələri dərk etməyin xüsusiyyətləri, Qurani-Kərimin yazıya alınması tarixi, Quran dini-fəlsəfi, hüquqi qaynaq və ədəbi-tarixi salnamə kimi, Quran və elm, Quranda Allahın qüdrətinin ifadəsi, Quran və şeir, Quranın təfsir və tərcümələri kimi məsələlərin qoyuluşu və mahiyyəti izah edilir, öyrədilir. Bu müqəddimə Azərbaycan Quranşünasları üçün müəyyən edilmiş bir istiqamətdir.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra dini-mənəvi dəyərlərin təbliğində Vasim müəllimin böyük xidmətləri olmuşdur. Respublika Televiziyasının əsas kanalında müntəzəm yayımlanmış "Haqqın dərgahı" verilişlərində o, bu dəyərlərin mahiyyətini izah etməkdə hamının hörmətini qazanmışdır. Televiziya kanalı Vasim müəllimin böyük auditoriyasına çevrilmişdir. Müxtəlif peşə sahibləri bu sahədə onu özünə müəllim hesab etmişlər. Tanınmış hüquqşünas Abdulla İbrahimov "Vasim müəllimi özünə mürşidi" saymışdır (3, 97). BDU-nun pro-

fessoru Anar İsgəndərov akademikin bu sahədəki fəaliyyətinə görə ona "…müəllim kimi yaşa" deyərək minnətdarlığını bildirir (4).

Bəşəriyyətin sonuncu dini nəsibi olan İslamın dəyərlərinin müasir dövrdə qorunmasının əhəmiyyəti mütərəqqi müsəlman alimlərini həmişə düşündürmüşdür. Yaşadığımız dövrdə İslamın əxlaqi-tərbiyəvi cəhətlərinin öyrədilməsi Vasim müəllimin də diqqətində olmuş və bu işdə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin qayğısı ilə idarənin nəzdində Elmi-Dini Şuranın yaradılması baş tutmuşdur. Bir çox alimləri və ruhani xadimlərini birləşdirən Şuranın sədri akademik Vasim Məmmədəliyev seçilmişdir. O, ömrünün axırına qədər bu məsuliyyətli işi yerinə yetirmişdir. Ölkəmizdə İslam dininin müasir elmi əsaslarla öyrənilməsi, dinin icraatlarının müasir şəraitə uyğun qaydaya salınması, bu sahə ilə bağlı aparılan tədqiqatlar və yazılan dərsliklərə aid tövsiyələrin verilməsində Elmi-Dini Şuranın böyük rolu olmuşdur. "Şura dini-mənəvi dəyərlərin təbliğində aparıcı rol oynamışdır" (11).

Vasim Məmmədəliyev burada müdrik bir müəllim kimi tanınmış, İslam aləmində müstəqil Azərbaycan Respublikasının nüfuzunu qaldırmağa xidmət göstərmişdir. Müsəlman Şərqinin bir çox ölkələrində – İraq, Suriya, İordaniya, Misir, Mərakeş, İran, Türkiyədə yaradılmış elmi-dini qurumlar öz tədbirlərində akademik Vasim Məmmədəliyevin iştirakından məmnun qalmış və onu fəxri üzv seçmişlər. Bu qurumların üzvləri Vasim müəllimə "ustad" deyə müraciət edirdilər.

Vasim müəllimdə özünü və Allahı dərk etmiş bir insanın möminliyi var idi. Bunun nəticəsidir ki, o, islami göstərişləri elə izah və təbliğ edirdi ki, hər kəs ona heyranlığını bildirərdi.

Tbilisi Dövlət Universitetində aspirantura təhsilini aldığı vaxt müəllimi və elmi rəhbəri akademik Sereteli üçün istəkli bir davamçısı, hal əhli olması və səmimiliyinə görə gürcü aləmində xüsusi bir inam və iman yaratmışdır. Vasim müəllimin dediyinə görə, Sereteli ona vəsiyyət etmişdi ki, "vəfat etdikdə başı üstündə məhz Vasim Məmmədəliyev Qurandan ayələr oxusun" (2).

Bakı Dövlət Universitetində İlahiyyat fakültəsinin yaradılmasında Vasim müəllim həm pedaqoji, həm də təşkilatçılıq fəaliyyəti göstərmişdir.

Akademik Nizami Cəfərov Vasim müəllimi səciyyələndirən yeddi əsas sözdən – istedad, şəxsiyyət mədəniyyəti, özünəməxsus müdriklik, həsəd çəkilən nikbinlik, zirvə ucalığı, müdrik möminlik, təqlid edilməyə layiq müəllimlik məziyyətlərindən söz açır. Müəllim sözünə ayrıca

əhəmiyyət verərək yazır: "Onun müəllimliyi dili söz, əli qələm tutmasında az-çox xidməti olmuş hər bir müəllimə sonsuz hörmət bəsləyən bir şagirdin, tələbənin müəllimliyidlir… Onun müəllimliyi yaşadığı dövrün fövqünə qalxmasıdır" (1).

Akademik V.Məmmədəliyev biliyini və müəllimlik səriştəsini tələbələrinə öyrətməyə çalışmışdır. O, 30-a yaxın doktorant və dissertanta elmi rəhbərlik etmişdir. Vasim müəllim Azərbaycan şərqşünaslığında və ilahiyyatda bir məktəb yaratmışdır. Böyük insanın doğulduğu Abşeronun Kürdəxanı qəsəbəsində bu şöhrətli alim və İslam maarifçisi müəllim adı ilə möhürlənmişdir: böyükdən-kiçiyə qədər hamı ona "Müəllim" deyə müraciət etmişdir. Vasim Məmmədəliyev "müəllim" sözünün nüfuzunu qaldırmışdır.

Nəticə

Azərbaycanda ərəb dilinin öyrənilməsi sahəsində akademik Vasim Məmmədəliyev bir məktəb yaratmış və hazırda bu məktəbin yetirmələri böyük ustadın işini davam etdirirlər.

İslam dininin mənəvi dəyərlərinin, Qurani-Kərimin müdrik ayələrinin izahı və öyrədilməsi sahəsində Vasim müəllimin xidmətləri böyükdür. Bakı Dövlət Universitetinin Şərqşünaslıq və İlahiyyat fakültələrində Qafqaz Müsəlmanları İdarəsinin nəzdindəki Elmi-Dini Şurada, Bakı Dövlət Televiziyasında uzun müddət yayımlanan "Haqqın dərgahı" verilişlərində, çoxsaylı çıxış və söhbətlərində onun müəllimliyindən bəhrələnən çoxsaylı auditoriya bu istedadlı müəllimə həmişə min rəhmət deyib onu yad edəcəklər.

ƏDƏBİYYAT

1. Cəfərov Nizami. (30 iyun 2012). Akademik Vasim Məmmədəliyevə açıq məktub. – "Ədəbiyyat qəzeti".
2. Həmidov İmamverdi. (noyabr 2019). Azərbaycan ədəbiyyatşünaslığının böyük itgisi. – "Ədəbiyyat qəzeti".
3. İbrahimov Abdulla. O, mənim mürşidim, mon onun müridiyəm, – Vasim Məmmədəliyev zirvəsi, (səh. 97-98).
4. İsgəndərov Anar. Ən böyük təltifi "Haqqın dərgahı"dır. – Vasim Məmmədəliyev zirvəsi, (səh. 296-297).
5. Qurani-Kərim. (1991). Azərbaycan dilinə tərcümə Z.Bünyadov və V.Məmmədəliyev, Bakı.

6. Qasımzadə Fuad. (2002). Misilsiz təfəkkür sahibi, Bakı.
7. Qasımov Tələt. Müəllim sözü möhürdür. – Vasim Məmmədəliyev zirvəsi, (səh. 217-222).
8. Görkəmli Azərbaycan alimi Vasim Məmmədəliyevin 70-illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. (2012). Bakı.
9. Nəbi Xəzri. Vasim Məmmədəliyev planeti, –Vasim Məmmədəliyev planeti, – Vasim Məmmədəliyev zirvəsi, (səh. 23-25).
10. Paşazadə Allahşükür. Elmimizin cövhəri, dinimizin şərəfi, – Vasim Məmmədəliyev zirvəsi, (səh. 15-18).
11. Vasim Məmmədəliyev zirvəsi. (2002). Tərtibçi və naşir Hacı Ağəddin Mansurzadə, "Sumqayıt" nəşriyyatı.

Наима Гамидова

ДОСТОИНСТВА ПРЕПОДАВАНИЯ АКАДЕМИКА ВАСИМА МАМЕДАЛИЕВА

РЕЗЮМЕ

Видный представитель азербайджанской школы арабоведения академик Васим Мамедалиев известен как талантливый ученый, исламовед и педагог. Преподавательская деятельность профессора была связана с его научно-организационной деятельностью.

В.Мамедалиев часто прибегал к упрощенному толкованию и разъяснениям, используя доступные методы грамматических особенностей преподаваемого им арабского языка и знания в области ислама.

Исследования профессора Мамедалиева связаны с основным разделом грамматики арабского языка - глаголом и его категориями. Это связано с тем, что в преподавании языка полемика относительно глаголов является важной вехой.

Широкое использование литературных текстов в преподавании являлось частью методики В.Мамедалиева.

Академик В.Мамедалиев также подходил как истинный педагог к представлению музыки, мугама, распространенных интересных анекдотов и образцов народного творчества.

По признанию академика Васима Мамедалиева, его "главный учитель", наряду с переводом Корана на азербайджанский язык, задал направление в его преподавании. Талантливый педагог заслужил всеобщее уважение за разъяснение сущности исламских религиозно-нравственных ценностей в передаче "Хаггын дяргахи" (Путь к истине), регулярно транслируемой на главном канале республиканского телевидения.

Проницательный учитель и выдающийся ученый В.Мамедалиев был одним из инициаторов создания и председателем Научно-религиозного совета при Управлении мусульман Кавказа.

В результате педагогической и научно-организационной деятельности профессора Мамедалиева, известного в стране исламского просветителя, на факультетах востоковедения и теологии Бакинского государственного университета были подготовлены многочисленные востоковедческие кадры. Он создал школу азербайджанского востоковедения и исламоведения.

Педагогические качества Васима Мамедалиева, отличавшегося талантом, скромностью, благочестием, энциклопедичностью, были высоко оценены Шейхулисламом Аллахшукюром Пашазаде, академиком Фуадом Гасымзаде, Бахтияром Вахабзаде, академиком Низами Джафаровым, Наби Хазри и другими известными интеллектуалами.

Ключевые слова: *преподавание, арабский язык, исламские ценности, объяснение и пропаганда, скромность.*

Naima Hamidova

EDUCATIONAL MATERIALS OF ACADEMICIAN VASIM MAMADALIEV

ABSTRACT

Academician Vasim Mammadaliyev, a prominent representative of the Azerbaijani school of Arabic studies, became famous as a great talent, a famous scientist, Islamic scholar and teacher. His pedagogical activity was associated with his scientific and organizational activities.

V. Mammadaliev devoted more space to clarification and explanations in simple ways, using appropriate methods in teaching the grammatical features of the Arabic language and his knowledge of Islam.

Vasim Mammadaliev's research is related to the verb, which is the main area of the Arabic language, and its categories. This is due to the fact that the topic of verbs is an important stage in language learning.

Providing more space for the use of literary texts in teaching refers to the teaching method of V. Mammadaliev.

Academician V. Mammadaliev also put a real "teacher's stamp" in the presentation of samples of music, mugham, widespread interesting anecdotes and folk art.

According to academician Vasim Mammadaliyev, along with the translation of the Holy Quran into Azerbaijani, the “main teacher” is determined by the direction of his teaching. The master teacher has won universal respect for explaining the essence of Islamic religious and moral values in the program “Haggin dargahi”, which are regularly broadcast on the main channel of the republican television.

The influential teacher and famous scientist V. Mamedaliev was one of the initiators of the creation and chairman of the Scientific and Religious Council, acting in the Directorate of Muslims of the Caucasus.

As a result of the pedagogical and scientific-organizational activities of Vasim Mammadaliyev, known in our country as an Islamic educator, numerous orientalist specialists in these areas were trained at the faculties of oriental studies and theology of Baku State University. He founded the school of Azerbaijani oriental studies and Islamic studies.

The teaching of Vasim Mammadaliyev, distinguished by talent, simplicity, piety, encyclopedic features, was highly appreciated by Sheikh-ul-Islam Allahshukur Pashazade, acad. Fuad Gasimzade, Bakhtiyar Vahabzade, acad. Nizami Jafarov, Nabi Khazri and other famous intellectuals.

Keywords: *teaching, Arabic language, Islamic values, explanation and propaganda, simplicity*

MİSİR ŞAİRİ ƏHMƏD ŞÖVQİNİN ŞEİR YARADICILIĞI

Şahanə Şahbazova,
AMEA akademik Ziya Bünyadov adına
Şərqşünaslıq İnstitutunun doktorantı
shahaneshahbaz@gmail.com

XÜLASƏ

Böyük Misir şairi Əhməd Şövqi, eyni zamanda, ümumərəb xalqının və müsəlman ümmətinin şairi olmuşdur. Ə. Şövqi həm nəzm, həm nəsr, həm də dramaturgiya sahəsində yazıb-yaradaraq özünün əxlaqi və vətənpərvərlik ideyalarını yüksək sənətkarlıqla ifadə etmişdir. Məqalədə şairin poetik yaradıcılığı tədqiq olunmuşdur.

Ə.Şövqi yeni ərəb poeziyasının pionerlərindən sayılır. O, müasir ərəb poeziyasında yüksək sənətkarlığı və zəngin bədii-estetik tutuma malik şeirləri ilə seçilir. Onun poeziyası mədhiyyələrdən tutmuş, uşaq şeirlərinə kimi ən müxtəlif mövzuları əhatə edir. Əhməd Şövqi ərəb ədəbiyyatında qədim dövrlərdən bəri mövcud olmuş bütün şeir formalarında yazıb-yaratmışdır. O, klassik şerin ifadə, təsvir və təşbehlərini işlədərək, qəsidənin bütün növlərində din, siyasət, cəmiyyət, teatr kimi müxtəlif mövzularda şeirlər yazmışdır. Eyni zamanda, Əhməd Şövqi öz şeirləri ilə ondan əvvəl heç kəsin işlətmədiyi təsvir formalarından istifadə edərək, yeni mövzularda da qələmini sınamışdır. Avropa mühitinin təsiri ona ərəb şerində yeni istiqamət yaratmağa imkan vermişdir. Bu təsir onu bütün həyatı boyu müşayiət etmişdir: istər mənzum pyeslərində və operalarında, istər La Fonten kimi heyvanların dili ilə qələmə aldığı alleqorik hekayələrində.

Şeirlərinin ahəng, forma və zəngin məzmun xüsusiyyətlərinə malik olması onu XX əsrin ən böyük şairləri sırasına daxil etmişdir. Ə.Şövqinin şeirlərində bir reformist kimi iqtisadi, siyasi, sosial, fəlsəfi, tarixi, dini, əxlaqi və digər sahələrdəki problemləri ifadə etməsi və bu problemlərin özünəməxsus həll yolunu göstərməsi, şerə gətirmiş olduğu yeniliklərdəndir. Hazırkı məqalədə şairin yaradıcılığı mərhələli şəkildə araşdırılmış, poeziyasının möhtəvasını təşkil edən şeirləri müxtəsər şəkildə tədqiq olunmuşdur.

Açar sözlər: *Əhməd Şövqi, ərəb ədəbiyyatı, Misir, müasir ərəb poeziyası.*

Giriş

Böyük Misir şairi Əhməd Şövqi XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində - qaynar siyasi hadisələrin baş verdiyi zamanda yaşamışdır. Saray mühitində böyüməsi, Xədivin qəsri və işləri ilə əlaqəsi onun siyasi vaqeələrin sirri ilə tanışlığına, saraydaxili münaqişələrdən, vətənpərvərlər, kolonistlər və Osmanlı Xilafəti arasındakı təzyiqlərdən məlumatlı olmasına və siyasi partiyalar arası mübarizədə təcrübə qazanmasına şərait yaratmışdır. Şair, eyni zamanda, Osmanlı Xilafətinin süqutunun, Qərb istismarçılarının vətənini işğal etməsinin, Birinci Dünya müharibəsinin və bütün bunların ölkədə yaratdığı ağır vəziyyətin şahidlərindən və qurbanlarından biri olmuşdur. Sürətlə cərəyan edən bu siyasi ab-hava cari tarixi hadisələrin içində olan Əhməd Şövqinin yaradıcılığında dərin iz buraxmışdır.

Əhməd Şövqinin şeir yaradıcılığının mərhələləri

Əhməd Şövqi 1885-ci ildə Qahirədə hüquq məktəbini və həmin məktəbin tərkibində tərcüməçilik kursunu bitirmişdir. Ə.Şövqinin şairlik qabiliyyətinin ortaya çıxmasında ərəb dili müəllimi və Xədiv Tofiqə mədhiyyə xarakterli şeirlər yazan şair Şeyx Məhəmməd əl-Bəsyuninin böyük xidmətləri olmuşdur. Şair ilk qəsidəsini hüquq məktəbində oxuyarkən Xədiv Tofiqin qarşısında oxuyub bununla Xədivin qəlbini qazanmışdır [1, 30]. "Əl-Vakai-ul-Mısriyyə" qəzetində Xədiv Tofiqi mədh edən ilk şeirləri dərc olunmağa başladıqdan sonra, Ə.Şövqi Əli Mübarək Paşanın dəstəyi ilə sarayda məmurluğa təyin edilmişdir. Bu vəzifəyə təyin olunduqdan qısa bir müddət sonra, şair Tofiq Paşa tərəfindən hüquq təhsilini tamamlamaq üçün 1887-ci ildə Fransaya göndərilmiş, iki il Montipellier, iki il də Paris Universitetində hüquq və ədəbiyyat təhsili almışdır.

Əhməd Şövqi müasir ərəb poeziyasında yüksək sənətkarlığı və zəngin bədii-estetik tutuma malik şeirləri ilə seçilir. Onun şeirlərini dövr etibarilə, sürgündən qabaq, sürgündə olarkən və sürgündən sonra yazdığı şeirlərdən ibarət üç qrupa bölmək olar.

Ə.Şövqi yaradıcılığının ilk dövrü, əsasən, mədhiyyəxarakterli şeirləri ilə xarakterizə olunur. Fransada oxuduğu zaman Avropa mədəniyyəti ilə tanış olmasına rəğmən, şair qədim şairlərin yolu ilə getmişdir. Bu səbəbdən Fransa mədəniyyətinin təsiri ona, ələlxüsus, poeziya sahəsində məhdud olmuşdur. Fransada oxuyarkən şairin yaradıcılığında müəyyən inkişaf olub ki, bu kiçik təmsillərdə, bəzi hekayə xarakterli şeirlərdə öz əksini tapmışdır.

Şairin ilk qəsidələrinin tacı sayılan "كبار الحوادث في وادى النيل" ("Nil vadisində meydana gələn mühüm hadisələr") şerində və məşhur qəsidəsi "أيها النيل" ("Ey Nil çayı") əsərində, artıq Qərb ədəbiyyatının təsirini görürük:

مِـنْ أَيِّ عَهـدٍ فـي القُـرَى تتَـدَفَّقُ؟ وبـأَيِّ كَـفٍّ فـي المـدائن تُغْـدِقُ؟
ومـن السـماءِ نـزلتَ أَم فُجِّـرتَ من علْيـا الجِنــان جَـداوِلاً تـتَرقرقُ؟ [2, 64]

(Kəndlərdə hansı dövrdən axıb gedirsən? Şəhərləri hansı qolun əlinə alıb? Səmadanmı enmisən, ya cənnət yüksəkliyindən coşub daşıb gəlmisən?)

Qəsrdə yaşadığı müddətdə Ə.Şövqi şerini saray həyatının axınında aparmış, Xədivin şairi olaraq hər münasibətdə onu mədh etmişdir. Əhməd Şövqi Birinci Dünya müharibəsindən əvvəl, xüsusilə Xədiv Abbası mədh və vəsf edərkən, adətən, şair əl-Buhturunin Abbasi Sarayına qarşı olan bağlılığını məna və üslubca təqlid etmişdir. Xədivin istəklərini, hacətlərini qəsidələrində əks etdirdiyi həmin dövrdə şair xalqdan, onun qayğı və dərdlərindən, problemlərindən uzaq olmuşdur.

Şair gəncliyində, əsasən, bu mövzularda yazıb-yaradırdısa, sürgün dövrü və sürgündənsonrakı şeirlərində mövzunu tamamilə dəyişmişdir.

İlk divanını 1898-ci ildə nəşr etdirmişdir. Bu illərdə xalqa yaxınlaşmış, şeirlərini xalq üçün yazmağa başlamışdır. Eyni zamanda, Xədiv Abbas da bu dövrdə əhalini fikirləşməyə başlayır, məktəb açdırır, hakimiyyətində xalq sistemini qəbul edir və siyasətində ingilislərə qarşı çıxır. Bu səbəbdən, Ə. Şövqinin mədhiyyələrində də inkişaf hiss olunur, şair xalqa maraqlı olan mövzulara toxunur, bəzi mədhiyyələrində bütün müsəlmanlara maraqlı olacaq islami mövzulara müraciət edir. Əhməd Şövqinin şerinin sərhədləri, artıq vətənindən kənara uzanır. Bunu Xədiv Abbas Məkkəyə Həcc ziyarəti edərkən ona yazdığı mədhiyyədə görürük. Müsəlman oxucularını razı salmaq üçün şair sonralar Peyğəmbərə mədhiyyələr yazır.

Rəsulun həyatına dair yazılmış ən gözəl mədhiyyələrdən olan "Nəhcül-Burdəni" yazarkən Əhməd Şövqi deyir:

مديحه فيك حب خالص و هوى و صادق الحب يملى صادق الكلم [3, 187]

(Sənə olan mədhiyyə saf sevgi ilə, şövq ilədir. Həqiqi məhəbbət sözün doğrusunu diktə edir)

Bu səmimi hisslərin təzahürünü “في وادى النيل” (“Nil vadisində”) qəsidəsində də görmək olar:

إنما الأرض و الفضاء لربي و ملوك الحقيقة الأنبياء
لهم الحب خالصا من رعايا هم و كل الهوى لهم و الولاء [3, 25]

(Ərş iylə fəza uca Rəbbindir, həqiqi məliklər peyğəmbərlərdir,
Riyasız saf məhəbbət onların, bütün eşq iylə vəfadarlıq onlar üçündür)

Əhməd Şövqi 1915-ci ildə Misirdə baş verən siyasi dəyişiklik nəticəsində ölkədən sürgün olunmuş, beş il vətəndən uzaq düşmüşdür. Şair sürgündə olarkən qəsidələrini özünün və ərəblərin Əndəlüsdə itirdikləri cənnəti müqayisə edərək qələmə almışdır. Şair həsrətini “Siniyyə” və “Nuniyyə” adlı məşhur qəsidələrində əks etdirmişdir. Bu əsərlərində Ə.Şövqi xalqın zəifliyini deyil, əksinə, qövmünün böyüklüyünü ən güclü surətdə tərənnüm etmişdir:

نَحنُ اليَواقيتُ خاضَ النَّارَ جَوْهَرُنا وَلَم يَهُن بِيَدِ التَّشْتيتِ غالينا
وَلا يَحولُ لَنا صِبْغٌ وَلا خُلُقٌ إِذا تَلَوَّنَ كَالحِرباءِ شانينا
لَم تَنْزِلِ الشَّمْسُ مِيْدَانًا وَلا صَعَدَت في مُلْكِها الضَّخْمِ عَرْشًا مِثْلَ وادينا [2, 107]

(Biz, ləl-yaqut idik, od cəvahiri apardı getdi, pərakəndəliklə dəyərimizi itirmədik.
Zaman nə rəngə boyansa da, biz kökümüzü, dəyərimizi dəyişmədik.
Günəş nə öz meydanından enmədi, nə geniş mülkündən ərşə qalxmadı, vadimiz kimi)

Bu qəsidəsini Ə.Şövqi İbn Zeydunun üslubunda yazıb, “Siniyyə” qəsidəsini əl-Buhturinin qafiyəsində qələmə almışdır. Bu onu göstərir ki, Ə.Şövqi bəzi cəhətdən Əndəlüsdə hələ də təqlidçi şair idi. Sürgündə olarkən yenə də bəzi qədim qəsidələri iqtibas edir, onların vəznində, qafiyəsində yazırdı.

1919-cu il Misir inqilabından sonra şairin yaradıcılığı yeni istiqamət alır. Sürgündən qayıdandan sonra şair xalqa yaxınlaşır, xalqın siyasi vəziyyətini, istəklərini güclü təsvirlərlə əks etdirir, əsərləri ilə Misir cəmiyyətində milli şüurun yaranmasına xidmət edir. O, xalqa daha yaxın üslub axtarır, xalq dilinin elementlərini öz təhkiyəsinə

gətirir, bu sahədə, hətta Hafiz İbrahimi belə geridə qoyur. Şövqi Dayfın təbiri ilə desək, “Hafiz İbrahimdən daha istedadlı idi” [5, 118].

Bu mərhələdə Əhməd Şövqi yaradıcılığını fərqləndirən əsas xüsusiyyət şairin, artıq müstəqil yol alması, təqlidçi şairlikdən uzaqlaşması və xüsusən cəsarətli fikirləri ilə çıxış etməsi olur. Vətəni tərənnüm edən şair əsərlərində xalqı ingilis hakimiyyətinə qarşı azadlıq və istiqlal uğrunda mübarizəyə səsləyir, Qərb dövlətlərinin imperialist siyasətini ifşa edir. Milli Partiya rəhbəri Mustafa Kamil Paşanın ölümünün onyeddinci ildönümü münasibətilə qələmə aldığı "شهيد الحق" (“Haqq şəhidi”) qəsidəsində şair 1924-cü ildə vətənin məruz qaldığı vəziyyətə, ölkənin müstəqilliyini təmin edən 28 Fevral bəyannaməsinə işarə edir, partiyalar arası ixtilafları tənqid edir, ölkənin islah yolunu göstərir [1, 26].

الإم الخلف بينكم الإم؟ و هذى الضجة الكبرى علاما؟
و فيما يكيد بعضكمو لبعض و تبدون العداوة و الخصاما؟
و أين الفوز لا مصر استقرت على حال، و لا السودان داما؟
و كانت مصر اول من أصبتم فلم تحص الجراح و لا الكلاما
اذا كان الرماة رماة سوء أحلوا غير مرماها السهاما [1, 209]

(Aranızda bu ixtilaf, dərdiniz nədir? Bu yüksək səda nəyin nişanəsidir?
Nəyə görə bir-birinizi aldadıb, ədavət və düşmənçilik yaradırsınız?
Qələbəniz hanı? Nə Misir, nə Sudan özündə bərqərar oldu,
Nə yarası bəllidir, nə səsi çıxır, bəlaya məruz saldığınız ilk Misir oldu,
Əgər oxu vuran yaxşı deyilsə, onu dəyişməyiniz yaxşı olardı)

Ölkənin tərəqqisini elmin inkişafında görən şair milləti təlimə səsləyir, zəhmətə ruhlandırır. Yaradıcılığında xalqın bütün təbəqələrinə yer ayıran şairin fəhlələrə aid bu qəsidəsi (أيها العمال) onun gözəl şeirləri içərisində xüsusi yer tutur:

أَيُّها العُمّالُ أَفنوا ال عُمرَ كَدّاً وَاِكتِسابا
وَاِعمُروا الأَرضَ فَلَولا سَعيُكُم أَمسَت يَبابا
أَينَ أَنتُم مِن جُدودٍ خَلَّدوا هَذا التُرابا
قَلَّدوهُ الأَثَرَ المُع جِزَ وَالفَنَّ العُجابا [1, 84]

(Ömrünü ağır işə, torpağı qurub-yaratmağa həsr edən, ey zəhmətkeş fəhlələr, səyiniz olmasaydı səhraya çevrilərdi bu yerlər.

Ey əcdadlar, haradasınız, ey bu torpağı əvəzsiz, heyrətamiz əli ilə bəzəyib əbədiyyət verənlər?)

Şair digər ərəb ölkələrində baş vermiş inqilablara dəstək olur. Ə.Şövqi yalnız Misirlə kifayətlənməyib bütün ərəb ölkələrinin problemlərini öz yaradıcılığında əks etdirir. Dəməşqə aid yazdığı qəsidəsində ərəb dövlətlərinin birliyinə işarə edir:

ونَحنُ في الشَّرقِ والفُصحَى بَنُو رَحِمٍ ونحنُ في الجُرْحِ والآلَامِ إخوَانُ

(Biz Şərqdə fasih dilli doğma övladlar, yarası bir olan dərd qardaşıyıq)

Şair Yer kürəsinin istənilən nöqtəsində baş verən hadisələrə öz təxəyyülü ilə cavab vermişdi. 1920-ci illərdə Tokioda güclü zəlzələ baş verir, şair bu fəlakət haqqında uzun qəsidə nəzmə çəkmişdir. Dünya dövlətlərini şairin öz təbiri ilə desək, *"şöhrətin zirvəsində olan bu Şərq dövlətinə"* (دَولَةُ الشَرقِ وَهيَ في ذِروَةِ العِزّ) yardıma səsləyir:

قِف بِطوكِيو وَطُف عَلى يوكاهامَه وَسَلِ القَريَتَينِ كَيفَ القِيامَه
قِف تَأَمَّل مَصارِعَ القَومِ وَاِنظُر هَل تَرى دِيارَ عادٍ دِعامَه [2, 85]

(Tokioda dayanıb, Yokohamaya nəzər salın! Qiyamətin harda olduğun bu iki şəhərdən xəbər alın!
Xalq mübarizəsini seyr etməyi buraxın, məhv olmuş bu diyara kömək edən varmı, baxın?!)

Əhməd Əbdül-Məcid yazır:*"Dünyada elə bir təbii, hərbi və ictimai fəlakət olmurdu ki, onu qələmə alaraq Qırmızı Xaç və Aypara cəmiyyətlərini, hökumətləri və xalqları bu hadisələrdən çətinliyə düşmüş həmin bədbəxtlərə yardım əlini uzatmağa çağırmasın. Bu sentimental iştirak dinlər, irqlər və dillər arasında heç bir fərq qoymadan bütün insanlığa qarşı sevgiylə dolu olan qəlbdən gəlirdi"* [1, 27].

Şövqi poeziyasının möhtəvası

Əhməd Şövqi saray şairi kimi, ənənəyə uyğun olaraq, ərəb nəzminin həcvdən başqa bütün növlərində özünü sınamışdır. Qitələr şəklində ərəb şeir forması olan zəcəllər yazmışdır.

Şairin poetik irsi "Şövqiyyat" adlı dördhissəli divanda toplanıb. Əhməd Şövqinin 1888-1898-ci illərdə yazdığı əsərlərinin daxil olduğu ilk "Şövqiyyat" divanı 1898-ci ildə nəşr olunmuşdur. Divanın müqəddiməsində Əhməd Şövqi öz əqidəsini və bioqrafiyasını ortaya qoymuşdur. 1930, 1936 və 1943-cü illərdə ardıcıl olaraq divanın II, III və IV

hissələri nəşr olunmuşdur. Şövqi yaradıcılığının möhtəvasını təşkil edən şeirlərlə tanış olaq.

Osmanlı hakimiyyətini qəbul edib, onu müdafiə edənlərdən biri də Şövqi olmuşdur. Xədiv Abbas ingilislərə qarşı mübarizədə bu böyük gücə arxalanırdı. Əmirinin izi ilə getməsi şairin şeirlərində türklərə geniş yer verməsinə səbəb olmuşdur. Bu şeirlər Misirlə bağlı nümunələrindən daha çoxdur. Ə.Şövqi türklərə və Osmanlı xilafətinə ümumilikdə on yeddi qəsidə həsr etmişdir. Şövqi, Sultan II Əbdülhəmidin taxta çıxmasını (31 avqust,1876) xilafət bayramı kimi təbrik etmiş və ona 76 beytlik bir qəsidə yazmışdır. Əlliikibeytlik başqa bir qəsidəsində şair sultana edilmiş sui-qəsddən bəhs edir, xilasına görə təbrik edir:

هنيئا أمير المؤمنين فإنما نجاتكا للدين الحنيف نجاة
هنيئا لطٰه و الكتاب و أمة بقاؤك إبقاء لها و حياة [3, 86]

(Ey möminlərin əmiri, təbriklər olsun, sənin xilasın həqiqi din üçün də bir qurtuluşdur.

Peyğəmbərə, Qurana və müsəlmanlara da təbriklər olsun. Sənin mövcudluğun onların da mövcudluğu, var olmasıdır)

Türkləri tərənnüm etməsinin digər səbəbi damarında türk qanı axan kökdən olması idi. Yunan müharibəsi zamanı yazdığı "Ədirnə", yaxud "Türklərə salam" qəsidələrində, türklərin yunanlar üzərində qələbəsini əks etdirən səksənbeytlik digər bir qəsidəsində Şövqi türklərə qarşı olan səmimi hisslərini ifadə etmişdir. Şövqinin türklərə rəğbətinin əsasında eyni zamanda İslama bağlılığı dayanırdı. Osmanlı sultanı o dövrdə müsəlmanların xəlifəsi idi. Onun mövcudluğu İslam dövlətlərinin birliyini təmin edirdi.

Ə.Şövqi Mustafa Kamal Atatürkə də böyük bir qəsidə həsr etmişdir. Şair 1921-ci ildə qələmə aldığı "Türklərin hərbdə və siyasətdə qələbəsi" adlı qəsidəsində Atatürkün hərbdəki bacarığını, qəhrəmanlığını belə təsvir etmişdir:

اللهُ أَكبَرُ كَم في الفَتحِ مِن عَجَبٍ يا خالِدَ التُركِ جَدِّد خالِدَ العَرَب
صُلحٌ عَزيزٌ عَلى حَربٍ مُظَفَّرَةٍ فَالسَيفُ في غِمدِهِ وَالحَقُّ في النُصُبِ [3, 54]

(Allahu-Əkbər, bu zəfərdə nə qədər möcüzə var. Ey türklərin xalidi, xatirələrdə ərəblərin Xalidini yenidən canlandır. Zəfərlə bitən bir döyüşdən sonra böyük bir barışıq, qılınc qınındadır, haqq isə sahiblərində)

Burada şair “Türklərin xalidi” ünvanı ilə Mustafa Kamal Paşaya müraciət etmiş, onu “ərəblərin Xalidi” - İslam müharibələrində ad qazanmış ərəb komandanı Xalid bin Valid ilə müqayisə etmişdir. Türklərin bu mübarizəsinin İslama bağlılığını belə ifadə etmişdir:

جمعن في اثنين : من دين و من وطن جمع الذبائح في اسم الله و القرب [3, 55]

(Din və vətən naminə birləşiblər ki, hər ikisi Allahın adına, ona itaətdə qurban olmaqdır)

Şairin divanında risə janrı xüsusi cüzü təşkil edir. Hafiz İbrahim bu sahədə onu qabaqayır. Bu janrda Şövqinin orijinal şeirləri olsa da, Hafiz İbrahimin xalqdan olması onun mərsiyələrini daha təsirli edirdi. Əhməd Şövqinin risə janrında ən gözəl əsəri atasına yazdığı mərsiyədir:

ما أبي إلا أخ فارقته ودّه الصدق و ودّ الناس مين [4, 764]

(Atam ayrı düşdüyüm bir qardaşımdır. Onun məhəbbəti həqiqi, xalqınkı isə uydurmadır)

1918-ci ildə sürgündə olanda anasının dünyadan köçdüyü xəbərini eşidən zaman bu xəbərə çox üzülmüş, bu mətləli mərsiyəni yazmışdır:

إلى الله أشكو من عوادى النوى سهما اصاب سويداء الفؤاد و ماأصمى
من الهاتكات القلب أوّل وهلة و ما داخلت لحما و لا لامست عظما
توارد و الناعى فأوجست رنّة كلاما على سمعى و في كبدى كلما
فما هتفا حتّى نزا الجنب و انزوى فيا ويح جنبي كم يسيل و كم يدمى [4, 755]

(Ayrılığa səbəb olan fəlakətlər məhəllindən gələn və qəlbimin mərkəzinə zərbəylə məni öldürməyən oxu Tanrıya şikayət edirəm.

Nə ətə batan, nə də sümüyə dəyən , yalnız ilk anda qəlbi paralayan faciələri şikayət edirəm.

Qara xəbəri verənlə oxun zərbəsi eyni zamanda oldu. Xəbər verənin səsini duyarkən ox qəlbimi yaraladı.

Fəryad belə etməmiş yana keçdi və yox oldu. Vay mənim halıma, necə yara salıb, gör nə qədər qan elədi)

Əhməd Şövqinin özündən bir neçə həftə əvvəl vəfat etmiş ən yaxın dostu Hafiz İbrahimə

قد كنت أوثر أن تقول رثائي يا منصف الموتى من الأحياء [4, 607]

(Mən üstün bilərdim, sən mənə mərsiyə deyəsən, ey ölümü yaşamaqdan daha üstün tutan)

girişi ilə yazdığı qəsidə və yaxın yoldaşı olmuş ədəbiyyat və incəsənət xadimi Həsən bəy Ənvərə yazdığı şeir şairin səmimi hisslərinin ifadə olunduğu ən duyğulu mərsiyələrindəndir:

تُسائِلني (كرْمَتِي) بالنهار وبالليل: أَين سَمِيرِي (حَسَنْ)؟
وأَين النديمُ الشهِيُّ الحديثِ؟ أَين الطَّروبُ اللطيفُ الأُذن؟ [4, 772]

(Gecə və gündüz evim (Kərmə) məndən soruşur: həmsöhbətin "Həsən" haradadır?
Haradadır şirinsöhbətli rəfiq, incə söhbətlərin qulaq sirdaşı?)

Şövqi mərsiyə mövzusunda çox şeir yazmışdır. Bu mərsiyələr şairin divanının üçüncü cildini təşkil edir. Əhməd Şövqi öz yaxınları və həmvətənləri ilə yanaşı Viktor Hüqo, Şekspir, Tolstoy kimi qərb ədiblərinə və C. Verdi kimi sənətkarlara din, milliyyət, məmləkət ayrılıqlarına baxmadan mərsiyələr yazmışdır.

Ə.Şövqi həcviyyə növünü çox az istifadə etmişdir. Şairin bu mövzuda kiçik parçalardan ibarət şeirləri, divanında المحجوبيات (əl-Mahcubiyyat) adı altında bəzi yoldaşlarına yazdığı həcviyyələr və Lord Kromer, Riyad Paşa kimi yurdunu təhqir edən dövlət adamlarına yazdığı şeirləri vardır.

Əhməd Şövqinin ümumən şeir yaradıcılığında iki xarakter təzahür edir. Bu fərqli xarakterlər bir çox tədqiqatçının diqqətini cəlb etmiş və bu cəhətdən şairin eyni zamanda Cahiliyyə dövrü şairlərinə yaxınlığı araşdırma mövzusu olmuşdur. İki fərqli xarakterdən biri hikməti elm və imanın işığında görən şairdir. Bunu həm İslama dair əsərlərində, həm işlədiyi əxlaqi mövzularda görürük. İkinci şəxs dünyadan zövq alan insan xarakteridir. Şair fikirləşir ki, Allah dünyada zövq almağı yaradıbsa, insanlar bundan istifadə etməlidir. Bu fikirlə şair hər kəsi bu paydan nəsibini götürməyə səsləyir. Bu cəhətdən Əhməd Şövqinin Cahiliyyə dövrü şairi İmrul-Qeyslə oxşarlığı diqqəti çəkir.

Nəticə

Əhməd Şövqi öz şeir yaradıcılığında ənənəvi ərəb şerindən, xüsusən əl-Barudinin poetik üslubundan, ənənəvi ərəb vəzn və qafiyə sistemindən istifadə edərək, özünəməxsus üslubu və axıcı dili ilə xalqının və ərəb millətinin hisslərini tərənnüm etmişdir. Xüsusən yaradıcılığının son mərhələsində şairin müraciət etdiyi mövzular onu istər öz dövrünün, istər əvvəlki dövr şairlərdən fərqləndirmiş, daha doğma etmiş və "Şairlər əmiri" adını qazandırmışdır.

ƏDƏBİYYAT

1. أحمد عبد المجيد. أحمد شوقي: الشاعر الإنسان. دار المعارف – القاهرة، 199 ص.
2. أحمد شوقي. شوقيات. الجزء الثانى. مكتبة مصر. 193 ص
3. أحمد شوقي. شوقيات. الجزء الاول في السياسة و التاريخ والاجتماع. مكتبة مصر. 288 ص
4. أحمد شوقي. شوقيات. هنداوى – القاهرة، 2012، 921 ص.
5. شوقي ضيف. الادب العربي المعاصر في مصر. مصر: دار المعارف، 1961- 307 ص
6. محمد الهادى طرابلسي: خصائص الأسلوب في الشوقيات. منتشرات الجامعة التونسية – 1981، 572 ص
7. أعلام الشعر العربي الحديث: أحمد شوقي- أحمد زكى أبو شادى- بشارة الخوري. بيروت، 1970، 332 ص
8. شوقي ضيف. شوقي: شاعر العصر الحديث. القاهرة، 2010، 292 ص

Шахана Шахбазова

ПОЭТИЧЕСКОЕ ТВОРЧЕСТВО ЕГИПЕТСКОГО ПОЭТА АХМЕДА ШОВГИ

РЕЗЮМЕ

Великий египетский поэт Ахмед Шовги был в то же время поэтом всего арабского народа и мусульманской общины. А. Шовги писал и творил в области поэзии, прозы и драмы и с большим мастерством выразил свои нравственные и патриотические идеи. В статье исследуется поэтическое творчество поэта.

А.Шовги считается одним из пионеров новой арабской поэзии. В современной арабской поэзии он отличается высоким мастерством и богатыми художественно-эстетическими стихотворениями. Его стихи охватывают различные темы, начиная от мадхии до детских стихов. Ахмад Шовги писал во всех формах поэзии, которые существовали в арабской литературе с древних времен. Используя выражения, описания и сравнения классической поэзии, он писал стихи на различные темы во всех типах касыды, таких как религия, политика, общество, театр. В то же время Ахмад Шовги пробовал свои силы в новых темах в своих стихах, используя формы описания, которые раньше никто не использовал. Влияние европейской среды позволило ему создать новое направление в арабской поэзии. Это влияние сопровождало его на протяжении всей его жизни: как в тематичных пьесах и операх, так и в аллегорических рассказах, написанных на языке животных, таких как Ла Фонтен.

Гармония, форма и богатое содержание его стихов сделали его одним из величайших поэтов XX века. Одним из новшеств, которые внес в стихотворение А.Шовги, было то, что он как реформист выразил в своих стихах экономические, политические, социальные, философские, исторические, религиозные, нравственные и другие проблемы и показал своеобразное решение этих проблем. В этой статье поэтапно изучено творчество поэта, в краткой форме изучены стихи, составляющие содержание его поэзии.

Ключевые слова: *Ахмед Шовги, арабская литература, Египет, современная арабская поэзия.*

Shahana Shahbazova

POETIC CREATIVITY OF EGYPTIAN POET AHMAD SHOVGI

ABSTRACT

The great Egyptian poet Ahmad Shovgi was at the same time the poet of the entire Arab people and the Muslim community. A. Shovgi wrote and created in the field of poetry, prose and drama, and with

great mastery expressed his moral and patriotic ideas. The article explores the poetic creativity of the poet.

A. Shovgi is considered one of the pioneers of new Arabic poetry. In modern Arabic poetry he is distinguished by high mastery and rich artistic and aesthetic poems. His poems cover various topics, starting with hymns to children's verses. Ahmad Shovgi wrote in all forms of poetry that existed in Arabic literature since ancient times. Using expressions, descriptions and comparisons of classical poetry, he wrote poems on various topics in all genres, such as religion, politics, society, theater. At the same time, Ahmad Shovgi tried his hand at new topics in his verses, using forms of description that no one had used before. The influence of the European environment allowed him to create a new direction in Arabic poetry. This influence accompanied him throughout his life: as in thematic plays and operas, as well as in allegorical tales, written in the language of animals, such as La Fontaine.

Harmony, form and rich content of his verses made him one of the greatest poets of the 20th century. One of the innovations made by A. Shovgi in his poems was that he, as a reformist, expressed in his verses economic, political, social, philosophical, historical, religious, moral and other similar problems. This article is a poetic study of the poet's work, in short, a study of the verses that make up the content of his poetry.

Keywords: *Ahmad Shovgi, arabic literature, Egypt, modern arabic poetry*

"MƏSABİH-ƏS-SÜNNƏ" ƏSƏRİNİN ƏLYAZMASI NÜSXƏLƏRİNİN MÜASİR AZƏRBAYCAN ƏRƏBŞÜNASLIĞINDA YERİ

Gülağa İsmayılov,
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun doktorantı
ismayilov.gulaga@mail.ru

XÜLASƏ

Məlumdur ki, əlyazma əsərlərin tədqiqi keçmişdən-günümüzə qədər hər zaman diqqət mərkəzində olmuşdur. Qədim əlyazma nüsxələri mənbəşünaslıq baxımından araşdırmaların ayrılmaz hissəsidir. Buna görə də İslam alimləri yaşadıqları dövrdə həməsrlərinə mövzuların təqdim edilməsi zamanı uğurlu nəticə əldə etmək üçün dini mövzularlarla yanaşı əlyazma nüsxələrini də diqqətlə araşdırmış və təhlil etmişlər. Digər tərəfdən, hər dövrdə ərəbdilli əlyazmaların araşdırılması, onların dini və onun problemlərinə münasibətləri əks etdirir. Din, xüsusən də İslam dininin tədqiqi bütün hallarda ərəbdilli qədim əlyazmalar üzərində formalaşmışdır. Müasir dövrdə də dinin araşdırılması və öyrənilməsi metodları ərəbşünaslar üçün genişdir. Biz bu məsələyə əlyazma əsərlərinin tədqiqatı yolu ilə toxunmaq istərdik. Şübhəsiz ki, qədim əlyazmalar orijinal miras hesab olunaraq bütün mövzuların mənbəyi sayılır.

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda mövcud olan İmam Bəğavinin "Məsabih-əs-sünnə" əsəri də tədqiqata cəlb etmək baxımından xüsusui əhəmiyyət kəsb edir. İmam Bəğavinin əhəmiyyətli əsərlərindən biri, şübhəsiz ki, etibarlı hədis qaynaqlarından sənədləri çıxararaq seçdiyi hədislərdən ibarət "Məsabih əs-sünnə"dir. Tanınmış Avropa şərqşünası Brokelmanın bu əsərinin elm dünyasında çox böyük əhəmiyyətinə toxunaraq, Bəğavinin islam dünyasındakı şöhrətinin "Məsabih əs-sünnə" adlı əsərinə borclu olduğunu demişdir (Sancaklı, 1996, 48).

Bəğavinin müxtəlif qaynaqlardan toplamış olduğu hədisləri bir araya gətirməklə yazdığı bu əsərin bənzərlərini hədis tarixində İbnul-Əsir əl-Cəzərinin (h/606, m/1209) "Camiul-üsul", Nəvəvinin (h/676, m/1277) "Riyazüs-salihin" adli əsərlərində də görürük. Katib Çələbi (h/1067, m/1677) "Yığma mahiyyətində yazılan əsərlərin ən gözəli

Bəğavinin "Məsabih" adlı əsəridir", – demiş və "Çünki onun tərtibi çox gözəldir. Hədislər yerli-yerində yığılmışdır. Bir başqası hər hansı bir babın yerini dəyişdirməyə çalışsa, Bəğavidən daha uyğun bir yerə qoymazdı", – söyləyərək əsəri tərifləyir (Katip Çelebi, 1971, 1701-1702).

Qeyd ediyimiz kimi, Bəğavinin "Məsabih əs-sünnə" adlı əsəri İslam aləmində böyük şöhrət qazanmışdır. Bu əsər həm ixtisar və təxric edilmiş, həm də haqqında şərh və haşiyə olmaqla 30-dan çox iş görülmüşdür (Çelebi, Hacı Xəlifə, m.1941, 1698-1702). Təsnif (siniflendirmə, mövzuları və anlamları nizamlı olaraq təsnifetmə və sıraya düzmə) dövründən yığma dövrünə keçidin ilk nümunələrindən biri olması "Məsabih əs-sünnə"nin əhəmiyyətini artırmışdır. Əsərin ən diqqətəçarpan xüsusiyyəti isnaddaki ilk ravinin adının tamamilə silinməsi və hədislərin sihah və hisan olaraq iki ana başlıq altında bölünməsidir *(https://islamansiklopedisi.org.tr/serhus-sunne).*

Təsadüfi deyil ki, dünya miqyasında əlyazma əsərləri hər zaman xüsusi diqqət mərkəzində olmuş, bu istiqamətdə xüsusi tədqiqatçılar cəlb edilmiş və onlar əlyazma əsərlərini təhqiq edərək işıq üzünə çıxarmışlar.

Tədqiqatın əhəmiyyətini bir daha gücləndirən amillərdən biri də dünya kitabxanalarında İslam əlyazmalarının böyük önəm kəsb etməsidir. Şübhə yoxdur ki, əlyazmaların araşdırılması, bu irsin dirçəldilməsində və yayılmasında zəruridir.

Bir çox məsələlər və biliklər var ki, onları ana qaynaqlara və irs kitablarının orijinal mənbələrinə qayıtmaqla düzgün başa düşmək mümkündür. Buna yalnız orijinal mənbələri və ana qaynaqları tədqiq edərək, işıq üzünə çıxarmaqla nail olmaq mümkündür.

Açar sözlər: *hədis, Bəğavi, Azərbaycan, "Məsabih əs-sünnə", İslam, məzhəb, kitab, Quran, sünnə, ərəbşünaslıq.*

Giriş

Dünya miqyasında əlyazma əsərləri hər zaman diqqət mərkəzində olmuş, bu istiqamətdə ərəbdilli əlyazmalar da xüsusi əhəmiyyət kəsb etmişdir. Bu əlyazmalar içərisində İmam Bəğavinin "Məsabih əs-sünnə" əlyazma əsəri müasir ərəbşünaslığımıza böyük töhfələr verir.

Belə ki, İmam Bəğavi siyasi, dini və elmi baxımdan önəmli bir məqama sahib olan Xorasan bölgəsində yaşamış bir alim olmuşdur. Zi-

rikli Bəğavinin doğum tarixini h/436, m/1044-cü il olaraq verməkdə əl-Həməvi ilə ziddiyyət yaratmışdır. Həməvinin verdiyi məlumat daha qədim məlumat olduğu üçün onun göstərdiyi doğum tarixini tərcih etmək həqiqətə daha uyğun olar.

Vəfat tarixinə gəlincə, Bəğavinin ölüm günü haqqında ziddiyyət olsa da, Kəttani və Kəhha kimi görkəmli alimlər onun h/516-cı (m/1122) ilin şəvval ayında Xorasanın Mərvərruz şəhərində dünyasını dəyişdiyi barədə həmfikirdirlər. Doğulduğu yerə nisbət verildiyi üçün ona "Bəğavi" deyilmiş və bu adla məşhur olmuşdur.

Qeyd olunmalıdır ki, dünya kitabxanalarında saxlanılan dəyərli əlyazma əsərlərindən biri də İmam Bəğavinin Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mövcud olan "Məsabih əs-sünnə" əsərinin qədim əlyazmasıdır. Ən nüfuzlu kitabxanalarda yer alan bu əsərin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda bir neçə fərqli nüsxəsi mövcuddur. Onların hər biri xəttatlıq, forma, şərh və izah, quruluş, əlyazma xəttinin müəllifləri və yazılma tarixi baxımından bir-birindən fərqlənir. Bir çox məsələlər və biliklər var ki, onları ana qaynaqlara və irs kitablarının orijinal mənbələrinə qaytarmaqla düzgün başa düşmək mümkündür. Buna yalnız orijinal mənbələri və ana qaynaqları tədqiq edərək işıq üzünə çıxarmaqla nail olmaq mümkündür. Bu cür orijinal mənbələri tədqiqata cəlb etmək üçün ərəbşünaslıq mühum rol oynayır. Bu nüsxələr klassik ərəb ədəbiyyatı əsasında yazılmışdır.

Bu əlyazmaların bəzisi 1269-cu ildə Əbdürrəhim ibn Mövla Yasinin, bəzisi 1333-cü ildə Hacı Mustafa Əfəndinin, bəzisi 1612-cı ildə Əbul-Xeyr bin Mənsurun dəst-xətti ilə qələmə alınmışdır.

1222-ci ildə yaşamış Məhəmməd Hüseyn bin Məsud əl-Bəğavinin "Məsabih əs-sünnə" adlı əsərinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda 7 ayrı-ayrı nüsxəsi vardır. Onlar ayrı-ayrı nüsxələr olmaqla yanaşı, eyni zamanda, hər biri ayrı-ayrılıqda əsərin tam versiyasını təşkil etməkdədir. Yəni "Məsabih əs-sünnə"nin əhatə etdiyi bütün mövzuları olduğu kimi özündə ehtiva edir. Hər bir əlyazma ayrı-ayrılıqda tədqiq edilərək əsər üzərində araşdırma aparılmışdır. Həmin əlyazma nüsxələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

C-102\9056 kodu altında mövcud olan N:137 nömrəli nüsxə

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda **C-102\9056** kodu altında mövcud olan N:137 nömrəli əsərin ilk səhifəsi dua ilə başlayır. "Ya Rəbbim, öz lütf və kərəminlə asanlaşdır, çətin-

ləşdirmə". Duadan sonra isə Rəsulullahın Quran oxuyub onun müqabilində qarşılıq almaqla əlaqədar hədis qeyd edilib. Abdullah bin Məsud və Ənəs bin Malik rəvayət edirlər: "Rəsulullah (s) və onun səhabələrinin zamanında Quran oxumağın haqqı dörd dinar yarım idi. Hər bir dinar isə 10 dirhəm idi. Bizim zamanımızda isə 45 dirhəm oldu. Kim bundan az qarşılıq müqabilində oxuyarsa, onun savabı nə oxucuya, nə də ki, oxunulan şəxsə çatar. Necə ki, Allah-Taala Qurani-Kərimdə buyurur: "Mənim ayətlərimi ucuz qiymətə satmayın". Öncəki və sonrakı nəsil alimlər bu məsələdə həmfikir olmuşlar (Məhəmməd Hüseyn, h.990, 1). İkinci səhifədən yeddinci səhifəyə qədər əsərin əhatə etdiyi "kitab" və "bab"lar qeyd olunub. Əsərin ilk mövzusu "Kitabul-İman"la başlamış, son mövzusu isə "Babu savabi hazihil-ummət"lə bitmişdir.

Yeddinci səhifənin sonunda isə əlyazması əsərin əhatə etdiyi hədislərin sayını göstərir. "Məsabih əs-sünnə" əsərində dörd min dörd yüz səksən dörd (4 484) hədis vardır, onlardan 2434 hədis Buxari və Müslimdən "Sihah" başlığı altında, 2500 hədis isə diğər müəlliflərin əsərlərindən götürülmüş "Hisan" başlığı altında verilmişdir (Məhəmməd Hüseyn, h.990, 7).

Əlyazmanın 8-ci səhifəsindən isə "Bismillah" – Allaha həmd-səna edərək müəllifin (İmam Bəğavinin) sözlərinə giriş edilir. İmam Bəğavi həmd və sənadan sonra Rəsulullahın hədislərini vəsf etmiş, cəm etdiyi hədisləri hansı mühəddislərin əsərindən topladığını və neçə qismə böldüyünü açıqlamış, hədisləri qeyd edərək sənədlərini tərk etməsinin səbəblərini izah etmişdir **(**Məhəmməd Hüseyn, h.990, 8).

Üzərində tədqiqat apardığımız əlyazmasının səhifələri kənarında haşiyələr mövcuddur. Həmin haşiyələrin rolu hədislərdə keçən bəzi sözlərin izah və şərhindən ibarətdir.

Onuncu səhifədən isə artıq əsərin ilk mövzusu hesab edilən "Kitabul-İman" (minəs-sihah) başlayır. Əlyazmanın 977-ci səhifəsində sonuncu bab – "Babu savabi hazihil-ummət" ilə yekunlaşmışdır. Sonuncu bab bitdikdən dərhal sonra, xüsusi dairə içərisində əlyazmasının yazılma tarixi və katibi haqqında qısa məlumat verilmişdir. "20-Şəvval, 1177-ci hicri ilində Əbdürrəhim bin Məhəmmədəmin əz-Zaxudi tərəfindən yazılıb tamamlanmışdır" (Məhəmməd Hüseyn, h.990, 977).

Əsərin son iki vərəqi yeməkdən sonra oxunan dua, Rəsulullahın (s) öz qızı Fatiməyə (ə) öyrətdiyi xüsusi zikrlər və vitr namazının qunutunda oxunan dua ilə tamamlanmışdır.

Əsərin cildi karton üzərinə çəkilmiş dəridəndir. Cildin ətəkləri açılmasına baxmayaraq möhkəm və qalındır. Dərinin ortasında böyük bir medalyon, onun üst və alt nahiyələrində isə iki kiçik medalyon basılmışdır. Cildin kənarlarında dairəvi naxışlı haşiyə vardır. Nümunənin titul vərəqi dua və Rəsulullahdan rəvayət edilən hədislə başlamış, hədisin altında isə üçbucaq möhür vurulmuşdur. Möhürün sağ küncündə 16 170, aşağı hissəsində c-102 qeyd edilib. Sonra isə "Şabanla Yeganə arasında əqdi oxudum, əqdi oxuyan Əbdürrəhim bin Molla Yasin mahal qazisi, 9 ramazan, 1269-cu il qeyd edilib. Növbəti səhifədən 6 səhifə olmaqla əsərin ehtiva etdiyi kitab, bab və mövzuların adları qeyd olunub. Mövzular bitdikdə qırmızı xətlə çərçivəyə alınmış mətnlərdən sonra əlyazması əsərinin özündə neçə hədisi cəm etdiyi yazılıb. Əsər nəsx, qara, qalın xətlə yazılıb. Kağızın rəngi sarımtıl, uzunluğu 29 sm, eni isə 17 sm.-dir. Sətirlərin sayı 15-dir. Sətirlər qırmızı xətlə çərçivəyə alınmış haşiyə içərisində yerləşir. Mətnin hündürlük ölçüsü 20 sm, eni isə 10 sm.-dir. Əlyazmanın bütün səhifələrində mətnlər iki qırmızı xətlə çərçivəyə alınmışdır. Mətni əhatə edən çərçivənin hündürlüyü 20 sm, eni isə 10 sm.-dir. Səkkizinci səhifədə müxtəlif rənglərdən ibarət bəzəkli bir çərçivədə əsərin adı yazılmış, altından isə "Bəsmələ" ilə əsərə giriş edilmişdir. 10-cu səhifədən isə artıq əsərin ilk mövzusu – "Kitabul-İman" başlayır. Əsər Şərq pağenasiyası üsulunda səhifələnmişdir. Əlyazmanın ümumi qalınlığı 7 sm.-dir.

C-608\9561-23460 kodu altında mövcud olan nüsxə

C-608\9561-23460 kodu altında Əlyazmalar İnstitutunda saxlanılan Məhəmməd Hüseyn bin Məsud əl-Bəğavinin "Məsabih əs-sünnə" əsərinin bu nüsxəsinin ilk səhifəsi mündəricatla başlayır. Mündəricatda iki bab – "Babu zikril-Yəmən vəş-Şam", "Babu savabi Hazihil-Ummət" qeyd edilməyib. Buna baxmayaraq, əsərdə həmin bu iki bab tam olaraq öz əksini tapıb (haqqında danışdığımız bu əlyazmasında səhifələrin kənarında haşiyələr verilməmişdir. Çox nadir hallarda buna rast gəlsək də, şərhin kim tərəfindən verildiyinə dair məlumat olmadığı üçün şərhin kimə aid olduğu məlum deyildir).

Qeyd edək ki, əlyazmanın mündəricatında verilən bütün bab və kitablar mündəricatda olduğu kimi tərtiblə əsər daxilində sıralanmışdır. Sonda bəzi səhifələrin yerlərinin qarışması nəticəsində bir sıra bablarda da yerdəyişməsinə səbəb olmuşdur. 218, 219-cu vərəqlər ümumiyyətlə yoxdur.

214-cü vərəqdən "Babu Camiul-Mənaqib" başlayır, 215, 216, 217-ci vərəqləri əhatə edir. Araşdırma nəticəsində bu qənaətə gəldik ki, əlyazmadan itən 218, 219-cu vərəqlər hələ həmin bu babın hədislərini əhatə edən vərələrdən ibarətdir (Məhəmməd Hüseyn, İNV-1971, 214-217).

Əsərin sonuna yaxın bəzi səhifələrin yerlərinin qarışması aşağıdakı kimidir:

206-cı vərəqdən sonra 216 gəlir, yenidən 207 verilmədən 208, 209, 210, 211, 212, 213, 214, 215 yer alır sonra isə 207 verilib. 207-dən sonra 217 gəlir. Yuxarıda qeyd etdiyimiz kimi, 218, 219-cu vərəqlər yoxdur, bu səbəbdən, 217-ci vərəqdən sonra 220-ci, yəni sonuncu vərəq gəlir. Əsər ümumilikdə 220 vərəqdən ibarətdir (Məhəmməd Hüseyn, tarixsiz, 206-220).

Qeyd edilməlidir ki, son iki babda vərəqlər çox köhnə və cırılmış halda olduğundan, bir neçə hədis oxunmaz hala düşmüşdür, lakin buna baxmayaraq, bu əlyazması əsərini "Məsabih-əs-sünnənin" bütün babları əhatə etmiş tam orijinal nüsxəsi hesab etmək olar. Əlyazmanın üz qabığı yoxdur, ilk səhifəsinin yuxarısında "Fehrest əl-kitab" yazılıb. Həmin səhifə, eləcə də növbəti səhifə əsərin əhatə etdiyi mövzuların adlarını özündə cəm edir. Vərəqlərin hündürlüyü 29.50 sm, eni 18 sm təşkil edir. Mətnin hündürlüyü 23, eni isə 13 sm.-dir. Sətirlərin sayına gəlincə isə 25-dir. Əlyazmanın ümumi qalınlığı 5 sm.-dir. Mündəricatdan sonra titul vərəqi yer alır. Orada əsərin adı "Kitabul-Məsabih" yazılıb. Dördüncü səhifə isə "Bəsmələ" ilə başlayır və mövzuya giriş edilir, həmin səhifənin sonunda ilk mövzu – "Kitabul-iman" başlayır. Əsərin kolofonu yoxdur.

C-538\9491 nömrəsi altında saxlanılan nüsxə

"Məsabih əs-sünnə"nin M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan diğər nüsxəsi isə 408 vərəqdən ibarət C-538\9491 nömrəsi altında tam nüsxədir. Əlyazmanın vərəqləri iki növ nazik qəhvəyi, qalın ağ kağızdan ibarətdir. Nazik qəhvəyi kağızdan olan vərəqlər çox incə və köhnədir. Sətirarası, həm də səhifə kənarlarında hədislərə haşiyələr verilmişdir. Qalın ağ kağızdan olan vərəqlərə gəlincə, onlar həm təzə, həm haşiyəsizdir. Vərəqlərin müxtəlifliyini bu şəkildə görmək olar: ilk 28 vərəq qəhvəyirəngli köhnə, nazik kağızlardan, sonrakı 9 vərəq ağrəngli qalın kağızdan, yenidən 4 vərəq nazik qəhvəyi kağızdan, yenidən növbəti 6 vərəq qalın ağ kağızdan, digər növbəti 11 vərəq nazik qəhvəyi rəngli kağızdan, yenidən növbəti 26 vərəq qalın ağ

kağızdan ibarətdir. Beləliklə, əlyazmanın yazıldığı kağızların müxtəlifliyi sona qədər bu üslubda davam edir. Demək olar ki, kitabın yarısından sonra qalın ağ kağızdan ibarət vərəqlərin sayı üstünlük təşkil edir. Qeyd edək ki, ağ kağızlarda yazılan hədislər irihəcmli hərflərlə qələmə alınmış, eləcə də sətirlər arasındakı məsafələr genişdir. Hərflər qara, qalın, yağlı xətlə yazılmışdır. Qəhvəyirəngli nazik kağızlar üzərində yazılan yazılara gəldikdə isə, qara rəngdə xırda hərflərlə yazılmışdır. Sətirarası və səhifələr kənarında sıx-sıx haşiyələr verilmişdir. Haşiyələr çox kiçikhəcmli hərflərlə verildiyi üçün bir çox yerdə oxunması çətin, bəzən isə mümkünsüzdür.

Əlyazmanın mündəricatı yoxdur. İlk səhifəsi "Bismillahir-Rəhmanir-Rəhim", Allaha həmd-səna, Peyğəmbərə (s) salavat və salamdan sonra, əsərin müəllifi İmam Bəğavinin sözlərinə keçid edilir: "Şeyx, İmam, Şeyxul-İslam, Nasirul-hədis, imamların öndəri, Sünnəni yaşadan, Əbu Məhəmməd əl-Hüseyn bin Məsud əl-Fərra, əl-Mərvəruzzi, əl-Bəğavi (Allah aqibətini xeyirli etsin) belə demişdir: Bunlar (hədislər) Peyğəmbərin (s) sinəsindən çıxmış ləfzlərdir (Məhəmməd Hüseyn, m.1333, 1). Sonra hədisləri topladığı əsərlər haqqında məlumat vermiş, hədislərin bölgüsünü açıqlamış, isnadlarının verilməməsinin səbəblərini izah etmişdir. Əlyazmanın ikinci səhifəsindən isə əsərin ilk kitabı – "Kitabul-İman" başlamışdır. Əlyazmanın sonunda Ənəs ibn Malikdən rəvayət edilən hədisi qeyd etdikdən sonra katib özü və kitab üzərində gördüyü işlərdən söz açır: Ənəs ibn Malikdən rəvayət edilir ki, Rəsulullah (s) buyurmuşdur: "Mənim ümmətimin məsəli yağışın məsəlinə bənzəyir, bilinmir əvvəli daha xeyirlidir, yoxsa sonu".

Hədisdən dərhal sonra katib yazır: "Sihah və hisan hədislərdən ibarət "Məsabih əs-sünnə" adlı kitabın düşmüş vərəqlərinin bərpası Allahın kömək və yardımı ilə onun ən zəif, ən ehtiyaclı, ən günahkar, onun rəhmətinə daha çox ehtiyacı olan qulu Taha billah, mərhum Şeyx Yasin əfəndibillah, Şamdan gəlmiş İsa Baba adlanan Peyğəmbərin qızı Rüqəyyə ilə Osmanın məşhur övladlarından olan mərhum Hacı Şeyx Yusif Əfəndi Xaniqahinin vasitəsilə dövrünün ən böyük fəzilətli alimlərdən sayılan Hacı Mustafa əfəndinin əsərinin üzərində Mübarək Rəcəb ayı, cümə günü, günorta çağı, miladın 1333-cü ilində tamamlanmışdır (Məhəmməd Hüseyn, m.1333, 408).

Əsərin üz qabığı qalın kartondandır, üzərinə isə dəri üzlük çəkilib. Üz qabığında "Haza kitabu Məsabuh əş-Şərif fi bəyani hədisin-Nəbəvi" yazılıb. Sol küncündə 1 698, alt tərəfində isə 1 333 və balaca mö-

hür vurulmuşdur. Möhürün içində ИНВ 1971 qeydi vardır. Əsərin titul vərəqi yoxdur. İlk səhifə üz qabığına parça ilə yapışdırılıb. İlk vərəqin birinci səhifəsi boşdur, yalnız üçkünc möhür və əsərin kodu mövcuddur. Növbəti səhifə isə "Bismillah" ilə başlayaraq mövzuya giriş edilmişdir. İkinci vərəqdən isə ilk kitab "Kitabul-İman" başlayır. Vərəqlərin hündürlük ölçüsü 30 sm, eni isə 19 sm.-dir. Mətn hündürlüyünə gəlincə, 19 sm, eni isə 12 sm təşkil edir. Sətirlərin sayı 15-dir. Əlyazmanın ehtiva etdiyi kitab, bab və fəsillərin adları isə bəzən qara rəngdə, qalın və böyük ölçüdə, bəzən də qırmızı xətlə verilmişdir. Əsərin səhifələri Şərq pagenasiyası üslubundadır. Əlyazmanın ümumi qalınlığı 6 sm.-dir. Onun kolifonu isə axırda sonuncu hədisdən dərhal sonra verilmişdir.

C-373\9326-16854 kodu altında saxlanılan əlyazma nüsxəsi

Kitabxanamızda mövcud olana digər nüsxə isə C-373\9326-16854 kodu altında saxlanılan əlyazma nüsxəsidir. Kitabın ilk vərəqi ehtiva etdiyi kitab və babların adları ilə başlamışdır. Dördüncü səhifədə ən çox hədis rəvayət edən səhabələrin adları və rəvayət etdikləri hədislərin sayları tərtiblə qeyd edilib. Mindən yuxarı hədis rəvayət edən səhabələr: Əbu Hüreyrə (4372), Abdullah bin Ömər, Ənəs bin Malik (2286), Xanım Ayşə (2215), İbni Abbas (1685), Cabir bin Abdullah (1455), Əbu Səid Xıdridir (1170). Bunun ardınca 1000-dən yuxarı hədis rəvayət edənləri nəzmə çəkərək qeyd etmişdir: "Yeddi nəfər səhabə var ki, Rəsulullahdan 1000-dən yuxarı hədis nəql etmişdir: Əbu Hüreyrə, Səd, Cabir, Ənəs, Aişə, İbni Abbas və İbni Ömər" (Məhəmməd Hüseyn, h.990, 4).

Əlyazmanın 3-cü vərəqi, yəni 5-ci səhifəsində əsərin adı böyük, qara, qalın, yağlı xətlə yazılıb. Nəzəri cəlb edən odur ki, mövcud əlyazmalarda əsərin adı "Məsabih-əs-Sünnə" olaraq qeyd edilmişdir, burada isə əsərin adı "Məsabih-əl-Muziyyə" "Əl-Mustəxrəc" olaraq yazılıb. Ardınca "Bu böyük şeyx, Muhyis-sünnə, Nasirul-Hədis, Şeyxul-İslam, Əbu Məhəmməd əl-Hüseyn ibn Məsud əl-Bəğavinin topladığı bir əsərdir (Allah ruhunu şad etsin, qəbrini nurlandırsın, bundan ona fayda versin)". Sonra əsərdə keçən hədislər üzərində qoyulmuş əlamətlər haqqında bilgi verilərək deyilir: "Bunları görkəmli şeyx, mühəddis Əbu Ömər Əhməd ibn Harun ibn Əhməd ibn Ati Şatibi (rəhmətullah) qoymuşdur". "Sihah" başlığı altında olan hədislərin üzərində "ta" hərfi olduqda, Malik bin Ənəsin "Müvətta"sından, "xa" hərfi olduqda Buxaridən, "mim" hərfi olduqda isə Müslimdən olduğunun göstəricisidir. "Hi-

san" başlığı altında olan hədislərdə isə üzərində "ta" hərfi olarsa, "Müvətta"dan, "dəl" hərfi olarsa, "Sünəni-Əbu Davud"dan, "tə" hərfi olarsa, "Tirmizi"dən, "nun" olarsa, "Sünəni-Nəsai"dən olmalarının göstəricisidir (Məhəmməd Hüseyn, h .990, 5).

Bu əsər əl-Fəqir Əbul-Xeyr ibn Mansurun dəst-xəttindən köçürülmüşdür.

Əlyazmanın 6-cı səhifəsi "Bəsmələ" və "həmd-səna"dan sonra müəllifin sözləri ilə başlayır. Bu ləfzlər Peyğəmbərin sinəsindən çıxmışdır (Məhəmməd Hüseyn, h.990, 23). Hədislərin növləri və üslubu haqqında məlumat verdikdən sonra elə həmin səhifədə də əsərin ilk mövzusu "Kitabul-İman" başlayır. Əlyazması 228 vərəqdən ibarətdir. Vərəqləri sarımtıl rəngdə orta qalın kağızdandır. Mətnin özü ortahəcmli rahat oxuna bilən nəsx xətti ilə yazılıb. Sətirarası məsafənin az olmasına baxmayaraq, hərflər bir-birinə qarışmayıb, eyni zamanda, sətirlərarası haşiyələrdə verilməyib (Məhəmməd Hüseyn, h.990, 22). Haşiyələr yalnız səhifələrin kənarlarında çox xırda hərflərlə yazılımış, bəzi yerlərdə hərflərin sıxlığı və həcminin kiçikliyindən, bəzən vərəqlərinin çox köhnə olması səbəbindən oxunmaz haldadır. Kitabın üz qabığı qalın cilddən, kağızları Şərq kağızındandır, xəttin növü isə nəsxdir (Məhəmməd Hüseyn, tarixsiz, 115). Bu kitabın yazılması h. 990-cı ildə "Cəmadiul-ula" ayı, mübarək cümə günü Əfəndi Nəmir ibn Salehin dəst-xətti ilə tamamlanmışdır. Sonuncu səhifənin axırında iri və qalın hərflərlə "Allahın salavat və salamı Məhəmmədə (s), onun ailəsinə və səhabələrinə olsun" yazılmışdır (Məhəmməd Hüseyn, Tarixsiz, 248).

Əsərin üz qabığı qalın karton üzərinə çəkilmiş dəri cilddən ibarətdir. Dərinin ortasına medalyon basılmışdır. Cildin iki kvadratxətli haşiyəsi vardır. Əsərin titul vərəqi yoxdur. İlk səhifəsi "Bəsmələ" ilə başlayır və mövzuların adlarını ehtiva edir. Əsərin vərəqinin hündürlüyü 29 sm, eni isə 20 sm.-dir. Mətnin hündürlük ölçüsü 23 sm, eni isə 14 sm.-dir. Mətn qırmızı xətlə çərçivəyə alınmışdır. Əsər Şərq üsulu ilə səhifələnmişdir. Əsərin sonunda isə iki kolofon verilmişdir. Ümumi həcmi 4,5 sm, sətirlər isə 27 sm.-dir (Məhəmməd Hüseyn, Tarixsiz, 40).

Nəticə

İmam Bəğavinin "Məsabih-əs-sünnə" əsəri müasir ərəbşünaslığımızda elmi yenilik və araşdırmalarda istifadə oluna bilən zəngin və hərtərəfli mənbədir. Əsərdə müəllif mötəbər hədis kitablarından topladığı hədisləri xüsusi bəndlər altında verərək sistemləşdirmişdir. Bu-

xari və Müslimdən gətirdiyi hədisləri "Sihah", digər sünnə müəlliflərindən götürdüyü hədisləri isə "Hisan" başlığı altında vermişdir.

Nəticə olaraq qeyd etmək mümkündür ki, bu əsər Azərbaycan ərəbşünaslığının inkişafına, bu sahəyə dair ayrı-ayrı mövzular üzrə elmi axtarışların aparılmasına müəyyən köməklik göstərə bilər. Belə ki, aparılan təhlilin istiqaməti, əsas məqsəd və vəzifələri onun materiallarının və nəticələrinin müəyyən praktik əhəmiyyətini şərtləndirir. Bu baxımdan hədisşünaslıq, islamşünaslıq və dinşünaslıq fənləri onların gələcəkdə monoqrafiya, dərslik, dərs vəsaitlərinin və elmi əsərlərin hazırlanması və yazılmasında mühum yer tutur.

ƏDƏBİYYAT

1. Çelebi, Hacı Xəlifə, h.1425\m.2004 "Kəşfüz-zünun", Daru ihyai turas əl-ərəbi, Lubnan-Beyrut, m.1941, [2 cilddə], 2054-səhifə, c.2, s.1698-1702; Abdullah Muhammed Habşî, "Camiüş-şüruh vəl-havaşi, Əl-Məcməus-səqafi-Əbu Dabi, 2176 səhifə, s.1713-1722).
2. Katip Çelebi, Mustafa ibn Abdullah, İstanbul, 1971, "Keşfuz-zunun", M.E.B., Yayınları, [2 cilddə], 2054-səhifə, c. 2, s.1701,1702).
3. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, 1333.m, ."Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-538\9491, Katib: Hacı Mustafa əfəndi)
4. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, 1333.m, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-538\9491, Katib:Hacı Mustafa əfəndi)
5. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, 990.h, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-373\9326-16854, Katib: Əfəndi Nəmir ibni Saleh
6. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, h.1177, 20-Şəvval, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, Nüsxə: C-102\9056, s.1, Katib: Əbdürrəhim bin Məhəmmədəmin əz-Zaxudi)
7. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, İNV-1971, "Məsabih-əs-sünnə", AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-763/9716

8. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, tarixsiz, “Məsabih-əs-sünnə”, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-608\9561-23460, giriş)
9. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, Tarixsiz, “Məsabih-əs-sünnə”, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-762/9715
10. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, Tarixsiz, “Məsabih-əs-sünnə”, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-536\9489-23841
11. Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, Tarixsiz, “Məsabih-əs-sünnə”, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: c-535\9488
12. Sancaklı, Saffet, Bursa, 1996, “Bağavi və Şerhu əs-sünnədəki Şərh Metodu”, Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü Temel İslâm Bilimleri Anabilim Dalı Hadis Bilim Dalı (Yayımlanmamış Doktora Tezi), 253 səhifə, s.48).
13. https://islamansiklopedisi.org.tr/serhus-sunne)

Гюлага Исмаилов

МЕСТО РУКОПИСНЫХ ЭКЗЕМПЛЯРОВ "МАСАБИХ-АС-СУННА" В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ АРАБОВЕДЕНИИ

РЕЗЮМЕ

Известно, что изучение рукописных произведений было в центре внимания испокон веков. Экземпляры древних рукописей являются неотъемлемой частью исследований с точки зрения источниковедения. Поэтому исламские ученые тщательно изучали и анализировали не только религиозные темы, но и рукописные экземпляры, для достижения успеха при представлении тем современникам. С другой стороны, изучение рукописей на арабском языке отражает их отношение к религии и ее проблемам для каждого периода. Изучение религии, особенно ислама, всегда строилось на древних арабоязычных рукописях. Даже сегодня возможности методов исследования и изучения религии для арабистов обширны. Хотелось бы затронуть этот вопрос посредством исследования рукописных произведений. Несомнен-

но, древние рукописи рассматриваются в качестве источника всех тем, считаясь подлинным наследием.

Работа Абу Мухаммада аль-Багави "Масабих ас-Сунна", имеющаяся в Институте рукописей имени Мухаммеда Физули НАНА, также имеет особое значение с точки зрения привлечения к исследованию. Несомненно, она является одной из наиболее важных работ имама аль-Багави. "Масабих ас-Сунна" состоит из хадисов, которые он отобрал, извлекая документы из надежных источников хадисов. Известный европейский востоковед Брокельман, говоря об огромном значении этой работы в мире науки, сказал, что именно работе "Масабих ас-Сунна" аль-Багави обязан своей славой в исламском мире (Санджаклы, 1996, 48).

Подобия этой работы, написанной аль-Багави путем объединения хадисов, собранных им из различных источников, мы также видим в истории хадисов в трудах "Джамиул-усуль" Ибн аль-Асира аль-Джазири (606 г. по Хиджре, 1209 г. от Р. Х.) и "Рияд ас-Салихин" Мухйиддина ан-Навави (676 г. по Хиджре, 1277 г. от Р. Х.). Кятиб Челеби (1067 г. по Хиджре, 1677 г. от Р. Х.) хвалил произведение: "Самое прекрасное из произведений, написанных в сборнике, является "Масабих ас-Сунна" аль-Багави. Потому что его компоновка великолепна. Хадисы упорядочены. Если бы кто-то другой попытался переставить какую-либо главу, он бы не нашел места более подходящего, чем найденное аль-Багави" (Кятиб Челеби, 1971, 1701-1702).

Как мы уже отмечали, работа аль-Багави под названием "Масабих ас-Сунна" получила большую известность в исламском мире. Данная работа увидела более 30 изданий с сокращениями и тахриджами, комментариями и сносками (Челеби (Хаджи Халифе) 1941 от Р. Х., 1698-1702). Тот факт, что она является одним из первых примеров перехода от периода классификации (классификация и упорядочение тем и значений) к периоду комплектования, повысило значение "Масабих ас-Сунна". Наиболее заметной особенностью произведения является полное стирание имени первого раввина в иснаде и разделение хадисов на два основных заголовка - сихах и хисан *(https://islamansiklopedisi.org.tr/serhus-sunne).*

Не случайно в глобальных масштабах рукописные произведения всегда были в центре особого внимания, к этому направлению были привлечены специальные исследователи, которые изучали и выпускали в свет рукописные эпохи.

Одним из факторов, еще больше усиливающих значение исследования, является большое значение исламских рукописей в библиотеках мира. Нет сомнений в том, что изучение рукописей необходимо для возрождения и распространения этого наследия.

Существует множество вопросов и знаний, которые можно правильно истолковать, вернувшись к первоисточникам и оригиналам книг. Этого можно достигнуть только путем их изучения и публикации.

Ключевые слова: *хадис, аль-Багави, Азербайджан, "Масабих ас-Сунна", ислам, вероисповедание, книга, Коран, сунна, арабоведение.*

Gulagha Ismayilov

PLACE OF MANUSCRIPTS OF "MASABIH AL-SUNNAH" IN MODERN AZERBAIJAN ARAB STUDIES

ABSTRACT

It is known that the study of manuscripts has always been in the spotlight from the past to the present. Samples of ancient manuscripts are an integral part of research from the point of view of source study. Therefore, in order to succeed in presenting topics during his lifetime to those people who lived with him in the same century, along with religious topics, Islamic scholars carefully studied and analyzed the manuscripts. On the other hand, the study of Arabic manuscripts in each period reflects their attitude towards religion and its problems. The study of religion, especially Islam, in all cases was based on ancient manuscripts in Arabic. And in modern times, the methods of research and study of religion are wide for Arab scholars. We would like to approach this issue by studying the manuscripts. Undoubtedly, ancient manuscripts are considered to be the true heritage and source of all themes.

The work of Imam Baghawi "Masabih al-Sunnah" at the Institute of Manuscripts named after M. Fuzuli of ANAS is also of particular importance in terms of involvement in research. One of the most important works of Imam Baghawi is the "Masabih al-Sunnah", which undoubtedly consists of hadiths selected from reliable sources of

hadiths. The famous European orientalist Brockelman, referring to the great importance of this work in the world of science, said that Baghawi's fame in the Islamic world is associated with his work "Masabih al-Sunnah" (Sanjakli, 1996, 48).

In the history of hadiths, we also see work of Ibn al-Athir al-Jazari "Jamiul-usul" (h. 606, g. 1209) and "Riyazu's- salihin" by an-Nawawi (h. 676, g. 1277), which are similar to this work, which Baghawi wrote, combining hadiths collected by him from various sources. Katib Chalabi (h. 1067, g. 1677) said: "The most beautiful of the works written in the form of a collection is Baghawi's "Masabih", because "It is beautifully composed. The hadiths were collected in a proper way. If someone else tried to change the location of any chapter, he would not have placed it in a more suitable place than Baghawi" (Katip Chalabi, 1971, 1701-1702).

As already noted, the work of Baghawi "Masabih al-Sunnah" gained great popularity in the Islamic world. This work was shortened and postponed, and more than 30 works were completed with comments and margins to it (Chalabi, Haji Khalifa, g. 1941, 1698-1702). The importance of "Masabih al-Sunnah" is one of the first examples of the transition from the period of classification (classification, ordering and sequencing of topics and meanings) to the period of collection. The most notable feature of the work is the complete removal of the name of the first rabbi in the isnad and the division of hadith into two main categories: sihah and hisan. *(https://islamansiklopedisi.org.tr/serhus-sunne).*

It is no coincidence that manuscripts have always been in the spotlight all over the world, special researchers have been involved in this field, and they have studied and published manuscripts for centuries.

One of the factors that heightens the importance of research is the importance of Islamic manuscripts in libraries around the world. Undoubtedly, the study of manuscripts is essential for the revival and dissemination of this heritage.

There are many questions and knowledge that can be correctly understood by going back to the original and authentic sources of the heritage books. This can only be achieved by researching and bringing to light the original and authentic sources.

Keywords: *hadith, Baghawi, Azerbaijan, "Masabih al-Sunnah", Islam, madhhab, book, Qur'an, Sunnah, Arabic studies*

Çapa imzalanmışdır: 06.07.2021.
Ölçü: 70x100 1/16. Çap vərəqi: 26,5. Sifariş: 075/21. Say: 500 ədəd.
Müqavilə qiyməti ilə.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Bakı, Az1122, H.Zərdabi 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az